İNQİLAB TƏLİMLƏRİ

İslam inqilabının Böyük Rəhbəri həzrət Ayətullah Seyid Əli Xameneinin İslam inqilabı haqda fikirləri

Tərtib edən: Əlirza Muxtarpur
Tərcümə edən: Əlirza Sərablı

İlahi inqilabın sözçüsü

Mən İrandan gəlirəm - müasir dövrün ən şöhrətli, eyni zamanda ən tanınmaz inqilabının vətənindən; Allahın dini əsasında qələbə çalan, böyük peyğəmbərlərin və islahatçıların yolunun, bütün bəşər tarixi uzunluğunda bir yolun davamı olan bir inqilabın vətənindən! Bu inqilabın güclü əsası və təməl düşüncəsi monoteist İslam dünyagörüşüdür. İnsanın və tarixin dərki, indiki, keçmiş və gələcək hadisələrin təhlili, təbiətin izahı, insanı öz varlığından xarici aləmlə - dünya ilə, insanlarla, əşyalarla bağlayan bütün bağların izahı, insanın öz varlığına dair dərki, xülasə, cəmiyyətin dəyər sistemini təşkil edən və onu ideal şəkildə idarə etməyə qadir olan hər bir şey bu ilahi dünyagörüşdən doğur.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 42-ci sessiyasında çıxışdan: 1987.

İnqilabın əsas xüsusiyyətləri

1. Xalq inqilabı olması

Bizim barəmizdə, inqilabımız, prinsiplərimiz və fikirlərimiz haqda həddən artıq qərəzli və cahil sözlər danışılmışdır. Bizim inqilabımızda adi inqilablarda mövcud olmayan bir neçə spesifik xüsusiyyət vardır. Mən həmin xüsusiyyətlərdən danışacaq və sonda mesajımızı deyəcəyəm.

Birincisi budur ki, bu inqilab hətta başlanğıcda da yüz faiz xalq inqilabı idi; nə silahlı bir partizan qrupunun inqilabı idi, nə siyasi-hərbi bir partiyanın, nə də inqilabçı və azadlıqsevər zabitlər qrupunun. Bu yalnız xalq inqilabı idi. Tamamilə silahsız bir xalq öz vücudu və inqilabçı şüarları ilə Tehranın və başqa yerlərin küçə və xiyabanlarını elə doldurdular ki, hökumət üçün heç bir yer qalmadı. Onlar həm bir-bir, həm də kollektiv şəkildə saraylardan, hökumət binalarından və sonra ölkədən çıxmağa məcbur oldular. Şah, Baş nazir, ordu rəhbərləri, nazirlər və digər yüksək məmurlardan hansı bacardısa, xalqdan qaçdı. Bu onların bir ildən artıq bir müddətdə özlərinin bütün siyasi, hərbi imkanlarından və polis qüvvələrindən istifadə edib xalqı dağıtmağa, evlərinə və iş yerlərinə qaytarmağa çalışmalarından sonra baş verdi. Bu müddətdə minlərlə insan hamının gözü önündə - küçədə, məsciddə, universitetdə və iş yerində öldürüldü, lakin xalqın fəallığı günbəgün artdı. Sonrakı aylarda rejimin qəddarlığı çoxaldı və qarşılığında xalqın izdihamı da artdı. Canından əlini üzmüş xalqın qəzəbi qarşısında dayana bilməyən rejim özünün ən böyük imtiyazını verməyə məcbur oldu: şah getdi. Bundan sonra isə ardıcıl və sürətli geriçəkilmələr başlandı. Hər bir sözü hər adama ruh, ayıqlıq və dərs verən böyük inqilab rəhbəri bütün güclərin sahibi olan Allah-Taalaya güvənərək, xalqın əzəmətli və sarsılmaz iradəsinə arxalanaraq inqilab hökumətini qurdu. Zalım şahın kabineti öz-özünə və başqa yolu olmadan kürsünü tərk edib qaçdı. Son səngərlər əsgər və zabitsiz qalan boş qarnizonlar idi.

Onlar da qaçmış və çoxu xalqa qoşulmuşdu. Son anlarda bir neçə qarnizon bir qədər müqavimət göstərdi, amma əbəs idi. Orada da xalq vardı və bu inqilabın möcüzəsi xalqın qələbəsindən ibarət idi. Yalnız qarnizonların süqutundan sonra xalq silah gördü, o zaman isə şah rejimi artıq süqut etmişdi. Bu silahlar inqilabın yeni ağacını qorumaq üçün işlədildi. Güclü və çox silahlı görünən və ən böyük güclər tərəfindən himayə olunan Pəhləvi rejimini məğlub edən, İslam Respublikası quruluşunu yaradan yeganə qüvvə xalq – gənclər, qocalar, qadınlar və kişilər idi. Onların silahı imanları, güclü iradələri, qanları idi və qan xəncərə qalib gəldi. Qanın xəncərə qələbəsi siyasəti belə məzlum müqavimət siyasətidir. Bizim rəhbərimiz inqilabımızın qələbəsindən öncə bunu elan etdi və bunun ilk möcüzəsi təpədən-dırnağa qədər silahlanmış, Amerika və Qərb tərəfindən tam himayə olunan rejim üzərində qələbə idi. Ondan sonra da elə qələbələr çalındı ki, bəziləri hətta şah rejimi üzərində qələbədən də böyük idi.

Bu, ən azı son bir əsrdə misli görünməyən təcrübə oldu. Həm istismar olunan ölkələr, həm də dünyanın istismarçı gücləri buna diqqət yetirsələr və bu haqda düşünsələr, yaxşı olar.

2. İslam inqilabı olması

İkincisi budur ki, bu inqilab dinə və İslama əsaslanırdı. Mübarizəsi dini inancdan qaynaqlanan, lakin inqilabın strukturunda bu imanın çox da, yaxud heç bir rolu olmayan inqilablar çoxdur. Bizim inqilabımız isə hər bir şeyini - məqsədlərini, prinsiplərini, hətta mübarizə üsullarını, eləcə də yeni quruluşun formasını və idarə tərzini də İslamdan götürdü. Bu, inqilaba möhtəşəm cəhətlər bəxş edir və onun qələbəsinə dair yeni tərif ortaya qoyur.

İslam belə əzəmətli inqilabçılıq və quruculuq potensialına sahib olduğuna görə ən azı 150 ildir müstəmləkəçi güclər və onların mürtəce, zəbun və rəzil muzdurları tərəfindən hücuma məruz qalır. Bundan əlavə, İslam əllidən artıq ölkə və bir milyard insan tərəfindən müqəddəs bir inanc və ilahi din sayılır. Ruhu və məzmunu İslamdan ibarət olan bir

inqilabın qələbəsi əslində həmin düşmənlərin hamısı üzərində və bu bir milyardın hamısı üçün qələbədir. Yüz milyonlarla müsəlman kişi və qadın onlarla ölkədə bizim inqilabımızın qələbə çaldığına görə zəfər hissi keçirdilər. Bu xüsusiyyət həmçinin xalqa, inqilabın rəhbərinə və idarəçilərinə geriçəkilmə, məğlubiyyət, zəiflik və qorxu yollarını bağlayır. Allah yolunda məğlubiyyət olmadığı üçün zəiflik, qorxu və geriçəkilmə də yoxdur.

3. Şərqə və Qərbə bağlı olmaması

Bu inqilabın üçüncü müstəsna xüsusiyyəti onun Şərqə, yaxud Qərbə bağlı olmamasıdır. Bu siyasət indi də bizim inqilabçı quruluşumuzun qəti siyasətidir. Bunun özü bizim fərdi və ictimai həyatımızın bütün sahələrində Allaha etiqadın və güvənin əlamətlərindən biridir. Bu gün bütün siyasət aləminə hakim təfəkkür budur ki, böyük güc qütblərindən birinə arxalanmadan müasir siyasətdə qalmaq mümkün deyil. Bunun güclü, yaxud zəifliyinə dair fikir ayrılığı olsa da, özünə etiraz yoxdur. Hətta düşüncədə güvənməyi və öhdəçi olmağı qəbul etməyənlər belə bunu əməldə vacib sayırlar.

Bizim inqilabımız belə bir şəraitdə yeni bir fəlsəfə ortaya qoydu və bu günədək ona sadiq qalır. Bizim inqilabımız sübut etdi ki, istismarçı gücləri özünə yaxın buraxmamaq, onların quldurluqlarını ciddiyə almamaq və onlara bac verməmək mümkündür; bu şərtlə ki, hər bir maddi gücdən daha güclü olan Allaha güvənəsən. Biz bu etiqad və bu yol üçün ağır bədəl ödəməyin lazım olduğunu bilirik və özümüzü buna hazırlamışıq. Qoy bu təcrübə xalqları həqiqi və sarsılmaz müstəqilliyə, sonda isə dünyanın böyük istismarçılarının tam inkarına yönəltsin. İndiki güc bölgüsü də bəşəriyyəti daha acı gələcəklə hədələyir.

Bizim inqilabımızda dördüncü müstəsna xüsusiyyət də var və o bu inqilabın əleyhinə aparılan misilsiz düşmənliklər və hücumlardır.

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 42-ci sessiyasında çıxışdan: 1987.

İlahi peyğəmbərlər nəslindən olan bir imam

İmamın şəxsiyyəti dünya rəhbərlərinin heç biri ilə müqayisəolunası deyil. Onu yalnız peyğəmbərlərlə, övliyalarla, məsumlarla müqayisə etmək olar. İmam onların şagirdi və ardıcılı idi və məhz buna görə dünyanın siyasi rəhbərləri ilə müqayisə olunmur. Biz dünyanın siyasi rəhbərlərini tanıyırıq, onların və xalqların mübarizə tarixini diqqətlə oxumuşuq. Həqiqətən heyfdir ki, onlara da rəhbər deyək, imama da. Əgər onlara rəhbər deyəsiyiksə, imam üçün başqa bir ad seçməliyik. O ümumiyyətlə peyğəmbərlər növündən və nəslindən idi. Allahın və Onun saleh bəndələrinin əzizi olan bu şəxsiyyətin təsviri həqiqətən çox müşküldür.

İslam inqilabı komitələrinin komandirlərinin və sıravi üzvlərinin beyət mərasimində çıxışdan: 1989.

İmamın pərəstişəlayiq xüsusiyyətləri

Həqiqətən əziz imamımız kimi misilsiz bir şəxsiyyətə və böyük insana ən seçilmiş insanlar, ən güclü beyin, ən saf və ən təmiz qəlb sahibləri təzim etməli, hörmət göstərməlidirlər. Zahiri vəzifəsinə və postuna görə hörmət olunan bir şəxslə şəxsiyyətinin, əzəmətinin, dərinliyinin və müxtəlif gözəlliklərinin hər biri böyük, güclü və düşüncəli insanları təzimə, hörmətə və pərəstişə vadar edən bir şəxs arasında fərq vardır. Bizim əziz imamımız belə insanlardan idi.

İmamın müxtəlif xüsusiyyətləri vardı: çox ağıllı, təvazökar, ayıq-sayıq, zirək, qətiyyətli, mehriban, səbirli və təqvalı idi. Heç bir şeyi ona tərsinə göstərmək mümkün deyildi. Polad iradəyə sahib idi və heç bir maneə onu hərəkətdən saxlaya bilmirdi. Çox rəhmli və ürəyiyumşaq insan idi. İstər özündə olmadığı və Allahla münacat etdiyi zaman, istər təbii şəkildə qəlbləri yumşaldan və mərhəmətə vadar edən hallarla rastlaşdığında nəfs istəkləri və maddi gözəlliklər onun təqvalı vücudunun uca zirvəsinə toxuna bilmirdi. O öz nəfsinin sultanı idi, istəkləri ona hakim olmurdu. Səbirli və dözümlü idi. Ən ağır hadisələr də onun vücudunun möhtəşəm okeanında tələtüm yarada bilmirdi.

İmamın ordudakı nümayəndəsinin, Müdafiə nazirinin, silahlı qüvvələrin nümunəvi komandir və əməkdaşlarının beyət mərasimində çıxışdan: 1989.

İmamın yolunun davam etməsi

Bizim inqilabımızda imam və ümmət amilinin rolu çox mühüm olmuşdur. Düşmənin təxribatlarını zərərsizləşdirməkdə və inqilabı qorumaqda siz xalq möhtəşəm rol oynamısınız. Yenicə səfər etmiş o əzizin yoxluğuna yanarkən onun yolunu eyni qüdrətlə və güclü iradə ilə davam etdirməliyik. Bu bir neçə gündə bizim xalqımızın əzadarlığı və keçirdiyi hisslər göstərdi ki, onun yolu davam edir.

Xuzistanın ərəb əşirətlərinin və Nəcəfabad əhalisinin beyət mərasimində çıxışdan: 1989.

Ən böyük təhlükə: yorulmaq və yolu itirmək

İnqilabın parlaq istedadlara ehtiyacı var. Biz bu ehtiyacı təmin etməyə çalışmalıyıq. Bu, yerinin boşluğunu bütün vücudumuzla hiss etdiyimiz böyük insanın vəsiyyətidir. Əgər inqilabın həmin sürətlə, həmin qüdrətlə və İslamın düzgün xəttindən sağa-sola yonəlmədən hərəkət etməsini istəyiriksə, xalqımızın və hətta bütün müsəlman xalqların arzularının uca zirvəsində parlayan məqsədlər həmişə gözlərimiz önündə olmalıdır. Bu məqsədləri həyata keçirmək üçün səyimizi artırmalı və problemlərdən qorxmamalıyıq.

Ən böyük təhlükə bu deyil ki, biz dayanaq, yaxud yorulaq. Ən böyük təhlükə təsvir olunmuş mənzərəni və tərif olunmuş məqsədləri itirib görməməyimizdir. Toz-dumanların bu məqsəd və amalların önünü tutmasına qoymayın.

Quruculuq cihadı üzvlərinin beyət mərasimində çıxışdan: 1989.

İmamın yolu - İran xalqının səadət yolu

Bilin ki, qurtuluş və səadətə nail olmaq, xəbis və hiyləgər düşmənlərə qələbə çalmaq, Allahın razılığını qazanmaq, İslamın və inqilabın müqəddəs məqsədlərinə çatmaq üçün əziz imamımızın həmişə İran xalqına etdiyi tövsiyələrinə əməl etmək lazımdır; yəni Allahla rabitəni qorumaq, Ona təvəkkül etmək, Allahın düşmənlərindən qorxmamaq, bütün imkanlarla İslam Respublikasını dəstəkləmək və qorumaq. İran xalqının yolu budur. Bütün xalq və məmurlar bütün imkanlardan istifadə edib bizim əziz imamımızın ən dəyərli yadigarı olan İslam Respublikasını qorumalı, himayə etməli və düşmənlərin qarşısında möhkəm dayanmalıdırlar. Bilsinlər ki, Allah onlarladır və düşmən özünün bütün hiylələri ilə birgə zəifdir. Bilsinlər ki, İran xalqının səadət yolu rəhbərimiz olan imamın vasitəsi ilə tanıdığımız, qədəm qoyduğumuz və irəlilədiyimiz yoldur.

Ölkənin müxtəlif şəhərlərinin əhalisinin beyət mərasimində çıxışdan: 1989.

İnqilabın ilahi mesajının cahanşümul olması

İran İslam İnqilabı əsl Məhəmməd (s) İslamının şəriəti üzərində qurulduğundan xüsusi bir sərhədlə, milliyyət və irqlə məhdud ola bilməz. Söhbət bundan getmir ki, İran xalqı, yaxud bu ölkənin məmurları dünyanın adi üsulları ilə inqilabı harasa və kiməsə ixrac etsinlər. Söhbət bundan gedir ki, müsəlmanların bir qrupu üçün İslam təfəkkürü, ilahi dərk və yeni baxış meydana çıxdıqda təbii olaraq bütün İslam dünyası öz imkanı və mövqeyi qədərincə o baxışdan və dərkdən istifadə edəcək.

Hegemonluğun təbliğat şəbəkələrinin İslam inqilabı əleyhinə zəhərli təbliğat aparması gözləniləndir. Çünki onların təbliğatı hiylə və yalan üzərində qurulmuşdur. Məsələ burasındadır ki, düzgün bir düşüncə, azad edən və oyadan bir təfəkkür İslama əsaslandıqda bütün İslam bölgələrində özünə tərəfdar, müştəri, sevən və istəyən tapır.

Mazandaran və İsfahan vilayətinin cümə imamlarının, ruhanilərinin və müxtəlif müsəlman ölkələrinin İranda elmlə məşğul olan dini alim və tələbələrinin beyət mərasimində çıxışdan: 1989.

Düşmənin köməkçiləri: qərəzlilər və aldanmışlar

Xalqın iki qrupu düşmənin təsirini asanlaşdırır. Birinci qrup qərəzlilər, İslam, inqilab, İslam Respublikası quruluşu, ruhanilik və İslam dəyərlərinin hakimiyyətinə müxalif olanlardır. Bunlar çox azdırlar, lakin təsirsiz deyillər. İkinci qrup isə qərəzli olmayan, lakin məlumatsız, avam və qərəzlilərə aldanmışlardır. İkinci qrupu məlumatlandırmaq lazımdır. Birinci qrupa qarşı isə ölkənin müxtəlif orqanları tədbir görürlər.

Bizi qəbul etməyən hər kəslə sərt rəftar etmirik. Bizim üsulumuz qüdrətlə, ağılla və əsəbilikdən uzaq rəftar etməkdir. Biz düzgün üsul və idarəçiliklə, insafı olarsa, düşməni dosta çevirməliyik. Düzdür, bəziləri qərəzli işlər görür və təxribat aparırlar. Təbii ki, İslam Respublikası quruluşu bunlara qarşı ciddi tədbir görəcək.

Mömin xalqın, xüsusən də gənclərin vəzifəsi əvvəla qərəzliləri tanımaq və onları xeyirxah insanlarla səhv salmamaq, ikincisi isə məlumatsız insanları məlumatlandırmaq, onlara yol göstərməkdir. Yüksək əhval-ruhiyyəsi, fəallığı və bacarığı olan siz gənclər daha böyük məsuliyyət hiss etməlisiniz. Xalqı maarifləndirmək, ayıq olmaq, hər hansı bir geyimdə və simada olan düşməni tanımaq bizim ən önəmli vəzifəmizdir.

Simnan, Kərəc, Şirvan, Quçan və Kazirun şəhərlərinin cümə imamlarının və müxtəlif təbəqələrinin, həmçinin Nişapur şəhərinin Bəsic üzvlərinin beyət mərasimində çıxışdan: 1989.

Fəhlələr - əmək və inqilab cəbhəsinin müdafiəçiləri

İran İslam İnqilabının səciyyələrindən biri budur ki, fəhlələr inqilaba qarşı özəl və müstəsna xüsusiyyətə malik idilər. İslam Respublikası quruluşunda fəhlə əsası bir olan iki cəbhədə həqiqətən yaddaqalan tarixi rol ifa etdi. Bu iki cəbhədən biri əmək və istehsal cəbhəsi, digəri isə inqilabı müdafiə cəbhəsi idi. Ötən on ildə əmək cəbhəsində ixlas, fədakarlıq və yorulmazlıq nümayiş etdirən inqilabçı və müsəlman fəhləmiz eynilə müharibə, yaxud inqilabı müdafiə cəbhəsində müqavimət göstərdiyi hisslə işləyirdi.

Ölkə fəhlələrinin minlərlə nümayəndəsinin beyət mərasimində çıxışından: 1989.

Bəsic - inqilabın güvəni

Bizim böyük məqsədləri olan inqilabımız Bəsic qüvvələrinə arxalanır. Əgər biz Bəsic və xalq qüvvələrini o iki qüvvədən ayırsaq, ordu və korpus inqilabı qlobal cəhətlərində himayə edə bilməzlər. İnqilabı müdafiənin əsas mehvəri Bəsicin çoxmilyonlu əzəmətli qüvvəsidir. Bəsic adi həyatda çoxmilyonlu xalq kütlələrinin bir hissəsidir, lakin koordinasiya olunmalı və daim təlimatlandırılmalıdır. Bir neçə aylıq təlimlə kifayətlənmək olmaz, onu təkrarlamaq lazımdır.

Məktəbdə, universitetdə, elmi hövzədə, zavodda, tarlada və idarədə öz işi ilə məşğul olan Bəsic üzvü bilməli və fəxr etməlidir ki, əzəmətli xalq ordusunun - inqilabçı ordunun üzvüdür. Bəsic üzvü olan hər bir qrup inqilaba xidmət baxımından digərlərindən üstün və öndədir. Çünki nə zaman quruluşu bir təhlükə təhdid etsə, Bəsic üzvünün sinəsi inqilaba sipər olacaq. Odur ki, bu işə qoşulan hər bir kəs cəmiyyətin ən dəyərli üzvlərindəndir və bu səadətlə fəxr etməlidir. Mən də Bəsic üzvü olduğuma görə fəxr edirəm. Bir Bəsic üzvü kimi inqilabın harada mənə ehtiyacı olsa, xidmət göstərməyə hazıram. Hamımız bununla fəxr etməliyik. Çünki inqilabın ən önəmli işini Bəsic görür.

Nümunəvi Bəsic üzvlərinin beyət mərasimində çıxışdan: 1989.

İnqilabı müdafiə - İslamı və Quranı müdafiə

İnqilabı qorumaq İslam Respublikası quruluşunun yaşaması üçün bizim birinci işimizdir. Buna görə imam dəfələrlə buyururdu: "İslam quruluşunu qorumaq ən vacib əməldir". İnqilab İslam Respublikası quruluşundan ayrı deyil. Kimsə bunların bir-birindən ayrı olduğunu güman etməsin. İnqilabın təcəssümü bütün dünya quldurlarının əl-ələ verib məhv etməyə çalışdığı İslam Respublikası quruluşudur.

Bu gün də Amerika hegemonluğunun, böyük beynəlxalq oliqarxların, Qüdsü işğal etmiş rejimin və mürtəce dövlətlərin ədavəti və düşmənliyi davam edir, ona qarşı çıxırlar. Bizim inqilabımız qələbə çalanda İslam Respublikası quruluşu doğuldu. Deməli, bu quruluşu müdafiə etmək İran xalqının birinci, ən müqəddəs və ən vacib işidir. Bəsic üzvü sinəsini sipər edib əlində olan hər bir vasitə ilə inqilabı müdafiə işini öhdəsinə götürən şəxsdir. Çünki o əslində İslamı və Quranı müdafiə edir.

Nümunəvi Bəsic üzvlərinin beyət mərasimində çıxışdan: 1989.

İnqilabın daxili və qlobal nailiyyətləri

Bizim inqilabımızda daxili və xarici cəhətlər vardı. Daxili cəhətdə fədakar İran xalqı Qərbin və hegemon güclərin fəsada bulaşmış mədəniyyətinin yaratdığı həyatı özünün arzuladığı İslam həyatı ilə əvəzlədi. Bu cəhətdən çox gözəçarpan inkişaflar əldə edilmişdir. Bu gün İran xalqının ruhiyyəsi və həyat reallıqları inqilabın qələbəsindən öncə mövcud olan və müstəmləkə əllərinin işlədiyi zamanla müqayisədə olduqca böyük fərqlərə malikdir. Əlbəttə, demək istəmirik ki, bu gün bizim həyatımız tamamilə İslam həyatıdır, lakin düşünürük ki, keçmişlə müqayisədə İslam həyatına dəfələrlə yaxınlaşmışıq və yenə də yaxınlaşmağa çalışmalıyıq.

Gözəl İslam həyatı dünya və axirət səadətindən, maddi rifahdan və mənəvi inkişafdan ibarətdir. Bizim inqilabımız ölkədə bu hərəkəti yaratdı, böyük rəhbərimizin qüdrətli və ilahi əli onu inkişaf etdirdi. Allaha şükür olsun ki, biz bu gün bu cəhətdən dünyada nümunə xalqıq.

İnqilabın xarici cəhətinin əhəmiyyəti daxili cəhətdən az deyil. Xarici cəhətdə bizim inqilabımız müsəlman xalqları bir-biri ilə tanış, bir-birinə qayğıkeş edə və sevdirə bildi. Müstəmləkə müsəlman ölkələri bir-birindən ayırmaq, bir-birinə qarşı çevirmək, farsı ərəbin, hər ikisini türkün, hər üçünü pakistanlının və hamısını digər müsəlman xalqların qarşısında qoymaq üçün uzun illər işlədi. Müstəmləkə bu işlə ölkə və xalqlar arasında coğrafi, irqi və milli sərhədlər yaratmaq məqsədi güdürdü. Bu gün dünyada millətçilik və irqçilik bayrağı ucaldan və müstəmləkəçilərin aləti olan bəzi şah və prezidentlər əslində həmin müstəmləkə xəttini və üsulunu davam etdirirlər.

Bizim inqlabımız xalqları bir-biri ilə tanış etdi, bir-birinə yaxınlaşdırdı. Bu gün müsəlman ölkələr və xalqlar İran inqilabının sayəsində özlərində müsəlmanlıq hissinin baş qaldırdığını duyurlar. Ərəb xalqların etiqad və vicdan azadlıqları təmin edilsə, özlərinin ərəb olmalarından öncə müsəlman olmaları ilə fəxr edərlər. Hindistan

yarımadasının, Afrikanın və Asiyanın müsəlman xalqları da müsəlman olduqlarına görə fəxr edirlər.

İslam dini inqilabın sayəsində bir dəyər formasına düşdü və müsəlmanlar İslam hissi ilə bir-birinə yaxınlaşdılar. Digər tərəfdən, İslam dünyasının düşmənləri - yəni beynəlxalq hegemonluq, təcavüzkar Şərq və Qərb, bütün vücudu ilə İslamla müxalif olan işğalçı və soyğunçu Amerika İslam birliyindən və müsəlman xalqların bir-birinə yaxınlaşmasından qorxuya düşmüşlər.

Bu gün imama matəm saxlayan bizlər bu iki cəhəti çox ciddi şəkildə diqqətdə saxlamalıyıq. Əgər Allah eləməmiş, imamın yolu və vəsiyyəti unudulsa, - inşallah bu heç zaman unudulmayacaq – onun böyük zəhmətlərinin nəticələri məhv olacaq.

Bu gün inqilabın hər iki cəhəti bizim üçün önəmlidir. Daxili cəhətdə xalqın bütün təbəqələri, məmurlar, böyük alimlər, müəllimlər, natiqlər, yazıçılar, qurucular, proqram hazırlayanlar və strateqlər çalışıb cəmiyyəti İslam həyatına doğru aparmalı və amallara daha da yaxınlaşdırmalıdırlar. İnqilabın xarici cəhətində də bütün müsəlman xalqlar, xüsusən din alimləri, ziyalılar və nüfuzlu şəxslər çalışıb yaranmış birliyi, yaxınlığı və tanışlığı qoruyub gücləndirsinlər.

İlam və Fars vilayətlərinin müxtəlif təbəqələrinin və hövzənin bir qrup pakistanlı tələbəsinin beyət mərasimində çıxışdan: 1989.

İnqilabın qələbəsinin sirri: İslama qayıdış

Dünyada baş vermiş möhtəşəm yenilikdə İslama imanın rolu birinci dərəcəlidir. Biz İslam üçün çalışdığımıza görə Allah-Taala da bizə yardım edir. İran xalqı Allaha, İslama və Qurana iman bəslədiyindən dünyanın digər xalqları da ona hörmət bəsləyir. O əziz rəhbərin qəlbi doğruçu, ixlaslı və aydın iman nuru ilə işıqlandığından insanların qəlbində özünə belə yer açdı, onların beynində və ruhunda dərin iz buraxdı, Allah bu dövrün ən böyük işlərini görə bilmək üçün ona güc və qüvvə bəxş etdi.

Bizim kəşf etdiyimiz və inqilabın qələbəsində əsas amil bildiyimiz sirri bizim düşmənlərimiz - yəni hegemonluq, dünya quldurları, güc və pul sahibləri, asılı və muzdur mürtəcelər də kəşf etmişlər. Onlar İran xalqının əzəmət və qələbəsinin əsas səbəbini anlamış, eynilə erkən İslam çağında və əziz Peyğəmbərin (s) dövründə olduğu kimi, bütün qüvvələrini xalqın imanını vurmağa səfərbər etmişlər. Buna əsasən, düşmənliyin əsas səbəbi imandır. Hegemonluq anlamışdır ki, bu xalq iman sayəsində birləşdi, öz rəhbərini seçdi və dünyanın ən böyük güclərindən qorxmadı. Onlar anlamışlar ki, bizim bütün uğur və inkişaflarımız imanın sayəsində əldə olunmuşdur. Odur ki, bizim imanımıza və İslamımıza düşmən oldular, özlərinin informasiya və siyasət üsulları ilə İslamın və inqilabın həqiqi simasını gözdən salmağa çalışdılar. Onlar bizi fundamentalist adlandırmaqla bizə söyüş verdiklərini düşünürlər, halbuki bu bizi tərifləməkdir.

Biz İslamın təməllərinə qayıtdığımıza görə fəxr edirik. Bizim gücümüzün sirri budur. Bu bir neçə ildə beynəlxalq hegemonluğun bütün təbliğatı bizim xalqımızın İslam inancını aşağılamaq üzərində mərkəzləşmişdir. Bizim xalqımız hər hansı bir şəkildə İslamı və İslam inancını təhqir edən şəxslərin günahından keçməyəcək. İslam və İslam inancı bizim şərəf və qələbə amilimizdir. O bizim dünya və axirətimizi islah edəcək.

Doğruçu və düzgün İslam inancı ilə hərəkət edən bir xalq iqtidara, asayişə və maddi rifaha qovuşacaq və heç kəs onu bir şeyə məcbur edə bilməyəcək. Biz Allahın lütfü ilə və xalqımızın güclü imanı sayəsində dünyanın bu bir parçasında elə gözəl, azad, rahat və imkanlı bir cəmiyyət quracağıq ki, bütün xalqlara dərs olsun və inqilab düşüncəsinin ixracı ilə nəticələnsin. İndiyə qədər Allahın mərhəməti bizim xalqımıza şamil olmuşdur və bundan sonra da olacaqdır.

İslama iman və Allaha etiqad sayəsində xalqın müxtəlif təbəqələrində yaranmış söz birliyini ilahi nemət saymalı, onun qədrini bilməli və onu qorumalıyıq. Bu gün İran xalqının əzəməti həmin imana görədir. Hətta bu xalqın düşmənləri də qəbul və etiraf edirlər ki, İran xalqı şücaətli, azadlıqsevər, güclü və məcburedilməz xalqdır. Qəlblərimizdə bu imanı günbəgün gücləndirməyə çalışaq. Xalqa ilahi müjdələr verən və xalqın müəllimləri olan möhtərəm din alimləri, ruhanilər, natiqlər, vaizlər və dini yazarlar xalqın imanını gücləndirməyə çalışmalıdırlar.

Allah-Taalanın Quranda vəd etdiyi kimi, güclü İslam inancı olduğu təqdirdə bu xalqı və inqilabı heç bir təhlükə təhdid etməyəcək və heç bir güc İslam Respublikasına və İranın möhtəşəm inqilabına ən kiçik zərər belə yetirə bilməyəcək.

Kermanşah vilayətinin, eləcə də Rəşt, Ərak, Sərbənd, Firdovs, Təbəs, Xansar, Bidoxt, Günabad və Cuybar şəhərlərinin müxtəlif təbəqələrinin beyət mərasimində çıxışdan: 1989.

Hegemonluğun inqilaba qarşı güclü kini

Beynəlxalq hegemonluq İslama və inqilaba qarşı güclü kin bəsləyir. Bir xalq öz prinsiplərindən və dinindən əl çəkib təslim olmayınca onlar razı olmayacaqlar. Allah-Taala müsəlmanlara buyurur: "Sən yəhudi və xaçpərəstlərin millətlərinə (dinlərinə) tabe olmayınca onlar səndən razı qalmayacaqlar"[1]. Hegemonluğun kin və ədavəti bizim xalqımızın etiqadlarına, istiqlalsevərliyinə, "nə şərqçi, nə qərbçi" şüarına və İslama güclü bağlılığına görədir. Hegemonluğun ədavəti bitən deyil. Onun xalqımız əleyhinə güclü kin bəsləməsinə rəğmən, ümidvarıq ki, İran xalqı Allahın lütfü ilə bütün iqtisadi, siyasi və mədəni sahələrdə müqəddəs məqsədlərinə çatıb düşməni yerində oturda biləcək.

Zəncan vilayətinin ruhanilərinin, məmurlarının və əhalisinin, eləcə də Nəhavənd, Kaşmər, Bocnurd, Əsfərayin, Torqəbə və Çinaran, İqlid, Bəm, Məlayir və Dehbid şəhərlərinin müxtəlif təbəqələrinin beyət mərasimində çıxışdan: 1989.

[1] Bəqərə/120.

İmama sevginin Allah lütfü olması

Allaha şükür olsun ki, İslam Respublikasının güclü dayaqları vardır. Bu respublikanın ən mühüm dayağı və bu binanın ən möhkəm dirəyi siz xalqsınız. Hansı hökumətdə sizin möhkəmliyiniz, iradəniz, ayıqlığınız və hazırlığınız olsa, hər bir təhlükədən qorunar. Təbii ki, bu amil asan əldə olunmur. Əgər quruluş güclü bir etiqad və doğruçu iman əsasında qurulmasa, xalq quruluşa belə könül verməz. Xalqın sevgisini qazanmaq insan işi deyil.

Sizin imama sevginizi onun özü yaratmamışdı, Allah yaratmışdı. Sizin birliyiniz, həmrəyliyiniz, məhəbbətiniz, səmimiliyiniz, müqavimətiniz, yekdilliyiniz və göstərdiyiniz qətiyyətli fəallıq Allahdan başqa bir kəsin işi deyil. Heç kəs deyə bilməz ki, bunu mən etdim. Allahın Peyğəmbəri (s) də belə işlər görə bilməzdi. Allah-Taala Peyğəmbərinə (s) buyurur: "Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi"[1].

Hərəkatın zirvə dövründə də işi görən Allah idi, əziz imamımızın səmərəli həyatının onillik parlaq dövründə də, bu gün də. Allah bu xalqladır. Əgər siz xalqın ixlası və fədakarlığı olmasaydı, Allah sizi belə himayə etməzdi. Bu, imanın və saleh əməlin nəticəsidir. Harada iman və saleh əməl olsa, Allahın lütfü də olar: "Kim Allah üçün çalışsa, Allah da onun üçün çalışar"[2]. Bunlar yalan deyil, varlıq aləminin həqiqətləridir. Bir xalq özünü Allaha və ilahi məqsədlərə həsr etdikdə Allah da təbiətin bütün qüvvələrini o xalqın ixtiyarına buraxır və Öz lütfünü onlara şamil edir.

Qum, Rəfsəncan və Kəhnuc şəhərlərinin müxtəlif təbəqələrinin beyət mərasimində çıxışdan: 1989.

---

[1] Ənfal/63.

[2] "Bihar əl-ənvar", c. 85, səh: 319.

Hegemon qüvvələrin İslamla tarixi düşmənliyi

Biz əsl İslamın bayraqdarı olan əziz imamın arxasınca həqiqi İslam şüarları verdiyimiz gün düşmənlərin və böyük güclərin önümüzdə duracağını bilirdik. İslamın erkən çağında da belə olmuşdur. Yəhudi, münafiq, kafir və müşriklər Peyğəmbər (s) şəhərinin ətrafını mühasirəyə alıb Əhzab döyüşünü başlatdıqda həqiqi möminlər dedilər: "Bu, Allahın və Rəsulunun bizə vəd etdiyidir"[1]. Bu yeni bir şey deyil, Allah və Onun rəsulu (s) bizə demişdilər ki, pislər, quldurlar və azğınlar sizin əleyhinizə əlbir olacaqlar. Buna əsasən, onlar ilahi vədin doğruluğunu gördüklərindən imanları gücləndi.

Fars və Hürmüzqan vilayətlərinin, Qəzvin, Takistan, Əbhər, Şahinşəhr, Sari, Kiyasər, Firidunkənar və Behşəhr şəhərlərinin ruhanilərinin, məmurlarının, müxtəlif təbəqələrinin və İslam İnqilabının Mühafizəçiləri Korpusunun beşinci Aşura diviziyasının beyət mərasimində çıxışdan: 1989.

[1] Əhzab/22.

İnqilabın ən mühüm mesajlarından biri: İslam ümmətinin birliyi

İran İslam İnqilabında və ümmət imamının yaratdığı əzəmətli hərəkətdə əsas məsələlərdən biri böyük İslam ümmətinə, coğrafi, irqi və dil fərqlərinə rəğmən, dünya müsəlmanları arasında güclü və möhkəm dostluğa əhəmiyyətli yanaşmaqdır. Bəlkə də bütün dünya müsəlmanları üçün bir neçə əsas məsələdən biri budur.

Müstəmləkənin Şərq və İslam ölkələrinə girməsində məqsədlərdən biri də müsəlmanlar arasında ayrılıq salmaq idi. İslam aləmində müsəlman qardaşlar arasında ayrılıq yaratmaq üçün millətçi hissləri qabartmaqdan tutmuş firqə ixtilaflarını yaratmağa və gücləndirməyə qədər müxtəlif yollardan istifadə etdilər. Heç şübhəsiz, bu işdə müstəmləkənin aləti olan azğın hökumətlərin rolu misilsiz və çox böyük olmuşdur.

Biz bu gün bütün dünyada təxminən birmilyardlıq bir toplumu təşkil edirik. Bugünkü dünyanın ehtiyac duyduğu əsas sərvətlər bu strateji və həssas bölgələrdədir. Lakin eyni zamanda dünya müsəlmanları əksər ölkələrdə - istər azlıqda olduqları ölkələrdə, istərsə də xalqın böyük əksəriyyətini təşkil etdikləri ölkələrdə ictimai, siyasi və iqtisadi baxımdan xoşagəlməz durumda yaşayırlar.

İslam və şərafətli Quran ayələri isə öz ardıcıllarını müxtəlif bəşəri keyfiyyətlərə - elmə, əxlaqi dəyərlərə, ictimai ədalətə, başucalığına, qüdrətə, birliyə və zor qarşısında təslim olmamağa sövq edir. Aydın şəkildə anlamaq olar ki, İslam dünyasında və bütün dünyada müsəlmanların indiki vəziyyəti təbii, yaxud təsadüfi bir vəziyyət deyil. Əslində müsəlmanları düşünülmüş şəkildə bu vəziyyətə salmışlar.

İranda bizim böyük və əzəmətli imamımızın rəhbərliyi ilə başlayan İslam hərəkatının ilk günündən onun ən əsas məqsədlərindən biri dünya müsəlmanlarının birliyi, zalım və təcavüzkar güclərin əllərinin müsəlmanlar ölkələrindən kəsilməsi olmuşdur. Bu, hələ də bizim inqilabımızın mesajıdır.

İslam İnqilabının Böyük Rəhbərinin vəfatının qırx mərasimində iştirak edən xarici qonaqların, Məşhəd əhalisinin müxtəlif təbəqələrinin və Xuzistan vilayətinin bəzi əşirətlərinin beyət mərasimində çıxışdan: 1989.

Quran ayələrinin imamın həyatında və hərəkatında təcəssüm olunması

Uca insan və pak müsəlman olan imamımızın şəxsiyyətini təsvir etmək üçün Qurana müraciət etməkdən və bunu Allahın saleh bəndələrini vəsf edən ayələrdə axtarmaqdan yaxşı yol yoxdur.

O, möminləri ilahi vilayətə qoşan cihad və hicrətlə "İman gətirib hicrət edənlər, Allah yolunda malları və canları ilə cihad edənlər"[1] ayəsinə nümunə oldu. O, Allah yolunda təhlükəyə atılmaqla və canından qorxmamaqla Allahın "İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq üçün öz canlarını fəda edərlər"[2] deyə vəsf etdiyi insanların zümrəsinə qoşuldu. O, Allah yolunda tarixi qiyamı, ədalətin bərqərar edilməsi, məzlumların zülm və ayrıseçkilikdən qurtulması naminə misilsiz səyi ilə "Allah yolunda möhkəm olun"[3] və "Ədalətdən möhkəm yapışanlardan olun"[4] nidasına fəxrlə cavab verdi. O, müşriklərə və inadkar kafirlərə qarşı qəzəb və nifrəti, dünya müsəlmanlarına qarşı isə sevgi və mərhəməti ilə "Kafirlərə qarşı sərt, bir-birinə mehriban"[5] ayəsinin kamil nümunəsi oldu. O, ixlaslı münacatı və ibadəti ilə "Ola bilsin ki, Rəbbin səni bəyənilib təriflənən bir məqama ucaltsın"[6] ayəsinə şamil oldu. O, yaxşı işlərə dəvət edən, pis işlərdən çəkindirən və Allah yolunda mücahd idi. O, haqqa məhəbbət və haqda fəna ilə uyğun olmayan hər bir bağı qırmaqla "Allah onlardan, onlar da Allahdan razıdırlar. Onlar Allahın dəstəsidirlər. Bilin ki, məhz Allahın dəstəsi nicat tapanlardır"[7] ayəsinin nümunəsinə çevrildi.

O, günlərinin, saatlarının və anlarının diqqətlə keçdiyi ömrü ilə ixlaslı, təqvalı və saleh insanları vəsf edən yüzlərlə Quran ayəsini

---

[1] Ənfal/72.
[2] Bəqərə/207.
[3] Maidə/8.
[4] Nisa/135.
[5] Fəth/29.
[6] İsra/79.
[7] Mücadilə/22.

təcəssüm etdirib, real nümunəsini yaratdı. O, İslam cəmiyyəti qurmaqla Quranı yalnız cəmiyyətdə yox, hətta öz daxilində və həyatında da reallaşdırdı.

O, Musanın (ə) əsası və parlayan ağ əli, Mustafanın (s) nitqi və məntiqi ilə məzlumların xilasına qalxan, dövrün fironlarının taxt-tacını titrədən və məzlumların qəlbinə ümid işığı saçan Ruhullah - Allah ruhu idi. O, insanlara hörmət, möminlərə başucalığı, müsəlmanlara qüvvə və qüdrət, maddi və ruhsuz dünyaya mənəviyyat, İslam dünyasına hərəkət, Allah yolunun mübariz və mücahidlərinə cəsarət və şücaət verdi.

O, bütləri qırdı və şirk inamlarını məhv etdi. O hamıya başa saldı ki, kamil insan olmaq, Əli (ə) kimi yaşamaq və məsumluq məqamının yaxınlığına qədər getmək əfsanə deyil. O, xalqlara da anlatdı ki, güclənmək, əsarət zəncirlərini qırmaq və istismarçılarla vuruşmaq mümkündür. Bəsirət sahibləri haqqa yaxınlıq işığını onun nurlu çöhrəsində gördülər. Onun həyatında və ölümündə nazil olan ilahi neməti isə hamı daddı. Və onun bu duası qəbul olundu: "Ey Rəbbim! ömrüm boyu Sənin yaxşılığını gördüm. Ölüm zamanı da yaxşılığını məndən əsirgəmə!"[1]

O öz vəfatı ilə başqa bir inqilab etdi, cənazəsi ətrafına on milyon qüssəli insan topladı və İslam dünyasında yüz milyonlarla insanı matəmə qərq etdi. Öz sağlığında firon taxtlarını titrətdiyi kimi, ölümü ilə də düşmənlərin gözündən yuxunu və xam xəyalı apardı.

Bundan sonra dünya Böyük Xomeyninin hər gün daha da şöhrətlənməsinin şahidi olacaq. Onun əkdiyi ağac və səpdiyi toxum Allahın buyurduğu gözəl sözdür: "Kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər"[2].

Həzrət İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə İran xalqına müraciətdən: 1989.

---

[1] "Məfatih əl-cinan", Şəban münacatı.

[2] İbrahim/24-25.

İmamın iki böyük əməli və nailiyyəti

Onun barəsində çox danışılmış, çoxlu sözlər deyilmişdir. Amma mənim fikrimcə, dünya analitiklərinin Böyük İmamı düzgün tanımalarına hələ çox var. Tarix boyu peyğəmbər və övliyalardan sonra onun kimi əzəmətli şəxsiyyətlər çox nadir hallarda meydana çıxırlar. Onlar böyük işlər görür, ildırım kimi parlayır və hər tərəfi işıqlandırıb gedirlər.

Bizim böyük imamımız öz böyüklüyünə uyğun olan böyük işlər gördü. Mən bu gün onların bəzisini sizə xatırladacağam. Şübhəsiz, araşdırmaçı və mütəfəkkirlər ümmət imamının böyük işlərinin siyahısını yazmaq istəsələr, bu gün mənim saydıqlarımdan dəfələrlə çox olar.

1. İslamı dirçəltmək

Onun ilk böyük işi İslamı dirçəltməsi idi. İki yüz ildir müstəmləkə mərkəzləri İslamı tamamilə unutdurmağa çalışırlar. İngiltərənin baş nazirlərindən biri dünyanın müstəmləkəçi siyasilərinin iclasında demişdi ki, biz müsəlman ölkələrində İslamı təcrid etməliyik. Ondan öncə və sonra da İslamı birinci növbədə ictimai həyatdan və ikinci növbədə insanların zehnindən və fərdi əməlindən çıxarmaq üçün çoxlu pullar xərcləmişlər. Onlar bilirdilər ki, bu din böyük güclərin və hegemonluğun talançılığına ən böyük maneədir. Bizim imamımız İslamı yenidən dirçəltdi, onu insanların düşüncəsinə, əməlinə və dünyanın siyasi səhnəsinə qaytardı.

2. Müsəlmanların başucalığı duyması

Onun ikinci böyük işi müsəlmanlara başucalığı ruhunu qaytarması idi. İslam sırf nəzəri məsələlərdə, təhlillərdə, universitetlərdə, cəmiyyətdə və xalqın həyatında ortaya qoyulmadı, bizim imamımızın hərəkatının təsirindən müsəlmanlar dünyanın hər bir yerində başucalığı hiss etdilər.

Müsəlmanların azlıqda olduğu böyük bir ölkədən olan bir müsəlman mənə deyirdi ki, İslam inqilabından qabaq özlərinin müsəlman olmalarını heç zaman bildirmirdilər. Müsəlman ailələr öz uşaqlarına müsəlman adlar qoysalar da, o adı adam içində söyləmir, buna xəcalət çəkir və həmin ölkənin adətinə uyğun yerli adlardan istifadə edirdilər. O deyirdi ki, sizin inqilabınızdan sonra bizim xalqımız fəxrlə özünün müsəlman adını deyir, onlardan kim olduqlarını soruşanda birinci növbədə fəxrlə müsəlman adlarını söyləyirlər.

Deməli, imamın gördüyü böyük işə görə müsəlmanlar dünyanın hər bir yerində başucalığı hiss edir, özlərinin müsəlman olmaları ilə və İslamla öyünürlər.

3. İslam ümməti anlayışının dərki

Onun üçüncü böyük işi müsəlmanlara İslam ümməti anlayışını dərk etmək bacarığı verməsi idi. Bundan qabaq müsəlmanlar dünyanın harasında olsaydılar, onlar üçün İslam ümməti adlı bir şeyin mənası yox idi və ümumiyyətlə ciddi sayılmırdı. Bu gün Uzaq Şərqdən Afrikanın ürəyinə, bütün Orta Şərqə, Avropaya və Amerikaya qədər hər yerdə müsəlmanlar İslam ümməti adlı böyük bir beynəlxalq toplumun hissələri olduqlarını bilirlər. İmam İslam ümmətinə qarşı məsuliyyət hissi yaratdı və bu, hegemonluğun qarşısında müsəlman cəmiyyətlərini müdafiə etmək üçün böyük silahdır.

4. Azğın və asılı rejimin məhvi

Onun dördüncü böyük işi regionun və dünyanın ən mürtəce, ən çirkin və ən asılı rejimlərindən birini məhv etməsi idi. İranda şah hökumətinin devrilməsi heç kimin təsəvvür etmədiyi ən böyük uğurlardan biridir. İran Fars körfəzi regionunda və Orta Şərqdə müstəmləkənin ən mühüm qalası sayılırdı. Bu qala bizim imamımızın əli ilə uçuruldu.

5. İslam hökuməti qurmaq

Onun beşinci işi İslama əsaslanan bir hökumət qurması idi. Bu, müsəlmanların və qeyri-müsəlmanların təsəvvür belə etmədiyi bir şey, sadəlövh müsəlmanların da heç zaman güman etmədiyi və gözləmədiyi şirin yuxu idi. İmam bu əfsanəvi xəyala möcüzə həddində reallıq donu geyindirdi.

6. Dünyada İslam hərəkatını dirçəltmək

Onun altıncı işi dünyada İslam hərəkatı yaratması idi. İslam inqilabından öncə bir çox ölkələrdə, o cümlədən müsəlman ölkələrində qruplar, gənclər, narazılar və azadlıqsevərlər solçu ideologiyalarla meydana atılırdılar. İslam inqilabından sonra isə azadlıq hərəkatlarının təməli və əsası İslam oldu. Bu gün geniş İslam dünyasının hər hansı bir nöqtəsində xalq, yaxud qruplar azadlıq və hegemonluqla mübarizə naminə hərəkət edərkən İslam təfəkkürünə əsaslanır və ümid bəsləyirlər.

7. Şiə fiqhinin yeni cəhətlərinin izahı

Onun yeddinci böyük işi şiə fiqhində yeni baxış yaratması idi. Bizim fiqhimizin metodikasının çox güclü təməlləri olmuşdur və var. Şiə fiqhinin metodikası ən güclü fiqh metodikalarından biridir, çox güclü əsaslara, qayda və prinsiplərə söykənir. Əziz imamımız bu güclü fiqhə geniş miqyasda dünya və hökumət baxışı ilə yanaşdı və fiqhin aydın olmayan cəhətlərini açdı.

8. Əxlaqlı və zahid şəkildə rəhbərlik etməyin mümkünlüyünü göstərmək

Onun səkkizinci işi hakimlərin fərdi əxlaqa dair yanlış inamlarını puç etməsi idi. Cəmiyyətin başında duranların özəl xarakterlərə sahib olması dünyada qəbul olunmuş məsələdir. Dünya xalqları qəbul etmişlər ki, təkəbbürlülük, lüks həyat tərzi, israfçılıq, dəbdəbə, xudpəsəndlik, eqoistlik və bu kimi xüsusiyyətlər hökumət başçılarının səciyyələrindəndir. Hətta inqilabçı ölkələrdə dünənə qədər çadırlarda

yaşayan, daxmalarda gizlənən inqilabçılar da hakimiyyətə gələn kimi vəziyyətləri və xarakterləri dəyişir, dünyanın digər şah və prezidentləri kimi yaşamağa başlayırlar. Biz bunu yaxından görmüşük. Xalq üçün də təəccüblü deyil.

Bizim imamımız bu yanlış ənənəni dəyişdirdi və göstərdi ki, bir xalqın və dünyanın digər müsəlmanlarının sevimli rəhbəri zahid şəkildə yaşaya, təmtəraqlı saraylar əvəzinə bir hüseyniyyədə görüşlər keçirə və xalqın qarşısına peyğəmbərlərin geyimi, dili və əxlaqı ilə çıxa bilər.

Əgər hakim və başçıların qəlbləri həqiqət nuru ilə işıqlanmış olsa, dəbdəbə, israfçılıq, artıq xərclər çəkmək, xudpəsəndlik, təkəbbürlülük və hegemonluq onların qəti xüsusiyyətlərindən hesab olunmaz. O həzrətin böyük möcüzələrindən biri bu idi ki, həm öz həyatında, həm də yaratdığı quruluşda həqiqət nuru parlayırdı.

9. Milli qürur və özünəinam ruhiyyəsi yaratmaq

Onun doqquzuncu işi İran xalqında qürur və özünəinam ruhiyyəsi yaratması idi. Əziz qardaşlar! Avtoritar və monarxist hökumətlər uzun illər bizim xalqımızı zəif, məzlum və başıqapazlı bir xalq formasına salmışdılar. Halbuki bu xalq parlaq istedadlara və çox dəyərli olan ümumi xislətlərə malikdir və İslamdan sonrakı tarix boyu böyük elmi və siyasi nailiyyətləri vardır.

Xarici qüvvələr - bir müddət ingilislər, bir müddət ruslar və digər Avropa dövlətləri və ondan sonra amerikalılar bizim xalqımızı təhqir etmişlər. Bizim xalqımız inanmışdı ki, böyük işlərə bacarığı və ləyaqəti yoxdur; quruculuq bacarmır, yaradıcılıq bacarmır, digərləri ona ağalıq və hökmranlıq etməlidirlər. Bizim xalqımızda milli qürur hissini öldürmüşdülər. Bizim əziz imamımız isə İran xalqında milli qürur və fəxr hissini oyadıb dirçəltdi.

Bizim xalqımız hegemonluğun yaratdığı və mənfur Pəhləvi rejiminin rəvac verdiyi yersiz millətçi hiss və qürurlardan uzaq durduğu halda başucalığı və qüdrət hiss edir. Bu gün bizim xalqımız Şərqin, Qərbin və irticaçıların əl-ələ verib müştərək təxribat hazırlamasından

qorxmur və aciz olduğunu düşünmür. Bizim gənclərimiz hiss edirlər ki, özləri ölkələrini qura bilərlər. Bizim xalqımız Şərqin və Qərbin hegemonluqları qarşısında dayanmağa qadir olduğunu hiss edir. Bu başucalığı, özünəinam, milli qürur və həqiqi fəxr ruhunu imam bizim xalqımızda dirçəltdi.

10. Şərq və Qərbdən müstəqilliyin mümkünlüyünün isbatı

Və nəhayət onun onuncu böyük işi "nə şərqçi, nə qərbçi" düşüncəsinin mümkün bir prinsip olduğunu isbat etməsidir. Başqaları elə bilirdilər ki, ya Şərqə güvənməlidirlər, ya Qərbə; ya bu gücün çörəyini yeməli və bunu tərifləməlidirlər, ya da o biri gücün. Düşünmürdülər ki, bir xalq həm Şərqə, həm Qərbə "yox" deyib ayaqda qala və özünü günbəgün gücləndirə bilər. Amma imam bunu isbat etdi.

Mən imamın böyük işlərindən onunu saydım, amma oturub fikirləşsək, bu ilahi insanın nailiyyətləri arasında bundan dəfələrlə çoxlu böyük işlər tapa bilərik.

Tehranın cümə namazı xütbələrindən: 1989.

İmam - inqilabın gözəl ağacının[1] kökü

Həzrət imamın şəxsiyyəti haqda həqiqətən danışmaq olmur. Dövrün bu əziz insanının və peyğəmbərlər yadigarının şəxsiyyətinin müxtəlif cəhətləri haqda söhbətin natamam qalacağının bilirik. Güclü natiqlərin bu şəxsiyyətin əzəmətini layiqincə bəyan etməsi üçün çox zaman lazımdır. Buna görə mən bu haqda həqiqətən danışmaq istəmirəm. Çünki biz o həzrətin şəxsiyyətinin müxtəlif cəhətlərini araşdırmağı bacarmarıq.

Lakin bunu demək istəyirəm ki, əgər İslam Respublikası quruluşunu, bu böyük və qlobal inqilabı, dünyada yaranmış böyük, insanların daxilində yaranmış daha böyük oyanışı və misi qızıl edən bu dəyişikliyi gözəl söz və gözəl ağac saysaq, onun kökü bu əzəmətli şəxsiyyətdir. Bu mübarək ağacı bitirən o idi. O, hər şey idi; əgər olmasaydı, bizim heç bir şeyimiz olmazdı.

Keçmişdə həmin İran, xalq, coğrafi mövqe, həmin fiqh, Quran və Nəhcül-bəlağə vardı, amma nəyimizsə çatmırdı və biz günbəgün geriyə gedirdik; başımız daha çox daşa dəyir, şəxsiyyətimiz sınırdı. O, meydana çıxanda isə mahiyyətlərə vücud bəxş edən bir varlıq kimi, əşyaları göstərən bir günəş kimi, bir bədənə üfürülüb onu dirildən ruh kimi bizi diriltdi, aşkara çıxardı və hərəkətə gətirdi. Bundan sonra coğrafi və tarixi dəyər, qədim mədəniyyət, Quran, Nəhcül-bəlağə və bizim xalqımız dirçəldi və bizə kömək etdi.

O, açar və bu ağacın kökü sayılırdı. Bu kök qorunmalıdır. Əgər bu quruluş öz kökündən - yəni əziz imamdan ayrılsa, "yerdən qopardılmış"[2] ağac olacaq; yəni mişarla kəsilmiş, gövdəsi ilə kökü bir-birindən ayrılmış ağac kimi. Onun bir neçə gün böyük görünməsi mümkündür, lakin taleyi bəllidir. Daha bunların arasında həyat və qida əlaqəsi yoxdur.

---

[1] İbrahim surəsinin 24-cü ayəsinə işarədir.

[2] İbrahim/26.

Biz İslam quruluşunu öz kökündən, yəni imamdan ayrılmasına qoymamalıyıq. Deyə bilərsiniz ki, imam bizdən ayrıldı, ruhani aləmdə yaşayır və bizimlə rabitəsi yoxdur. Deməliyəm ki, peyğəmbərlər kimi imamın şəxsiyyəti də yalnız onun zahiri vücudundan ibarət deyil. Həzrət Musa (ə) öz xalqından alındıqda Bəni-İsrail və Musanın (ə) ümməti öz mənbəyindən bütünlüklə ayrıldımı? Xeyr! Mənəvi şəxsiyyətlərlə rabitə onların xarici vücudlarından asılı deyil. İslam peyğəmbəri olan həzrət Məhəmməd ibn Abdullah (s) vəfat edəndə İslam ümməti peyğəmbərsizmi qaldı? Əsrlər və nəsillər sonra gələn bizlərin daha peyğəmbəri olmadımı? Bizim də peyğəmbərimiz vardı, lakin onun cismi bizim yanımızda deyildi, daha üstün olan ruhani aləmdə yaşayırdı.

Mənəvi şəxsiyyətlərin kimliyi onların dünyəvi cisimləri ilə məhdud olmur, həmişə yaşayan düşüncələrinə, yollarına, tövsiyələrinə və işarələrinə bağlıdır. Peyğəmbər, övliyalar və bizim bu böyük imamımız barmaqları ilə bir tərəfə işarə edib yolu göstərirdilər. Təbii ki, özləri hamıdan qabaq hərəkət edirdilər, dayanıb demirdilər ki, siz gedin. Bu işarə hazırda mövcuddur. Bunlar imamın kimliyini, bir cəmiyyətin mənbəyini və həyati kökünü təyin edən elementlərdir. Daim ondan qidalanmaq olar, çünki daha cismindən asılı deyil.

İslam İnqilabının Böyük Rəhbərinin pak məqbərəsinin tikintisi ilə məşğul olan Cihad təşkilatının üzvlərinin, müharibə əlillərinin, Nəqliyyat nazirinin, İslam İnqilabının Məhrumlar və Müharibə Əlilləri Fondunun məsul işçilərinin və həzrət İmam Xomeyninin müqəddəs məqbərəsinin direktorunun beyət mərasimində çıxışdan: 1989.

Aşura hərəkatı və inqilab ruhu

Məhərrəm və Aşura barədə deməliyəm ki, bizim hərəkatımızın ruhu, ümumi istiqaməti və qələbə dayağı həzrət Əbu Abdullaha (ə) və Aşuraya dair məsələlər idi. Bu bəlkə də bəziləri üçün bir qədər ağır görünə bilər, lakin həqiqət belədir. Heç bir fikir, hətta dərin inanca malik olduqda belə, xalqın milyonluq izdihamını o formada tərpədib, hiss etdiyi vəzifəni yerinə yetirməkdə və müxtəlif fədakarlıqlarda azca da tərəddüdə düşməyəcək şəkildə idarə edə bilməzdi.

İman məhəbbətlə, dərin eşqlə və emosional bağlılıqla yanaşı olmasa, lazımi təsir bağışlamaz. İmana əməl və fəaliyyət məqamında, özü də yüksək həddə təsirlilik bəxş edən amil məhəbbətdir. Məhəbbət olmadan biz hərəkatı inkişaf etdirə bilmərik. Məhəbbətin ən üstün növü – yəni Əhli-beytə (ə) məhəbbət İslam təfəkküründə, bizim ixtiyarımızdadır. Bu məhəbbətin zirvəsi Kərbəla və Aşura məsələsində və Allah adamlarının ozamankı fədakarlığının dəyərli yadigarlarını qorumaqdadır. Bu, Şiəlik tarixi və mədəniyyəti üçün yadigar qalmışdır.

İslam məsələlərinin yeni baxışlarla ortaya qoyulduğu və yaxşı qarşılandığı günlərdə, din və İslamla çox da əlaqəsi olmayan şəxslər tərəfindən də səmərəli sayılanda, İslam təfəkküründə yeni təmayüllərin sevildiyi, İslam dünyası və xüsusən gənclər üçün güclü resurs sayıldığı zaman ziyalınüma bir fikir yaranmışdı ki, biz İslamın iman və etiqad məsələlərini emosional məsələlərindən, o cümlədən Aşuraya, rövzəxanlığa və ağlamağa aid məsələlərindən ayırmalıyıq.

Bəlkə çoxları xatırlayır, Aşuraya və İmam Hüseynin (ə) fədakarlığına dair elə sözlər deyilir və bəzən elə təhrifli fikirlər bəyan olunurdu ki, həmin adamların xoşuna gəlirdi və bu fikir inkişaf edirdi. Lakin əməldə biz açıq şəkildə gördük ki, bu məsələ böyük imamımız tərəfindən rəsmi şəkildə və Aşura hadisələri çərçivəsində bəyan olunmayınca heç bir ciddi və həqiqi iş görülmədi.

İmam hərəkatı iki dəfə Aşura məsələsinə caladı: biri hərəkatın ilk dövründə, yəni 1963-cü ilin məhərrəm günlərində baş verdi. O zaman hərəkatın tribunası hüseyniyyələr, rövzə məclisləri, mərsiyə heyətləri və dindar rövzəxanların rövzəsi oldu. Digəri hərəkatın son dövrü - yəni 1978-ci ilin məhərrəm ayında baş verdi. İmam o zaman elan etdi ki, məhərrəm ayı uca tutulsun və xalq məclislər keçirsin. O bu ayı "qanın xəncərə qalib gəldiyi ay" adlandırdı və yenidən həmin əzəmətli, ümumi və xalq tufanı vücuda gəldi. Yəni Hüseyn (ə) ruhuna və Hüseyn (ə) istiqamətinə malik olan hərəkat İmam Hüseyn (ə) məclislərinə calandı.

Məhərrəm ayı ərəfəsində Tehranın Mübariz Ruhanilik Cəmiyyətinin və Mübariz Ruhanilər Forumunun üzvləri, Tehranın din alimləri, məscid imamları, vaizləri və İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri ilə görüşdəki çıxışdan: 1989.

İran İslam İnqilabının və İmam Hüseyn (ə) hərəkatının istiqamət eyniliyi

Bizim hərəkatımızı istiqamətləndirən və bu gün də istiqamətləndirməli olan amil məhz Hüseyn ibn Əlinin (ə) qiyam etdiyi yoldur. Biz bu gün bu quruluşun və onun müdafiəsi yolunda müxtəlif cəbhələrdə şəhidliyə qovuşan şəhidlərimizə ayıq şəkildə əza saxlayırıq. Bizim xalqımızın heç bir şübhəsi yoxdur ki, məcburi müharibədə, yaxud düşmənlərlə, münafiqlərlə və kafirlərlə hər hansı bir qarşıdurmada şəhidliyə qovuşan şəhid və gənc həmin quruluşun yolunun şəhididir, həmin quruluşun və inqilabın müdafiəsi və sütunlarının möhkəmləndirilməsi uğrunda şəhidliyə qovuşmuşdur. Bizim bugünkü şəhidlərimiz çox qərib və tənha qiyam edən, heç kəsin həvəsləndirmədiyi və əksinə, hamının və İslamın görkəmli şəxslərinin çəkindirdiyi Kərbəla şəhidləri ilə fərqlənir. Amma eyni zamanda iman və eşqləri o qədər çox idi ki, gedib qəribcəsinə, məzlumcasına və yalqız şəkildə şəhidliyə qovuşdular. Kərbəla şəhidləri bütün təbliğat vasitələrinin alqışladığı və cəmiyyətin həvəsləndirdiyi şəhidlərlə fərqlənir. Sözsüz ki, bu şəhid də uca məqamlı şəhiddir, amma o tam başqadır.

Biz bu gün bu İslam quruluşunu gördüyümüzdən, onun faydalarını yaxından dərk etdiyimizdən Hüseyn (ə) hərəkatının qədrini və mənasını öz sələflərimizdən daha artıq anlayırıq və anlamalıyıq. O həzrət belə bir iş üçün hərəkət etdi. O həzrət qiyam etdi ki, cəmiyyətdə fəsad törədən, insanı və dini məhv edən və düzgünlüyü sıradan çıxaran rejimlər olmasın, cəmiyyətdə düzgünlüyə əsaslanan dini, ilahi və insani quruluş bərqərar olsun. Düzdür, əgər o quruluş o həzrətin dövründə, yaxud məsum olan və vəhy qaynağına birləşmiş sonrakı imamların dövründə həyata keçsəydi və onlar həmin quruluşun başında dursaydılar, təbii ki, vəziyyət bizdəkindən fərqli olardı. Lakin eyni zamanda məsələnin mahiyyəti və məğzi birdir, onlar da belə bir quruluş üçün hərəkət edirdilər. Burada geniş bir mövzu var və mən o haqda

danışmaq istəmirəm. O da budur ki, imamlar İslam quruluşu yaratmaq üçün ciddi surətdə çalışıblarmı, yoxsa onların işi yanlız nümunə xarakteri daşıyıb.

Məhərrəm ayı ərəfəsində Tehranın Mübariz Ruhanilik Cəmiyyətinin və Mübariz Ruhanilər Forumunun üzvləri, Tehranın din alimləri, məscid imamları, vaizləri və İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri ilə görüşdəki çıxışdan: 1989.

Kərbəla hadisəsi - inqilabın dayağı

Əgər bu gün bizdən yaratdığımız bu hərəkatın kökünün nə olduğunu soruşsalar, deyərik ki, kökü Peyğəmbər (s), Əmirəlmöminin (ə) və İmam Hüseyndir (ə). İmam Hüseyn (ə) kimdir? Aşura hadisəsini yaratmış və tarixdə barəsində məlumat verilmiş şəxs. Deməli, bu hərəkatın dayağı Aşuradır. Əgər biz bilmədən, diqqət yetirmədən və səhlənkarlıq üzündən Aşura hadisəsini kənar amillərlə qarışdırsaq, o hadisəyə və ondan qaynaqlanan bu inqilaba xidmət etmiş olmarıq.

Məhərrəm ayı ərəfəsində Tehranın Mübariz Ruhanilik Cəmiyyətinin və Mübariz Ruhanilər Forumunun üzvləri, Tehranın din alimləri, məscid imamları, vaizləri və İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri ilə görüşdəki çıxışdan: 1989.

İmamın səadətli yolunu davam etdirmək

İmamın inqilab üçün cızdığı və İran xalqının on ildir hərəkət etdiyi xətt bütün dünyada İslam və müsəlmanların əzəməti, məzlum və məhrumların müdafiəsi xətti, İran xalqını dünyada ən başıuca, ən müstəqil, ən canlı və ən fəal xalq edən, bizi geriqalmış, asılı və ölü vəziyyətdən çıxaran xətt və yoldur. Bu xətt xalqda İslama iman və sevgi oyatmış, onları bu yolda heyrətamiz və misilsiz fədakarlıqlara vadar etmişdir. Bu xətt bizim həyatımız, bütün varlığımız, milli və inqilabi kimliyimizdir. Allahın lütfü ilə bu xətt imamın hərəkat və inqilab dövründə əməli surətdə bizə öyrətdiyi qətiyyət, qüdrət, ümid və həvəslə davam edəcək. Biz imamın və inqilabın yolunu gücləndirməyə, fədakarlıq etməyə və gecə-gündüz çalışmağa hazırıq. Bizim canımız və qanımız bu yola və bu xəttə qurbandır. Həyatımızı bu yolda fəda etmək bizim üçün səadətdir. Bunda heç bir şübhə yoxdur.

Tənfiz (prezidentin hökmünü təsdiqetmə) mərasimində çıxışdan: 1989.

Haqqı və batili ayırd etməyin zəruriliyi

Bizim böyük imamımızın rəhbərlik etdiyi ruhani və xalq hərəkatı bəzi şüarlar irəli sürüb haqq və batilin bir-birinə qarışmasına qoymadı. Xalq on beş il ərzində tədricən haqqı tanıdıqda və batildən uzaqlaşdıqda məsələ həll olundu, inqilab qələbə çaldı, amma o bundan sonra da özünün İsa nəfəsi ilə haqqın batilə qarışmasına imkan vermədi.

Haqq və batilin bir-birinə qarışıb səhv salınması mümkündürsə, onları ayırd etmək üçün bir meyar olmalıdır. Allah xalqı meyar və əlamətsiz buraxa bilməz. Haqq və batilin meyarı nədir? Onu Quranda, hədisdə, övliyaların və böyüklərin sözlərində diqqətlə axtarmaq və tapmaq lazımdır. Bəzi yerlərdə kitab və sünnənin meyarı məsələsi ortaya qoyulur. Şəriətə uyğun olduğunu gördüyünüz hər bir şey haqq və şəriətin ziddinə olan hər bir şey batildir. Təbii ki, bu meyar hər yerdə və hamı üçün yararlı deyil. Çünki şəriətə uyğun və ya zidd olmanı təyin etmək asan iş deyil.

Ümumi xidmət orqanlarının, məzlum və məhrumlara dəstək kampaniyalarının məsul işçiləri və əməkdaşları ilə görüşdəki çıxışdan: 1989.

Xalqın keçmiş hökumətləri sevməməsi

Siz bu illərdə İranda iş başında olan rejimlərə - mənfur, muzdur və azğın Pəhləvi sülaləsindən tutmuş zəif, asılı və ləyaqətsiz Qacar sülaləsinə, bəziləri şan-şöhrətli olan qabaqkı rejimlərə baxın. Görün bunların hansında İran xalqı hökumət başçılarını sevmiş, onlara yaxşı münasibət bəsləmişdir? Görəcəksiniz ki, heç birində belə bir şey olmamışdır. Xalq ayrı idi, onlar ayrı. Onlar xarici siyasəti idarə edirdilər, xalqın isə bundan xəbəri və buna rəğbəti yox idi.

İşlər xalqın maraqlarına uyğun getmirdi. Hətta hökumətlər tərəfindən bu ölkəyə göstərilən xidmətlər də çox nadir halları çıxmaq şərti ilə əksərən əcnəbilərin və yaxud həmin azğın hakimlərin xeyrinə edilirdi. Həm xaricilərin, həm də özümüzünkülərin apardığı araşdırmalar göstərir ki, Rza xanın dövründə ölkə boyu çəkilmiş bu dəmir yolu ingilislərin xeyrinə və İran xalqının zərərinə idi. Belə işlər çoxdur. Əhəmiyyət göstərilməyən məsələ xalqın istəyi, iradəsi, məsləhəti və arzusu idi. Əcnəbilərin, yaxud azğın hökumət başçılarının marağı meyar seçilirdi. Buna görə də xalq onları sevmirdi və hansı biri hakimiyyətdən gedirdisə, bu, xalqın sevincinə bais olurdu.

Xatırlayanlar bilirlər ki, Rza xan hakimiyyətdən gedəndə xalq sevinir, şənlik edirmiş. Biz də öz böyüklərimizdən belə bir şey eşitmişik. Bu mənfur sülalə devriləndə siz xalqın necə böyük bayram etdiyini gördünüz. Bu bayram və şənlik inqilabın qələbəsi şənliyindən başqa bir şey idi. Bu başqa idi, o başqa. Bu hadisə öz-özlüyündə xalqa xoş idi. Çünki xalq bunlara yad idi, bunlardan acığı gəlirdi. Bu, onların batil olmasına meyardır: bir rejim hakimiyyətdə olanda xalq narahatdır, hakimiyyətdən gedəndə sevinir, güclənəndə sıxıntı keçirir, zəifləyir və əleyhinə yumruq düyünləyir. Belə rejim batil rejimdir.

Ümumi xidmət orqanlarının, məzlum və məhrumlara dəstək kampaniyalarının məsul işçiləri və əməkdaşları ilə görüşdəki çıxışdan: 1989.

İmanı və inqilabı qorumağın zəruriliyi

İnqilabi mənliyin və inqilab qarşısında vəzifə hissinin qəlblərinizdə zəifləyib sönməsinə qoymayın. Öz ailəsini və namusunu müdafiə edən bir şəxs kimi inqilabı, onun dəyər və nailiyyətlərini müdafiə edin.

Qadın, kişi, qoca, gənc - hansı peşədə çalışırsınızsa, bu ölkənin harasında yaşayırsınızsa, bilin ki, bu inqilab asan əldə olunmamışdır. Zəhmətlər çəkildi, qanlar töküldü, Allahın böyük yardımı bu xalqa şamil oldu və bu böyük nailiyyət əldə edildi. Biz oturub baxa bilmərik ki, kimlərsə inqilabın dəyərlərini talasınlar, yaxud onlara hörmətsizlik etsinlər və ya onları yüngül saysınlar. Xeyr! İnqilabi dəyərlər, inqilabın nailiyyətləri və cəmiyyətin İslam ab-havası bizim bütün xalqımızın namusudur, onu qeyrət və qüdrətlə müdafiə edirik və etməliyik.

Düşmən fəsad mədəniyyətini, fəsadın hər hansı bir növünü, istər cinsi ehtiraslara aid olan fəsadları, istər maddi fəsadları, istər digər əxlaqi və əməli fəsadları yaymaqla bu inqilabı daxildən çökürtməməlidir. Siz qadın və kişilərin hər biri evi və ailəsi qarşısında sinəsini sipər və onu müdafiə edən qorxmaz, qeyrətli gənc kimi inqilabı, İslamı, məsul şəxsləri, inqilabın nailiyyətlərini və imanınızı qorumalı, onlara hücum edənlərin qarşısında möhkəm dayanmalısınız.

Şübhəsiz, Allahın yardımı və lütfü də bizimlə olacaq. Əziz imamımızın pak ruhu, hidayət imamlarının və əziz İslam peyğəmbərinin (s) müqəddəs ruhları və Allahın böyük höccəti olan İmam Mehdinin (ə) müqəddəs dualarını bu yolda xalqımıza kömək edəcək.

Tehranın cümə namazı xütbələrindən: 1989.

İnqilabın qlobal əhəmiyyəti

Əsas məsələ budur ki, bizim inqilabımızda onun ən mühüm cəhətlərindən olan qlobal bir cəhət vardır. Bu cəhəti bir an da unutmaq olmaz. Qlobal cəhət budur ki, İran xalqının sözü, yolu və məqsədləri dünyanın digər və ən azı bəzi xalqları tərəfindən qəbul olunur və sevilir. Digər xalqlar İran xalqının inqilabına tamaşa edib demirlər ki, bu özləri üçündür, bizə aidiyyəti və faydası yoxdur.

Çoxlu ölkələrdə baş vermiş hadisə və yenilik ya onların öz sərhədləri daxilində qaldı, ya da çox məhdud dairəni əhatə etdi. İran İslam İnqilabının əhatəsi isə çox geniş oldu, hələ də genişlənir və gələcəkdə daha da genişlənəcək. Bunun əsas səbəbi bizim inqilabımızın İslamdan ötrü olmasıdır. Demirik ki, xalq ölkənin vəziyyətindən, tağut rejimindən narazı deyildi və onun dəyişməsini istəmirdi. Xalq tağut dövründə hər şeydən narazı idi. Xalq tağut şah dövründə - istər asılı Pəhləvi rejimində, istərsə də ondan öncəki hökumətlərin çoxunda öz gözlərini açıb həqiqətləri görür, çətinliyi, pisliyi, öz şəxsiyyətinin xar və məhv edildiyini duyurdu. Xalqın həyat və məişət problemlərinin həllini istəməsi təbiidir. Lakin o çətinliklərin hamısının əsası bir şey idi: heç kəs xalqa, onun etiqadına, düşüncə və imanına dəyər tanımırdı.

Xalq İslamı və İslam ənənələrini istəyirdi, lakin hakimlər İslam əleyhinə təbliğat aparırdılar. Dövrün hakimləri əxlaqi fəsadı, çılpaqlığı, İslam adət-ənənələrindən uzaqlaşmağı təbliğ və xalqı buna məcbur edirdilər. Xalqın gözü önündə onların sevdiyi hər bir şey təhqir olunurdu. Əsas məsələ bu idi.

Bizim xalqımız İslama ən güclü iman bəsləyən xalqlardandır. Digər xalqları yaxından görənlər İran xalqının İslama, İslam etiqadlarına və hökmlərinə qarşı ən imanlı müsəlman xalqlardan biri olduğunu təsdiqləyirlər. Xalqa aydın oldu ki, İslamın sayəsində azad yaşaya, mənəvi və maddi nemətlərdən bəhrələnə bilərlər. Xalq İslama iman bəsləyir və onu sevirdi. Xalq qiyam etdi, bu möhtəşəm inqilab baş verdi və onların əli ilə bir İslam hökuməti quruldu.

Dünyada harada müsəlman varsa, bu mühüm hərəkəti sevir. Çünki bu hərəkət bir xalqa məxsus olan vətən və millət çərçivəsində qalmadı. Bu, İslam hərəkatı idi və İslam çoxlu xalqların müştərək dinidir. Deməli, müsəlman xalqlar bu inqilabı və quruluşu sevirlər.

Başqa bir tərəfdən, bu inqilab dünyanın quldur güclərinin əleyhinə olduğundan, yəni böyük güclərin hamısını inkar etdiyindən və İran xalqının dünyanın bütün hegemon güclərinə "yox" dediyindən, harada bu güclərin zülmü altında olan bir xalq varsa, bu inqilabı sevir; çünki bu onun ürək sözüdür.

Çoxlu xalqlar Amerika və hegemonluğun ölkələrinə müdaxiləsindən, ölkələrində hərbi bazalar yaratmasından, iqtisadi müdaxilələrdən və əcnəbi mədəniyyətinə rəvac verilməsindən narahat və narazıdırlar, amma nəfəs çəkmək və bir iş görmək imkanları yoxdur. Onların arasında münasib bir rəhbər yoxdur və repressiya elə bir həddədir ki, tərpənə də bilmirlər. Amerikaya bağlı olan mürtəce ölkələrin əksəriyyəti belədir. Onlar bir xalqın azad şəkildə, qüdrətlə və qorxmadan Amerikanın, Qərb mədəniyyətinin və hegemonluğun müdaxiləsi, əcnəbinin hərbi, iqtisadi və mədəni müdaxiləsi qarşısında şüar verdiyini, əməl etdiyini və möhkəm dayandığını gördükdə ürəklərində bu xalqa və inqilaba sevginin yaranması qaçılmazdır.

Qlobal cəhət budur ki, bizim xalqımızın və inqilabımızın digər xalqlara mesajı var. O mesaj budur ki, bir xalq istəsə, bir rəhbərin və güclü mərkəzin ətrafında birləşsə, imkansız görünən işləri görə bilər. Bunun bütün müsəlmanlara mesajı var və o budur ki, uzun illərdir antiislam qüvvələrin İslamı məhv etməyə çalışmalarına rəğmən, müsəlmanlar istəsələr, iradə etsələr, İslamı cəmiyyətdə hakim edə bilərlər. Bu, bizim xalqımızın və inqilabımızın mesajıdır.

Nişapur, Qəsri-Şirin, Sərpol Zəhab, Gilanqərb, Neftşəhr, Sumar, Rəşt, Xudabəndə və Qidar şəhərlərinin cümə imamları, din alimləri, vəzifəli şəxsləri və müxtəlif təbəqələri, korlar və Pakistandan gəlmiş ziyarət karvanı ilə görüşdəki çıxışdan: 1989.

İran xalqının sevilməsinin səbəbləri: vəhdət və şücaət

Əgər İran xalqı digər xalqlar tərəfindən həmişə sevilib qəbul olunmasını istəyirsə, daxildə özünün inqilabçı şəxsiyyətini, rəftarını və simasını qorumalıdır. Sizi xalqların gözündə böyüdən amil ilk növbədə vəhdətiniz idi. Bu vəhdəti qoruyun. Bu çox dəyərli amildir. Bir olan xalq digər xalqlara örnək olur. İkinci amil isə sizin şücaətiniz və düşmənlərdən qorxmamanızdır. Siz bunu müharibədə, inqilabda və müxtəlif hadisələrdə sübut etmisiniz. Bunu da qorumanız lazımdır; necə ki, Allahın lütfü ilə indiyədək qorumusunuz. Üçüncüsü isə xalqla məmurlar arasında sıx və güclü birlik və rabitədir. Bu, dünya üçün tamaşalı bir şeydir. Başqa ölkələrdə başçıların və məmurların öz xalqları arasında bu qədər sevilməsi az hallarda görünür.

Nişapur, Qəsri-Şirin, Sərpol Zəhab, Gilanqərb, Neftşəhr, Sumar, Rəşt, Xudabəndə və Qidar şəhərlərinin cümə imamları, din alimləri, vəzifəli şəxsləri və müxtəlif təbəqələri, korlar və Pakistandan gəlmiş ziyarət karvanı ilə görüşdəki çıxışdan: 1989.

İmamın kapitulyasiya əleyhinə etirazı

Həzrət imamın sürgün olunması xatirəsi o günə aid olan ilk xatirədir. Çünki Amerikanın İranda yaratdığı rejimin sayəsində kapitulyasiya məsələsi, yəni Amerika dövlətinin hüquqi hakimiyyəti bərqərar olunmaqda idi. Ümumiyyətlə hegemonluğun mənası və şərti belə məsələlər, imperialist və hegemonçunun xüsusiyyəti də belə bir hakimiyyəti zorla qəbul etdirməkdir.

İmam bu hadisənin qarşısında sərt mövqe nümayiş etdirdi. Onun sözləri bütün ölkəyə yayıldı və Amerikanın vassalı olan rejim bundan təhlükə duydu. Adətən şeytan səhabələrinin qərara gəldiyi yanlış seçimə uyğun olaraq, əvvəlcə elə bildilər ki, bir insana təzyiq göstərmək müqaviməti azaldacaq. Onlar bilmirdilər ki, möminlərə qarşı təzyiq işlətmək onların müqavimətini daha da artırır. İkinci tərəfdən, elə bilirdilər ki, bu şəxsi ortadan götürməlidirlər. Lakin bilmirdilər ki, məsələ ilahi məsələdir. Onlar imamı sürgün etdilər və bu sürgün onun 1 fevraldakı qayıdışına qədər davam etdi.

13 Aban (4 Noyabr) Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1989.

İnqilabın qatı düşməni: hegemonluq

Hegemonluq bütün vücudu ilə inqilaba və İslam Respublikası quruluşuna qarşı mübarizəyə qalxdı. İslam inqilabı Amerikaya qarşı çıxmasaydı da, onu yolundan sapdırmaq, yaxud bütünlüklə məhv etmək üçün çoxlu təzyiq göstərəcək və hiylələr işlədəcəkdilər. Bu, Amerikanın və hegemonluğun İslam inqilabına qarşı tutduğu mövqedir. İslam mahiyyətli və İslam təbiətli bir inqilabın hegemonluq tərəfindən belə düşmənliyə və ədavətə məruz qalması təbiidir.

13 Aban (4 Noyabr) Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1989.

İnqilabın güclü dalğası

Əlbəttə, inqilab ona qarşı çıxmaq istəyən heç bir şeyə dözməyən coşqun dalğadır. İnqilab onları və onlardan böyüyünü də yuyub apardı. Bəziləri inqilabla yola gəlib birtəhər özlərini qurtara bildilər. Amma başqa bir qrup da bu tələtümlü okeanda batıb məhv oldular. Və heç şübhəsiz, mənəvi cəhətdən məhv olmaları fiziki cəhətdən məhv olmalarından daha təhlükəlidir.

13 Aban (4 Noyabr) Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1989.

Elmi hövzənin inqilabın mərkəzi olması

Bu gün elmi hövzənin mərkəzliyi ilə qalib bir İslam inqilabı zəfər çalmış və quruluş yaratmışdır. Hövzə bu quruluşa yad deyil, hörmət, həqiqi təsir və gələcək baxımından mərkəzi nüvədir.

Qum Elm Hövzəsinin alim və tələbələrinin nümayəndələri ilə görüşdəki çıxışdan: 1989.

İnqilabın qeyri-adi əzəməti

Cənablar! Biz İran xalqı çox böyük inqilab etdik. Bu inqilab olduqca əzəmətlidir. Mən tam əminliklə sizə deyirəm ki, bizim əksərimiz çox şeyləri bilsək də, necə möhtəşəm hadisənin baş verdiyini hələ bilmirik. Bu inqilab qeyri-adi və möhtəşəm bir hadisədir. Bütün hegemon, zalım və cahil dünya bir tərəfə, bu inqilab bir tərəfə. Çox mühüm hadisə baş vermişdir və bu inqilab özündə dünyanın bütün zülm və küfr düşərgəsi ilə mübarizə gücünü hiss edir. Biz bu inqilabın içərisində olduğumuza görə onun nə qədər böyük və mühüm olduğunu anlamırıq.

Qum Elm Hövzəsinin alim və tələbələrinin nümayəndələri ilə görüşdəki çıxışdan: 1989.

İran inqilabı ilə İraq çevrilişinin müqayisəsi

Mən İran inqilabını İraq çevrilişi ilə müqayisə edirəm ki, siz İran İslam İnqliabının müstəmləkəçiliyə necə zərbə vurduğunu görəsiniz. 1958-ci ildə İraqda çevriliş baş verdi, Feysəli devirib yerinə Nuri Səidi gətirdilər. O zaman Böyük Britaniyanın Baş naziri İden xatirələrində yazırdı: "Mən həftəsonu bir adada istirahət edərkən İraqda çevriliş xəbərini aldım. Bu zaman beynimə çox böyük zərbə toxundu və birdən hiss etdim ki, dünya tərpənir" (Onun sözləri indi dəqiq yadımda deyil). İraq çevrilişi İngiltərə və müstəmləkəçilik üçün hədsiz dərəcədə əhəmiyyətli idi. Bu nigaranlıq çevrilişdən sonra nəşr olunan bütün yazılarda və xatirələrdə əks olunmuşdu və zərbənin böyüklüyü özünü göstərirdi. Sonradan bəzi müstəmləkəçi rejimlərin onda əlinin olduğu, bəzilərinin də sonradan ondan istifadə edib əllərində saxladıqları bəlli oldu. Siz indi də o çevrilişin təsirlərini görürsünüz. Təxminən 30 il ötdükdən sonra İraqın bügünkü töhfələri həmin çevrilişin, öz sözləri ilə desək, inqilabın təsirləridir.

Diqqət edin! Bir ölkədə adi bir çevriliş baş verdi. Yalnız İraqın İngiltərə müstəmləkəsi olduğuna və İngiltərənin İraqa hakim olub ondan istifadə etdiyinə görə onlar üçün bu qədər ağır idi. İndi siz o çevrilişi İslam inqilabı ilə müqayisə edin; ümumiyyətlə müqayisəolunmazdır. İslam inqilabı qəfildən Qərbin və kapitalizm dünyasının müstəmləkə quruluşunun bütün varlığını və dəyər sistemini şübhə altına saldı; yəni gələcəklərini bütünlüklə təhdid və naməlum etdi. Çünki bu inqilab İslama əsaslanırdı. Nəticə etibarilə harada müsəlman varsa, orada bu inqilabın potensialı mövcuddur. Sonra bunun nümunələrini bir-birinin ardınca Əfqanıstandan tutmuş İndoneziyaya, Malayziyaya, Misirə, Tunisə qədər hər yerdə və hətta dırnaqarası inqilabi sistemi olan ölkələrdə, misal üçün, Əlcəzairdə və Liviyada da gördülər. Müşahidə etdilər ki, həmin İslam oralarda baş qaldırmışdır, mübariz tələb edir və perspektiv müəyyənləşdirir.

Qum Elm Hövzəsinin tələbə və alimlərinin nümayəndələri ilə görüşdəki çıxışından: 1989.

Elm və dinin ayrılmasında şah rejimlərinin rolu

Belə bir parlaq keçmişə malik olan xalq bu ölkədə hakim olan zalım şah rejimi dövründə və hamısından pisi, son iki yüz, yaxud yüz əlli ildə, yəni Qacarlar dövrünün sonlarından, Pəhləvilər dövrünün axırına qədər elmi inkişaf baxımından bu qədər tənəzzülə uğradı. Onlar bunu etdilər. Bunun əsas səbəbi bizim ölkəmizdə dinin elmdən ayrılığı idi. Bizim ölkədə təbii elmlərin mütəxəssisləri, alim və tədqiqatçıları dindən ayrı qaldılar və nəticədə xalqlarına və ölkələrinə yaramadılar. Ən yaxşıları gedib əcnəbilərə fayda yetirdilər, bir qrupu da burada qalıb əcnəbilər üçün çalışdılar. Bu universitetlərdə dərs oxumuş ziyalılar Pəhləvi hökuməti boyu ən xəyanətkar şəkildə ölkəni idarə və bu xalqa xəyanət etdilər. Onlar bu universitetlərin məzunları idilər. Allah rəhm elədi və İslam inqilabı baş verdi. Bu cəmiyyətin müasir ziyalıları tərəfindən universitet təhsili alıb tədricən siyasi işlərdə çalışan nəsli o qədər köksüz və etiqadsız nəsil idi ki, iş başına gəlsəydi, Allah bilir bu xalqın və bu ölkənin başına nə oyun açardı. Bu xalqın var-yoxunu, olan-qalanını yandırıb məhv edəcəkdilər. Allaha şükür olsun ki, macal tapmadılar, İslam inqilabı baş verdi və hər şey bitdi.

Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdəki çıxışdan: 1989.

İnqilabın faydaları

Xoşbəxtlikdən, İslam inqilabı İslam düşmənlərinin, daha doğrusu din düşmənlərinin uzun illər boyu dünyada əyirdiklərinin hamısını pambıq edib məhsullarını yoxa çıxardı. Bu gün İranda baş verənlərin baş verməməsi üçün onlar milyardlar xərcləmişdilər. Siz görürsünüz ki, bu gün İranda qadınlar hicaba, iffətə, gənclər dinə meyl göstərirlər, quruluş Qurana əsaslanır; görürsünüz ki, Qum Elm Hövzəsinin alimləri döyüş cəbhələrində fəal iştirak edirlər, Qum Elm Hövzəsi hərbi təbliğat şöbəsi yaradır. Bu gün həmin qardaşların bəzisi burada iştirak edirlər. Siz görürsünüz ki, bizim universitetlərimizdə din, Allah və İslam maarifi tədris olunur, universitet rektorları, müəllimlər, Təhsil nazirləri dindardırlar. Bütün bunlar bizim düşmənlərimizin illər öncə plan cızıb İranda qarşısını almağa çalışdıqları məsələlərdir. Lakin inqilabın və İslamın sayəsində bunlar baş verdi. Bunların qədrini bilin və bunları qoruyun.

Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdəki çıxışdan: 1989.

Qum - inqilabın güclü təməli

Bir bina tikmək üçün əvvəlcə ona möhkəm təməllər qurmaq lazımdır. Bina nə qədər böyük, ağır və uzunömürlü olacaqsa, onun təməlləri də bir o qədər möhkəm, güclü və sarsılmaz olmalıdır. Əgər biz İran xalqının ümumi və təyinedici şəkildə 1977-ci ildən başlayıb qələbə çalan və indi də 11 ildir davam edən mübarizəsini uca və möhkəm bir binaya bənzətsək, bu möhkəm binanın güclü, sarsılmaz və uzunömürlü təməlləri Qumda işləndi. Siz qan və qiyam sözünü birinci növbədə ölkəyə və sonra bütün dünyaya yayan şəxslərsiniz.

Qum İslam üçün ilahi bir ehtiyat idi. Təxminən yetmiş il öncə Qum Elm Hövzəsi böyük insan və Allahın seçilmiş bəndələrindən olan mərhum Ayətullah Hairi tərəfindən yaradıldı və bütün elmsevərlərin mərkəzinə çevrildi. Bundan təxminən qırx il sonra Qumda İslam hərəkatı baş qaldırdı, o böyük insanın məktəbinin şagirdlərindən biri, tariximizin müstəsna şəxsiyyəti və mərhum rəhbərimiz olan İmam Xomeyni Qumda İslam mübarizəsini başlatdı.

Əgər tarixi gözlə baxsanız, Qum hövzəsinin çox tez və səmərəli bəhrə verdiyini görərsiniz. Yəni hövzənin əsasının qoyulduğu zamandan əməli meydana atıldığı vaxta qədər qırx il ötdü. Bu bir xalqın ömründə qısa zamandır. Bu hərəkatın başlanmasından bu günə qədər otuz ilə yaxın vaxt ötür və siz görün dünyada İslam, Quran və İslam dəyərləri hansı vəziyyətdədir.

Bu hövzəyə yer verən, ona kömək edən, onu öz evinə qəbul edən, tələbələri öz övladları və qardaşları kimi saxlayan, hərəkat başlayanda onun ilk əsgərlərinə, yəni hövzə tələbələrinə sığınacaq verən və hərəkatın zirvə çağında bu yola ilk qurbanları təqdim edən Qum əhalisi oldu. Ölkəmizin və inqilabımızın tarixində bunu unutmamalıyıq və unutmaq mümkün də deyil. Bunu indi qumlularla söhbət etdiyimizə görə demirik. Bu dəyərli və müqəddəs həqiqət aydın bir xətt kimi inqilabda qalmalı və onun tarixinə yazılmalıdır.

Bu həqiqətdən götürməli olduğumuz dərsə gəlincə isə, Qum əhalisi ilk gündən bu gözəl ağacı[1] qəbul edib ona kömək etdiyi, onu müdafiə etdiyi, lazım olanda və zamanı çatanda böyük İslam cihadı yolunda ilk addımı atdığı və inqilabın qələbəsindən sonra – istər müharibədə, istər siyasi hadisələrdə, istər digər məsələlərdə həmişə ön sırada durduğu kimi, gələcəkdə də bu mövqeyi qorusun.

Qum əhalisinin 19 Dey (9 yanvar) qiyamının ildönümü münasibəti ilə bu şəhərin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1990.

[1] İbrahim surəsinin 24-cü ayəsinə işarədir.

İran xalqının iki yüz il təhqir olunması

Avtoritar rejimlərin bu ölkəyə əsrlərlə hakimiyyəti mövzusunu sonraya saxlayaq. Bizim ölkəmiz çox az dönəmlərdən başqa tarix boyu həmişə avtoritar, eqoist və qaniçən hakimlərin əlində qalmışdır. Həmçinin uzun despotizm dövründə xalqımızın başına gələnlərdən, İran xalqının təkəbbürlü avtoritarlar tərəfindən daim təhqir olunmasından danışmırıq. İslam hərəkatının meydana çıxmasına və güclənməsinə qədərki iki yüz il ərzində İran xalqı ona hakim olan xarici düşmənlərin zülmkar istismarı altında daim təhqir olundu və əzildi.

Dünyanın ozamankı hakim gücləri olan xaricilərin ayağı bu ölkəyə açılanda ölkəmizə siyasi müdaxilə başlandı. Əvvəlcə ingilislər gəldilər, sonra çar Rusiyası onlarla rəqabətə girdi. Uzun illər bizim ölkəmizdə daha çox nüfuz uğrunda bu iki güc arasında rəqabət getdi. Nəhayət mənfur Pəhləvi sülaləsinin iş başına gəlməsi ilə İranda ingilislərin hakimiyyəti tam gücləndi. 20-30 il ötəndən sonra isə amerikalılar meydana atılıb illərlə bizim ölkəmizə və xalqımıza hiyləgər, oğru və xəbis şəkildə hökmranlıq etdilər.

Bu iki yüz ildə İran xalqının istəyi nəzərə alınmadı, öz sərvətlərinə sahib olmadı, dünyanın elm və sənaye inkişafından kənarda qaldı, gələcəyə ümidi üzüldü. Əgər keçmişdə - müstəmləkə dövründən və əcnəbilərin müdaxiləsindən öncə iranlı və daxili hakimlər xalqa zülm və zorakılıq edirdilərsə, İranın müstəmləkəyə çevrilməsindən sonra həm yerli tiranların hökmranlığı davam etdi, həm mühakiməsiz edamlar vüsət aldı, həm bizim xalqımıza həddi-hüdudu olmayan hegemonluqlar, çoxlu təzyiqlər və əndazəsiz repressiyalar rəva görüldü, həm avtoritar şahlar əcnəbi güclər tərəfindən himayə olundular, onların gücü artdı, həm də ölkəmizin sərvəti onların hər ikisi - həm daxili hakimlər, həm də hegemon xaricilər tərəfindən qarət olundu.

İki əsrə yaxın bir müddət ərzində İran xalqının başına nələr gəlmədi?! Bu müddətdə hakimlər tərəfindən talanan geniş süfrədən istifadə etmək üçün İrana gəlmiş şərqşünasların kitablarını oxuyanda

hər bir qeyrətli insan öz daxilində sıxıntı keçirir və xəcalər çəkir ki, belə əcnəbiləri xalqın həyatına, malına, canına və siyasi taleyinə hakim etdilər. İran xalqı kimi böyük, istedadlı və güclü bir xalqı zəncirləyib boyunduruq altında saxladılar.

Düzdür, müstəmləkəçilik bizim ölkəmizə birbaşa və açıq şəkildə gəlmədi, Hindistan və Əlcəzairdə olduğu kimi hökumət qurmadı. Lakin İranda müstəmləkəçiliyin hökmranlığına vasitə olan şahlar onların öz adamları kimi rəftar edirdilər. Xalqı daxildən yedilər, məhv etdilər. Bizim xalqımızda bu iki yüz ilin, xüsusən də İslam mədəniyyətinin, xalqın istedadının və siyasi arzularının müstəmləkəçi və müdaxiləçi güclər tərəfindən tamamən məsxərə olunduğu son bir neçə ilin qəzəbi qalaqlanmışdı.

Bizim xalqımız hərəkətə hazır idi. Onları yönəltmək üçün Böyük Rəhbər və düzgün bir təfəkkür gərəkirdi. Bu düzgün təfəkkür xalqın ruhuna hopmuş, iman və etiqad kökü olan İslam təfəkkürü idi. O Böyük Rəhbər və insan da Allahın bu xalqı, hətta bütün məzlumları, xüsusən də dövrümüzün müsəlmanlarını xilas etmək üçün seçdiyi böyük insan idi. Və nəhayət bu əzəmətli inqilab baş verdi.

Lahican və Robat Kərim şəhərlərinin din alimləri, vəzifəli şəxsləri və əhalisi, Tehran, Kerman və Mazandaran vilayətlərinin şagird, müəllim və Quran qiraətçiləri ilə görüşdəki çıxışdan: 1990.

Müstəmləkənin siyasi, iqtisadi və mədəni zəncirləri

Bizim əsas problemimiz bu idi ki, müstəmləkə tərəfindən onlarla zəncirlə bağlanmışdıq. Bu zəncirlər muzdur və etiqadsız bir rejimin siyasi, iqtisadi, mədəni və istibdad zəncirləri və bu xalqın özünə inamsızlığı idi. Müstəmləkə xalqın özünə inamını ondan almışdı, inqilab isə xalqın həyatını, fəallığını və inamını ona qaytardı.

Lahican və Robat Kərim şəhərlərinin din alimləri, vəzifəli şəxsləri və əhalisi, Tehran, Kerman və Mazandaran vilayətlərinin şagird, müəllim və Quran qiraətçiləri ilə görüşdəki çıxışdan: 1990.

22 Bəhmən - dini bayramların tərənnümü

22 Bəhmən bizim xalqımız üçün həqiqi bayramdır. 22 Bəhmən bizim xalqımız üçün fitr bayramı kimidir. Xalq həmin gün çətin bir orucluq dövründən - xalqımızın mənəvi və maddi qidalardan məhrum edildiyi dövrdən çıxdı. 22 Bəhmən qurban bayramı kimidir; çünki həmin gündə bizim xalqımız öz ismayıllarını qurban etdi. 22 Bəhmən Qədir-Xum bayramı kimidir; çünki həmin gün İran xalqına vilayət neməti verildi, ilahi nemətlər təkmil olundu.

Lahican və Robat Kərim şəhərlərinin din alimləri, vəzifəli şəxsləri və əhalisi, Tehran, Kerman və Mazandaran vilayətlərinin şagird, müəllim və Quran qiraətçiləri ilə görüşdəki çıxışdan: 1990.

İslam Respublikası - imamın əziz irsi

Mənim fikrimcə, əzəmətli və güclü İslam Respublikası əziz Peyğəmbərin (s) İslam irsindən sonra böyük bir şəxsiyyətin öz ümməti və qövmü üçün qoyduğu ən əziz irsdir. Bu quruluşun və ölkənin hər bir hərəkət və qərarı üçün bizim hər birimiz məsuliyyət daşıyırıq, bu yola qarşı öhdəliyimiz və vəzifəmiz var. Bu gün bizim bu məclislərə, müzakirələrə, belə səmimi əməkdaşlıqlara, bir-birimizdən istəməyə, bir-birimizlə danışmağa, bir- birimizdən gileylənməyə və bir-birimizlə dərdləşməyə ehtiyacımız var.

İran İslam İnqilabının qələbəsinin on birinci ildönümü ərəfəsində İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

İnqilabın böyük möcüzəsi: mənəviyyatın dirçəlişi

Yaxşısı budur ki, mən imamın əli ilə və Allah naminə qiyama inamla baş vermiş bu işin dəyəri haqda danışmayım. Çünki məsələ o qədər möhtəşəm və söz o qədər çoxdur ki, lazımınca danışmaq həqiqətən çətin məsələdir. Mən sizin kimi savadlı və məlumatlı qardaşlara bu qədər deyim ki, uzun illər idi dünya mənəviyyatdan və dindən uzaqlaşmaqda idi. Bir neçə əsr öncə dünyada bu hərəkət başlamışdı. Əlbəttə ki, bunun səbəbləri var, naməlum bir şey deyil. Son iki yüz ildə - yəni aydınlıq, humanizm, sənaye və elmi inkişafların zirvəyə yüksəldiyi 19 və 20-ci əsrlərdə dünya dinsizliyə və mənəviyyatdan uzaqlaşmağa sarı sürətlə hərəkət edirdi. Bu gedişin bir qədəri təbii və baş verənlərin nəticəsi idi. Bir qədəri isə düşünülmüş və proqramlı şəkildə həyata keçirilirdi.

Dünyanın bütün güc mərkəzləri bu nəticəyə gəldilər ki, dünyada dini məhv etməlidirlər. Bütünlüklə dinin adını yox, zahiri qorunsa da, onun həqiqi və əsl mahiyyətini məhv etmək istəyirdilər. Həqiqi dini inanc yox edilməli idi. Nə qədər pul xərcləndi, nə qədər insan xaincəsinə yox, inamla dini inancın məhvini bəşəriyyət üçün lazım bildi. Onlar dünyada, o cümlədən İslam dünyasında mənəviyyatı məhv etmək üçün kitab yazdılar, sənət əsərləri yaratdılar, təbliğat apardılar, güc işlətdilər, pul xərclədilər.

Mənəviyyat əleyhinə bütün bu işlərin görüldüyü belə bir dünyanın həssas nöqtəsində isə mənəviyyat və İslam devizli bir hökumət və quruluş yaranır. Bu, möcüzənin hamısı deyil, onun əvvəli, bu hökumətin yaranmasının və onun onillik fəaliyyətinin başlanğıcıdır. Biz bu müddətdə anbaan inkişaf etmişik. Əgər kimsə bizim bu on ildə bir an dayandığımızı düşünsə, səhvə yol vermişdir. Bu on ildə biz anbaan irəliləmiş və inkişaf etmişik. Bu on il ərzində bu dini quruluşun təkamül hərəkəti müxtəlif yollarla dünya düzənini qoruyan bu düyünlərin və bağların hamısın açmış, bütün bu vəziyyəti dəyişmişdir.

İran İslam İnqilabının qələbəsinin on birinci ildönümü ərəfəsində İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

Gözlənilməz inqilab möcüzəsi

Bizim və sizin kimilər həbsxanalara, kameralara, məxfi evlərə və qürbət yerlərə getdiyimizdə, qaçdığımızda bu gün həyata keçmiş belə bir möcüzəyə inanardıqmı?! O zaman bizə və bizim kimilərə qarşı güclü repressiya vardı. Mənim özüm iki məsələyə görə rejimin təhdidi altında idim və təqib olunurdum. Bir neçə gün qalmaq üçün bir yer tapır, bir yerdən o birinə gedirdim. Küçədə yol gedərkən öz vəziyyətimi şüşə kimi saf bir buz üzərində hərəkət edən, çox diqqətlə yol getməli olan və bir andan sonra bərk yerə yıxılıb sümüklərinin qırılıb-qırılmayacağına əmin olmayan bir insana bənzədirdim. Biz və hərəkatda olan bütün qardaşlar illərlə belə yaşadıq. Heç təsəvvür edərdik ki, beynəlxalq hegemonluğun möhkəm qalası olan İran bir gün ona qarşı mübarizənin möhkəm qalasına çevrilə bilər?! Lakin gördünüz ki, oldu.

İran İslam İnqilabının qələbəsinin on birinci ildönümü ərəfəsində İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

Məktəb və xalq - inqilabi dəyərlərin əsasları

Bizim uğrunda çalışıb-işləmək istədiyimiz dəyərlərin iki əsası və təməli var: məktəb və xalq. Məktəb xalqsız təsəvvür olunmur. Çünki bizim məktəbimiz xalqdan ayrı deyil. Ümumiyyətlə İslamı xalqdan ayırmaq, xalqı və onun taleyini buraxıb dinə, Allaha və İslama sarılmağı söyləmək bir hiylədir. Bu, təhrif olunmuş İslamdır. Bu, mübarizənin ilk günündən imamın vuruşduğu məsələdir. Yaxşı və alim insanların çoxu bu yolda imamın sözünü anladılar. Bəzi qapalı və nadan şəxslər isə axıra qədər anlamadılar və bəzi adamlar hələ də bu həqiqəti dərk etmirlər. İslam təfəkkürü xalq izdihamından ayrı və xalq naminə çalışmaqdan başqa bir deyil. Sizin fikrinizcə İslamdan olan, lakin xalqın xeyrinə olmayan bir şey görsəniz, bilin ki, ya onun İslamdan olmasında, ya da özünü dərk etməkdə mütləq səhvə yol vermisiniz. Deməli, bizim İslam və inqilab dəyərlərimizin əsası məktəb və xalqdır.

İran İslam İnqilabının qələbəsinin on birinci ildönümü ərəfəsində İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

Gözəl həyat - inqilabın əsas məqsədi

İran xalqının Böyük İmamın rəhbərliyi ilə etdiyi və inqilabın qələbəsi ilə nəticələnən bütün mübarizələrində və inqilabın qələbəsindən sonra bu ölkədə görülən bütün işlərdə məqsəd İslamın nəzərdə tutduğu gözəl həyatı təmin etmək olmuşdur. İslam insana münasib və layiqli həyat üsulu tanıyır. Əgər yalnız bu həyata keçsə, insan səadətə və kamilliyə nail ola bilər. Bəşərin bütün qayğıkeşlərinin, böyük bələdçilərin, tarix boyu böyük peyğəmbərlərin, ölvliyaların və Allah yolunun mücahidlərinin məqsədi bəşər üçün bu gözəl həyatı yaratmaq olmuşdur. Digər tərəfdən, bütün insan düşmənlərinin, şeytan və tağutların məqsədi bəşəri bu gözəl həyatdan uzaqlaşdırmaq olmuşdur. Buna görə, iman, eləcə də şeytan və tağutlara düşmənlik elementi bütün peyğəmbərlərin dəvətinin əsas hissələrindən olmuş, İslam peyğəmbəri (s) də bu məqam üzərində dayanmışdır.

Xalqın müxtəlif qrupları, Şəfəq ongünlüyü mərasimində və "İslam təfəkkürü" konfransında iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1990.

İnqilabın müstəsna xüsusiyyətləri

İndiki dövrdə, yəni iyirminci əsrdə dünyada müxtəlif inqilablar baş versə də, İran İslam İnqilabı onların hamısından fərqli bir inqilab idi. İndiyədək bu inqilabın hər bir şeyi müstəsna olmuşdur və heç bir cəhətdən digər inqilablarla müqayisəolunası deyil.

Təbii ki, söhbət inqilablardan gedir. Dünyada bəzi ölkələrdə hərbi çevriliş baş vermiş və bu çevrilişlərin adını inqilab qoymuşlar. Lakin inqilab haqda danışarkən onlar söhbətəlayiq mövzular deyil, tamam başqa mövzulardır. Burada söhbət inqilablardan, yəni xalq tərəfindən baş verən, cəmiyyətin etiqadi və ictimai prinsiplərinə dayanan dəyişikliklərdən gedir. Son bir neçə onillikdə dünyada çoxlu belə inqilablar baş versə də, heç biri bizim İslam inqilabımız kimi olmamışdır. Buna görə bu inqilab 11 il ötəndən sonra da dünya miqyasında öz gözəlliyini qorumuşdur.

Bu inqilabın müstəsna xüsusiyyətlərindən ikisini qeyd etmək istəyirəm. Bu iki xüsusiyyət bu inqilabın dünyadakı imicinə ən böyük təsiri göstərmişdir. İnqilabın qələbəsində və İslam ölkəsinin həmişəyaşarlığında da onlar ən böyük rolu ifa etmişlər. İnqilabın qələbəsindən bir neçə il keçməsinə baxmayaraq, bu iki xüsusiyyət hələ də dünyanın müxtəlif yerlərində ən azı bəzi hərəkət, yenilik və səylərə səbəb olmuşdur.

1. Dini, əxlaqi və mənəvi dəyərlərə əsaslanmaq

Bu iki xüsusiyyətdən biri odur ki, bu inqilabın təməli dini, əxlaqi və mənəvi dəyərlər idi. İkinci xüsusiyyət budur ki, inqilab özünün baş verməsində və hökumətin idarəsində xalqın iradə və istəyinə əsaslanmaqda davam etdi. Yəni inqilabın qələbəsindən sonra xalqın roluna əhəmiyyətsiz yanaşılmadı və bir faktor kimi inqilab üçün qaldı. Bizim inqilabımızda bu iki xüsusiyyət var.

Digər inqilabların əksəri maddi təfəkkürlər əsasında baş vermişdir. Bu təfəkkürlərin ideoloji maddi təfəkkürlər, yəni marksist və

kommunist təfəkkürləri olması və yaxud materialist bir ideologiyaya əsaslanmayan və dini baxışı olmayan vətənpərvər düşüncələrə dayanması mümkündür.

Bütün inqilablar belədir. Hətta əvvəldə din və İslamla başlayan inqilablar da sonda İslamdan uzaqlaşmışlar. Həm Asiyanın, həm Afrikanın bəzi ölkələrində inqilablar əvvəlcə məscidlərdə formalaşdı, hərəkat məscidlərdən, yaxud dini mədrəsələrdən başlandı, lakin inkişaf edəndən sonra dindarların arasında yetərli rəhbərlik gücü olmadığından digərləri onu ələ keçirdilər və dindən uzalaşdırdılar.

Dünyanın inqilab etmiş təxminən heç bir nöqtəsini bu ümumi qaydadan xaric bilmirəm. Bizim ölkəmizdə isə belə olmadı. Bizdə inqilab din evindən - yəni məsciddən və dini mədrəsədən başlandı, onda dini amillər günbəgün artdı, dinin və mənəvi dəyərlərin rolu o qədər gücləndi ki, adətən heç bir inqilaba qoşulmayacaq xislətə malik olan insanları da inqilaba qoşdu; hətta yaşlı və siyasi məsələlərdən xəbərsiz insanları, ucqar şəhər və kəndlərdə yaşayan adamları da mübarizə meydanına çəkdi. Bundan əlavə, bu inqilabda olan dini ruh həmin dövrdə ən az tələfatın baş verməsinə səbəb oldu. Bu mühüm məsələdir. Əgər kimlərsə dünyanın materialist inqilablarını, xüsusən də Rusiyanın Oktyabr inqilabını mütaliə etmiş olsa, bunun mənasını çox yaxşı anlayar.

Dinsiz bir inqilabın baş verdiyi yerlərdə inqilabın çiçəkləndiyi və hərəkatın zirvə nöqtəsinə çatdığı zaman çoxlu tələfatlar baş vermişdir. Çünki heç bir qanun-qayda altında olmayan bir quruluşu devirmiş və yerinə hələ qüvvə gətirməmiş xalq adətən çox sərt ictimai rəftarları və intiqam alması ilə yadda qalır. İşarə vurulan inqilabda çoxlu belə hadisələr baş verdi. Həmin inqilabı və onun kimi inqilabları oxuyanlar bunu təsdiqləyərlər. İntiqam, sui-istifadə, uyğun olmayan adamlar bir müddət ölkənin bir hissəsini özlərinə qoruq edirlər; nə qədər sərvəti tələf, nə qədər günahsız insanı məhv edirlər və sair.

Bizim inqilabımızda isə belə hallar baş vermədi. Burada Tehran əhalisi dükanları bağlayıb iş-güclərini tətil edəndə, hamılıqla mübarizə

meydanına qoşulanda ətrafdakı şəhər və kəndlərdən onlara çörək gətirdilər - yəni tam dəstək verdilər. Burada xalqın qəzəbi bir maddi məsələyə görə alovlanmamışdı, din, mənəviyyat və Allah məsələsi vardı. Bu da xalqın rəftarına xüsusi təsir buraxır və fəaliyyətini formalaşdırır. İnqilab qələbə çalandan sonra onun əsasında bir İslam hökuməti, yəni İslam Respublikası yarandı və sola-sağa əyilmədən düzgün din xəttində qaldı. İslam Respublikası yarandıqdan sonra da dinin yolunu tərk etmədi, qanunvericilikdə, vəzifəli şəxslərin, icra aparatının və quruluşun əsas məmurlarının - millət vəkillərinin və digər məmurların seçimində xalq İslam meyarlarını rəhbər seçdi.

Din inqilabın xüsusiyyəti olub elə də qaldı; bir gün inqilabın xüsusiyyəti olub, bir müddətdən sonra isə ondan alınıb başqa bir şeyə çevrilmədi. Bu xüsusiyyət başqa heç bir inqilabda yox idi. Məhz bu kimi mühüm amillər səbəbindən dünyanın harasında din və İslam üçün bir qəlb döyünürsə, İslam üçün hərəkət edən və İslamın sözünün ucalmasını düşünən İslam Respublikasını sevir.

2. Xalq inqilabı olması

İkinci xüsusiyyət xalq inqilabı olmasıdır. Digər həqiqi inqilablar qələbədən sonra çox zaman xalqa etinasız yanaşmışlar. Hərbi çevrilişlərlə işimiz yoxdur, inqilablar isə həmişə və dünyanın hər bir yerində xalq tərəfindən həyata keçir. Lakin qələbə çalandan sonra, yaxud qələbə ərəfəsində partiyalar inqilabın və xalqın yerini tutub və xalq kənara çəkilib. Kommunist və sosialist ölkələrində əksər quruluşlar inqilabla yaranmışdır, xalqın rolu böyük olmuş, xalq inqilabçı və mübariz qruplara kömək etmişdir. Lakin bu ölkələrin hamısında inqilab qələbəyə yaxınlaşan, yaxud qələbə çalan kimi xalq səhnədən çıxarılmış və partiya hər şeyi ələ keçirmişdir. Kommunist partiyası, yaxud başqa hər hansı bir partiya görmək istədiyi hər bir işi xalqın adı ilə görmüşdür, küçələrə çıxan, yaxud başqa yolla mübarizə aparan və ya mübariz qrupu dəstəkləyən xalqın isə heç bir rolu olmamışdır.

Xalqın hətta qanunverici orqana bir deputat seçmək haqqı da olmayıb. Parlamentləri və qanunverici orqanları olan bu ölkələrin heç birində millətin vəkilləri yoxdur. Ümumiyyətlə xalqın heç bir rolu olmayıb. Çox qəribə olsa da, dünyanın hər yerində belə olmuşdur.

Bir-iki il öncə sosialist ölkələrindən birinə getmişdik. Bizim İslam Şurası Məclisinin möhtərəm deputatlarından olan bir yoldaşımız həmin ölkənin Milli Məclisinin rəsmi şəxsləri ilə parlament haqda söhbətlər etmişdi; bizim parlament haqda onlara məlumat vermiş və onların parlamenti haqda məlumat öyrənmişdi. Biz oturub bir məsələ haqda söhbət edirdik. O, çox ciddi bir görkəmdə bizim yanımıza gəlib dedi ki, biz bu cənablardan mühüm məlumatlar öyrəndik. Bizim deputatımız onlardan parlament deputatlarının sayı, nə zaman iclas keçirməsi, spikerin necə seçilməsi hada soruşmuşdu. Məlum olmuşdu ki, bunların Milli Məclisləri hökumətə bağlı partiya tərəfindən seçilən şəxslərdən ibarətdir. Yəni həmin partiya tərəfindən məsələn 500-600 nəfər qurultay üzvləri və deputatları olaraq seçilirlər və bu Milli Qurultay ildə iki dəfə iclas keçirir.

Siz görün qanunverici orqanlarının ildə yalnız iki dəfə iclas keçirdiyi bu ölkədə qanunu kim qəbul edir? Qanunvericilik səlahiyyəti kimin əlindədir? Hökumətin başında oturanların. Onlardan hökumətlərinin adını soruşsanız, deyərlər ki, sosial-demokrat - yəni xalq hakimiyyətidir. Xalqın adı var, amma heç bir işdə rolu yoxdur. Özü də bu, inqilab etmiş xalqdır. Bu ölkələrin adı da inqilabçı ölkədir. Bizim dünyada gördüyümüz bütün inqilablar və bir inqilab əsasında quruluş yaratmış ölkələr təxminən qeyd etdiyim vəziyyətdə idi.

Bizim inqilabımız birinci gündən bütün işləri xalqın öhdəsinə buraxdı. Yəni qanunverici orqan olan məclisi xalq qurur, xalqın nümayəndələrindən təşkil olunur və heç kəs xalqı hansısa deputatı seçməyə məcbur edə bilmir. Bu 270 nəfərin biri də xalqdan başqası tərəfindən seçilmir. Ölkənin icraçı orqanının rəhbəri olan prezidenti xalqın özü seçir; ürəyi istədiyini seçir, ixtiyar sahibi xalqdır. İranda keçirilən prezident seçkiləri hətta Qərbin demokratik ölkələrində də

keçirilmir. Çünki həmin ölkələrdə partiyalar bir-biri ilə mübarizə aparırlar, hər bir partiya bir nəfərin namizədliyini irəli sürür, həmin adama səs verənlər də əslində bu partiyaya səs verirlər. Xalqın əksəri o adamı ümumiyyətlə tanımır, hər hansı səbəbdən bu partiyanın tərəfdarıdır. Müxtəlif iqtisadi, siyasi və qeyri-siyasi maraqlar xalqı bir partiyanın tərəfdarına çevirir və onun namizədinə səs verirlər, namizədin özünü isə tanımırlar.

İranda isə belə deyil. İranda səsini qutuya salanların hər biri o şəxsi tanıyır və prezident kimi ona səs verir. Bu dəfə də elə oldu. Mənim prezident seçildiyim qabaqkı iki seçkilərdə də elə oldu. Ondan öncəki seçkilər də bu formada keçirilmişdir. İndiyəcən keçirdiyimiz beş prezident seçkilərində xalq səs verdiyi şəxsi özü tanıyıb səs vermişdir. Deməli, qanunverici orqanı xalq birbaşa və vasitəsiz olaraq seçir.

İcraçı orqanın və icra hakimiyyətinin başçısının seçilməsində də xalqın özü iştirak edir. Hətta ilahi bir vəzifə olan, ilahi, mənəvi və həqiqi meyarlara tabe olan rəhbərin seçilməsində də xalq rol oynayır. Gördünüz ki, xalqın nümayəndələri olan Dini Ekspertlər Məclisi oturub bir şəxsi müəyyən edir və seçir. Əgər Dini Ekspertlər Məclisinin seçdiyi həmin şəxs xalq tərəfindən qəbul olunmasa, onun rəhbərliyi alınmayacaq. Deməli, dolayısı və Dini Ekspertlər Məclisinin vasitəsi ilə rəhbəri də bütün xalq təyin edir. Əslində bir rəhbəri rəhbər edən, ona fəaliyyət imkanı, əmr və qadağa səlahiyyəti verən, əl-qolunu açan amil xalqın fikri, qərarı, istəyi və iradəsidir. Düzdür, imamın seçilməsi bu formada olmamışdı. Lakin xalqın imama eşqi və itaəti onun seçimindən də böyük idi.

Burada siyasi və iqtisadi fəaliyyətlərdə və hərbi hərəkətlərdə xalqın dəstəyi və rolu var. Əgər bu gün hökumət, yaxud məmurlardan biri bir iş görmək istəsə və xalq bu işi istəməsə, qarşısını ala bilər. Xalq hər yerdə fəaldır. Bu, bizim inqilabımızın xüsusiyyətidir. Dünyada heç bir inqilab belə deyil. Bu sözü ətraflı məlumatla deyirəm. Bizim inqilabımız müstəsnadır.

Nəticə etibarilə quruluş güclü quruluşdur, çünki xalq quruluşudur. Böyük güclər tərəfindən məhvi mümkün olan hökumət xalqa arxalanmayan hökumətdir. Bir ölkədə Amerikanın casus şəbəkəsi tərəfindən aparılıb-gətirilən hökumət xalqla rabitəsi olmayan, arxasında xalqın güclü və möhtəşəm dəstəyi durmayan hökumətdir. Xarici düşmənin dörd nəfəri çevrilişə vadar və təhrik edə bildiyi hökumət taxt üzərində əyləşən, lakin xalqla bir olmayan hökumətdir; xalq öz işindədir, o da öz işində.

Hakimin - istər rəhbərin, istər prezidentin, istər Ali Məhkəmə sədrinin, istər İslam Şurası Məclisi spikerinin xalqla olduğu, xalq tərəfindən sevildiyi və dəstəkləndiyi quruluş İslam Respublikası quruluşudur. Nə Amerika və onun müttəfiqləri, nə Şərq, nə Qərb, nə də hər hansı bir güc bu quruluşu və hökuməti devirməyə və hətta zəfilətməyə qadirdir.

Tehranın cümə namazı xütbələrindən: 1990.

İnqilabın qələbəsinin və düşmənin ədavətinin səbəbi: İslam

Məsələ burasındadır ki, əgər bu inqilab İslam inqilabı olmasaydı, ona din alimləri rəhbərlik etməsəydilər, şübhəsiz, qələbəyə nail olmaz, müstəqil, başıuca və güclü bir hökumət qura bilməzdi. Bu bizim təhlilimiz deyil, inqilab məsələlərini qələbədən öncədən bu günə qədər izləyən bütün şəxslərin gəldiyi nəticədir.

1977-78-ci illərdə qarşı cəbhənin - yəni devrilməkdə olan zalım rejimin başçılarının, dini təfəkkürə və ruhani şəxsiyyətlərə müxalif olanların təhlili bunu deyirdi və bu təhlil əsasında ruhaniləri səhnədən çıxarmağa, onların arasında ixtilaf yaratmağa və ya onlarla xalqı bir-birindən ayırmağa çalışırdılar. Lakin bacarmadılar; istədilər, çalışdılar, amma alınmadı. Alınmamasının səbəbi mürəkkəbdir. Həqiqətən kimsə bu inqilabı təhlil etmək, bu gülün açılmasını, bu ağacın bitməsini, bu bulağın dünya mədəniyyətinin indiki dövrünün daşlı-qayalı səhrasında çağlamasını düzgün təsvir etmək istəsə, bu suala asanlıqla aydın cavab tapa bilməz.

İnqilabın qələbəsində Allahın qüdrət və iradə əlamətlərindən biri o misilsiz rəhbərin meydana çıxması idi. Mən bu nəticəyə çox yaxınlaşmışam ki, Allah-Taala bu inqilabın ərsəyə gəlməsindən on illər öncə dinin və İslamın dünyada belə qələbəsindən ötrü Qum Elm Hövzəsinin yaranmasına, şəxsiyyətlər yetişdirməsinə və onların arasından o misilsiz şəxsiyyəti ucaltmasına zəmin yaratmışdı.

Əgər insan məsələlərə adi gözlə baxsa, səbəb və nəticələrin təbii düzülüşünü araşdırsa, görər ki, ruhaniliyin fəallığı, öncüllüyü, sayıqlığı, vəzifəsini bilməsi və digər dəyərli xüsusiyyətləri bu inqilabın baş verməsində, qələbəsində, həmçinin İslam Respublikası hökumətinin və quruluşunun yaradılmasında və onun bu günə qədər davam etməsində ən mühüm amillərdən biri və bəlkə də birincisi olmuşdur. Düşmən də bunu bilir. Məhz buna görə keçmişdə və indi hegemon dünya tərəfindən bu inqilaba qarşı təzyiqlər birinci növbədə dinə və ruhaniliyə yönəlir. Əgər ölkəmizin ruhaniləri meydanda olmasaydılar, inqilaba rəhbərlik

etməsəydilər, bu qələbə hasil olmazdı. Bunu düşmən bilir və buna görə onun böyük düşmənliyi birinci növbədə İslama və ruhaniliyə yönəlir.

Qum Elm Hövzəsinin və Tehranın dini mədrəsələrinin alim, müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 1990.

İlahi hidayət əli - inqilabın daimi himayədarı

Biz dövrümüzün insanları arasında böyük imamımız üçün həqiqətən bir bənzər tanımırıq, hidayət imamlarından və Allah övliyalarından sonra onun kimisini çox az görmüşük. Düşünürəm ki, o, münacat, tövbə, dua, idadət və mənəviyyat adamı olmasaydı, Allah-Taalanın ona bütün bu uğurları bəxş etməsi çox çətin olardı. Onun uğurları böyük həddə Allahla rabitəsinə, qəlbinin ilahi dərgaha, tövbə, münacat və duaya açıq olmasına borclu idi. İnsan son illərdə bu mənəvi və ilahi insanın anbaan inkişaf etməsini hiss edirdi. Hər bir ramazan ayında onun daha nurlandığı və Allah-Taalanın onu hidayət etdiyi görünürdü.

Biz bu on bir ildə imamın arxasınca getdiyimiz yolu ilahi hidayət, himayə və kömək olmadan təbii şəkildə gedə bilməzdik. Biz qəribə dolanbaclardan keçdik və imamın rəhbərliyi sayəsində sərt eniş-yoxuşları arxada qoyduq. Bütün bu işlərdə ilahi hidayət bizə yardım edirdi.

Onun özünün fikri də bu idi. Mən ondan bu sözü eşitmişdim: "Mən inqilabın əvvəlindən hidayət əlinin bizə kömək etdiyini və qarşımızda yolları açdığını hiss edirəm". Həqiqət də budur və Allah-Taala bu hidayəti mübarizə, ixlas, paklıq və mənəviyyat qarşılığında təqdim edir.

İlahi hidayət qafil insanlara aid olmur. Şəban münacatında belə oxuyuruq: "Bizim qəlblərimizin gözlərini Sənə baxmaqla işıqlandır".[1] Qəlb gözünü işıqlandırmaq, möminin ayıq qəlbi və görən gözü üçün həqiqətləri aydınlatmaq havayı başa gəlmir, Allahla rabitə, mücahidlik və zəhmət olmadan həyata keçməsi imkansızdır.

Bir dəfə ondan soruşdum ki, məşhur dualardan hansını daha çox sevir və oxuyursunuz. O bir qədər fikirləşəndən sonra buyurdu ki, Kumeyl duasını və Şəban münacatını. Digər dualar, məsələn Əbu

[1] "Məfatih əl-cinan", Şəban münacatı.

Həmzə Sumali duası, yaxud İmam Hüseynin (ə) Ərəfə günündəki duası da Allahla güclü rabitə yaratsa da, bu dua və bu münacatda Allaha tövbənin, Allahdan əfv diləyinin, yardım istəyinin və yalvarmanın aşiqanə formada olduğu müşahidə olunur. Kumeyl duası da Allah-Taala ilə münacatdır, bəndə ilə məbud arasında məhəbbət və eşq rabitəsini təsvir edir. Bu, bizim böyük imamımızın öz ruhunu və qəlbini işıqlandırdığı amildir.

İmam Hüseynin (ə) doğum günü və Mühafizəçi günündə korpus mühafizəçiləri ilə görüşdəki çıxışdan: 1990.

Əsl İslamla Amerika İslamının fərqi

Allaha şükür olsun ki, bizim yolumuz imamın göstərdiyi aydın İslam yoludur. Bizim yolumuz Allahın düşmənlərinin qorxduğu, məzlumların isə sevinib ümidvar olduğu İslamın yoludur, adı İslam olan, lakin əvvəldən axıra qədər İslam düşmənlərinin xidmətində duran dinin yox. Biz belə İslam kimi qəbul etmirik. Bu, Amerika İslamıdır. Mərhum və hikmətli imamımız bu düzgün sözü dəfələrlə təkrarlamışdır.

Əsl İslam əbucəhllərin qorxduğu İslamdır. Əbucəhl və əbusüfyanların qorxmadığı və düşmən olmadığı bir İslamın İslam olmasına şübhə etmək lazımdır. Məzlum və məhrum təbəqələrin ümidvar olub könül vermədiyi İslam da əsl İslam deyil. Yalnız öz ölkəmizdə yox, bütün dünya səviyyəsində məzlum təbəqələrin yatmış və sönmüş arzularını yaşadıb dirçəldə bilməyən bir dinin İslam olmasına şübhə ilə yanaşın.

İmam Hüseynin (ə) doğum günü və Mühafizəçi günündə korpus mühafizəçiləri ilə görüşdəki çıxışdan: 1990.

22 Bəhmənin başqa bir novruz olması

Novruz - yəni yeni gün sizin öz əməlinizlə yenilədiyiniz gündür. İran xalqının Allahın köməyi ilə böyük bir hadisəni həyata keçirdiyi 22 bəhmən də yeni gündür. Ümmət imamının dünyanın hegemon və quldur dövləti olan Amerikanın ağzından vurduğu gün yeni gün, yeni yol və baş verən yeni hadisə idi.

Mübarək ramazan ayı ərəfəsində və (hicri-şəmsi təqvimi ilə) yeni ilin birinci günündə (21 martda) hökumət və ordu nümayəndələri ilə görüşdəki çıxışdan: 1990.

İnqilabın təsirlərindən biri: hemonluğun təhqiri

Bu xalq dünyaya şücaət verdi. Bu xalqın rəftarı ruhani imamın və misilsiz rəhbərin güclü hidayəti və qətiyyəti ilə yolu açdı, xalqları cəsarətləndirdi, hegemonluğu kiçiltdi, ona həqarət hissi verdi, insanların və xalqların qüdrətli oldunu aşkara çıxardı. Xalqların gücünü inkar edib, onları qlobal güclərin əlində kukla olan zəif hakimlərə tapşırmışdılar. Bu gün isə xalqlar öz güclərini anlayırlar. Bu gün xalqlar oyanmışlar. Əlbəttə, zahiri güc baxımından bu gün hegemonluq siyasət və iqtisadiyyat sahəsində çox güclü və böyükdür. Amma həmin qədər də zəif və acizdir və xalqların gücündən həqiqətən qorxur.

Mübarək ramazan ayı ərəfəsində və (hicri-şəmsi təqvimi ilə) yeni ilin birinci günündə (21 martda) hökumət və ordu nümayəndələri ilə görüşdəki çıxışdan: 1990.

İslam inqilabı - haqqı axtaranlara qəti əlamət

Allah-Taala siz İran xalqının İslam inqilabı barədə bütün dünya xalqına və həqiqəti axtaranlara qəti əlamətlər göstərmişdir. Bəlkə də dünyanın bir çox pak və ixlaslı insanları bir hadisə qarşısında şübhəyə düşür, o hadisəni təhlil edə və barəsində mühakimə yürüdə bilmirlər. Bizim özümüz də bəzən dünyada baş verən bir hadisə haqda qəti fikir yürüdə bilmirik. Misal üçün, bir ölkədə bir hökumət iş başına gəlir, yaxud dünyanın bir yerində iki cinah arasında qarşıdurma yaranır və əldə yetərli dəlil və faktlar olmadığına görə o barədə mühakimə yürütmək olmur.

Lakin mən deyirəm ki, dünyada İran xalqının İslam inqilabı barədə düzgün mühakimə yürüdə bilməyən və şübhədə qalan heç bir kəs yoxdur. Allah bu inqilab barədə heç bir şübhə saxlamamışdır. Bu inqilabı tanımaq üçün o qədər aydın dəlillər var ki, dünyada kimsə həqiqətən haqqı tapmaq istəsə, əsla şübhəyə düşməz. Qərəzlə danışanlarla işimiz yoxdur; bu inqilaba görə maraqları təhdid olunanlarla, yaxud tapdananlarla işimiz yoxdur; öz xalqlarının oyanışından qorxan və bu səbəbdən inqilabla düşmən olan, barəsində pis mühakimə yürüdən avtoritar və zalım hakimlərlə işimiz yoxdur. Söhbət qərəzsiz, haqqı axtaran və həqiqəti öyrənmək istəyən şəxslərdən gedir. Belə adamlar dünyanın harasında olsalar, əgər bu inqilabın adını, yaxud onun haqqında bir xəbər eşitmişlərsə, şübhəyə düşmürlər və ona dair aydın bilgiyə sahibdirlər.

Həzrət İmam Rzanın (ə) ziyarətçilərinin və Məşhəd əhalisinin böyük toplantısında çıxışdan: 1990.

İran İslam Respublikasının digər İslam respublikaları ilə fərqi

İslam Respublikası hərfi məna baxımından iki şərtə əsaslanır: biri xalqdır, yəni ölkənin əhalisi. Ölkənin idarəsini və dövlət qurumlarını təyin edən xalqdır. Biri də İslam şərtidir - yəni xalqın bu hərəkəti İslam təfəkkürü və şəriətinə əsaslanır.

Bu təbii haldır. Böyük əksəriyyəti müsəlman, özü də zaman boyu özünün İslama güclü inancını sübuta yetirmiş imanlı, etiqadlı və saleh əməlli müsəlman olan belə bir ölkədə hakimiyyət xalq hakimiyyətidirsə, deməli, həm də İslam hakimiyyətidir.

Xalq islamı istəyir. Bu ilk gündən deyildi və uzun illər də təcrübə olundu. Bu gün bizim quruluşumuzda ən aydın həqiqət budur ki, xalq ölkəyə hakim quruluşda müsəlman olmasını, müsəlman kimi əməl etməsini və cəmiyyətdə İslamı reallaşdırmasını istəyir.

Bu hökumət və bu quruluş dünyada bu adla elan olundu, quruldu, xalq da buna səs verdi. Qeyd etdiyim kimi, xalq əslində İslama səs verdi, İslam Respublikası adının İslamdan xəbər verdiyini bildiyi üçün bu respublikaya səs verdi.

Dünya belə bir quruluş tanımırdı və o zamana qədər görməmişdi. Düzdür, bizdən öncə dünyada İslam respublikası adlanan ölkələr vardı; həm Asiyada, həm də Afrikada rəsmi adı İslam Respublikası olan ölkələr var. Bəlkə də dünyada və hətta ölkə daxilində bu İslam Respublikasının da qabaqca qurulmuş, adda İslam, əməldə isə qeyri-müsəlman ölkələrlə heç bir fərqi olmayan həmin iki İslam respublikası kimi olacağını düşünürdülər. Həmin ölkələrdə parlament və qanunverici orqan qanunları İslam şəriətinə əsaslandırmağa vəzifəli deyil. Onların hökumət başçıları İslamı təbliğ etməyə börclu deyillər və xalqları da bu hökumətlərdən İslam hökmlərinin icrasını gözləmirlər.

Tehranın cümə namazı xütbələrindən: 1990.

İslam Repsublikasının ikiqütblü dünyaya son qoyması

İslam Respublikası quruluşundan öncə dünya uzun illər iki hakimiyyət növünü təcrübə və qəbul etmişdi: Qərb demokratiyasını və kommunist hökumətlərini. Qədim dövrdə avtoritar şahlar vardı. Onlarda qanun yox idi, qanunu özləri qəbul edirdilər. Onların iradəsi xalqa mütləq hakim idi. Bu, hakimiyyətdə mürtəce və qədim bir üsuldur. Bu gün də bəzi ölkələr həmin üsulla, lakin müxtəlif ad və formalarla idarə olunurlar. İnqilabdan öncə bizim ölkəmiz də həmin üsulla idarə olunurdu. Dünyanın inkişaf etmiş ölkələri özlərini belə despotizmdən xilas etdikdən sonra iki növ hökuməti təcrübə etmiş və tanıyırdılar: biri Qərb ölkələrində və onlara bağlı ölkələrdə hakim olan Qərb demokratiyası, biri də kommunist hökumətləri. Kommunist hökumətləri adlarını fəhlə hakimiyyəti qoymuşdular, lakin bu hökumətlərin başında duranlar zadəganlar idilər, fəhlələr yox. Həmin ölkələrdə hakimiyyət piramidasının zirvəsində durub hökmranlıq edənlər şah və sultanlarla fərqlənmirdilər.

Bu iki Qərb və Şərq düşərgəsi bir-biri ilə qızğın mübarizə aparır, bir-birini inkar edirdilər. Lakin İslam Respublikası - bu yeni hökumət üsulu yarandıqda hər iki düşərgə əvvəlcə təəccüblə, sonra isə qorxu ilə ona qarşı mübarizəyə başladılar.

Tehranın cümə namazı xütbələrindən: 1990.

İslam Respublikasının xüsusiyyətləri

Səbəb nə idi? Səbəb bu idi ki, İslam Respublikası həmin iki düşərgədə geniş yayılmış hər iki hakimiyyət üsulunu rədd edən, onları insan həyatı üçün səhv və zərərli saydığını elan edən xüsusiyyətlərə malik idi. Başqa sözlə desək, Şərqdə və Qərbdə geniş yayılmış bu iki hakimiyyət üsulunun müştərək cəhətləri vardı və bu ölkələrdə ümumi mədəniyyət bir idi. O mədəniyyət xalqı qəflət içində saxlamaqdan, ehtirasları və nəfsi özbaşına, tam sərbəst buraxmaqdan ibarət idi. Bu, hər iki hakimiyyət üsulunda mövcud idi və indi də var. Bu, Şərq və Qərbin müştərək mədəniyyətidir.

İslam bu müştərək xüsusiyyətlərlə müxalif idi və öz müxalifətini elan edib dedi ki, İslam Respublikası hökuməti öz tabeliyi altında olan xalqın tam müstəqilliyini təmin edir. Bu, tam müstəqillik, siyasi, iqtisadi və hamısından üstünü, mədəni müstəqillikdir. Yəni İslam Respublikası siyasi baxımdan böyük güclərdən müstəqil olan bir hökumət yaratmaqla kifayətlənmədi. Bu birinci addımdır.

1. Siyasi müstəqillik

Müstəqilliyə qovuşmuş ölkələrin birinci işi öz siyasi quruluşlarını müstəqil etmələri, yəni əcnəbi güclərin təsirindən azad bir hökumət qurmalarıdır.

2. İqtisadi müstəqllik

İqtisadi müstəqillik siyasi müstəqillikdən çətin və gec əldə olunur. Görürsünüz ki, əcnəbi güc və dövlətlərin iqtisadi təsirini və istismarını asanlıqla sıradan çıxarmaq olmur. Bir ölkənin iqtisadi müstəqillikdən ötrü bacarıqlı insani resursa, gəlirli mənbələrə, çoxlu imkanlara, elmə, ixtisasa, beynəlxalq elmi və texnoloji əməkdaşlıqlara və başqa çoxlu amillərə ehtiyacı var. İnqilabçı və yeni müstəqlliyə qovuşmuş ölkələr iqtisadi müstəqlliyin bütün bu amillərini əldə etmək üçün böyük zəhmətlərə qatlanırlar.

Bizim ölkəmiz birinci saatdan iqtisadi müstəqillik istiqamətində işlərə başladı. İnqilabdan öncə asılı hökumətlər bu ölkədə Qərbdən, xüsusən də Amerikadan tam asılı olan bir iqtisadiyyat qurmuşdular. Bu asılılığa son qoymaq çox çətin iş idi, lakin biz buna nail olduq və iqtisadi müstəqillik istiqamətində hərəkətə başladıq.

Əlbəttə, tam iqtisadi müstəqilliyə çatmağımıza hələ çox var. Xalq işləməli, gənclər dərs oxumalı, mütəxəssislər çalışmalı və bu mühüm milli məqsədə hər hansı yardımı toxuna bilən şəxslər əllərindən gələni etməlidirlər.

Bir ölkə üçün iqtisadi müstəqillik həyati məsələdir. Bir ölkədə iqtisadi sahə əcnəbilərə tapşırıldıqda mənası budur ki, bu bədənin həyat və qida damarı başqa bir yerə birləşmişdir, ixtiyarı başqasının əlindədir.

Müasir dövrdə inqilabçı ölkələrin əksəri Şərqə meylli idi, Şərq dövlətlərindən yardım alırdılar. Misal üçün, Çin inqilab edəndə on il və hətta daha artıq müddətə qədər böyük qardaşı sayılan və sosialist inqilablarının öncülü olan SSRİ ona iqtisadi və texnoloji köməklər edirdi, oraya mütəxəssis və ekspertlər göndərirdi. Digər kommunist ölkələri də belə idi. Lakin İslam Respublikası özünün iqtisadi asılılığına son qoymaq üçün yalnız öz xalqının güclü iradəsinə, iranlıların parlaq istedadına arxalandı və indi də arxalanır. Deməli, bizim xalqımız iqtisadi müstəqillik yolunda irəlilədi və irəliləyir. Allaha şükür olsun ki, proqramlar həmin istiqamətdə tənzim olunmuşdur və olunmalıdır.

3. Mədəni müstəqillik

Mədəni müstəqillik bunların hamısından əhəmiyyətlidir. İslam Respublikası əvvəldən göstərdi ki, Qərbin pozğun və fəsad dolu mədəniyyətinin boyunduruğu altına girməyəcək. Mən qətiyyətlə deyirəm ki, böyük güclərin əsl istismarı mədəni istismardır. Yəni bir xalq öz mədəniyyətini, inamlarını, etiqadlarını, adət-ənənələrini və daha üstün mərhələdə öz əlifbasını və dilini başqa bir xalqa sırıya bilsə, deməli, o xalqa həqiqətən hakim olmuşdur. Son iki yüz ilin bir dönəmində fransızlar digər ölkələrdə bunu etdilər, bir dönəmində

ingilislər, son dövrlərdə isə amerikalılar. Onlar öz dillərini, əlifbalarını, mədəniyyətlərini və adət-ənənələrini bacardıqları hər bir ölkəyə ixrac etdilər. Bir ölkə iqtisadi baxımdan müstəqil olsa və əcnəbi güclərdən asılı olmasa da, əcnəbi güclər öz mədəniyyətlərini bu ölkəyə hakim edə bilsələr, ona hakim olmuş sayılırlar.

Mədəniyyət hava və su kimidir. Mədəniyyət mənim və sizin həyatımıza hakim olan adət-ənənələrdir. Mədəniyyət bizim inamlarımız, etiqadlarımız, şəxsi və ictimai həyatın, bir cəmiyyətin üzləşdiyi məsələlərdir. İslam Respublikası Qərb mədəniyyətini rədd edib dedi ki, bizim müstəqil İslam mədəniyyətimiz var.

İslam davranışda, fərdi həyat tərzində, yemək-içməkdə, geyinməkdə, dərs oxumaqda, hökumətlə münasibətlərdə, bir-biri ilə münasibətdə və alış-verişdə müsəlmanların vəzifəsini müəyyən etmişdir. Biz bunları qərblilərdən öyənmək və onları yamsılamaq istəmirik. İslam Respublikası bunu əvvəldən elan etdi.

Qərbdə qadın və kişinin məhdudiyyətsiz əlaqəsi adi hal, qadın və kişi münasibətlərində hicabın, vasitənin və fasilənin olmaması normal bir işdir. Demirik ki, Qərb ölkələrində bütün kişilər, yaxud qadınlar pozğundurlar. Yox, belə bir iddia etmir, belə böhtan yaxmırıq. Bu, həqiqətə uyğun da deyil. Heç şübhəsiz, onların arasında yaxşı və nəcabətli kişi və qadınlar da var, lakin ümumilikdə Qərb cəmiyyətlərinə cinsi azadlıq hakimdir. Bu, orada bir mədəniyyətdir. Qərb mədəniyyətində cinsi ehtirasların azadlığı icazəli və qeyd-şərtsiz bir məsələdir.

Bəzi Qərb ölkələri bu məsələdə çox inkişaf etmiş, öz həyatlarını xəcalətli formalara salmışlar. Onlar buna peşman olmuşlar. Bu, Qərb ölkələrinin mütəfəkkirlərinin, siyasətçilərinin, texnoloq və idarəçilərinin çarəsiz qaldığı və onlar üçün doğrudan da problem yaratdığı məsələdir.

Qərb bu mədəniyyəti, bu xarakteri və adəti bütün ölkələrə ixrac etdi. Başqa ölkələrdə belə fəsad yox idi, İslam ölkələrində və hətta Şərqin qeyri-müsəlman ölkələrində də belə bir şey mövcud deyildi. Bunu qərblilər idxal etdilər.

İslam Respublikası Qərbin bu fəsadlarına qarşı mübarizə apardı və əvvəldən elan etdi ki, qadın və kişinin qeyd-şərtsiz münasibətlərini düzgün saymır, hicabı, qadın və kişi arasında münasibətlərin İslam çərçivəsində olmasını məqbul sayır və onun üzərində dayanır. Bəzilərinə görə bu ikinci dərəcəli və xırda bir məsələdir. Halbuki səhv edirlər, bu çox əhəmiyyətli məsələdir.

Tehranın cümə namazı xütbəsindən: 31 mart 1990.

İslam Respublikasının Qərb mədəniyyəti qarşısında müqavimət göstərməsi

Burada deyim ki, Qərb dövlətlərinin İslam Respublikasına qarşı güclü müxalifətinin və ədavətinin ən mühüm səbəblərindən biri bu məsələdir. Onlar buna qarşı çox həssasdırlar. Əgər İslam Respublikası bu bir məsələdə güzəştə gedib qadın və kişinin qeyri-sağlam münasibətlərinə dair özbaşına Qərb mədəniyyətinin cəmiyyətdə həyata keçməsinə icazə versəydi, Qərbin siyasi və qeyri-siyasi təşkilatlarının İslam Respublikasına qarşı bir çox fəaliyyətləri ya azalardı, ya da bitərdi.

Siz bilirsiniz ki, bir vaxt bizim ölkəmizdə hicab qadağan edildi, amma dünyada heç kim buna etiraz etmədi. Bizim qonşu ölkəmiz olan Türkiyədə hicabı qadağan etdilər və son zamanlara qədər bu ölkənin bəzi iqtidarları eyni ənənəni davam etdirdilər. Bunun nümunələri son illərdə də göründü, amma dünyada heç kim buna qarşı etirazını bildirmədi və bildirmir.

Özünü inkişaf etmiş bilən, insan haqları məsələsinin onlar üçün böyük əhəmiyyət kəsb etdiyini iddia və reklam edən Avropa ölkələrində - yəni Fransa və İngiltərədə bir neçə müsəlman qadının İslam hicabı ilə get-gəl etmələrinə və məktəblərə girmələrinə icazə vermədilər. Belə yerdə qadağa qoymağı və maneə yaratmağı düzgün bilir, bunda bir eyib görmürlər. Lakin cəmiyyətdə hicabı vacib bildiyi üçün hər yerdə İslam Respublikasına qarşı etiraz sərgiləyirlər. Əgər qadınların hər hansı bir geyim formasına müdaxilə etmək düzgün deyilsə, onların müdaxiləsi hicabı vacib etməkdən daha böyükdür. Çünki bu, təhlükəsizliyə daha yaxındır. Ən azı budur ki, bunlara eyni formada yanaşmaq lazımdır. Lakin Qərb belə etmir.

Qadınların geyim formasında qadağalar olduğu üçün Qərb İslam Respublikasını qınayır, kişi və qadının çılpaqlığının və hicabsızlığının vacib edildiyi ölkələri isə tənqid etmir. Bu nə üçündür? Ona görə ki, bu, Qərbin qəbul etdiyi mədəniyyətin ziddinədir. Onlar bu məsələ üzərində çox həssasdırlar.

Qərb spirtli içkilərin yayılmasına həssaslıq göstərir, onu xalqlarda və onların adət-ənənələrində müsbət bir səciyyə kimi dəyərləndirir. Əgər bir ölkədə spirtli içkilər qadağan olunsa və onun istifadəsinə icazə verilməsə, həssaslıq göstərir və bunu mürtəcelik hesab edirlər. Əgər bir ölkədə spirtli içkilər azad, icazəli olsa və geniş yayılsa, hökumət ona qarşı çıxmasa, hətta onu təbliğ etsə, bunu alqışlayırlar.

Qərblilərə görə, Qərb mədəniyyətinə zidd olmadığı təqdirdə xalqı müxtəlif işlərə məcbur etmək mümkündür və bunun heç bir eybi yoxdur. Dəfələrlə demişik ki, Qərb ən ibtidai demokratiyadan da məhrum olan hökumət və ölkələrlə yaxşı münasibətdədir. Siz indi bu Fars körfəzi regionuna baxsanız, elə ölkələr görərsiniz ki, orada nə seçkilər keçirilir, nə qanunverici orqan var, nə ölkənin başçısını xalq seçir. Həmin ölkələrdə Daqyanus dövrünün üsulları kimi ölkə başçılığı irsən keçir. Ölkənin qanunlarını parlament və millət vəkilləri qəbul etmirlər, şah və kral qəbul edir. Amma eyni zamanda nə Qərb dövlətləri, nə də insanların hüquq və azadlıqlarını müdafiə etmək üçün yaradılmış dırnaqarası hüquq təşkilatları bunlara qarşı həssaslıq göstərirlər.

Halbuki İran İslam Respublikasında ən müstəqil və ən güclü parlament və Şura məclisi var. Az ölkədə, bəlkə də deyə bilərəm ki, dünyanın heç bir ölkəsində bizdəki İslam Şurası Məclisi kimi güclü və müstəqil bir parlament tapa bilməzsiniz. Partiyalar tərəfindən təşkil olunan parlamentlərdə deputat və millət vəkili partiyanın fikrinə tabedir. Burada isə partiya da yoxdur; siyasi cinahlar var, amma heç bir cinah parlament deputatının fikrinə hakim deyil, onun özü azad və müstəqil şəkildə seçim edir. Dünyanın harasında belə bir parlament var?!

Ölkədə prezidenti təyin etmək üçün keçirilən azad seçkilərin dünyada bənzəri azdır. Xalq seçki məntəqələrinə gedir və partiya təbliğatının təsirindən uzaq şəkildə tanıdıqları, sınaqdan keçirdikləri bir nəfəri müəyyən bir müddətə qədər prezident seçirlər. Dünyanın harasında belə bir şey var?!

Prezident seçkilərinin partiyalar vasitəsi ilə keçirildiyi bəzi ölkələrdə xalq hətta namizədləri tanımır. Partiya bir namizəd irəli sürür, xalq da həmin partiyaya inandığına, yaxud həmin partiyanı sevib qəbul etdiyinə və yaxud başqa bir maraqlara görə onun namizədinə səs verir. Burada isə elə deyil. Deməli, ən azad seçkilər, ən müstəqil parlament və ən demokratik hökumət İslam Respublikasındadır.

Burada ölkənin məmurları xalqla isti və səmimi münasibətdədirlər, özlərini xalqa xidmətçi bilirlər, xalq da onları sevir. Ölkə məmurlarının məişət vəziyyəti xalq kimi və orta həddədir, zadəganlar kimi və dünyanın digər ölkələrinin məmurları kimi deyil.

Belə bir demokratik ölkə, belə bir xalq hakimiyyəti, belə azad seçkilər keçirən bir ölkə mədəni baxımdan Qərblə müxalif olduğuna görə hətta demokratiyanı sevən Qərb də bu "mənfi" cəhətləri İslam Respublikasında görməyə hazır deyil. Bunlar ona görədir ki, İslam Respublikası əvvəldən əcnəbi Qərb mədəniyyətini qəbul etməyəcəyini elan etmişdir.

Bu xüsusiyyətlərə malik olan İslam Respublikası 1979-cu ilin 1 aprelində özünü elan etdi. Bu gün 11 ildir yaşayır, inkişaf edir və kamilləşir. Bütün antiislam qüvvələr İslam Respublikasına qarşı çıxmışlar. Biz bu bir neçə ildə həmişə demişik ki, məcburi müharibədə Qərbin və Şərqin İraq rejiminə və ordusuna yardımları İslamdan qorxduqlarına və İslamla düşmən olduqlarına görə idi. Biz bu sözü illlərlə bu cümə namazı kürsüsündən və digər yerlərdən təkrarlamışıq. Bu sözü qəbul etmək bəlkə də bəzilərinə çətin gəlirdi, amma bu gün bunu açıq şəkildə söyləyirlər. Bu gün qəzetlər, mətbuat və xəbər agentlikləri bu məsələni açıq şəkildə yazırlar. Son bir-iki həftənin xəbərlərində jurnalistlər və mətbuat nümayəndələri dedilər ki, Qərb İslamla düşmən olduğuna və mübariz İslamdan qorxduğuna görə İraqa kömək etdi və İslam Respublikasının müharibədə qəti hərbi qələbəyə nail olub İraqı səhnədən çıxarmamasına çalışdı. Onlar bunu etiraf edirlər.

İslam Respublikası bütün bu düşmənliyin qarşısında qüdrətlə dayandı, zəiflik göstərmədi, hətta daha da gücləndi, xaricdəki müsəlmanları da oyatdı və biz bu gün müsəlmanların oyanışının şahidi oluruq. Həmişə demişik, yenə də təkrar edirik ki, bu dövr İslamın və müsəlmanların inkişafı, oyanışı, qələbəsi dövrüdür və bu, İslam Respublikasının sayəsində baş vermişdir.

Tehranın cümə namazı xütbələrindən: 1990.

İslam Respublikasının dörd uğur amili

Bu on bir ildə İran xalqına və İslam Respublikasına bir neçə amil uğur gətirmişdir. İslama sadiqlik, böyük və mərhum imamımızın misilsiz rəhbərliyi, xalqın mübarizəsi və fədakarlığı, düşmənin İslam inanclarının sirləri ilə tanış olmaması bu amillərdəndir. Düşmən bu sirlərlə hələ də tanış deyil. Allaha şükür olsun ki, bu iman indi də var, bu fədakarlıqlar hələ də müşahidə olunur. Söz birliyi ilə bu yolu davam etdirin. Dünya sizi gözləyir.

Tehranın cümə namazı xütbələrindən: 1990.

İslam inqilabının mənşəyi

Bütün maddi proqnozlar bəşəriyyətin materializmə doğru getdiyini göstərərkən qəfildən bir hadisə baş verdi. Bu hadisə əvvəldə dünyanın diqqətini çox da cəlb etmədi, lakin analitik və müşahidəçilərin gözlədiyinin əksinə olaraq, onun həcmi, məzmunu və əhatə dairəsi günbəgün genişləndi və gözlənilmədən dünyanın bir nöqtəsində partlayışla nəticələndi. O zaman qlobal güclər indiyədək bu fenomeni yanlış dəyərləndirdiklərini anladılar. Buna çarə tapmağa çalışdılar, amma bacarmadılar. O hadisə nə idi? 1967-ci ildə İranda başlayan din və ruhani hərəkatı.

Bu hadisə baş verəndə dünyada heç kim onun əhəmiyyətini dərk etmədi. Hətta 15 xordad hadisəsi baş verəndə və məlum qırğınlar törədiləndə də dünyada rezonans doğurmadı; nə kimisə çox ümidləndirdi, nə də kimisə qorxutdu. Bir qığılcım kimi sonra söndüyünü düşündülər. Sanki bir talaşa, saman, çubuq və ya karton tez alışır, bir neçə andan sonra da sönür. Hamı onun bitdiyini düşünür, lakin bu şölənin altında çox qalın və quru odunların olduğunu bilmir. Onlar heç kim bilmədən alışır, hər an qalıcı və uzunmüddətli alov istehsal edir. Bu alovlar yarandı və 11 fevralda İslam Respublikasının yaranması ilə nəticələndi. Gözlənilmədən din və mənəviyyat əsasında analoqu olmayan bir quruluş meydana çıxdı. Yəni bu quruluş yarananda din və mənəviyyat düşmənləri üçün artıq gec idi. Onlar nə qədər zərbə vurdularsa və zülm etdilərsə, dünyada onun mənəvi nüfuzu və müsəlmanların ona diqqəti daha da artdı, müxtəlif yerlərdə alovlar yanmağa başladı. Onların bəzilərinin bəlkə heç özləri də haradan qaynaqlandığını bilmirlər.

Mazandaran vilayətinin ruhaniləri, cümə imamları və əhalisinin nümayəndələri ilə görüşdəki çıxışdan: 1990.

İmamın meydana çıxmasının ilahi yardım olması

İmam həqiqətən möhtəşəm insan idi. Ümumiyyətlə belə bir insanın meydana çıxması və varlığı təhlil olunası deyil. Bunu yalnız ilahi lütf adlandırmaq olar. Allah-Taala tarixdə və böyük bəşər karvanının hərəkətində dönüş yaratmaq üçün lazım olan bir qeyb əlini aşkara çıxardı. Əgər insan imamın şəxsiyyəti və vücudunun müxtəlif cəhətləri barədə düzgün fikirləşsə, həqiqətən bundan başqa cür izah edə bilməz.

İldönüm tədbiri mümkün cəhətlərdən imamın şəxsiyyətini və əzəmətini göstərməlidir və güman ki, belə də olacaq. Siz öz borcunuzu yerinə yetirirsiniz və bunu etməlisiniz. Nə qədər etsəniz də, həqiqətən azdır. Mən düşünürəm ki, Allah-Taalanın özü ildönüm mərasimlərini idarə edir və edəcək. İmama aid olan bu işlərdə Allah-Taalanın Özünün əli var. Bunları ümumiyyətlə insan zehni ilə hesablamaq olmaz. Mən onun həyatının bütün dövründən və vəfatından sonrakı bu hadisələrdən belə anladım.

İmam Xomeyninin vəfatının birinci ildönümü tədbirlərinin təşkilat komitəsinin üzvləri ilə görüşdəki çıxışdan: 1990.

İnqilabın istismarçı düzənlə uyğun olmaması

İslam inqilabı və böyük İran xalqı istismarçı düzənlə, ayrıseçkiliklə, zülmlə və dünyanın istismarçı vəziyyətinin indiki anormallıqları ilə razılaşmır. Bizim inqilabımız açıq şəkildə deyib ki, heç kimin hegemonluğunu qəbul etməyəcək. İran xalqı uca səslə deyib ki, bizim xalqımıza və məzlum xalqlara hegemonluq etmək istəyən zalımları və qlobal güclərin fəsad dolu qurumlarını rəsmən tanımır və onların boyunduruğu altına girmir.

Xürrəmşəhr şəhərinin azadlığının ildönümü münasibəti ilə Fəthülmübin və Beytülmüqəddəs əməliyyatlarının komandirlərini Zəfər ordeni ilə təltif edərkən etdiyi çıxışdan: 1990.

İslam inqilabının digər inqilablarla təhlili müqayisəsi

İslam iniqilabı İranda elə bir iş gördü ki, dünyanın heç bir yerində onun bənzəri görülməmişdir. Mən bu sözü bəlkə də inqilablar dövrünün, yəni iyirminci əsrin bütün inqilablarının tarixini oxumuş bir adam kimi deyirəm. Xatırlamıram ki, bu ölkələrin inqilablarından birinin tarixini oxumamış və bilməmiş olum; Rusiya və Sovet inqilabından tutmuş Hindistanda, Misirdə və Latın Amerikası ölkələrində, Afrika və Asiyanın digər ölkələrində baş verənlərə qədər.

Bu ölkələrin heç birində İranda baş verən hadisə baş vermədi. Bunların hamısının adı inqilabdır. Yəni misal üçün, belə deyilir: İran inqilabı, Sovet inqilabı. Doğrudan da söz müştərəkdir, amma eyni yox, iki fərqli hadisə baş vermişdir. İranda baş verən inqilab 1917-ci ildə Rusiyada baş verib marksist və kommunist quruluşu ilə nəticələnəndən tamamilə fərqlənir. Düzdür, bunların müştərək və oxşar cəhətləri də var, amma mahiyyətlər eyni deyil.

Rusiya inqilabı

Mən bu mövzuya başlayıb fərqləri demək istəsəm, qorxuram ki, əsas məsələyə vaxt qalmasın. Lakin qısa şəkildə deyə bilərəm ki, Rusiyada baş verən inqilabda əsas amil xüsusi bir ideologiya və təfəkkürlə ölkənin başında duran partiyadan ibarət idi. Onlar illərlə işlədikdən sonra meydana atıldılar, əslində xalq hərəkatına təsir göstərdilər və ondan istifadə etdilər.

Buna əsasən, iş başına gəlib hakimiyyətə yiyələnənlər əsas xeyri götürdülər. Onların xalq qarşısında heç bir öhdəlikləri yox idi. Əvvəldən xalqa nəfəs almaq icazəsi vermədilər. Bu onların ideologiyalarında da var: proletar diktaturası. Yəni öz sözlərinə və iddialarına görə, işin başında duran fəhlə qüvvəsi diktatorluq edir və heç kimə nəfəs almaq imkanı buraxmır. Əslində isə hakimiyyətin başında duran və bir partiyadan ibarət olan qüvvə istədiyini edir.

Doğrudan, Rusiya inqilabında partiyanın kənarında olan xalq kim idi? Kommunistlərdən öncə məşhur çar hakimiyyəti iş başında idi, fəsad və zülm edirdi, lakin eyni zamanda xalq yaşayırdı və vəziyyətin dəyişməsinə dair heç bir əlamət görünmürdü. Bu arada çörək qıtlığı yarandı. Hökumət ya xəyanət etdi, ya da bacarıqsızlığından belə oldu. Əlbəttə, Birinci dünya müharibəsinin qızğın çağları idi və Rusiya hökuməti Almaniya, Avstriya və digər müttəfiqlərlə vuruşurdu. Birdən bu tərəfdə çörək qıtlığı yarandı və Moskvada çörək çatmadı. Xalq aclığa görə evlərdən bayıra çıxdı. Bu, həqiqət və tarixdir, iddia deyil. Həmin partiya da müharibə dövrünün çaxnaşmasından istifadə edib bəzi adamlarını ölkənin daxilinə göndərmişdi. Vəziyyətin belə olduğunu görən kimi ona siyasi rəng verib qalmaqal yaratdılar. Sonra da partiya şüarları və partiyanın idarəsi ilə həqiqətən çörəkdən ötrü qiyam etmiş xalqı hökumət əleyhinə təhrik etdilər. Başqa sözlə desək, əgər orada çörək olsaydı və xalqa verilsəydi, qiyam bitmişdi. Bu, Rusiya hadisəsi idi.

İslam inqilabını təhlil etmək istədikdə beyinlərinin digər inqilablara dair təsəvvürlərindən istifadə edənlər böyük səhvə yol verirlər. Bu inqilab ümumiyyətlə həmin vasitələrlə təhlil olunası deyil. Rusiya inqilabında çörək məsələsi vardı. Sonra həmin qrup gəlib xalqı təhrik etdi. Bəllidir ki, zirək, mübarizədə təcrübəli və ideologiyaya malik mütəşəkkil bir siyasi qrup xalqı iğtişaşa çəkmək, onlara şüar öyrətmək və siyasiləşdirmək istəsə, bunu asanlıqla bacarar. Xalq buna hazır idi, bunlar da çörəkləri isti təndirə yapdılar, sonra da özləri qoparıb istifadə etdilər. Bu, inqilab adlandı. Dünyada baş verən inqilabların əksəriyyəti ya buna bənzəyir - hətta xalqın daha az iştirakı ilə - və yaxud bir çevrilişdir.

Cənubi Afrika ölkələrində inqilab

Mən Cənubi Afrikanın inqilabçı ölkələri sayılan beş-altı ölkəyə getmişəm, onların inqilabçı rəhbərləri ilə görüşmüşəm, evlərini, villalarını, həyat tərzlərini görmüşəm, fikirlərini öyrənmişəm, onlarla

saatlarla danışmışam. Orada gördüm ki, gözlədiyimiz kimi, solçu bir qrup hərbi çevriliş etmiş, partizan, yaxud mütəşəkkil hərbi hərəkətlə hakimiyyəti ələ keçirmiş və özlərindən öncəkilərin yerində oturmuşlar.

Mozambikin sonralar öldürülən inqilabçı rəhbəri Samor Maşel öncə portuqaliyalı hakimin oturaraq ölkəni idarə etdiyi villada yaşayırdı. O məni həmin sarayda qəbul etdi və mən gördüm ki, keçmişlə vəziyyət dəyişməmişdir. Orada bir xalça vardı. Mən o xalçaya tamaşa edəndə dedi ki, bu, portuqaliyalıların dövründən qalmış xalçalardandır. Mən gördüm ki, nəinki həmin sarayda, həmin tərzdə və həmin təmtəraq içində, hətta eyni üsulla yaşayırlar. Elə bil heç bunlar inqilabçı və xalq adamları deyildilər. Doğrudan da belə deyildilər və orada ümumiyyətlə xalqdan əsər-əlamət yox idi.

Biz ziyafət salonuna daxil olanda böyük qapının hər tərəfində bir nəfərin dayandığını gördük; şahların əfsanəvi saraylarında olan qullar kimi. Portuqaliyalı hakim də belə yaşayırmış. Bunlar da iki qaradərili idilər, amma daha qul deyildilər. Çünki hakimin özü də həmin irqə mənsub idi. Bu iki nəfər xüsusi geyimdə qul kimi qapının iki tərəfində dayanmışdılar. Şah - yəni həmin inqilabçı rəhbər qonağı olan mənimlə birgə bu qapının önünə çatdıqda qapının hər iki tayı bərabər şəkildə açılmalı və bunlar təzim halında durmalı idilər; həmin işi də gördülər. Mən təbəssümlə baxırdım. Sonra özünü həmin portuqaliyalı hakim kimi aparan və eyni jestlərdən istifadə edən rəhbərlə birgə ziyafət zalına daxil olduq. Hər yerdə belə idi.

Mənim xarici səfərlərimin əksəri dırnaqarası inqilabların baş verdiyi ölkələr olmuşdur; məsələn Liviya, Əlcəzair, Mozambik, Zimbabve, Çin, Şimali Koreya və sair. Biz inqilabçı şəxsiyyətlərin və rəhbərlərin həyatını, təfəkkürünü və xalqla rabitəsini yaxından görmüşük. Bunların heç biri bir inqilab və xalq hökumətinə dair təsəvvürümüzdə olan məfhuma nümunə deyil. Elə buna görə öləndə də şahlar kimi dəfn olunmuşlar. Bu ölkələrin heç birində xalqdan əsər-əlamət, xalqın rolu və iştirakı yoxdur. Çünki inqilablarında da xalqın rolu və təsiri olmamışdır. Çevriliş nəticəsində bir partiya iş başına gəlib

hakimiyyətə yiyələnmiş, rəqiblərini kənara itələmişdir. Bəzən illərlə bir-biri ilə rəqabət aparmış və hakimiyyət davası etmişlər.

Xəbər agentliklərinin telekslərində işıqlandırılan, Amerikanın, BBC-nin, digər informasiya agentliklərinin və radioların dediyi bu hakimiyyət savaşı ona görədir ki, bu ağılsızlar dünyada bunu gördüklərinə görə burada da onu axtarırlar. Ümumiyyətlə burada əlaqə necədir? İranda da bəzi şəxslər bir-birinə müxalifdirlər; bəziləri bir-birinə yaxşı münasibətdədirlər, bəziləri pis, bəziləri isə çox pis münasibətdə, lakin bunlar əsla o növdən deyil, başqa bir şeydir və müqayisəolunası deyil. Analitiklər bunu anlamırlar. İranda baş verən bunlar deyildi. İranda inqilabı həqiqətən xalq çiyninə götürdü və qalib etdi.

Şərqi Avropa inqilabları

Mən bəzi söhbətlərimdə demişəm ki, Şərqi Avropada və dünyanın bəzi yerlərində baş verən hadisələr bizim inqilabımızdan təsirlənmişdir. Bu yanlış deyil, həqiqətdir. Misal üçün, Rumıniyada, yaxud bəzi Şərqi Avropa ölkələrində baş verənlər xalqın iştirakı ilə baş verdi. Xalq küçələrdə odlu silahın qarşısına çıxmışdı. İnsanlar dayanıb müqavimət göstərdikləri təqdirdə hakim rejim tərəfindən işlədilən odlu silaha qalib gələ bilərlər. Dünyanın heç bir yerində bunun əksi mümkün deyil.

Ən repressiv ölkələrdə də tüfənglərin qarşısına çıxan xalq qrupları yalnız bir qədər müqavimət göstərsələr, meydandan çıxmasalar, ölməkdən qorxmasalar, qalib gələrlər. Biz dünyanın digər yerlərində də bunu gördük. Bəzi yerlərdə qələbənin əldə olunmamasının səbəbi xalqın qoşulmamasıdır. Xalq qoşulmalıdır. Xalqın bir qrupunun qoşulması faydasızdır, bütün xalq qoşulmalıdır. Siz İranda bunu gördünüz. Boyun qaçıranlar xalqın bir qrupu idi. Demək olmaz ki, xalqın bir qrupu gəldi, xeyr, bütün xalq gəldi. Digər ölkələr də İrandan öyrəndilər.

Dünyada bu sözlərdən heç bir xəbər olmayan 85, yaxud 86-cı ildə Afrika siyasətçilərindən birinə bu sözü dedim. Afrikada Muqabe adlı çox ağıllı və peşəkar bir siyasətçi var, İrana və inqilaba qarşı münasibəti

də çox yaxşıdır. Onun özü və ölkəsi Zimbabve həmişə bizim inqilabı dəstəkləmişlər. O və adamları çox ağıllı insanlardır və bizim gördüyümüz qədərincə digər ölkələrlə çox fərqlənirlər. Biz o zaman Cənubi Afrika Respublikası barədə danışırdıq. Mən ona dedim ki, bizim təcrübəmiz müstəsna bir təcrübədir və mənim fikrimcə, Cənubi Afrikanın da bundan başqa yolu yoxdur: xalq küçələrə çıxmalı, qorxmamalı, hakimiyyətə təzyiq göstərməlidir. Yəni bütün məhkumlar kiçik bir qrup olan hakimlərin qarşısında və onların ziddinə dayansalar, yəni nə idarələrinə, nə mağazalarına və nə iş yerlərinə getsələr, hamılıqla küçələrə çıxsalar, o hakimlər daha heç bir iş görə bilməzlər; ya qaçıb getməli, ya intihar etməli, ya təslim olmalı və ya tövbə etməlidirlər.

Əlbəttə, bizim söhbətimiz diplomatik müzakirə deyildi ki, bir tərəf nə desə, o biri də düzgünlüyünü təsdiqləsin, amma sonra yenə öz sözünü danışsın. Biz dostcasına qeyri-diplomatik bir söhbət edirdik. O tamamilə təsdiq edib dedi ki, mən bu sözü yüz faiz qəbul edir və sizin inqilabınızın təcrübəsinin uğurlu təcrübə olduğunu bilirəm, lakin Cənubi Afrika bunu edə bilməz. Səbəbi budur ki, sizin dininiz və inancınız vardı, şücaət və qüdrətlə xalqın bu inancından istifadə edib inqilabı qələbəyə çatdıran bir dini rəhbəriniz də tapıldı. Cənubi Afrika Respublikasında isə bu amilin yeri boşdur. Onun sözü çox düzgün idi. Dedi ki, orada xalqın elə etiqadı, inancı və sizin rəhbəriniz kimi bir rəhbəri yoxdur.

Demək istəyirəm ki, vəziyyətin bu müstəsnalığı dünyanın ən görkəmli adamları tərəfindən dərk olunur. Dünyanın görkəmli mütəfəkkirləri, yazıçıları, şairləri və siyasətçiləri də inqilaba və imama dair bütün vücudları ilə şeir dedilər, danışdılar, məqalə yazdılar, alqışladılar, tərifləmişlər. Əgər düzgün xarici şəxsiyyətlərin imama və inqilaba dair dediyi sözlər toplansa, bir neçə cild kitab olar. Lakin media - BBC və Amerika radioları sionistlərin və bizim bir qrup qatı düşmənimizin əlindədir. Bəllidir ki, onlar bu sözləri işıqlandırmırlar. Yalnız məcbur olanda zərurət qədərincə verirlər.

Dünyada inqilaba möhtəşəm alqış vardır. Bəzən biz təəccüb edirdik ki, Şimali Afrikanın siyasi xadimi və çox görkəmli ərəb şairi olan bir adam imam haqda, yaxud Tehranın mədhinə necə bir qəsidə yaza bilər? Bu necə zövq, məharət və maraqdır ki, sanballı, elmli, mətanətli və ağır bir insanı belə şeir deməyə vadar edir? Bütün bunlar bizim inqilabımızın xüsusiyyətlərindən irəli gəlir.

Bizim inqilabımız sözün həqiqi mənasında xalqın çiyni üzərindədir. Bizim hamımız buna şahid olmuşuq və bizim aramızda bu cəhətdən kimsə o birindən artıq məlumatlı deyil. İslam Respublikası da bununla yaşadı. İslam Respublikasının xalqla rabitəsi digər ölkə və hökumətlərdən tamamilə fərqlidir. Ölkənin birinci dərəcəli məmurlarının, prezidentin, nazirlərin və digərlərinin xalqla həmrəy olmasının əlaməti küçə və bazarda yol getmələri, məsələn ərzaq məhsullarını özlərinin alması deyil. Təbii ki, xalqın sevgisi, müraciəti, ehtiyacı və məhəbbəti qoymur. Belə şəxslərin vaxtının hər bir dəqiqəsi də mühüm işlərə sərf olunmalıdır. "Siz nə üçün saatlarla məsciddə oturmursunuz ki, insanlar gəlib sözlərini desinlər" - demək mənasızdır. Bu mümkün deyil. Xalqın məmurlarla əlaqəsi bu deyil.

Ölkənin cümə imamları ilə görüşdəki çıxışdan: 1990.

İslam inqilabı və dünyada İslam kimliyinin oyanışı

İslam Respublikasının yaranmasından öncə dünya müsəlmanlarına belə təlqin olunmuşdu ki, İslam onlara qüdrət və əzəmət bəxş etməyə qadir deyil və onlar xoşbəxtlikdən ötrü ya Qərb modelinə, Avropa və Amerika mədəniyyətinə müraciət etməli, ya da marksizmin puç və xəyali nəzəriyyələrinə üz tutmalıdırlar. Lakin İranda İslam inqilabının qələbəsinin, İslam Respublikasının yaranmasının və İslamın həyata keçməsinin İran xalqına bağışladığı başucalığı və əzəmət Qərb müstəmləkəçilərinin bütün nağıllarını puç etdi, İslamın bir xalqı zəiflik, tənbəllik və məzlumluq halından çıxarıb başucalığının, qorxmazlığın və özünəinamın zirvəsinə ucaltdığını, həm də onlara dünyanın maddi gücləri ilə mübarizə aparmağa qadir olan güclü bir quruluş bəxş etdiyini, müstəmləkəçiliyin və hegemonluğun zülmkar və təhqiredici güclərinin əlini kəsə bildiyini əməldə göstərdi. Beləliklə İslam Respublikası İslamın sayəsində beynəlxalq miqyasda güclü sosial dəstək qazandı və bu da öz növbəsində dünyanın bütün supergüclərinin müxalif olduğu İslam Respublikasının qüdrətini və toxunulmazlığını artırdı.

İran xalqı qlobal güclər üzərində yalnız İslam dünyasında qələbə çalmadı. Hətta qeyri-müsəlman ölkələrdə, partiya avtoritorizminin dəmir qəfəsinin, yaxud irqi zülmkarlığın müsəlmanlara öz müsəlmanlığını hiss etmək icazəsi belə verməyən ölkə və quruluşlarda da İslam kimliyinin mehi əsməyə başladı, yatmış imanlar oyandı və İslamın xoş sədası şeytanların yuxusunu pərişan etdi: "Sən yer üzünü qupquru görərsən. Biz ona yağmur endirdiyimiz zaman o, hərəkətə (cana) gəlib qabarar (yaxud xəmir kimi acıyar) və hər növ gözəl bar gətirər"[1]. Deməli, ötən on ilin böyük dartışmalarının əsas qəhrəmanı İslamdır və bu, ölü canları oyadan, "Hökm kimindir?" - sualının

[1] Həcc/5.

cavabında dünyanın dörd bir tərəfindən "Bir olan, (qüdrətilə hər şeyə) qalib olan Allahındır!"[1] deyiləcəyi günə zəmin yaradan İslam oyanışıdır.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

[1] Qafir/16.

İslam inqilabının digər islahatçıların işi ilə fərqləri

Dövrün böyük xilaskarı olan həzrət İmam Xomeyninin rəhbərlik etdiyi İran İslam hərəkatı əzəmətli peyğəmbər, son elçi, aləm və adəmin yaranışının zirvəsi olan həzrət Məhəmməd Mustafanın (s) yolu ilə gedərək tam bir inqilab şəklində ortaya çıxdı. İnqilabın xüsusiyyəti belədir ki, əgər düzgün və məntiqli təməl üzərində ucalsa, vulkan olub mühitin bütün sütunlarında zəlzələ yaradacaq, hər şeyi, hər yeri və hər kəsi öz istiliyi və şüası ilə təsirləndirəcək.

Ötən 150 ildə müxtəlif amillər səbəbindən qiyam etmiş, İslam dəvətini, İslamın dirçəlişini və təfəkkürünü bayraq etmiş mütəfəkkirlərin və müsəlman islahatçıların - məsələn Seyid Cəmaləddinin, Məhəmməd İqbalın və digərlərinin bütün dəyərli xidmətlərinə baxmayaraq, işlərində böyük bir nöqsan olmuşdur. Onlar İslam inqilabı etmək yerinə İslam dəvəti ilə kifayətlənmiş və müsəlman cəmiyyətlərini inqilabla yox, maarifləndirici fəaliyyətlərlə, yalnız qələm və dillə islah etməyə çalışmışlar. Bu üsul əlbəttə ki, bəyənilən və savabdır, lakin ondan tarixin əsas dönüşlərinin qurucuları olan ululəzm peyğəmbərlərin əməlinin nəticəsini gözləmək olmaz. Onların işi siyasi və mənəvi eyiblərdən uzaq durub düzgün olduğu təqdirdə bir inqilabi hərəkətə yalnız şərait yarada bilər, vəssalam. Buna görə də bu qrupun ixlaslı və böyük fəaliyyətlərinin heç zaman müsəlman xalqların əks istiqamətə və tənəzzülə doğru hərəkətini saxlaya bilmədiyi, onların söz və arzularının ah çəkib göz yaşı tökdükləri qüdrət və əzəməti müsəlmanlara qaytara bilmədiyi, hətta müsəlman xalqlarda İslam etiqadını və inancını gücləndirə, onlardan uyğun məqsədlərlə istifadə edə və yaxud İslamın coğrafiyasını genişləndirə bilmədiyi müşahidə olunur. Bu, Böyük İslam Peyğəmbərinin (s) üsulundan uzaqdır. Əzəmətli peyğəmbərin (s) besət və hicrət tarixini bir qədər bilən hər bir kəs üçün bu məsələ aydındır.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

İslam inqilabının və İslamın yaranmasının müştərək cəhətləri

Bizim imamımız İslamın yenidən həyata qayıtması üçün eynilə əzəmətli Peyğəmbərin (s) getdiyi yolu - yəni inqilab yolunu getdi. İnqilabda əsas məsələ hərəkətdir - məqsədli, biçimli, daimi, yorulmaz, iman və ixlasla dolu hərəkət. İnqilabda deməklə, yazmaqla və izah etməklə kifayətlənilmir, qət etmək, səngər-səngər irəliləmək və özünü məqsədə çatdırmaq əsas işdir. Demək və yazmaq da həmin hərəkətin xidmətində durur və məqsədə çatana - yəni Allahın dininə hakimiyyət bəxş edənə və tağutun şeytan qüvvəsini məhv edənə qədər davam edir: "Onu (İslamı) bütün dinlərdən üstün etmək üçün Öz Peyğəmbərini hidayət və haqq dinlə göndərən Odur".[1]

İran İslam İnqilabında hamısı erkən İslam çağının İslam hərəkatında mövcud olan bir neçə mühüm xüsusiyyət vardı:

Birincisi siyasi məqsədlilik, yəni Allahın dininin hakimiyyətinə, idarəetmənin zülmkar və azğın şeytanların əlindən alınmasına və cəmiyyətin İslam dəyərlərinə əsaslanan siyasi hakimiyyətinin formalaşmasına qəti iradədir.

İkincisi budur ki, bu məqsədin həyata keçməsi üçün lazım olan insani qüvvə partiyalardan, siyasi qrup və təşkilatlardan yox, mömin, ayıq, qayğıkeş və fədakar kütlələrdən alındı, uzaqgörən rəhbər Allaha təvəkkül edəndən sonra yardımı xalqın tükənməz qüvvəsində axtardı, onbeşillik mübarizə sayəsində Allahın bəndələrindən ibarət Allah qoşunu yaradıb Onun yolunda hərəkətə başladı: "O (Allah) səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi".[2]

Üçüncüsü budur ki, ideal cəmiyyətin əsas xətləri – yəni ictimai ədaləti, siyasi müstəqilliyi, iqtisadi iqtidarı, elmi və əxlaqi inkişafı ehtiva edən İslam şəriətinin bərqərar olunması hamının gözü önündə həyata keçdi, cahil həyatın əsaslarının həqiqətən və hərtərəfli formada İslam

[1] Səff/9.

[2] Ənfal/62.

əsaslarına çevrilməsi mənasında olan "nə şərqçi, nə qərbçi, İslam Respublikası" şüarı ortaya qoyuldu.

Dördüncüsü budur ki, saleh bəndə və müsəlmanlıq örnəyi olan müdrik və fəqih rəhbərin özü iman və əməldə bu hərəkətin avanqardı oldu. Onun ruhunu iman elə sarmışdı ki, əməl meydanında imansız və boş qəlblərə iman bəxş etdi, onun iman və ümid işığı məyusluq və imansızlığın qalın divarlarını söküb mübarizə və əməl mühitinə doldu: "Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə iman gətirmişdir"[1].

Beşincisi budur ki, rəhbərin sədaqəti, səmimiliyi və sayıqlığı hər bir yayınmanı, düşmənlə barışığı, bazarlığı, məqsəddən yayınmağa səbəb olan hər bir şeyi imkansız etdi. İnqilabın məqsədlərə doğru gedən düzgün yolu möhkəm və təhrifdən uzaq qaldı.

İranda baş verən hadisə bu idi. Təqvası və əməlinin düzgünlüyü ilə ilahi yardımı və hidayəti cəlb edən rəhbər öz hərəkətinə başlayıb on beş il davamlı mübarizə və fəaliyyət nəticəsində xalqın böyük hissəsini tədricən İslam hökumətindən, İslam quruluşu yaratmaqdan və İslam hökmlərinin icrasından ibarət olan məqsəd uğrunda hərəkətə gətirdi, İrana hakim olan və ölkəmizin sərvətlərini talayan hegemon güclər tərəfindən himayə olunan azğın və asılı tağut hökumətini devirdi. O, qələbədən sonrakı on bir il ərzində təxribatdan, ədavətdən, xəyanətdən, hücumdan, embarqodan, hərbi hücumdan, informasiya ajiotajından və digər işlərdən ibarət olan mürəkkəb və misilsiz işlərlə əlbəyaxa oldu və bu tarixi savaşdan zəfərlə çıxdı. İmamın və ümmətin böyük səyinin məhsulu olan İslam Respublikası quruluşu indi hegemonlar qarşısında müqavimətdən və soyğunçulara ehtiyacsızlıqdan irəli gələn iqtidarın zirvəsində durur. Bu quruluş dost və düşmənin diqqətini özünə cəlb edib dünyanın bütün məzlum və əzabkeşlərinin qəlbinə hakim olmuşdur.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

---

[1] Bəqərə/285.

İnqilab - gözəl İslam ağacının meyvəsi

İslamın və müsəlmanların ümumi oyanışının bugünkü yüksəlişinin böyük sirri bu idi ki, bu hərəkətin mərkəzində, yəni müsəlman İranda gözəl İslam ağacından növbəti mübarək inqilab bitdi, onun məhsulu olan İslam Respublikası rəhbərin və xalqın İslam inancından ibarət möhkəm bünövrə ilə düzgün yolda və istiqamətdə qaldı, şeytanların vəsvəsəsi, qəzəb və kin xəncəri ona təsir etmədi, qüdrətli və başıuca məzlumluqla özünün nurlu çöhrəsini bütün dünyanın gözü önündə tutdu və özünün yaşaması, müqaviməti və möhkəmliyi ilə İslamın təbliğatçısı oldu.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

Əsl İslamın xüsusiyyətləri

Əsl İslam gözəl xüsusiyyətləri ilə qərəzliliyə və kin-küdurətə bulaşmayan qəlbləri özünə cəlb edir. Bizim inqilabımız və imamımız bunu dünyada yenidən gündəmə gətirdi, ehtiyaclı və araşdırıcı insanlara təqdim etdi. Əsasını bizim imamızın qoyduğu inqilab məktəbində Əbu Süfyan və Mərvan İslamına, məzmunsuz mərasimlər İslamına, qızıl və gücün xidmətində duran İslama, xülasə, böyük güclərin əlində alət və xalqların canına bəla olan İslama son qoyuldu, Quran və Məhəmməd (s) İslamı, əqidə və cihad İslamı, zalıma düşmən və məzluma yardımçı olan İslam, firon və qarunlarla vuruşan İslam, xülasə, zalımları məhv edib məzlumların hakimiyyətini bərpa edən İslam meydana çıxdı.

İslam inqilabında kitab və sünnə İslamı xurafat və bidət İslamını əvəz etdi; cihad və şəhadət İslamı sükut, əsarət və zillət İslamını əvəz etdi; bəndəlik və məntiq İslamı eklektik və cəhalət İslamını əvəz etdi; dünya və axirət İslamı dünyagirlik, yaxud tərki-dünyalıq İslamını əvəz etdi; elm və bilgi İslamı qapalılıq və qəflət İslamını əvəz etdi; dindarlıq və siyasət İslamı laqeydlik və biganəlik İslamını əvəz etdi; qiyam və əməl İslamı halsızlıq və passivlik İslamını əvəz etdi; fərd və cəmiyyət İslamı formal və təsirsiz İslamı əvəz etdi; məhrumların xilaskarı olan İslam supergüclərin əlinin oyuncağı olan İslamı əvəz etdi və xülasə, əsl Məhəmməd (s) İslamı Amerika İslamını əvəz etdi. İslamın bu formada, bu reallıq və ciddiliklə ortaya qoyulması İranda və bütün müsəlman ölkələrində İslamın məhvinə çalışan, yaxud ondan təkcə məzmunsuz adın qalmasını, insanları axmaq və qafil saxlamaq üçün bir vasitə olmasını istəyən şəxslərin iztirab dolu dəlisov qəzəbinə səbəb olmuşdur. Buna görə inqilabın qələbəsindən bu günədək İslam Respublikasına və qlobal İslam hərəkatının mərkəzinə - yəni İrana qarşı hücum etmək, zərbə vurmaq, təxribat aparmaq və bədxahlq etmək üçün heç bir fürsəti əldən verməyiblər.

İran xalqı yaxşı anlamışdır ki, onun müsbət cəhəti düşmənin var gücü ilə qaşrı çıxdığı cəhətdir - yəni Allaha təvəkkül etmək, inqilabın

hamısı İslamın əsaslarından götürülən və inqilabın Böyük Rəhbərinin sözlərində təkid olunan əsas prinsiplərinə sarılmaq. Düşmən mediasının inqilabın əvvəlindən bu günə qədər "fundamentalizm" sözünü ədavətlə işlətməsində hiss olunan qəzəb onların bizim rəhbərimizin, xalqımızın və quruluşumuzun inqilabın əsas prinsiplərinə sadiqliyi qarşısında acizliyindən və narahatlığından irəli gəlir.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: 1990.

İran İslam İnqilabının təlimləri

İran xalqı bilməlidir ki, inqilabı qorumaq, izzət və şərəf bayrağını yüksəkdə saxlamaq və bu şərəfli xalqın fəxr dolu mübarizə yolunu davam etdirmək üçün inqilabın dəyərlərini və təməl prinsiplərini qorumaq lazımdır. Quldurların zülm və təzyiqinə üstün gəlməyin, düşmənlərin inqilab və İslam Respublikası əleyhinə təxribatlarını zərərsizləşdirməyin yeganə amili olan bu yolu dünya xalqlarına, xüsusən də müsəlmanlara İran xalqı göstərdi. Bu mübarizə yolu hegemonluğun beynəlxalq istismarına qarşı şüarı bütün aləmə yayan, qlobal istismarçı sistemin sütunlarını titrədən və İran xalqını bundan sonra da düşmənlərin bütün təxribatlarına qalib edəcək uğurlu amildir. Və bu, böyük və mərhum imamın bəyanatlarında və vəsiyyətnaməsində bizim hamımıza ünvanladığı həmişəyaşar tövsiyədir.

O qayğıkeş və mürşid atanın, ayıq və müdrik müəllimin vəfatından bir il ötür. Mən bu gün inqilabın İslam prinsip və hökmlərindən irəli gələn, inqilab məktəbinin aydın məsələlərindən sayılan ən əsas təlimlərini bir daha öz qardaş və bacılarıma xatırlatmağı, inqilabçı və qorxmaz xalqımızı bu məsələlərə daha çox diqqət yetirməyə və əhəmiyyətli yanaşmağa çağırmağı lazım bilirəm:

1. İmamın xatirəsini və yolunu davam etdirmək

Hər şeydən öncə İmam Xomeyninin xatirəsini, yolunu və ölməz dərsini yaşatmaq, bu mübarək yolun və onun parlaq sonucunun əsas və həyati səciyyələrini təyin və hərəkətin əsas xəttini təsvir edən çıraqdır. Böyük Xomeyninin həyatı və şəxsiyyəti əsl Məhəmməd (s) İslamının təcəssümü və İslam inqilabının məşəli olmuş, onun özü, sözü və işarəsi bu ilahi hərəkət yolunun bələdçisi, qaranlıq nöqtələri aydınlaşdıran və bütün şübhələri aradan qaldıran amil olmuşdur və olacaqdır. İran xalqı və birinci növbədə ölkə məmurları bu böyük dərsi heç zaman yaddan çıxarmamalıdırlar.

2. Nümunəvi İslam cəmiyyəti qurmağa çalışmaq

Bu xalq hərəkatı, onbeşillik mübarizələrin sonunda yaranan bu bənzərsiz inqilab və bu quruluşun onbirillik ömründə aşkarlanan əzəmətli qəhrəmanlıq, pak canların şəhidliyi, bizim mömin və mübariz xalqımız tərəfindən bütün bu çətinliklərin, işgəncə və müsibətlərin çəkilməsi - bunların hamısı İslama görə idi. Bu böyük xalq və onun Böyük İmamı səadəti İslama həqiqi tabelikdə gördü, İslam hakimiyyətini şeytan, tağut və zülmkarların istismarından qurtuluş vasitəsi bildi və Allahın razılığını İslam hakimiyyətini izləməkdə axtardı. Müsəlman xalqlar, bütün İslam dünyasında olan qayğıkeş və ixlaslı insanlar da İslama görə bu inqilabı və bu quruluşu özlərinə məxsus bilib onu himayə və müdafiə etdilər və edirlər. Bu səbəbdən İslam Respublikasının ən böyük vəzifəsi İslamı xalqın həyatına daxil etmək və cəmiyyəti nümunəvi bir İslam cəmiyyəti formasına salmaqdan ibarətdir.

Bu məqsədin əsas və böyük addımları qələbənin əvvəlindən imamın nəzarəti, diqqəti və bütün məsul şəxslərin vasitəsi ilə atılmışdır. Onu həyata keçirmək üçün ölkənin üç hakimiyyət orqanı əlaqəli və müntəzəm şəkildə işləməli, elm hövzələri, din, mədəniyyət və tədqiqat mərkəzləri geniş fəaliyyət göstərməli, ayıq və agah ictihadın və fiqhin tükənməz mənbəyini İslam təlimlərinin dərinləşdirilməsinin və genişləndirilməsinin xidmətində işlətməli və İslam Respublikası quruluşunun düşüncə və əməl mərkəzləri birlikdə, bir-birinin kənarında cəmiyyəti İslam məqsədlərinə daha da yaxınlaşdırmalıdırlar.

Bütün müsəlmanlar İslamın nurlu hökmlərini qorumaq, onların cəmiyyətdə genişlənməsi və güclənməsi üçün böyük məsuliyyət daşıyırlar. İslamın əsas sütunlarından biri və bütün İslam vaciblərinin bərpa olunmasının zamini olan "yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək" qaydası bizim cəmiyyətimizdə dirçəldilməlidir. Xalqın hər bir fərdi yaxşılığın çoxaldılmasına, pisliyin, sapqınlığın və fəsadın məhv edilməsinə qarşı özünü borclu hiss etməlidir.

Biz hələ xalqın dünya və axirət xoşbəxtliyini tam şəkildə təmin edən, fəsadın, azğınlığın, zülmün və tənəzzülün kökünü qazan kamil bir İslam cəmiyyətindən çox uzağıq. Bu məsafə xalqın iradəsi və məmurların fəaliyyəti ilə qət olunmalıdır. Onun qət edilməsi yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmənin ümumiləşməsi ilə asanlaşacaq. Məscidlər mənəviyyat, paklıq və hidayət yerləri olaraq günbəgün daha canlı və daha rövnəqli olmalı, imanın, əməlin və İslam əxlaqının cəmiyyətin hər tərəfində, o cümlədən dövlət mərkəzlərində, idarələrdə və universitetlərdə olan əlaməti hamını Quranın nurlu təlimlərinin ardınca getməyə həvəsləndirməlidir. Allahın kitabı xalq arasında həqiqi rol oynamalı, onu öyrənmək, onun üzərində dərindən düşünmək hamı üçün, xüsusən də gənc və yeniyetmələr üçün adi bir iş olmalıdır. Bu sahədə alimlər, məlumatlı insanlar, yazıçılar, natiqlər və informasiya vasitələri çox mühüm və böyük məsuliyyət daşıyırlar.

3. Ədaləti bərqərar etməyə çalışmaq

İslam quruluşu yaratmağın ən təcili məqsədi ictimai ədalətin və İslam ədalətinin bərqərar edilməsidir. Allah peyğəmbərlərinin qiyamı, kitabın və ilahi qanunun nazil olması bundan ötrü idi ki, xalq zülm, ayrıseçkilik və məcburiyyət təzyiqindən xilas olub ədalət sayəsində yaşasın və o ədalətli quruluşun işığında insani təkamülə nail olsun. İctimai ədalətə güclü inam və müntəzəm fəaliyyət olmadan İslam quruluşuna dəvət etmək yarımçıq və hətta yanlış və yalan dəvətdir. Proqramlarının başında ədalətin təmini, zəif və məhrum insanların xilası durmayan hər hansı bir quruluş, İslam görkəmində olsa belə, qeyri-islami və münafiq quruluşudur. Məhz buna görə, müsəlmanlıq iddiasında olan və Quranın davamçısı olduğunu elan edən, lakin digər zalımların yolu ilə gedən, yoxsul və varlı arasında məsafəni artıran və özləri sərvətlilər sırasında dayanıb yoxsulların və ayaqyalınların dərdindən xəbərsiz olan şah və hakimlərin iddiası istər tarixdə, istər hazırkı zamanda Quran və İslam təlimləri ilə tanış olan ağıllı insanlar tərəfindən həmişə rədd edilmişdir.

İslam quruluşunda bütün fərdlər qanun qarşısında, Allahın verdiyi imkan və nemətlərindən istifadədə eyni və bərabər olmalıdırlar; yəni heç bir güc sahibi hegemonluğa qadir olmasın, heç kəs qanunun ziddinə olaraq, digərlərini öz istək və iradəsinə məcbur etdirə bilməsin, cəmiyyətin məhrum və yoxsul təbəqələri hökumətin xüsusi diqqət mərkəzində olsun, yoxsulluğu aradan qaldırmaq və onları imkanlılar qarşısında müdafiə etmək hökumətin və məhkəmə orqanlarının böyük vəzifəsi sayılsın, heç kəs maddi imkanlarına görə ölkənin siyasi işlərinə və cəmiyyətin idarəsinə müdaxilə etmək imkanı əldə etməsin, cəmiyyətdə heç bir siyasət və hərəkət yoxsul və varlılar arasında fərqin artması ilə nəticələnməsin, yoxsullar İslam hökumətini öz dayaqları və himayədarları bilsinlər, onun proqramlarının yoxsulluğun aradan qaldırılması və öz rifahları istiqamətində olduğunu görsünlər.

Bizim böyük imamımız bunu İslam Respublikasının ən əsas məsələlərindən biri bilmiş, bu barədə ən güclü bəyanatlarını vermişdir. Bu, İslam Respublikasının ayrılmaz xüsusiyyətidir. Heç bir maneə quruluşun məmurlarını və müxtəlif sahələrin başçılarını bu əsas məqsəddən yayındırmamalıdır. Yoxsulların, şah rejiminin xəyanətkar və bərbad siyasətləri səbəbindən xalqımızın yoxsulluq içərisində yaşayan, bu inqilabın və bu quruluşun həmişə ən sədaqətli və ən ixlaslı köməkçilərindən olmuş və olan əksəriyyətinin yoxsulluğunun aradan qaldırılması İslam quruluşunun quruculuq proqramlarının başında durmalıdır.

4. Söz birliyi - qələbənin sirri

Söz birliyi amili müxtəlif mərhələlərdə İran xalqının qələbə sirri olmuşdur. Bu gün də bu amil təhrik və təxribatlara qarşı mübarizədə xalqımızın ən mühüm vasitəsidir. Ötən onillikdə baş verən və İslam Respublikasının daxili və xarici düşmənlərin müxtəlif təxribatları qarşısında toxunulmazlığından xəbər verən hadisələr barədə düşündükdə xalqın və məmurların birliyinin əhəmiyyəti daha aydın görünür.

İran xalqı və ölkənin məmurları İslam Respublikası quruluşunun əsas prinsipləri ətrafına toplaşıb onları həyata keçirmək və qorumaq üçün özlərinin bütün güc və qüvvələrini səfərbər etməlidirlər. Heç bir fərdi, qrup, irq və firqə istəyi, şüarı və marağı fərdi və ya toplumu sözügedən prinsiplər üçün çalışmaqdan və İslam Respublikası quruluşunun məqsədlərinə doğru hərəkətdən saxlamamalıdır.

Bütün rəşadətli İran xalqı, xüsusən də söz və əməlləri digərlərinin mühakimə və diqqəti mərkəzində olan şəxslər öz sıralarını bərkitməli, vəhdət, əməkdaşlıq və uca addımlarla ali İslam məqsədlərinə sarı qüdrətlə hərəkət etməli və pusqu qurub fürsət gözləyən düşmənləri məyus etməlidirlər.

Dünyanın siyasi rəhbərlərinin istəklərini, siyasətlərini, ədavətli və qərəzli niyyətlərini əks etdirən xarici media ixtilaf və təfriqə duyulan, yaxud uyğun məqsədlə istifadə edilməsi mümkün olan hər bir söz və işarə üzərində dayanır. Onlar xırda məsələləri böyütməklə, ölkədə deyilən sözlərdən yalan nəticələr çıxarmaqla daim İran və dünya xalqını daxili çəkişmə və ixtilaflarla dolu gərgin bir vəziyyətin olduğuna inandırmaq, bu təhriklərlə ikitirəlik və təfriqəyə zəmin yaratmaq istəyirlər. Halbuki Allahın lütfü ilə İranda misilsiz bir birlik vardır. Bütün bunlar göstərir ki, bu gün düşmən İslam Respublikasını zəiflətməkdən ötrü hər bir işə aciz qalmış, bədxahlıqla daxili ixtilafların yaranmasını və ümumi birliyin pozulmasını gözləyir.

Rəşadətli İran xalqı, ölkənin məmurları, möhtərəm parlament deputatları, natiq və yazıçılar düşmənin bu xam xəyalına həmişəki kimi lazımi cavabı verməli, Allahın İran xalqına böyük lütfü və neməti olan birliyi bütün varlıqları ilə qorumalıdırlar.

5. Xarici siyasət qaydaları: başucalığı və hörmət

Beynəlxalq münasibətlərdə İslam Respublikasının və İran xalqının başucalığını və inqilabçı etibarını qorumaq əsas məsələlərdən başqa birisidir. İranda İslam inqilabının qələbəsi beynəlxalq münasibətlərdə iki cəhətdən dərin dəyişiklik yaratdı:

Birincisi budur ki, dünyanın ozamankı iki böyük gücünün dünyanın zəif dövlətləri ilə münasibətlərindəki bütünü bərk sındırdı, xalqların və hökumətlərin gözündə tədricən əldə etdikləri əzəməti çox zəiflətdi.

İkincisi budur ki, xalqlara ümid və şücaət bağışladı, muzdur hökumətlərlə mübarizədə onlara cürət və cəsarət bəxş etdi. Bu dərin təsirlər dünyada tədricən görünsə də və bu gün on bir il ötəndən sonra dünyanın siyasi simasını dəyişsə də, bütün uzaqgörən insanlar bu möhtəşəm inqilabın qələbəsi ilə dünya münasibətlərində yeni dövrün başlandığını əvvəldən bilirdilər. Bu əsri İmam Xomeyni əsri adlandırmaq lazımdır. Onun özəlliyi böyük güclərin hegemonluğu qarşısında xalqların oyanışından, cəsarətindən və özünəinamından, zalım bütlərin sınmasından, insanların həqiqi gücünün çiçəklənməsindən, mənəvi və ilahi dəyərlərin baş qaldırmasından ibarətdir.

Bu gün marksizmin dəfn olunması, Şərq blokunun dağılması və avtoritar kommunist hökumətləri əleyhinə xalq qiyamlarının başlanması ilə Böyük İmamın proqnozları həyata keçdi və iki böyük gücdən biri dünyanın siyasət səhnəsindən silinib ikinci dərəcəli gücə çevrildi. Digər böyük güc də Cənubi və Şimali Afrikadan, işğal olunmuş Fələstindən tutmuş Şərqi Asiyanın ucqar bölgələrinə qədər bir çox yerlərdə xalq müqavimətlərinin artması, fəsadın, imansızlığın və pozğunluğun günbəgün çoxalması ilə Amerika daxilində mənəviyyat və ideoloji düşüncə boşluğunun yaranması, Amerika dövlət başçılarının həmişə öz xalqları arasında birləşdirici bir düşüncə boşluğunu doldurmaq istədikləri "Kommunizmlə mübarizə" məsələsinin gündəmdən çıxması və başqa bir tərəfdən Amerika dövlətinin hətta Avropa ölkələrinə də təsir etməsinə səbəb olan Avropa-Amerika əlaqələrinə hakim qaydaların pozulması nəticəsində güclü təhlükə duyur və dünyada mövqeyinin zəiflədiyini görür.

Alovlanmaqda olan bu prosesi qorumaq, eləcə də köklü və məzlum xalqların ruhiyyəsini gücləndirmək üçün İslam Respublikası

beynəlxalq münasibətlərdə özünün qüdrətli mövqeyində ən az dəyişiklik belə etməməlidir. O, quldurlarla qüdrət, zəif dövlətlərlə himayə, ayağa qalxmış xalqlarla hidayət mövqeyindən çıxış və əməl etməlidir. İslam Respublikası fitnə və hegemonluğun başı, qəddarlıq və şeytanlığın rəmzi olan Amerika dövlətini zəif ölkələrə zülm, işğalçı sionizmi müdafiə etməsinə, xalqların azadlıq oyanışına düşmən olmasına və İran xalqına güclü və cinayətkar ədavətinə görə məhkum etməli, mənfur bilməli, azadlıq iddiaçılarının hiyləgər simasını ifşa, onları rüsvay etmək və bu həqiqətləri söyləmək üçün heç bir fürsəti əldən verməməlidir.

Fələstin problemi İslamın birinci qlobal problemidir. Bu gün Fələstin xalqının İslam bayrağı altındakı mübarizəsi işğalçı sionizm dövlətinin və himayədarlarının yuxusunu qaçırdığından, bu mübarizəni dəstəkləmək bizim xalqımızın və hökumətimizin, həmçinin bütün müsəlman xalqların və hökumətlərin ən böyük vəzifəsidir. İsrailin xərçəng vəzisinin kökünü yalnız bu mübarizələrlə kəsmək və İslam dünyasını onun məhvedici təhlükələrindən xilas etmək olar. Çoxlu ərəb ölkələrinin xəyanətkar sükutu və sazişi, hətta onların bəzisinin Fələstinin taleyinə qarşı laqeyd yanaşması və həssaslıq göstərməməsi vəziyyəti elə həddə çatdırıb ki, işğalçı sionizm dövləti uzun illər gizlətdikdən və hətta inkar etdikdən sonra indi yenidən Böyük İsrail iddiasını açıq şəkildə söyləyir, utanmadan və həyasızcasına İslam vətəninin yeni torpaqlarına qarşı mənfur işğal niyyətini təkrarlayır.

Bəzi ərəb şahları və başçıları tanrıları olan Amerikanın diqqətini cəlb etməkdən ötrü hətta daim dəm vurduqları ərəb və millətçi maraqlarını da İsrailə qurban verir və onun yerinə Amerikadan yardım almaqda İsraillə yarış meydanını daha da qızışdırırlar. Bu rüsvayçı damğanı ərəb xalqının alnından kim siləcək? Ərəb ölkələrində ayıq müsəlman gənclər satqınların bu xəyanətini bağışlayacaqlarmı?

Bu xəyanətkar rəhbərlərə görə, ərəb milliyyəti və birliyi yalnız Amerikanın müsəlman İran və əsl Məhəmməd (s) İslamı qarşısında təxribatı üçün lazımdır. Hər şeyi əldən vermək hesabına - həm Allahın

verdiyi təbii sərvlətləri, həm insan şərəfini, həm İslam inancını, həm öz millətinin hörmətini, dəyərini və şəxsiyyətini əldən vermək hesabına Amerikanın lütf və mərhəmətini istəyən yatmış vicdan və murdar qəlb sahiblərinə ar olsun! Onlar Allahın nemətlərinə küfr etməklə, özlərini və xalqlarını süqut enişinə və ilahi əzaba düçar etmişlər: "(Ey Rəsulum!) Məgər Allahın nemətini küfrə dəyişənləri və ümmətini ölüm yurduna sövq edənləri görmürsənmi? Onlar cəhənnəmə daxil olacaqlar. Ora necə də pis sığınacaqdır!"[1]

İşğalçı İsrail qarşısında göstərilən şücaət və həyəcan hara getdi? Ərəb hökumət başçılarının öz xalqları ilə İsraillə mübarizəyə dair bağladıqları öhdəlik necə oldu? İsraillə ilk barışıq müqaviləsini imzalayan, özünün qara dünya həyatını və axirət taleyini fironla yanaşı edənə[2] Allahın və saleh bəndələrin lənəti olsun! Və həmin yolu davam etdirənlərə və etdirməkdə olanlara, xüsusən də məzlum Fələstin xalqına yalançı ümid verib onların bədbəxtliyi hesabına özləri üçün davamsız eyş-işrət quranlara saleh bəndələrin, mələklərin, peyğəmbərlərin və övliyaların nifrini olsun!

Fələstin xalqı öz azadlığını və hüquqlarını ərəb başçılarının konfranslarında və toplantılarında axtarmamalıdır və axtara bilməz. Bu toplantılar məzlum fələstinlilər üçün uğursuz və pis sonuclu olmasa da, ən azı faydasız və təsirsizdir. Bu günlərdə Fələstin tərəfindən toplaşan başçılar Fələstinin xilası məsələsində səmimi olsaydılar, Amerika prezidentinin hiyləgər təklifi qarşısında güclü və qətiyyətli mövqe nümayiş etdirib işğal olunmuş Fələstin daxilindəki mübarizlərə maliyyə, silah və siyasi yardım üçün təcili və həqiqi qərarlar verərdilər, puç şüarlarla kifayətlənməzdilər. Əgər belə olmamışsa, ərəb dünyasının və onun hakimlərinin indiki vəziyyətinə görə olmayacaqsa da, daxildəki mübarizlər Allaha, xalqın və İslamın qüvvəsinə arxalanmalı və

[1] İbrahim/28.

[2] Ənvər Sadat nəzərdə tutulur.

bilməlidirlər ki: "Nə qədər olub ki, az bir dəstə Allahın izni ilə çox bir dəstəyə qalib gəlib! Allah dözümlü olanlarladır!"[1]

6. Azadlığın və xalqın iradəsinin həyata keçməsi

Xalqa güvənmək, xalqın iradəsinin, istəyinin və seçiminin hakimiyyətini günbəgün gücləndirmək lazımdır. Bu da başqa bir mühüm əsasdır. Bizim azadlıqsevər xalqımız özünün İslama güclü imanından irəli gələn qəti iradəsi ilə mübarizəni qələbəyə qədər davam etdirib İslam Respublikasını qurdu, misilsiz fədakarlıqla onu qorudu. İslam quruluşu bundan sonra da hər bir halda xalqa arxalanacaq, xalqa məxsus və xalqın ixtiyarında olacaq. Dünyada azadlıq və müstəqillik baxımından analoqu olmayan İslam Şurası Məclisi xalqın iradəsinin tərənnümü, xalqın seçdiyi vəkil olan prezident və ölkənin digər məmurları xalqdandırlar. Xalq bütün siyasi, iqtisadi və ictimai işlərdə fikir, söz və qərar sahibidir. Bu, İslamın böyük faydalarından biri, Şərq və Qərb quruluşlarının bacarmadığı və dünyanın hakimiyyət sistemlərinin heç birində bənzəri olmayan spesifik bir üsuldur.

İflasa uğramış və dağılmış kommunizm quruluşlarında yeganə kommunist partiyası xalqın yerinə qərar qəbul edirdi. Avtoritar və mürtəce quruluşlarda sülalə hakimiyyətləri və hərbi çevrilişlərdən yaranan, qarunlar kimi yaşayan və fironlar kimi diktatorluq edənlər xalqın canının bəlası sayılırlar. Lakin bunlardan əlavə, adı demokratik quruluş olan, zahirdə xalqın səsi ilə iş başına gələn ölkələrdə də əsl həqiqət başqa bir şeydir və ölkənin idarəsi istismarçı kompaniyaların və biznesmenlərin əlindədir; pul və kapital media və informasiya vasitələrini ələ keçirib xalqı istədiyi səmtə yönəldir.

Dünyanın hər bir yerində ölkə başçıları ilə adi camaatın yaşayış fərqi şah və dilənçi fərqi kimidir. Hətta demokratiya iddiasında olan hökumətlər də israflı şah həyatından imtina edə bilmədilər. İslam quruluşu isə fəxr edir ki, onun Böyük İmamı ömrünün sonuna qədər bir

[1] Bəqərə/249.

tələbə kimi, ölkənin məmurları da istisnasız olaraq digər ölkələrin məmurlarının həyat tərzindən uzaq durub öz xalqlarının orta təbəqələri kimi yaşadılar. Xalq özü ilə məmurlar arasında dünyanın hər bir yerində mövcud olan dərin fərqi müşahidə etmədi, sözünü çəkinmədən dedi, tənqidi oldusa, açıqca söylədi. Mətbuat və hətta radio-televiziya ölkə məsələləri haqda həmişə müxtəlif görüşləri əks etdirib və xalqı müxtəlif fikir və üsullarla tanış edib. Bu, aydın məsələdir. Hətta inqilabın əvvəlindən müxtəlif imtahanlardan keçə bilməyən, xalqın yanında rüsvay və onun tərəfindən təcrid edilən qruplar və siyasi müflislər də əcnəbilərin təhrikilə İslam quruluşu və ölkə rəsmiləri əleyhinə zəhərli və düşmən mövqeli məqalələr yazanda, onlara növbənöv ittihamlar yağdıranda, bu yazıları heç bir maneəsiz çap etdirir, oxucu tapdıqları yerdə nəşr edir və praktiki olaraq azadlığın mövcudluğunu isbatlayırlar.

Öz faydasız ömürlərini əxlaqi və siyasi fəsadlarla və müxtəlif çirkin əməllərlə keçirən bəzi yazıçı və natiqlər bu fəsadların yolunu bağladığına və onların xarici ərbablarını qovduğuna görə İslam hökumətinə müxalifdirlər. Onlar İslama, milli müstəqilliyə, azadlığa və əxlaqi paklığa qarşı bu müxalifət və ədavəti siyasi və iqtisadi vəziyyəti tənqid kimi qələmə verir, istədiklərini dedikləri halda həyasızlıqla azadlıq tələb edirlər. Onların əsl istəyi Amerikanı buraya qaytarmaq, ölkəni düşmənlərə satmaqdır. Onların düşmənləri rəşadətli və ayıq xalqdır. Bizim xalqımız Amerikaya köləlik dövrünə qayıdış həsrətini onların ürəyində qoyacaq və özünün böyük nailiyyətlərini - yəni İslam quruluşunu, insanların iradə və imanının hakimiyyətini var gücü ilə qoruyacaq.

İslam quruluşu İslamın və Quranın bayraqdarı olduğu azadlığı heç zaman Qərb quruluşlarındakı yalançı azadlıq iddiaçılarından öyrənmək istəməyib. Biz fəsad və pozğunçuluq azadlığını, yalan və kələk azadlığını, Qərbin bayraqdarı və əsiri olduğu zülm, istismar və xalqlara təcavüz azadlığını açıq şəkildə və qətiyyətlə rədd edirik. Biz əxlaqsız mürtəd Salman Rüşdiyə bir milyard insanın müqəddəslərini təhqir etmək icazəsi verən, amma İngiltərə müsəlmanlarına ondan

şikayət etmək haqqı tanımayan azadlığı, Amerika dövlətinə bir xalq hakimiyyətinə qarşı çıxan quldurları qızışdırmaq, onlara rəhbərlik etmək haqqı verən, lakin həmin xalq hakimiyyətinə bu quldurların qarşısını almaq haqqı verməyən azadlığı, soyğunçu oliqarxlara zəif ölkələrə qanunsuz daxil olmağa və xalqların var-yoxunu talamağa icazə verən, amma o xalqların bunlarla mübarizə hüququnu qəbul etməyən azadlığı rədd edir, nifrətlə qarşılayır və bəşəriyyətə ar hesab edirik!

Bizim məntiqimizdə azadlıq, İslamın xalqlara verdiyi, onları zalım və təcavüzkar istismarçılar qarşısında yenilməz dağa çevirən azadlıqdır; necə ki, İran xalqı üçün belə oldu və bu möcüzə baş verdi. Bu azadlıq bizim ölkəmizdə həmişə olub, olacaq və insanlarımızın hər biri onu qorumalıdır. Ölkə məmurları həmişəki kimi xalqın fəallığını və ölkənin müstəqilliyindəki təyinedici təsirini uca tutsunlar, xalqı günbəgün siyasi, iqtisadi, mədəni, müdafiə və təhlükəsizlik sahələrində daha fəal iştiraka həvəsləndirsinlər.

7. Bütün hakimiyyət orqanlarının xalqa xidmət göstərməsi və xalqın əməkdaşlığı

Hökumətin və xalqın əməkdaşlığı, xalqın ölkə məmurları ilə emosional və etiqadi əlaqəsi xalq hakimiyyətinin əsas əlamətlərindən biridir və indəyədək çoxlu mühüm məsələlərdə həlledici olmuşdur. Bu, həmişə belə möhkəm qalmalıdır. Bizim böyük imamımız müxtəlif dövrlərdə və ötən onilliyin hökumətlərinə tövsiyələrində həmişə xalqla əməkdaşlığı və xalqa kömək etməyi tapşırırdı. Bu gün inqilabın dəyərli şəxsiyyətlərindən, ümmət imamının şagirdlərindən və qədim dostlarından birinin idarəçiliyi altında olan İslam Respublikası hökumətinin qarşısında ölkənin inkişafı, milli tərəqqi və inqilabın dəyərlərini dünya miqyasında müdafiə etmək kimi böyük işlər durduğuna görə bu rabitə və səmimilik həmişəkindən də güclü olmalıdır və Allahın lütfü ilə belədir.

Ölkənin əsas məmurları xalqın etimad göstərdiyi şəxslər olduqda və xalq onların fəaliyyətində ləyaqət və sədaqət əlamətlərini gördükdə

bütün işlər daha asan görülür, xarici müdaxilələr əngəl törədib əməkdaşlığa mane ola bilmir. Bədxahların inkişafın qarşısını almaq üçün şayiə yaymaları, hökuməti, yaxud məhkəmə hakimiyyətini sual altına salmaları mümkündür. Əziz xalq bilməlidir ki, bu işlər xeyirxahlıq üzündən deyil. Zəhmətkeş və ixlaslı məmurları yersiz tənqid atəşinə tutmaq və onların böyük səyləri qarşısında qədirbilməzlik etmək ölkənin inkişafına heç zaman kömək etməyib və etməyəcək.

İcraçı və məhkəmə orqanları da özlərini tam mənada xalqa xidmətçi bilməli, xalqa xidmət göstərərkən Allahın razılığını qazanmaqdan başqa bir məqsəd güdməməlidirlər; xüsusən də məhrum və zəhmətkeş təbəqələrin hüquqlarının bərpası, onlara edilən zülmlərin aradan qaldırılması, ümumi hüquqlara doğru uzanan təcavüzkar əllərin, eləcə də sui-istifadə edənlərin və Allahdan xəbərsiz sərvətlilərin təcavüzkar əllərinin kəsilməsi istiqamətində. Bizim vəfalı xalqımız İslam və inqilab yolunda heç bir fədakarlığı əsirgəməmişdir. Buna görə hər hansı bir vəzifədə çalışan hər bir kəs özünün bütün səyini ölkənin düşmənləri tərəfindən yaradılan problemlərin aradan qaldırılmasına yönəltməlidir.

8. Ölkəni abadlaşdırmağa çalışmaq

Ölkənin quruculuğu, bu bərəkətli və istedadlı torpağı abadlaşdırmaq və tağutların hakimiyyəti dövründə bu istedadlı xalq üçün zorla yaradılan təəssüflü gerilikləri düzəltmək İslam Respublikasının əsas məqsədlərindən biridir. Bizim xalqımız tarixin ən yaxşı dönəmlərində, yəni dünyanın elm və sənaye yoluna yenicə qədəm qoyduğu və İranın da münasib oyanış və hərəkətlə bəşəriyyətin elm və sənaye inkişafında rol oynaya və onun nəticələrindən bəhrələnə bildiyi dövrdə zalım, avtoritar, bixəbər və asılı hakimlərin əsarəti altında karvandan geri qaldı. Pəhləvi və Qacar şahları ölkəni abadlaşdırmaq, Allahın bəxş etdiyi bəşəri və təbii istedadları çiçəkləndirmək əvəzinə İranı alverçi və soyğunçu xaricilərə satdılar, sərvət mənbələrini əcnəbilərə verdilər və ya fəaliyyətini dayandırdılar, insani istedadları

hədər verdilər, xalqın mənafeyinin yerinə xarici dövlət və şirkətlərin mənafeyini məqsəd seçdilər, yüz ildən sonra ölkəmizdə salınan dəmir yolu xəttinin yerini təyin edərkən xalqın maraqları və ticari ehtiyaclar əvəzinə düşmənlərin hərbi maraqlarını nəzərə aldılar.

Pəhləvi və Qacar rejimlərində asılı siyasət, bacarıqsızlıq, zəiflik və istibdad bir zaman İslamın sayəsində dünya elminin bayraqdarı olan İranı iki yüz il ərzində əcnəbilərə möhtac və onların istismarı altında olan bir xarabalığa çevirdi; kəndlər boşaldı, şəhərlər istehlakçı oldu, tarlalar məhsulsuz, sənaye montaj, beyinlər tətil oldu.

İslamın qələbəsindən və İslam Respublikasından ibarət olan xalq və inqilab quruluşunun təşkil edilməsindən sonra xarici düşmənlər bu inqilabçı quruluşun öz güclü xalqına arxalanmaqla, milli və xalq qüvvəsinə güclü inamla ölkəni maddi inkişaf və tərəqqi yoluna çıxarıb münasib proqramlarla gerilikləri düzəldə biləcəyini, öz mənafeyini güdüb pis niyyətli əcnəbilərin əlini həmişəlik kəsəcəyini yaxşı dərk etdi. Buna görə hər bir vasitə ilə ölkə quruculuğunun qarşısını almağa çalışdılar. Onlardan biri xalqımızın başına gətirilən, xalqın və məmurların səyinin quruculuq, elmi və əməli inkişaf əvəzinə ölkənin ərazi bütövlüyünün və müstəqilliyinin müdafiəsinə sərf etməsinə bais olan dağıdıcı müharibə idi.

Bu gün müharibə bitmiş, hökumət və parlament tərəfindən quruculuq proqramları hazırlanmış, ixlaslı qüvvələr işə girişmişdir. İndi ölkənin quruculuğunu çox ciddi sayıb maneələri ortadan götürmək hamıya vacibdir. Bu gün İslamın imici müsəlman İranın gözəl bir ölkəyə çevrilməsini, onda iş və yaradıcılığın genişlənməsini, xalqın məişət səviyyəsinin yaxşılaşmasını, yoxsulluğun və məhrumluğun kökünün kəsilməsini, daxili istehsalın xalqın ehtiyaclarına cavab verməsini, ölkənin sənaye və əkinçilik sahəsində özünü təmin etməsini, düşmənin xalqın məişət ehtiyacları vasitəsi ilə təzyiq göstərə bilməməsini və xülasə, dinin, mənəviyyatın kənarında xalqın maddi həyatını da yaxşılaşdırmasını tələb edir.

Bəzi xarici media orqanları israrla inandırmağa çalışırlar ki, inqilabın prinsiplərinə sadiqlik - ümumi rifahdan uzaqlaşmaq, zəif və yoxsul təbəqələrin problemlərini həll etməmək deməkdir. Bu sözü elə adamlar danışırlar ki, öz cəmiyyətlərini on illərlə kommunizm təfəkkürü altında bədbəxtlik yoluna sövq etmişlər. Halbuki həmin ölkələrin başçıları da kapitalist ölkələrdə olduğu kimi zadəgan həyatı yaşayır, cəmiyyətin aşağı təbəqələri isə müxtəlif maddi və mənəvi problemlər içində ömür sürürdülər. İslam quruluşunda yoxsulluğun aradan qaldırılması birinci dərəcəli məqsədlərdən, yoxsul və məhrum insanların xilasına çalışmadan inqilabın prinsiplərinə sadiq qalmaq isə mənasız söz və puç iddiadır.

Hökumət və xalq ölkə quruculuğunu inqilabi vəzifə bilməli, qarşılıqlı əməkdaşlıqla, bütün qüvvələri, istedadları, beyinləri və qolları səfərbər etməklə İranı elə abadlaşdırmalı və inkişaf etdirməlidirlər ki, məzlum xalqların qəlbində ümid yaransın, onlar maddi rifah və mənəvi ucalıq yolunu görsünlər.

9. Ölkənin elmi inkişafına çalışmaq

Elm və tədqiqatın gücləndirilməsi, elmi inkişaf, insani istedadların çiçəkləndirilməsi və ümumi məlumatın artırılması inqilabın əsas cəhətlərindən başqa birisidir. İdeal İslam cəmiyyəti elə cəmiyyətdir ki, onda hər bir cəmiyyətin ən qiymətli milli sərvəti olan bəşəri düşüncə və zehin xəzinələri çıxarılıb işlədilsin, savadsızlığın kökü kəsilsin, məktəblər bütün uşaqları qoynuna alsın, universitetlər və elmi hözvələr rövnəqlənsin, tədqiqat mərkəzləri fəal və qabaqcıl olsun, kitab hər yerə yayılsın, mətbuat məzmunlu olsun və məlumat bəxş etsin, alim və müəllimlər həvəskar və maraqlı, yaradıcı, yenilikçi, yazıçı və sənətkarlar ümidli və faydalı olsunlar.

Bizim İslamın istədiyi və qəbul etdiyi vəziyyətə qədər yolumuz çox, lakin qət ediləsidir. Müsəlman İran bu gün də özünəməxsus elmi istedadlar və dahilər yetişdirən mərkəz olduğunu sübut etməlidir. Diktatura və müstəmləkənin ikiəsrlik istismarı bu xalqın mahiyyətini

dəyişdirə bilməmişdir. Əgər ötən iki əsrdə müstəmləkə və despotizm istedadların çiçəklənməsinə mane olmuşsa, bu gün xalqın azadlığı, oyanışı dövründə və İslam inqilabının sayəsində gerilik düzəldilməlidir.

Universitetlər öz elm və tədqiqat işlərini inqilabçı ruhiyyə ilə və İslam həvəskarlığı ilə görsünlər. Əks təqdirdə, onların taleyi tağut dövrünün universitetlərindən yaxşı olmayacaq. Onda əcnəbilər qarşısında elmi cəhətdən özünə inamsızlıq və öz dəyərlərinin təhqiri istedadların çiçəklənməsinin qarşısını alırdı, istedadlı beyinləri öz ölkələrindən qaçmağa həvəsləndirirdi. Dəyərli və qayğıkeş müəllimlər istedadlı qüvvələrin tərbiyəsi üçün inqilabi şəraiti fürsət bilməli və tələbələr müəllimlərə hörmətlə yanaşı - bu, İslam baxımından vacib əməldir –kiminsə bədxahlıqla elm və ixtisası müstəmləkə mədəniyyətinin universitetlərə yolunu açmağa vasitə etməsinə, əcnəbilərin istismarı dövründəki kimi universiteti özünə yad olan əcnəbipərəst beyinlərin tərbiyə mərkəzinə çevirməsinə icazə verməməlidirlər. Qayğıkeş və sədaqətli ziyalılar bilsinlər ki, bu gün böyük sınaq günüdür; tarix onların bugünkü rəftarları barədə dəqiq və ifşaçı mühakimə yürüdəcək.

Ölkənin ziyalı təbəqəsinə bağlı olanlardan kimlərsə əcnəbilərin istismarı və satqınların hökuməti dövründə ziyalılığın tələblərinə uyğun olaraq xalqın sırasında yer tutmayıb Amerika və onun muzduru olan rejimlə mübarizə cəbhəsinə qoşulmayıbsa, xalq hakimiyyəti, islami və insani dəyərlərin hakimiyyəti, kinli və hiyləgər əcnəbilərlə mübarizə günü olan bugünkü gündə keçmiş səhvləri düzəltməli, İran xalqının Amerika, beynəlxalq hegemonluq, pul və gücün mənfur imperatorluğu ilə mübarizə sıralarına öz mövqeləri və gücləri qədərincə kömək etməli, dillərini, qələmlərini və sənətlərini bu xalqın möhtəşəm İslam cihadının xidmətində işlətməlidirlər.

Elm, mədəniyyət və ilahi dəyərlər əsasında qurulmuş bir quruluşda yaşamaq hamıya fəxrdir. Bu quruluşun başında İmam Xomeyni kimi əzəmətli bir şəxs durur. Hətta düşmənləri də onu böyük və möhtəşəm sayır, əzəmətinə kin bəsləyirlər. Onun mənəvi ucalığını,

zahidliyini, elmini, əqidəsini və böyük ruhunun paklığını heç kim inkar etmir, heç kəs onda xalqın düşmənləri qarşısında zəiflik və təslimçilikdən ən az əlamət belə tanımır və ruhi böyüklükdə ondan üstün bir zirvənin olduğunu güman etmir.

Başında son yüz ilin şahları kimi azğın, günahkar və xəyanətkar insanların durduğu, Rza xan, Məhəmmədrza, Ələm, İqbal, Hüveyda, Zahidi, Mənsur və onların bədnam və cinayətkar ətrafları tərəfindən idarə olunan, Amerikanı və İngiltərəni özünə ağa, məmləkətə və xalqa ixtiyar sahibi hesab edən bir quruluşu sevən şəxslər nə qədər kiçik, zəbun və dəyərsizdirlər.

İslam azadlığı sayəsində imkan tapıb aydınlıq iddiası altında qovulmuş əcnəbilərin xoşuna gələn sözlərlə səhifələr dolduran və nəşr edən ziyalınümalarda qəm-qüssələrinin elm, yaxud azadlıq üçün yox, əslində günah və fəsadın rüsvayçı süfrəsinin və pozğun Qərb mədəniyyətinin təbliğatçılarının əlinin kəsilməsindən ötrü olduğunu açıq şəkildə etiraf etmək və quruluşa düşmən olmalarının onda olan eyib və nöqsana görə yox, əslində əcnəbilərin öz kömәkləri ilə onlar üçün yaratdığı rüsvayçı dünyaya qayıtmaq məqsədi ilə olduğunu demək cəsarəti varmı?! Qərbin müstəmləkəçi mədəniyyəti tərəfindən manqurta çevrilənlərdən heç bir gözlənti yoxdur. Ümid və gözlənti öz xalqlarının və ölkələrinin yüksəlişini, başucalığını, mənəvi və maddi inkişafını istəyən və əcnəbi istismarının bütün formalarını rədd edən sədaqətli və qayğıkeş ziyalılardandır. Yaxşı olar ki, bunlar İranın başucalığına və xalqın yenidən dirçəlişinə bais olan İslam quruluşunun qədrini bilib özlərinin uyğun məsuliyyətlərini dərk etsinlər.

10. Məsuliyyətli və inqilabçı ruhanilərin rolu

Ruhanilik inqilabın qələbəsi ilə nəticələnən onbeşillik mübarizələrdə, sonra müqəddəs İslam quruluşunun yaradılmasında, dünyada İslam bayrağının ucaldılmasında, İran xalqının düşmənlərin müxtəlif hücumları qarşısında fəal müqavimətində, bunlardan öncə uzun əsrlər boyu İslam təlimlərini, İran xalqının İslamın həyatverici

məktəbinə güclü və həqiqi imanını qorumağın və dini təfəkkürlərin hər yerdə inkişafının əsas amili olmuşdur. Amerikanın əlaltısı olan rejimlə mübarizənin mərkəzində məsuliyyətli və mübariz ruhanilərin durması xalqın müxtəlif təbəqələrini mübarizəyə qoşub onu ümumiləşdirdi. İran xalqının bütöv halda iştirak etdiyi bütün hadisələrdə, o cümlədən Məşrutə hərəkatında və tənbəki qiyamında din alimlərinin ön sıralarda durması bu ümumi fəallığın yeganə səbəbkarı olmuşdur. İngiltərə müstəmləkəçiləri bu məsələni dərk edib özlərinin İrandakı müstəmləkəçilik planlarının davam etməsinə zəruri müqəddimə kimi ruhani toplumunu məhv etməyi düşündülər və öz alətləri olan Rza xanın vasitəsi ilə 1934-cü ildən sonra ruhaniləri məhv etmək planını başlatdılar, həmin illərdə böyük din alimlərinə və elm hövzələrinə qarşı İran tarixində heç zaman görünməmiş faciələr törətdilər. Təəssüf ki, bu faciələrin və quldur Rza xanın hakimiyyətinin son illərində din alimlərinin və tələbələrinin məzlum müqaviməti geniş şəkildə yazılıb xalqın ixtiyarına buraxılmamışdır. Allaha şükür ki, sayları hələ az olmayan canlı şahidlərin məlumatları aidiyyətli şəxs və müəssisələr tərəfindən toplanmalıdır.

Din alimlərinin və ruhanilərin azadlıqsevərliyi, həmçinin yerli və qlobal güclərdən təsirlənməməsi zalım hakimlərin və quldurların heç zaman bu ilahi toplumu öz fəsad və xəyanətləri yolundan götürə bilməməsinə bais olmuşdur. Əgər bəzi satqın ruhanilər və saray mollaları müvəqqəti dünya malının tamahı ilə zalımların süfrəsində oturub söz və əməlləri ilə onları təsdiqləmişlərsə, din alimlərinin, ruhanilərin və gənc hövzə tələbələrinin əksəriyyəti gözütox, təqvalı və iffətli qalmış, sədaqətli və qüdrətli mübarizə iradəsini və gücünü qorumuş, xalqda şiə ruhanilərinə böyük etimadı sarsılmaz etmişlər.

Ruhani toplumu bu səbəbdən həmişə müxtəlif düşmənlərin, müstəmləkəçilərin, əcnəbi və əcnəbipərəstlərin zəhərli hücumunun hədəfinə çevrilmiş və onların birinci dərəcəli düşməni sayılmışdır. Pəhləvi hökumətinin və güclü xarici dövlətlərin ruhani təbəqəsi əleyhinə tamamilə müstəmləkə mahiyyətli əlli ol boyu apardıqları qərəzli və

düşünülmüş təbliğat kampaniyası Rza xanın şahlığı dövründə və Məhəmmədrzanın şahlığının birinci yarısında din alimləri üçün çətin sınaq oldu. Lakin Allaha şükür olsun ki, ruhani toplumu bu sınaqdan başıuca çıxdı.

Onbeşillik mübarizələr dövründə də Qum Elm Hövzəsi, digər elm hövzələri və ruhaniliyin tanınmış simaları mübarizənin əsas mərkəzlərinə və bunun ardınca düşmənin vəhşicəsinə hücumlarının əsas hədəfinə çevrildilər, lakin həddi-hüdudu olmayan bu zorakılıqlar Allahın iradəsi ilə ruhaniliyin qəti dini vəzifəsi olan bu fəxrli yolundan bir addım belə geri çəkilməsinə bais olmadı. Hətta bu dövrdə İslam düşüncəsi çiçəkləndi, parladı, Quran fiqhi daha səmərəli, mübariz ruhanilər daha təcrübəli və İslam hökumətinin yaranmasına şərait daha əlverişli oldu.

İnqilabdan sonra indiyədək ruhanilik, xüsusən də birbaşa İslam Respublikası quruluşunun xidmətində duran dəyərli kadrlar daim düşmənin zəhərli hücumlarına hədəf olmuşlar; istər təbliğat sahəsində, istərsə də düşmənin xain terrorçuluq əməllərində. Ruhani toplum həm məcburi müharibə cəhbəsində, həm də özünün cihad fəaliyyətləri zamanı dəyərli şəhidlər vermiş, cümə namazı mehrabını, elm, siyasət və din təbliğatı mərkəzlərini öz pak qanlarına boyamışlar.

Bizim əziz xalqımız bilir ki, din alimlərinə qarşı bu irimiqyaslı hücumlarda düşmənin məqsədi yalnız ruhaniliyin təyinedici və əvəzsiz rolunun olmasıdır və onlar inqilabı zəiflədib məhv etmək məqsədi ilə ruhaniləri hədəf seçirlər.

Bu gün muzdur qələm sahibləri və düşmənə satılmışlar inqilabın bu mənəvi dayağını xalqın gözündən salmağa çalışırlar. İnqilabın düşməni ruhani topluma o zaman dözər ki, onlar siyasi işlərə müdaxilə etməyib inqilab işlərindən kənara çəkilsinlər, keçmişdəki və indiki bəzi xəbərsiz və qapalı ruhanilər kimi mədrəsə və məscidlərin bir küncündə otursunlar, ölkəni və xalqı onlara tapşırsınlar. Diqqətəlayiq məsələlərdən biri budur ki, mübarizə dövründə və qələbədən sonrakı illərdə ölkə hadisələrindən xəbərsiz və siyasi məsələlərdən uzaq olan

qapalı din alimlər heç zaman düşmənlərin hücumuna məruz qalmadılar, hətta bəzən tərif də olundular. Fiziki və media hücumları, hətta əcnəbilərə qulluq edən ziyalınümalar tərəfindən ortaya atılan mürtəcelik və qapalılıq ittihamı yalnız siyasi düşüncə, elm və əməl sahəsində yeniliklər baxımından parlayan, öncül, mütərəqqi və məlumatlı bir təbəqə kimi tanınan din alimlərinə və ruhanilərə yönəldi.

Düşmənin mövqeyi ayıq xalq, məsuliyyətli və inqilabçı ruhani toplum üçün eynilə müdrik və aydın baxışlı imamımızın dəfələrlə bəyan etdiyi həqiqəti aşkara çıxarır. Yəni birincisi, böyük ruhanilərin qədrini bilmək və onlara tabe olmaq hər bir diqqətsizliyin yolverilməz olduğu dini, milli və inqilabi bir vəzifədir. İkincisi, qapalılığın və geriliyin, yaxud Allah eləməmiş, şəxsi maraqlara diqqətin, dünyagirliyin, maddi bərbəzəklərə yönəlmənin və ictimai imkanlardan sui-istifadənin ruhanilər üçün təhlükəsi düşmənin hücumlarından az deyil, hətta dəfələrlə çoxdur. Üçüncüsü, inqilab dövrünün vəziyyəti və İslam ölkəsinin sərhədləri xaricində İslama günbəgün artan diqqət səbəbindən din alimləri din bilgilərinin tükənməz ehtiyatından istifadə edərək tamamilə yeni baxışla, canlı və dinamik ictihadla və klassik fiqh metodikası ilə İslam cəmiyyətinin yolunu açmalıdırlar. Elm hövzələri əsaslı dəyişikliklə özlərini dünyanın bugünkü ehtiyacına uyğunlaşdırmalı, yeniliyi öz proqramlarına istiqamət seçməli, lazımi vaxt qoymaqla, fəqihliyin prinsip və əsaslarını qabartmaqla yanlış və eklektik fikirlərin yolunu bağlamalıdırlar. Dördüncüsü, kənara çəkilib siyasi fəaliyyətdən uzaqlaşmaq fikrini - bu, düşmənlərin istəyi və İslam vəzifəsinin ziddinədir – özlərinə və elm hövzələrinə əsla yaxın buraxmasınlar. Həmişə, xüsusən də təhlükəli zamanlarda xalqın önündə ixlasla və yorulmadan çalışsınlar. Elmi əməllə, fiqhi cihadla, etiqadı söz və əməl təbliği ilə yanaşı edib hər üç səngəri - məktəbi, məscidi və cəbhəni doldursunlar.

11. Vəfadar və fədakar insanları uca tutmaq

Bu yerdə vəfadar və fədakar insanları uca tutmağı da inqilab təlimlərinin əsas məsələlərindən biri kimi qeyd etmək lazımdır. İnqilaba vəfalı olanlar dedikdə məqsəd özlərinin, yaxud əzizlərinin canını fəda edərək, öz sağlamlıqlarını qurban verərək inqilabın təməllərini möhkəmlədən, düşmənləri İslam ölkəsindən və quruluşundan çıxaran şəxslərdir: hörmətli şəhid ailələri, qəhrəman müharibə əlilləri, əsirlər, itkin düşənlər, onların möhtərəm ailələri, silahlı qüvvələrin döyüşçüləri, öz ömürlərini cəbhələrdə keçirmiş Bəsic üzvləri, Cihad təşkilatının müharibə və quruculuq cəbhələrində çalışan üzvləri və bu ilahi imtahanda böyük çətinliklərlə üzləşmiş bütün şəxslər uca tutulmalı, xalq həmişə onların qədrini bilməlidir.

12. İmamın yolunu və məqsədini davam etdirmək

Son söz budur ki, İmam Xomeyninin səmərəli həyatının onillik dövrü bizim inqilabçı cəmiyyətimizə örnəkdir. İnqilabın əsas xətləri imamın təsvir etdiyi xətlərdir. Xam xəyalla yaşayan bədxah düşmənlər elə bilirlər ki, İmam Xomeyni vəfat edəndən sonra fərqli xüsusiyyətlərə malik olan yeni dövr başlamışdır. Onlar böyük səhvdədirlər. İmam Xomeyni həmişəyaşar bir varlıqdır. Onun adı bu inqilabın bayrağı, yolu bu inqilabın yolu, məqsədləri bu inqilabın məqsədləridir. İmamın ümməti və o ruhani insanın çağlar bulağından bəhrələnib özlərinin dini və insani şərəf və etibarlarını onda axtaran şagirdləri indi digər xalqların, hətta qeyri-müsəlmanların da o əzəmətli rəhbərin inqilabi təlimlərini öz qurtuluşları bildiyini, azadlıq və şərəflərini onda tapdıqlarını müşahidə edir. Bu gün o müstəsna şəxsiyyətin sayəsində hər yerdə müsəlmanlar oyanmışlar, zalım istismarçı imperatorluqların sarayları dağılmaq üzrədir. Xalqlar milli qiyamın dəyərini dərk edərək qanın xəncər üzərində qələbəsini təcrübə edirlər və hamı hər yerdə gözünü müqavimətli və yorulmaz İran xalqına dikmişdir.

Bəllidir ki, Amerika və hegemonluğun digər başçıları üçün İran xalqının öz onillik yolundan qayıtmasından, yaxud onda şübhəyə düşməsindən mühüm bir şey yoxdur. Çünki bu zaman xalqların parlaq

ümid nöqtəsi sönəcək və qanın xəncərə qələbəsinə şübhə ilə yanaşılacaq. Biz açıq şəkildə dünyanın bütün xalqlarına elan edirik ki, düşmənin yüz formada təlqin etməyə çalışdığı "İmam Xomeyni dövrünün bitməsi" təfəkkürü hegemonluğun hiyləsindən başqa bir şey deyil. Amerikanın və müttəfiqlərinin istəyinə baxmayaraq, İmam Xomeyni öz xalqı və cəmiyyəti arasındadır. İmam Xomeyni dövrü davam edir və davam edəcək. Onun yolu yolumuz, məqsədi məqsədimiz, tövsiyələri işıqlı çırağımızdır.

Bütün xalq, xüsusən də əziz gənclər və yeniyetmələr özlərini sevimli imamlarının əsgəri bilsinlər. Allaha arxalanmaqla və Allahın böyük imamı olan həzrət Mehdidən (ə) yardım istəməklə, qüvvə və qüdrətlə imamlarının uca məqsədlərinə sarı hərəkət etsinlər və bilsinlər ki, son qələbə bizimdir.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən: **1990**.

İslam inqilabı - bəşər tarixinin yeni əsri

Mən bu gün İran xalqına, dünyanın müsəlman xalqlarına, dünya miqyasında bizim inqilabımız və Böyük İmam Xomeynimiz haqda bir söz eşitmiş bütün şəxslərə inqilabımız və Allahın bu saleh bəndəsinin gördüyü işin təsiri haqda bir məqamı söyləmək istəyirəm. Bu bizim hərəkətimizin təməli və əsasıdır. Biz bu baxış əsasında yaşayır, mübarizə aparır və hərəkət edirik. O cümlə budur ki, İranda İslam inqilabının baş verməsi, dünyanın bu nöqtəsində İslam quruluşunun yaranması və bizim xalqımızın inqilabı və İslamı müdafiə etmək üçün öz əzəmətli rəhbərinin arxasında uzun mübarizələr aparması ilə dünyada fərqli xüsusiyyətlərə malik olan yeni bir dövr başlandı. Dünyanın maddi gücləri istəsələr də, istəməsələr də, Amerika istəsə də, istəməsə də, dünyada bu dövr başlanmışdır və davam edəcək. Bu yeni dövrün təsirləri həm zəif xalq və hökumətlər, həm də qüdrətli dövlətlər və böyük güclər üzərində hiss olunur.

Bəşər tarixində yeni dövr başlayanda heç kəs özünü onun təsirlərindən kənara çəkə bilməz. Keçən dövrlər də belə olmuşdur. Heç kəsin özünü dünyada güclü ilahi və insani təməllərlə başlayan bir dövrün təsirlərindən uzaq saxlaması mümkün deyil. Biz bunu elan etmək istəyirik. Yer üzünün bir çox xalqlarının və hökumətlərinin bu yeni dövrün təsiri altına düşməsinə və hətta dünyanın siyasi xəritəsinin dəyişməsinə baxmayaraq, dünyanın güclü siyasi analitiklərinin bu dövrün başlanmasını etiraf etmələrini gözləmirik. Onlar yeni dövrün başlanmasını etiraf etməzlər, lakin bu dövrün təsir altına düşmüşlər və onu hiss edirlər. Bu yeni dövrü və əsri İmam Xomeyni dövrü adlandırmalıyıq.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü tədbirində çıxışdan: **1990**.

İmam Xomeyni dövrünün xüsusiyyətləri

Bu dövrün heç zaman ayrılmayacaq bir neçə xüsusiyyəti vardır:

Bu xüsusiyyətlərdən biri dini etiqad və inancların yayılmasıdır. Beynəlxalq hegemon sistemin siyasəti bu idi ki, dini və mənəviyyatı bütünlüklə xalqların həyatından çıxarsın, bəşər cəmiyyətini dinsiz, imansız və ilahi dəyərlərə etiqadsız bir cəmiyyət kimi yetişdirsin. Bu yeni dövrdə isə həmin siyasətlərin tam əksi baş vermişdir. Xalqlar yalnız İranda və İslam ölkələrində dini inanclara qayıtmadılar, hətta dünya miqyasında və on illərlə dinin ziddinə yaşamış cəmiyyətlər arasında da dinə etiqad və mənəvi təmayül artmışdır.

Bu hərəkətin gələcəyi belə olacaq: harada mənəviyyat daha güclü, daha saf, daha sağlam və bəşər fitrətinə daha yaxın olsa, xalqlar tərəfindən daha çox seviləcək. Din və mənəviyyatın antidəyər sayıldığı, ələ salındığı dövr bitdi. Bu gün dinsizlik, imansızlıq və mənəvi etiqadsızlıq bir antidəyərdir. Dünyanın çoxlu yerlərində bu iş baş vermişdir, qalan yerlərdə də baş verəcək. Bu, yeni dövrün xüsusiyyətlərindəndir. Bu böyük insan dünyada bu dövrün bayrağını ucaltdı, heç kəsin inanmadığı halda ona çağırış etdi və ürəkləri yönəltdi.

Bu yeni dövrün başqa bir xüsusiyyəti insanların və xalqın milyonluq izdihamının təsirli roluna məna və məzmun verməkdir. Bizim imamımızın vasitəsi ilə başlayan və əhatə dairəsi İranla məhdud olmayan yeni dövrdə xalq kütlələri əsas amil və qərar sahibidir, cərəyanları yönəldən onlardır. Keçmişdə xalqın iştirakı ilə baş verən, lakin sonra vəziyyətləri dəyişən çoxlu inqilablar olmuşdur. İkinci dünya müharibəsindən sonra on illər boyu dünyaya hakim olan güclər bütün dünya xalqlarını onların istəklərinə təslim olmağa, qlobal güclərin iradəsi qarşısında danışmamağa və fərqli iradə göstərməməyə vərdiş etdirmişdilər. Bu gün belə bir dünyada siz birdən-birə Şərqi Avropa ölkələrində milyonlarla insanın bizim müsəlman xalqımızın şah rejimi ilə mübarizəsində olduğu kimi meydana çıxdığını və eyni üsulla hərəkət etdiyini görürsünüz. Başqa sözlə desək, bu yeni dövrün və yeni əsrin

insani səciyyəsi qanın xəncərə qələbəsindən ibarətdir. Bu yeni dövrdə İranda olduğu kimi, xalq silaha sarılmadan yalnız boş əllə meydana çıxır, işğalçı və zalım hökuməti pis vəziyyətə salır. Bu üsul bu gün dünyada tanınmış bir üsuldur. Silahsız xalq kütlələrinin gücü bu gün dünyaya bəlli olmuşdur.

Böyük güclər bilsinlər ki, bundan sonra dünyanın heç bir yerində xalqın milyonluq izdihamının istəyi olmadan hakimiyyətdə qalmaq mümkün olmayacaq. Bu dalğa dünyaya nə qədər çox yayılsa, qanunsuz, zülmkar və antiinsani hökmranlıqların vəziyyəti bir o qədər ağırlaşacaq. Bu, bizim böyük imamımızın bu xalqın ayıqlığı və imanı sayəsində İranda gördüyü və dünyaya örnək göstərdiyi hərəkətdir. Buna görə siz görürsünüz ki, işğal olunmuş torpaqlar daxilində məzlum Fələstin xalqı illər sonra qiyam edir, işğalçı və zalım sionizm dövlətinin qəddarlığına və gücünə rəğmən, uğur qazanır.

Böyük imamın və bizim inqilabımızın dünya səviyyəsində yaratdığı yeni dövrün xüsusiyyətlərindən biri də böyük güclərin təsirindən azad olmaq pirinsipi, yəni bizim inqilabımızda "nə şərqçi, nə qərbçi" kimi tanınan məsələdir. İyirminci əsrdə dünyada baş verən təxminən bütün böyük inqilablarda mübariz xalq, yaxud qruplar bir istismarçı və ya hakimiyyət əleyhinə bir qədər uğurlu mübarizə apardıqdan sonra özlərini hansısa böyük gücə birləşdirirdilər. Bir xalqın özünə güvənməsi, Allaha təvəkkül edib zalım qarşısında dayanması, heç kəsə və heç bir gücə güvənməməsi, arxalanmaması İran xalqının Böyük İmamın rəhbərliyi ilə başladığı yoldur. Bu gün dünyada bu yola get-gedə çoxlu yolçular qoşulur.

Bizim imamımızın qiyam, müqavimət, Allaha inam, mənəvi dəyərləri uca tutmaq, onlara hörmətlə yanaşmaq və xalqa etimadla başlatdığı bu yeni dövr inşallah xalqları beynəlxalq istismarçıların boyunduruğundan xilas edəcək, böyük və qlobal maddi güclərin süqutunu yaxınlaşdıracaq. Bu o həzrətin gördüyü işlərdəndir. Bizim xalqımız özünün əzəmətli və müstəsna rəhbərinin arxasınca bu yeni dövrə qədəm qoyan, onun təməllərini möhkəmlədən və özünün güclü

müqaviməti ilə bu iddiaların doğruluğunu dünya xalqlarına sübut edən birinci xalqdır.

Bizim böyük inqilabımızın özünəxas səciyyələri vardı. Dəfələrlə xalqımızın və inqilabla tanış olanların təhlillərində təkrar olunan bu xüsusiyyətlər ilk dəfə olaraq bir inqilabda müşahidə olunurdu: İslama arxalanmaq, İslam hakimiyyəti qurmaq məqsədi, azadlıq, istiqlaliyyət, ictiami ədalət və sair bu kimi siyasi anlamlara yenidən baxış və İslam dəyərləri üzərində qurulan dünyaya və cəmiyyətə doğru getmək.

Həzrət İmam Xomeyninin vəfatının birinci ildönümü tədbirində çıxışdan: 1990.

İnqilabın təsirlərindən biri: müsəlmanlıqla fəxr etmək

Dünya müharibəsində İranın adını Orta Şərqin yolayrıcı qoymuşdular. Çünki bura uzun müddət Şərqi Asiya ilə Avropa arasında yeganə rabitə yolu olmuşdur. Bu ölkənin başqa bir üstünlüyü odur ki, Fars körfəzinin kənarında, Oman dənizinin sahilində və ən həssas bölgədə yerləşir. Amerikanın və qeyrilərinin müstəmləkə fəaliyyətlərinin qızğın çağında və hegemonluğun ən qüdrətli dövründə birdən-birə çox həssas bir nöqtədə möhtəşəm və misilsiz bir şəxsin rəhbərliyi və İslamın tamamilə dəyişib qorxusunu götürdüyü qəhrəman bir xalqın hissləri, duyğuları, ayıqlığı, ixlaslı və sadiq qüvvələri vasitəsi ilə əzəmətli bir inqilab baş verdi və onların bütün planları alt-üst oldu. Əvvəlcə inanmadılar, nə baş verdiyini anlaya bilmədilər. Siz məşhədlilər özünüz dəqiq müəyyən edə bilərsinizmi Məşhəd və yaxud Xorasan əhalisinin daxili inqilabının zirvəsi hansı an və hansı zamandır?! Heç kəs müəyyən edə bilməz. Allahın lütf və mərhəməti, qeybi yardımlar və dövrün imamının nəzəri birdən-birə xalqı dəyişdirdi. İnqilab Allahın müsəlmanlara ən böyük hədiyyəsi olan rəhbərin arxasınca sürətlə hərəkətə keçdi və bu xalqın atdığı hər bir addım on addım qədərincə irəlilədi.

Biz on beş il öncəki xalqıq? On beş il öncə İranda vəziyyət necə idi? Bizim və sizin Məşhədimizdə nə baş verirdi? Gənclər necə idilər? Universitet necə idi? Elmi hövzə necə idi? İndi necədir? Bu dəyişiklik on beş il ərzində həyata keçəsi dəyişiklikdirmi?! Bu, Allahın möcüzəsindən, mənəvi diqqətdən və qeyb aləmindən çaxan şimşəkdən başqa bir şeydirmi?!

Bu inqilab başlandı və inkişaf etdi. Bu inqilabın ilk təsiri dünya səviyyəsində yüzəlliillik müstəmləkə binasını yerlə-yeksan etməsi idi. Hansı binanı? Müstəmləkəçilik müsəlmanların ruhiyyəsini əzmək üçün yüz əlli il zəhmət çəkmişdi. Müsəlman dünyada özünün müsəlman olması ilə qürur duymurdu. Sizin hansınız görmüş, yaxud eşitmisiniz ki, tağut dövründə dünyanın hər hansı bir yerində - Avropada, Amerikada,

yaxud ucqar bölgələrdə kimsə başını dik tutub fəxrlə desin ki, mən müsəlmanam. O zaman da müsəlman olmaq fəxr idi, amma heç kim bunu hiss etmirdi, ruhiyyələr sarsılmışdı. İnqilab gəlib bu vəziyyəti dəyişdirdi. Müsəlmanlar dünyanın hər bir yerində İslam kimliyi hiss etdilər və ruhlandılar. Buna görə biz deyirik ki, bu inqilabi hərəkat böyük güclərə öz zərbəsini vurmuşdur və onar bir iş görə bilmirlər.

İmam Rzanın (ə) doğum günündə Xorasan vilayətinin müxtəlif təbəqələri, məmurları, din alimləri və ruhaniləri ilə görüşdəki çıxışdan: 1990.

İmamın rəftarının əsas məqamları

Bizim böyük imamımızın rəftarında olan əsas cəhətlər bir-iki deyil. Bu uca və dəyərli insanın həyatının müxtəlif cəhətləri İslam ümməti tərəfindən öyrənilməlidir. Lakin bununla yanaşı onun həyatında iki-üç əsas məqam var və onlar İslamın bugünkü missiyasına iman gətirən bizlərin diqqətindən yayınmamalıdır.

Birinci məsələ budur ki, o özünün bütün işlərini Allah üçün görürdü. Müxtəlif üsullara, yollara, tərbiyə və təsirlərə malik müsəlmanlar onun əzəməti, yolu və sözü qarşısında eyni formada təslim oldular və ona qoşuldular. Bəlkə də bu nailiyyət onun ixlasından irəli gəlirdi. O, Allahdan ötrü danışırdı, Allahdan ötrü hərəkət edirdi, Allahdan ötrü qəzəblənirdi, Allahdan ötrü dəstəkləyirdi, Allahdan ötrü insanların razılığını əldən verməyə və yalqız hərəkət etməyə də razı idi.

Onun əsas cəhəti ixlası idi. Onun yolunu da yalnız ixlasla getmək mümkündür. Xalqda Allaha şükür olsun ki, bu ixlas var və onu göstərmişdir. Böyüklər, öncüllər, rəhbərlər, din alimləri, mütəfəkkirlər və ziyalılar da harada bu ixlası işlətsələr, ixlasla çalışsalar, Allah üçün danışıb işləsələr, uğur qaçılmazdır. Yəni söz sədaqətlə və Allahdan ötrü olsa, yararlı qəlblərə öz təsirini göstərəcək, Allah ona bu təsiri bağışlayacaq. O həzrət belə idi.

Məhz buna görə düşmənlər onun bir kəlmə sözündən və bir işarəsindən qorxuya düşür, dostlarsa ümidlənirdilər. Çətin hadisələrdə imamın sözü yalnız İran daxilində yox, hətta bütün İslam dünyasında qəmli ürəklərə ümid bəxş edib hərəkəti təmin edə bilirdi. Bu xüsusiyyətə heç kim əhəmiyyətsiz yanaşmamalıdır; xüsusən də biz və özləri üçün mühüm məsuliyyət və vəzifə tanıyanlar.

Başqa bir məqam budur ki, onun İslam dünyasına dair geniş baxışı vardı və həmin baxışın ardınca müsəlmanların birliyinin zəruriliyinə güclü inam gəlirdi. Bu mühüm məsələdir. Söhbət bundan getmir ki, İslam məzhəblərinin, yaxud firqələrinin, müxtəlif siyasi, etiqadi və digər qrupların nə qədər tərəfdarı, nə qədər siyasi və ictimai gücü var və

yaxud yoxdur. Söhbət bundan gedir ki, biz İslam dünyasının problemlərinə çarə axtarırıqsa, yaxud daha doğrusu, İslam və Quranın ucalığı, əzəməti və iqtidarı üçün mübarizə aparırıqsa, bu, müsəlmanlar arasında ixtilaf və çəkişmə ilə uyğun gələn deyil. İmam inqilabın qələbəsindən öncədən bu məqsədi izləyir və tövsiyə edirdi, inqilabın qələbəsindən sonra da eyni məqsədi daha çox rəhbər tutdu.

İmam Xomeyninin vəfatının birinci ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1990.

Hegemonların maraqlarının ziddinə olan İslam oyanışı

Bu inqilab Allahın adı ilə baş verdiyindən həmişə şeytanlarla mübarizədədir; məzlumları müdafiə etdiyinə görə daim quldur və hegemonlarla əlbəyaxadır. Siz insani dəyərlər üçün hərəkət etdiyinizə görə insani dəyərlərə müxalif olanlar həmişə sizdən narazıdırlar. Siz ruh və qəlb sarıdan möhkəm olmalısınız.

Bu xalqın əlində böyük bayraq vardır. Sizin ucaltdığınız bu bayraq dünyanı oyatmışdır. Görün bu gün Fələstində, Şimali Afrikada nə baş verir! Görün müsəlman cəmiyyətlərdə İslam öz haqqını necə əldə edir! Bu işləri siz gördünüz.

Müsəlmanları küfr və hegemonluq mədəniyyətinə qarşı zəif yetişdirmişdilər və onlar acizlik duyurdular. Bu gün hökumətlərində milyonlarla müsəlmanın payının və haqqının olduğu yerlərdə İslam inqilabından öncəyə qədər heç kim İslamdan danışmağa cürət etmirdi. Bu gün cümə və camaat imamlarının təşkilatlar yaratdığı, məscidləri rövnəqləndirdiyi və mərkəzə çevirdiyi müsəlman ölkələrində dünənə qədər məscidlər əldən düşmüş bir qrup qocaya məxsus idi. Bu gün o məscidlər gənclərin və hərəkatların mərkəzidir. Bunu siz etdiniz. Bunu sizin hərəkətiniz və ilahi insan olan əzəmətli rəhbəriniz etdi.

İslam düşmənləri buna görə sizə qəzəblənmişlər: “Sən yəhudi və xaçpərəstlərin millətlərinə (dinlərinə) tabe olmayınca onlar səndən razı qalmayacaqlar”.[1] İslam düşmənləri İslamdan əl çəkənə qədər sizə müxalif olacaqlar. Lakin məsələ burasındadır ki, düşmən müxalif olduğu tərəfin məhvə məhkum olduğunu göstərmək istəyir. Zəif xalqları buna inandırmışdılar. İndi əksi sübuta yetir və məlum olur ki, kim İslama müxalif olsa, məhv olmalıdır. İslam dünyada özünə yer açmışdır və daha çox açacaqdır. Bu gün İslam bayrağının ucaldığı bəzi ölkələrdə sizin inqilabınızdan öncə kimsə ümumi yerlərdə “mən

[1] Bəqərə/120.

müsəlmanam" deməyə, yaxud İslam əməllərini yerinə yetirməyə və namaz qılmağa cürət etmirdi. Bu gün isə təkbir səsləri həmin ölkələri başına almışdır.

Hegemonluq istəsə də, istəməsə də, Amerika istəsə də, istəməsə də, sionizm istəsə də, istəməsə də, İslam yenidən oyanmış, əsrlərin əzəmətli qəhrəmanı yenidən səhnəyə çıxmışdır. İslam düşmənlərinin əlindən bir iş gəlmir. Görə bildikləri ən böyük iş kin və ədavətlərinə görə Allahın əmin-amanlı evində müsəlmanları qana boyamaqdır. Bundan çox nə edə bilərlər?! Görə bildikləri maksimum iş budur ki, Allahın adını və xatirəsini ən çox yaşadan müsəlman xalqa Allah evinin ziyarətini qadağan etsinlər; necə ki, bunu etdilər. Bəli, Allah evinin ziyarətindən məhrum olduğumuza görə narahatıq, qəlbimiz yaralanmış və boğazımızı qəhər tutmuşdur. Lakin İslam düşmənlərinin, onun alət və muzdurlarının bu əməli yenə də İslamın əzəməti ilə nəticələnəcək, İran xalqının məzlumluğu daha çox aşkarlanacaq və həmin məzlumluq bizim haqlılığımızı sübut edəcək.

7 Tir (27 iyun) və hörmətli Məkkə şəhidlərinin ailələri, Həmədan, Günabad, Ramiyan şəhərlərinin və Tehranın şərqinin əhalisinin müxtəlif təbəqələri, Ali Məhkəmənin məsul işçiləri, əməkdaşları və İslam Təbliğatı Komitəsinin əməkdaşları ilə görüşdəki çıxışdan: 1990.

İnqilabın və inqilabçılığın dəyəri

İnqilab bir dəyərdir. İnqilabı və inqilabçılığı antidəyər kimi göstərməyə çalışanlar inqilabdan ən çox ziyan çəkənlərdir. İnqilab məfhumlarına şübhə ilə yanaşmaq antidəyərdir. Zülmkar, istismarçı və zalım güclərlə mübarizəyə şübhəli yanaşmaq antidəyərdir. Xalqların xilası zalım güclərdən müstəqillikdədir. Zalım güclər həmişə xalqlara sübut etməyə çalışmışlar ki, əbəs yerə və yanlış olaraq çalışırlar, onların xilası bizim boyunduruğumuz altına girmələrində, maddi işlərdə və qanunsuz hökmranlıqda bizə yardımçı olmalarındadır. Bunu təlqin edirlər. Biz isə inanmır və digər xalqların da inanmamasına çalışırıq.

İran İslam Respublikasının Xarici İşlər Nazirliyinin əməkdaşları və xarici ölkələrdəki səfirləri ilə görüşdəki çıxışdan: 1990.

İlahi hidayətin və qüdrətin inqilaba dayaq olması

Allaha şükür edirik ki, birinci gündən bu inqilabın və ölkənin arxasında duran qüdrətli əlin hələ də həmin işi gördüyünü sübuta yetirdi. Allah-Taala bu inqilabın qələbə əlamətlərinin göründüyü zamandan bütün çətin mərhələlərdə Öz sonsuz qüdrəti ilə məmurlara və xalqa yardım etmişdir. Bizim böyük imamımız bir qüdrət əlinin bu inqilabı və xalqı hidayət etdiyinə dərindən inanırdı. İndi də elə oldu və Allaha şükür olsun ki, İran xalqının, haqq yolunun və İslam yolunun siz fədakar və mübarizlərinin, həmçinin İslam və müsəlmanların qələbəsi və başucalığı ilə işlər gözəl şəkildə gedir. Heç bir bəşər düşüncəsi və yaradıcılığı baş verəndən yaxşısını düşünə bilməzdi. Allah-Taala Özü hamını hidayət etdi.

Əsirlikdən azad olanlarla görüşdəki çıxışdan: 1990.

İran xalqı - İslam ümmətinin fəxri

Qardaşlar! Biz çox fəxrli bir yolun ortasındayıq. Bunu heç zaman yaddan çıxarmamalıyıq. Bu inqilab bütün müsəlman xalqların arzusu idi. Əgər İslam tarixi boyu bütün islahatçıların, mütəfəkkirlərin və azadlıqsevər insanların İslam və müsəlmanlar üçün belə bir günü arzuladığını desək, mübaliğə etmiş olmarıq. İslam düşmənləri İslamı, Quranı və İslam dəyərlərini tam məhv etməkdən ötrü böyük planlar qurmuşdular. On illər boyu İslamın bəşər həyatından tamamilə çıxması üçün nə qədər pul xərcləndi, nə qədər düşünüldü, nə qədər cinayət törədildi və nə qədər yalan təbliğat aparıldı!

Bizim inqilabımız İslamın düşmənlərinin və şeytanların istədiyinin əksini etdi. Bu gün İslam xalqları oyanmışlar. Bu gün dünyanın bir çox müsəlman ölkələrində İslam hərəkatı güclənmişdir. Bu gün İslam inqilabı və İslam hərəkatı böyük milli, ictimai və siyasi bir dəyər sayılır. Bu gün iş elə bir yerə çatıb ki, hətta İslamı sevməyənlər də dövrün tələbini nəzərə alıb İslamdan dəm vururlar. Bu gün İslam qüdrətli olmuşdur. Bu qüdrəti İslama kim verdi? Bizim şəhidlərimizin qanı, sizin zəhmətləriniz, dözümünüz, müqavimətiniz, siz ailələrin - anaların, ataların, xanımların və övladların göstədiyi səylər, çəkdiyi əziyyətlər, dözüm və müqavimətlər, bütün maddi və gənclik arzularını kənara qoyub İslam uğrunda mübarizə aparan şəxslərin ixlaslı fəaliyyəti bunları etdi.

Bu gün İslam dünyada ucalmışdır. Allaha şükür olsun ki, başıuca və inqilabçı İslamın mərkəzi də müsəlman İrandır. İran xalqı bütün bu fəxrlərin mərkəzində durur. İran xalqı həqiqətən böyük, uca, fəal və istedadlı xalqdır. Allah bu xalqı və onun xüsusiyyətlərini tanıdığına görə İslamın yenidən dirçəldilməsindən, Quranın və İslam dəyərlərinin yaşadılmasından ibarət olan ən böyük məsuliyyətləri bu xalqa tapşırdı və bu xalq da öz vəzifəsini uğurla yerinə yetirdi. Lakin biz yolun ortasındayıq və hamımız çalışmağa borcluyuq.

Əsirlikdən azad olanlarla görüşdəki çıxışdan: 1990.

İnqilabçı İran xalqının məzlum xalqlar tərəfindən sevilməsi

İslam öz tərəfdarı olan xalqlara bəşəri hidayət etmək gücü bəxş edir. Bizim xalqımız İslamın sayəsində elə bir bayraq ucaltdı ki, dünyanın məzlum xalqları o bayrağa qurtuluş bayrağı kimi baxırlar. Hegemonluğun və sionizmin bütün həqiqətləri həmişə tərsinə göstərən təbliğat və informasiya şəbəkələrini kənara qoysanız, İslam Respublikasının, İslam inqilabının, imamın və bizim xalqımızın şəxsiyyətinin dünya xalqları arasında ümid amili olduğunu, onlara həvəs və hərəkət bəxş etdiyini görərsiniz. Bu, İslamın sayəsində baş verdi.

İslam düşmənləri İslamın tərəfdarı olan mübariz və fədakar İran xalqını dünya xalqlarının gözündə köhnəpərəst, xurafatçı, mürtəce, inkişaf əleyhdarı, ədalət əleyhdarı, bəşəri arzu və amalların əleyhdarı kimi təqdim etməyə çox çalışdılar, dünyada İran xalqının imicini korlamaq üçün çoxlu pullar xərclədilər, lakin nəticə onların istədiyi kimi olmadı. Onların bütün təbliğatlarına baxmayaraq, bu gün xalqların zülmə məruz qaldığı, xalq və hökumətlərin özlərinin qüdrətli dövlətlərlə və supergüclərlə əlaqədar məsələlərdə problem içərisində olduğu yerlərə - üçüncü dünyanın müsəlman və qeyri-müsəlman ölkələrinə getsəniz, xalqların İrana, İslam Respublikasına, bu ümmətin Böyük İmamına və sizin mübarizənizə qarşı müsbət fikirdə olduğunu, onlara sevgi və səmimiyyət bəslədiyini görərsiniz.

Məşhəd və Tehran şəhərlərinin və Kürdüstan vilayətinin əlaçı şəhid övladları, müharibə əlilləri, Tehranın məktəb şagirdləri, pedaqoji mərkəzlərin müəllimləri, idmançılar və Bədən tərbiyəsi komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 1990.

İmamın qeybi görən hikməti

Məncə imam bir həkim idi; yəni pərdə arxasındakı mənəvi məsələləri görürdü. İnsanın gözü görməsə də, əlini suya salsa, onun axarını anlayar, qulağı ilə şırıltı səsini eşidər, lakin yeraltı suların axarını anlamaq olmaz. Hikmətin mənası budur. Mən görürdüm ki, bizim dövrümüzün heç kimlə müqayisəolunmaz bu müstəsna insanı sanki yeraltı axınları və hadisələrin pərdə arxasını görür. Demək istəmirəm ki, imam qeybi bilirdi. Xeyr! Allah-Taalanın izn verdiyi şəxslərdən başqa heç kəs qeybdən xəbərdar deyil. İmamın nə belə iddiası vardı, nə də biz onun barəsində belə iddialar edirik. Hikmət bundan başqa bir şeydir. O, məsələləri mənəvi duyğu ilə dərk edirdi.

Sizin inqilabda gördüyünüz, imamın barəsində danışdığı və sonra həyata keçən bütün bu hadisələr bu qəbildən idi. Elə bilməyin ki, o, maddi və siyasi proqnoz verirdi. Xeyr! O belə proqnozlar adamı deyildi. Əlbəttə, çox dərin siyasi düşüncəsi vardı və həqiqətləri anlayırdı. Amma adətən verilən proqnozlara əməl edən deyildi. Bu, insan varlığının sözügedən qeyb məsələsi, ruhani aləmi, iman və etiqad bəsləməyin lazım olduğu tərəfidir. Ona nail olmağın yolu isə təqvadır.

İran xalqının və imam kimi bir rəhbərin bütün küfr və nifaq düşərgəsinin, amerikapərəst müsəlmandan tutmuş sosialist müsəlmana qədər, münafiq və mürtəcedən tutmuş şəhvətpərəstə qədər - bəziləri yalnız ehtiraslara görə İslam Respublikası ilə mübarizə aparır, həmin işlərdən ötrü sino getdiklərinə görə bu quruluşdan acıqları gəlirdi - bütün şərqçi və qərbçi müxaliflərin böyük izdihamı qarşısında dayanıb qələbəyə əmin olmaları onlara hikmət və ayıqlıq bəxş edən təqvadan doğurdu.

Ümumi təqva - yəni xalqın təqvası insanların hər birinin ayrı-ayrılıqda təqvasından başqa bir şeydir. Ümumi təqva odur ki, məsələn imam işarə edəndə birdən-birə bütün cəmiyyət hərəkətə gəlsin. Bu xalqa təqvalı xalq deyilir. Bu o demək deyil ki, bu insanların hər biri tam təqvalıdırlar. Xeyr! Əksəriyyətinin çatışmazlığı var, lakin toplum mömin

və təqvalı toplumdur. Bu bir xalq üçün böyük fəxrdir, amma bizim hər birimiz özümüz haqda da düşünməliyik.

Bunu deyim ki, əgər xalqın təqvalı, imanlı və ixlaslı olması deyilirsə, heç kim bunu öz adına yazıb bu təqvalı və ixlaslı xalqdan olduğuna görə özünün də təqvalı və ixlaslı olduğunu düşünə bilməz. Xeyr! "Özünüzü qoruyun"[1]. Özünüzü təklikdə hesablayın; bunu hamı bacarar. Heç kəs özünün ümumi çəkisini anlamaya bilməz. Əlbəttə, dəqiqlikləri insanın özü görə bilməz və bunu təyin etmək üçün daha böyük bir müəllim və tərbiyəçi lazımdır.

Deməli, bu adi işlərin arxasında məntiqli və qayda-qanunlu bir şey vardır. Bu qeybdir və ona inanmaq lazımdır. Bunu haradan əldə edək? Şəriətə və vəzifəyə əməl etməklə. Bizim söhbət əsnasında toxunduğumuz başlıqlar eynilə imamımızın dəfələrlə təkid etdiyi məsələlərdir. Biz mövzunu təsvir etdiyimizdə başlıqların məhz onlardan ibarət olduğunu görürük. İmam deyirdi ki, biz vəzifəyə əməl edirik, qələbə üçün yox, Allaha cavab vermək üçün vuruşuruq. Allah-Taala vacib edib, biz əməl edirik. Qələbə versə, minnətdar olacağıq, qələbə verməsə, vəzifəmizə əməl etmək uğuru bəxş etdiyinə görə yenə də minnətdarıq. Qələbələrin sirri budur.

Əgər insan şəriəti öz öndəri seçsə, yəni İslam və şəriət vəzifəsinə uyğun addım-addım hərəkət etsə, şübhəsiz, qələbəyə çatacaq. Bizim heç bir əskikliyimiz olmayacaq, çünki qeyb hesabı çox dəqiqdir. Hesab edən də Allahdır, hesablayan aparat da Allahın elmidir: "Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz".[2] O hesabda heç bir şey gizli deyil.

Bizə deyəndə ki, cihad edin, yaxşı işlərə çağırın, namazı bərpa edin, zəkat verin, sözdə və əməldə doğruçu olun, pis əxlaqdan çəkinin, ixlaslı və fədakar olun və kamil bir möminin bəzəndiyi bu tip ilahi xüsusiyyətlərə malik olun, mənası budur ki, bu əmrlərin qarşısında boyun əyməmiz lazımdır. Əgər minalanmış bir sahədən keçmək üçün

[1] Maidə/105.

[2] Səbə/3.

sizə bir kağız verib desələr ki, iki metr irəli get, sonra otuz santimetr sağa hərəkət et, sonra qarşı tərəfə doğru irəlilə, bir metr yarımdan sonra sola hərəkət et və sair. Siz bu sahədə diqqətlə hərəkət etməlisiniz. Bunu yeraltı minaların düzülüş xəritəsini bilən bir nəfər yazıb sizə vermiş və belə hərəkət etmənizi istəmişdir. Bəndəlik də belədir.

Bir qrup adam ziyalılıq məsələlərini yanlış dərk etdiyinə görə - mən bunların ziyalı olmasını qəbul etmirəm - İslam bəndəliyinə irad bildirirlər. Onlar deyirlər ki, bəndəlik nədir, bəs bizim ağlımız nə oldu? Bunlar həyatı və həyat yolundakı məsələlərin əsl həqiqətini anlamamaqdan irəli gəlir. Sizin əlinizə bir xəritə veriblərsə, ona uyğun hərəkət etməlisiniz. Xəritədə "fikirləşməlisiniz" yazıldıqda həqiqətən fikirləşin və gəldiyiniz nəticəyə əməl edin. Bu da xəritənin bir hissəsidir. Harada "əbəs yerə fikirləşməyin, nəticəsi yoxdur" demişlərsə, bəndəlik sizə deyir ki, bundan başqa yolunuz yoxdur.

Həyatın bütün işlərində fikirləşmək və ağlın bələdçiliyi ilə hərəkət etmək lazımdır. Lakin müqəddəs şəriət sizə "bunu et" dedikdə etməlisiniz. Bura bəndəlik yeridir və orada başqa heç bir amilin - o cümlədən insan ağlının təsiri yoxdur. Əgər biz bu məsələyə diqqət yetirsək, təqvanı və Allahın razılığına uyğun hərəkət etməyi özümüzə məqsəd seçsək, bütün məqsədlər həyata keçər.

İnqilabçı bir mömin nə istəyir? İstəyir ki, dünyada zülmdən əsər-əlamət qalmasın, dünyanın zalımları zülm etmək imkan əldə etməsinlər, insanların həyatı şirin və xoşbəxt olsun, tövhid, ilahi din və ona boyun əymək şərəfi bir fəxr bayrağı kimi bütün müsəlmanların başı üzərində dalğalansın. Əgər bunları istəyiriksə, yol budur, başqa bir yol yoxdur.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri və fəqih rəhbərin korpusdakı nümayəndəliklərinin başçıları ilə görüşdəki çıxışdan: 1990.

İslam inqilabı - dünyada zülmə qarşı mübarizənin başlanğıcı

Keçmişdə quldur bir dövlət bir ölkəni işğal edəndə həmin ölkənin xalqı işğalçı əleyhinə ayağa qalxırdı; özü də həmişə yox, bəzi hallarda. Məsələn əlcəzairlilər işğalçı Fransa qüvvələrinə və vyetnamlılar Amerikaya qarşı mübarizə aparırdılar. Amma belə bir şey görünməmişdi ki, xalqlar hələ onlara qarşı vuruşmayan, lakin digər xalqlara, məzlumlara və zəiflərə qarşı quldurluq edən bir qüvvə ilə mübarizə aparsınlar. Siz xalqların oyanışı tarixinin harasında belə bir şey görmüsünüz?! Keçmişdə əsla belə bir şey yox idi.

Son 200, 150 və yaxud 120 ildə xalqların oyanışı başlanmışdır. Bu dövrdə Hindistanda, Misirdə, Orta Şərqdə, tədricən Afrikada və digər yerlərdə xalqlar ayağa qalxıb böyük güclər əleyhinə vuruşmağa başladılar. Əgər bir ölkə İngiltərənin müstəmləkəsi idisə, ingilislərlə vuruşurdular; əgər Fransanın müstəmləkəsi idisə, fransızlarla vuruşurdular; əgər İspaniyanın, yaxud Portuqaliyanın müstəmləkəsi idisə, həmin iki ölkə ilə vuruşurdular; əgər Amerikanın boyunduruğu altında idisə, onunla vuruşurdular. Siz harada görmüsünüz ki, xalqlar bu qədər yetkinləşib öz evlərində onlara hətta bir güllə də atmayan düşmənə yumruq düyünləsinlər, dünyanın böyük və hegemon bir gücü əleyhinə şüar versinlər?! Belə bir şey görünməmişdi.

Bu dəyişikliyin başlanğıcı İranda İslam inqilabının qələbəsidir. Siz indi görürsünüz ki, Afrikada, Şərqi Asiyada, hətta Avropada xalqlar və əsasən müsəlmanlar - qeyri-müsəlmanlar bu cəhətdən çox zəifdirlər – öz şəhər və ölkələrində ayağa qalxır, Amerika əleyhinə şüar verirlər. Məgər Amerika Əlcəzairə, Sudana, yaxud digər yerlərə giribmi? Xeyr! Məsələ burasındadır ki, İslam inqilabı birinci növbədə müsəlmanlara anlatdı ki, hər bir halda zülmə, dünyanın zülm bayrağına və zülm qütbünə qarşı mübarizə aparmaq lazımdır; hətta indi ondan ziyan görməsələr də. Əgər diqqətlə baxsaq, xalqların indi də Amerikanın qamçı zərbələrinə məruz qaldığını görərik. Adi camaat adətən bunu başa düşmür, amma eyni zamanda ayağa qalxır və şüar verirlər.

İslam bizə deyir ki, zalımla məzlumun mübarizəsində sərhəd yoxdur. Dünyanın harasında bir hegemon varsa, siz onunla mübarizə aparmalı, ona qarşı çıxmalısınız. Hegemon analitiklərin gözləri və beyinləri bunu görmür, anlamır, bu barədə fikirləşmir və bundan çıxış yolu axtarmır? Bu məsələ üzərində həqiqətən fikirləşin.

Dünyada İslam və hətta Şiəlik haqda keçirilən bu konfranslar nə üçündür? İslamşünaslıq öyrənmək istəyirlər? Həmişə radiolardan yayımlanan bu araşdırma və təhlillər nədən irəli gəlir? Düzdür, təbliğat xarakteri daşıyır, amma bir prinsip və əsasdan irəli gəlir. İraqın İran əleyhinə müharibəsində birdən-birə bütün Qərb və Şərq qolunu çırmayıb İraqa kömək edir. Halbuki Səddamın görkəmindən də zəhlələri gedirdi. Bəs bu nə üçündür? Bu onu göstərir ki, bizim üzərimizdə hələ ağır məsuliyyət var və möminin özünə qarşı təqva və tələbkarlıq dövrü hələ bitməmişdir. Erkən İslam çağı bizim üçün bir təcrübədir; İslamdan öncəki yəhudi tarixi bizim üçün bir təcrübədir.

Cümə surəsi hər həftə cümə namazında təkrar olunur. Onun hər həftə təkrar olunmasının və camaatın eşitməsinin səbəbi burada bəlli olur. Görün bu məsələ necə sənətkarcasına və çox zərif üslubda bəyan olunmuşdur. Əvvəlcə ilahi dəvətin genişliyini bəyan edir: "(Əksəriyyəti yazıb-oxumaq bilməyən) ümmi ərəblərə özlərindən peyğəmbər göndərən Odur. (Bu Peyğəmbər) əvvəllər haqq yoldan açıq-aşkar azsalar da, onlara (Allahın) ayələrini oxuyar, onları mənən təmizləyər, onlara kitabı və hikməti öyrədər. (Bu peyğəmbər) hələ onlara qoşulmamış başqaları üçün (qiyamət gününə qədər dünyaya gələcək bütün nəsillərə də göndərmişdir)"[1]. Yəni Allah bu Peyğəmbəri (s) yalnız bu qrupdan ötrü deyil, hələ onlara qoşulmamış digərləri - yəni sizlər və gələcək nəsillər üçün də göndərmişdir. Bu ilahi dəvət sonrakı nəsillərə də çatacaq?

Peyğəmbərin (s) dəvətinin qarşısında bu qədər maneələr var. Peyğəmbər (s) öz dövründə bu qədər zəhmətlərə qatlanıb dörd nəfəri

[1] Cümə/2-3.

müsəlman edə bildi. Gələcəkdə başqa şəxslər də müsəlman olacaqlarmı? Bu çox çətindir. Ayənin axırı bu suala cavab verir: “O, yenilməz qüvvət, hikmət sahibidir!” O, "Əziz"dir. "Əziz" qalib olan və sonda sözü həyata keçəndir: “məğlubedilməz qalib”.[1] Bu Əziz Allahın Özü hikmətlidir, yəni işləri əsaslıdır. Şübhəsiz ki, bu dəvət və missiya çoxlu nəsillərə çatacaq. Görürsünüz ki, çatmışdır və Allahın lütfü ilə günbəgün də çoxalır. “Həqiqətən, Biz sənə Kövsər bəxş etdik”[2] ayəsinin məzmunu da budur. Kövsər artan deməkdir - günbəgün artır.

Sonrakı ayə buyurur: “Bu, Allahın istədiyinə əta etdiyi mərhəmətdir. Allah çox böyük mərhəmət sahibidir!”[3] Bu, Allahın lütfüdür. Düzdür, dəvət genişdir, amma belə deyil ki, bu dəvətin qarşısında duran hər bir insan ondan təsirlənmək və onu qəbul etmək ləyaqətinə nail olsun. Xeyr! Bu hamıya məxsus deyil. Sözsüz ki, Allah tərəfindən yol açıqdır, lakin insanlar ehtirasların əsiri olur və qəbul etmirlər.

Bunların hamısı gələcəyə və bu dinin inkişaf edəcəyinə müjdədir. Lakin burada cümə surəsində bir xəbərdarlıq da var. Sizin buna diqqət yetirmənizi istəyirəm. Dəvətin gələcəyə şamil olması müzakirə mövzusu deyil. Bu qəti məsələdir. Lakin hazırkı zamanı itirməkdən ehtiyatlı olun. Gələcək nəsillər başıuca olacaqlar. Lakin başıuca olmuş mövcud nəslin özü bir təhlükə altındadır. İslam hər bir zamanda müsəlmanlara bunu başa salmaq istəyir.

Nə zaman və hansı nəsil müsəlman olduğunu duysa, bu ilahi xəbərdarlıqdan qorxmalıdır. Lakin bunu birbaşa demir. Quran bunu çox zərif formada və bir misalla bəyan edir, Bəni-İsraildən məsəl çəkir: “Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər (Tövrata yükləndikdən sonra onu daşımayanlar)”...[4] Biz Tövratı onların beyinlərinə, qəlblərinə və imanlarına yüklədik. Lakin bir müddətdən

---

[1] "Bihar əl-ənvar", c. 84, səh: 241.
[2] Kövsər/1.
[3] Cümə/4.
[4] Cümə/5.

sonra bu mənəvi yükü və ilahi hidayəti atıb özlərini ondan məhrum etdilər. O zaman nəticə belə olur: zahirdə hidayət var, daxildə isə ondan xəbər yoxdur; ad təkallahlıdır, mahiyyət isə müşrik; ad müsəlmandır, həqiqət isə kafir: "...belində çoxlu kitab daşıyan (lakin onların içində nə yazıldığını bilməyən, onlardan faydalanmağı bacarmayan) ulağa bənzərlər"[1]. Sanki bir heyvanın belinə kitab yükləmişlər və onun məzmunundan heç bir xəbəri yoxdur. Bu, iman gətirmiş müsəlman nəsillərə xəbərdarlıqdır. Bundan qorxmaq lazımdır.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri və fəqih rəhbərin korpusdakı nümayəndəliklərinin başçıları ilə görüşdəki çıxışdan: 1990.

[1] Yenə orada.

İslam inqilabının mesajı: Müsəlmanların birliyi

Bilməlisiniz ki, müstəmləkəçilik və hegemonluq on illərlə, bəlkə də daha çox müddət ərzində müsəlmanların arasında ixtilaf yaratmaq üçün pullar xərclədi; bundan ötrü kitab və jurnallar nəşr etdirdilər, şayiə yaydılar, təəssübkeşlikləri qızışdırdılar, müsəlmanların qəlbində bir-birinə qarşı çoxlu kin və ədavət yaratdılar. Əlbəttə, bu düşmənliklər keçmiş dövrlərdə də olmuşdur, lakin müstəmləkə dövründə yeni formaya düşdü. Son 100-150 il boyu İslam dünyasının yeni siyasəti ilə tanış olan hər bir kəs nələrə işarə vurduğumu bilir.

İslam inqilabı isə elə bir bayraq ucaltdı ki, hər hansı bir məzhəbdən və hər hansı bir ölkədən olan müsəlmanlar özlərinə müraciət etdikdə bu bayrağı sevdiklərini gördülər, onun İslam və Peyğəmbər (s) bayrağı olduğunu duydular. Odur ki, düşmənlərin çoxlu planları puça çıxdı. Hegemonluq sakit oturmur. İslam və müsəlmanların qan düşmənləri sakit durmurlar. Onlar İslam inqilabının və İslam Respublikasının ölkə daxilində və xaricində şiə və sünnilər arasında birlik yaratdığını, onları bir-birinə yaxınlaşdırdığını və qarşılıqlı təəssübkeşliklərini azaltdığını görən kimi bayırdan zəhər səpməyə başlayırlar.

Birlik həftəsinin ilk günündə əsirlikdən azad olanlarla və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1990.

13 Aban - inqilabın və hegemonluğun döyüş zamanı

"Yadına sal ki, bir zaman kafirlər səni həbs etmək və ya öldürmək, yaxud da (Məkkədən) qovmaq üçün sənə qarşı hiylə qururdular. Allah da (onların bu hiyləsinə qarşı) tədbir gördü. Allah tədbir görənlərin ən yaxşısıdır!"[1]

İnqilabın mühüm günləri bizim şücaətli və qorxmaz xalqımızın iyirmi ildən artıq sürən mübarizə dövrünün yadigarları, onların hər biri bizim mərhum və böyük imamımızdan bir xatirənin və bir işığın daşıyıcısıdır. Onların arasında 13 Aban (4 noyabr) daha rəngarəng cəhətlərə, daha dərin və köklü mesajlara sahibdir. Qanlı mübarizənin iki cəbhəsinin - zalım və məzlum cəbhəsinin, hegemonluq, istismarçılıq və birinci növbədə Amerika cəbhəsinin, eləcə də haqq, ədalət, onların bayraqdarı və imamı olan Böyük Xomeyni cəbhəsinin qarşıdurması bu gündə baş verən hər üç hadisədə aşkar və aydın şəkildə özünü göstərir, bugünkü və sabahkı nəsilləri düşüncəyə vadar edir.

Belə bir günün axşamı hegemon cəbhənin çirkin və qəddar əlləri haqq və ədalət cəbhəsinin imamını bütün məğrur saray sahiblərini mübarizəyə çağırdığı, yazıq kütlələrə və məzlumlara haqq şəfəqinin söklülməsini göstərdiyi kiçin evindən oğurlayıb apardılar və kapitulyasiya hiyləsinin baş tutmadığına görə öz faydasız qəzəblərini ağılsızlıqla soyutdular.

O zaman hegemonluğun bütün gücü buna çatırdı və bunu da elədi. İllər sonra yenə belə bir gündə həmin fədakar rəhbərin bayraqdarlığı və ilahi rəhbərliyi ilə bu məmləkətin hər bir insanının qəlbinin bacasından baş qaldıran haqq və ədalət günəşinin doğmaqda olduğu vaxtda hegemonluğun mənfur əli qəzəbli və sərgərdan vəziyyətdə, düşüncəsiz və məqsədsiz şəkildə şagirdləri hədəf seçdi, yeni bahar yarpaqlarının bir ovucunu yerə tökdü. O məsum ciyərparələrin

[1] Ənfal/30.

qanı qatilləri daha tez yaxaladı və xalqın ayıq qəzəb dalğası qələbə yolunun çır-çırpısını süpürdü.

Yenə belə bir gündə və qələbənin coşqun çağında inqilab gəmisinin gəmiçi Nuhun hikməti və Allaha təvəkkülü ilə tələtümlü dalğalar üzərində qüdrətlə irəlilədiyi və nicat sahilinə çatdığı vaxtda inqilabın güclü əli hegemonluğun yaxasını tutdu, onu öz yalançı təbliğatından və dünyanın xəbərsiz kütlələrinin xəyalında düzəltdiyi məğlubedilməzlik kürsüsündən endirdi, hegemon Amerika dövlətini təhqir edib dünyanın aşağılanmış xalqlarının qəlbini sevindirdi. Fəal tələbələr təxribatçıların və casusların yuvasını onlara zindan etdi və xilaskar İslamın zalım küfrlə barışmazlığını bütün dünyaya göstərdi. O gündən sonra muzdur rejimin zülm və istibdadına qarşı mübarizəni qalib edən İslam inqilabımız qlobal tamahkarların son ümidini də məhv edib yalnız İrana hakim olan asılı rejimi yox, hətta bütün problemlərin kökünün və mənşəyinin - yəni beynəlxalq istismarçı sistemin və birinci növbədə Amerikanın hədəf seçildiyi qlobal mübarizəsinin geniş cəhətlərini aşkara çıxardı.

1964-cü ildə imam Amerikanın hərbi müstəşarlarının hüquqi toxunulmazlığına etirazdan sonra sürgün edildi. 1978-ci ildə həmin gündə şagirdlər qətliam olundu və 1979-cu ildə casus yuvası tutuldu. Bu üç hadisə bir tərəfdə İslam inqilabının, digər tərəfdə isə Amerikanın və İrandakı muzdur rejimin dayandığı qarşıdurmalardır. Bu üç hadisədə, ondan öncə və sonra davam edən mübarizə İslamın və İslam inqilabının xislətini, inqilabın yol və məqsədlərini təsvir etdi, beynəlxalq hegemonluğun, onun timsalı olan Amerikanın əsl simasını və kimliyini, eləcə də gücünü və zəifliyini nümayiş etdirdi. Hamısından önəmli olan budur ki, haqq və batil arasındakı mübarizə prosesinə dair aydın xətt cızıb, onun inkişaf formasını və hərəkət etdiyi istiqaməti məlum etdi. Bu ümidli prosesi araşdırarkən aydın olur ki, haqq cəbhəsi möhkəm dayanıb fədakarlıq etdikdə kim, nə və hansı ölçüdə olmasından asılı olmayaraq, batil cəbhəsi onun qarşısında tab gətirməyib geriyə çəkilməyə məcbur olur.

1964-cü ildə bizim imamımızı yalqız və qərib şəkildə Qumdan Tehrana aparıb oradan sürgün elədilər. O zaman nə Amerika rejiminin başçıları, nə də İrandakı kiçik muzdurları tezliklə öz zülmkar hərəkətlərinin cavabını alacaqlarını güman edirdilər. Onlar bilmirdilər ki, bu şeytan hiyləsi və haqq cəbhəsinin qəlbinə doğru bu ədavətli yürüş birbaş özlərinin əleyhinə yönələn ilahi tədbirə vasitə olacaq, zalım şah hakimiyyətinin və hegemon imperiyanın süqutuna zəmin yaradacaq.

Həzrət imamın tələbə və şagirdlərə müraciətlə etirazlarını genişləndirməyə dair fərmanından ilham alan gənclərin təxribat və casus yuvasını ələ keçirməsi hegemon cəbhənin inqilab əleyhinə hücumu qarşısında reaksiya sayılsa da, eyni zamanda hegemonluq əleyhinə ibtidai cihad, haqq cəbhəsinin ayağa qalxmaq növbəsinin çatdığına, müstəmləkə balansının pozulmasına, Amerika sindromunun sınmasına və onların xalqları qorxutmaq üçün on illərlə gördükləri işlərin məhvinə bir əlamət idi.

Bir zaman müstəşarlarının və vətəndaşlarının İranda ağalığını və hüquqi toxunulmazlığını istəyən, otuz ilə yaxın bir müddətdə İranın siyasi, hərbi və iqtisadi taleyində rəqibsiz və hakim güc sayılan, qanunsuz maraqları tələbkarcasına İran xalqının maraqlarına tərcih edilən həmin zalım imperatorluq bu gün İran xalqının coşqun imanından irəli gələn güclü iradəsi və oyanışı ilə bu inqilabçı xalqın bir qrup mömin gəncinin hərəkəti qarşısında acizlik və məğlubiyyət hissi keçirdi və duruş gətirə bilmədi. Yalnız İran xalqı yox, son yarım əsrdə antiislam güclərin ardıcıl təlqinləri səbəbindən özünə, öz qüvvələrinə və hətta İslamın gücünə ümidi tamamilə əldən vermiş bütün müsəlman xalqlar inqilabın hər bir hadisəsindən, inqilab imamının hər bir söz və işarəsindən, xalq tərəfindən edilən hər bir hərəkətdən ümid, həvəs və etimad mesajı alır, öz güclərinə inanır və hegemonluğun zəifliyindən xəbərdar olurdular.

İranda İslam inqilabının qələbəsindən bu günə qədər dünya hər bir tərəfdə olan müsəlman xalqların özünəinamından irəli gələn, öz kimliklərinə və İslam mədəniyyətlərinə qayıdış istiqamətində olan

hərəkətlər müşahidə edir. Bunun səbəbi odur ki, İran xalqının fədakar mübarizəsi müstəmləkə və hegemonluğun Şərq və müsəlman xalqların Avropa və Amerika dövlətlərinə qələbə çalmağa qadir olmamasına dair hiyləsini puç etmiş və həqiqi gücün mərkəzini göstərmişdir. Həqiqi güc imanlı xalqdır və belə bir xalqın qarşısında nə qədər böyük və imkanlı olmasından asılı olmayaraq, heç bir maddi güc öz iradəsini yeritməyə qadir deyil.

Bu, 13 Aban (4 noyabr) gününün ən böyük dərsidir. Bu gün həm haqq cəbhəsinin imamının qəribliyinə və məzlumluğuna şahid olub, həm o imamın ümmətinin qanlı və fədakar müqavimətinə və yeniyetmə şagirdləri qurban verməsinə, həm də fəal və inqilabçı şagirdləri və müridləri tərəfindən düşmənlərin xar edilməsinə. Bu baxımdan bu günün dərsi çox ibrətli və müstəsna dərsdir.

Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə müraciətdən: 1990.

Xalqın inqilab yolunun haqlı olmasına güclü inamı

Allaha şükür edirik ki, İran xalqı haqqı eşidən qulaq və haqqı görən gözlə özünün böyük inqilabından və hikmətli rəhbərindən böyük həyat dərsi öyrəndi, Allahın vədlərinin günbəgün həyata keçməsi ilə bu yolun doğruluğuna inamı daha da gücləndi. Bizim xalqımız asılı şah rejiminə, Amerikanın hiylə və təxribatlarına, Şərqin və Qərbin yardım etdiyi hərbi tərəfə, iqtisadi mühasirəyə, siyasi cəbhəyə, beynəlxalq təbliğata və həmin düşmənlər tərəfindən yaradılan bir çox problemlərə qələbəni biri o birindən sonra bütün vücudu ilə hiss etdi. Bütün bu qələbələr İslama arxalanmaq, istiqaliyyəti qorumaq, əcnəbilərə möhtac olmamaq, Allaha təvəkkül etmək, xalqın yeganə və əvəzsiz rəhbərin arxasınca yekdil hərəkəti sayəsində əldə olundu.

Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə müraciətdən: 1990.

Gənclərin mübarizənin öncülləri olması

Əziz və inqilabçı övladlarıma və qardaşlarıma, gənclərə, bu böyük günün qəhrəmanı olan şagird və tələbələrə deyirəm: istər indi, istər gələcəkdə inqilabın əsas yükü sizin çiyinləriniz üzərindədir. Əziz İslam, şəhid valideynləri, Böyük İmam və xalqın saleh insanları sizə baxır, bel bağlayır və sizdən umur. Çalışın əzəmətli İslam inqilabının kamilliyə və məqsədlərinə çatması üçün fürsətlərdən əlverişli istifadə edin, beyinlərinizdə və qəlblərinizdə dini inancı gücləndirin. Mənəvi saflıqla və məsuliyyət hissini artırmaqla inqilabın bütün sahələrini, xüsusən də inqilabi dəyərləri, mədəniyyəti və ruhiyyəni qorumağa aid olan sahələri doldurun. Cəmiyyətlə, müxtəlif təbəqələrlə, xüsusən də hörmətli ruhanilərlə əlaqələrinizi gücləndirin, xeyirxah və qayğıkeş görünən şeytan hiylələrindən və iblis təxribatlarından ehtiyatlı olun. İran xalqının şərəfli mübarizə yolunda gənclər həmişə öncül olmalıdırlar. Özünüzü düzgün xətdə öncüllüyə hazırlayın, sayıqlıqla doğru və düzgün xətti yanlış xətlərdən ayırın. İlahi rəngləri təbliğ edin və İslam şüarlarını uca tutun.

Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə müraciətdən: 1990.

Xalqın ruhaniliyə inamının sirri: mənəviyyat və Allah üçün çalışmaq

Bizim nəyimiz vardı ki, xalq ruhanilərin və imamın sözü ilə belə hərəkət edib on beş il mübarizə apardı, öz fədakarlığı ilə onu qalib etdi və sonra həzrət imamın səmərəli həyatının on ilində bütün bu təxribatların önündə duruş gətirdi?! Bu, mənəviyyatdan və Allah üçün çalışmaqdan başqa bir şey idi?! Xalq inanırdı ki, ruhanilər özləri üçün deyil, Allah üçün və xalqın xeyrindən ötrü çalışır, Allahın əmrini yerinə yetirirlər. Məhz buna görə mənəviyyatdan və imandan başqa bir təmələ dayanan hərəkatlar qələbə çala bilmirlər. Bu başqa yerlərdə də, bizim ölkəmizdə də sınaqdan keçib ki, yalnız mənəvi, etiqadi, ilahi və iman cəhətinin hakim olduğu hərəkat qələbə çalır.

Xalq ruhaniliyi, bu libası, məni və sizi bu deyilənlərin timsalı bilir və mömin sayır. Bəzən özləri səhv də edir, hər halda, bəşərin xislətində olan ehtirasa, qəzəbə, tamahkarlığa, dəbdəbəyə və bu kimi işlərə düçar olurlar, amma ruhanilərdə hesab etdikləri kamilliklə özlərinə təsəlli verib deyirlər: biz nöqsanlıyıqsa, o kamildir; biz Allahın hökmünü anlamırıqsa, o anlayır; bizim Allahla əlaqəmiz zəifdirsə, onun əlaqəsi güclüdür - deməli, o nə desə, biz Allaha yaxınlaşmaq niyyəti ilə əməl edəcəyik.

Məhz buna görə harada ruhanilər öndə olmuşlarsa, qələbə hasil olmuşdur. İnqilabda, islahatda və xidmətlərdə belə olmuşdur. Əgər xalqın bu geyimə və bu instituta inamı sarsılsa, görün necə güclü dayaq xalqdan alınar, onun səmimi etimadı necə sarsılar!

Ruhani məhkəməsinin və prokurorluğunun əməkdaşları ilə görüşdəki çıxışdan: 1990.

Ruhaniləri bədnam etmək üçün düşmənlərin hiyləsi

Bu məmləkətdə Rza xanın antidin siyasətləri şübhəsiz, ingilislər və onun arxasında duran qüvvələr tərəfindən tənzim olunurdu. Çünki onun özünün və hökumətinin ağlı belə şeyləri dərk etməzdi. Həmin proqramlardan biri ruhaniləri bədnam etmək idi. O, əmmaməni qadağan etməklə kifayətlənmədi, ruhaniləri bədnam etməyə başladı. Vəziyyət elə bir həddə çatdı ki, küçələrdə uşaqlar bir ruhani görəndə ələ salırdılar. Bu hal geniş yayılmışdı.

Bu məsələ 1960-1961-ci illərə aiddir. O zaman mənim 11-12 yaşım var idi. Bu vəziyyət Rza xanın getməsindən təxminən on il sonraya və inqilabın başlanmasından bir qədər əvvələ qədər davam etdi.

Məşhəddə bizim mühüm məclis və yığıncaqlarımız olurdu. Mənim yığıncaqlarımda çoxlu tələbə və doktor iştirak edirdi və mən onlar üçün təfsir dərsi deyirdim. Bir dəfə ali təhsilli bir gənc dostumla Tehrana gəlmək istəyirdim. Dəmir yolu vağzalında bir qədər piyada gəzişib qatarı gözləməli olduq. Bu zaman savadlarının olub-olmaması bəlli olmayan bir neçə gənc məni elə məsxərə etdilər ki, dostum xəcalət çəkdi. Onlar ozamankı Avropa görkəmində idilər və İranda yeni yayılan cins paltarlar geyinmişdilər. Bu işlər geniş yayılmışdı, uşaqlara, yaxud xüsusi bir təbəqəyə məxsus deyildi.

Bu işlər ruhaniləri gözdən salmaq məqsədi güdürdü. Çünki onlar ruhanilərin və ruhanilərə inamın rolunu yaxşı dərk etmişdilər. Müdərris və mərhum Kaşani hadisəsində, ondan öncə Məşrutə və Mirzə Şirazi məsələsində bunu görmüşdülər, bilirdilər ki, bunları xalqın gözündən salmaq lazımdır. Bundan ötrü çoxlu pullar xərcləyir və hər bir vasitədən istifadə edirdilər.

O zaman ruhanilər iki xüsusiyyətləri ilə - elmləri və zahidlikləri ilə müxtəlif qurumlara, bizim kimilərə yer olmayan və ruhani əleyhinə təbliğatın mərkəzi və timsalı olan universitetə yol tapdılar. Həmin universitetdə uşaqlar dərsi tətil edib hansısa ruhaninin dərsinə gedirdilər. Halbuki həmin ruhaninin nə pulu vardı, nə gücü vardı və

hətta onun yanına getmək bəzən başağrısı ilə nəticələnirdi. Bütün bunlarla yanaşı, indi İngiltərənin, Rza xanın və Məhəmmədrzanın yerinə saqqallı, əmmaməli və adlı-sanlı bir cənab peyda olub yanlış işlər görməli və bütün bu zəhmətləri bada verməlidirmi?! Belələrinin bu işləri onların gördüyü bütün işlərdən pisdir! Buna əsasən, əgər biz ruhani təbəqəsini fəsada, rüşvətxorluğa və bu kimi işlərə sövq etməyə çalışan siyasi planların olduğunu fərz etsək, çox da səhv etmiş olmarıq.

Ruhani məhkəməsinin və prokurorluğunun əməkdaşları ilə görüşdəki çıxışdan: 1990.

Düşmənin iman, eşq və iradə qarşısında məğlubiyyəti

İslam inqilabı bir xalq inqilabıdır. Ümumiyyətlə İslam inancının hünəri bundadır: xalqın qəlbini elə alır, onların qüvvələrini ali və uca məqsədlər yolunda elə işlədir ki, bunun özü İslam inqilabını və hərəkətini sığortalayır, Allahın yardımına səbəb olur. İslamın erkən çağında da eynilə belə olmuşdur. O zaman xalqın iştirakı, onların imanı və ixlası yardıma səbəb oldu. Bu, Quranın aşkar ayəsidir. Quran buyurur: "(O Allah) səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi".[1] Yəni Allah-Taala öz yardımı və möminlərin vasitəsi ilə Peyğəmbərə (s) kömək etdi.

Bizim inqilabımızın bütün hərəkatlara və inqilablara bu qəti üstünlüyü vardı: o, xalqa arxalanırdı və həmişə də arxalanacaq. Beynəlxalq hegemonluğun bu inqilabı məğlub edə bilməməsinin - Allahın lütfü ilə heç vaxt da edə bilməyəcək - səbəbi budur.

Düşmən xalqa, mömin və ixlaslı insanlara nə edə bilər? Məgər düşmənin alətləri nədir? Düşmənin aləti maddi imkanlardan ibarətdir. Maddi imkanlar xalqın imanının, eşqinin və iradəsinin qarşısında təsirə malik deyil. Maddi imkanlar yalnız öz təchizatına arxalanıb vuruşmaq və mübarizə aparmaq istəyənləri qorxudur. Elə adamlar əgər qarşılarında öz imkanlarından daha modern və daha üstün imkanlar görsələr, qorxu hissi keçirə bilərlər. Lakin imanlı və ixlaslı xalqın qarşısında düşmənin modern imkanları bir iş görə bilməz. Ən modern imkanlar müqavimətli, möhkəm və şəhadət istəyində olan bir qüvvənin qarşısında aciz qalır. Məgər düşmən milyonlarla insanı geri oturda bilər?! Həmin hizbullahçı xalq ölkənin bütün xiyabanlarında şah rejiminin düşməndən almış müasir texnikaları qarşısında dayandı. Nə üçün o texnikalar onlara qələbə çala bilmədi? Halbuki onlar öz qarşı tərəfini öldürə bilərdi. Əgər kimsə ölümdən qorxsa, o texnikalardan da qorxacaq; əgər kimsə ölümü şəhadət bilsə, öldürücü texnikalardan da

[1] Ənfal/62.

qorxmayacaq. Bu mətləb düşmənlərin qarşısında dayanan bütün mübarizələrə aiddir.

İmam Həsən Müctəba (ə) qarnizonunda Bəsic günü tədbirində çıxışdan: 1990.

Ən böyük zəfər

Bəli, inqilabın hünəri budur; imamın hünəri bu idi. İmam düşmənin 50-60 il birbaşa və dolayısı ilə üzərində işləyib fəsad batlağına çəkmək istədiyi bir cəmiyyət üzərində iş apardı, onun gənclərini gül kimi pak-pakizə yetişdirdi. Onun özü buyurdu ki, bu, ən böyük zəfərdir. Bəli, imamın ən böyük zəfəri mömin, ixlaslı, sağlam, sədaqətli, ehtiraslara etinasız və qəlbləri Allaha sarı yönələn gənclər yetişdirmək idi. Tarix boyu bizim məmləkətimizdə, yaxud digər müsəlman ölkələrində nə zaman inqilab dövrü qədər yaxşı və saleh gənclərimiz olmuşdur?!

İmam Həsən Müctəba (ə) qarnizonunda Bəsic günü tədbirində çıxışdan: 1990.

Düşmənin intiqamı qarşısında sayıq olmaq

Ölkənin hər hansı bir yerində olan əziz qardaş və bacılarım! Bilin ki, bu gün Amerika, onun müttəfiqləri, muzdurları və köməkçiləri inqilabdan intiqam almaq üçün fürsət gözləyirlər. Onlar bizim inqilabçı gənclərimizdən xəbis Məhəmmədrzanın, zalım ailənin və onların dövründəki SAVAK məmurlarının intiqamını almaq üçün fürsət gözləyirlər. Onlar inqilabı daxildən çökürtmək üçün yollar axtarırlar. Sayıq olun! Allaha şükür olsun ki, indiyədək sayıq olmusunuz və sayıqsınız.

Bəsic Müqavimət Qüvvələri, feldşerlər və ordunun Hərbi Dəniz Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 1990.

İnqilab nemətinin şükrü: vəzifənin nə olduğunu bilmək

İslam quruluşu ilahi bir nemətdir. Allah-Taala zahirən bu imkansız fenomeni tarixi ənənələrə və bəşər dünyasına hakim olan qayda-qanunlara uyğun olaraq həqiqətən öz kamil qüdrətli ilə həyata keçirdi. Bu birinci növbədə İran xalqına və sonrakı mərhələdə bütün dünya müsəlmanlarına və hətta deyə bilərik ki, bütün dünya məzlumlarına Allahın bir hədiyyəsi idi.

Bütün ilahi nemətlər kimi bu ilahi hədiyyənin, Allah-Taalanın bu böyük lütfünün də xalqda zəmanət sənədi yoxdur. Əgər bu neməti yaxşı saxlasaq, qalacaq, günbəgün artıb çiçəklənəcək, daha çox fayda yetirəcək. Əgər Allah eləməmiş, onu tələf etsək, bu əmanəti qorumasaq, Allah-Taalanın bizim dərs almamızdan ötrü Quranda adlarını dəfələrlə çəkdiyi insanlar kimi olacağıq: "Tövrata əməl etməyə mükəlləf olduqdan sonra ona əməl etməyənlər (Tövrata yükləndikdən sonra onu daşımayanlar)..."[1]

Allah-Taala Bəni-İsrail haqqında dəfələrlə buyurmuşdur ki, biz bunlara üstünlük verdik, düşmənlərinə qalib etdik, onlara hakimiyyət, mülk və güc bəxş etdik. Allah-Taala onlar haqda buyurur: "Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular".[2] Quranda Bəni-İsrail haqqında çoxlu məzəmmətli sözlər vardır.

Bu nemətdən ötrü şükür etmək lazımdır. Bu nemətin şükrünü yerinə yetirməkdən, bu böyük ilahi hədiyyəni qorumaqdan ötrü biz onun qarşısındakı vəzifələrimizlə tanış olmalı və onlara əməl etməliyik. Məqsədi unutmayaq və yadımızdan çıxmasın ki, Allah-Taala İran müsəlmanlarını bu inqilabın və müstəsna rəhbərin sayəsində ucaltdı. Ümumiyyətlə Allah-Taala bu rəhbəri belə tarixi dönüş üçün saxlamışdı. İnsan belə düşünür ki, Allah-Taala bu qiymətli varlığı yetişdirib dünyada və tarixdə belə bir hərəkəti ərsəyə gətirməkdən ötrü ehtiyatda saxlamışdı.

---

[1] Cümə/5.

[2] Bəqərə/61.

Bu inqilab Allahın davamlı lütfü sayəsində qələbə çaldıqdan sonra bu yola və bu məqsədə inamı olan siz inqilabçı insanlar bu hökumətin əməkdaşları sırasına nə üçün qoşulduğunuzu düşünmüsünüzmü? Səbəb yalnız bu deyildi ki, Allah-Taala vədinə əməl etdi, bizi zəiflikdən, xarlıqdan, bütün zalım güclər tərəfindən başıqapazlı olmaqdan və İslam kimliyindən uzaq düşməkdən xilas etdi?! Çox gözəl! İndi bütün vücudumuzla İslam yolunda çalışmalıyıq.

Bu məqsəd bir an da yadımızdan çıxmamalıdır. Bizim hamımız bir-birimizə bənzəyirik. Bu sözləri kimsə mənə də deməlidir. Mənim bu sözlərə ehtiyacım sizdən çox olmasa da, ən azı sizin qədərdir. Bizim hamımız beləyik.

Biz bu məqsədi unutmamalıyıq ki, düz yolda olmaq - yolu döndərməmək, istiqaməti itirməmək və məqsədi unutmamaqdır. Bu məsələ o qədər həssas və mühümdür ki, Allah-Taala əzəmətli Peyğəmbərinə (s) də bunu tövsiyə edir. Biz də indi özümüzə bunu tövsiyə etmək istəyirik. Allah-Taala buyurur: “Sənə əmr edildiyi kimi, düz (yolda) ol. Sənin lə birlikdə iman gətirənlər də düz (yolda) olsunlar”.[1] Ehtiyatlı ol ki, yolu itirib səhv salmayasan. Yolu itirmək ümumi və qeyri-konkret bir sözdür. Hamı deyir ki, yol budur. İki yoldaşın, yaxud qardaşın fərqli üslubları, baxışları və əsasları ola bilər; siyasi, yaxud iqtisadi sahələrdə iki fərqli düşüncəyə malik ola bilərlər və hər biri deyər ki, mənim yolum düzdür. Yolun düzgünlüyünün mənası budur? Xeyr! Təbii ki, belə üslub fərqləri var.

Qardaşlar! Hansı üslubda, hansı cinahda, hansı düşüncə və xətdə olsanız, bilin ki, bir ayrılıq nöqtəsi var. Ondan ehtiyatlı olun. Bu nöqtə və an Allahın yerinə özünüzün meydana çıxdığınızı hiss etdiyiniz yerdir. Yayınma nöqtəsi buradır: “Sənin ən böyük düşmənin öz nəfsindir”. Bu nəfs və bu "mən" bütün düşmənlərdən təhlükəlidir. Biz ondan ötrü bəzən Allah eləməmiş, ən üstün və ən əziz dəyərləri də

[1] Hud/112.

unuda bilərik. Bura yayınma nöqtəsidir və bu hər an bizi gözləyir. Bundan ehtiyatlı olun.

Bu elə səhvlərdən deyil ki, biz öz həyatımızda onu axtaraq, güman edək və orada ehtiyatlı olaq. Xeyr! Bu hər an qarşıya çıxa bilər. Mənim indi danışdığım yerdə, sözümün ortasında bu iki yolayrıcı vardır. Sizin üçün də dinləmək əsnasında bu iki yolayrıcı var; atmaq istədiyimiz addımda, nəfs istəklərimizdən birinin olduğu və özünü göstərdiyi yerdə, qərar vermək istəyəndə - istər şəxsi, istər ümumi və dövlət qərarında bu vardır; ən zərif və ən incə hallarda bu yolayrıcı vardır.

Siz bilirsiniz ki, bizim böyük imamlarımızın düşüncə və sözlərində nə qədər belə incəliklər var. "Məkarim əl-əxlaq" duasında oxuyursunuz ki, İlahi, mənə izzət, ucalıq ver, amma təkəbbürə mübtəla etmə; məni ibadətə müvəffəq et, amma ücbə mübtəla etmə![1] Yəni hətta ibadət əsnasında da bu iki yolayrıcı var. Özünü öyüb "bu mənəm" dediyin an xeyirli və düzgün yoldan yayınıb əzab-əziyyətli və azdırıcı bir yola yuvarlanırsan. Bu, yayınma nöqtəsidir. Buna diqqət yetirmək lazımdır.

Siz hər namazda ən azı iki dəfə və hər gün ən azı on dəfə Allaha deyirsiniz: "Bizi doğru yola yönəlt!"[2] Adətən insan bir dəfə dua edir, lakin doğru yolu daim Allahdan istəmək "Sənə əmr edildiyi kimi, düz (yolda) ol" əmrinə tabe olmaqdır. Xüsusən biz yüksək vəzifəli məmur olduğumuza görə məsuliyyətimiz ağırdır.

Əziz qardaşlar! Bizdən soruşacaqlar. Biz iki dəfə mühakimə olunacağıq: bir dəfə tarix və gələcək bizim barəmizdə mühakimə yürüdəcək, bir dəfə də Allah.

1941-ci ildən sonra ölkədə bir qədər azad şərait yarandı, 1953-cü ildən isə bu məmləkətdə Məhəmmədrza xanın yeni repressiyası başlandı. Mən bunu yaddan çıxarmıram: həmin repressiya illərində biz elm hövzələrində mübariz və aydın insanlarla söhbət zamanı həmişə öz aramızda 41-53-cü illərdə fürsətdən yararlanıb bir iş görməyən insanları qınayıb deyirdik ki, bu 10-12 ildə nə üçün bir iş görmədilər. Bəlkə indi

[1] Səhifeyi-Səccadiyyə, "Məkarim əl-əxlaq" duası.

[2] Həmd/6.

də bizim bəzilərimiz özümüzü, yaxud başqalarını son 10-12 ilin bəzi dönəmlərində məzəmmət edək ki, filan yerdə filan işi görmək olardı, nə üçün görmədik? Yaxud gələcəkdə bu ölkənin əhalisi və dünya müsəlmanları bizdən soruşacaqlar ki, sizin ixtiyarınızda dəyərli fürsət vardı, bu fürsətdə nə etdiniz? Bütün vəzifələrinizə əməl etdiniz, yoxsa yox? Əgər biz azca səhlənkarlıq belə etmiş olsaq, mikroskop altına qoyub dəqiq mühakimə yürüdəcəklər.

Bu bir nümunə və sözsüz ki, böyük məsələdir. Tarixin və gələcək nəsillərin bu qınağı çoxlarını düzgün işləməyə vadar edir. Amma bizdə bundan üstünü də var və o, Allah dərgahında mühakimə olunmaqdır. Bunu neyləyək?

İnsan bəzi Quran ayələrini oxuyanda həqiqətən qorxur: "Onları tutub saxlayın, çünki sorğu-sual olunacaqlar!"[1] Onları saxlayın. Allah-Taala bizim addım atmağımıza qoymayacaq. Həmin əzəmətli və qorxulu səhnədə bizim işlərimiz, hərəkətlərimiz, sözlərimiz, əməllərimiz və hətta bəzən təsəvvürlərimiz bir-bir canlanacaq və diqqətlə araşdırılacaq: "Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu görəcəkdir. Kim də zərrə qədər pis iş görmüşdürsə, onu görəcəkdir"[2]. Siz qiyamətdə həmin xeyir və şərin özünü görəcəksiniz. O əməlin özü orada bizim önümüzdə təcəssüm olunacaq, canlanacaq.

Bizim həyatımızın hər bir anı ilahi elm və baxışın tam diqqəti altındadır. O ilahi insan və saleh bəndə arif baxışla və səlis nitqlə dedi: "Dünya Allahın hüzurudur". Biz indi Allahın hüzurundayıq. Allah-Taala bizim bütün düşüncələrimizə vaqifdir. Bu fikirlə İslam hökumətinin biz məmurları bu həssas dönəmin vəzifələrini bilməli və onlara əməl etməliyik.

Biz İslam hökuməti deməklə xalqın həyatına və ümumi vəziyyətinə, sosial quruluşa, düşüncə və mədəniyyətə, bütün ictimai münasibətlərə, o cümlədən İslam hökuməti məmurunun rəftar və üsuluna dair bəzi öhdəliklər götürmüşük. İslam hökumətinin xüsusi

[1] Saffat/24.

[2] Zilzal/7-8.

mənası var. İslam hökuməti şah rejimi deyil, dünyəvi hökumət, tağut hökuməti deyil, xalqın istismarı deyil, sui-istifadə fürsəti deyil. İslam hökumətində məmurlar İslam üçün və Allah üçün işləyirlər, özləri üçün yox.

Biz kompliment üçün deyil, sözün həqiqi mənasında özümüzü xalqa xidmətçi bilməliyik. Biz hansı səviyyədə olsaq, "bizim ixtiyarımızda olan, öz istək və arzularımızı təmin etmək üçün istifadə edə bildiyimiz imkanlardan bəhrələnək" fikrini tamamilə kənara atmalıyıq. Ölkə məmurları zahidlik, yəni dünya bərbəzəklərinə meylsizlik baxımından sözün həqiqi mənasında digərlərinə örnək olmalıdırlar.

Əmirəlmöminin (ə) Osman ibn Hüneyfə yazdığı məşhur məktubunda onu məzəmmət etdikdən sonra buyurur: "Bilin ki, sizin imamınız dünyadan iki köhnə paltarla və yeməklərdən iki tikə çörəklə kifayətlənmişdir. Lakin siz buna qadir deyilsiniz"[1]. Yəni mən sizdən belə həyat tərzi gözləmirəm.

Biz belə bir zirvəyə ucalmağa qadir olduğumuzu düşünə bilərikmi? Məgər zarafatdır?! Məqsəd özümüzü məsuliyyətdən kənara çəkmək deyil. Xeyr! Əgər kimsə bacarırsa, etməlidir. Biz özümüzə haqq qazandırmaq istəmirik. Xeyr! Elə yaşamaq süni bir iş deyil, polad kimi bir ruha dayanır və Əmirəlmöminində (ə) o ruh vardı.

Məktubun davamında buyurur ki, siz təqvalı olmağa çalışın və bacardığınız qədər buna səy göstərin. Nə qədər bacarırsınızsa, təqvalı olmağa çalışın. Əgər biz bu gün şüar verib "bizim cəmiyyətimiz istehlakçılıq ruhiyyəsini kənara qoyub Qərb mədəniyyətində geniş yayılmış əməllərdən çəkinməlidir" deyiriksə, ona əməl etmək bizim əməlimizə bağlıdır. Biz bunu xalqa öyrətməliyik. Məgər özümüz müxtəlif dəbdəbə və təmtəraqlara qurşandığımız halda xalqın bundan uzaqlaşmasını gözləyə bilərik? Əgər başqa yerlərdə şüar verirlərsə, biz əməl etməliyik.

---

[1] Nəhcül-bəlağə, məktub: 45.

Başqa bir məsələ xalqla münasibət tərzidir. İslam quruluşunda xalqla münasibət xüsusi önəm kəsb edir. Xalqı bütün işlərdə ixtiyar sahibi bilmək lazımdır, əziyyət verən qüvvə yox. Siz əziz qardaşlar müxtəlif dövlət qurumlarında çalışırsınız. Sizin rəhbərliyiniz altında çalışanlara ilk təlimatınız xalqla yaxşı rəftara aid olmalıdır. Xalq həqiqətən ixtiyar sahibidir. Xalq həqiqətən bizim və bu quruluşun məmurlarının ağasıdır. Bu kompliment deyil. Bəzi adamlar elə bilirlər ki, imam bu sözləri kompliment xatirinə deyirdi.

Əgər bu xalq övladları ilə birgə cəbhələrə yollanıb ölkəni müdafiə etməsəydilər, bu quruluşdan nə qalardı? Əgər bu xalq bu 12 il boyu bütün vücudu ilə və bütün vasitələrlə bizə dəstək verməsəydi, dünyada bizim qüdrət və izzətimiz haradan olardı? Məgər bizdə digərlərində olmayan nə var? Bir hökumət olaraq bizdə dünya güclərində, dövlətlərində, tağutlarında, zalımlarında, bu həyasızlarda və imperatorlarda olmayan nə var ki, onu işlədib xərcləyə bilək? Qorxmaz və mübariz bir xalqın imanından başqa bir şeymi var?! Bu hökumətin dayağı bu xalqın köməyindən başqa nədir?!

Deməli, xalq ixtiyar sahibidir. Şah rejimini bunlar devirdi. Əgər bu xalq imamın fərmanına qulaq asmasaydı, küçələrə çıxmaz və övladlarını qurban verməzdi, o dövrün mübarizlərindən olduğumuza görə fəxr etdiyimiz bizlər də yüz il eyni vəziyyətdə mübarizə aparmalı olardıq. Bu xalq küçələrə çıxdı, öz canını fəda etdi. İndi bizə müraciət edəndə onlarla daim bizə əziyyət verənlər kimi rəftar etməliyik?! Bu məsələ bir əxlaq məsələsi deyil.

Elə bir iş görmək, elə bir mexanizm yaratmaq lazımdır ki, hökumət məmurları özlərini sözün həqiqi mənasında xalqa xidmətçi bilsinlər, işləsinlər, onlara təyin olunan qədər zəhmət çəkib öz vəzifələrini yerinə yetirsinlər və səhlənkarlıq baş verməsin.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

İnqilabın qələbəsinin mübarizələrin mükafatı olması

İslam Respublikası quruluşu böyük bir ilahi hərəkətdir. Bu hərəkətin sahəsi ölkəmizin sərhədləri ilə məhdud olmur. Bu hərəkət hətta indiki dövrlə də məhdud olmur, möhtəşəm tarixi bir hərəkətdir. Digər nəsillər və bizim müasir müsəlman xalqlarımız bu hərəkətdən dərs götürməli, güc almalı və yollarını tapmalıdırlar.

Bu dönəm əzəmətli dönəmdir. İnsan bu məsələ haqda nə qədər dərindən düşünürsə, həqiqətən Allahın lütf və mərhəmətini daha aydın görür. Din, özü də İslam dininin hakimiyyətindən ibarət olan əzəmətli fenomen həmişə düşmənlərin dəqiq və planlı hədəfində olmuşdur. Xüsusən 200 il, yaxud daha artıq müddətdir ki, dünyada onun əleyhinə proqramlar hazırlayır, işlər görürlər. Bu şəraitdə bu məmləkətdə din hakimiyyəti quruldu və inkişaf etdi. Yəni dünya güclərinin həmişəkindən daha qüdrətli çağında, onların inhisarında olan bu texnologiya dövründə - dünya gücləri heç zaman bu qədər silahlı və bu qədər təzyiq vasitələrinə malik olmamışlar – İranda, uzun illər mədəniyyət və ruhiyyəsi üzərində mənfi iş aparılmış bir ölkədə İslam inqilabı qələbə çaldı. Bu, Allahın lütfündən və gizli qüdrət əlindən başqa bir şey deyildi; həm yaranması, həm inkişaf etməsi və bu günə qədər yaşaması. Bizim böyük imamımız buna dərindən inanırdı.

O bir dəfə buyurdu ki, mən inqilabın əvvəlindən bütün mərhələlərdə bir qüdrət əlinin bizə kömək etdiyini və bizi yönəltdiyini hiss etmişəm. Həqiqətən belədir. Əlbəttə, Allah-Taala bu qüdrət əlini təsadüfi, bəxtəbəxt və səbəbsiz göndərmir, mübarizə və fədakarlığın mükafatı kimi göndərir. Yəni tarixin qanunları pozulmamışdır və baş verənlər təsadüf deyildir. Xeyr! Baş verənlər dünya qanunlarına uyğundur, tanınmış maddi qayda-qanunlara isə uyğun deyil. Onda mənəvi element təsirli amil və əsas səbəbdir.

İndi bu tarixi missiyanın və möhtəşəm hadisənin önündə hegemonların İslam Respublikası quruluşuna qarşı güclü ədavət və

düşmənliklərini görürük. Bu gün böyük güclərin inqilab və ölkəyə təhlükəsinin inqilabın əvvəllərindən az olduğunu fərz etməmiz mümkündür. Çünki bu gün İslam quruluşu kök atmışdır, onun haqq sözü dünyanın müxtəlif yerlərini dolaşmış və çoxlu tərəfdar toplamışdır. Daxildə də çoxlu işlər görülmüşdür, öz işinə hakimdir və oturuşmuşdur. Belə fərz etmək mümkündür, amma bu barədə qəti mühakimə yürütmək istəmirik. Bu gün təhlükə azdır, amma İslam düşmənlərinin inadkarlığı və ədavəti şübhəsiz, inqilabın əvvəlindən artıqdır.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

Müdrik və bəsirətli imam

İmam sözün həqiqi mənasında bir həkim idi. Allah-Taala bu kişiyə həqiqi hikmət - "Həqiqətən, Loğmana hikmət verdik"[1] - vermişdi. Onun həqiqətən bəsirəti vardı. Bizim bəzən diqqətlə baxdıqda belə görmədiyimiz çoxlu məsələləri o adi baxışla müşahidə edirdi. Onun sözləri belə bir qəlbdən və belə bir hikmətdən irəli gəlirdi.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

[1] Loğman/12.

Hamının inqilaba borclu olması

İnqilabın bizə borcu yoxdur; heç kimə borcu yoxdur: "Onlar İslamı qəbul etdiklərinə görə sənə minnət qoyurlar. De: "Müsəlman olmanızla mənə minnət qoymayın! Xeyr, əgər (iman gətirdiyinizi) doğru deyirsinizsə, (bilin ki) sizi imana müvəffəq etməklə, əslində Allah sizin boynunuza minnət qoymuş olur!"[1] Allah-Taala bizim bu inqilabın ön sıralarında durub hərəkət edə və işləyə bilməmiz üçün bizə yardım etdi. Bizlər bu inqilaba borcluyuq. Bu inqilabın bizə borcu yoxdur, amma dünya müsəlmanlarına və bizim xalqımıza borcu var. Hərçənd xoşbəxtlikdən, onlar da bu inqilaba qarşı tələbkarlıq hiss etmir və ozlərini inqilabın əsgəri bilirlər.

Höccətül-İslam Hacı Seyid Əhməd Xomeyni və İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1990.

[1] Hucurat/17.

İslamın müstəmləkə yolunu bağlaması

İmamın bir şüar kimi irəli sürdüyü hövzə və universitet birliyi daha çox bizim cəmiyyətimizdə, yaxud bütün müsəlman cəmiyyətlərində mövcud olan acı həqiqətdən irəli gəlirdi. O acı həqiqət istismarçılığın birbaşa və hesablanmış şəkildə hazırladığı və işlədiyi plan idi. O həqiqət bu idi ki, istismarçılar özlərinin siyasi, iqtisadi, ictimai və mədəni işğal bağlarını hazırlayarkən bir əsas maneə ilə rastlaşdılar. O maneə xalqların dini etiqadı idi.

Əlbəttə, dini etiqadlar hər yerdə istismarçıların təcavüzlərinə mane olmur. Təhrif olunmuş, hansısa qüvvələrin əlinin məhsulu olan din təbii olaraq böyük güclərə qarşı çıxmır. İslam müstəmləkəçi dövlətlərin İslam ölkələrinə hərtərəfli və təcavüzkarcasına hücumuna qarşı çıxan bir dinin ən bariz və kamil nümunəsi idi. İstismarçılar öz araşdırmalarında bunu anladılar.

Çox eşitmisiniz, təkrarlamaq istəmirəm; Hindistanda bunu təcrübə etdilər, ərəb ölkələrində sınaqdan keçirdilər, İranda da yoxladılar. Harada xalqın dini vicdan duyğusu oyanmışdısa, müstəmləkə planları maneə ilə rastlaşırdı. Bir nümunə İranda tənbəki hadisəsi idi. Bir nümunə İranda Məşrutə hərəkatının əvvəlləri idi. Bir nümunəsi Hindistanda ingilislərə qarşı baş verən qanlı hadisələr idi. Bir nümunəsi on doqquzuncu əsrin ortalarında müsəlman əfqanlarla ingilislər arasındakı toqquşmalar idi. Bir nümunəsi Seyid Camalın Misirdə ingiltərəliləri qorxudan hərəkəti idi. Belə nümunələr çoxdur.

İngiltərənin ozamankı siyasi lordları və yüksək rütbəli məmurları təxminən bütün dünyanın siyasi planını cızırdı. Əslində onlar bütün dünyada işləyirdilər - Avstraliyadan tutmuş Mərkəzi Asiyaya, Hindistan yarımadasına, İrana, Orta Şərqə, Şimali Afrikaya və Amerikaya qədər. Bu kiçik ada dünyanın bütün ölkələrinə hökmranlıq edirdi.

Onlar bu nəticəyə gəldilər ki, nefti və qazı, ozamankı dünyanın gələcək enerjisini təmin etmək iqtidarında olan, təyyarələrin və indiki

sürətli əlaqə vasitələrinin olmadığı dövrdə Şərqlə Qərb arasında strateji baxımdan həyati nöqtə hesab olunan bu həssas bölgədə mövqelərini möhkəmlətmək istəyirlərsə, İslam haqda düşünməyə və ona çarə qılmağa məcburdurlar. Xalqın dini vicdanının və İslam imanının ayıq olduğu təqdirdə onların planlarının həyata keçməsi imkansız idi.

Onların bu fikri düzgün idi və düz anlamışdılar. Onlar üçün əsas maneə İslamdan ibarət idi. Biz ingilisləri dedik, amma Avropanın digər ölkələri də təqsirsiz deyildilər, Fransa, İtaliya, Portuqaliya, Belçika da var idi. Amma o zaman dünyanın müxtəlif bölgələrində görülən işlərin hamısında əsas mərkəz İngiltərə idi. Siyasətdə və cəmiyyətlərin həyatında hər xalqın öz növbəsi var. Onda onların növbəsi idi, çapıb talayır və amansızlıqla mənimsəyirdilər.

Növbə İslam ölkələrinə çatdıqda bu fikrə düşdülər ki, bu ölkələrin inkişaf etməkdə olan nəsillərini dindən ayırmalıdırlar. Bu iş üçün iki yol keçilməli idi.

Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdəki çıxışdan: 1990.

Dinlə mübarizədə müstəmləkənin seçdiyi üsul: əxlaqi tənəzzül

Biri cinsi məsələlərin yayılması və ona imkan yaradılması idi. İslam dini digər dinlərdən daha intizamlı və daha dəqiq olsa da, təkcə o yox, bütün dünya dinləri insanların cinsi özbaşınalığına qarşıdır. Dinlər bunun üçün qayda və həddi müəyyənləşdirib. Cinsi istəkləri məhdudlaşdırmadan insan ruhunun yetkinləşməsi mümkün deyil. İnsanın ehtirası heç bir sərhəd tanımasa, heyvan kimi olub insani tərəqqidən uzaq düşər. Buna görə də dinlər şəhvətpərəstliyə müxalifdir.

Hər bir cəmiyyətdə dinlərlə sadə və asan mübarizə yolu cinsi özbaşınalığa rəvac verilməsidir. İranda bu işə başladılar. Onun yollarından və bu sahədə görülən ən mühüm işlərdən biri hicabın qadağası idi. Başqa bir yol spirtli içkiləri yaymaq idi; onlar bu işi də gördülər. Başqa birisi qadınla kişi arasındakı əlaqə məhdudiyyətini sıradan çıxarmaq idi. Bu, sınaqdan keçirilmiş işlərdəndir. Yeni elmi cihazlar və sivilizasiyanın inkişafı, məsələn, kinoteatrlar, radio, televiziya və sair vasitələr də bu işləri cəmiyyətdə asanlıqla görmək imkanı verirdi. Bu sadalananlar hələ elm, savad, düşüncə və beyinə aid olmayan işlərdir.

Bəziləri səhvən elə düşünürlər ki, cinsi özbaşınalığa səbəb olan amil elm və bilikdir. Xeyr, elm və bilik ikinci məsələdir. Birinci məsələ yalnız mədəni məsələlər – düşüncə və elm fəsadının, ehtiraslı əməllərin yolunu açmaq və xalqın həyatını pozğunlaşdırmaq idi. Birinci iş bu idi və bunu etdilər. Buna görə də İranda, eləcə də digər ölkələrdə qərblilərin bu hücumu ilə yoldan çıxan ilk şəxslər savadlılar yox, əksər savadsızlar idi. İndi də belədir.

Zalım şah rejimi dövründə fəsada qərq olanların əksəriyyəti savadsızlar və cəmiyyətin orta təbəqəsi idi. Bəli, rifah təsirlidir, kömək edir. Rifah, israfçılıq və məişət imkanları onların istədiyi və planlaşdırdığı fəsada kömək göstərirdi. Bu bir məsələ idi.

Başqa bir məsələ elm və düşüncə məsələsi idi. Təbii ki, Avropanın nail olduğu elmi tərəqqilər cəlbedici idi. Bu yeni elmi düşüncələr İslam

ölkələrinə daxil olarkən onlar bunu xalqı dindən uzaqlaşdırmağa, ürəklərdə olan din-iman işığını söndürməyə və dini vicdan ayıqlığını ortadan götürməyə vasitə etdilər. Buna görə də universitetləri əvvəldən etiqadsızlıq əsasında yaratdılar.

İlk dövrlərdə təhsil məqsədilə Avropaya gedən gənclərin hamısı antiislam təbliğatına tuş gəldilər. Qərb mədəniyyətinin ilk yetirmələrinin hamısını demirəm, amma əksəriyyəti dinə biganəlik və hətta ədavət hiss edən insanlar idilər. Əlbəttə, iradələrin zəifliyi, güclü və aktual dini təbliğatın olmaması da təsirli idi.

Universitetin, yəni günün elmi nailiyyətlərinə uyğun alim insanlar yetişdirən mərkəzin özülü dinsizliklə qoyuldu. Bu üsulu illərlə prinsipial şəkildə və diqqətlə davam etdirdilər. Yəni nəinki universitetlərdə din faktorunu zəiflətdilər, hətta onunla mübarizəyə də qalxdılar.

Bunlar dinə bir din olduğu üçün düşmən kəsilmirdilər. Məqsəd əvvəldə dediyim idi; yəni İslam ölkələrində hökmranlıq edə bilmək. Onlar bunun üçün idarəçilik və ölkə quruculuğu baxımından ölkənin gələcək sahiblərini dinə və məzhəbə etiqadsız yetişdirməyə və özlərinə işlətməyə məcbur idilər. Təəssüf ki, onlar buna böyük həddə nail olub universiteti yanlış bünövrə üzərində yaratdılar.

Əlbəttə, bizim xalqımız arasında İslam imanı və milli vicdan elə həddə idi ki, alimlərin və ali təhsillilərin bir qrupu sağlam qala bildi. Universitet təhsili görənlərin hamısını dinə, dini və ölkə maraqlarına biganə təqdim etmək olmaz; bu, düzgün iddia deyil. Lakin onlar bu toplumun içindən kimi yuxarı postlarda oturtmaq istəsəydilər, bu işi asanlıqla görür və özlərinə işlədirdilər. Buna görə də siyasi xadimlər, universitet məzunları və ölkə miqyasında həssas postlar üçün ehtiyac duyduqları şəxslər dinə tamamilə yad oldular. Rza xanın dövründə, yeni elmin və Avropa mədəniyyətinin İranda yayılmağa başladığı zaman yetişən nəsil əksərən etiqadsız nəsil idi.

Əlbəttə, sonradan vəziyyət dəyişdi. Çoxları dini inkişaf və məlumatlarla tanış oldular, qəlblərində hisslər oyandı, sağlam düşüncə

və dindar ziyalılar peyda oldular. Şəhid Müfəttih, Şəhid Mütəhhəri, Şəhid Behişti və digər görkəmli şəxsiyyətlər və nüfuzlu ruhanilər universitetlərə yol tapdılar, təsir göstərdilər. Həmçinin bəzi universitet mənsubları din və məzhəb məsələləri ilə tanış oldular, onların istəyinin əksinə olaraq, bu yolda inkişaf etdilər.

İmam bu prosesi hamıdan yaxşı görür, məsələnin köklərini bilirdi. Pəhləvi hakimiyyəti dövründə onun nümunələrini müşahidə etmişdi. O, İran problemlərinin həlli, müstəqilliyin, "nə şərqçi, nə qərbçi" şüarının ölkədə yaşamasının yolunu yeni ziyalıların və ali təhsillilərin həqiqətən din və məzhəbə üz tutmasında, digər tərəfdən, həm də qeyd olunan amillər səbəbindən dünya hadisələrindən, elmi inkişaflardan, ölkənin mühüm hadisələrindən xəbərsiz qalan və bəzən qapalı düşünən ruhanilərimizin yeni məsələləri, elmi tərəqqiləri və dünyada baş verən hadisələri görmələrində, onlarla tanış olmalarında və yeni yolları sınaqdan keçirmələrində görürdü.

Hövzə və Universitetin Birliyi Günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdəki çıxışdan: 1990.

Peyğəmbərlərin məqsədi: saleh insan yetişdirmək

Bu bir həqiqətdir ki, bir inqilab üçün insan yetişdirmək hər şeydən önəmlidir. Əgər inqilab insan yetişdirməsə, heç bir iş görməmişdir. Bunun dəlili aydındır, yəni bu söz həqiqətən dəlil istəmir. Çünki saleh insan olmasa, dünya cansız, kor və qaranlıq bir yerə dönər. Quru aləmə can verən, dəyər, nur, məna və məzmun bəxş edən amil insandır: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam"[1]. Canişin sözü Allahın insana verdiyi ləqəbdir. Bu canişini harada təyin etmişlər? Yerdə. Bu canişin olmadan yer nədir və onun nə dəyəri var?!

Bütün peyğəmbərlər və Allahın saleh bəndələri dünyada saleh insan yetişdirməyə, onu qorumağa, inkişaf etdirməyə və çoxaltmağa çalışmışlar. İslamın məqsədi də budur. Siz gördünüz ki, imam bir neçə il öncə buyurdu: "İslam inqilabının ən böyük zəfəri belə gənclər yetişdirməkdir". İmam bu sözləri təsadüfən qələmə almadı. Bunun çox güclü dini və ilahi əsası var. Həqiqətən ən böyük zəfər saleh insan yetişdirməkdir.

Yer üzünü fəlakət bürümüşdür. On ikinci imama dair ziyarətnamə və əsərlərdə belə deyilir: "zülmlə dolmuş yer"[2]. Yer tarixin bütün dövrlərində zülmlə dolmuşdur. O həzrət isə gəlib bütün yeri ədalətə qərq edəcək. Yer üzündə olan bu zülmlər nəyin nəticəsidir? Saleh insanın olmamasının, yaxud azlığının, qeyri-saleh insanların ağalığı və hökmranlığının.

Bu gün dünya nədən nalə çəkir? Cavabı aydındır. Bu gün dünya ayrıseçkilikdən, qəsdən yaradılan məhrumluqdan, insanın təhqirindən, dünyada xüsusi bir təbəqənin təkəbbür və qürurundan nalə çəkir. Bəşəriyyət bu acı hadisələrin təsiri altındadır. Beş min il öncə dünya nədən nalə çəkirdi? Təyyarənin olmamasından? Kompüterin olmamasından? Məgər kompüter kimi xoşbəxt edir? Beş min il öncə də dünya bu ayrıseçkiliklərdən, zülmlərdən, insaniyyətə qarşı təhqirdən və

[1] Bəqərə/30.

[2] "Bihar əl-ənvar", c. 27, səh: 119.

bədxah insanların bəşəriyyətin həyatına və taleyinə hökmranlığından nalə çəkirdi.

Dünyada ədalət və xalis din bərqərar olmayınca bəşəriyyət həmişə bunlardan nalə çəkəcək. Buna görə bəşəriyyət deyə bilməz ki, elektrik qatarı və reaktiv təyyarəm olmayanda bədbəxt idim, bu gün bunlar olduğuna görə isə xoşbəxtəm. Bu gün bəşəriyyət xoşbəxtdir? Bu gün dünyada məzlum insanlar əksəriyyəti təşkil etmirlər? Bu gün dünyada mütləq azlıqda olan azğın bir qrup insanların taleyinə hökmranlıq etmir? Bu sözlər tarixdə həmişə olub və bu, insanın dəyişməz xislətidir. İnsanın gövhəri həmişə eynidir və həmişə azğın bir cərəyanın qarşısında dayanmışdır.

Bizim inqilabımız saleh insan yetişdirmək üçün baş verdi. Saleh insanın rolu budur. Mənim əziz qardaşlarım! Bu inqilabı bu günə qədər saxlayan amil saleh insanların və bizim xalqımızın malik olduğu düzgünlük miqdarından ibarətdir. Biz xalqımız haqda mübaliğə etmirik. Bu gün düzgünlük çoxdur, hakimdir və düzgünlüyə sarı hərəkət proqramlaşdırılmışdır. Və sözsüz ki, mütləq düzgünlüyə qədər olduqca uzun məsafə vardır.

İslam inqilabı komitələrinin komandirləri və mühafizəçiləri ilə görüşdəki çıxışdan: 1990.

Təvəkkül dəryası

Düşünürəm ki, bizim böyük imamımızın ən mühüm xüsusiyyəti onun üçün qohumun, yadın, dostun və tanışın heç bir fərqə malik olmaması idi. Həqiqətən o bu qaranlıq və zülmət dünyada bir günəş kimi bir neçə gün işıq saçıb getdi ki, insanlar günəşin də olduğunu bilsinlər. İmamlardan və məsumlardan sonra biz onun kimisini tanımırıq. Əgər kimsə desə də, məncə insafsızlıq etmişdir. Bəşəriyyət anlamalı idi ki, ilahi xəzinədə bu gövhər vardır. O kişi vəzifəsinin nə olduğunu bilən kimi ona əməl edirdi. Dedi ki, əgər yalqız qalsam da, haqq yolu ilə gedəcəyəm. O bunu doğru deyirdi.

O, xalqa müraciət edib mübarizəyə başlayanda din alimləri, böyük şəxsiyyətlər və dəyərli insanlar arasında heç kəs xalqın onun arxasınca gedəcəyinə inanmırdı. Düzdür, imam xalqa inanır və gələcəklərini bilirdi, amma eyni zamanda Allaha təvəkkül dəryası olan bu insan deyirdi ki, mən vəzifəmə əməl edirəm, istər gəlsinlər, istər gəlməsinlər, önəmli deyil. Allah-Taalanın da belə bir qaydası var: "Kim Allah üçün çalışsa, Allah da onun üçün çalışar"[1]; "Kim özü ilə Allahın arasını düzəltsə, Allah onunla xalqın arasını düzəldər"[2].

İslam inqilabı komitələrinin komandirləri və mühafizəçiləri ilə görüşdəki çıxışdan: 1990.

[1] Yenə orada, c. 85, səh: 319.

[2] Yenə orada, c. 68, səh: 366.

Şəfəq ongünlüyü və zülmün məhvi

Şəfəq ongünlüyü həqiqətən İran xalqının dönüş nöqtəsi və bizim tariximizin keçmişi gələcəkdən ayıran hissəsidir. Hamı bilir ki, keçmişdə bizdə eniş-yoxuşlar olmuşdur; başucalığımız olub, xarlığımız olub, hidayətimiz olub, azğınlığımız olub, amma heç vaxt, hətta İslamın bu ölkəyə gəldiyi dövrdə də, İslam mərkəzindən uzaq olduğuna görə, bu ölkədə sözün əsl mənasında İslam hökuməti yaradılmayıb. İslam fəthləri olub, İslamın böyük şəxsiyyətləri buraya gəliblər, daha böyük şəxsiyyətləri iranlıların özləri burada yetişdiriblər. İslam tarixinin dəyərli alimləri, böyük şəxsiyyətlər, İslam səmasının ulduzları burada doğulub yetişiblər. amma bu ölkədə həqiqi İslam quruluşu bərqərar olunmayıb.

Biz Əməvi və Abbasi hökumətlərini İslam quruluşu bilmirik. O hökumətlər də padşahlıq və şahənşahlıq quruluşudur, lakin başqa bir növdə və formada. Harun ər-Rəşidin, yaxud Əbdülməlikin və ya Hişamın hökumətinin Ərdəşir Derazdəstin hökuməti ilə nə fərqi var?! Adları müsəlman olduğuna görə yaxşıdırlarmı?! Məgər ad məsələni həll edir?! Bu ölkədə Sultan Mahmud Qəznəvi hökumətinin keçmişdəki zalım hökumətlərlə nə fərqi olmuşdur?! Hakimiyyət baxımından Qəznəvilərin Sasanilərlə nə fərqi var idi?! Fərq yalnız İslam cəmiyyətinə aiddir. İslam cəmiyyəti Sultan Mahmud Qəznəvini namaz qılmağa vadar edir. Buna görə, onun hökuməti sayəsində böyüyən şəxs də namaz qılan yetişir. Bunun Sultan Mahmudun şahlığına aidiyyəti yoxdur. Bu, İslamın mövcud həddinə görədir.

Bu ölkədə İslam hökumətindən və İslam Respubilkasından öncə hökumətlə xalq arasında olan əlaqələr həmişə qeyri-islami əlaqə, sultan və rəiyyət əlaqəsi, qalib və məğlub əlaqəsi olmuşdur. Buraya gəlib hökumət edən şəxslərin hamısı bu xalqa qələbə çaldıqlarını hiss etdilər; sonuncuları olan bu Rza xan və oğlundan tutmuş, birincilərə qədər hamısı. Qacarlar bu xalqa qələbə çalıb, özlərini fateh hiss etdilər,

əvvəldən hökumətlərini fateh kimi qurdular. Onlardan öncə Zəndilər, Əfşarilər və Səfəvilər qalib omuşdular.

Əgər bu şəkildə geriyə qayıtsanız, pulla, güclə, qəbiləçiliklə, quldurluqla, pəhləvanlıqla və müxtəlif vasitələrlə bu xalqa qələbə çalan, onları öz boyunduruğu altına salan müxtəlif sülalələr görəcəksiniz. Buna görə həmişə xalqla əlaqələri "biz buyurduq" olmuşdur. "Mən xalqa deyirəm", "mən xalqın xidmətçisiyəm" sözlərini imam deyirdi; bu, İslam Respubilkasına, İslama və bizim imamımıza aiddir. Ondan öncə isə "biz əmr buyururuq" və "biz belə buyurduq" olmuşdur.

Əlaqəni bu sözlərdən anlamaq olar. Əlaqə bir hakim, fateh, qalib, ixtiyar və qüdrət sahibinin əlaqəsi idi. Şahlığı da ya qılıncla əldə etmişdilər, ya atalarından irs aparmışdılar. Buna görə heç kəsin minnəti altında da deyildilər, "sultan oğlu sultan" yazırdılar. Deyirdilər ki, mənim padşahlığımın heç kimə dəxli yoxdur, mən irs aparmışam; fərz edin atasından bir mis aftabanı irs aparan bir şəxs kimi. Bu ona məxsusdur. Kimsə deyə bilərmi bu mis aftaba səndə haradandır. Bu ona irs çatmışdır. Bu da şahlığı irs aparmışdır. Bu həmin mis aftaba kimi onun şəxsi mülküdür, heç kəsin ona müdaxilə etməyə haqqı yoxdur: sultan oğlu sultan! Bunlar diqqətəlayiq məqamlardır.

Hökuməti qılıncla qazanan padşah da Allaha bəndəlik etmirdi; misal üçün, Nadir şah, Ağa Məhəməd xan, yaxud Rza xanın özü. Bunlar zorla və güclə hakimiyyətə yiyələndilər. Əlbəttə, Rza xan öz xəncəri sayəsində gəlməmişdi. O, Britaniya dövlətinin xəncəri sayəsində hökuməti ələ keçirmişdi.

Şəfəq ongünlüyü bu yanlış üsula, nöqsanlı sistemə və qaydaya son qoydu. Daha hökumətin qalib, fateh, ağa, hakim və ixtiyar sahibi olmaq dövrü bitdi. Əgər ağa varsa, xalqın özüdür. İmam iş başına gəldikdə xalq onu qəbul edirdi və o, xalqın gücünü təmsil edirdi, özündən bir şeyi yox idi, atasından irs aparmamışdı, xəncəri ilə xalqın əleyhinə vuruşub bir şey əldə etməmişdi. Xalqın xəncəri onun əlində idi və onu xalqın düşməninin, işğalçının, müstəmləkəçinin, təxribatçının və çevriliş edənin başına vurdu. Xalq nə zaman xəncəri onun əlindən almaq

istəsəydi, ala bilərdi, o da hörmətlə təqdim edərdi, heç kəsdən bir şey tələb etməzdi. Baxın, bu, İslam Respubilkası hökumətinin qaydasıdır. Bu faydalar, bu mühüm yerdəyişmə və bu xətt dəyişikliyi şəfəq ongünülyündə baş vermişdir. Bu tarixi an mühüm andır.

İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri və şəfəq ongünlüyü tədbirlərinin təşkilat komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 1991.

Şəfəq ongünülüyünün böyük əhəmiyyəti

Siz Peyğəmbərin (s) və imamların doğum günlərini bayram edirsiniz. Yüz illərdir Məsihin miladını bayram edirlər. Doğum günləri nə üçün əhəmiyyəti və dəyərlidir? Ona görə ki, tarixdə həssas və təyinedici dönəm və tarixdə dönüş nöqtəsidirlər. Tarix bir xətt üzrə gedirdi, amma bu anda başqa bir tərəfə istiqamət götürdü. Bu, başqa bir səmtə yönələn dönüş nöqtəsidir. Əgər biz bu baxımdan yanaşsaq, Şəfəq ongünlüyünün əhəmiyyətinin olduqca böyük olduğunu görərik.

Tarixdə həqiqətən şəfəq ongünlüyü kimisi yoxdur. Hətta bu qədər əzəmətli İslam da öz təsirini bizə şəfəq ongünlüyündə bağışladı. Məgər belə deyil?! Əziz Peyğəmbərin (s) gətirdiyi İslam Əməvi və Abbasilər dövründə bizə təsir bağışlamadı. Düzdür, bu xalqa ikinci dərəcəli təsirlərini bağışladı. Nadir hallarda dəyərli insanlar, böyük şəxsiyyətlər, arif, alim və zahidlər peyda olub həmin şəraitdə parlaya bildilər. Amma ümumi xalq və həmçinin ictimai quruluş o faydalardan yararlanmadı. O faydalar bu gün özünü göstərir.

Əlbəttə, şəfəq ongünlüyü İslamın səmərələrindəndir. Elə bilməyin ki, İslam olmadan şəfəq ongünlüyü ola bilər. İslamsız şəfəq ongünlüyünün bir qara qəpik qədər də dəyəri yoxdur. Şəfəq ongünlüyü İslam günəşinin parladığı və bizə işıq saçdığı aynadır. Əgər bu ayna olmasaydı, biz qaranlıq dövrlərdə və faydasız əsrlərdə olduğu kimi yenə də oturub İslamın yalnız adını çəkməli idik. Halva-halva deməklə də ağız şirin olmur.

Elə padşahlar olub ki, hətta bizim böyük alimlərimiz kitablarında onları tərifləyiblər. Əlbəttə, Kaşif əl-ğita, yaxud Əllamə Məclisi kimi böyük alimlər əbəs yerə tərif demirlər. Bunun üçün məqsəd olmuşdur. Görün bu şahlar nə qədər pis olmuşlar. Həqiqətən Fətəli şah nə qədər pisdir. Onun pisliyinə ölçü təyin etmək olarmı?! Şah Abbas Səfəvi nə qədər pisdir. Şah Abbas Səfəvinin pisliyi üçün ölçü təyin etmək olarmı?! Deyirik ki, Şah İsmayıl Səfəvi Şiəliyi gətirdi, bəs Şah Abbas Səfəvi nə

etmişdir? Şiə minbəri üzərində oturub ağalıq etmiş və ucalmışdır. Şah İsmayıl və Şah Təhmasib isə ayrı cür olmuşlar.

Keçmiş padşahlar tarixin ən murdar insanlarındandırlar. Hamısı belə idi, bir-birləri ilə heç fərqləri yoxdur. Mən tarixi yaxşı oxumuşam, padşahların arasında doğrudan da istisna tanımıram. Bu Əmir İsmayil Samaninin, şiə olan Ali-Buyənin, Səlcuqların, Qəznəvilərin və digərlərinin hansı işlərinə baxsanız, görərsiniz ki, ən çirkin bəşər xüsusiyyətlərinin təzahürüdürlər və ilahi nemətlərdən sui-istifadə etmişlər. Bu silsilə şəfəq ongünlüyündə sona çatdı. Şəfəq ongünlüyü İslam dəyərlərinin başlanğıc nöqtəsi oldu. İndi siz görün bu dönüş nöqtəsi üçün nə qədər anım tədbiri keçirmək və nə qədər iş görmək lazımdır. Əsas məsələ budur.

İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri və şəfəq ongünlüyü tədbirlərinin təşkilat komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 1991.

İslam inqilabı - bütün təklərin cəmdə birləşməsi

İnqilabın ən yaxşı bir xatirəsi budur ki, hamı özündən xaric olub inqilabda həll oldu. İnqilab dövründə və müharibənin bəzi dönəmlərində də belə idi. İmam birdən-birə bir fərman verirdi və görürdük ki, xalq tələtümə gəlir: ata oğula deyir mən gedirəm, oğul ataya geyir mən gedirəm, ana da deyir ki, hər ikiniz gedin; mal verirlər, can verirlər və özlərini əsla düşünmürlər. İnqilabı qoruyan bu dönəmlər olmuşdur. Səhv etməyin. Belə deyil ki, biz bu on iki ilin hər bir anında inqilabı qorumuşuq. Xeyr! İnqilabın iplərini açdığımız anlar da olub. İnqilabın canlandığı, nəfəs alıb yüksəldiyi vaxtlar həmin həssas dönəmlər olmuşdur. Birdən-birə xalqın böyük bir hissəsi və bəzən hamısı özlərini unudub ümumi meydana, inqilabın, ölkənin və İslamın çağırdığı işlərə qoşulurdular. Sözsüz ki, belə bir şey yalnız İslamın və dinin sayəsində mümkündür, başqa yolla mümkün deyil. Sizin tədbirləriniz bunları xalqa xatırlatmalıdır.

İslam Təbliğatı Komitəsinin Əlaqələndirmə şurasının üzvləri və şəfəq ongünlüyü tədbirlərinin təşkilat komitəsinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 1991.

İslam hərəkatında Qumun önəmli rolu

Həm İslam hərəkatında yeni mərhələ başladan, qələbə və zəfər müjdəsi verən 19 dey (9 yanvar), həm də bu böyük günün müəllifi olan Qumun və Qum əhalisinin adı bu xalq və inqilab tərəfindən həmişə hörmətlə yad olunacaq.

Ümumiyyətlə bizim məzlum İranımızın enişli-yoxuşlu tarixində dəyərli ad olan Qum xüsusi bir istiqamətin və hərəkətin göstəricisidir. Təxminən yetmiş il öncə Qum şəhəri mərhum Ayətullah Hacı Şeyx Əbdülkərim Hairinin təsis etdiyi elmi hövzəni səmimi şəkildə qəbul etdi. Bu hövzənin qurulmasından təxminən qırx il sonra onun böyük miqyaslı faydalarının - yəni İslam hərəkatının və əzəmətli imamın parlaq vücudunun ilk əlamətləri parladı. Həmin qırx ildə də Qum hövzəsindən alimlər və böyük şəxsiyyətlər çıxıb faydalı işlər görsələr də, imamın meydana çıxdığı, elmi hövzənin yeni və tarixi bir mərhələyə qədəm qoyduğu bu dönəm ayrı bir aləmdir.

Ayətullah Hairi tərəfindən elmi hövzənin yaradılmasından təxminən altmış il sonra ondan və din alimlərindən gözlənilən ən böyük iş həyata keçdi - yəni İslam quruluşu yarandı. Şiə və qeyri-şiə tarixində Qum Elm Hövzəsindən başqa heç bir hövzə İslam dünyasına belə bir töhfə verməmişdi. Hicri-qəməri təqvimi ilə 1340-cı ildə hövzə təsis olundu və 1400-cü ildə ondan İslam quruluşu ortaya çıxdı. Bütün bu müddətdə Qum və onun əhalisi vəfalı, səmimi və mehriban dost kimi bu hövzəni ağuşuna alıb qorudu. O gündən indiyədək ötən təxminən on iki ildə siz Qum əhalisi müharibədə, siyasi işlərdə, inqilabın müxtəlif məsələlərində örnək və öncül olmuş, fədakarlıq etmiş və inqilab mənəviyyatını hər yerdə sübuta yetirmisiniz. Bu gün də gənclər, qadınlar, kişilər və Qum Elm Hövzəsi örnəkdir. Ümidvarıq Allah kömək etsin, siz də çalışıb Qumu və hövzəni həmişə İslam və inqilabın ön xəttində saxlayasınız.

19 Dey hadisəsində və qırxların keçirilməsi münasibəti ilə bir-birinin ardınca baş verən hadisələrdə əsas məqam budur ki, dindar və

fədakar xalq maddi güc baxımından heç nəyi əskik olmayan bir rejimə qalib gəldi. Belə ki, həm o rejim çaşıb məəttəl qaldı, həm də dünyanın bütün siyasi analitik və texnoloqları; yəni dindar və fədakar xalq mübarizə apardığı bir rejimi bir tufan kimi darmadağın etdi. Əgər kimsə bunun adını möcüzə qoyursa-qoysun. Amma bu, təkrarı mümkün olmayan möcüzələrdən deyil, aydın təhlilə malik, təkrarı da həmişə və dünyanın hər bir yerində mümkün olan bir möcüzədir.

Əgər böyük bir xalqın Allaha imanı olsa, qəlbi iman nuru ilə işıqlansa, fədakarlığa hazır olsa, özündən böyük olan hər bir gücə qələbə çala bilər. Bu bir qaydadır. İran xalqı bu qaydanı sınaqdan keçirmişdir. Siz inqilabda bunu təcrübə etdiniz, İran xalqının Qumdan başlayan hərəkatdakı imanı və fədakarlığa hazırlığı sayəsində dünyanın birinci dərəcəli güclərinin himayə etdiyi bir quruluşu və rejimi necə məhv etdiyini, dünyanın bütün güclərinin qarşı çıxdığı bir İslam quruluşu yaratdığını gördünüz. Bu bir təcrübədir.

Başqa bir təcrübə müharibə idi. Siz gördünüz və dünya da müşahidə etdi ki, İran xalqı həmin imanı və fədakarlığa hazırlığı sayəsində Şərqin və Qərbin kapital qoyduğu bir müharibəni öz xeyrinə sona çatdırıb düşmənin bütün məqsədlərini puç edə və öz məqsədlərinə çata bildi. Bu, kiçik təcrübə deyil.

19 Dey (9 yanvar) qiyamının ildönümü münasibəti ilə din alimləri, hövzə tələbələri və Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1991.

Hegemonluğun mənəvi dəyərlərin hakimiyyəti qarşısında aciz olması

Bu inqilabın birinci sözü bu idi ki, mənəvi dəyərlərin hakimiyyət dövrü başlanmışdır. O zaman bu sözü anlayan, ona inanan şəxslər az idi. Çünki materialist dalğalar və materializmə əsaslanan qüvvələr dünyanı bürümüşdülər. Bu gün isə bu həqiqəti tam dərk edib anlayan şəxslər çoxdur. Bu gün dünyanın hər bir yerində mənəvi dəyərlər yenidən dirçəlmək üzrədir və onların çoxu dirçəlmişdir. Müxtəlif formalarda - istər marksist təfəkkürlər formasında, istər ondan təhlükəli formada, yəni pulla, güclə və təbliğatla yanaşı olan, beynəlxalq hegemonluqda və hamısından çox Amerika hökumətində görünən materiya hakimiyyəti formasında olan materializm öz uğursuzluğunu və acizliyini göstərmişdir.

İnqilabın digər mesajı bu idi ki, materialist güclər mənəvi dəyərlərlə, insanların hərəkət və iradəsi ilə mübarizəyə acizdirlər. Bu gün dünyada bu həqiqəti anlamayan insan azdır. Yalnız dünyanın hadisələrini diqqətlə izləməyənlər bunu anlamazlar. Materialist gücə arxalanan hegemon qurumların ən böyük zəiflik əlaməti budur ki, bu inqilab, bu quruluş və əsl İslam müsəlman İran ölkəsində qaldı, günbəgün gücləndi və möhkəmləndi. Dünyada bir İslam quruluşunun yaranıb qala və günbəgün güclənə bilməsi materialist güclərin puçluğunun və acizliyinin əlamətidir. Çünki bacarsalar, dözməz, belə bir gücü yaşamağa qoymaz və var gücləri ilə ona qarşı çıxarlar.

Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1991.

İnqilabın və imamın işi: saleh insanlar yetişdirmək

Pak alınlarından iman və təqva nuru saçan, təmiz qəlbləri həqiqət şüası ilə işıqlanan, Allah yolunda ayıq cihadları və gecənin arifanə zümzümələri İmam Hüseynin (ə) silahdaşlarını xatırladan saleh, iffətli, uzaqgörən və çox iradəli insanlar nəslini yetişdirmək, şübhəsiz, inqilabın və onun əzəmətli rəhbəri həzrət İmam Xomeyninin ən böyük işi olmuşdur. Sevimli imamlarının fərmanı ilə inqilabı təhdid edən ən ağır təhlükələr qarşısında polad kimi möhkəm dayanan, Allahın izni ilə İslam inqilabını və quruluşunu qoruyan onlar idi. Onların bəzisi Allah yolunda şəhadət şərbəti içdilər, çoxları da yaşayır, yaşayacaq və ilahi əmanəti müdafiə edəcəklər.

Şəfəq ongünlüyünün yeddinci günündə hörmətli şəhid ailələrinə müraciətdən: 1991.

Ümumi vəzifə: Təqvalı olmaq və vəzifəni yerinə yetirmək

Siz harada olsanız, hansı peşədə çalışsanız, üzərinizə hansı vəzifəni götürmüş olsanız, hansı ictimai mövqeyə sahib olsanız, birinci işiniz Allahın razılığını qazanmaq və ilahi vəzifəni yerinə yetirmək olmalıdır. Bu təqvadır; vəzifənizi yerinə yetirməyə, yayınmadan və yanlış yolu getməkdən çəkinməyə çalışmanız təqvadır. Əgər sizdə bu hiss olsa və buna çalışsanız, birinci addımı atan kimi Allah-Taala ikinci addım üçün sizə kömək edəcək.

Bizim vəzifəmiz nə qədər yüksək olsa, daha çox təqvaya ehtiyacımız olacaq. Cihadda insanı qalib edən də təqvadır. Siz xalq illər öncə, 1979-cu illərin bu günlərində hegemonluq üzərində qələbə çaldıqda təqva sizi qalib etdi; ilahi əmrdən və şəriət vəzifəsindən başqa bir şey haqda düşünməyən rəhbərin və Allahdan ötrü öz şəxsi istəklərindən və mənafeyindən keçən xalqın təqvası.

Yadınızdadır ki, o günlərdə hamı müqəddəs hədəfə necə könül vermişdi, heç kim özünü düşünmürdü, heç kim sərvət toplamaq, varlanmaq, vəzifəyə yiyələnmək və digərlərindən önə keçmək haqda düşünmürdü. Hər kəs özünün şəriət vəzifəsini, İslam və inqilab qarşısındakı vəzifəsini təyin edib, onu yerinə yetirirdi. Bu gün də həmin işi görməliyik.

Tehranın cümə namazı xütbələrindən: 1991.

Şəfəq ongünlüyü - əhd-peymanı yeniləmək zamanı

Şəfəq ongünlüyü həmin günlərin şanlı xatirəsini canlandıran və inqilabçıların öz qüvvələrini təzələmə zamanı, xalqımızın inqilabla əhd-peymanını yeniləmə ongünlüyü, bu dövrdə baş verən ən böyük ilahi möcüzəni uca tutma vaxtıdır.

Bu günlər xalqların tarixində nadir hallarda görünən günlərdəndir. Nə qədər qanlar tökülür, əziyyətlər çəkilir, problemlərə dözülür və bir xalq sizin 1979-cu ilin şəfəq ongünlüyündə nail olduğunuz inqilabi hərəkətin zirvəsinə çatır və Allah həmin neməti ona bəxş edir.

Bizim xalqımız kafir, fasiq, günahkar, əyyaş, xalqazidd, əcnəbidən asılı olan və xalqın maraqlarına etinasız yanaşan rejimin, həmçinin yalnız öz maraqlarını düşünən, bu məmləkətin bütün sərvətlərini özlərinə sərf edən başçıların qaniçən, zalım və şeytan hakimiyyətinin caynağından xilas oldu. Bu, çox möhtəşəm hadisədir.

Tehranın cümə namazı xütbələrindən: 1991.

İnqilabın qələbəsi, mənəviyyatın dirçəlməsi, böyük güclərin məğlubiyyəti

Bu inqilab qələbə çalanda dünyada mənəvi dəyərlər ölmüş, dünya xalqlarının həyatının bütün sahələrinə maddi dəyərlər hakim olmuşdu. Bu inqilab mənəvi dəyərlər əsasında baş verdi. Bu gün dünyada materializmin təməllərinin titrədiyini, materialist inqilabların uşaq oyuncağı kimi uçub-dağıldığını görürsünüz. Materializmlə fəxr edən, mənəviyyata və dinə zidd olması ilə öyünən və böyük imperatorluq yaratmış marksizm və sosializm quruluşu dağılmış, məhv olmuşdur.

On iki il öncə vəziyyət belə deyildi. On iki il öncə Şərq imperatorluğu və dünyanın marksist quruluşu özünü o qədər qüdrətli sayırdı ki, əlində olanlarla kifayətlənməyib özünə yeni yol açmaq üçün Əfqanıstana hücum etdi. Materializmə əsaslanan bir quruluş belə qüdrət duyurdu. Bu gün o quruluş dağılmış, məhv olmuş, ondan bir şey qalmamışdır. Maraqlı burasıdır ki, onun hakim olduğu ölkələrdə mübarizə bayrağı mənəviyyat, din, Allah və məsihilik şüarı verən şəxslərin əlindədir. Bu, sizin inqilabınızın təsirlərindəndir.

Sizin inqilabınız qələbə çalanda dünyada xüsusən xilaskar bir bayraq kimi İslamdan əsər-əlamət yox idi. Müsəlman ölkələrində də kimsə inqilab etmək istəsəydi, inqilabın təməlləri marksizm olmalı idi və inqilabçı kommunist demək idi.

Çox çalışıb İslamı təsirsiz və öz gümanlarına görə məhv etmişdilər. Heç kəs özünün müsəlman olması ilə şərəf duymağa cürət etmirdi. Bu gün isə baxın! Harada bir neçə müsəlman toplaşmışsa, hətta azlıqda olsalar da, Quranı yüksəyə qaldırıb fəxrlə deyirlər ki, biz müsəlmanıq. Bu sizin inqilabınızın təsirlərindəndir. Bunu siz etdiniz. Bunu imam etdi.

Bunlardan əlavə, sizin inqilabınız böyük güclərin və quldurların yalançı heybətini sındırdı. Amerika bir zaman böyük güc idi, amma bu gün belə deyil. Siz görün dünyanın neçə yerində xalq Amerika prezidentinin şəklini yandırır, ABŞ bayrağına od vurur. Dünyanın neçə

yerində xalq və kütlələr yumruqlarını düyünləyib “Amerikaya ölüm” deyirlər. Bir zaman yalnız siz bu şüarı verirdiniz, digərləri deyirdilər ki, nə üçün belə deyirsiniz. Amma bu gün Amerikada, Uzaq Şərqdə, Amerikanın təsiri altında olan və Amerikaya bənzər sistemlə idarə olunan ölkələrdə də “Amerikaya ölüm” deyirlər. Bu onların İraq rejimini müdafiə etdiklərinə görə deyil, xeyr, onlar ümumiyyətlə İraq rejimini tanımır və məsələdən hali deyillər. Onlar Amerikanın işğalçı olduğunu bildiklərinə görə “Amerikaya ölüm” deyirlər. Sizin inqilabınız bu işi gördü, qlobal quldurların və böyük güclərin yalançı heybətini sındırdı.

Tehranın cümə namazı xütbələrindən: 1991.

Hərbi Hava Qüvvələri və zamandan irəli gələn vəzifəyə əməl etmək

Bəhmən ayının on doqquzu (8 fevral) doğrudan da İran İslam Respublikası ordusunun Hərbi Hava Qüvvələri günü adlanmağa layiq bir gündür. Qərar ötəri bir anda verilir, amma onun təsir və nəticələri qalır. Məhz buna görə ağıllı müsəlman hər anın qədrini və dəyərini bilməyi, qiymətləndirməyi və səhvə düşməməyi öz borcu bilir.

Bizim ömrümüzün hər bir anının öz vəzifəsi vardır. Önəmli olan budur ki, biz hər anın vəzifəsini düzgün tanıyaq və yerinə yetirək. Bu günlər hər bir halda ötəcəkdir, amma ordunun Hərbi Hava Qüvvələrinin bir qrupunun ən həssas anlarda İslam inqilabının ön sıralarına keçməsi ordunun və inqilabın taleyinə və onda olan istiqamətlərə təsirini buraxdı.

Hərbi Hava Qüvvələri günü münasibəti ilə İslam Respublikası ordusunun Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 1991.

İnqilabın tam həyata keçməsinə çalışmaq

İnqilab yalnız xalqın həqiqətən müsəlman və mömin xalqa çevrildiyi zaman kamil formada həyata keçəcək. İslamın bir hissəsi xalqın əməllərinə aiddir. Bu, ümumi ictimai sistemi və onların ümumi hərəkətini təsvir edir, onlara hərəkət verir. Digər hissə xalqın etiqadlarına, psixoloji xüsusiyyətlərinə və fərdi əməllərinə aiddir. Əgər bizim böyük inqilabımız və İslam Respublikası quruluşu bütün maddi və mənəvi imkanları ilə xalqın qəlbini, xarakterlərini və onların vücudunu keçmişin yanlış tərbiyələrinin nəticəsi olan vəziyyətdən müsəlman xalqa çevirə bilməsə, şübhəsiz, uğur qazanmamış və inqilab həyata keçməmişdir. İnqilab xalqın inqilabı, dəyişikliyidir. İctimai və iqtisadi münasibətlərin inqilabı, dəyişikliyi xalqın inqilabından sonrakı mərhələdə durur. Xalq dəyişməyincə iqtisadi inqilab, ictimai, iqtisadi və siyasi münasibətlərin dəyişməsi də həyata keçməyəcək. Allaha şükür olsun ki, xalq əvvəldə psixoloji bir inqilab etdi, daxilən dəyişdi. Bu çox mühüm hərəkət idi və nəticəsi göz önündədir.

Əgər baş verən davam etməsə, güclənməsə, dərinləşməsə, yetişməkdə olan nəsil və sonrakı nəsillər onu öyrənməsələr, Allah eləməmiş, ad İslam, İslam Respublikası və İslam carçılarının hakimiyyəti, amma əsl həqiqət və xalqın həyatı ayrı cür olsa, bu inqilab şübhəsiz ki, uğurlu olmayacaq. Belə bir halın yaranmasından Allaha sığınırıq. Bunun baş verməsinə qoymamalıyıq. Düşmən bunun üzərində işləyir. Bütün qurumlar, hamı, xüsusən böyük din alimləri və ruhanilər xalqın tərbiyəsi, xalqda, xüsusən də gənclərdə daxili və əxlaq inqilabının baş verməsinə çalışmalıdırlar.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: 1991.

Din alimlərinin və ruhanilərin əsrlərlə göstərdiyi səyə qısa ekskursiya

Möhtərəm ruhanilər və hörmətli din alimləri ilə görüşdə bir məsələni xatırlatmağı lazım bilirəm. Bu məsələ ruhanilərin İslamın və peyğəmbərlərin məqsədlərinin inkişafı üçün uzun əsrlər boyu göstərdiyi xidmətləri qısa şəkildə qeyd etməkdən ibarətdir. Alimlər dini, İslam təlimlərini və fiqhini qoruyub-saxladılar, ilahi hökmlərin təhrif olunmasına qoymadılar, xalqın qəlbində iman işığı yandırdılar, xalqın diqqətini Qurana və Əhli-beyt (ə) təlimlərinə yönəltdilər. Din alimləri tarix boyu zalımlarla mübarizə apardılar, məzlumların, zəif, mömin və aciz xalqların pənahı oldular. Din alimləri İslam təlimlərini inkişaf etdirib bütün İslam dünyasını İslam imanı və dinlə, bu regionu isə həm də Əhli-beyt (ə) sevgisi və onların həyatı ilə tanış etmək üçün yaranmış fürsətlərdən istifadə etdilər. Din alimləri peyğəmbər və övliyalar kimi yaşamışlar.

Dini müxtəlif İslam ölkələrinə xəncər aparmadı. Xəncər qəlblərdə iman becərə bilməz. Qəlblərdə iman gülü becərən amil moizə, din hökmlərini və ilahi təlimləri izah etməkdir. Allaha şükür olsun ki, bu gün İslam təfəkkürü İslam dünyasının hər bir yerində yaşayır. Son bir-iki əsrdə xalqlarda azadlıqsevərlik hisslərinin oyanmasının səbəbi müxtəlif ölkələrdə din alimlərinin uğurlu hərəkatların avanqardları olmasıdır. İslam ölkələrində ön xətdə din alimlərinin dayanmadığı digər hərəkatlar isə əksərən, yaxud ümumi olaraq nəticəsiz qalmışdır.

İslam dünyasının şərqində - yəni Hindistan yarımadasında, onun qərbində - yəni Afrikada və bunların arasındakı ərazilərdə müstəmləkənin əlini kəsən, İslam mədəniyyətini qoruyan, təcavüzkar və işğalçı mədəniyyət qarşısında dayanan amil alimlərin nüfuzu idi. Bizim öz İranımızda tənbəki hərəkatı, xarici dövlətlərin müstəmləkəsi ilə mübarizə, xalqı oyatmaq, eləcə də Məşrutə hərəkatı, Rza xan istibdadına qarşı mübarizə, müqəddəs və əzəmətli İslam hərəkatının yaranmasına qədər bu mübarizəni davam etdirmək din alimlərinin rəhbərliyi və

öncüllüyü ilə müyəssər oldu. Əks təqdirdə mümkün olmazdı. Bu bir keçmiş və tarixdir. Heç kim onu inkar edə bilməz. Yalnız qərəzli, yaxud cahil şəxslər danışıb həqiqəti gizlətməyə çalışarlar. Bu bizim xalqımızın və digər müsəlman xalqların tarixində qeyd olunmuşdur.

Düşmənlər din alimlərini səhnədən çıxarmağa, onları məscidlərin bir küncündə oturdub təcrid etməyə çalışdılar. Böyük həddə buna nail oldular da. Həmin dönəmdə xalq dini məlumatlardan və əzəmətli din hərəkətindən məhrum qaldı. Həmçinin düşmənlər bəzi ruhaniləri özlərinə çəkib aldatmağa, yaxud satın almağa və öz çirkin niyyətləri üçün işlətməyə səy göstərdilər.

İslam alimlərinin, xüsusən də Şiəliyin mübarizə və inqilab mədəniyyəti sayəsində şiə alimlərinin ümumi hərəkəti xalqın xidmətində durdu, despotizm, müstəmləkə və zülm əleyhinə mübarizə apardı. Nəhayət, Allaha şükür olsun ki, İran xalqının əzəmətli hərəkatı qələbə çaldı və din hakimiyyəti quruldu. Müsəlman və dindarlar bir neçə əsrlik təhqirdən sonra şərəf qazandılar, başucalığı duydular, dirçəldilər, İslam dünyasında dini hisslər, İslam şüuru və kimliyi oyandı.

Siz görürsünüz ki, bəzi Afrika ölkələrində İslam qrupları hakimiyyət gəlməyə çalışırlar, yaxud müsəlmanlar zalım hökumətlərlə mübarizə aparır və "Allahu-Əkbər" şüarı verirlər, yaxud hətta İslamdan uzaq şəxslər zahirdə dinə meyl göstərməyə məcbur olurlar. Bu yeni bir şey deyil, İslam inqilabının və bu möhtəşəm hərəkətin qələbəsi sayəsində müsəlman xalqların tarixində yaranmış aydın sabahdan irəli gəlir. Bu, din alimlərinin, xüsusən də bu hərəkətin rəhbəri və banisi olan böyük insanın zəhmətlərinin nəticəsidir. O özünün qüdrətli əli, iradəli və imanlı qəlbi, Allaha arxalanması, yaxınlaşması və ixlası ilə bu rəhbərliyi icra etdi və tarixdə böyük hadisəni həyata keçirdi.

Bu inqilab həqiqətən misilsiz bir hadisədir. Hakimiyyət quruldu, İslam quruluşu bərqərar olundu. İndi Allahın lütfü ilə İslam hökmlərinə günbəgün yaxınlaşırıq və yaxınlaşmalıyıq. Müsəlman xalqlar

oyanmışlar və İslam imanının genişlənməsi başlanmışdır. Bunlar indiyədək baş verənlərdir.

İslam, xüsusən də şiə ruhanilərinin olduqca üstün xüsusiyyətləri var. Bunların elmə həvəsi, Allah üçün ixlası, xalqa qayğıkeşliyi, böyük güclərdən, quldur və hegemonlardan qorxmaması, hakim qüvvələrə bağlı olmaması böyük imtiyazlardır. Bizim nəyimiz varsa, bunlardır. Lakin ruhanilərin müsbət cəhətlərindən əlavə, onlar üçün zəruri olan işlər də var və bu hərəkətin davam etməsi üçün həmin işlərə diqqət yetirmək lazımdır.

Əsas məqam budur ki, bu gün İslam Respublikasında ruhanilərin vasitəsi ilə əldə olunan nailiyyətləri yalnız bizim dövrümüzün ruhanilərinin ayağına yazmaq və bu uğurları onlara aid etmək olmaz. Belə deyil. Bu dövrün ruhaniləri ruhaniliyin minillik hörmətindən yaxşı istifadə etdilər. Şiə ruhaniləri min il boyu tədricən möhtəşəm bir hörmət və etibar xəzinəsi toplamışdılar. Bizim dövrümüzdə əzəmətli insan və müstəsna şəxsiyyət olan Böyük İmam, həmçinin bu yolla hərəkət edən digər ruhanilər həmin xəzinədən əlverişli istifadə etdilər.

Bu ehtiyat tükənməz deyil. Əvvəla onu qorumaq, ikincisi isə artırmaq lazımdır. Əgər Allah eləməmiş, diqqətsizlik, qafillik, zamanı tanımamaq, vəzifənin nə olduğunu bilməmək, ruhaniliyin minillik xəttindən yayınma səbəbindən bu ehtiyat əldən çıxsa, əsrlərlə ixlaslı mübarizə sayəsində qazanılmış qiymətli almaz zədələnsə, yaxud sınsa, yenidən belə bir ehtiyat toplamaq üçün çoxlu zaman lazım olacaq. Deməli, bu dövrdə biz ruhanilərin və din alimlərinin birinci vəzifəsi sözügedən minillik hörmət və etibarı qorumaqdır. Allaha şükür olsun ki, inqilab dövründə bu hörmət artdı, fədakarlıq səbəbindən şiə ruhaniliyinin siması daha da parladı.

Mübarək ramazan ayı ərəfəsində ruhanilər, məscid imamları və ölkənin müxtəlif yerlərinin vaizləri ilə görüşdəki çıxışdan: 1991.

İnqilabın mədəni cəhətinin əhəmiyyəti

Biz əvvəldən demişik ki, inqilabın görünən hissəsi və xarici siması mədəni sahədir. Bizim siyasətimiz də mədəniyyətimizə tabedir. Biz dinimizi siyasətdən ayırmaq istəmədik. Bizim mədəniyyətimiz bizim tariximizin, məktəbimizin və inqilabımızın məhsuludur. Bu böyük iddia ilə xalqın bizdən gözləntiləri var.

İslam mədəniyyəti naziri və İslam Respublikasının xarici ölkələrdəki mədəniyyət mərkəzlərinin başçıları ilə görüşdəki çıxışdan: 1991.

Müstəmləkəçilər və İran xalqının elmi-mədəni təhqiri

Düşmənlərimizin müxalif olduğu böyük bir inqilab şüarı, yəni xalqın və ölkənin müstəqilliyi fəhlələrə, bu zəhmətkeş təbəqənin fəaliyyətinə və onlarda olan yaxşılıq hissinə bağlıdır. Fəhlə hiss etməlidir ki, "kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi verilər"[1]. Bu iş həmin yaxşı işdir. Yaxud müəllim bilsin ki, müsəlman iranlının öz ayağı üzərində dayanması üçün ik-üç əsr boyu onun boynuna, əlinə və ayağına dolanmış əsarət kəndirlərini açmaq və "iranlı bir şey bacarmır" deyən yanlış müstəmləkə mədəniyyətini məhv etmək lazımdır.

Bu məmləkətdə nefti milliləşdirmək istəyəndə Pəhləvi məmurlarından biri dedi: "İranlı bir palçıq aftaba düzəldə bilmir, nefti necə idarə edəcək". Bu, müstəmləkəçilərin müstəmləkəyə çevirdikləri xalqlara, müsəlmanlara və bizim xalqımıza təlqin etdiyi mədəniyyətdir. Deyirdilər ki, sənayenizi biz yaratmalıyıq, əkinçiliyinizi biz yoluna qoymalıyıq, məktəblərinizə biz proqram hazırlamalıyıq, hökumətinizi biz idarə etməliyik.

Pəhləvi və Qacar sülalələrinin bu ölkənin başına açdığı bəla və bu xalqı saldıqları rəzil durum bizi yüz il geriyə atdı. Bu rəzilliyə son qoymaq və parlaq iranlı istedadının İranın və İslamın maraqlarının xidmətində işlənməsi üçün bacarıqlı kadr yetişdirməkdən başqa bir yol varmı?! Bunu kim yetişdirəcək? Qaralmış bu daşı, yaxud paslanmış metalı kim sürtüb parıldadacaq və onu iti bıçağa çevirib bütün işləri görəcək? Müəllim. Müəllimin işi budur.

Beynəlxalq Əmək günü və Müəllim günü münasibəti ilə ölkənin fəhlə və müəllimləri ilə görüşdəki çıxışdan: 1991.

---

[1] Ənam/160.

İnqilabın bəlli məsələləri

Mən bu gün bir neçə bəlli məsələyə toxunacaq və ondan sonra İran xalqı üçün bir, bütün müsəlman xalqlar üçün də bir nəticə çıxaracağam.

Birinci məsələ budur ki, bizim böyük imamımız İslama və müsəlmanlara qüdrət və şərəf bəxş etdi. Bunu heç bir insaflı insan inkar edə bilməz. İslamın düşmənləri onun zəif olmasını istəyirdilər. Onlar İslamı müsəlman xalqların əməlindən və hətta beynindən belə çıxarmağa çalışırdılar. Təəssüf ki, buna böyük həddə nail oldular da. Bu çirkin siyasətdə azğın və asılı hökumətlər hegemonluqla və İslam düşmənlərinin beynəlxalq şəbəkəsi ilə tam işbirliyinə girdilər.

Böyük İmam bu inqilabla müsəlmanları həvəsləndirdi və İslamı dirçəltdi. Bu gün bir çox ölkələrdə İslam ayağa qalxmış gənc nəsillərin və ziyalıların arzu və amalını təşkil edir. Bir nümunəsi əziz Fələstindir. İllərlə Fələstin şüarı ilə müzakirə və mübarizə aparıldı, amma uğursuz oldu. Bu gün isə Fələstin xalqı İslam şüarı ilə mübarizə aparır və müqavimət göstərir. Buna görə də mübarizə təşkilat, qrup, şəxsiyyət və başçılar çərçivəsindən xalqın içinə sirayət etmişdir. Belə bir mübarizə heç vaxt uğursuz olmaz. Xalqın mübarizəsi davam etsə, şübhəsiz, sonda qələbə ilə nəticələnəcək. Bu, İslamın sayəsində oldu. İmam bu İslamın adını yaşatdı və müsəlmanlarda İslam vicdanını oyatdı.

Bu gün Şimali Afrikanın müsəlman ölkələrində bəzi qruplar İslam şüarı, İslam hökuməti və quruluşu yaratmaq məqsədi ilə mübarizə aparırlar. Onlar müəyyən nailiyyətlər də əldə etmişlər. Bizim imamımızın hərəkatından öncə kim belə bir şeyi hətta xəyalından keçirə bilərdi? İslam dünyasının şərqində və qərbində müsəlmanlar oyanmışlar. Avropada və ateist hakimiyyət altında olan bəzi Avropa və qeyri-Avropa ölkələrində müsəlman azlıqlar şəxsiyyət duyurlar. Bu, imamın və onun əzəmətli hərəkətinin sayəsində baş verdi.

İkinci məsələ budur ki, bizim böyük imamımızı və şücaətli xalqımızı bu böyük mübarizə yolunda müvəffəq edən amil ayıqlıq və dözümlülük idi – ayıqlıqla yanaşı olan müqavimət. Əmirəlmöminin (ə)

buyurmuşdur: “Bu bayraq yalnız ayıq və dözümlü şəxslər tərəfindən yüksələr”.[1] Bunun səbəbi odur ki, bu gün xalis küfrlə və xalis şirklə mübarizə yoxdur ki, məsələ aydın və sıralar bir-birindən ayrı olsun. Bu gün mübarizə nifaqla, ikiüzlülüklə, hiylə ilə, dünyanın hər bir yerində hegemonluğun mikrofonlarından ucalan puç şüarlarla, yalanlarla və boş sözlərlədir. Çoxları insan hüquqlarından dəm vurur və yalan sözlər deyirlər. Çoxları İslamdan dəm vurur və yalan danışırlar. Onların İslamı hegemon başçıların istədiyi İslamdır. Çoxları insanların bərabərliyindən danışırdılar, danışırlar və yalan deyirlər. Buna əsasən, indiki dövrdə mübarizə çətin mübarizədir; həm hegemonluğun gücünə və maddi imkanlarına görə, həm də hegemonluğun və müttəfiqlərinin yalanlarını və nifaqlarını ört-basdır edən təbliğat gücünə görə.

Avam adamlar tez aldanırlar. Bu günün özündə də dünyada aldanmış xeyirxah insanlar var. Onlar düşməni tanımır və cəbhəni ayırd etmirlər. İranda bizim əzəmətli imamımız xalqın dözüm və müqaviməti ilə yanaşı olan ayıqlığı sayəsində bu yolu qət edib sona çatdırdı. Onun özü xalqda bu ayıqlığın və dözümlülüyün yaranmasında ən böyük təsirə malik idi. Dünyanın harasında bir mübarizə gedirsə, bir qayğıkeş insan xalqın xilası üçün hərəkət edirsə, bilməlidir ki, bu yol ayıqlıq, dözümlülük və müqavimətlə gediləsidir, başqa bir amillə yox.

Üçüncü məsələ budur ki, bütün dünya - həm müsəlman, məzlum və məhrum xalqlar, həm də hegemon düşərgə başa düşmüşlər ki, bu gün dünyada İslam amalları istiqamətində müşahidə olunan bu hərəkətin mərkəzi İslam Respublikasıdır. Buna görə də bütün hücumlar birinci növbədə bizə yönəlir. Biz isti və zahirən səmimi sözlər arasında həmişə ədavət və kin əlamətləri görürük. Biz hegemonluğun İslam Respublikasına, siz xalqa və bu Böyük İmama necə düşmən olduğunu bilirik. Düşmən onun mənən yaşadığını bildiyinə görə öz düşmənliyini bir iynə ucu qədər də azaltmamışdır. Əgər hegemon media, hegemon

[1] Nəhcül-bəlağə, xütbə: 173.

düşərgə və imamın düşmənləri onun öldüyünü, bitdiyini düşünsəydilər, vəfatından iki il sonra ona və onun adına bu qədər hücumlar etməzdilər.

Müsəlman İran, imamın inqilabçı İranı müsəlmanların böyük qlobal hərəkətinin və eyni nisbətlə həm də düşmən hücumlarının mərkəzidir. Bu bizi qəmgin etmək yerinə sevindirir; qorxutmaq yerinə ümidvar edir; güclü olduğumuzu, hegemonluğun, oğruların və soyğunçuların maraqları əleyhinə hələ də böyük təhdid sayıldığımızı göstərir. Hegemonluğun düşmənliyi bizi inqilabda, ölkə və cəmiyyət quruculuğunda seçdiyimiz yolun düzgün, uğurlu və dəqiq olduğuna əmin edir. Əgər biz bəşəriyyətin düşmənlərinin maraqları əleyhinə, inqilabın və ölkənin maraqları istiqamətində hərəkətimizdə səhvə yol versəydik, düşmən bizə bu qədər hücum etməzdi.

Mənim bu üç məsələdən çıxardığım nəticə budur ki, siz əziz xalqımız bilməlisiniz: əgər on iki ildir qüdrətlə məqsəd seçdiyiniz, vəhdətlə hərəkət etdiyiniz və İslama sarıldığınız bu mübarək hərəkəti eyni qüdrət və şərəflə və xeyirxah məmurların arxasınca davam etdirsəniz, İslamın böyük düşmənlərinin bu xalqın əleyhinə istər son əlli ildə, istər məcburi müharibədə, istər ondan sonra yaratdığı bütün problemləri aradan qaldırıb ölkəni həqiqi, nümunəvi, azad və abad bir müsəlman ölkəsinə çevirə biləcəksiniz.

Həzrət İmam Xomeyninin vəfatının ikinci ildönümü mərasimində çıxışdan: 1991.

İmamın İslamı qürbətdən çıxarmaq məharəti

Bizim böyük imamımızın böyük məharəti və əvəzsiz xidməti İslamı qürbətdən çıxarmasıdır. Müsəlmanlar hətta öz evlərində və şəhərlərində də qərib idilər. İslam hətta öz vətənində də qərib idi. İslam düşmənləri ateizm mədəniyyəti, fəsad və tağut rejimləri ilə özləri haqda düşünmək imkanını da müsəlmanlardan almışdılar. Belə bir şəraitdə bizim böyük imamımız – peyğəmbərlərin varisi və Allahın bu dövrdəki qüdrətli əli bu İslamın simasından qürbət tozunu silib-təmizlədi.

İmam Xomeyninin vəfatının ikinci ildönümü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1991.

Əsarət mədəniyyəti ilə xilas mədəniyyətinin qarşıdurması

İslam hərəkəti və İslam inqilabı cahil dəyərlərə və tağut quruluşlarına qarşı üsyandan ibarətdir. Onlar bəşəri zəncirləmiş, zülmə, fəsada, təbəqələrarası ayrıseçkiliyə, irqi diskriminasiyaya, ümumi pozğunluğa, kütlələrin məzlumluğuna və xalqların digər bədbəxtliklərinə bais olmuş, hər şeyi pul və güc sahiblərinin daha çox sərvət qazanmasına, daha uzun hakimiyyətinə qurban vermişdilər. Deməli, düzgün İslam hərəkəti iki dəyər sistemi arasında qarşıdurma və iki mədəniyyət arasında mübarizə deməkdir: bəşəri buxovlamaq mədəniyyəti və bəşərin xilası mədəniyyəti. Buna görə hər bir İslam təşkilatı özünü dünyanın bütün güclərinə qarşı müqavimətə hazırlamalı və gecikməməlidir.

Hörmətli Allah evinin ziyarətçilərinə müraciətdən: 1991.

Geriliyin və cəhalətin tağut hakimiyyətinin nəticəsi olması

Tağut dövrünün acı nəticələri hansılardır? Birinci növbədə ölkəmizin bir çox bölgələrində olan yoxsulluq, gerilik və cəhalətdir. Bu istedadlı və ağıllı xalq, bu yararlı və hər cəhətdən zəngin torpaq, bu İslam təlimləri - bunların hamısı bu gün İranın ən inkişaf etmiş ölkələrdən və onun xalqının ən sərvətli xalqlardan olmasına səbəb olmalı idi, amma görürük ki, belə olmamışdır.

Hansı amil bais oldu ki, bu istedadlı xalq uzun illər, bəlkə də bir-iki əsr, yaxud daha çox müddət ərzində elm və bilik karvanından bu qədər geri qalsın? Şübhəsiz, bu xalqa xəyanətkar əllərin hökmranlığı və bu illər ərzində zalım, avtoritar və yaxıngörən şahlar bu ölkənin başına bu bəlaları gətirdilər və beləliklə abadlıq işi dayandı. Əgər bir ölkədə İslam qanunları icra olunsa və İslam hökuməti qurulsa, xalqın yolundakı bu maneələr götürülər. İranda İslam inqilabı bu böyük hünəri və bu möcüzəni göstərməlidir.

Quruculuq Cihadı Naziri, nazirliyin məsul işçiləri, əməkdaşları, Gilan və Zəncan vilayətlərinin şəhid ailələri, əşirətləri və zəlzələdən zərər çəkənlərlə görüşdəki çıxışdan: 1991.

İnqilabın məqsədi: dəyərlərin dəyişməsi

İnqilab kimlərinsə işdən çıxıb, kimlərinsə işə girməsi üçün deyil. İnqilab cəmiyyətdə dəyərlərin dəyişməsi üçün, insanın dəyər-qiymətinin Allah bəndəliyinə görə olması, insanın Allaha bəndə olması, Allah üçün işləməsi, Allahdan qorxması, Allahdan qeyrisindən qorxmaması, Allahdan istəməsi, Allah yolunda çalışıb-işləməsi, Allahın əlamətləri haqda fikirləşməsi, dünyanı düzgün tanıması, dünyanın və bəşəriyyətin fəsadlarının islahına çalışması və özündən başlaması üçündür. Bizim hamımız özümüzdən başlamalıyıq.

Tehranın cümə namazı xütbələrindən: 1991.

İslamın və ruhanilərin müstəmləkə hücumuna mane olması

İslam ölkələrində gənc nəsli korlamaq üçün hərtərəfli proqramın icrasına başlandı. Bilirsiniz ki, müstəmləkəçilik dövrü, yəni Qərb ölkələrinin Asiya və Afrika ölkələrinə soxulması təxminən iki yüz il qabaqdan başlandı. Onlar bilirdilər ki, bu vəziyyət davam etməyəcək və gənclər yetkinləşib mədəniyyətli və iradəli olsalar, əcnəbilərin və soyğunçuların boğazından su keçməyə qoymayacaqlar. Buna görə də gənc nəsli korlamaq üçün proqram hazırladılar.

Siz bəlkə bəzi kitablarda, yaxud məqalələrdə oxumusunuz ki, Latın Amerikası və ya Şərqi Asiya ölkələrinin bəzisində gənc nəsil müxtəlif fəsadlara, narkotikaya, spirtli içkilərə və cinsi pozğunluğa qərq olub. Orada vəziyyət əvvəldən elə olmayıb. Bu, yürüdülən siyasətin nəticəsidir. Təəssüf ki, zalım şah dövründə biz də bu məsələdən kənarda qalmadıq. Bu ölkədə də xəyanətkar və rəzil Pəhləvi ailəsi və onların alətləri vasitəsilə bacardıqları qədər bu siyasəti icra etdilər.

Əlbəttə, İslam ölkələrində İslam adlanan bir xüsusiyyət vardır. Bizim ölkəmizdə isə bundan əlavə, həm də xalq ruhaniliyi vardı. Bilirsiniz ki, digər İslam ölkələrində İrandakı kimi olmayıb, hələ də belə deyil. İslam və İslam təbliğatı o böyük dalğanın qarşısında dayandı. İnqilab şüarları və Böyük İmamın kəskin hərəkəti düşmənin işini çətinləşdirdi. Bu ölkəyə hakim olan həmin fəsad dalğasının qızğın yerində iman əlamətləri və dinə boyun əymək həvəsi yenə də əvvəlcə gənclərin arasında özünü göstərdi.

Mən orta səviyyəli elə atalar və analar tanıyırdım ki, öz gənclərinin dini duyğuları ilə ayaqlaşa bilmirdilər. Hətta bəzən gənclərindən müşahidə olunan dini duyğulardan, bəndəçilikdən, zahidlikdən, dünyaya, yeməyə və rifaha olan etinasızlıq hissindən bizə şikayət edirdilər. O ata-analar yanlış tərbiyələr əsasında yetişmişdilər, müsəlman idilər, amma onlarda İslam imanının coşqusu yox idi. Onların övladı inqilabın tərbiyəsinin təsiri altına düşmüşdü. Bundan irəli gələrək gənclər ailələrini öz arxalarınca çəkirdilər. Bunun

nəticəsində, imamın rəhbərliyi, xalqın çox böyük əksəriyyətinin dəstəyi və gənclərin canfəşanlığı ilə əzəmətli xalq qiyamı və dünyada bənzərsiz olan o hərəkət, yəni bizim İslam inqilabımız qələbə çaldı. Bu bir fəth idi. Həm hegemonluqla mübarizə meydanının fəthi idi, həm də ondan üstünü, gənclərin qəlbinin fəthi idi. Bunu İslam, inqilab və imam etdi. Bu, ən böyük zəfər idi. İmamın ən böyük işi gəncləri belə yetişdirməsi idi.

13 Aban - Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1991.

İslama qayıdış - yeganə qurtuluş yolu

İslam xalqları İslama qayıtmalıdırlar. Əlbəttə, darvazalar açılmışdır. Ötən əsr – yəni hicri tarixi ilə on üçüncü əsr İslam carçılarının fəryad əsri idi. Əsrin əvvəllərində İslamın böyük təqlid müctəhidi olan Mirzə Şirazi İngiltərə kompaniyasına qarşı özünün qətiyyətli fətvasını verib, bir xalqı hərəkətə gətirdi. Bu müddətdə İranda Məşrutə hadisəsi, Hindistanda İslam hərəkatı, İslam dünyasının qərbində - Orta Şərqdə və Şimali Afrika bölgəsində İslam oyanışı baş verdi, böyük şəxsiyyətlər, seyid cəmaləddinlər və digərləri uyğun çıxışlar etdilər. Həmin əsr təxminən fəryad və mübarizələr əsri, sonrakı əsr isə təcrübə əsri oldu. Bizim yaşadığımız indiki əsr təcrübə əsridir. Hicrətin on dördüncü əsri fəryad, oyatmaq və elan əsri idi. Bu on beşinci əsr isə əvvəldən və başlanığıcdan təcrübə və iş əsri olmuşdur.

Bu gün müsəlman xalqların təcrübə qazandığını və işlədiyini görürük. Bir nümunəsi İslam Respubilkası idi. Bu birinci nümunədir. Birinci nümunə olduğumuza görə biz çoxlu problemlərlə üzləşdik. Müsəlmanlar bu nümunədə təcrübə toplamalıdırlar. Bu gün öz ölkələrində İslam hərəkatını reallaşdırmaq istəyən xalqlar İran xalqından daha kompleks bir iş görə bilərlər; əgər Allah kömək etsə və onlar iradə göstərsələr.

Müsəlmanların İslama qayıtmaqdan, İslam hakimiyyəti qurmaqdan, İslamı həyata keçirməkdən və icra etməkdən başqa yolları yoxdur. İslamın köhnə və ədavətli düşmənlərinə əsla bel bağlamaq olmaz. Onların dözməsini də gözləmək olmaz. Siz görün İslam İnqilabının qələbəsindən ötən bu on üç ildə İran xalqına nə etdilər, nə dedilər, nə yazdılar, onunla necə rəftar etdilər. Bunlar müsəlman xalqlar üçün təcrübədir.

Mübarək Məbəs bayramında İslam Respublikası quruluşunun məsul işçiləri və Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1992.

İslama sarılmaq - qələbənin yeganə yolu

Bir əsr fəryad çəkmək İslam dünyasında öz bəhrəsini verməkdə, İslam inqilabının qələbəsi və bu fədakar xalqın uğurlu təcrübəsi öz nəticə və təsirlərini göstərməkdədir. Xalqlar İslama sarı yönəlirlər və bütün əngəllərə rəğmən, sonda qələbə çalacaqlar. Allaha şükür olsun ki, biz İslamın təcrübəsini şərəf və izzətlə daşıyırıq. Biz bunu anlamışıq ki, İslama sarıldığımız təqdirdə bu möhkəm ilahi kəndir hər zaman bizə kömək edəcək: "Kim tağutu (şeytanı, bütləri və ya zalım hakimləri) inkar edib Allaha iman gətirsə, o, artıq qırılmaq bilməyən ən möhkəm bir kəndirdən (dəstəkdən) yapışmış olur"[1]. Allahın bu möhkəm kəndiri heç zaman qırılmır. Biz əllərimizi bərkitməli və bu ilahi kəndirdən möhkəm tutmalıyıq.

Mübarək Məbəs bayramında İslam Respublikası quruluşunun məsul işçiləri və Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1992.

[1] Bəqərə/256.

Uğurun şərtləri: iman və mübarizə

Dünya və tarix zalım güclərin məhvinə və dəyərlərin inkişafına doğru gedir. Təbii ki, bunun şərti çalışmaq və mübarizə aparmaqdır. Mübarizə aparmadan heç bir şey əldə olunmaz: "Mömin olub axirəti istəyən və onun uğrunda çalışanlar..."[1] Şərti bunlardır. Müsəlmanlar çalışmalı, mömin olmalıdırlar ki, Allah-Taala rəhmət qapılarını onların üzünə açsın. Bu, İran xalqının, mömin gənclərin, İslamdan ötrü bu günə qədər ixlasla mübarizə aparan xalqın yoludur. Allah-Taala bizə və bütün müsəlman xalqlara əl tutacaq, bizi hidayət, bizə kömək edəcək və inşallah dövrün imamının müqəddəs qəlbi bizdən razı olacaq.

Mübarək Məbəs bayramında İslam Respublikası quruluşunun məsul işçiləri və Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla görüşdəki çıxışdan: 1992.

[1] İsra/19.

Xalqın önündə olan uzun yol

Biz yolun əvvəlindəyik. Bizim İslam cəmiyyətinə dair təsəvvürümüz indiki vəziyyətimizlə çox fərqlidir. Biz İslam dövləti, İslam cəmiyyəti və İslam dünyasına sarı hərəkət yolundan maneəni götürə bildik. Allaha deyə bilərik ki, biz çalışdıq, bizim xalqımız sədaqətlə hərəkət etdi, imamımız yaxşı rəhbərlik etdi. Lakin bu qaranlıq cahiliyyət əsnasında getdiyimiz yol sonradan getməli olduğumuza nisbətən şübhəsiz ki, çox azdır.

Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla səmimi söhbətdən: 1992.

Mənəvi dəyişiklik - hərəkətin ilk addımı

Bizim önümüzdə olan ilk və ən mühüm iş insanların mənəvi və ruhi dəyişikliyidir. Biz uzun müddət qeyri-dini tərbiyələrdən təsirlənmişik. Şübhəsiz ki, inqilabın və müharibə dövrünün əzəmətli həyəcanı möcüzə idi, amma bu məsələ dərinləşənə və ruhları dəyişdirənə qədər çox iş görmək lazımdır.

Şəfəq ongünlüyü mərasimində iştirak edən xarici qonaqlarla səmimi söhbətdən: 1992.

Qurtuluş intizarı - hərəkətin amalı və məqsədi

İmam Mehdi (ə) yer üzündə ilahi ədalət simvoludur. Məhz buna görə bütün bəşəriyyət hansısa formada o həzrətin gəlişini gözləyir. Müsəlmanlar bu böyük intizarı konkret şəkildə məlum və müəyyən etmişlər. Şiələrin bu libasın biçildiyi şəxsə dair isə aydın və bəlli məlumatları var. Bu baxımdan İmam Mehdi (ə) mövzusu nə şiəyə və nə də hətta müsəlmanlara məxsusdur. Bu intizar bütün təbəqələrin və bütün xalqların qəlbində var. Hər bir Adəm övladının qəlbində bu ümid var ki, bəşər tarixi qurtuluşa doğru hərəkət edir. Bu ümid qollara qüvvə verir, ürəkləri işıqlandırır və hər bir ədalət hərəkətinin bu dünyanın və bəşər tarixinin qanunu və təbii gedişi istiqamətində olmasını göstərir. Məhz buna görə bizim xalqımız inqilabın qələbəsindən öncə mübarizə apardığı zaman bəşəriyyətin amalına doğru inkişaf istiqamətində hərəkət etdiyini hiss edirdi. İnqilabın qələbəsindən sonra da İran xalqı hiss edir ki, hər bir hərəkət və işimiz, apardığımız hər bir mübarizə, çəkdiyimiz hər bir əziyyət bütün insanlar və bütün inanclılar arasında müştərək məqsəd istiqamətindədir. Məqsəd ədalətin bərpasıdır. İslam bu ədaləti təmin edir.

Şəban ayının on beşində Şəfəq ongünlüyünün xarici qonaqları və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1993.

İnqilabın qələbəsinn dünya mübarizlərinə təsiri

İranda İslam inqilabının qələbəsi xalqlarda və dünyanın müsəlman mübarizlərində ümid yaratdı, ölü qəlbləri canlandırdı, İslamın və ümumiyyətlə dinin əleyhinə aparılan təbliğat və fəaliyyətlərin dünyanın mübariz xalqlarına təsirini silib məhv etdi. Buna görə İslam inqilabının qələbəsindən sonra dünyanın dörd bir tərəfində inqilab hərəkatları baş qaldırdı, yaxud gücləndi. İslam inqilabının qələbəsindən öncə bir xalqın gəncləri və qeyrətli insanları öz regionlarında hakim olan və o xalqa zülm edən rejim əleyhinə mübarizə aparmaq istəyəndə solçu təfəkkürlərə üz tutur, solçulardan ilham alır, onlardan broşür, yazı və proqram götürürdülər. Dünyanın harasında zülm əleyhinə hərəkat və ya mübarizə vardısa, onda bir solçu rəng vardı, yaxud ona bu rəngi verməyə çalışırdılar. Belə güman olunurdu ki, marksizm məktəbi kimi bir təfəkkürə, yaxud ideologiyaya bağlı olmadan mübarizə aparmaq, onu idarə edib qələbəyə nail olmaq mümkün deyil. Lakin İslam inqilabı qələbə çalandan sonra dünyanın harasında bir inqilabçı, yaxud zülmə qarşı qeyrət hərəkatı başladısa, din rəngi götürdü. İslam ölkələrində belə hərəkatlar İslam rəngi götürdü, qeyri-müsəlman ölkələrində də başqa bir məzhəbə təmayül göstərdi, hətta marksist təmayüllü bəzi hərəkatlar da İran İslam İnqilabının qələbəsindən sonra nəinki təmamilə marksist təmayüldən uzaqlaşdı, hətta onda dindar təmayüllər də meydana çıxdı və yaxud ona dini bir qüvvə qoşuldu. Bütün bunlar İslam inqilabının qələbəsinin nəticəsi idi.

İran İslam İnqilabı qələbə çalandan sonra bir tərəfdən dünya mübarizlərinə ümid verib zülm və haqsızlıqla mübarizə aparmaq istəyən qeyrətli insanları həvəsləndirdi və digər tərəfdən müsəlman xalqlara İslam kimliyini qaytardı. Bunda heç bir şübhə yoxdur. Bu, İslam inqilabının bütün dünyaya buraxdığı müsbət təsir idi. Lakin bu təsirlə eyni zamanda dünyada başqa bir təsir də yarandı və o, İslam cəbhəsinin düşmənlərinin oyanması və təcrübə toplamasıdır. Düşmən kimdir? Antiislam cəbhəsidir, hegemonluqdur, dünyaya hakim güclərdir. Bir

gün hegemonluğun timsalı Amerika və SSRİ idi. Bu gün isə SSRİ yoxdur və hegemonluğun başında Amerika durur. Mürtəce, antidemokratik hökumətlər, təcavüzkar qüvvələr, zəif xalqları özlərinə tabe etmək istəyən və dünyanı özlərinki hesab edən güclər də hegemon cəbhəyə ad yazdırmışlar. İslam və İslam inqilabı bunlarla qarşı-qarşıya dayanmışdır. Bunlar İslam inqilabından sonra təcrübə topladılar. İslam inqilabı baş verəndə hegemonluğun əzəmətli İslam hərəkətlərinə dair heç bir təcrübəsi yox idi. Keçmişdə qeyri-mütəşəkkil hərəkətlər baş vermişdi, amma bu inqilab və mübarizə hegemonluğun çaş-baş qaldığı bir hadisə və möhtəşəm hərəkət oldu.

Şəban ayının on beşində Şəfəq ongünlüyünün xarici qonaqları və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1993.

Qurtuluş intizarının qorxuya mane olması

İran xalqı dinin, sayıqlığın və birliyin sayəsində bu günə qədər bütün maneələri keçə bilmişdir. Ehtiyatlı olun və bu sayıqlığı qoruyun. Etiqaddan və dini inancdan irəli gələn bu sayıqlıq bizi bəzi məsələlərə, o cümlədən söz birliyinə yönəldir. Bütün vücudunuz və var-gücünüzlə bu sayıqlığı qorumalısınız. Bizim düşmənlərimiz bilsinlər ki, İran xalqı din təlimləri sayəsində bu vaxta qədər düşmən təhdidindən qorxmadığı kimi, bu gün də onların təhdid və zorakılığından qorxmur. Böyük güclər dünyanı zülm içində boğmaq istəyirlər. Dilləri ilə söyləməsələr də, əməlləri bunu göstərir. Onlar öz maraqlarını təmin etmək üçün ayrılarına zülm edirlər. Biz zülm və quldurluğa müxalifik. Biz ədalətin bərqərar olunması üçün qiyam etmiş, çalışmışıq və bu xalq yenə də həmin yolda çalışacaq. Ədalət uğrunda hərəkət qələbə çalacaq. Bunda şübhə yoxdur. Dünya ədalətə doğru gedir. Dövrün imamının və qurtuluşun intizarının mənası da budur. Qurtuluş intizarının mənası budur ki, bəşəriyyətin taleyində böyük bir qurtuluş var və biz ona doğru gedirik. Nədən qorxaq? Nə üçün qorxaq? Nə üçün öz əminliyimizi əldən verək? İslamın göstərişləri bizə yol göstərən çıraqdır. Bizim əlimizdə İslamın dəyərli irsi vardır. İmamın İslamdan əxz etdiyi sözlərinin məcmusu bizə yol göstərən dəyərli irs və böyük sərvətdir.

Şəban ayının on beşində Şəfəq ongünlüyünün xarici qonaqları və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1993.

Dindarlığın və ruhaniliyin qələbə amili olması

Bu unudulmaz gün (19 dey) bu il Zeynəb-Kübranın (ə) vəfatına təsadüf edir. Bir neçə cəhətdən bu günə diqqət yetirmək lazımdır. Biri budur ki, müasir tarixdə belə bir gün həqiqətən inqilab tarixinin mühüm dövrünün başlanğıcıdır. Ruhani və qeyri-ruhanilərdən, gənclərdən və digər təbəqələrdən ibarət qumlular qanlı inqilab səhnəsinə qədəm qoydular və qanlı mübarizəyə başladılar. Bu, kiçik məsələ deyil. İnqilabı qələbəyə çatdıran bu proses idi. İkinci cəhət budur ki, Qum şəhəri həqiqətən qiyam yeri, xalqın inqilab fəryadının mərkəzi olmuşdur və həmişə belə qalmalıdır. Bu şəhər həm elm hövzəsinə, həm də fəal gənclərinə, fədakar və inqilabçı xalqına görə əsas mərkəzdir.

Həm 1962-ci ilin hərəkatında, həm bu dövrdə mübarizə Qumdan başlandı. Bu da başqa bir cəhətdir. Lakin daha diqqətəlayiq cəhət inqilabın dinlə, İslam təlimləri ilə, İslam ruhaniliyi ilə və din elmlərinin mərkəzi ilə bağlılıq cəhətidir. Mən bu gün bu mühüm məsələ barədə bir qədər danışacağam. Əgər bizim inqilabımız bir din inqilabı olmasaydı və onun başında din alimləri durmasaydılar, qələbə çalmazdı. Bu ölkədə müxtəlif qiyamlar baş vermişdir. Onların hansı biri dinlə və din alimləri ilə əlaqədar olmamışsa, nəticəsiz qalmışdır. Bu inqilab da dinlə və din alimləri ilə bağlı olmasaydı, qələbədən sonra məğlub olardı, düşmənlər ona üstün gələrdilər. Siz gördünüz ki, inqilabın qələbəsindən sonra ölkənin hər hansı bir yerində düşmən tərəfindən bir iş görüldüsə, əzəmətli rəhbərin, imamımızın və öndərimizin əmri, ruhaniliyin nüfuzu və dinin bayrağı ilə xalq tez meydana atılıb fitnəni yatırtdı. Hətta bu problem səkkizillik bir müharibə həddində olduqda da onu həqiqətən xalq həll etdi. Əgər xalq bu müharibədə iştirak edib müqəddəs müdafiəni dəstəkləməsəydi, belə uğur və qələbə ilə bitməzdi. Deməli, inqilab dini inqilab olduğundan və onun başında din alimləri durduğundan düşmən qələbədən sonra də onu məğlub edə bilmədi.

Başqa bir məqam budur ki, inqilab dini inqilab olduğundan və onda din alimlərinin rəhbərliyi mühüm rol ifa etdiyindən yolundan

yayınmadı. Əgər belə olmasaydı, düşmən və başqa bir hadisə onu məğlub edə bilməsəydi də, nəhayət daxildən yolunu dəyişər, məsələn böyük güclərlə razılaşardı; onunla-bununla razılaşar, daxildən çürüyər və şüarlarını əldən verərdi. İslam inqilabı üçün belə problemlərin qarşıya çıxmasına nə mane oldu? Şübhəsiz ki, inqilabın dini inqilab olması, din alimlərinin rəhbərliyi və dini öndərlik inqilabı öz düzgün yolundan yayınmağa qoymadı. Başqa ölkələrdə də inqilablar olmuş və getdikcə yoldan yayınmışdılar.

Bundan öncə bizim öz ölkəmizdə Məşrutə inqilabı baş verdi, amma qələbədən sonra din alimlərini kənarlaşdırdıqda yoldan yayındı və elə bir həddə çatdı ki, bütün Məşrutə amallarının ziddi olan quldur Rza xan hakimiyyət başına gəldi. Əgər bizim İslam inqilabımız dini rəhbərlik altında olmasaydı, Məşrutə inqilabının taleyini yaşayardı. Əvvəla bu hərəkatın başlanması və qələbəsi, ikincisi İslam Respublikasının yaşaması və süquta uğramaması və üçüncüsü, İslam Respublikasının düzgün hərəkət etməsi və yoldan yayınmaması dinin və dini rəhbərliyin sayəsində mümkün oldu. Hər bir ağıllı insan buna diqqət yetirdikdə arxasınca başqa bir məsələni də dərk edər. O budur ki, İslam inqilabının istər xaricdə, istər daxildə olan düşmənləri dini və dini rəhbərliyi bu inqilabdan almağa çalışmalıdırlar. Bu qəti bir məsələdir. Əgər bacarıqlı bir gənc bir qalanı fədakarcasına müdafiə edirsə, o qalanın düşməni həmin gənci məhv etməkdən başqa bir şey düşünməz.

Düşmən həmişə qarşı tərəfin müdafiəçi qüvvəsini vurub məhv etməyə çalışır. Bu inqilabı müdafiə edən və inkişaf etdirən qüvvə din və dini rəhbərlik elementi olduğundan düşmən bunu məhv etməyə çalışır. Siz görün qələbədən sonra inqilabın dini rəhbərliyi əleyhinə nə qədər danışdılar. Bu sözlər yalnız imamdan sonrakı dövrə aid deyil. Elə bilməyin ki, dini rəhbərliyə qarşı çıxmaq imamın vəfatından sonra peyda oldu. Əsla belə deyil. İnqilabın qələbəsindən başlayaraq bu inqilab tərəfindən ziyan görən bütün şəxslər onun dini rəhbərliyinə və idarəsinə müxalif olmuşlar. Nə üçün? İnqilabı məhv etməkdən ötrü. Düşmən bu hədəfi nişan almışdır və indi də alır.

Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1993.

13 Abanda baş verən taleyüklü hadisələr

Qəribə şəkildə bir-birinə bağlı olan üç tarixi hadisənin qovuşması baxımından 13 aban günü bizim tariximizdə mühüm bir gündür. Bu gün böyük və qlobal bir dərddən, bəşər dünyasına hakim olan və çoxlu xalqların əziyyət çəkdiyi hələkedici bir siyasi xəstəlikdən danışmaq üçün münasib fürsətdir. Təsadüfən bu üç hadisə də həmin əsaslı məsələ ilə əlaqədardır.

Birinci hadisə imamın sürgün edilməsidir. Bir xalq zalım hakimiyyət altında əl-ayaq çalırdı, xalqın böyük bir qismi qəzəb və narahatlıq içində idi. Xalqın hisslərini yönəldib onların düşüncələrinə istiqamət verə bilən, onların dərdini söyləyən və bu yolun təhlükələrindən qorxmayan şəxs isə yalnız bizim böyük imamımız idi. Onu belə bir gündə gecəyarısı öz evindən oğurlayıb bu xalqın arasından əvvəlcə həbsxanaya və sonra sürgünə apardılar. Onların məqsədi bu idi ki, xalqın qəzəbini yönəldə bilməsin və mübarizə baş tutmasın. Amma onların gözlədiyinin əksinə olaraq, imam öz rəhbərliyini sürgündə də davam etdirdi, rejimi ifşa edib həqiqətləri söyləməkdən və xalqı yönəltməkdən əl çəkmədi. Bu xalq, xüsusən də gənclər on beş il davam edən ümumi bir mübarizəyə qoşuldular. Bu mübarizənin davamında belə bir gündə həmin zalım, asılı, fəsadlı və çirkin siyasətlərin təsiri altında olan rejim növbəti cinayəti törədib şagirdləri şəhid etdi. Amma nəhayət, haqq qələbə çaldı. İran xalqının haqlı mübarizəsi qalib gəldi, həmin zalım və azğın rejim devrildi, Amerika ölkəmizdən getməyə məcbur oldu. Yenə belə bir gündə bir qrup müsəlman gəncin və tələbənin müqəddəs və haqsevər qəzəbi üçüncü hadisəyə - yəni casus yuvasının ələ keçirilməsinə səbəb oldu.

13 Aban günü münasibəti ilə şagird, tələbə, müəllim və feldşerlərlə görüşdəki çıxışdan: 1992.

Başucalığı və müstəqilliyin gənclərin mənəvi islahından asılı olması

Bizim müsəlman gənclərimiz və mömin uşaqlarımız bu inqilabda böyük rol oynadılar. Bu gün həmin tələbələrin bir qrupunun qana boyanmasının ildönümüdür. Mənfur Pəhləvi rejimi mömin və inqilabçı şagirdlərə də müxalif idi, onları tələf etmək, fəsada uğratmaq, mümkün olmadıqda isə öldürmək istəyirdi. Bu gün xoşbəxtlikdən hegemonluğun və beynəlxalq istibdadın bizim əziz şagirdlərimizə fiziki ziyan vurmağa gücü yetmir. Allaha şükür olsun ki, İslam Respublikası kimi uca bir sədd qüdrətlə düşmən təcavüzünün önünü kəsmişdir. Lakin onlar mənəvi baxımdan tələf etmək və fəsada çəkmək üçün işlər görə bilirlər. Ehtiyatlı olmaq lazımdır. Bu sizin üzərinizə düşən vəzifədir. Böyük İmam bizim aramızda bir neçə gün yaşadı. Həmişə belədir, insan əbədi deyil. İnsan özünün bu bir neçə günlük qısa ömründə öz vəzifəsini yerinə yetirməlidir. İmam getdi, bizim hamımız da gedəsiyik, amma bu inqilab qalasadır, bu ölkə qalasıdır, bizim başucalığımız və müstəqilliyimiz inşallah qalasıdır. Bu siz gənclərin köməyi və mənəvi islahı ilə mümkündür. Özünüzü islah edin.

13 Aban günü münasibəti ilə şagird, tələbə, müəllim və feldşerlərlə görüşdəki çıxışdan: 1992.

Mühüm və daha mühüm vəzifəni təyin etməyin əhəmiyyəti

Bir gün bizim bu ölkəmizdə müstəmləkə əleyhinə, diktatura əleyhinə, küfr və tağut rejimi əleyhinə mübarizə məsələsi aktual idi. Lakin bəziləri bu vəzifəni başa düşmür və digər işlərdən yapışırdılar; kiminsə tədrisi vardısa, kitab yazırdısa, kiçik bit təbliğat dairəsi vardısa, dini işlərdə xalqın məhdud bir çevrəsinin hidayətini üzərinə götürmüşdüsə, düşünürdü ki, mübarizəyə qoşulsa, həmin işlər tətil ediləcək; bu işlərdən ötrü o qədər əzəmətli və əhəmiyyətli mübarizəni tərk edirdi; yəni lazım, əhəmiyyətli və daha əhəmiyyətli olanı tanımaqda səhvə yol verirdi.

Din alimləri və ruhanilərlə görüşdəki çıxışdan: 1992.

İmamın xəttinin on bir xüsusiyyəti

Mən imamın xətti adlandırdığımız və onun səmərəli həyatının on ilində İslam Respublikası quruluşunun hərəkətinin səciyyəsi olmuş bu xəttin və bu istiqamətin xüsusiyyətləri haqda başlıqları deyirəm. İmamın xətti - ümmət imamının hökumət yolu və üslubu, yəni İslam Respublikası quruluşunu izah edən məsələlərdir. İslam Respublikası müxtəlif xətlərlə reallaşa bilər. Bu xətləri düzgün səmtə yaxınlaşdıran, həm də imamın qəbul etdiyi və etiqad bəslədiyi amillər aşağıdakılardır:

Birincisi xarici güclərin təsiri və məcburiyyəti qarşısında duruş gətirmək və onlara güzəştə getməməkdir. Bu, bizim böyük imamımızın hərəkətinin ilk xüsusiyyətidir.

İkincisi bəndəliyə, fərdi əmələ əhəmiyyətli yanaşmaq və nəfs şeytanının hökmranlığı qarşısında duruş gətirməkdir. İmam bu iki böyük məsələni və iki mübarizə meydanını bir-birindən ayırmırdı, ictimai və siyasi məsələlərdə, böyük şeytanın və digər şeytanların qarşısında möhkəm dayanırdı. İmam insanın daxilində olan nəfslə mübarizə aparırdı, bəndəliyə, İslam əməlinə və fərdi əmələ təkidlə yanaşırdı.

Üçüncüsü xalqların gücünə əhəmiyyətli yanaşmaq və onları əsas bilmək idi. İmam xalqlarla danışırdı və inanırdı ki, dünyanın böyük hadisələri xalqların əli ilə baş versə, məğlubedilməz olar və xalqlar dünyada dəyişiklik yaradıb öz mühitlərini əvəzləyə bilərlər.

Dördüncüsü müsəlmanların birliyi və hegemonluğun təfriqə planlarına qarşı mübarizə üzərində təkid idi.

Beşincisi dövlətlərlə sağlam dost münasibətləri qurmağa təkid idi. Bunda bəzi istisnalar vardı və hər birinin arxasında güclü dəlil dayanırdı. İmam bizə öyrətdi ki, İslam Respublikasının dünyanın xarici dövlətləri ilə sağlam münasibətləri ola bilər və olmalıdır. Sözsüz ki, Amerika ilə rabitə yolverilməzdir. Çünki Amerika hegemon, təcavüzkar və zalım bir dövlətdir, İslamla və İslam Respublikası ilə müharibə vəziyyətindədir. Sionizm rejimi ilə münasibət də mümkün deyil. Digər

dövlətlərlə münasibətlər isə İslam Respublikası quruluşunun maraqlarından asılıdır və mümkündür.

Altıncısı İslamı dərk və ona əməl etməkdə qapalılıq və eklektizm çərçivəsindən çıxıb əsl İslama sarılmaqdır. İmama görə sözdə və əməldə həm qapalılıq yolverilməzdir, həm də eklektizm.

Yeddincisi məhrum insanların xilasını əsas saymaq və ictimai ədaləti təmin etməkdir. Xalq imamın gözündə həmişə əsas faktor sayılırdı. Ümmət imamının məntiqində və hakimiyyət proqramında məhrum və məzlum insanlar idarəetmənin əsas mərkəzi sayılırdılar, bütün iqtisadi və digər fəaliyyətlər onların xilasına hesablanırdı.

Səkkizincisi Qüdsü işğal edən təcavüzkar sionizm rejimi ilə mübarizəyə xüsusi diqqətdir. İmamın məntiqində - hökumət yolunda və ənənəsində İsraillə mübarizə xüsusi önəm kəsb edirdi. Ümmət imamının baxışında müsəlman xalqlar üçün güzəştə getməyin əsla mümkün olmadığı məsələlərdən biri də sionistlərlə mübarizə idi. Çünki Böyük İmam bu zorakı rejimin dağıdıcı və məhvedici rolunu inqilabın qələbəsindən illər öncə yaxşı dərk etmişdi.

Doqquzuncusu milli birliyi qorumaq, İran xalqının vəhdətinə çalışmaq və təfriqə yaradan hər bir şüarla mübarizəyə təkid idi.

Onuncusu hakimiyyətin xalq hakimiyyəti olmasını təmin etmək, xalqla rabitə yaratmaq və onu qorumaq idi. Buna görə imam məmurlara belə tövsiyə edirdi: "Xalqdan ayrılmayın, xalqla olun, xalq kimi olun və xalq barədə düşünün". İmam həm məmurlar tərəfindən rabitəni təmin edirdi, həm də qarşılıqlı olaraq məmurları və hökumətləri xalqa tapşırırdı. Yəni imam quruluşun və hökumətin orqanlarını zəiflədən şəxslərlə müəyyən formada mübarizə aparırdı.

On birincisi ölkə quruculuğu və dünyaya İslam ölkəsi və İslam cəmiyyətinə dair praktiki bir nümunə təqdim etmək idi. İmam səmərəli ömrünün son aylarında buna xüsusi diqqət yetirir, ölkənin iqtisadi cəhətdən, infrastruktur layihələri və gəlir mənbələri baxımından yenidən qurulması və xalq üçün İslam quruluşuna dair real və əməli nümunə göstərilməsi üzərində təkid edirdi.

Mənim fikrimcə, imamın baxışının, əməli və hakimiyyət rəftarının əsas xətləri bunlardır.

Həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində çıxışdan: 1992.

Hegemonluq və İran xalqının mübarizələrə məcbur edilməsi

Ola bilsin hansısa bir ölkədə xalq yoxdur, yaxud mədəniyyətsiz xalq var. Bəllidir ki, müstəmləkəçilər üçün o ölkənin istismarı asandır. Amma bir ölkə mədəniyyətli, özü üçün şəxsiyyət və tarix tanıyan iddialı bir xalqa malikdirsə, o zaman müstəmləkəçilərin o ölkəyə daxil olması elə də asan olmaz. Çünki həmin ölkənin xalqı tərəfindən müstəmləkəçiliyin əleyhinə mübarizə yaranacaq. Bu gün bizim hegemonluq adlandırdığımız amil İran xalqını sözügedən mübarizəyə məcbur etdi. Keçmişdə hegemonluq bir ölkəyə daxil olduqda, birbaşa müstəmləkəçilik formasında girib o ölkəni tuturdu. Amma bu gün xalqları və onların sərvətlərini ələ keçirmək üçün daha mütərrəqi üsullardan istifadə edirlər. Buna əsasən, İran xalqının 150, yaxud daha artıq müddətdə müstəmləkəçi ölkələrlə apardığı mübarizə - tənbəki mübarizəsindən tutmuş sonrakı hadisələrə, milli hərəkata və İran xalqının imperializm siyasətləri, Amerika və digərləri ilə bugünkü mübarizələrinə qədər hamısı bizim xalqımızın məcbur edildiyi mübarizələrdir. Əgər İran xalqını rahat buraxsaydılar, özü öz işi, öz ölkəsi, öz maraqları və sərvətləri ilə məşğul olsaydı, bu formada belə bir mübarizə meydana çıxmaya da bilərdi. Bu mübarizəni İran xalqına onlar yaratdılar. Bu gün də onlar təcavüzkardırlar.

Ordu günü münasibətilə ordu mənsubları ilə görüşdəki çıxışdan: 1994.

Keçmiş hökumətlərin hegemonluq və müstəmləkə qarşısında xar olması

Yaxın keçmişdə ölkənin paytaxtı olan bu Tehranda elə bir hökumət iş başında olmuşdur ki, o zamanın şahı özü üçün Baş nazir təyin etmək istəyəndə əvvəlcə amerikalıların razılığını almalı olurdu. Neft şirkətinin prezidentini, Müdafiə nazirini, yaxud qərargah rəsini dəyişdirmək istəyəndə, Amerikanın səfirindən xahiş edirdi ki, mənim iqamətgahıma təşrif buyurun, görək bu dəyişikliklərə etirazınız var, yoxsa yox. Sadə formada desək, onlardan əmr alırdı. Hegemonluğun da kompliment vərdişi olmadığına görə qarşı tərəfin güzəştə getdiyini gördükdə demir ki, bağışlayın, bizim sizə sözümüz yoxdur. Əsla belə deyil. Siz hegemonluğun və müstəmləkəçiliyin qarşısında nə qədər əyilsəniz, daha çox təzyiq göstərəcək. Əgər başınızı aşağa salsanız, başınızdan vuracaq ki, səcdəyə düşəsiniz. Qarşısında torpağa düşüb, səcdə etdikdə ayağını üzərinizə möhkəm qoyacaq. Bu, hegemon və təcavüzkar qüvvvələrin xüsusiyyətidir.

Bəli, onlar əmr alan belə bir şahın qarşısında bəzən deyirdilər ki, eybi yoxdur, filankəsi filan vəzifəyə gətirməyinizə etiraz etmirik və razıyıq. Bəzən də buna qarşı çıxırdılar, ürəyi istədiyi hər hansı bir şəxsi çıxarmağa, yaxud təyin etməyə qoymurdular. Təsəvvür edin, 15 il öncəyə qədər bu ölkədə və bu Tehran şəhərində belə bir rejim hakimiyyət sürmüşdür.

Bəs belə bir hökumətin vaxtında bu məmləkətin nefti, poladı, daş kömürü, mədənləri, əkinçiliyi, univeristeti və ordusu hansı vəziyyətdə idi və kimə xidmət göstərirdi? Bəllidir ki, həmin hegemon və zalım güclərə. Əlbəttə, o hegemon güc də həmişə bir ölkə deyildi. Bir müddət ingilislər idilər, sonra təzənəfəsli, pullu və gənc bir qüvvə kimi amerikalılar meydana atıldılar, qoca, qədim və köhnə rəqibi bayıra atıb, özləri hər şeyi ələ keçirdilər.

Belə bir vəziyyətdə inqilab baş verdi, o nökər, qulağısırğalı, "siz nə buyursunuz" deyə hörmət bildirən rejimi bayıra tulladı və fələyin

qarşısında da baş əyməyən, təslim olmayan bir hökuməti iş başına gətirdi. İnqilabın iş başına gətirdiyi hökumət hətta bir an da Amerika və SSRİ kimi böyük güclərə təslim olmadı.

Ordu günü münasibətilə ordu mənsubları ilə görüşdəki çıxışdan: 1994.

Mənəvi və dini təmayülün İslam inqilabının təməli olması

İnqilabdan öncə məşhur ərəb yazıçılarından biri İrana gəlmişdi. O mənimlə görüşündə dedi: “Mən bütün müsəlman ölkələrinə səfər etmişəm, amma heç birində görməmişəm ki, namaz vaxtı qatar dayansın və hamı namaz qılmaq üçün qatardan ensin. Mən bunu ilk dəfə İranda gördüm”.

Bəli, bu mənəvi və dini təmayül sonrakı müsbət cəhəti yaratdı. Bu müsbət cəhət bu xalqın həyatının həssas dövründə tarixin ən böyük milli sınaqlarından və qorxmaz qiyamlarından birinin - yəni bizim Böyük İslam İnqilabımızın qələbəsi idi. Xalq bu inqlabın arxasında durdu və onun əsasında İran İslam Respublikasından ibarət olan bir dövlət yaratdı. Bunlar sözügedən dindarlığın səmərələridir. Gördünüz ki, azadlıqsevərlik, mübarizə və inqilabçılıq iddiası edən, lakin vücudları dinə yad olan bəzi şəxslər necə yolun ortasında yıxılıb qaldılar və irəliyə gedə bilmədilər. İran xalqı isə irəlilədi, irəlilədi və imanı sayəsində hələ də irəliləyir.

Deməli, İran xalqının sonrakı müsbət cəhəti qorxmaz bir qiyam etməkdən ibarətdir. Siz tarixdə zalım hakimlər əleyhinə baş verən qiyamlara baxın. Hansına diqqətlə baxsanız, görərsiniz ki, İran xalqının əməli mərhələləri on beş il sürən əzəmətli qiyamının həm kökləri on beş ildən uzağa gedib çıxır, həm də fədakarlıqları və şəhid vermələri. Bu inqilabda nə qədər fədakarlıq edildi! Məgər zarafatdır?! Məgər fədakarlıq asan işdir?! Siz avtobus növbəsində durarkən yerinizi başqa birinə verdikdə deyirsiniz ki, mən fədakarlıq etdim; həm özünüz sevinirsiniz, həm də digərləri bu fədakarlığa görə sizə "afərin" deyirlər. Fədakarlıq hətta zahiri baxımdan çox da əhəmiyyətli olmayan bir məsələdə - avtobus növbəsini başqasına verməkdə də bu qədər mühümdür. Çünki hər halda on beş dəqiqədən sonra başqa bir avtobus gələcək və siz minəcəksiniz. İndi görün candan keçmək, əzizlərdən keçmək, maddi həyatın bütün gözəlliklərindən keçmək nə qədər əhəmiyyətlidir. Məgər bunlar zarafatdır?!

Ordu günü münasibəti ilə ordu mənsubları ilə görüşdəki çıxışdan: 1994.

Keçmişdə İran parlamentinin vəziyyəti

Bu ölkədə on illərlə Məşrutə adı mövcud idi, lakin mənfur, ziyanverici və rəzil Pəhləvi sülaləsinin İrana şahlığı dövründə demək olar ki, parlament yox idi. Mərhum Ayətullah Kaşaninin və milli hərəkatın çalışdığı və parlamentin dirçəldiyi qısa bir dövrdən başqa həmin əlli ilin hamısında nə vardısa, məzmunsuz bir forma, məğzi və mənası olmayan bir ad idi.

Bu həmin əlliillik dövr haqqında. Əlliillik dövrdən qabaqkı 20 ilə yaxın müddətdə də bu ölkədə Məşrutə vardı. Məşrutənin əvvəlində yaradılmış Milli Şura Məclisi tətillərlə, bağlanmaqla, topa tutulmaqla və digər hadisələrlə yanaşı, ümumilikdə təxminən dörd dəfə işlədi. O məclislərin tarixi çox ibrətamizdir. İslam Respubilkasının və İslam inqilabının bu ölkəyə və bu xalqa doğrudan da nə verdiyini bilmək üçün İran xalqının hər bir fərdinin keçmişi öyrənməsi lazımdır. Necə olduğumuzu bilməyincə, bu gün nəyə malik olduğumuzu bilmərik. Həmin ilk bir neçə ildə hələ məclis şahın, komandanın, dövlətin və xarici səfirliyin təsiri altında olmadığında, ibtidai olmasına baxmayaraq, ölkənin vəziyyətinə təsir göstərən bir məclis idi. Harada azca xarici təsir əlaməti olsaydı, o məclis var gücü ilə dayanırdı; Rusiya ultimatum verəndə müqavimət göstərdi; xaricilərdən kredit alınmasında müqavimət göstərdi; Vüsuqüddövlə müqaviləsində müqavimət göstərdi. O məclisdə Müdərris kimilərdən az-çox vardı. Zaman onların həmişə Müdərris kimi qala və Müdərris kimi ola bilmədiklərini göstərsə də, Müdərris, Xiyabani və digər müstəqil və imanlı şəxslərin sayəsində o həqiqi parlamentə bənzəyirdi.

Bu, ilk iki məclis haqda. Sonra həmin şəxslərin olduğu həmin məclisdə xarici siyasətlərin təsiri göründü. İş elə bir yerə çatdı ki, çevrilişdən sonra Baş nazir olan Həsən Müşirüddövlə Pirniya öz kabinetini Milli Şura Məclisinə təqdim edəndə və məclis nazirlərin bir-ikisini rədd edəndə üzünü deputatlara tutub dedi: “Bizim cənub qonşumuz (yəni İngiltərə) bu iki nəfərin bizim kabinetimizdə olmasını

istəyir". Sonra məclis səs verdi. Qondarma cənub qonşunun iradəsi ilə əvvəlcə rədd olunmuş iki nazir məclisin səsini qazandı. İngiltərə Hindistanı və Bəhreyni işğal etdiyindən və Fars körfəzində olduğundan onu cənub qonşu adlandırırdılar. Hətta Pəhləvilər dövrünə qədər İngiltərə cənub qonşu adlandırılırdı. Avropada yerləşən və İrandan minlərlə kilometr uzaqda olan bir ölkənin adı qonşu idi. Çağırılmamış bu qondarma qonşu nəzərdə tutduğu iki nəfərin həmin kabinetdə olduğunu istədiyindən, nə Müşirüddövlə "cənub qonşumuz bu iki nəfərin olmasını istəyir" deməyə xəcalət çəkirdi, nə də məclis bəyənmədiyi iki naziri cənub qonşunun istəyinə görə qəbul etməyə. Əvvəllər Rusiya ultimatumu, Vüsuqüddövlə müqaviləsi və digər hadisələr qarşısında etirazını bildirən məclis bu səviyyəyə endi.

Mən birinci və ikinci məclisin müqavimət göstərib möhkəm dayandığı yerləri qeyd etmişəm. Güman ki, on, yaxud ona yaxın nümunə var. Bu məclis möhkəm dayanmış, xalqı həvəsə gətirmiş və hökumətləri gücləndirmişdi. O zamanın hökumətləri mahiyyətcə gücsüz və xəstə hökumətlər olsa və çoxusunun beyni qərbli müftəxorlara bac vermək əsasında qurulsa da, hər halda bu məclis onları imkan daxilində qoruyurdu.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 1994.

Parlamentin səhlənkarlığına görə əlliillik ziyan

İlk dövrlərinə görə tarixdə başıuca qalan bu parlament tədricən elə bir vəziyyətə düşdü ki, bəzi deputatların müxalifət cəsarəti itdi və problemli hesab etdikləri iclaslarda iştirak etmədilər. Məgər siz iştirak etməyəndə üzərinizdən məsuliyyət götürülür?! Siz deputatsınız və məsuliyyət hiss etməlisiniz.

Onların bəzisi fəxr edirdilər ki, İran şahlığının azğın və rüsvayçı Pəhləvi sülaləsinə verildiyi iclasda iştirak etməyiblər; halbuki iştirak edib qarşı çıxmalı idilər. Bəziləri asılı və qeyri-müstəqil idilər. Şücaətləri də vardı, lakin o şücaəti batil və haqqın ziddinə olan yerdə işlədirdilər. Cibləri və qarınları haram malla dolu idi. Rüşvət tamahı, vəzifə tutmaq tamahı, hakimiyyətə gəlməsi mümkün olan, yaxud bu gün hakimiyyətdə olan şəxsə kömək etmək tamahı onları elə gic etmişdi ki, məsuliyyətin nə olduğunu dərk etmirdilər. Məsuliyyət hissi yox idi, müstəqillik yox idi, şücaət yox idi, məlumat, elm və bilgi yox idi və buna görə də bəlli vəziyyətə düşdülər. Əgər Məşrutə bu hərəkatın həqiqi, ixlaslı və mömin rəhbərlərinin - şübhəsiz, onların ən üstünü böyük din alimləri idilər. Kim bu həqiqəti inkar etsə, qəti və aydın məsələləri inkar etmişdir. Bəzi qüvvələr inkar edir, bizim keçmişimiz haqda tarix yazıb, həqiqətləri dəyişdirirlər - əvvəldə istədiyi kimi getsəydi, ölkəmiz dünya tarixinin ən həssas dönəmlərində əlli il geri qalmazdı. Biz 50 il ziyan gördük. Biz İran xalqı o savadsız quldurun, ailəsinin, övladlarının, qohumlarının və yaxınlarının, yəni bu ölkəyə hakim olan qüvvələrin - inqilabın qələbəsindən öncəki son yarım əsrdə ingilislərin və sonra da amerikalıların hökmranlığına, eləcə də parlamentin səhlənkarlığına görə zərər gördük və ziyana düşdük.

Parlament əvvəldən bu ziyanın qarşısını ala bilərdi. Siz Məşrutə dövrünün tarixinə baxanda görürsünüz ki, harada parlament cəsarət göstəribsə, hamı öz yolunu və üsulunu düzəltməyə məcbur olub. Buna görə də düşmən ozamankı parlamenti ələ keçirdi: “Onlar bir camaat

idilər ki, keçib getdilər. Onların etdikləri əməllər özlərinə, sizin etdiyiniz əməllər isə sizə aiddir".[1] Bunlar ibrətdir.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 1994.

[1] Bəqərə/134.

İmamın üç xüsusiyyəti: iman, saleh əməl və mənəvi paklıq

İmam barədə natiqlər danışmış, yazıçılar yazmış, bəstəkarlar bəstələmişlər. Lakin mən bu gün zehnimdə Böyük İmamın şəxsiyyətini Taha surəsinin burada oxunan iki mübarək ayəsinin məzmunu ilə ölçdüm. Əziz imamda üç parlaq xüsusiyyət vardı. Həmin üç xüsusiyyət bu şərafətli ayələrdə də qeyd olunmuşdur. Birinci ayədə buyurur: "Kim (Rəbbinin hüzuruna) yaxşı əməllər etmiş bir mömin kimi olaraq gələrsə..."[1]. Birinci xüsusiyyət iman, ikinci xüsusiyyət isə saleh əməldir. Üçüncü xüsusiyyət də ikinci ayənin sonunda qeyd olunmuşdur: "Bu, mənən pak olanların (təmizlənənlərin) mükafatıdır"[2]. Bu, mənəvi paklıq xüsusiyyətidir. Qurani-kərim bu xüsusiyyətlərə malik olan insan üçün "ən yüksək" dərəcələr vəd etmişdir: "Belələrini ən yüksək dərəcələr gözləyir".

Bu üç xüsusiyyət Böyük İmamda vardı. O böyük insanın imanı nümunəvi və mistəsna idi. Onun saleh əməli erkən İslam çağından bu günədək heç kimin yerinə yetirmədiyi əməl - yəni İslam quruluşu yaratmaq idi. Bu gün bu haqda bir qədər danışacağam. Onun mənəvi paklığı elə həddə idi ki, şan-şöhrətin, qüdrətin və nüfuzun zirvəsində özü üçün sonsuz bəndəlik yolunu seçdi, hər ötən gün onun Böyük Allaha ibadəti, münacatı və təvəssülü artdı.

Böyük İmamda bu üç xüsusiyyət vardı. Buna görə belə deyilməsi doğrudur: O, "Belələrini ən yüksək dərəcələr gözləyir" deyilən şəxslərdəndir. Bu gün sizin bütün dünyada Böyük İmam üçün gördüyünüz bu hörmət həmin üç xüsusiyyətdən irəli gəlir. Harada insaf varsa, orada imamın yeri ucadır; harada ədalətsevərlik varsa, orada imam ən gözəl simadır; harada bizim Böyük İmam Xomeynimizə rəğbətsizlik varsa, orada ədalət yoxdur, insaf yoxdur, haqsevərlik yoxdur, dünyasevərlik və fəsad var. Bu, Böyük İmama aid üç

[1] Taha/75.

[2] Taha/76.

xüsusiyyətdir. Bu gün bizim söhbətimizin mövzusu da əzəmətli imamızdır.

Qeyd etdiyimiz kimi, saleh əməl bu üç xüsusiyyətdən biridir. İmamın saleh əməli İslam hakimiyyətinin və İslam quruluşunun təməlini qoymaq idi. Yaxşı olar ki, dəyərli qardaş və bacılar diqqət yetirsinlər və imamın saleh əməlinin malik olduğu əhəmiyyət və əzəmət tam aydınlaşsın. Bizim böyük imamımız İslam quruluşu yaratdı. Bu quruluşun əsasında bir İslam hökuməti və İslamın siyasi təşkilatı var, arxasında da bir İslam proqramı durur. Bu üç cəhətin hamısı diqqətəlayiqdir.

Həzrət İmam Xomeyninin vəfatının beşinci ildönümü mərasimində çıxışdan: 1994.

İnqilabın ən böyük töhfəsi

Mənim əzizlərim! İslam inqilabının ən böyük töhfəsi bu ölkənin, xalqın və bu ilahi nemətlərin uzun illər onlara hakim olan azğın və asılı hökumətlərdən qurtulmasıdır.

Həzrət İmam Xomeyninin vəfatının beşinci ildönümü mərasimində çıxışdan: 1994.

İsrailin adını çəkməyə görə istintaqa cəlbolunma

Siz baxın, sionist düşmənlə barışığa görə ərəb ölkələrində nə qədər insanın qəlbi kədərlə doludur, amma bir söz deyə bilmirlər; eynilə bizdə keçmiş rejimin dövründəki kimi. Biz burada sionistlərin əleyhinə bir söz deyə bilmirdik. O zaman bizim ürəyimiz dolu idi, amma bir söz deyə bilmirdik. Mən həmin illərdə bir dəfə tələbələr arasında Bəqərə surəsinin əvvəllərində Bəni-İsrailə aid ayələri təfsir edərkən bəzi sözlər demişdim. Sonra həbslərin birində məni istintaq məngənəsinə saldılar ki, siz İsrailin adını çəkmisiniz. Bəni-İsrailə aid ayələrdən danışmışdım. Dedilər nə üçün İsrailin adını çəkmisiniz. Yəni Quranı təfsir edən şəxsin də Bəni-İsrail barədə bir söz deməyə haqqı yox idi. Çünki o zaman İsraillə isti münasibətləri olan xəbis və xain rejimin acığına gələ bilər. Bu gün bəzi İslam ölkələrində vəziyyət belədir.

İmam Cavadın səadətli doğum günü münasibətilə ümumi görüşdə çıxışdan: 1994.

İslam inqilabının digər inqilablarla fərqi

Barəsində az danışılan məsələlərdən biri budur ki, bizim əzəmətli inqilabımız qələbənin keyfiyyəti baxımından müstəsna bir inqilab idi. Yəni doğrudan da xalqın belə əzəmətli izdihamı ilə qələbə çalan bir inqilab o zamana qədər, ən azı bizim dövrümüzün inqilablarında görünməmişdi. Bu inqilabda xalq küçələrdə, şəhər və kəndlərdə ayağa qalxdı, bütün xalqın iştirakı ilə rejim əleyhinə mübarizə aparıldı. O zamana qədər dünyanın müxtəlif yerlərində baş verən bütün inqilablar – o cümələdən, Latın Amerikasının, Afrikanın, Asiyanın və digər yerlərin solçu və marksist inqilabları başqa növdən və başqa formada idi.

Bizim inqilabımızın digər inqilablarla fərqi bu idi ki, xüsusi bir partizan qrupun vasitəsilə qələbə çalmadı. Düzdür, İranda partizan əməliyyatları keçirən partiyalar vardı. Lakin bunlar təxminən 75-76-cı illərdə bütünlüklə iflic olmuşdular. Bu məsələni o zaman meydanda olan şəxslərdən soruşa bilərsiniz. Biz bu vəziyyəti öz gözümüzlə gördük. O dövrün vəziyyətindən bilavasitə xəbərdar olmayan bugünkü gənclər hadisələrdə iştirak edən şəxslərdən soruşsunlar.

O zaman İranda silahlı mübarizə aparan, istər marksist, istər eklektik təfəkkürlərə malik qrup və qruplaşmalar 75 və 76-cı illərdən 77-ci ilə qədər təxminən sıradan çıxmışdılar, işləri yalnız ölkənin bir tərəfində bomba qoyub haranısa partlatmaqdan, yaxud kimisə terror etməkdən ibarət olmuşdu. O zaman İranda qrup və qruplaşmaların gördüyü işlər bu gün misal üçün, Ərəb ölkələrinin birində - bəzi şəxslərin çətinliyə düşməməsi üçün heç bir ölkənin adını çəkmirəm - baş verənlərin onda biri qədər də deyildi. Siz xəbərlərdə eşidirsiniz ki, filan ərəb ölkəsində müsəlmanlar polislə toqquşdular, bəzi işlər gördülər. İndi bunların qələbəyə nə qədər yaxın olduqlarına baxsanız, o zaman onların qələbəsinin nə qədər mümkün olduğunu anlayarsınız. Ümumiyyətlə partizan mübarizəsinin nə zamansa İranda qələbə çalması mümkün idi; necə ki, çevriliş təsəvvürü də imkansız görünürdü.

Müasir dövrdə bəzi inqilablar, yaxud dırnaqarası inqilablar bir çevrilişlə başlayır. Lakin o zaman İranda ordu tam məhdud bir çərçivədə amerikalıların əlində idi. Xüsusən gənc və aşağı səviyyəli təbəqələr arasında mənfur şah rejimindən narazı olan zabitlərin sayı çox idi. Ordunun çoxu narazı idi. Amma heç kəs o rejimlə vuruşmaq barədə düşünməyə cürət etmirdi. Misal və müqayisə olaraq belə demək olar ki, onlar bugünkü İraqın silahlı qüvvələri kimi hakimiyyətin pəncəsində möhkəm saxlanmışdılar.

Əlbəttə, onların problemi bu gün İraqdakıların problemindən çox idi. Çünki İranın zabitləri təkcə hakimiyyət tərəfindən nəzarətdə deyildilər. Onların arasında amerikalı ünsürlər də vardı. Qarnizonların çoxunda, xüsusən də həssas qarnizonlarda bir neçə min amerikalı vardı. Bəzi qüvvələrdə onların işi daha qabarıq idi. Buna əsasən, o zaman İranda hərbi çevriliş təsəvvürü və imkanı mövcud deyildi. Ozamankı siyasi partiyalar da çox aciz vəziyyətdə idilər. Bu gün İslam Respublikası dövründə quruluşun azadlığından və alicənablığından istifadə edib daim hökumətin əleyhinə danışan, müsahibə verən, proklamasiya yayan və İslam Respublikasını repressiyada ittiham edən bu milli partiyalar o zaman da vardılar, amma İranın azadlığı üçün heç bir iş görə bilmirdilər. Bundan əlavə, onların bəzisi Pəhləvi saray adamları ilə yaxından dostluq edir, bir yerdə yeyib-içirdilər, başqa sözlə desək, başları bir axurda idi. Mühəndis və mütəxəssis olan başqa bir qrup Pəhləvi sarayının müxtəlif qurumlarında çalışır, onlardan pul alır, çörək qazanır və çox ehtiyatla hərəkət edirdilər ki, birdən həmin rejimlə vuruşmağın mümkünlüyünü düşünməsinlər.

Bunlar o zaman belə bir vəziyyətdə idilər. İslam Respublikası yaranandan sonra isə Allahın lütfü ilə azad şərait yarandı, xalq siyasiləşdi və bunlar da dil açdılar. İran xalqının bu siyasi partiyalara heç bir inamı yoxdur, buna görə də onlara baxmırlar və onlar acıqlarını İslam Respublikasının üstünə tökürlər. Əgər xalq siyasi partiyalara tərəf baxmırsa, onlara inanmırsa, bu kimin təqsiridir? Məgər kimsə xalqın önünü kəsmişdir?

O zaman ən yaxşı siyasi partiyalar içərilərində bir qədər şücaəti olan iki-üç nəfərin yer aldığı partiyalar idi. Misal üçün, bir hadisə ilə əlaqədar bəyanat verirdilər və o bəyanat da xalqın arasında yox, öz tərəfdarları arasında yayılırdı. Fərz edin bir məsələyə qarşı etiraz olan bir bəyanatın min nüsxəsi yayılırdı, sonra da onları tutub həbs edirdilər. Bir qədər həbsxanada qaldıqdan sonra ya müsahibə verirdilər və o müsahibə azad olmalarına səbəb olurdu, ya da həbs dövrünü bitirib azad olurdular.

Ən yaxşıları bunlar idilər. Onların əməli və sözü xalq arasında əsla dalğa yaratmırdı. İran xalqı dindar, ruhanilərə və din alimlərinə inanan bir xalq idi və bu xüsusiyyət şah rejimi əleyhinə əzəmətli xalq partlayışına səbəb oldu. Hamının qəbul etdiyi bir təqlid müctəhidi, yaxşı insan olmasını hətta düşmənləri belə etiraf edən hörmətli və əzəmətli bir ruhani, elmli və çox təqvalı bir insan Allahın yardımı ilə mübarizə meydanına qədəm qoydu. Düşmənlərinə görə onun yeganə eybi filan yerdə onlara məhəl qoymaması, yaxud filan fəlsəfi düşüncəyə malik olması idi. O on beş il ərzində öz ətrafına bir qədər şagird, bir qədər əməkdaş, bir qədər digər təqlid müctəhidləri səviyyəsində olan din alimi topladı. Xalq da etimadlı din alimlərini gördükdə əvvəlcə yavaş-yavaş, sonra dəstə-dəstə, axırda isə bütünlüklə meydana atıldı.

1977-ci ildə bizim bir qrupumuzu ölkənin müxtəlif şəhərlərinə sürgün etdilər. Bu sürgün 1978-ci ilin payızında sona çatdı. Mən sürgündən Məşhədə qayıdanda bu müqəddəs şəhərdə gördüklərimə inanmırdım. Sürgündə olarkən xəbərləri eşitsəm də, gödüklərim həqiqətən möhtəşəm idi. Məşhəddə xalq gecə-gündüz yürüş edirdilər və bu onlar üçün adət halına düşmüşdü. Yalnız Məşhəddə yox, ölkənin hər yerində belə idi.

Bu baxımdan Tehran əsas rolu ifa edirdi. Sonra böyük şəhərlər, daha sonra kiçik şəhərlər və nəhayət kəndlər hərəkətə gəldi və xalq hər yerdə yürüşə çıxdı. Hansısa bir tədbirdə bir mərkəz tərəfindən elan olunurdu ki, filan münasibətlə filan gün yürüşdür. Yaxud o zaman Parisdə olan imamın tərəfindən, yaxud Tehranda və digər şəhərlərdə

olan yüksək rütbəli bir ruhani tərəfindən belə elanlar verilirdi və xalq da sel kimi küçələrə axışırdı.

Tədricən dövlətə bağlı qurumlar, idarələr, hərbçilər və hətta ozamankı məmurlar da xalqa qoşuldular. Beləliklə şah rejiminin dağılmasının əlamətləri göründü və nəhayət rejim çökdü. Məhəmmədrzanın İrandan qaçdığı gün əslində şah rejimi devrilmişdi. O gördü ki, qalmağın faydası yoxdur. Buna görə sonralar daha bədnam olan bir bədnam, bədbəxt və yazığın[1] heykəlini oturtdular ki, tam uçmaqda olan rejimi bir neçə gün saxlasın. O 30-40 gün iş başında qaldı, sonra imam gəldi və onun bir işarəsi ilə hər şey alt-üst oldu.

İranda şah rejimi çürümüşdü. Nəyə görə? Xalqın fəallığına görə. Xalq nə üçün meydana axışdı? Dinə görə. Çünki şüar İslam şüarı və rəhbərlər xalqın etimad etdiyi İslam rəhbərləri və ruhanilər idilər.

Xalq arasında ruhanilərə kömək edən, onlara məsləhət verən çoxlu insanlar vardı. Hətta bəzi şəhərlərdə ruhanilərə yol da göstərirdilər. Lakin ölkə boyu ümumi və milyonluq xalq böyük alimlərin və hörmətli ruhanilərin başında Böyük İmamın durduğunu, onun həm təqlid müctəhidi, həm yüksək səviyyəli bir ruhani olduğunu bilib səhnəyə çıxırdılar. Bu müstəsna inqilab belə baş verdi və qələbə çaldı. Başqa sözlə desək, bizim inqilabımız xalqın fəallığı sayəsində formalaşdı və xalqın fəallığı onun dini etiqadlarından irəli gəlirdi.

O zaman həbsxanada, yaxud bayırda dostlaşdığımız, münasibət qurduğumuz, get-gəl etdiyimiz və birgə iclaslar keçirdiyimiz solçu partizan qrupları, kommunistlər və eklektik düşüncəli insanlar vardı. Onların hamısı və bütün siyasətçilər yekdilliklə etiraf edirdilər ki, İranda yaranmış bu vəziyyət imam kimi bir rəhbər və dini şüarlar olmadan yarana bilməzdi. İnqilaba dair deyiləsi sözlərdən biri budur. Bu hamının gözü önündə baş verən bir prosesdir. Kimsə təhlil etsə, bundan başqasını deyə bilməz. Necə ki, ilk günlərdə heç kəs bundan başqasını demirdi. Yalnız bir qrup həyasız qruplaşmalar belə deyildi. Onlar dörd-

[1] Məqsəd şah rejiminin son Baş naziri Şapur Bəxtiyardır.

beş il həbsxanada yatmış, sonra inqilabın və xalqın fəallığı sayəsində azadlığa çıxmışdılar. Onlar xilas olan kimi xalqın önündə bayraq ucaltdılar. Xalq da onların bayrağını alıb sındırdı və kənara tulladı. Bu qruplaşmalar o zamandan xalqa kin bəslədilər, xalqdan üz çevirdilər, ona qan düşməni oldular, camaatın evinə, mağazasına, Tehranın və digər şəhərlərin meydanlarına bomba qoymağa başladılar. Bunlardan əlavə, bir qrup inadkar insan da haqqı qəbul etmədilər. Başqa kim baxırdısa, həqiqətləri görürdü.

Bir məsələni də deyim ki, inqilabın qələbə çalmasına çoxlu amillər kömək etdi. Kim inqilab haqda bir söz demişdisə, həmin bir söz qədərincə inqilabın qələbəsinə kömək etmişdi. Bunda heç bir şübhə yoxdur. Lakin inqilaba bir söz, yüz söz və bir kitab qədərincə kömək etmək bir məsələdir, inqilab dalğası yaratmaq başqa bir məsələ. Bunlar bir-biri ilə müqayisəediləsi deyillər. Həm də belə deyil ki, kimlərsə nə vaxtsa bir yerdə inqilabı təsdiq edən, yaxud ona dair bir kəlmə söz dediklərinə görə "biz də bu inqilabın rəhbərlərindənik" - deyə bilsinlər. Bir məsəldə deyildiyi kimi, bir kişi yüznəfərlik bir aş qazanına bir çəyirtkənin budunu atıb deyir ki, hacı, mən də şərikəm.

Şübhəsiz ki, bütün xalq – canından keçib düşmənin qarşısına çıxan xalq bu inqilabın sahibidir. Bundan üstün nə ola bilər?! Tutaq ki, mən inqilab haqda min yerdə söhbət etmişəm; məgər bu söhbət bir insanın canı qədər dəyərlidir?! Məlum məsələdir ki, inqilabın qələbəsi üçün canlarını fəda edənlər bizdən öndədirlər. Əgər biz bu barədə insafla danışmaq istəsək, belə deməliyik. Hər halda, xalqın inqilabdakı fəallığı bir həqiqətdir.

Ramazan ayının üçündə Tehranın cümə namazı xütbələrindən: 1995.

Milli sərvətlərə uzanan əcnəbi əllərini kəsmək

Növbəti məqam inqilabın funksiyası barədədir. İnqilab xalqın gücü və iradəsi ilə, tamamilə xalqın səmimi hisslərinə dayanan və xalq tərəfindən eşq bəslənən rəhbər, yaxud rəhbərlərlə qələbə çaldı. İndi bu inqilab nə iş görmək istəyir? Cavab budur: Belə bir inqilabın görəcəyi birinci iş tarix boyu bu ölkəyə əl uzadan əcnəbilərin zalım imtiyazlarını ləğv etməkdir. Bu təbii haldır. Hər bir vətənpərvər insan misal üçün, İngiltərə dövlətinin gəlib İran neftini taladığını görsə, narazı və narahat olar. Bu məlum məsələdir.

İslam Şurası Məclisinin deputatları ilk iki-üç mərhələdə həqiqətən deputat idilər və xalq tərəfindən seçilirdilər. O zaman hələ Rza şah parlamenti ələ keçirməmişdi. Həmin vaxt onlar və bir çox dövlət məmurları əcnəbilərə imtiyaz verməyə qarşı çıxırdılar. Həqiqətən vətənpərvər şəxsiyyətlər imtiyaz vermək istəmir, amma eyni zamanda buna qarşı çıxmağa cürət də etmirdilər. Nə üçün cürətləri yox idi? Çünki xalq arxalarında durmurdu və sosial dayaqdan məhrum idilər. Hansı Baş nazirin sözündə xaricilərin maraqları ilə azca ziddiyyət sezilirdisə, işdən kənarlaşdırırdılar. Əgər bir dövlət məmuru gəlib narahatlığını ifadə etsə və xarici imtiyazlara etiraz duyulan bir söz deməydi, tez vəzifədən kənarlaşdırılırdı. Əgər kimsə mərhum Müdərris kimi möhkəm və cəsarətli olsaydı, döyür, həbs edir, sürgün edir, sonra da Rza xan kimi bir quldurun əli ilə ramazan ayında oruc halda şəhid edirdilər. Müdərris kimi cəsarəti və imanı olmayan şəxslər bir kəlmə danışan kimi xarici ərbablarının sərt baxışları ilə rastlaşır və tez sakit olurdular. Buna görə də İranda xaricilərin imtiyazları günbəgün artdı.

Ramazan ayının üçündə Tehranın cümə namazı xütbələrindən: 1995.

Nefti talamaq üçün müstəmləkəçilərin planı

Cənablar və xanımlar! Ölkənin hər hansı bir yerində olan əziz qardaş və bacılar! Bu məmləkətdə neft adlı bir sərvət kəşf olundu. Neftin kəşfi xalqın xəzinə tapması deməkdir. Bu məmləkətdə bu xəzinə tapılan kimi bir qrup xarici və əsasən də ingilis - bu işin günahkarı ingilislərdir - İrana gəlib onun başında oturdular. Uzun illər onu çıxarıb yedilər, heç üz də vurmadılar ki, bu, İran xalqının sərvətini mənimsəməkdir. Bu dərd deyil?! Neft məsələsi İran xalqının həqiqətən çox dərdli məsələlərindən biridir və hələ də tam açılmamışdır.

Qacarlar zamanı ingilislər İrana gəlib məmləkətin neftini aparmaq üçün ozamankı xain hakimlərlə altmışillik müqavilə bağladılar. Güman ki, birinci Darsi müqaviləsi[1] altmışillik bir müqavilə idi. Altmışillik bir müqavilə bağlandı ki, İngiltərə gəlib o zaman su kimi ehtiyac duyduğu nefti aparsın. Neft İngiltərə üçün həqiqətən ən dəyərli məhsul sayılırdı. Onlar müstəmləkəçiliklə məşğul olur və ölkələri tuturdular. Buna görə də pula ehtiyacları vardı. Pul zavodların işləməsi ilə əldə olunur, zavodlar isə neftlə işləyirdi. İngiltərə İrana gəlib bu məmləkətin dəyərli və qiymətli neftini sudan ucuz qiymətə alıb aparırdı. Əgər neftin yerinə barellərə su töküb aparsaydılar, bəlkə də onlar üçün daha baha başa gələrdi.

Altmışillik müqavilənin bağlanmasından çox keçmədən Rza xanı iş başına gətirdilər. Qacarların zəif hökumətinin sonları idi və ingilislər elə bir adam istəyirdilər ki, İranın müxtəlif yerlərində baş qaldıran qolçomaqları məhv edə bilsin. Öz maraqlarının təhdid olunmaması üçün onların özlərinə tabe olan bir quldura ehtiyacları vardı.

Bəli, Rza xanı tapdılar, yetişdirdilər və lazım olan yerə çatdırdılar. O əvvəlcə ordu generalı, sonra Baş nazir, daha sonra isə padşah və İranın başçısı oldu. Rza xanın ingilislər tərəfindən hakimiyyətə gətirilməsindən bir neçə il sonra o, neftdən ötrü daha çox pul almaq fikrinə düşdü. Təbii ki, muzdurluğu öz yerində qalırdı. Hər halda, hər

[1] Uilyam Darsi (1849-1917) İngiltərədə doğulmuş bir avstraliyalı idi. O 1901-ci ildə Qacar dövlətindən İranın neftçıxarma hüququnu aldı.

bir nökər bəzən ərbabından bir qədər artıq pul almaq fikrinə düşür. Onun quldur xisləti hələ otuz ili qalan Darsi müqaviləsi ilə quldurcasına rəftar etməsinə səbəb oldu. Dövlət şurasının iclasına daxil oldu, Darsi müqaviləsini sobaya atıb yandırdı. Ona bu müqavilənin müddətinin otuz ildən sonra bitəcəyini xatırladanda dedi: "Bu necə müqavilədir?! Neftdən ötrü bizə çox pul verməlidirlər". O zaman qarşı tərəf kim idi? Bir İngiltərə şirkəti. Rza xan Darsi müqaviləsinə belə münasibət göstərən kimi İngiltərə hökuməti işə qoşulub haray-həşir salmağa başladı. Nəhayət ingilislər Rza xanı elə rəzil etdilər ki, sonuna otuz il qalan həmin müqaviləni daha altmış il müddətinə uzatdılar. Yəni ingilislərlə başqa bir müqavilə imzaladı.

İngilislər Qacar dövründən Rza xanın hakimiyyətinin sonuna qədər İran neftini belə taladılar. Sonra Müsəddiqin dövrü çatdı və neft sənayesinin milliləşdirilməsi haqda söhbətlər başlandı. İngilislər yenidən gəldilər, amma bu dəfə daha yalqız deyildilər, amerikalılar da yanlarında idi. Amerikalılar 1953-cü ildən bu işə qoşuldular.

Mən deyirəm: Əgər İran xalqı İngiltərə dövlətinə qarşı nifrətini qəlbindən çıxarmamışsa və çıxarmırsa, buna haqlıdır və hər bir ağıllı insan İran xalqına haqq verər. İngilislərin İran xalqına qarşı gördükləri iş və bu xalqın başına açdıqları bəla heç vaxt xatirələrdən silinməyəcək. Bu gün dünyanın bir küncündə oturub İran xalqının və hökumətinin əleyhinə qərəzli və mənasız sözlər danışan bu şəxslər zalım dövlətlərinin İran xalqına nə etdiyini yaddan çıxarmışlar.

Əlbəttə, Allah-Taala başlarını daşa vurdu və qüdrətlərini aldı. Bu gün ingilislərin dünyada nə hörməti var, nə də elə bir qüdrəti. Amerikalılar İranda açıq şəraitin olduğunu və ingilislərin təklikdə onu idarə etməyə qadir olmadığını görən kimi işə qoşuldular.

1953-cü ildən İslam inqilabının qələbəsinə qədər İngiltərə və Amerika neft quyularının və əslində İranın neft xəzinəsinin başında oturub bacardıqları qədər apardılar. İran xalqı bunlarla necə barışsın?! Pəhləvi rejimi İngiltərə və Amerikanın muzduru idi. Məhəmmədrza həqiqətən İranda bir Amerika məmuru kimi rəftar edirdi. Asılı rejimin

başında duran bir Amerika muzdurunun vəzifəsi yalnız bu idi ki, "filan Baş naziri təyin et" və "filan Baş naziri işdən çıxart" deyəndə əməl etsin. Onlar nə istəyirdilərsə, edirdilər. Əgər nə zamansa onun özü bir Baş naziri kənarlaşdırmaq istəsəydi və amerikalılar razı olmasaydılar, Amerikaya gedib onu-bunu görür və filan Baş naziri işdən çıxarmaq üçün icazə alırdı. Vəziyyət belə idi. Amerika və İngiltərənin Tehrandakı səfirləri bu məmləkətin əsas siyasətini təyin edirdilər.

İndi bilirsiniz ki, amerikalılar nə üçün qəzəblidirlər? İndi bilirsiniz ki, Amerikanın bugünkü dövlət rəsmiləri, xüsusən də çirkin və nifrət oyadan Xarici işlər naziri dünyanı gəzib orada-burada "biz İran dövlətinə təzyiq göstərib siyasətlərini dəyişdirməsini istəyirik" dedikdə bu siyasətlər nədən ibarətdir?

Bir zaman İranın şahı - İranda şah titulunu daşıyan o bədbəxt insan İngiltərə və Amerikanın Tehrandakı səfirlərinin sözünü dinləyirdi, bu ölkənin mühüm məsələlərinə dair nə desəydilər, yerinə yetirirdi. Amma bu gün İranda elə quruluş və hökumətlə üz-üzə gəlmişlər ki, ölkənin əsaslı məsələlərinin yüzündən biri də Amerikanın istəyinə uyğun həyata keçmir. Elə bir quruluşla qarşılaşmışlar ki, yaranan gündən birinci işi bunların imtiyazlarını ləğv etmək olmuşdur. İslam inqilabının gördüyü birinci iş Amerika və İngiltərənin İrandakı imtiyazlarını ləğv etmək oldu. Bu da inqilaba dair başqa bir məsələdir.

Diqqət yetirin! Qeyd etdiyimiz ikinci məsələ bu oldu ki, bu inqilab xalqa arxalandığından iş başına gətirdiyi quruluş da xalq quruluşudur. Bu inqilabın rəhbəri xalq tərəfindən sevildiyindən və xalq onun arxasınca hərəkət etdiyindən xarici imtiyazları ləğv etmək üçün zaman gözləmədi və dərhal icra etdi.

Ramazan ayının üçündə Tehranın cümə namazı xütbələrindən: 1995.

İnqilab dalğasının orduya çatması

İnqilabın dalğası hər yeri bürüyəndə digər insanlar kimi ordu mənsublarının da qəlbinin döyünməsi təbiidir. Digər təbəqələr kimi orduda da insanlar iki növ idilər: bəziləri daha imanlı, daha xeyirxah və daha hazırlıqlı idilər, bəziləri isə bir qədər zəif. Onların bəzisi ön sıralarda hərəkata və inqilaba dəstəklərini elan etdilər, küçələrə çıxdılar, aşkar, yaxud məxfi şəkildə mövqe bildirdilər. Ordu geyimində inqilaba iman gətirməyənlər tağut Pəhləvi rejiminə ürəkdən muzdur olanlar, onlarınkı və onlara məxsus olanlar idilər. Məlum idi ki, belə şəxslər İslama, ilahi və milli amallara heç zaman təslim olmayacaqlar.

İran İslam Respublikası ordusunun zabitləri ilə görüşdəki çıxışdan: 1995.

İnqilabın daxili və xarici sahələrdə inkişafı

Böyük İmamın rəhbərlik etdiyi, ərsəyə gətirdiyi və ardınca mühüm nəticə olan İslam Respublikasını yaratdığı Böyük İslam İnqilabı iki cəhətə malikdir: biri daxili və iranlı cəhəti, digəri isə qlobal, beynəlxalq, islami və insani cəhətidir. İnqilabın hər iki cəhəti böyük əhəmiyyətə malikdir. Biz hər iki cəhətdə öz istedadlarımız, o böyük insanın rəhbərliyi və siz əziz xalqın mübarizəsi sayəsində çoxlu nailiyyətlər qazandıq. Mən bu gün Böyük İmamın vəfatının ildönümü münasibəti ilə dövrümüzün bu misilsiz rəhbərinin məqbərəsi önündə elan edirəm ki, inqilab yenə də hər iki sahədə inkişaf edir və öz istiqamətində qalır.

Birinci sahə ölkəyə və İran xalqına aiddir. İnqilabın birinci məqsədi bu idi ki, ölkə daxilində asılı olmayan, müstəqil bir quruluş yaratsın. Asılılıq bir ölkə və xalq üçün böyük bəladır, digər bəlalar da ondan törəyir. Xarici bir qüvvədən asılı olan xalqın faydaları, istedadları, böyük insani və maddi sərvətləri həmin xarici qüvvənin istəyi istiqamətində sərf olunur, xalqın xeyri yolunda yox. Bu xalqları sevən, onlara ürək yandıran insanlar və şəxsiyyətlər ya təcrid olunurlar, ya asılı quruluş və rejim tərəfindən məhv edilirlər. Nefti, qazı və digər yeraltı sərvətləri çıxarılsa, asılı olduğu qüvvənin xeyrinə və marağına sərf olunur. Dostluğu, düşmənliyi və beynəlxalq mövqeyi asılı olduğu qüvvənin meyli və istəyinə tabe olur. Məzhəbi, əxlaqı, mədəniyyəti və ənənələri həmin xarici qüvvənin istədiyi, seçdiyi və müəyyən etdiyi formada olur, öz meyli, xalqının imanı, iradəsi, istəyi və fikri diqqətdən kənarda qalır. Odur ki, asılı bir quruluşda xalq və mütəfəkkir beyinlər heç bir təsirə malik olmurlar. Asılı ölkənin həqiqi idarəsi öz hökumətinin yox, əslində asılı olduğu dövlətin əlində olur.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: 1995.

Pəhləvi rejiminin rəzalətli asılılığına nümunələr

Bir xalq üçün bundan böyük bədbəxtlik ola bilməz. Bütün milli bəlaların anası asılılıqdır. Əziz bacılar və qardaşlar! İran ölkəsi İslam inqilabının qələbəsindən qabaq asılı bir ölkə idi. Bu asılılıq, xüsusən mənfur və azğın Pəhləvi rejiminin iş başında olduğu əlli ildən artıq müddətdə pik həddinə çatmışdı.

Mən iki-üç aydın nümunəni söyləmək istəyirəm. Qoy bəlli olsun ki, inqilabın daxili və iranlı cəhəti bu xalqa necə əzəmət vermiş və necə böyük iş görmüşdür. İngilislər İranda Rza xanı iş başına gətirib, şah etdilər. Bu, Rza xanın müxaliflərinin dediyi söz deyil, o rejimə bağlı olanların özləri və bütün bitərəf tarixçilər bu sözü açıq söyləmiş və etiraf etmişlər. İngilislərin özləri də Rza xanı apardılar. Onlar onun şahlığı əsnasında o zaman İkinci dünya müharibəsində bəzi uğurlar əldə etmiş Almaniyaya meyl göstərdiyini hiss etdilər. Rza xan xaraktercə Hitlerə bənzədiyindən, onu sevirdi. İngilislər bunu duydular, buna dözmədilər və Rza xanı ortadan götürdülər. İngilislər sonra Məhəmmədrzanı hakimiyyətə gətirdilər. Onların özləri də bunu etiraf etmişlər və bu, qəti məsələlərdəndir.

Mən Məhəmmədrzaya bağlı şəxslərin birindən bir söz danışıram. Siz görün bu asılılıq necə alçaldıcı və xaredici səviyyədə olmuşdur. Rza xanın İrandan getməsindən az sonra və hələ İranda kimin şah olacağı tam bəlli olmayan dövrdə İngiltərənin Tehrandakı səfiri Məhəmmədrza tərəfindən ona müraciət edən şəxsə deyir ki, bizdə olan məlumata görə Məhəmmədrza Berlin radiosunu dinləyir, xəritə üzərində Almaniyanın irəliləyişlərinə baxır, buna görə biz ona etimad etmirik. Həmin şəxs xəbəri Məhəmmədrzaya çatdırır, o da Berlin radiosunu dinləməyə son qoyur. Sonra İngiltərənin səfiri deyir ki, daha eybi yoxdur, onu şah etmək olar. Rejimin və dövlətin başında elə bir şəxs durur ki, əcnəbi səfirliyinə bu həddə bağlıdır. Onlar bunun şahlığı üçün belə alçaldıcı şərtlər qoyurlar, o da qəbul və əməl edir ki, onu şah etsinlər. Belə bir

rejimin sərhədlər xaricindən və xarici qüvvələrdən nə qədər asılı olacağı bəlli məsələdir.

Mənfur Pəhləvi rejiminin sonlarında bunların dostları olmuş bəzi şəxslərin xatirələri də bunu təsdiq edir. İnqilab ərəfəsində Amerikanın və hətta o zaman daha qlobal güc sayılmayan İngiltərənin səfirləri Məhəmmədrzanın vəziyyətini, taleyini və verməli olduğu qərarı təyin edirdilər. Ona müraciət edib deyirdilər ki, bu işi görməlisən, bu hərəkəti etməlisən. Fikirlərini deyirdilər və o da qəbul edirdi. Bu 50 ildə həmişə belə olmuşdur. Neft müqaviləsini Rza xanla 60 il müddətə qədər artırdılar. Hökumətləri adları ilə müəyyən edirdilər ki, filankəs hökumətin başında olmalıdır. Görün bu 50 il boyunca bu böyük xalqa nə qədər hörmətsizlik olunmuşdur.

İnqilab bu qədər asılı olan rejimi kökündən qoparıb tulladı. İnqilab üçün birinci əhəmiyyətli məsələ budur ki, ölkəyə xarici qüvvələrə göz dikməyən quruluş və şəxslər hakim olsunlar. Bu, inqilabın birinci cəhətidir. Öz ayağı üstə dayanan, müstəqil olan, asılı olmayan və digər qüvvələrə etina etməyən bir quruluş üçün milli maraqlar mühüm olur. Belə bir quruluş iş başındadırsa, ölkənin dövlət adamları və başçıları belə şəxslərdirsə, bəllidir ki, bütün qərar, hərəkət və mövqelərdə nəzərə alınan məsələ xalqın xeyrindən, marağından və istəyindən ibarətdir. Bu ölkə və xalq üçün lazım olan məsələlər bu gün inqilabın və İslam Respubilkası quruluşunun düşmənlərinin və müxaliflərinin narahat və nigaran olduğu məsələlərdir.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: 1995.

İranın əcnəbilərin istismarından xilası

Əziz İran xalqı! Böyük güclərin ölkələri asılı etməyə çalışması tarixi məsələ deyil, günümüzə və indiyə aiddir. Bu günlərdə də dünyanın böyük gücləri digər ölkələrə təsirlərini artırmağa, onları özlərindən asılı etməyə çalışırlar. Bu gün böyük güclər üçün ölkələrin dost və düşmən olmasına meyar budur. Buna görə böyük güc olan Amerika dünyaya hökmranlıq etmək istəyir. Bəzi amerikalılar deyirlər ki, Amerika rejimi digər ölkələrin daxili işlərinə çox qarışır. Amerikanın prezidenti bir neçə gün bundan öncə bir çıxışında açıq şəkildə onlara cavab verdi ki, biz Amerikanın maraqlarından ötrü digər ölkələrin daxili işlərinə müdaxilə edirik.

Onlar üçün əhəmiyyət kəsb edən öz ölkələrinin marağıdır, ondan ötrü digər ölkələrin daxili işlərinə də qarışır və özlərini buna haqlı bilirlər. Bu qanunsuz istəyin qarşısında dayanan müsəlman İran ölkəsi və İslam Respublikası quruluşu onlara görə düşmən sayılır. Onların sözü və dəlili budur: "Bunlar Amerikanın maraqlarına müxalifdirlər". Beynəlxalq çıxışlarda bunu təkrar edirlər ki, İran İslam Respublikası Amerikanın maraqlarına qarşı çıxır. Əgər siz öz maraqlarınızı Amerikanın daxilində məhdud etsəniz, bizim sizinlə nə işimiz olar?! Əgər siz İranın və digər ölkələrin daxili işlərinə qarışmasanız, bizim sizinlə işimiz olmaz. Amma siz tamahkarsınız, Avropa dövlətlərinin on doqquzuncu əsrdə dünyanın dörd bir tərəfində gördüyü işi – müstəmləkəçiliyi davam etdirirsiniz. On doqquzuncu əsrdə Avropa dövlətləri dünyanın hər tərəfində müstəmləkəyə başladılar. Haranı bacardılarsa, müstəmləkəyə çevirdilər, kiçik ölkələri zəbt etdilər. Bəzi ölkələr bilavasitə müstəmləkələşdirildi; məsələn Hindistan belə oldu. Bəzi ölkələr isə qanunsuz müdaxilələrlə zahirən yerli, lakin əslində İngiltərə dövlətinə bağlı olan milli hökumətlərin hakimiyyətə gəlməsi ilə müstəmləkəyə çevrildi.

İyirminci əsrin ortalarında hər ikisi Avropada baş verən iki dünya müharibəsi səbəbindən Avropa dövlətləri zəiflədi, xalqlar oyandı və

ayağa qalxdı. Müstəmləkəyə çevrilmiş xalqlar biri o birindən sonra özünü müstəmləkədən xilas etdi. Bu zaman Qərb ziyalıları müstəmləkəni məzəmmət edən sözlər danışmağa və yazmağa başladılar. Müstəmləkəçiliyin kəskin şəkildə məzəmmət olunduğu yerlərin biri Amerika Birləşmiş Ştatları idi; çünki o zamana qədər müstəmləkə imkanı əldə etməmişdi. Avropa ölkələri müstəmləkəçilikdə Amerikadan öndə gedirdilər. O zaman amerikalılar müstəmləkəçiliyi pisləyirdilər. Tədricən xalqlar özlərini azad etdilər və müstəqil dövlətlər vücuda gəldi. Bu gün Amerika dövlətinin apardığı işlər əslində və məzmunca müstəmləkəçilərin 19-cu əsrdə və 20-ci əsrin əvvəllərində gördüyü işlərdir. O gün də Avropa dövlətlərinin sözü bu idi ki, bu ölkələrdəki həyat qaynaqlarına bizim ehtiyacımız var, deməli, daxil olub istismar etməliyik. Onlar kiçik və zəif ölkələri təhqir etdilər. Bu gün də Amerika öz maraqlarına görə bu işi görür. Başqa bir xalqın maraqlarının ziddinə təmin olunan maraqlar qeyri-qanuni maraqlardır.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: 1995.

İnqilabın sözünün dünyaya yayılması

İslam inqilabının daha böyük bir əhatə dairəsi var və o, bütün bəşəriyyət, özəlliklə İslam ümməti və müsəlman xalqlardır. Bu böyük dairədə hegemonluğun təbliğatçıları hamıya inandırmağa çalışırlar ki, İran digər ölkələrin daxili işlərinə qarışır. Lakin biz heç zaman ölkələrin daxili işlərinə müdaxilə etmirik. Belə bir niyyətimiz yoxdur və buna ehtiyac da görmürük. Biz müstəqil və inkişaf etmiş bir ölkə, güclü, şücaətli və qabaqcıl bir xalq olmaqdan ötrü digər xalqların işlərinə müdaxilə etməyə lüzum görmürük. Bizim xalqımız mübariz xalqdır, lakin onun mübarizliyi zülm, ayrıseçkilik və zorakılıq əleyhinədir. Bu mübarizlik heç zaman digər ölkələrin daxili işlərinə müdaxiləyə yönəlmir. Buna əsasən, biz "İnqilabın beynəlxalq və qlobal bir etibarı var" dedikdə mənası bu deyil ki, inqilab digər ölkə və xalqların işinə müdaxilə edir. İnqilabın məntiqli bir sözü və aydın yolu vardır. Bu aydın yol xalqların gözü önündədir, xalqlar onu görürlər. Əgər xoşları gəlsə, qəbul edər və o yolla gedərlər. Biz digər xalqları heç nəyə məcbur etmirik. Lakin reallıq budur ki, xalqlar bu aydın yolu görmüş və tanımışlar. Və bu yolu seçmiş xalqların sayı az deyil.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: **1995**.

İnqilabın qlobal mesajları

1. Mənəviyyat

İnqilabın qlobal və beynəlxalq cəhəti dünya miqyasında mənəviyyat mesajından ibarətdir. Dünya maddiyyata qərq olmuşdur. Maddi şəbəkələr bir-iki əsr öncədən dünyanı materializmə sövq etmiş, xalqları maddiyyat bataqlığına salmışlar. Bu gün dünyanın getdiyi, böyük güclərin və dövlətlərin proqnoz verdiyi yolda nəinki heç bir mənəvi cəhət yoxdur, hətta dünya materializmə doğru gedir və insanları mənəviyyatdan uzaqlaşdırır. Bir çox ölkələrdə gənc nəslin təngə gəlməsinin, intiharların artmasının, ailələrin dağılmasının və gənclərin sərgərdan qalmasının səbəbi mənəviyyat boşluğudur. Mənəviyyat insan ruhunun qidasıdır. Mənəviyyat olmadan insan uzun müddət rahat yaşaya bilməz. Harada maddi elm və sivilizasiya çoxdursa, gərginlik də çoxdur. Bu, qlobal güclərin mənəviyyatı dünya xalqlarının həyatından çıxardığına görədir. İslam inqilabının mesajı mənəviyyat, əxlaq, Allaha diqqət və bu faktorları insanların həyatına daxil etməkdir. İnqilabın və imamın adı və mesajı haraya çatmışsa, özü ilə mənəviyyat da aparmışdır. Hətta İslam inqilabına xoş münasibət bəsləyən, ondan dərs alan və istifadə edən məsihi və qeyri-müsəlman cəmiyyətlərin bəzisində də mənəviyyat elementini müşahidə edə bilərsiniz. Bizim böyük İslam inqilabımızın ayağı mənəviyyat daşıyıcısıdır. Bu mənəviyyat bu inqilabın və bu mənəvi imamın - özü böyük arif, müctəhid, dinşünas və gecələrin abidi olan, gecə yarısı Allahla raz-niyaz edən rəhbərin ilk mesajıdır.

2. Ədalət

İnqilabın digər sözü ədalətdir. Dünyanın harasında ədalətsevərlik nidası ucalmışsa, bu inqilab oranı özündən və özünə uyğun bilmiş, dünyanın haqsevərlərinin və ədalətsevərlərinin yanında olmuşdur. Çoxlu ədalətsevərlər, azadlıqsevərlər, dünyanın şərqində və qərbində, beş qitədə zülm və ayrıseçkiliklə mübarizə aparanlar deyirlər ki, biz bu

dərsi sizin inqilabınızdan öyrəndik. Onlar doğru deyirlər. Bu da bir mesajdır: ədalətsevərlik mesajı.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: 1995.

İnqilabın müsəlman cəmiyyətlərə mesajı: İslama qayıdış

Bizim inqilabımızın İslam ümmətinə, müsəlman cəmiyyətlərə və xalqlara böyük və mühüm mesajı İslam kimliyini dirçəltməkdən, İslama qayıdışdan, müsəlman oyanışından və İslam hərəkatına dönüşdən ibarətdir. Bu yolun imamı və rəhbəri, bu xəttin və məktəbin böyük müəllimi olan imamımızın müsəlman xalqlara böyük mesajı budur.

Müsəlmanları özlərinə yadlaşdırmışdılar. Dünyanın müxtəlif yerlərində yaşayan müsəlmanlar "mən müsəlmanam" deməyə xəcalət çəkirdilər. Qeyri-müsəlman və antiislam dövlətlər öz ölkələrində elə şərait yaratmışdılar ki, bugünkü gənclərin heç biri İslamdan bir şey bilməsin. İslamı keçmiş nəsillərə aid bir din kimi təqdim edir və deyirdilər ki, İslam öldü, bitdi. Modern, mütərəqqi və sivil cəmiyyətlərdə elə şərait yaratmışdılar ki, müsəlmanlar özlərinin müsəlman olduqlarını söyləməyə cürət etmirdilər. İslamın əməllərini ya tamamilə tərk edirdilər, ya da gizlicə və qorxa-qorxa yerinə yetirirdilər.

Müsəlman ölkələrinin də vəziyyəti yaxşı deyildi. Bir İslam ölkəsinin başçısı ölkə başçılarının qatıldığı beynəlxalq toplantıda nitqini "Bismillah" sözü ilə başlamağa xəcalət çəkir, bunu eyib və mürtəcelik sayır, İslamdan və İslam əlamətlərindən utanırdılar. Hegemonluq və müstəmləkə dövrünün əvvəllərində və ortalarında İslamdan zərbə görmüş və ondan qorxan muzdurlar xalqda İslamı unutmaq hissini gücləndirirdilər.

Bizim öz ölkəmizdə də belə idi. Qardaş və bacılar! Həmin dövrü görənləriniz xatırlayırlar ki, bir müsəlman məsciddən başqa bir yerdə, camaat içində namaz qılmağa cürət etmirdi. Əgər kimsə hava limanında, yaxud şəhərin otrasında bir meydanda namaz qılsaydı və ya azan deməydi, onu ələ salardılar. İslamı tədricən qaçaq salmışdılar. İslam hərbi hissələrdən qaçaq düşmüşdü. Universitetlərdə mübariz müsəlman qruplar yaranana qədər orada namaz qılmaq mümkün deyildi. Dünyanın hər yerində belə idi. Bəzi yerlərdə İrandan da pis idi. Bizim inqilabımızın böyük mesajı müsəlman xalqlarda İslam kimliyini

dirçəltməkdir. Bu gün dünyanın hər bir yerində - Avropada, Amerikada və Asiyada yaşayan bütün müsəlman xalqlar müsəlman olmaları ilə fəxr edirlər. Bu gün Avropanın qəlbində ibtidai məktəb şagirdi olan hicablı qız uşağı fəxrlə deyir ki, mən müsəlmanam və məktəbə hicablı getmək istəyirəm. Bu gün Avropanın mərkəzində yerləşən Bosniya-Herseqovina xalqı bütün düşmənlərinə və özlərinə yönələn təzyiqlərə rəğmən, ayağa qalxıb deyir ki, mən müsəlmanam. Bu müsəlmanlığın altını da çəkir, əvəzini də ödəyir, amma geri çəkilmir. İslam ölkələrinin başçıları xalqların İslama təmayülünə görə özlərini müsəlman göstərməyə və İslamdan dəm vurmağa məcbur olurlar. Bu gün hegemon ölkələrin hegemon başçıları da müsəlmanların razılığını qazanmaqdan ötrü deyirlər ki, biz İslamla müvafiqik və İslamın tərəfdarıyıq. Sözsüz ki, yalan danışır və yalnız dillərində belə deyirlər. Amma hər halda, zahirdə olsa da, bu sözü deyirlər. Nə üçün? Çünki bu gün İslam canlıdır, İslam kimliyi dəyərli və önəmlidir; çünki bu gün İslam qüdrətlidir. Bu gün İslam hərəkatı inkişafa doğru gedir və Allahın yardımı ilə bütün dinlərin fövqündə (bütün dinlərdən üstün)[1] olana qədər İslam azadlıq hərəkatı və İslam təfəkkürünün inkişafı ölkələrdə günbəgün güclənəcək. Bu müsəlmanlıq hissinin və İslam kimliyinin xalqlarda canlandığı zaman İslam əleyhinə planlar cızan bütün şəxslər və cinahlar təcrid olunacaq, qürbət və qorxu içərisində qalacaqlar. Buna görə bir neçə gün öncə sionizm rejiminin başçılarından biri belə demişdi: "Biz ərəb ordularından və qoşunlarından yox, İslam fundamentalizmindən qorxuruq". Bəli, biz bütün məsələlərdə sionist düşmənə müxalif olsaq da, bu bir sözdə müvafiqik. Sionistlərin yollarını bağlayan amil yalnız İslam oyanışıdır. Fələstin torpaqlarını azad edəcək amil müsəlman xalqların oyanışı və İslam oyanışıdır.

Həzrət İmam Xomeynin vəfatının ildönümü mərasimində çıxışdan: 1995.

[1] Tövbə/33; Fəth/28; Səff/9.

İslam inqilabı ilə Rusuya inqilabının müqayisəsi

İranın böyük İslam inqilabı doğrudan da müstəsna bir inqilab idi. Biz digər inqilabları həm tarixdə oxumuşuq, həm də öz dövrümüzdə müşahidə etmişik. Kaş siz əziz xalqımız tarixi kitab və yazılarla daha artıq ünsiyyətdə olaydınız və mənim bir neçə kəlmə ilə demək istədiyimi özünüz kitablardan təfsilatı ilə mütaliə edəydiniz. Heç bir şey onun yerini vermir. Doğrudan da bu inqilab digər inqilablarla fərqlidir. Bu fərq həm onun yaranmasının necəliyində, həm də xalq hərəkatının məqsədində görünür. İkinci cəhətdən onu misal üçün, 70-80 illik kommunist quruluşunun mənşəyi olan Rusiya Oktyabr İnqilabı ilə müqayisə edib, o inqilabın və qiyamın necə və hansı şüarlarla baş verməsini görə bilərik. O inqilab zamanı nə qədər faciələr yarandı? Burada necə idi? Ümumiyyətlə fərq yerlə-göy qədərdir. Əlbəttə, bu müqayisə xalq hərəkatı olan inqilablarladır. Çünki o inqilab da xalq inqilabı idi. Ondan öncə Böyük Fransa İnqilabı baş vermişdi. Onun adı inqilabdır, əslində isə hərbi çevriliş sayılır və inqilabla fərqi həqiqətən o qədər çoxdur ki, bunları əsla bir-biri ilə müqayisə etmək olmaz. Bizim inqilabımız əzəmət, sağlamlıq, paklıq, yayınmalardan və bütün xalq qiyamlarında görünən faciələrdən uzaq durmaq və çəkinmək, davamlılıq, eləcə də bacarıq, iqtidar və gördüyü işlər baxımından möhtəşəm bir inqilabdır.

Ramazan ayının on doqquzunda Tehranın cümə namazı xütbələrindən: 1996.

İmamın inqilabda İmam Hüseyn (ə) hərəkatını rəhbər tutması

İki növ qələbə vardır: Biri insanın özünün gördüyü qələbədir. İmam özünün pak gözləri ilə hakimiyyətin qurulmasını və inqilab düşmənlərinin məhv olmasını gördü. Bundan daha mühüm və davamlı qələbə isə düşüncənin, yolun qələbəsidir. Allahın peyğəmbərləri həyatlarında bütün məşəqqətlərə dözüb nəhayət buna nail oldular. Bu, böyük və mütəfəkkir bir insanın düşüncəsinin, ideyasının və yolunun qələbəsidir. İmam bu qələbəyə də nail oldu. Onun xatirəsinin yaşaması və bu tədbirin hər il daha izdihamlı keçməsi bunu göstərir.

Böyük imamımızın hərəkatı haqda bizim üçün dərs olan bir məsələyə toxunmaq istəyirəm. Xahiş edirəm düşüncə adamları, siyasi fikir sahibləri və strateji məsələlər haqda düşünənlər bunun üzərində araşdırma aparsınlar.

Bilirsiniz ki, imamın hərəkatının İmam Hüseyn (ə) hərəkatına çox oxşarlığı vardı və demək olar ki, İmam Hüseyn (ə) hərəkatından örnək götürülmüşdü. İmam Hüseyn (ə) hərəkatı o həzrətin və silahdaşlarının şəhadəti ilə, bu hərəkat isə İmam Xomeyninin qələbəsi ilə nəticələnsə də, onların arasında fərq yoxdur. Çünki hər iki hərəkata eyni düşüncə tərzi, eyni məzmun və ümumi proqram hakim idi, şəraitlərsə fərqlənirdi. Buna görə o hərəkatın taleyi İmam Hüseynin (ə) şəhdaəti ilə, bu hərəkatın taleyi isə bizim böyük imamımızın hakimiyyəti ilə nəticələndi. Bu ümumi olaraq aydın məsələdir.

Hər iki hərəkatda bariz şəkildə mövcud olan xüsusiyyətlərdən biri müqavimət məsələsidir. Müqavimət sözünə və onun mənasına ötəri yanaşmaq olmaz. Bu çox mühüm məsələdir.

İmam Hüseyn (ə) bir müddətdən sonra Yezidə və onun zalım hökumətin tabe olmamaq qərarına gəldi. Mübarizə buradan başlandı - dinin yolunu tamamilə dəyişən azğın hakimiyyətə təslim olmamaqdan. Mədinədən hərəkət edəndə imamın niyyəti bu idi. Məkkədə köməksiz olduğunu görəndə qiyamı da niyyətinə daxil etdi. Hər halda, əsas

məsələ hakimiyyət qarşısında etiraz və hərəkət idi ki, İmam Hüseynin (ə) meyarlarına görə dözüləsi və qəbulediləsi deyildi.

İmam Hüseyn (ə) əvvəlcə biri o birindən sonra qarşıya çıxan problemlərlə üzləşdi. Məkkədən çıxmağa məcbur olmaq, Kərbəlada yaranan qarşıdurma və İmam Hüseynçün (ə) yaranan sıxıntı bu problemlərdən idi. Böyük işlərdə insanın qarşısına sədd çəkən amillərin biri şəriətdə qəbul olunan üzrlərdir. İnsan vacib işi və boynuna düşən vəzifələri yerinə yetirməlidir. Lakin bu iş böyük bir problemə səbəb olduqda, misal üçün, çoxlu insanlar öldürüləcəksə, daha vəzifəsinin götürüldüyünü düşünür. Siz görün İmam Hüseynin (ə) qarşısında yalnız zahiri görən hər bir insanı daşındıra biləcək nə qədər şəriət üzrləri vardı. Bunlar biri o birindən sonra qarşıya çıxırdı. Əvvəl Kufə xalqının üz çevirməsi və Müslimin öldürülməsi baş verdi. Fərz edin burada İmam Hüseyn (ə) deməli idi ki, daha bu, şəriət tərəfindən qəbul olunan üzrdür və vəzifə götürülür; istəyirdik Yezidlə beyət etməyək, lakin belə vəziyyətdə mümkün deyil, xalq da dözmür, deməli, vəzifə üzərimizdən götürülür, məcbur qaldığımızdan və çarəsizlikdən beyət edəcəyik.

İkinci mərhələ Kərbəla hadisəsi və Aşuranın baş verməsidir. Burada İmam Hüseyn (ə) bu məsələyə böyük problemləri bu məntiqlə həll etmək istəyən bir insan kimi yanaşsaydı, deyə bilərdi ki, bu yandırıcı səhrada arvad-uşaqların taqəti çatmaz, deməli, vəzifə götürülür. Yəni təslim olsun və o zamana qədər qəbul etmədiyini qəbul etsin. Yaxud Aşura günü düşmənin hücumu başlayanda və İmam Hüseynin (ə) tərəfdarlarının çoxu şəhid olanda – yəni problemlər özünü daha artıq göstərəndə o həzrət "daha mübarizənin mümkün olmadığı aydın oldu" – deyib, bununla özünü geri çəkə bilərdi. Yəni İmam Hüseynin (ə) şəhid olacağı və onun şəhadətindən sonra Əmirəlmöminin (ə) və Peyğəmbərin (s) ailəsinin səhrada naməhrəm kişilərin əlində yalqız qalacağı bəlli olduqda daha namus məsələsi qarşıya çıxır. O, qeyrətli bir insan kimi deyə bilərdi ki, daha vəzifə götürüldü, bəs qadınlar nə olacaq; əgər bu yolu davam etdirsək və

öldürülsək, Peyğəmbər (s) ailəsinin qadınları, Əmirəlmöminin (ə) qızları və İslam dünyasının ən pak, ən təmiz xanımları düşmənlərin - şərəf və namusdan bir şey anlamayan veyil kişilərin əlinə düşəcək. Deməli, vəzifə boynumuzdan düşdü.

Diqqət yetirin, qardaş və bacılar, bu mühüm məsələdir. Kərbəla hadisəsinə bu baxışla nəzər salmaq lazımdır. Əgər İmam Hüseyn (ə) Əli Əsğərin şəhidliyi, qadınların əsir olması, uşaqların susuzluğu, bütün gənclərin öldürülməsi və Kərbələda baş verən çoxlu faciələr kimi çox acı və çətin hadisələrə adi bir dindar gözü ilə baxıb öz missiyasının əzəmətini unutsaydı, addım-addım geri çəkilib deyə bilərdi ki, daha üzərimizə vəzifə düşmür, indi Yezidlə beyət etməliyik, çarəsizik, zərurət hər bir şeyi halal edir. Amma İmam Hüseyn (ə) belə etmədi. Bu o həzrətin müqavimətinin göstəricisidir. Müqavimət budur. Müqavimət hər yerdə çətinliklərə dözmək mənasında deyil. Çətinliklərə dözmək böyük insan üçün şəriət meyarları ilə, el adətləri ilə və sadə əqli meyarlarla məsləhətin əksi görünən məsələlərə dözməkdən daha asandır. Bunlara dözmək digər problemlərə dözməkdən çətindir.

Bir zaman insana deyirlər ki, bu yolla getmə, işgəncə olunman mümkündür. Bəli, güclü insan deyir ki, işgəncə olunum, eybi yoxdur, bu yolla gedəcəyəm. Yaxud deyirlər getmə, öldürülmən mümkündür. Böyük insan deyir ki, eybi yox, qoy öldürülüm, bunun əhəmiyyəti yoxdur. Lakin bəzən öldürülməkdən, işgəncə olunmaqdan və çətinlik çəkməkdən söhbət getmir. Deyirlər ki, getmə, sənin bu hərəkətinə görə bəzi insanlar öldürülə bilərlər. Burada artıq digərlərinin canından söhbət gedir: “Getmə, sənin getməyinə görə çoxlu qadınlar, kişilər və uşaqlar çətinlik çəkə bilərlər”. Burada canları özləri üçün əhəmiyyət kəsb etməyən şəxslər də dayanırlar. Elə adam dayanmır ki, əvvəla ayıqlığın yüksək həddində olsun və necə böyük iş gördüyünü bilsin; ikincisi, güclü iradəsi olsun, zəiflik göstərməsin. İmam Hüseyn (ə) bu iki xüsusiyyəti Kərbələda göstərdi. Buna görə Kərbəla hadisəsi qaranlıq tarixdə günəş kimi parladı, hələ də parlayır və sonsuza qədər parlayacaq.

Mənim sözüm budur ki, bizim böyük imamımız bu xüsusiyyətdə İmam Hüseyninin (ə) əsl davamçısı oldu və onun bu xüsusiyyəti inqilaba qələbə gətirdi. Bundan əlavə, özündən sonrakı qələbəni də təmin etdi: həm düşüncəsinin, həm də yolunun qələbəsini. Bunun əlaməti siz xalqın bu böyük toplantısı, dünya miqyasında daha geniş əlaməti isə xalqların İslama və imamın yoluna rəğbətidir. Bu qələbələr müqavimətin və duruş gətirməyin sayəsində əldə olundu.

İmam Xomeyninin ziyarətçilərinin izdihamlı toplantısında çıxışdan: 1996.

Hegemonluğun müsəlmanları təhqir siyasəti

İslam düşmənlərinin ən təsirli üsullarından biri müsəlman xalqları təhqir etmələri idi. İrana, ərəb ölkələrinə, Hindistan yarımadasına, Orta Asiya, Uzaq Şərq və Afrika ölkələrinə, eləcə də Avropa və Amerikada yaşayan müsəlman azlıqlara baxın. Müsəlmanları təhqir siyasəti hər yerdə icra olunmuşdur. Bunun əhəmiyyətinə yaxşı diqqət yetirin. Müsəlmanlar dünyada gedən proseslərə təsir etmək xüsusiyyətinə malikdirlər. Nəyə görə? İslamın nurlu hökmlərinə, İslamın müsəlmanlara verdiyi ruhiyyə və xarakterlərə - məsələn zülmlə mübarizəyə, pislik və fəsadla razılaşmamağa, yaxşı işlərə dəvət etməyə, pis işlərdən çəkindirməyə və Allah yolunda cihada görə. Allah yolunda cihadın geniş əhatəsi var, yalnız fiziki qarşıdurmaya məxsus deyil. Evlərin daxilində də cihad etmək mümkündür. İnsan hər yerdə Allah düşməni ilə cihad edə bilər - əgər iradəsi olsa və nə iş görməli olduğunu bilsə.

İslam hökmlərinin məcmusu budur. Bu, cihad, yaxşı işlərə dəvət etmək, pislik və fəsadla razılaşmamaq və zülmü qəbul etməməkdir: "Nə siz zülm edərsiniz, nə də sizə zülm olunar"[1]. Dünyanın hər hansı bir yerində olan müsəlman xalqlar və hətta fərdlər bu hökm və təlimlər sayəsində təbii olaraq öz iradələrini dünyanın və cəmiyyətin idarəsində təsirli elementə çevirməyə qadir olmuşlar. Bu, müsəlmanın xüsusiyyətidir. İstismarçılar bu xüsusiyyəti xoşlamırlar; dünya zalımları buna görə narahatdırlar.

Avropalılar gəmilərə minib Asiya, Afrika, Orta Şərq və digər regionların ölkələrini zəbt etməyə gələndə müsəlmanların bu ruhiyyəsindən qorxurdular. Onlar müsəlmanı təhlükəsiz vəziyyətə salmaq üçün iki iş görməli idilər: biri onu İslam hökmlərindən uzaqlaşdırmaq, ikincisi isə ruhiyyəsini qırmaq və təhqir etmək. Və siz görürsünüz ki, İslamla mübarizə dövrü boyunca və bu mübarizənin

[1] Bəqərə/279.

zirvəsi olan son bir-iki əsrdə İslam düşmənlərinin bütün siyasətləri bu iki məqsəddə mərkəzləşmişdir: biri müsəlmanları İslam hökmlərindən uzaqlaşdırmaq, ikincisi isə müsəlmanları təhqir etmək, onların ruhiyyələrini qırmaq. Nəticə nə oldu? Nəticədə müsəlman ölkələr dünyanın üçüncü dərəcəli ölkələrinə çevrildilər. Onları hətta ikinci dərəcəyə də salmaq olmaz. Harada müsəlman ölkə vardısa, ya birbaşa İslam düşmənlərinin və əcnəbi güclərin nüfuzu altında idi, yaxud əcnəbi güclərin bir muzduru onlara hakim olmuşdu. Bizdə mənfur Pəhləvi sülaləsi, digər ölkələrdə isə ona bənzər bir şey vardı. Müsəlmanların vəziyyəti belə olmuşdur.

Bizim böyük imamımız gəlib məhz həmin iki cəhət üzərinə barmaq qoydu. İmamın adının bir tufan kimi İslam dünyasını qət etməsi bunlara görədir. Təbliğatla xalqların qəlbində bir şəxsə belə yer açmaq olmaz. Dünyanın bəzi yerlərində insanlar İranın adını belə eşitməmişdilər, amma bizim böyük imamımıza eşq bəsləyirdilər. Səbəb bunlardır. Bu, ilahi sünnə və xilqətin qanunudur. İmam bu iki nöqtə üzərində dayandı, xalqların vicdanı oyandı, xilas yolunun bundan və örnəyin də İran xalqından ibarət olduğunu gördülər.

Böyük İmam İran xalqını İslama qayıtmağa dəvət etdi və dedi ki, həqiqi İslama əməl edin. Özü də yalnız məscidlər daxilində və fərdi ibadət formasında yox, bu işi kamil əməl formasında görün və həyat tərzini İslamdan öyrənin. O məhz buna görə İslam Respublikası qurdu. İkinci cəhətdə də bu xalqın ruhiyyəsini dirçəldib bərpa etdi. O, İran xalqını başa saldı ki, gücü var və bacarır. Dünyanın bütün müsəlman xalqlarına mesaj verdi ki, əsl güc sizdədir və siz düşməni diz çökürə bilərsiniz. İmamın proqramına harada və hansı həddə əməl olundusa, bu nəticəni bağışladı. Bizim ölkəmizin özündə İran xalqı zəif durumdan elə bir vəziyyətə çatdı ki, bu gün iradəsinin dünyanın mühüm hadisələrində rolu var. Bizim düşmənlərimiz də bunu deyirlər.

Həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində iştirak edən xarici qonaqlarla və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1996.

Daimi başucalığının şərti: imamın adını və xatirəsini yaşatmaq

Bizim böyük imamımızın göstərdiyi yol dünyanın hər bir yerində yaşayan müsəlmanları başıuca etdi. Bu gün dünya müsəlmanları dünyanın hər bir yerində bunu hiss edirlər. Bir zaman müsəlman özünün müsəlman olduğuna görə utanc hissi keçirirdi, amma bu gün bununla fəxr edir və şərəf duyur.

Mənim sözüm budur: istər İran xalqı, istər digər xalqlar imamın adını və xatirəsini nə qədər uca tutub yaşatsalar, imamın yolunun faydalarından daha çox yararlanarlar. İslam və müəslmanların düşmənləri imamın unudulmasını, yaxud az xatırlanmasını istəyirlər. Belə görüntü yaradırlar ki, bu hadisə artıq bitmişdir. Onlar bunun dünyanın gələcəyinə təsir etməməsinə çalışırlar. Görürsünüz ki, bu qərarların icrasında müxtəlif üslublardan istifadə edir, qara təbliğat kampaniyası aparır, təhriflər edir və şayiələr yayırlar. Hegemon güclərin təsir dairəsində olan hər yerdə bunlar var. Müsəlmanların hərəkəti isə bunun əks istiqamətində olmalıdır. Onlar imamın xatirəsini yaşatmalı, adını uca tutmalıdırlar. Onun təsvir etdiyi aydın xətti izah edib imamın nə istədiyini demək lazımdır. Başa salmaq lazımdır ki, İslam hökmləri və İslam şərəfi imamın istədiyi iki parlaq nöqtədir.

Bizim ölkəmiz daxilində də belədir. Əgər bizim xalqımız bu şərəf yolu ilə getmək istəyirsə, imamın adını və xatirəsini hər gün daha uca tutmalıdır. Əgər xalq özünün güclü qolları və yaradıcılığı sayəsində İranı xalqların və ölkələrin qibtə edəcəyi tərzdə qurmaq istəyirsə, imamın göstərişlərinə hər gün daha çox diqqət yetirməlidir. Bəzi adamlar bilmədən elə düşünə, yaxud təbliğ edə bilərlər ki, imamın yolu və xətti xalqın mənəviyyatını və axirətini təmin edir, dünyasını isə abadlaşdırmır. Bu səhvdir. Allahın yolu insanlar üçün dünya və axirəti abadlaşdırır, həyatı gözəlləşdirir, asanlaşdırır, düşmənin təzyiqini götürür və azaldır. Allahın yolu belədir və imamın yolu da elə Allahın yoludur.

İran xalqı əcnəbilərin müdaxiləsi, azğın hökumətlər, zalım Pəhləvi və Qacar rejimlərinə görə - bu iki mənfur sülalə illərlə bu ölkədə hakim oldular və əcnəbilərin ayağını bu məmləkətə açdılar - elm və bilik karvanından geri qaldı. İran xalqı o zaman həyatını abadlaşdıra, inkişafa və həqiqi irəliləyişə nail ola bilər ki, öz ayağı üstə dayansın, həyatda ilahi hökmləri icra etsin, düşmənin əl-ayağını bu ölkədən tamamilə kəssin. Bu, imamın yolu və tövsiyəsidir.

İran xalqı başucalığını, rifahı, dünya xöşbəxtliyini, səadəti, mənəvi və axirət kamilliyini böyük və əzəmətli imamının göstərdiyi yolda və xətdə tapa bilər. Allah-Taala bu yolu izah etmək üçün ona on il fürsət verdi. İmamın sözlərində gizli və şübhəli məqam yoxdur. İran xalqının yolu budur.

Həzrət İmam Xomeyninin vəfatının ildönümü mərasimində iştirak edən xarici qonaqlarla və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 1996.

Hərbi, siyasi və mədəni cihad mədəniyyəti

İslam mədəniyyətində bariz nümunələri daha çox erkən İslam tarixində və bir qədər də digər dövrlərdə görünən mühüm məqamlardan biri döyüş və cihad mədəniyyətidir. Cihad yalnız döyüş meydanında iştirak etmək deyil. Çünki düşmən qarşısında hər növ fəaliyyət cihad sayıla bilər. Bəzilərinin bir iş görüb zəhmət çəkmələri və onu cihad adlandırmaları mümkündür, lakin bu təbir düzgün deyil. Cihadın bir şərti onun düşmən qarşısında baş verməsidir. Bu qarşıdurma bəzən silahlı müharibə meydanında olur və döyüş cihadı adlanır; bəzən siyasət meydanında olur və siyasət cihadı adlanır; bəzən mədəni məsələlər meydanında olur və buna mədəni cihad deyilir; bəzən də quruculuq meydanında olur və ona quruculuq cihadı deyilir. Digər adlarla və digər sahələrdə də cihadlar var. Deməli, cihadın birinci şərti budur ki, onda fəaliyyət və çalışmaq olsun; ikinci şərti isə budur ki, düşmənin qarşısında baş versin.

İslam mədəniyyətinin bu məqamı mühüm bir məqamdır. Dedik ki, onun müxtəlif nümunələri də var. Bizim dövrümüzdə də 1962-ci ildə imam və onun həmkarları tərəfindən mənfur Pəhləvi rejiminə qarşı mübarizə çağırışı ucalan kimi cihad başlandı. İmamdan öncə də məhdud və pərakəndə formada cihad vardı, lakin əhəmiyyətli deyildi. İmam mübarizəyə başlayanda cihad əhəmiyyət kəsb etdi və nəhayət özünün qələbə mərhələsinə çatdı; yəni İslam inqilabı qələbə çaldı. Ondan sonra bu günə qədər də bu ölkədə cihad olmuşdur. Çünki bizim duşmənimiz var, onlar maddi baxımdan güclüdürlər və hər tərəfdən ətrafımızı sarmışlar. Onlar İslam İranına qarşı düşmənçilikdə ciddidirlər, zarafatları yoxdur, çünki hər bir mümkün yolla zərbə vurmaq istəyirlər. Deməli, İslam İranında ətrafdan zəhərli oxlarını İslam ölkəsinə tuşlayan düşmən qarşısında kim hansı yolla çalışsa, Allah yolunda cihad etmiş sayılır. Allaha həmd olsun ki, cihad olmuşdur, var və olacaq.

Cihadların biri də düşüncə cihadıdır. Düşmənin bizi aldadıb düşüncəmizi yayındırması və səhvə salması mümkündür. Xalqın düşüncə aydınlığı yolunda çalışan, yayınmanın qarşısını alan və yanlış anlaşmaya mane olan hər bir kəs düşmənə qarşı dayandığından, onun fəaliyyəti cihad adlanır; özü də bu indi önəmli olan bir cihaddır. Deməli, bu gün bizim ölkəmiz cihad mərkəzidir. Bu baxımdan heç bir nigaranlığımız da yoxdur.

"Məhəhmməd Rəsulululllah" diviziyasının komandirləri ilə görüşdəki çıxışdan: 1996.

Hərəkat tarixində məscidlərin rolu

Müsəlman İranda bu mübarək inqilabın qələbə çalmasının və yaxud ən azı qələbənin asanlaşmasının amillərindən biri xalqın məscidlərə üz tutması idi. Gənclər məscidləri doldurdular. Böyük alimlər məscidlərdən təlim-tərbiyə üçün, düşüncə və zehinləri işıqlandırmaq üçün bir mərkəz kimi istifadə etdilər. Məscid hərəkət, ayıqlıq, mübarizə, eləcə də tağut rejiminin azğın və satqın başçılarının sirlərinin ifşası üçün mərkəz oldu. Məşrutə dövründə də belə olmuşdu. Neft sənayesinin milliləşdirilməsi zamanı da müəyyən həddə belə oldu. İnqilab dövründə isə bu məsələ ən yüksək həddə çatdı.

İran xalqı məscidlərin qədrini bilməli, onları elm, aydınlıq və milli müqavimətin bazası saymalıdırlar. Əgər kimsə məsciddə yalnız bir neçə rəkət namaz qılındığını və bunun heç bir təsir bağışlamadığını düşünsə, səhvə yol vermişdir. Belə deyil. Əvvəla həmin bir neçə rəkət namaz da ayıq şəkildə qılınsa, müqəddəs şəriət tərəfindən ən xeyirli əməl və qurtuluş vasitəsi adlandırılan namaz olaraq çoxlu faydalara səbəb olar. Namaz bir xalqı Allah üçün qiyama vadar edir, insanları fəsaddan uzaqlaşdırıb ixlas və fədakarlığa yaxılaşdırır.

19 Dey (9 yanvar) qiyamının ildönümü münsibəti ilə müqəddəs Qum şəhərinin əhalisinin müxtəlif təbəqələri, din alimləri və hövzə tələbələri ilə görüşdəki çıxışdan: 1997.

İnqilabın baş verməsinin və yaşamasının amilləri

Belə deyirlər ki, hər bir şeyin yaşayıb davam etməsi onun baş verdiyi amillərlə təmin olunur. Bu söz ümumi olaraq düzgündür. Misal üçün, İran İslam İnqilabının yaşayıb davam etməsi üçün səbəb axtaran zaman bu inqilabın hansı amillərlə baş verdiyinə baxmalıyıq. Əgər cəmiyyətdə həmin amilləri təmin etsək, inqilab yaşayacaq. Xüsusi bir amil və stimulla başlayan bir hərəkətin davamı da həmin amillə təmin olunur.

İnqilabın başvermə amilləri hansılar idi? Bunun bir yox, çoxlu amilləri olmuşdur. Bunun üçün dəqiq elmi, sosioloji və tarixi araşdırma aparmaq lazımdır. Əlbəttə, bu məsələlər dəfələrlə araşdırılmışdır.

İnqilabın müxtəlif amilləri olmuşdur. Həmin amilləri öyrənməyin özü böyük bir elmi dərsdir. Bütün bu amillərdə mövcud olan ruh kimi yanaşmalı məsələ Allahı yada salmaq, ilahi vəzifəni yerinə yetirmək və Allah üçün qiyam etməkdir. Düzdür, bəzi şəxslərin təsəvvüründə müxtəlif maraqlar ola bilərdi; məsələn tağut diktaturası ilə və yaxud fəsadla mübarizə. Bunların hamısı düzgündür.

İnqilaba təsir göstərən bu maraqlar hamıda vardı, lakin onların təsir səbəbi dini ruhla və vəzifə hissi ilə yanaşı olmaları idi. Çünki istibdada, fəsada, asılılığa, geriliyə və yoxsulluğa qarşı mübarizə aparmaq, insanların məişət səviyyəsini yüksəltməyə və yoxsulluğu aradan qaldırmağa çalışmaq Allahın razılığına səbəb olan işlərdəndir. Allah-Taala bu işləri insanlara əmr etmişdir.

Əgər dini ruh olsa, bu amillər xalqın bütün təbəqələrində geniş və güclü formada yaranar. Odur ki, inqilab bitəsi deyildi və deyil. Əgər dini amil olmasa, bir neçə gün hərəkət olar, müəyyən bir qrup və təbəqə bir iş görər və sonra da yorular; bəziləri öz dünyaları ilə məşğul olar, bəziləri hakimiyyətə və vəzifəyə gələr, bəziləri hakimlərlə sazişə gedər, bəziləri qorxar, bəziləri rahat həyatı tərcih edər, bəziləri məyus olarlar və məsələ bitər. Dünyanın çoxlu hərəkatlarında Allahın adı, xatirəsi, bəndəlik ruhu, ixlas, elə böyük insan, əzəmətli imam kimi ilahi və

mənəvi bir rəhbər olmadığından fəsadla, despotizmlə və bir xalqın digər bədbəxtlikləri ilə mübarizədə hətta adi istedadlar da çiçəklənmədi.

Lakin burada bütün xalq - kişilər, qadınlar, qocalar, ömürlərində ictimai məsələlərə qoşulmayanlar, öz maddi həyatları üçün heç bir zərərli və təhlükəli işə girişməyənlər ayağa qalxdılar, qorxmadan küçələrə çıxdılar, ümumi bir tələtüm yarandı, hərəkat başlandı və inqilab oldu; özü də bu inqilab ardınca elə iş gördü ki, İslam tarixində - İslamın erkən çağının hökumətlərindən bizim dövrümüzə qədər heç zaman bu iş görülməmişdi; nə burada, nə də başqa bir yerdə. O iş nə idi? O iş Quranın, İslam fiqhinin və din hökmlərinin hakimiyyəti, ölkənin qanunlarının və idarəsinin İslam əsasında həyata keçirilməsi idi. Bu, keçmişdə heç bir yerdə görünməmişdi.

Bu gün bəzi adamlar həqiqətən naşükürlük edir və Allahın nemətini kiçik sayırlar. Məsələn hansısa bir məhkəmənin bir yerdə bunların fikrincə düzgün olmayan bir hökm çıxardığına, yaxud ölkənin bir tərəfindəki bir prefektin, yaxud icra hakiminin bir söz danışdığına, yaxud bir dövlət məmurunun bir iş gördüyünə görə birdən-birə hər şeyi sual altına salırlar, inqilab, hökumət, İslam Respublikası, vilayət və bu əzəmətli hərəkət tamamilə unudulur, nəyin baş verdiyi yaddan çıxır.

Mənim əzizlərim! İnqilabın qələbəsindən on səkkiz ilə yaxın vaxt ötəndən sonra bəzən dünyanın müxtəlif yerlərindən görkəmli müsəlmanlar və insanlar buraya gəlib bizimlə görüşür və bizə deyirlər ki, siz özünüz inqilabın içində olduğunuzdan nə baş verdiyini yaxşı anlamırsınız. Bu hadisə vəsfəsığmaz bir hadisədir.

Hegemonluğun sığındığı və Amerikanın mərkəzləşdiyi yer, hökumət başçıları beynəlxalq güclərin müti qulları olan, sərvəti hakim ailələr arasında paylanan, dini günbəgün zəifləyən, xalqı günbəgün və zorla əxlaqsızlığa, cinsi fəsada sövq edilən bir ölkədə müstəqil, azad və qorxmaz bir xalq hakimiyyəti yaranmışdır. Ölkənin başçı və məmurları, hakimiyyət orqanlarının rəhbərləri mömin insanlar və din alimləridir. Vəzifəli şəxsləri, hərbçiləri, ordusu, korpusu və deputatları hamılıqla mömin, dindar, bəziləri nafilə və gecə namazları qılan insanlardır. Bu

ölkə Amerika kimi bir gücün qarşısında duruş gətirir, ondan qorxmur və ölkənin mənafeyini əcnəbilərə satmır.

19 Dey (9 yanvar) qiyamının ildönümü münsibəti ilə müqəddəs Qum şəhərinin əhalisinin müxtəlif təbəqələri, din alimləri və hövzə tələbələri ilə görüşdəki çıxışdan: 1997.

İslam fədailərinin xatirəsi

Bu günlər həmçinin 1950-ci illərdəki acı hadisələrdən birini xatırladır. O zaman İslam fədailəri şəhid edilmişdi. Mən bu əzizlərin xatirəsinə hörmət əlaməti olaraq bir neçə kəlmə danışmaq istəyirəm. Mən bu ixlaslı, mömin və pak gənclərin şəhadət xəbərinin Məşhədə çatdığı zamanı unutmuram. Məşhəd hövzəsinin gənc tələbələri arasında, bizim təhsil aldığımız mədrəsədə böyük həcəyan yarandı. Səbəb bu idi ki, ondan bir, yaxud iki il öncə mömin və ruhani gənc olan mərhum Nəvvab Səfəvi həmin mədrəsədə - indi həmin mədrəsə təsadüfən Nəvvab mədrəsəsi adlanır - çıxış etmiş, camaat namazı qılmış və tələbələr arasında böyük coşqu və həyəcan yaratmışdı. Onun tələbələrin ruhiyyəsinə göstərdiyi təsir şəhadəti zamanı hiss olundu. Böyük ustadların biri də dərs zamanı buna işarə vurmuş və onları xatırlamışdı.

Ozamankı cəmiyyət bu qiyamın əhəmiyyətini dərk etmirdi, onları yalnız atəş açıb kimisə vuran bir neçə nəfər kimi təqdim edirdilər. Ozamankı zalım və mənfur rejimin böyükləri quldurluğun, oğurluğun timsalı idilər və xatırlamağa belə ləyaqəti olmayan şəxslərdən sayılırdılar. Lakin onlar tərbiyəli bir insan cildinə girib bu mömin, saleh, pak, ixlaslı, tamahsız, dünyaya və onun bərbəzəklərinə etinasız gənclərə quldur deyirdilər. Xalqın bəzisi də elə tanıyır və onlara inanır, bəzisi isə inanmırdılar.

İslam fədailəri məsələsi yaddan çıxdı. Bəlkə də o zaman istədiklərini - yəni İslam hakimiyyətini qurmaq üçün hazırlıq da yox idi. Bu iş üçün uzunmüddətli ümumi hərəkət lazım idi. Lakin bunların sözü düşmənlərinin məst nərələri və fəryadları arasında itdi. Bunlar "Rəbbinə iman gətirmiş bir neçə gənc idi"[1]. Həqiqətən Allaha iman gətirmiş və ixlasla İslamın nurlu təlim və hökmlərinin hakimiyyəti yolunda çalışan, zülm və fəsada qarşı mübarizə aparan gənclər idilər.

[1] Kəhf/13.

Pəhləvi sülaləsinin zülm və fəsadı, onların əcnəbilərdən asılılığı bu hərəkatı yaratdı. Bunlar ümumiyyətlə cəmiyyətin İslam cəmiyyəti olması üçün istibdad və şah əleyhinə mübarizəyə başladılar və təəssüf ki, hamısı yarıyolda məhv edildilər. Sözsüz ki, onların özləri üçün yaxşı oldu; çünki şəhid oldular və böyük məqama ucaldılar. Lakin cəmiyyət üçün ziyanlı oldu. Hər halda, o zamandan qırx il ötür. Bu hadisə qırx il öncə baş vermişdir, amma görürsünüz ki, bu əzizlərin adı ümumi yerlərdə və böyük kürsülərdə çəkilir. Çünki onların arzusu həyata keçdi, bu xalq bu yolla hərəkətə başlayıb fədakarlıq və müqavimət göstərdi, küfr və hegemonluğu məhv etdi.

Tehranın cümə namazı xütbələrindən: 1997.

Hegemonluğun düşmən olmasının səbəbi: maraqlarının təmin olunmaması

Amerikalıların bu inqilaba və bu xalqa düşmən olmalarının səbəbi bəllidir. Bir zaman bu ölkə başdan-ayağa Amerikanın ovcunda idi, o bu ölkədə öz maraqlarını təmin edirdi. Bu ölkədə özünü Amerika qarşısında öhdəçi bilən bir şah vardı. O, Amerikanın necə deyərlər, qulağısırğalı qulu, siyasi təbirlə desək, bu ölkədə Amerika maraqlarının müdafiəçisi və məsul şəxsi idi. Bu ölkənin başında elə adam dururdu ki, onun üçün Amerikanın maraqları İran xalqının və ölkəsinin maraqlarından daha böyük əhəmiyyət kəsb edirdi. O zaman dövlət aparatının məsul işçiləri - şahdan əlavə onun ətrafı, nazirlər və dövlət məmurları öz tamah və qazanclarına milli maraqlardan dəfələrlə çox əhəmiyyət göstərirdilər. Təbii ki, belə adamlar düşmənlə tez razılaşırlar. Maddi gəlirini və cibini düşünən adam düşmənlə razılaşa və asanlıqla xəyanət edə bilir. Hökumətin başında belə adamlar dururdu.

Amerikanın silahları bu ölkədə özlərinin istədiyi qiymətə satılırdı. Bu ölkədə görülən mühüm işlər ya amerikalı oliqarxların vasitəsi ilə, ya da hər halda həmin hegemon mərkəzin ətrafında olan kapitalistlər tərəfindən görülmüşdür. Onlar öz siyasi rəqiblərinin ağzını yummaq üçün bəzi sahələrdə hərdən rusların, sovetlərin və digərlərinin ayağını açır və onlara müəyyən imkanlar yaradırdılar. Lakin bu ölkə Amerika Birləşmiş Ştatları rejiminin əlində idi. Bu bir neçə ildə ölkədən nə qədər sərvət aparmaları, region xalqlarını məhv etmək üçün bu ölkənin pulundan nə qədər yararlanmaları, qonşu ölkələrin hakim komandalarını ələ almaq üçün bu ölkənin başçılarından necə istifadə etmələri başqa bir aləmdir. İran ikinci Pəhləvi dövründən - yəni 28 mordaddan (19 avqustdan) etibarən həqiqətən Amerika dövlətinin ixtiyarına keçmişdi.

Birdən-birə bir inqilab baş verib xalqı oyatdı. Xalq bu inqilabı qalib etdi, hökuməti bu xalqın özü yaratdı. Bu hökumətin birinci sözü budur ki, mən digər ölkə və dövlətlərin maraqlarını yox, bu xalqın maraqlarını

möhtərəm sayıram. Xarici siyasətdə və dünya ilə münasibətdə İslam Respublikası quruluşunun əsas devizi budur. Onlar buna görə qəzəblənirlər. Keçmişdə desəydilər ki, nefti filan qiymətə satın, deyirdilər baş üstə; filan ölkələrə satın, deyirdilər baş ustə; filan ölkələrə satmayın, deyirdilər baş üstə. Bu gün OPEK-də bunun nümunələrini görürük. Bu gün bəzi ölkələr Amerikaya, beynəlxalq biznesmenlərə və Qərb şirkətlərinə görə öz neftlərinin qiymətini sıfırdan da aşağı salırlar. Yəni bu gün neft üçün aldıqları pul həqiqətən sıfra yaxındır. Əgər bir qədər də dirənsələr, sıfırdan aşağı olar. Maraqlarını təmin etməyə çalışan xarici şirkətlərin və böyük kompaniyaların əmri budur ki, bu həyati sərvət ucuz qiymətə satılmalıdır. Bu gün bəşər sivilizasiyası bizim neftimizdən asılıdır. Əgər neft olmasa, dünyanın böyük sənaye maşınları dayanar, bütün şəhərlər işıqsız qalar. Bu neftin əsas hissəsi də Fars körfəzi regionunda və Orta Şərqdədir. OPEK-dəki bəzi cənablar onların istədiyini yerinə yetirir və özlərini nəzərə almırlar.

Tehranın cümə namazı xütbələrindən: 1997.

Sənət adamlarından inqilab tarixinin yazılmasını gözləmək

12 Bəhmən (1 fevral) İslam iqtidarının başlandığı gündür. 1979-cu ilin 12 bəhmənində hələ tağut rejimi iş başında olsa da, əslində bitmiş, devrilmişdi. Əslində Böyük İmamın İrana daxil olması ilə fəsad dolu çürük, mürtəce, yanlış, qeyri-insani və qeyri-məqbul rejim və şah üsul-idarəsi məhv edildi, tüstü olub havaya qalxdı. Onu xilas etmək və bir neçə gün daha yaşatmaq üçün əbəs səy göstərdilər, amma nəticəsi olmadı.

Böyük İmamın qüdrətlə İrana daxil olması hər şeyə məna verdi. İmam gələndə Tehran şəhəri və hətta bütün İran o həzrəti qarşıladı. Digər şəhərlərdə də əhali hadisələri izləyir və xəbərlərə qulaq asırdı. Bəziləri hərəkət edib Tehrana gəldilər, bəziləri də Tehranda görülən işi öz şəhərlərində gördülər. "Əgər oraya girsəniz, mütləq qələbə çalarsanız"[1]. İmam daxil olanda Allah-Taalanın Musa peyğəmbərin (ə) səhabələrinə verdiyi söz bizim böyük imamımızın səhabələri üçün də həyata keçdi. O daxil olanda Allah-Taala qələbəni yazdı və məsələ bitdi.

Bu gün əhəmiyyətli gündür. Bəlkə demək olar ki, düşmənin təxribatları elə 12 bəhməndən başlandı. Təbii ki, inqilabın tarixi başqa bir mövzudur və onu yazmaq lazımdır. İnqilab tarixi yalnız inqilabın qələbəsi tarixi deyil, bütün hərəkatın tarixidir. Həqiqətən bizim xalqımızın qələbəyə qədər 15-16 il davam edən bu hərəkatın çoxlu hadisələri haqda geniş məlumatı yoxdur. Qələbədən sonrakı hadisələr haqda bəzən müəyyən şəxslər tərəfindən qısa söhbətlər edilmişdir, amma tam, kompleks şəkildə, təfərrüatı ilə, xüsusən də təsirli incəsənət üslubları ilə yazılmamış, yaxud çox az yazılmışdır. Mən xüsusən bu işləri bacaran incəsənət xadimlərindən həqiqətən bunu gözləyirəm. Onlar inqilab tarixini yazmalıdırlar.

Tehranın cümə namazı xütbələrindən: 1997.

---

[1] Maidə/23.

İlahi hərəkatların davamlılığı

Əgər kimsə təhdidlə bu xalqı qorxutmağın mümkün olduğunu düşünürsə, böyük səhvdədir. Əgər kimsə təhdidlə bu ölkənin məmurlarının mövqeyini dəyişdirməyin mümkünlüyünü düşünürsə, səhvdədir. Kimin mövqeyi dəyişsə, deməli, bu xalqdan və bu inqilabdan deyil. Bu inqilaba məxsus olan, onun ortaya çıxardığı, istədiyi və bu xalqın sevdiyi şəxs bu xalqın maraqları, istəyi, bu xalqın pak qanlar verdiyi və çətin mübarizələr apardığı inqilabı uğrunda onun düşmənlərinin qarşısında möhkəm dayanar, onların təzyiqləri önündə zərrə qədər də əyilməz.

Bu gün bu ilahi quruluş və bu inqilab günbəgün qüdrətlənir, bu xalqın müqaviməti günbəgün artır, düşmənlərin uğursuluğu günbəgün çoxalır. Bizim və bu inqilabın yeni xəbəri budur və bu da olacaq. Peyğəmbərlərin ümumi və istisnasız olaraq düşmənlərinə qalib olduğu kimi, bu inqilab da heç şübhəsiz, düşmənlərinə qələbə çalacaq.

İmam bu xalqın arasında on il yaşadı və getdi. İndi imam yoxdur, amma bu xalqın qələbəsi imamın qələbəsidir. İmamın qalib olmasının mənası bu deyil ki, o sonsuza qədər xalqın arasında qalsın. Əslində bu xalq və bu inqilab qalib olduqda imam qalib olmuş, inqilabın düşməni məğlub olduqda imamın düşməni məğlub olmuşdur.

Peyğəmbərlər yarıyolda dünyadan köçdülər. Bəni-İsrailin sonradan hakimiyyətə çatdığı qırxillik zaman kəsiyində həzrət Musa (ə) dünyadan köçdü, cənab Harun (ə) dünyadan köçdü, amma Musanın (ə) hərəkatı qalib oldu. Şəxslər, bizlər, məmurlar, inqilabda üzərinə vəzifə götürənlər gedirlər. Şəxslər inqilab demək deyil və inqilabın meyarı sayılmırlar. Bizlər gedəcəyik, bu inqilab və bu xalq isə qalacaq. Qalib olan İran İslam ölkəsidir və qələbə sizi gözləyir.

Tehranın cümə namazı xütbələrindən: 1997.

İslam inqilabının möcüzəsi: siyasi quruluşun dəyişməsi

Böyük İmam İranda əzəmətli bir hərəkatı koordinasiya etdi. Onun əhatəsi İrandan geniş idi. Bu inqilabdan faydalananlar yalnız İran xalqı deyil, İslam dünyasını və müəyyən mənada İslam dünyasından da geniş bir spektri əhatə edir. İranda bu hərəkatın çox mühüm olan qısamüddətli təsiri və nəticəsi bu ölkədə siyasi quruluşun dəyişməsi idi. Böyük İmam bu böyük xalqın köməyi ilə İranda fəsadlı, asılı və sapqın bir siyasi quruluşu devirib onun yerinə sağlam, müstəqil və bacarıqlı bir quruluş yaratdı. Bu iki quruluşun fərq və ziddiyyətlərinə diqqət yetirmək mühüm məsələdir. Bu qısa söhbətdə ikinci mövzuya giriş olaraq buna toxunacağam.

Bizim böyük imamımızın öz hərəkatı və bu xalqın köməyi ilə devirdiyi siyasi quruluş, yəni azğın və asılı şah rejimi, başçılarının və məsul şəxslərinin İran xalqının və bu ölkənin gənclərinin taleyinə əhəmiyyət göstərmədiyi bir rejim idi. Onlar ölkəni və xalqı daha artıq asılılığa sövq edirdilər. Xalqın səadəti onlar üçün əsla məqsəd deyildi. Ölkə yanlış və qeyri-münasib modellərlə idarə olunurdu. Bu modellər yarımçıq formada əcnəbi ölkələrdən alınmışdı, lakin o da icra olunmurdu. Yəni müxtəlif adlar altında və müxtəlif üsullarla mütləq diktatura və totalitar rejim hakim idi. O üsulların heç biri xalqın iradə və istəyindən irəli gəlməmişdi, onların maraqlarına yönəlməmişdi.

İnqilabdan öncəki asılı rejimdə xalq fəsada və cinsi özbaşınalığa düçar olmuşdu; daha doğru desək, fəsada, cinsi özbaşınalığa, özünə inamsızlığa və imansızlığa sövq edilirdi. Yəni xalqın hərəkətini elə tənzim etmişdilər ki, ölkədə imansızlıq günbəgün daha da genişlənsin, xalq düzgün mənəvi imandan məhrum olsun, fəsada çəkilsin, insanlarda əcnəbilər qarşısında özünə inamsızlıq halәti güclənsin, ölkədə iqtisadi və mədəni müstəqilik mənasını itirsin. Həmin devrilmiş və fəsadlı quruluşda əsas istiqamətlər bunlar idi.

Bu mərhələdə Böyük İmamın böyük hünəri bu idi: həmin fəsadlı quruluşun yerinə bu ölkədə elə bir siyasi quruluş yaratdı ki, onda xalqa

etinasızlıq əvəzinə xalqa eşq hakimdir, xalqın, xüsusən də gənclərin taleyinə diqqətsizliyin yerinə xalqın və gənclərin taleyinə eşq, onlara qeyri-adi diqqət əhəmiyyət kəsb edir, əcnəbilər qarşısında özünə inamsızlığın yerinə xalqın özünəinamı günbəgün inkişaf edir, əcnəbilərdən siyasi, iqtisadi və mədəni asılılığın əvəzinə siyasi, iqtisadi və mədəni müstəqillik məqsəd seçilir.

İran xalqının Böyük İmamın bu ölkədə bərqərar etdiyi siyasi baxışında öz həyat tərzində digərlərini yamsılamağa və onlardan öyrənməyə ehtiyacı yoxdur. Çünki özü zəngin və güclü mədəniyyətə malikdir; İslamı var, Quran təlimləri var, ilahi hökmləri var, özünün milli və yerli prinsipial ənənələri var və özü üçün şirin, gözəl, möhtəşəm, təminatlı və başıuca bir həyat qura bilər. Böyük İmamın bu ölkədə yaratdığı İslam quruluşunun onun hərəkatından və bizim dövrümüzdə bu ölkədə baş verən əzəmətli möcüzədən qabaqkı azğın rejimlə fərqi bu qədər böyük və barizdir. Diqqətlə baxdıqda görürsünüz ki, tənəzzülə uğramış Pəhləvi rejimində İran xalqına məcburən verilən və həmin siyasi sistemin ayrılmaz xislətlərindən olan bütün mənfi cəhətlər Böyük İmamın bu ölkədə yaratdığı siyasi quruluşda 180 dərəcə fərqli məsələlərə çevrilmişdir.

İslam quruluşunda xalqın özünəinamı var. Siyasi quruluş özünə hörmət tanıyır, qlobal güclərin və hegemonluğun istismarı altına düşmür. Ölkənin müstəqilliyi əcnəbilərin istək və maraqlarına yox, bu xalqın özünün maraq və mənafeyinə dayanır. Ölkənin məmurlarını xalqın özü seçir, əcnəbilər xalqı məcbur etmir, yaxud hərbi çevrilişlərlə və düşmənlərin pulu ilə iş başına gəlmirlər. Keçmiş rejimdə xalqın öz siyasi taleyində heç bir rolu yox idi, amma İslam quruluşunda bütün rol və təsir xalqa məxsusdur.

Böyük İmamın imanından, Allaha təvəkkülündən və güclü şəxsiyyətindən irəli gələn, qüdrətli və möcüzəli əli ilə yaratdığı quruluş İslama əsaslanır. Yəni İslam quruluşunun məqsədləri İslam məqsədləri, Quranda və İslamda tərif olunan məqsədlərdir. İslam quruluşunun üsul və proqramları da İslam qaynaqlarında təyin olunan qayda-qanun,

proqram və hökmlərdən ibarətdir. Yəni İslam quruluşu tam şəkildə İslamdan götürülmüş bir quruluşdur.

Gördünüz ki, Böyük İmam Allahın lütfü və hidayəti ilə bu inqilabda və onun əsasında yaratdığı siyasi quruluşu tənzim etməkdə peyğəmbərlərin və qeyb mənbəyinə birləşən bəndələrin üsulunu rəhbər tutdu. Çünki imam Quranı sevirdi, Quran məktəbinin şagirdi idi, Quranla ünsiyyətdə idi, Qurandan yardım istəyirdi və Quran onun həyat proqramını təşkil edirdi. Bu həmin həqiqətin böyük və möhtəşəm nəticələrindən və təsirlərindən biridir.

Həzrət İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin izdihamlı toplantısında çıxışdan: 1997.

İnqilabı gözləyən təhlükələr

Belə möhtəşəm hərəkət adətən qapalılıq və yaxud kənar təsirlənmədən ibarət olan iki təhlükə ilə üzləşir. Belə böyük hərəkət qarşısında təhlükə və təhdidlər vardır. Qeyd etdiyim kimi, geniş cəhətlərə malik olan belə bir əzəmətli hərəkət üçün böyük təhlükə qapalılıq, yaxud kənar təsirlənmədən ibarətdir.

1. Qapalılıq

Qapalılıq odur ki, belə əzəmətli və böyük bir işi görmək istəyən şəxs dövrün ehtiyaclarını və bir xalqın həyatının hər anının zəruri şərtlərini Qurandan öyrənə bilməyib durğun bir vəziyyətdə hökm etsin, işləsin və çalışsın. Bu mümkün deyil. Qapalılığın mənası budur ki, cəmiyyəti qurmaq üçün İslamın əsaslarından və fiqhdən istifadə etmək istəyən şəxs hökmlərin zahiri ilə kifayətlənib lazım olan yerdə onların və İslam təlimlərinin təbii elastikliyini dərk edə bilməsin, bir xalq, bir quruluş və bir ölkə üçün hər an qarşıya çıxan ehtiyacları nəzərə alıb zamana uyğun proqram təklif edə bilməsin. Bu böyük problemdir.

Əgər İslam əsasında yaranmış, yaxud gələcəkdə yaranacaq siyasi quruluşların başında belə bir düşüncə dursa, şübhəsiz, İslam bədnam olacaq, İslam təlimlərinin və İslam hökmlərinin tükənməz mənbəyi cəmiyyəti inkişaf etdirə bilməyəcək. İmam özünü bu təhlükədən uzaqlaşdırdı. Şiə fəqihləri və Şiə qrupunun özü uzun illər İslam dünyasında hakimiyyətdən uzaq olmuş, Şiə fiqhi qeyri-siyasi və fərdi bir fiqhə çevrilmişdi. Böyük İmam isə şiə fiqhini hökumət fiqhinə doğru apardı.

İmamın inqilabda şiə fiqhindən istifadə etməsi

Elm adamlarının bildiyi kimi, şiənin fiqh kitablarında ölkə idarəsinə aid olan bir çox mövzuların, məsələn hökumət məsələsinin, hisbə məsələsinin, ictimai işlərlə və siyasi hakimiyyətlə əlaqədar mövzuların yeri bir neçə əsrdir ki, boşdur. Onların bəzisi əvvəldən Şiə

fiqh kitablarında qeyd olunmamışdır. Hökumət məsələsi belədir. İslam fiqhində əsaslı bir məsələ olan cihad məsələsi və digər bəzi məsələlər bir neçə əsrdir Şiə məzhəbinin əsaslandırılmış fiqh kitablarında tədricən tərk olunmuş və onların əksərində bu mövzulara toxunulmamışdır. Səbəb də bəllidir, bu işdə Şiə fəqihlərinin təqsiri yoxdur. Əslində bu məsələlər onlar üçün aktual olmamışdır. Şiənin hökuməti olmamış, Şiə fiqhi cəmiyyəti idarə etmək istəməmişdir. Onun ixtiyarında hökumət olmamışdır ki, cihad, yaxud hökuməti idarə etmək, kitab və sünnədən bunların hökmlərini öyrənmək istəsinlər. Buna görə Şiə məzhəbinin fiqh kitabları daha çox fərdi fiqhə həsr olunmuşdu. Bu fiqhdə bir fərdin dini işlərindən, yaxud maksimum ictimai həyatın məhdud dairələrindən, misal üçün, ailəyə və bu kimi məsələlərə aid mövzulardan bəhs olunurdu.

Bəlkə cürətlə demək olar ki, Şiə fiqhi ən güclü İslam fiqhidir. Yəni İmamiyyə fəqihlərinin fiqh kitabları dərinlik baxımından bizim gördüyümüz bütn fiqh kitablarından güclü və dəqiqdir. Amma onlarda bu mövzu müxtəlifliyi mövcud olmamışdır.

Böyük İmam özü sürgündə olduğu dövrdən Şiə fiqhini ictimai fiqhə, hökumət fiqhinə, xalqları idarə etmək, onların kiçik və böyük məsələlərinə cavab vermək istəyən fiqhə yönəltdi. Bu, qeyd etdyimiz qapalılıq təhlükəsinin qarşı tərəfidir. Hətta Böyük İmamın səmərəli ömrünün sonlarında zahirən xırda görünən, lakin Şiə fəqihlərinə bir xətt və istiqamət göstərməsi baxımından böyük əhəmiyyət kəsb edən məsələlər qarşıya çıxdı və o yenə də göstərdi ki, cəmiyyəti idarə etmək, bir xalqı, yaxud insanların və xalqların böyük bir qismini idarə etmək istəyən fiqh dövrün şərtlərini bilməli, qarşıya çıxan hər bir ehtiyaca cavab verməli, siyasi, iqtisadi, mədəni və digər sahələrdə cavabsız məsələ qoymamalıdır.

2. Kənar təsirlənmə

Belə yerlərdə məmurları, məsul şəxsləri, rəhbərləri və cəmiyyətin başçılarını təhdid edən ikinci təhlükə onların təsirlənməyə və özlərinə

inamsızlığa düçar olmaları, bilmədən digərlərinin iradəsindən təsirlənmələridir. Böyük İmam bu ikinci təhlükənin qarşısında da dağ kimi dayandı. Bu çox mühüm məsələdir və mən təkidlə bizim əziz xalqımızın, xüsusən gənclərin və həmçinin müqəddəs İslam Respublikası quruluşunun müxtəlif sahələrinin məsul işçilərinin buna diqqət yetirməsini istəyirəm. İslam Respublikası quruluşunun düşmənləri mübarizə və qarşıdurmada bu quruluşa qarşı təsirli bir addım ata, yəni ona hərbi zərbə endirə bilməyəndə, daxili partlayış yarada bilməyəndə, təhlükəsizlik zərbələri vura bilməyəndə, iqtisadi blokada ilə diz çökürə bilməyəndə - bunların hamısından məyus olanda onlar üçün yalnız bir yol qalır. O da budur ki, İslam və inqilab quruluşunu öz prinsiplərinin əksinə sövq etsinlər, daha sadə və aydın desək, onu inqilab məsələləri haqda dediklərindən dönməyə vadar etsinlər. Yəni özünün söz və mövqelərini pisləsin, özünü paradoksal duruma salsın. Bunu hansı yolla görürlər? Təbliğat kampaniyaları ilə, siyasi və mədəni yollarla o qədər təzyiq göstərirlər ki, zəif insanlar bu təzyiqin qarşısında müqavimət göstərə bilmirlər.

Əgər siyasi məsələlərə bir-iki misal vurmaq istəsək, deməliyik ki, 10-15 il öncəyə qədər İslam dünyasında hamı Fələstin naminə şüar verirdi; bəziləri səmimi idilər, bəziləri isə yox. Amma hər halda bütün İslam hökumətləri ən azı Fələstin şüarını dildə söyləyir və təkrarlayırdılar. Bu zaman hegemonluğun və düşmənlərin təzyiqi başlandı, Fələstinin bir xalqdan - Fələstin xalqından zorla alınıb yalançı miqrantlara və qondarma bir xalqa verilməsinin əsasını qoyanlar hökumət və şəxsiyyətlərə təzyir göstərməyə başladılar.

İşğalçı sionizm rejiminin indiki xalqı qondarma xalqdır, bu işğalçılarda bir xalqın əsas elementlərindən heç biri yoxdur. Dünyanın müxtəlif yerlərindən müxtəlif görüşlərə, müxtəlif ictimai rəftarlara və müxtəlif etiqadlara malik olan insanlar oraya gəlmişlər. Onları yalnız Bəni-İsrail irqinə mənsub olmaları birləşdirir. Onlar əsrlərlə bir-birindən ayrı düşmüşlər, amma onları bir xalq kimi təqdim etmiş, qondarma və yalançı bir xalq kimi göstərmişlər ki, dünyanın bu həssas nöqtəsində,

yəni Orta Şərqin və İslam dünyasının qəlbində hegemonluq üçün bir baza yaratsınlar. Onu əvvəlcə ingilislər yaratdılar, bu gün də Amerika rejimi ondan maksimum istifadə edib öz hegemon məqsədlərini həyata keçirir.

Bu şəraiti yaradanlar hökumətlərə, mühüm şəxsiyyətlərə və siyasi quruluşlara siyasi və informasiya cəhətdən təzyiqlər etməyə başlamış, pərdə arxasında söhbətlər aparmış, rüşvət vermiş və müsəlmanların bu ümumi şüarını tədricən hökumətlərin dilindən almağa çalışmışlar. Çünki onu xalqlardan ala bilməzlər. 15-20 il öncə işğalçı dövlət olduğuna görə sionizm dövləti ilə rabitələri kəsib, onu iqtisadi blokadaya salanlar bu gün onunla iqtisadi əlaqələrdən ötrü yarışa girirlər. Bu sözügedən təsirlənmədir. Hegemonluğun mütəşəkkil qurumlarının istər informasiya, istər iqtisadi və digər məsələlər baxımından müxtəlif təzyiqləri bunları ardıcıl olaraq o qədər sıxır ki, geri çəkilməyə məcbur olduqlarını düşünürlər. Bu, siyasi məsələlərdə özünə inamsızlıq və təsirlənmədir.

Bu məsələ etiqadi məsələlərdə və ideoloji mövqelərdə olduqca təhlükəli formada təzahür edir. Bu əsrin ortalarında solçuluğa əsaslanıb Afrika və Asiyada inqilablar edən və quruluşlar yaradan bir çox şəxslər beş il, on il, on beş il ötəndən sonra güclü düşmənlərin, pul, güc və informasiya resurslarına sahib olanların təzyiqi altında özlərinin bütün ideoloji prinsiplərini əldən verib tədricən onlara yaxınlaşdılar. Yalnız adları bir-biri ilə fərqlənirdi, əslində isə eyni idilər.

Həzrət İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin izdihamlı toplantısında çıxışdan: 1997.

İmamın düşmən təzyiqi qarşısında duruş gətirməsi

İnqilabları və xalqların prinsipiallığını təhdid edən böyük təhlükə budur. Müxtəlif ölkələrdə fikir və düşüncə sahiblərini təhdid edən böyük təhlükə budur. İmam birinci saatdan, İslam Respublikası quruluşunun adından tutmuş digər məsələlərə qədər daim bu təhlükənin qarşısında dağ kimi möhkəm qayandı. O zaman "respublika" sözünün yanında "demokratik" sözünü işlətmək geniş yayılmışdı. Bu isə iki mənaya malik bir Qərb sözüdür. Həm qərblilər iddia edirdilər ki, biz demokratıq, həm də ozamankı sosialist və Şərq ölkələri. Ölkələrin və siyasi quruluşların adında "demokratik" sözünü işlətmək dəb olmuşdu. "İslam Respublikası" sözünə də bunu artırmağa israr edirdilər. Təbii ki, yalnız bir sözü əlavə etmək məsələsi deyildi, bunun ardınca çoxlu məsələlər gələcəkdi. İmam öz uzaqgörənliyi ilə onları görürdü.

İmam əvvəldən belə elan etdi: "İslam Respublikası; nə bir kəlmə az, nə bir kəlmə çox". İslam Respublikası Qurandan alınan quruluşdur. Hər bir mərhələdə, xüsusən də Böyük İmamın qətiyyətinin hegemon dövlətlərin qlobal liderlərinə hələ tam bəlli olmadığı ilk illərdə bu təzyiqlərdən çox istifadə edirdilər. Təbii ki, sonralar məyus oldular. Hamı bu məsələyə diqqət yetirməlidir.

Həzrət İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin izdihamlı toplantısında çıxışdan: 1997.

Pəhləvi rejiminin əcnəbilərin maraqlarından çıxış etməsi

Keçmiş rejimin bütün dövründə bəlkə də bu bir neçə ildə ölkənin quruculuğuna dair görülən işlərin bir hissəsi də görülməmişdi. Çünki işə həm kəmiyyət və həm keyfiyyətə görə qiymət vermək lazımdır. Onlar əgər ölkə üçün bir iş görürdülərsə - bu işlər bu qısa dövrdə görülən işlərə nisbətən kəmiyyət baxımından da həqiqətən azdır - keyfiyyət baxımından qüsurlu olurdu. Çünki onda bu xalqın müstəqilliyi nəzərə alınmırdı. O rejimin siyasəti asılılıq üzərində qurulmuşdu. Rza xanın dövründə nisbətən şücaətli olan bir neçə dövlət rəsmisi peyda olub, İran xalqının maraqlarının müəyyən həddə nəzərə alındığı bir neft müqaviləsi yazdılar. Rza xan ingilislərdən ötrü çəkmələri ilə Dövlət Şurasının otağına daxil oldu, onların yazılarını – neft qovluğunu alıb sobaya atdı və onların gözü qarşısında yandırdı. Bu onların özlərinin yazdığıdır; Tağızadə və digərləri bu hadisəni yazmışlar.

Siyasət asılı siyasət idi. Çəkdikləri dəmir yolu da İran və İranın ticarətindən daha çox o zaman Almaniya əleyhinə vuruşan müttəfiqlərin iki cəbhəsini birləşdirməkdən ötrü idi. Ölkə boyu çəkilən dəmir yolu budur. Şimalla cənubu birləşdirən dəmir yolu ondan ötrü idi ki, o zamanın sovetlərini cənuba – ingiltərəlilərin iqamətgahı olan Fars körfəzinə birləşdirsinlər və bu yolla silah ötürüb, Almaniya və onun həmkarlarının əleyhinə yaranmış müttəfiqlərin döyüş cəbhələrini həmişə müdafiəyə qadir saxlasınlar. Dəmir yolu da bunun üçün çəkilirdi. Mənfur rejimin tərəfdarları və keçmiş rejimin tör-töküntüləri 50 il ötdükdən sonra hələ də şimal və cənubun dəmir yolundan söhbət edirlər; elə bir dəmir yolu ki, bu xalqın müstəqilliyinə diqqət yetirmədən və xəyanətkar layihə əsasında çəkilmişdi, onda bu xalqın heysiyyəti və hörməti nəzərə alınmamışdı.

Tənfiz (prezidentin hökmünü təsdiqetmə) mərasimində çıxışdan: 1997.

1357-ci ilin 17 şəhrivərindən (1978-ci ilin 8 sentyabrından) bir xatirə

17 Şəhrivər münasibəti ilə mühüm bir məqama toxunmaq istəyirəm. Bu günlər bizim tariximizdə önəmli günlərdir. Tehranda bu qanlı hadisə baş verməzdən öncə zalım şah rejiminin siyasəti bu idi ki, mübarizləri və onun ardınca İran xalqını radikal və liberal, ifratçı və mötədil qruplara bölsün. Çox mühüm olan bu məqam bu gün bir güzgü kimi bütün təcrübələri özündə əks etdirir. Ozamankı qəzetləri və zalım şah rejiminin məmurlarının sözlərini oxuyan anlayırdı ki, bunlar mübarizə aparanları bir-birindən ayırmaq istəyirlər. İmamın tərəfdarlarını, həqiqi sevənlərini və onu açıq şəkildə rəhbər qəbul edənləri ifratçı, radikal və təəssübkeş kimi təqdim edirdilər. Digər tərəfdən, mübarizəni istəyən, lakin onda çox ciddi olmayan, yaxud ciddi olan, amma rejimin onların ciddi olmadığını düşündüyü şəxsləri mötədil, müzakirəyə və söhbətə uyğun şəxslər kimi təqdim edirdilər. Mən o zaman bu təhlükəni hiss etdim. Mən onda Ciroftda sürgündə idim. Bəlkə də şəhrivətin 14, yaxud 15-i idi. Qumda olan məşhur yoldaşlardan birinə bir məktub yazıb rejimin bu siyasətini izah etdim və dedim ki, bu çirkin niyyətlə imamın dostlarına və onu sevənlərə təzyiq göstərmək üçün bəhanə tapmaq istəyirlər, özünüz istəmədən sizdən onlara qarşı istifadə edəcəklər. Bu məktubu yazmış, amma hələ göndərməmişdim. Şəhrivərin 17-də şənbə günü isə radio və qəzetlər 17 şəhrivər qırğını haqda xəbər yaydılar. Ertəsi gün biz Ciroftda bundan xəbərdar olduq. Sonra o məktubu həmin möhtərəm şəxsə göndərdim. Onlar həqiqi mübariz və inqilabçılar əleyhinə repressiyalara başladılar. Onun bir nümunəsi 17 şəhrivər qırğını idi.

Feldşer günü münasibəti ilə feldşerlərlə və müharibə əlilləri ilə görüşdəki çıxışdan: 1997.

Kapitulyasiyanın ifşasında imamın rolu

Bizim böyük imamımız Amerikanın İrandakı müstəşarlarının və hərbçilərinin hüquqi toxunulmazlığı barədə tarixi və həlledici çıxışını əvvəlcə gənclər qarşısında etdi. Bu mesajı ilk dəfə gənclər Qum Elm Hövzəsinə və sonra bütün ölkəyə yayıb hamıya çatdırdılar və uzun illər boyu tədricən İran xalqının böyük mübarizəsində həssas məsələ formasına saldılar. Çünki xalq İrandakı Amerika müstəşarlarının hüquqi toxunulmazlığından xəbərsiz idi. Onlar kapitulyasiya adlanan bu məsələdən xəbərdar deyildilər və onun milli heysiyyətə nə qədər ağır və ziyanlı olduğunu bilmirdilər. İmam bu sözü dedi və elmi hövzənin gəncləri onu yaydılar. Sonra bütün ölkədə, mömin və mübariz çevrələrdə ciddi məsələ və bir ənənə formasına düşdü.

Bunun üstündə imamı sürgün etsələr də, bu düşüncə xalqın arasında qaldı, inkişaf etdi və kök saldı. Nəhayət 1978-ci ilin 13 abanında (4 noyabrda) bir qrup gənc şagird imamın həbs olunması və sürgün edilməsinin ildönümü münasibəti ilə izdihamlı mitinq keçirdi və onlarla gənc şəhadətə qovuşdu. Məsələ yenə gənclərin çiyni üzərində irəlilədi, şiddətləndi və keyfiyyəti artdı. Yenə növbəti ildə, yəni 1979-cu ilin 13 abanında - inqilabın qələbəsindən sonrakı ilk abanda (noyabrda) səfirlik adlanan və amerikalıların fəaliyyət göstərdiyi əsas mərkəzi düzgün tanıyan, hücum edib onu ələ keçirənlər gənclər idilər. Bura əslində Tehranda inqilab əleyhinə təxtibat planlarının mərkəzi hesab olunurdu.

13 Aban (4 noyabr) günü münasibəti ilə şagird və tələbələrlə görüşdəki çıxışdan: 1997.

Pəhləvi rejiminin ziyalı və ruhanilərə baxış fərqi

İnqilabda öncə mənim ölkənin ziyalı çevrəsi ilə yaxın əlaqəm olub. Onlar çox sözlər danışırdılar, amma beşnəfərlik, onnəfərlik və bəzən əllinəfərlik bir məclisdə danışılanlar elə oradaca qalırdı. İmam və nüfuzlu bir ruhani danışanda isə onun başına böyük bəla açmaları gözlənilirdi, həm də xalqla danışdığından güclü təsir buraxırdı. Buna görə Pəhləvi rejimi ozamankı ziyalıların çoxundan əsla qorxmur, onlara heç bir əhəmiyyət vermir və deyirdi nə istəyirlər danışsınlar; çünki heç bir təsiri yox idi. Amma bir ruhani bir məclisdə minbərə çıxıb danışsaydı, mövzusu rejimin siyasətləri ilə bir neçə vasitə ilə əlaqədar olsaydı da, tez həbs edir, incidir, türməyə salır və çıxışını qadağan edirdilər. O, xalqın içində olduğundan güclü təsir buraxırdı. Dünyada belədir: Nəsə demək istəyən və deyən ziyalılar təhdid olunmadıqda və yaxud tamahlandırılmadıqda belə, sözləri güclü sosial dalğa yaratmır.

13 Aban (4 noyabr) günü münasibəti ilə şagird və tələbələrlə görüşdəki çıxışdan: 1997.

İnqilabda İslamın faydaları

Biz İslam yolu ilə hərəkət edib cəmiyyətdə İslam qanunları yarada və onları öz imkanımız həddində həyatımızda tətbiq edə bilmişik. Biz İslam cəmiyyətində İslam dəyərlərini üstün dəyərlər kimi təqdim etməyi bacarmışıq. Biz Allahın sözünü xalqa təbliğ edib qəlbləri Allaha sarı yönəldə bilmişik. Yəni inqilab bu işi görmüşdür. Şəxslər belə işləri özlərinə aid edə bilməzlər. Allahın lütfü ilə bizim inqilabımız belə böyük işləri görmüşdür. Biz bu səadətə nail olmuşuq və bu yolu ciddi şəkildə davam etdirməliyik. Çünki eyni nisbətlə onun təsirlərini müşahidə etmişik və Allah-Taala bizi ucaltmışdır.

Bizim ölkəmiz və xalqımız tağut rejiminin hakim olduğu uzun illər boyu təhqir olunurdu və geridə qalmışdı. Xalq öz hüquqlarına vaqif deyildi. Dövlət məmurlarının xalqla rabitəsi yox idi və ölkəyə hakim quruluş dünya gücləri qarşısında heç bir etibara malik deyildi, sırf tabe və təqlidçi idilər. Onlara görə xalqa ilahi təlimlər lazım deyildi, təhsil sistemi İslama uyğun hazırlanmamışdı. Tağut hökuməti dövründə bizim ölkəmizə hər tərəfdən zəiflik, xarlıq, yoxsulluq, gücsüzlük sırınmışdı və bu, xalqımızı incidirdi.

Allah-Taala İslamın, İslam mənəviyyatına və onun siyasi sözünə diqqətin sayəsində bizi o əzablardan xilas etdi. Yəni peyğəmbərlik bunun üçün deyildi ki, bir qrup adam öz beynində bir etiqad yaratsın və fərdi əməllər yerinə yetirsin, ictimai quruluş isə Allahın düşmənlərinin əlində olsun. Peyğəmbərlik xalqın həyatını tənzim etməkdən ötrü həyata keçdi. Allaha şükür olsun ki, İslamın ictimai quruluşunda bu iş görüldü. Bizim xalqımız da təsirlərini müşahidə etdi və şirin meyvələrini daddı.

Əziz İslam peyğəmbərinin (s) məbəs bayramı münasibəti ilə ölkə məmurları ilə görüşdəki çıxışdan: 1997.

Amerikanın İranda törətdiyi cinayətlər

Mənim əzizlərim! Amerika dövləti təxminən 1942-1943-cü illərdə bizim ölkəmizə daxil oldu. Onlar tədricən ingilislərin yerini tutdular. Amerikalılar bu ölkəyə hakim olduqları təxminən 27-28 il ərzində bir hegemon dövlətin məzlum bir xalqa edə biləcəyi bütün təhqir, pislik və zülmləri etdilər; sərvətləri talan etdilər, avtoritar Pəhləvi rejimini gücləndirdilər, məmurlarımızı təhqir etdilər, xalqımızı aşağıladılar, kapitulyasiya tətbiq etdilər, milli hökumətləri devirdilər və çoxlu cinayətlər törətdilər. Amerikanın inqilabdan öncəki təxminən 27-28 illik cinayətlərini yazmaq istəsək, qalın bir kitab olar.

Tehranın cümə namazı xütbələrindən: 1998.

Repressiya illərindən xatirələr

Bu gün siz yeniyetmə və gənclər bəlkə də tam təsəvvür edə bilməzsiniz ki, o dövrdə ölkənin müxtəlif məsələləri, siyasət və dövlət işləri xalq üçün əsla önəmli deyildi. Bu gün bizim xalqımız nazirləri tanıyır, prezidenti tanıyır, Baş nazir olanda onu tanıyırdı. Xalq əsas işlərdən və siyasi proseslərdən xəbərdardır, bilir ki, hökumət bu gün hansı işi görüb və hansı qərarı qəbul edib. O zaman isə hökumətlər gəlib-gedirdilər, amma xalq əsla xəbər tutmurdu. Bir Baş nazir gedir, o birisi gəlir, kabinet dəyişir, seçkilər keçirilirdi və xalqın ümumiyyətlə xəbəri olmurdu. Ümumi şəkildə dövlət məsələlərinə qarşı laqeyd idilər. Xalq öz yolu ilə gedirdi, hökumət öz yolu ilə. Xalqın üzərində təzyiq də olduqca çox idi, azadlıq əsla mövcud deyildi.

Mənim yadımdadır, bizim dostlarımızdan biri Pakistandan gəlmişdi. O söhbət əsnasında bizə dedi ki, mən parkda bir nəfərin elanı başqa birinə verdiyini gördüm. Bu zaman mən təəccübləndim ki, məgər kimsə parkda birinə elan verə bilər? O cavab verdi ki, nə üçün olmaz, parkdır, insan elanı çıxarır və bir nəfərə verir. Mən dedim ki, məgər belə bir şey mümkündür?! Bu bizim mübarizə dövrümüzə aid idi. Mən o zaman yeniyetməlik dövrünü də keçirmişdim. Yəni İranda repressiya o qədər güclü idi ki, əsla təvəssür etmirdik ki, kimsə açıq-aydın şəkildə, xalqın gözü önündə kiməsə, yaxud bir dostuna siyasi bir söz deyə və yaxud bir kağız verə bilər. Təzyiq və repressiya o qədər şiddətli idi ki, ən kiçik ehtimalla insanları tutur və evlərinə tökülürdülər.

Dəfələrlə bizim evimizə girdilər, atamın evini, öz evimi axtardılar, kağızlarımı və yazılarımı götürüb apardılar. Mənim elmi və qeyri-elmi qeydlərimin çoxu məhv oldu; yığıb-apardılar, sonra da vermədilər, ya da verəndə hamısını qaytarmadılar.

Siyasi həyat olduqca ağır idi; azadlıq yox idi, repressiya vardı. Mən mübarizə dövründə bir müddət gənclərə və tələbələrə təfsir dərsi deyirdim. Bir dəfə Quranın Bəni-İsraildən söz açan ayələrinə çatdım və təbii ki, bu haqda da danışdıq. Mən Bəni-İsrail və yəhudilər haqda bir

qədər söhbət etməli oldum. Bir az sonra məni saxladılar. Təbii ki, o bəhanə ilə yox, başqa bir adla saxlayıb həbs etdilər. İstintaq zamanı mənə deyirdilər ki, siz İsrailin və yəhudilərin əleyhinə danışmısınız. Diqqət yetirirsiniz?! Yəni kimsə Bəni-İsrailə aid Quran ayəsini təfsir etsəydi, bu barədə danışsaydı, sonra cavab verməli idi ki, nə üçün bu sözləri danışıb və Bəni-İsrail haqda pis sözlər deyib. Yəni siyasi vəziyyət belə çətin və ağır idi, məmurlar bu qədər xalqazidd və ərbablarının istəyinə tabe idilər.

Təbii ki, bu bir-iki kəlmə sözlə repressiya dövrünün vəziyyətini çatdırmaq olmaz. Mən sizə deyirəm ki, əgər o dövr barədə həqiqətən on cild kitab yazılsa da, yenə azdır. Bəzi sözləri ümumiyyətlə adi dillə demək mümkün deyil. Bəzi təsəvvürlər ədəbiyyat və incəsənət olmadan bəyan olunmur. Onları şeirlə, ədəbiyyat və incəsənət növləri ilə təsvir etmək olar.

Gənc və yeniyetmələrlə səmimi söhbətlərdən: 1998.

Bəndər-Abbasın əhəmiyyəti və tağut rejiminin ona qarşı zülmü

Bəlkə də ölkəmizin şəhərləri arasında Bəndər-Abbasdan başqa elə bir şəhər yoxdur ki, tarixi xalqın xaricilərə qarşı qəhrəman mübarizəsi ilə eyni zamanda başlanmış olsun. Bu şəhər bünövrədən bununla əlaqədar salındı. Əgər belə bir şəhər olsa da, çox azdır. Bəndər-Abbas şəhəri əvvəldən portuqaliyalı işğalçılarla mübarizə zamanı yarandı. Bütün müstəmləkəçilərin adətinə uyğun olaraq bu əcnəbilər də yeri, torpağı, dənizi, bütün imkanları və hətta xalqları da özlərinə məxsus və öz qulları hesab edirdilər. Dünyanın o başından bir qrup avropalı gəlib həssas Hürmüz boğazını, bu möhtəşəm tarixi və beynəlxalq ticarət keçidini işğal etmişdilər. Təxminən 400 il öncə İran xalqı qeyrətli və vətənpərvər sərkərdələrinin rəhbərliyi ilə özlərinə məxsus olan bu mühüm mərkəzi əcnəbilərdən ala bildi. O zamandan bura Bəndər-Abbas oldu, bir şəhər kimi həm ticari, həm də bu möhtəşəm və mühüm beynəlxalq keçidə nəzarət edən əsas bazaya çevrildi. Ondan sonra ingiltərəlilər, hollandiyalılar və digər əcnəbilər bu regionda öz müstəmləkə süfrələrini açdılar. Nəhayət İran xalqı onların hamısına zəfər çaldı, bu region və bu strateji sahil öz həqiqi sahiblərinə qaytarıldı. Bəndər-Abbas şəhərinin, bu böyük və uzun vilayətin min kilometr sahili, çoxlu imkanları, təbii potensialları, zəhmətkeş, istiqanlı və mehriban xalqı var. Bura Fars körfəzinin kənarında yerləşir. Mənim əzizlərim! İnqilaba qədər bu xalq öz istedadından, istər yeraltı, istər yerüstü təbii və coğrafi imkanlarından nəinki layiqincə, heç layiqindən də az istifadə edə bilmirdi. Bu həssas şəhər və bu mühüm mərkəz keçmiş rejim üçün sürgün zonasına çevrilmişdi. Dünyanın və ölkənin müxtəlif yerlərindən quldur və cinayətkar insanları buraya sürgün edirdilər, bu şəhərin və bu regionun geniş imkanlarını dirçəltmək barədə isə düşünmürdülər. Möhtəşəm İslam inqilabı ilə başlayan bütün fəaliyyətlərdən, investisiya qoyuluşundan və quruculuq işlərindən sonra bu gördükləriniz hələ vilayəti məhrum durumdan çıxara bilməmişdir.

Səbəb budur ki, uzun tağut dövründə bu şəhərə və bu vilayətin digər şəhərlərinə tarixi zülm olunmuşdur.

Bəndər-Abbas əhalisinin böyük toplantısında çıxışdan: 1998.

İslamın, inqilabın və imamın İran xalqı üzərində haqqı

İran xalqı və hökuməti İmam Xomeyninin rəhbərlik etdiyi möhtəşəm inqilabından sonra onun xəttini və yolunu davam etidirərək İslamın və İranın əzəmət bayrağını ucaltmış, öz milli istiqalalına, başucalığına qovuşmuş və yeni tarixi həyatına başlamışdır. İslam inqilabının sayəsində İran xalqı artmaqda olan fəsadlardan, elmi və əxlaqi tənəzzüldən, despotizmdən və Amerikaya asılılıqdan xilas oldu, yenidən həyat və quruculuq həvəsi qazandı, kölə, ləyaqətsiz, etimadsız, azğın, əxlaqsız, avtoritar və zalım fiqurların hakimiyyətindən qurtuldu, xalq hakimiyyəti, qayğıkeş məmurlar, mömin, sədaqətli və bacarıqlı işçilər əldə etdi, ölkəsinin taleyinə, milli qaynaqlarına, Allahnı bəxş etdiyi və əcnəbilər tərəfindən qarət edilən sərvətlərinə sahib çıxdı, xəyanətkar və asılı şahların zəifliyi və fəsadı səbəbindən illərlə durğunluğa çəkilmiş yaradıcılıq və quruculuq qüvvəsini özündə canlandırdı, bütün elmi-praktiki sahələrdə iki əsr geriliyi düzəltmək üçün iri addımlar atdı, ondoqquzillik dövrün təcrübəsi ilə gələcək üçün güclü iradəni, qətiyyəti və aydın düşüncəni yolunun çırağı etdi.

İslamın, İslam inqilabının və onun Böyük İmamının İran və iranlı üzərində həyat haqqı vardır. Bizim xalqımız və hökumətimiz bunu yaddan çıxarmayacaq, bu aydın və düzgün yolu tərk etməyəcək.

Amerika rejimi İranın siyasi səhnəsinə qədəm qoyduğu son yarım əsrin ilk illərindən İrana və iranlıya zülm və xəyanət etdi, azğın və xalqazidd Pəhləvi rejimini dəstəklədi, asılı, zəif və nökər hökumətləri iş başına gətirdi, bizim xalqımızı öz iradəsinə məcbur etdi, milli sərvətlərimizi taladı, ziyanlı neft və silah bazarlığı ilə bu xalqın böyük sərvətini oğurladı, İranın silahlı qüvvələrini əlinə keçirdi, şahın təhlükəsizlik qurumuna və işgəncə məmurlarına təlimlər keçdi, İran xalqı ilə bir çox müsəlman xalqlar, o cümlədən ərəblər arasında ixtilaf saldı, İranda fəsadı və pozğunluğu yaydı, İslam hərəkatını əzmək üçün müxtəlif dönəmlərdə şah rejimi ilə əməkdaşlıq və ona rəhbərlik etdi.

Hörtməli Allah evinin ziyarətçilərinə müraciətdən: 1998.

Əcnəbi muzdurların əlliillik hökuməti

Bunları gənclərə öyrədin. Gəncləri İslam ümməti və İslam əxlaqı ilə maraqlanan insanlar kimi yetişdirin. Bunlar vacibdir. Xalqa, xüsusən də gənclərə xatırlatmalı olduğumuz məsələlərdən biri Allah-Taalanın əzəmətli, uca və misilsiz rəhbəri və bu möhtəşəm inqilabda İran xalqının əzəmətli hərəkəti vasitəsi ilə bizə verdiyi böyük nemətdir. Bugünkü gənclər bu inqilabdan qabaqkı dövrü görməyiblər, onunla tanış deyillər, bu məmləkətdə vəziyyətin necə olduğunu və İran xalqının necə xar edildiyini bilmirlər. İnqilabdan qabaqkı son əlli ildə bu məmləkətdə iki nəfər hakimiyyətdə oldu: ata və oğul! Onların hər ikisini əcnəbilər iş başına gətirdilər. Rza xanı ingilislər kazak alayından tapdılar. Onların qorxub-çəkinmək bilməyən bir quldura ehtiyacları vardı. Gətirib əlinə silah verdilər, nəhayət şahlıq məqamına çatdırdılar, sonra da onun vasitəsilə öz planlarını icra etdilər, bu məmləkətdə görmək istədikləri hər bir işi gördülər. Onlar dinə, ruhaniliyə, bu ölkənin qədim və milli ənənələrinə, bu ölkənin dini və etiqadi təməllərinə vurmaq istədikləri hər bir zərbəni onun vasitəsilə vurdular. Qorxusuz və həyasız bir adam olduğundan işlərinə yarayırdı. İngilislər Məşrutədən qabaq uzun müddət bu ölkədə təsir vasitəsi axtarır, amma tapmırdılar. Çox zaman da alimlər mane olurdu. Bu adamın isə alimlərə qarşı cəsarətli və qorxmaz olduğunu bilirdilər. Onu iş başına gətirdilər və istədikləri hər bir işi gördülər. Sonra siyasi baxımdan başqa bir səmtə yönəldiyini görüb onu götürdülər və yerinə oğlunu qoydular.

Bir xalq, eləcə də İran xalqı üçün bundan böyük rüsvayçılıq yoxdur ki, ölkənin hakimlərini, başçılarını və siyasətçilərini İngiltərə hökuməti öz səfirliyi vasitəsilə gətirib-aparsın. Bir xalq üçün bundan ağır nə ola bilər?! Pəhləvi dövrünün adamları haqda yazılmış xatirələri oxuyun. 1941-ci ildə Rza xanı işdən kənarlaşdırdıqdan sonra oğlu Məhəmmədrza bir neçə gün bilmirdi ki, onu padşah edəcəklər, yoxsa yox. Bir nəfəri İngiltərə səfirliyinə göndərdi, onlar dedilər ki, bəli, eybi

yoxdur, padşah olsun, bu şərtlə ki, filan işi görsün, filan işi görməsin. Bunlar bu ölkənin həqiqətləridir.

İranın əlliillik diktatorluğu, tağut və azğın şah rejimi iki nəfərin vasitəsilə icra olundu. Onları da əcnəbilər iş başına gətirdilər, xalqın heç bir rolu olmadı. Ondan qabaq Qacar hakimiyyəti də şahların hakimiyyəti idi. Bu şahların bioqrafiyasına baxın. Xalq heç, xalq ümumiyyətlə onlar üçün deyiləsi deyildi, hətta dövlət adamlarını - Sədri-əzəmdən tutmuş aşağıya qədər hamısını öz nökərləri bilirdilər. Onlara deyirdilər ki, siz bizim nökərlərimizin arasında beləsiniz, eləsiniz. Bu ölkəyə belə insanlar hakim olmuşlar.

Məhərrəm ayı ərəfəsində din alimləri və ruhanilərlə görüşdəki çıxışdan: 1998.

İranı asılı etməyin Pəhləvi rejiminin ən böyük cinayətlərindən olması

Mənim fikrimcə, Pəhləvi rejiminin ən böyük cinayət və günahlarından biri ölkəni texnika, sənaye və iqtisadiyyat baxımından asılı saxlamaqdan və daha asılı etməkdən ibarətdir. Bu rejim ölkəni hər bir şeyində - çörəyində, buğdasında, buğda anbarında, dəyirmanında, qida məhsullarında xaricdən asılı etdi. İran qida məhsullarından və çörəkdən tutmuş digər əşyalara qədər hər bir şeydə xaricdən asılı oldu; düşmənlər nə zaman istəsəydilər, bu xalqı hər şeydən məhrum edə bilərdilər. Ölkəni bu şəkildə idarə edən və bu vəziyyətə salan şəxs elə xəyanət etmişdir ki, həmin səviyyədə olmadığı təqdirdə başqa heç bir xəyanət onunla müqayisəediləsi deyil.

Fəhlə və Müəllim günləri ərəfəsində fəhlə və müəllimlərlə görüşdəki çıxışdan: 1998.

İslamın və məzlumların inqilabın sərmayələri olması

Böyük İmamın hərəkətində mövcud olan iki mühüm məsələ bu inqilabın dəyərli sərmayəsi idi və indi də belədir: biri budur ki, bu inqilabın məqsədi İslamdır; ikincisi budur ki, bu inqilabın əsgərləri və ordusu məzlumlar, yoxsullar və həmçinin gənclərdir. Bu inqilabı yoxsullar qalib etdilər. Məcburən qatıldığımız bu səkkizillik uzun müharibəni bu məmləkətin gəncləri uğurla bitirdilər. Bu gün də gənclər Allah və İslam yolundadırlar. Əgər bu gün də bu inqilabı hər hansı bir təhlükə təhdid etsə, meydana atılan ilk şəxslər bu gənclər olacaqlar; hövzələrin gəncləri, universitetlərin gəncləri, bütün ölkənin və müxtəlif təbəqələrin gəncləri.

Vəfatının doqquzuncu ildönümündə həzrət İmam Xomeyninin əzadarlarının izdihamlı toplantısında çıxışdan: 1998.

İranın özünə inamsızlıq və asılılıq nəticəsində geridə qalması

Bu dövrdə elmi fəaliyyətlərlə uzun diktatura dövrünün fəsadlarını aradan qaldırmağa çalışmalıyıq. O zaman istedadları çiçəklənməyə qoymadılar, bu xalqın əsl və həqiqi kimliyinin göstərilməsinə imkan vermədilər. Qərbin elm və sənaye inkişafının nəticəsi olan məhsulların idxal edilməsinin ardınca, ölkənin hər bir şeyini Qərbdən asılı etdilər, elm və mədəniyyət məhsullarını da idxal etdilər. Gördükləri birinci iş bu ölkənin aparıcı təbəqəsini özünə inamsız etmək idi. Onları öz mədəniyyətlərinə, adət-ənənələrinə, elmlərinə, iranlı nəsildə mövcud olan parlaq istedada inamsız etdilər. Bu inamsızlıq uzun illər boyu öz təsirini göstərdi. Bu təhqiramiz düşüncəsinin bu ölkəyə daxil edilməsi, bu həqarət hissinin ölkənin seçilmiş təbəqələrinin beyninin dərinliklərinə qədər nüfuz etməsinə səbəb oldu. Qərbin bu vəziyyətin məhsulunu biçməsi, təbii ki, uzun illər çəkdi. Amma nəhayət onlar müvəffəq oldular və nəticəsi indi ölkəmizdə müşahidə etdiyiniz gerilikdir. Bütün bu insani və maddi resurslarla, malik olduğumuz mühüm coğrafi mövqe ilə, parlaq elmi və mədəni keçmişlə və möhtəşəm elmi irsimizlə bü gün bizim vəziyyətimiz elm, sənaye və müxtəlif tərəqqi sahələrində lazım olduğundan çox geridədir.

Pedaqoji universitetin tələbələrinin məzuniyyət tədbirində çıxışdan: 1998.

Pəhləvi rejiminin irsi: xaraba ölkə

İnqilabın, imamın və bu xalqın asılı və azğın Pəhləvi rejimindən təhvil aldığı ölkə tam mənada bir xarabalıq idi. Abadlıq, sərvət və gözəllik böyük şəhərlərə məxsus idi; o da rejimin əsas fiqurlarının maraqlarına bağlı olan həddə. Kəndlər bərbad, yolsuz, susuz, işıqsız, imkansız və yararlı istehsal fəaliyyətindən məhrum idi. Şəhərlər müxtəlif problemlərə düçar olmuşdu və ölkə ümumi olaraq bərbad vəziyyətdə idi.

Quruculuq Cihadı təşkilatının üzvləri ilə görüşdəki çıxışdan: 1998.

İnqilabın möcüzəsi: xarlıqdan başucalığına keçid

Siz gənclərin çoxu keçmiş dövrü xatırlamırsınız. Zalım diktatura dövründə İran xalqı üçün ən çətin dövr inqilabdan qabaqkı 50 il olmuşdur. Nə üçün? Çünki keçmiş dövrlərdə həmişə avtoritar şahlıqlar var idi, xalqa çox zülmlər edirdilər, lakin onlar zalım, diktator və pis olsalar da, xalqla münasibətləri yaxşı olmasa da, ən azı çox məhdud dövrlərdən başqa heç zaman xarici düşmənlərin əmri altında olmamışdılar; özləri hökmranlıq edirdilər, iranlı idilər. Şahlıq tarixinin bu son dönəmində, yəni Qacar dövrünün sonlarından Pəhləvi dövrünün axırına qədər isə istibdad, diktatura, xalqın fikrinə etinasızlıq, idarə fəsadı, zülm, ayrıseçkilik, dövlət rəsmilərinin və saray adamlarının özbaşınalığı tüğyan edirdi, bunların hamısı vardı və bunlardan əlavə, çox acı olan bir həqiqət də vardi və o, əcnəbilərin hökmranlığı idi. Bu ölkədə iranlı öz evinin içində ola-ola xaricilərə yaltaqlanmalı idi. İranlı rəis, iranlı hərbçi, iranlı müdir və nazir öz evinin daxilində Amerika səfirinə, İngiltərə səfirinə və bu ölkədə sayı yüz minlərə çatan tamahkar əcnəbi məmurlara yaltaqlanmalı idi. Gərək onların əlinin altında işləyəydi, onlardan əmr alaydı, onların istəyini yerinə yetirəydi. Bu bir xalq üçün ən pis haldır, rəzillikdir. Bir xalqın müəyyən bir dövrdə yoxsulluğu və iqtisadi problemləri qəbul etməsi mümkündür, amma xarlığı qəbul etməz. Əcnəbilər İran xalqını xar etdilər. İnqilab bu xalqı xarlıqdan, asılılıqdan, şah rejiminin fəsadlarından, qorxu və qaranlıqdan xilas etdi, xalqı azadlığa çıxardı, iranlı öz məmləkətini aldı, iranlı gənc, iranlı kişi və qadın, iranlı alim və tələbə özü üçün və öz iradəsi ilə işlədiyini anladı, gələcəyə ümidvar oldu.

Əzəmətli İslam quruluşu və inqilabı bu hərəkəti yerinə yetirdi. Heç kəs belə bir hadisənin baş verəcəyini düşünmürdü. O zaman bir siyasi söz danışan və bununla ürəklərini toxtadıb mübarizə apardıqlarını düşünən bəzi ziyalıların son istəyi bu idi ki, keçmiş Sovetin peyk ölkələri kimi, Afrikanın, Asiyanın və yaxud digər yerlərin zavallı kommunist ölkələri kimi, yaxud Türkiyə və Pakistan kimi bir

ölkə olaq. Bundan artığını təsəvvür etmirdilər; bu xalqın müstəqil olmasını, öz ayağı üstə durmasını, öz istedadlarını çiçəkləndirməsini, öz sözünü deməsini, öz yolunu, öz məmurlarını seçməsini, ölkəni özününkü bilməsini və ölkə sərvətlərinin ölkənin özündə sərf olunmasını təsəvvür etmirdilər. İnqilab isə bu işləri gördü. Bu işlər imamın rəhbərliyi və bu imanlı xalqın iradəsilə həyata keçdi. Bu möhtəşəm qalanın dirəyi imandır - belə bir möcüzə edən parlaq həqiqətə iman, inqilabçı İslama və əsl Məhəmməd (s) İslamına iman. Düşmən də bunu anladı. Düşmən ilk gündən bunu anladı və bu imanı zəiflətməyə çalışdı. İyirmi ildir müxtəlif yollarla daim xalqın imanın zəiflətməyə çalışır. İnqilab tərəfindən cavabını alır, amma yenə başqa yolla buna nail olmaq istəyir.

Quruculuq Cihadı təşkilatının üzvləri ilə görüşdəki çıxışdan: 1998.

İran inqilabı - İslamın layihəsi

Müsəlman İranda baş verən möhtəşəm inqilab və İslam quruluşunun yaranması İslamın insanlara verdiyi təlimlərin bir hissəsi idi. İran xalqı pis vəziyyətdə yaşayırdı, güzəranı ağır keçirdi, öz insan məqamından çox uzaq düşmüşdü. İslamdan uzaq duşdüyünə görə ona elmi, insani, siyasi və iqtisadi cəhətdən zülm olunurdu. Bu xalq İslamla və İslam təlimləri ilə tanışlığı sayəsində möhtəşəm hərəkət edib özünü İslam mənbəyinə çatdırdı, İslamın hökmlərini özünün əməli proqramlarına çevirdi, özü üçün bu hökmlərə əməl etmək imkanı yaratdı, İslam haqda düşünüb ondan bəhrələndi, İslam maarifinin dərinliklərinə getdi və Quranla tanış oldu.

Məbəs bayramı münasibəti ilə İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 1998.

Əcnəbilərin maraqlarını müdafiə etmək və milli istedadların məhvi

Bir zaman bu ölkəyə, bu torpağa və bu sərvətlərə istedadları öldürən rejimlər hakim olmuşdular. İstedadları məhv etmələrinin dəlili budur ki, avropalıların bu ölkəyə daxil olmasından inqilaba qədər ötən yüz ildə - təxminən 1879-1979-cu illərdə, yəni əvvəlcə Qacarlar dövrünün ikinci yarısında, sonra da Pəhləvilər dövründə bu ölkədə elm, elmi inkişaf, mütəfəkkir beyin və müxtəlif elmi faktorlar görünmədi; yəni qoymadılar. Əgər görkəmli şəxs tapıldısa da, oğurlayıb başqa yerə apardılar və orada istifadə etdilər. Bütün dünyanın qələbəyə, inkişafa, sivilizasiyaya və maddi yenidənqurmaya sarı dördnala çapdığı bir dövrdə bizim ölkəmizi bədbəxt vəziyyətdə saxladılar və bir xalq üçün zəhərli işlərlə məşğul etdilər. Əlbəttə, bir dövrdə dırnaqarası universitetimiz, mətbuatımız və Şura Məclisimiz də vardı, amma zalım rejimin əlində idi. Onun üçün isə birinci növbədə əcnəbilərin və ölkənin ozamankı məmurlarının maraqları əhəmiyyət kəsb edirdi, xalqın mənafeyi və gələcək isə əsla düşünülmürdü.

Mübarək ramazan ayı ərəfəsində ruhani və təbliğatçılarla görüşdəki çıxışdan: 1998.

İlahi vədin həyata keçməsi təcrübəsi

Allahın başqa bir vədi budur: "Bizim uğrumuzda çalışanları mütləq öz yollarımıza yönəldərik". Kim Allah yolunda çalışsa, Allah ona mütləq yol göstərəcək. Biz gənclik çağında, İslam bilgiləri ilə tanışlığın əvvəllərində bunları oxuyurduq, deyirdik, etiqadımız vardı, inanırdıq, amma bizim üçün tam aydın deyildi. Bilirdik ki, Allahın sözü doğrudur, amma onu təcrübə etməmişdik. Bu gün isə təcrübə olunmuşdur. Siz gənclərin əsla yadınızda deyil, bəzi ortayaşlıların da yadında deyil, bəzilərinin isə yadındadır ki, İslam hərəkatı dövründə bu gün İslamın beşiyi və mərkəzi olan bu İranda, yaxud Tehranda kimsə yalnız özü müsəlman yaşamaq istəsəydi, həqiqətən mümkün deyildi, çətin idi. Yəni kimsə digərlərini hidayət və tərbiyə etmədən özü kamil şəkildə müsəlman yaşamaq istəsəydi, olmurdu, müxtəlif maneələr vardı. Əgər kimsə Qumda bir kişinin başladığı, bir qrup tələbənin də ətrafına toplaşdığı, fəryad qoparan kimi adamların tez tutulub zindana aparıldığı, vurulduğu, işgəncə verildiyi bu hərəkatın bir gün Allah adamlarının, həqiqət yolçularının dözümü və müqaviməti, hidayət olmuş və hidayət edən o şəxsin rəhbərliyi nəticəsində bütün ölkənin diqqətini özünə yönəldəcəyini, bütün qəlbləri cəzb edəcəyini və bütün xalqı səhnəyə gətirəcəyini desəydi, heç kəs inanmazdı. Əgər o zaman xalqın meydana atılması sayəsində İslam hökumətinin qurulacağını desyədilər, heç kim inanmazdı. Ancaq bu, Allahın vədi idi və şərtlərə əməl olunduğuna görə həyata keçdi.

Cümə namazı xütbələrindən: 1998.

Pəhləvi hökumətinin dörd mənfur xüsusiyyəti

Bizim inqilabımız pis bir hökumətin təxminən bütün xüsusiyyətlərinə malik olan bir rejim əleyhinə əzəmətli xalq hərəkatı idi. Bu rejim həm fəsadlı, həm asılı idi, həm zorla və çevriliş nəticəsində yaradılmışdı, həm də bacarıqsız idi. Mən bu dörd xüsusiyyəti qısa şəkildə izah etmək istəyirəm.

O hökumət əvvəla fəsad hökuməti idi; maliyyə fəsadı vardı, əxlaq fəsadı vardı, idarə fəsadı vardı. Maliyyə fəsadları barədə bunu demək kifayətdir ki, şahın özü və ailəsi bu ölkənin böyük iqtisadi işlərinin çoxuna şərik idilər. Onun özü, qardaşları və bacıları ən çox şəxsi sərvət toplamış şəxslər idilər. Rza xan özünün 16-17 illik səltənəti dövründə böyük sərvət topladı. Bilməyiniz pis deyil ki, bu ölkənin bəzi şəhərləri sənədlərə əsasən bütünlüklə Rza xana məxsus idi. Misal üçün, Fəriman şəhəri bütünlüklə Rza xanın mülkü idi. Bu ölkənin ən yaxşı torpaqları ona məxsus idi. O belə şeyləri və ləl-cəvahiratı sevirdi. Uşaqlarının tamahı isə daha böyük idi. Onlar hər növ sərvəti sevir və toplayırdılar. Ən yaxşı dəlili budur ki, onlar bu ölkədən getdikdə xarici banklarda milyardlarla dollar həcmində sərvət yığmışdılar. Bəlkə bilirsiniz, biz inqilabdan sonra şahın sərvətlərinin qaytarılmasını istədik və təbii ki, razılıq vermədilər. O zaman bu ailənin ümumi əmlakının təxmini miqdarı on milyardlarla dollar edirdi. Gedib dünyanın müxtəlif yerlərində sakin oldular və hamısı milyarderlərdən sayıldılar. Külli miqdarda olan bu pulları zəhmətlə əldə etməmişdilər, qanuni ticarətlə qazanmamışdılar. Bunlar onların qeyri-qanuni işlərinin gətirdiyi pullar idi. Zirvəsində bu qədər maliyyə fəsadı olan bu quruluş görün xalqla necə rəftar edirdi!

Əxlaqi baxımdan da fəsad içində idi. Qaçaq alveri ilə məşğul olan cinayətkar bandalar bu şəxsin qardaş və bacılarının tabeliyində idi. Əxlaq və cinsi məsələlər baxımından elə işlər vardı ki, insan deməyə və eşitməyə xəcalət çəkir. Bu xatirələrin bəzisini sonralar öz yaxınları və köməkçiləri yazıb nəşr etdirdilər.

İdarə fəsadı baxımından da vəziyyət acınacaqlı idi. İdarəçilikdə səlahiyyətlərə riayət etmirdilər. Özlərinə sadiqliyi və əcnəbilərin təhlükəsizlik və casus şəbəkələrinin əmrlərini meyar seçib lazımi adamları vəzifəyə təyin edirdilər. Görün zirvəsində rişvət alan, sərvət toplayan, qaçaqmalçılıqla məşğul olan və xalqa xəyanət edən adamların durduğu hökumət necə hökumət olar! İnsan bunları dəlil və əsaslarla demək istəsə, kitablar olar.

Onlar asılı idilər; xalqdan çox uzaq düşdüklərinə görə hakimiyyətlərini qorumaq üçün xaricilərə arxalanmağa məcbur olurdular. Rza xanı ingiltərəlilər hakimiyyətə gətirdilər. Bu, dəqiq və aydın məsələdir. Məhəmmədrzanı da ingiltərəlilər möhkəmlətdilər. Doktor Müsəddiqin hökuməti dövründən sonra amerikalılar çevriliş etdilər, İranı ingiltərəlilərin əlindən aldılar və özləri hökmranlıq etdilər. Bunlar bu ölkənin əksər işlərində qeyri-müstəqil idilər. Amerika müstəşarları və on minlərlə amerikalı məmur bu ölkənin ən mühüm hərbi, təhlükəsizlik, iqtisadi və siyasi mərkəzlərində həssas və çox gəlirli postlarda işləyir, əslində bütün işləri görür, onlara istiqamət verirdilər. Bu ölkənin təhlükəsizlik qurumunu amerikalılar və israillilər yaratmışdılar, siyasətdə ingilislərin, son zamanlarda isə amerikalıların fikirlərinə tabe idilər. Regional və qlobal sahədə, hətta iqtisadi sahələrdə, misal üçün, neftin qiymətində, satış formasında, xarici şirkətlərin İrandan neft almasında - bütün bu mühüm və həssas məsələlərdə onların istədiyi işi görürdülər. Əlbəttə, öz maraqlarını da nəzərə alırdılar, xaricilər üçün fədakarlıq göstərmirdilər, öz hakimiyyətlərini qorumaq üçün əcnəbilərə tam meydan verir, arxalanır, onlara bu ölkəyə və bu xalqa təcavüz etmək imkanı yaradırdılar.

Bu rejim zorla və çevriliş nəticəsində yaradılmışdı, çevrilişlə hakimiyyətə gəlmişdilər; həm Rza xan çevrilişlə gəlmişdi, həm də Məhəmmədrza. Çevriliş hökumətinin necə olması da bəlli məsələdir; özlərini zorla xalqa sırımışdılar, xalqın səsindən, fikrindən, istəyindən, mədəniyyətindən, məhəbbətindən və iradəsindən heç bir əlamət yox idi. Onlar xalqın iradəsinə, istəyinə, etiqadlarına, din və mədəniyyətinə əsla

hörmət etmirdilər, xalqla heç bir səmimi və dost münasibətləri yox idi. Münasibət düşmən münasibəti, ərbab və rəiyyət münasibəti, ağa və nökər münasibəti idi. Hər halda, şahlıq idi. Sultanlığın və padşahlığın mənası budur: xalqın qarşısında heç bir öhdəlik götürməyən avtoritar hakimiyyət. Pəhləvi ailəsi bizim ölkəmizdə 50 il belə hökm sürdü.

Və nəhayət, bacarıqsız idilər. Keçmişdə istedadlardan istifadə olunmurdu, onlara diqqət yetirilmirdi. Yalnız özlərinin qanunsuz məqsədləri və istəkləri üçün onlardan istifadə edirdilər. Bəziləri buraxıb gedirdilər, çoxları da qalırdılar, lakin istedadlarında heç bir çiçəklənmə baş vermir və bir iş görülmürdü.

Məmləkəti xaraba vəziyyətdə buraxmışdılar. Müharibədən sonra bizim ən böyük işlərimizdən biri müharibənin xarabalıqlarını düzəltmək idi. Görürdük ki, müharibənin bu xalqın başına gətirdiyi fəlakət Pəhləvi sülaləsinin uzun illər hökuməti dövründə yaranandan azdır. Belə bir hökumət illərlə xalqa başçılıq etdi, 1962-ci ildə imamın fəryadı ucalanda isə xalqın qəzəbi partladı. On illər ərzində xalqın qəzəbi toplanmışdı. Bəziləri həmin vəziyyətə alışmış, bir çoxları isə qəzəblə dayanmışdılar. İmamın sözü qəlblərə oturdu. Bilin ki, imam bu nidanı ucaldan zaman hələ məşhur təqlid müctəhidi deyildi. Düzdür, Qumda alimlər, böyük şəxsiyyətlər, hövzənin müəllim və tələbələri arasında onun çox hörməti və tərəfdarı vardı, amma ölkə əhalisi arasında elə də tanınmırdı. Bu nida ucalanda isə düzgün və haqq olduğuna, xalqın istəklərinə və əslində İslama və dinə söykəndiyinə görə təbii olaraq dərhal hər yerə yayıldı, ağız-ağız gəzdi, qəlbləri doyurdu və imamı sevdirdi. Mübarizənin başlandığı 1962-ci ildə çox da tanınmayan böyük imamımız bir ildən sonra xalq tərəfindən elə sevildi ki, Tehranda 15 Xordad hadisəsi baş verdi və minlərlə insan imam üçün canını fəda etdi. Bu həmin fəryadın haqlı olduğuna görə idi.

İmam xalqa İslamın təlimlərini bəyan etdi, hökumətin, insanın mənasını açıqladı, nə baş verdiyini və xalqın nə etməli olduğunu izah etdi. O, insanların deməyə cürət etmədiyi həqiqətləri gizlicə, proklamasiya formasında, qrup və partiyaların bağlı otaqlarda öz

tərəfdarlarına bəyan etdiyi tərzdə yox, ümumi xalq üçün açıq şəkildə və anlaşılan dillə bəyan etdi. Buna görə xalq müsbət cavab verdi. Düzdür, imamın başladığı gündən inqilabın qələbə çaldığı günə qədər ağır on beş il sürdü. İmamın şagirdləri, dostları, yetirmələri, adi camaat, cəmiyyətin aydın insanları bu sözün dərinliyini və ruhunu dərk etdilər, onu qəbul etdilər, müxtəlif yerlərdə, müxtəlif məclislərdə və müxtəlif təbəqələr arasında söylədilər. Bu sözlərin çox deyilməsi və arxasında durulması böyük problemlər yaratdı - minlərlə insan şəhid oldu, bundan bir neçə dəfə artıq adam işgəncələrə məruz qaldı, çox çətin dövr keçdi. Bəzi adamlar bu on beş il ərzində bir gecə evlərinə rahat və təhlükəsiz gedə bilmədilər, bir gün arxayınlıqla evlərindən çıxmadılar. Çətinliklər bitdi və imam bütün bu dövrdə şücaətli və hikmətli mürşid kimi rəhbərlik edirdi. Nəhayət son bir-iki ildə bu xalqın etiraz dalğaları yarandı. İnsanlar harada dini və ilahi məqsədlərlə və maddi maraq güdmədən meydana atılsa, heç bir güc onların qarşısında dayana bilməz. İmamın buyurduğu kimi, onlar bütün dəm-dəsgahlarına rəğmən, bizim əliboş xalqımızın önündə dura bilmədilər. Bu inqilab baş verdi və qələbə çaldı.

Mübarək Şəfəq ongünlüyünün ikinci günündə gənclərlə sual-cavab məclisindəki söhbətlərdən: 1999.

İslamın və imamın şəxsi xüsusiyyətlərinin inqilaba təsiri

Qeyd etdiyiniz kimi, Pəhləvi rejiminə qarşı mübarizə qədimdən başlanmışdı - yəni Rza xanın dövründən və 1935-ci ildən. Düzdür, mərhum Müdərris mübarizəyə daha öncə başlamış, amma şəhid edilmişdi. 1935-ci ildə Məşhəddə din alimlərinin böyük hərəkatı başlandı, mərhum Ayətullah Qumi və onun bir qrup alim yoldaşı mübarizə apardılar. Rza xanın dövrünün sonlarında qeyri-dini qruplar toplanıb mübarizəyə başladılar. Sonra qırxıncı illərdə bir tərəfdən partiya və qrup mübarizələri və digər tərəfdən din alimlərinin və xalqın hərəkatı başlandı. Sonrakı illərdə də həmçinin çoxlu mübarizələr baş qaldırdı. Sözsüz ki, bu mübarizələrin hamısının təsiri oldu. Amma qeyd etdiyiniz kimi, bunların heç biri kütlələri səfərbər etmək gücünə malik deyildi, mübarizəni kiçik və xüsusi çevrələrdən bütün xalqın içinə çəkə bilmədilər. İmamın qələbəsinin sirri də bu idi ki, bu böyük hünəri göstərə və böyük möcuzəni edə bildi, mübarizəni xalq səviyyəsinə gətirdi. Bəs bunun səbəbi nə idi? Səbəblərin bəzisi böyük imamımızın şəxsi xüsusiyyətlərinə qayıdır; onları da deyəcəyəm. Lakin əsas səbəb imamın uca məqamlı və etimadlı bir ruhani mövqeyində durub İslamdan danışmasından ibarət idi. İslam xalqın ümumi inancı idi və indi də belədir. Bu, dini hərəkətin və dini məqsədin xüsusiyyətidir.

Dini məqsədlər maddi və partiya məqsədlərindən fərqlənir. Maddi və partiya məqsədlərində daha çox hakimiyyətə gəlmək məsələsi var. Mübarizəyə qoşulan şəxslərin hər biri özləri üçün bir mövqe və yer tərif edirlər: gələcək quruluşda biz nə etməliyik, hansı işdə çalışmalıyıq. Dini hərəkətdə isə bunlar yoxdur, hamı vəzifəsini yerinə yetirməyə çalışır. İmam İslama arxalandı və İslamın ucalığını bəyan etdi. Xalq hərəkətinin dərinliyi buradan başlandı. Çünki bütün xalq öz imanı ilə mübarizəyə qoşulmuşdu. Siz görürdünüz ki, misal üçün, filan kənddə xalq hadisələrə reaksiya verir. İndi siz görün bir siyasi partiya ucqar bir kəndin əhalisini öz tərəfdarı etmək istəsə, nə qədər çalışmalı və onları bir-bir özünə cəlb etməlidir. İmam bu tipli işlər görmürdü, lakin

müraciət etdiyində onlar inamla meydana qoşulurdular. Böyük şəhərlərdə də belə idi, paytaxt Tehranda da. Yəni əsas İslam məsələsi idi və imam İslama arxalanırdı. Düzdür, digər xüsusiyyətlər də vardı. İmam prinsipcə xalqdan olan bir şəxs idi və xalqa güvənirdi. Mənim yadımdan çıxmır, bizim böyük imamımızın hələ o qədər də tanınmadığı və məşhurlaşmadığı 1962-ci ildə Qumda tədris əsnasında etdiyi söhbətlərinin birində o dövrün hökumətinə müraciətlə demişdi ki, əgər misal üçün, filan rəftarınızı davam etdirsəniz, mən Qumun bu ucsuz-bucaqsız səhrasını xalqla dolduraram. Hamı təəccüb edirdi ki, imam Qumda bir məscidin küncündə oturduğu halda xalqa necə bu şəkildə arxalanır, inanır və xalq sarıdan arxayındır. Bir neçə aydan sonra, yəni 63-cü ildə imamın Feyziyyə mədrəsəsindəki bəlli çıxışından iki gün sonra Tehranda 15 Xordad hadisəsi baş verdi, xalq qana boyanmış halda tankların, avtomatların və tüfənglərin qarşısında dayandı.

Qeyd etdim ki, imamın şəxsi xüsusiyyətlərinin rolu böyük idi. İmam sözün həqiqi mənasında polad iradəli bir kişi, öz yoluna tam inamı olan bir şəxs idi. Quranda deyilir ki, Peyğəmbər (s) ona nazil olana iman gətirmişdir.[1] Onun da öz yoluna imanı vardı, doğruçu və açıq danışan kişi idi, siyasətbaz adam deyildi, çox ağıllı və uzaqgörən idi. Sayıqlıq, uzaqgörənlik və sonrakı addımları görmək qabiliyyəti imamda çox yüksək həddə idi. O, işgüzar və yorulmaz idi. Yada salmanız pis olmaz ki, imam bu mübarizələrə 63 yaşında başladı. Yaxşı xatırlayıram, o, 1962-ci ildə etdiyi çıxışında dedi ki, mənim 63 yaşım var; əgər məni öldürsələr, Peyğəmbərin (s) və Əmirəlmöminin (ə) dünyadan köçdüyü yaşda ölmüş olacağam. 63 yaşlı kişi gəncləri həvəsləndirir, onlara qüvvə və yüksək əhval-ruhiyyə verirdi. O, Tehrana daxil olanda, 1 fevral hadisələrində və sonra inqilab qələbə çalanda təxminən 80 yaşlı bir kişi idi. Təqaüd, yorğunluq və bikarlıq yaşında olan qoca bir kişi belə həvəslə, gənclərə xas yüksək ruhiyyə ilə çalışırdı.

[1] Bəqərə/285.

Buna əsasən, imamın şəxsi xüsusiyyətləri - İslama, dinə, imana və xalqa güvənməsi çox təsirli idi.

Mübarək Şəfəq ongünlüyünün ikinci günündə gənclərlə sual-cavab məclisindəki söhbətlərdən: 1999.

İmamın inqilabçı kadrlar yetişdirməsi

İmam mübarizəsini başlayanda mən deyə bilmərəm ki, misal üçün, 62 və 63-cü illərdə onun lazımi kadrları vardı. Lakin o, kadr yetişdirməklə məşğul olurdu. Siz bilirsiniz ki, imam Qum Elm Hövzəsində görkəmli bir elmi şəxsiyyət idi. Onun ətrafında ləyaqətli və mömin gənclər vardı. Onun digər təbəqələrlə də əlaqəsi vardı. İmam öz müraciət və sözləri ilə sözün həqiqi mənasında insanları tərbiyə edib yetişdirirdi; həm düşüncə cəhətindən, həm mənəvi və əxlaqi cəhətdən. Dəyərli və layiqli bir kadr mütləq idarəetmə dərsi oxuyan, yaxud politoloji kurslar keçən yox, məqsədləri yaxşı anlayan, yolları yaxşı seçən, yaxşı qərar verən və yaxşı addım atan şəxsdir. Bu ardıcıl tərbiyələrlə baş verir. İmamın vasitəsi ilə bu iş onun ətrafında təbii şəkildə baş verirdi; xüsusi dərs sinfində yox, rəftarlarla, müraciətlərlə və davranışlarla. Lakin bundan əhəmiyyətlisi odur ki, imam xalq səviyyəsində kadrlar hazırladı. İmamın kadr hazırlaması da partiyaların kadr hazırlaması kimi deyildi. Partiyalar filan vəzifəni və işi tapşırmaq üçün xüsusi formada kadrlar yetişdirirlər, imam isə gəncləri yetişdirirdi, onlarda özünəinam yaradırdı. İmam əvvəldən gənclərin üzərində xüsusi təkid göstərirdi və bu öz bəhrəsini verdi.

Mübarək Şəfəq ongünlüyünün ikinci günündə gənclərlə sual-cavab məclisindəki söhbətlərdən: 1999.

Tağut dövründə keçirilən formal parlament seçkiləri

Parlamentin millət vəkillərinin toplaşdığı, xalqın iradəsinin təmsil olunduğu və qanunların sayəsində həqiqətən ölkəni idarə edən bir qurum olduğunu söyləmək bir şeydir, bunlara əməl etmək, bunları həyata keçirmək isə başqa bir şey. Biz fəxr edirik ki, İslam Respublikasında ikincini etmişik. Çünki bu sözlər dünyanın hər bir yerində və hər zaman deyilir. Məşrutədən sonra bizim ölkəmizdə də bu sözlər deyilirdi, məclis, qanun, seçki və sair məsələlərdən danışırdılar, lakin həqiqətlə baş verənlər arasında böyük fərqlər vardı. Bizim xalqımız Məşrutə dövründən İslam inqilabının qələbəsinə qədər ölkənin qanunverici hakimiyyətində iştirakını təcrübə etməmişdi. Bəlkə Milli Şura Məclisinin əvvəllərində ikiillik bir, yaxud iki parlamentdə - misal üçün, ikinci və üçüncü məclisdə, o da eyib və nöqsanlarla birgə müəyyən mənada bunu görmüşdü. Lakin kağız üzərində, havada olanlar da yavaş-yavaş bitdi. Belədir, azğınlıq dərinləşəndə xalq özünü hətta dildə də həqiqəti söyləməyə borclu bilmir. Təhlükə bundadır. İnqilabın qələbəsindən öncə belə idi.

Uzun illər hətta xalqın adını çəkmək, bu məsələləri iddia, onarla fəxr etmək də yox idi, hər şey formal, yalançı və süni idi. Həm Rza xanın dövründən və Məhəmmədrzanın dövrünün sonlarından ibarət olan açıq diktatura dövründə, həm də diktaturanın bir qədər örtülü və gizli olduğu orta dövrdə xalqın iradəsi yox idi; parlament mövcud deyildi, millət vəkili yox idi, deputat əmr və təyinatla seçilirdi. İnsan o dövrün tarixini oxuyanda - bir hissəsini özümüz sonlarda müşahidə etdik – necə olduğunu görür. Seçkilərin vaxtı çatmazdan bir müddət öncə özlərini hökumətin siyahısına salmaq üçün hazırlıq görülür, işlər başlanırdı, israrlar, yalvarışlar, yaxınlaşmalar, yaltaqlıqlar edilirdi, utanmadan açıq şəkildə hökumətin və sarayın siyahısından danışırdılar.

İslam Şurası Məclisinin deputatları və məsul işçiləri ilə görüşdəki çıxışdan: 1999.

İmamın universitetə və tələbəyə ümidi

Tələbələrin və universitet mənsublarının inqilabın böyük rəhbərinin xatirəsinə keçirdikləri xüsusi toplantı, mənalı hərəkət, ölkənin universitet toplumu ilə o zəkalı müəllimin və müqəddəs ruhun amal və dərsləri arasında güclü əlaqənin təzahürüdür. Bu rabitə birtərəfli deyil. İmam da İslam hərəkatı, xüsusən onun qələbə dövrü başlayandan universitetə və tələbəyə inqilabın və ölkənin gələcəyini qurmaqda mühüm amil kimi baxırdı, ona iman, eşq və hikmətdən irəli gələn önəm verirdi. İmama görə universitet yalnız elm öyrədən yox, həm də ölkəni idarə edəcək ən əsas kadrları yetişdirən mərkəz və tələbə yalnız elm öyrənən gənc yox, həm də həvəskarlığın, aktivliyin, yaradıcılığın və amalçılığın timsalıdır.

İstər İslam mübarizələri zamanı, istər inqilabın qələbəsindən sonra bəzi qruplaşmaların fitnələrinə qarşı mübarizədə və sonra müqəddəs müdafiə illərində tələbənin və universitetin rolu mərhum imamın universitet mənsublarına baxışının düzgünlüyünü sübuta yetirdi, o hikmətli alimin müstəqil, yaradıcı, öncül, İslam və inqilab dəyərlərinə sadiq bir universitet yaratmağa göstərdiyi əhəmiyyətin yersiz olmadığı aydın oldu.

İslam Respublikasının yaranmasından öncəki əlli ildə ölkə universitetlərinə rəhbərlik edən şəxslər inqilabın universitetin qarşısında qoyduğu məqsədlərin əksinə gedirdilər. Onların ideal universiteti yalnız elmdə yox, hətta düşüncədə, mədəniyyətdə və arzularda da Qərbdən asılı, Qərbin şagirdi və ona tabe olan universitet idi. Qərbdə geniş yayılmış fərziyyə və nəzəriyyələrdən təsirlənmək, yalnız elm və texnologiyada yox, hətta əxlaqda, siyasətdə, incəsənətdə, rəftarda və adət-ənənələrdə də onlara qeyd-şərtsiz tabe olmaq asılı və fəsadlı Pəhləvi quruluşunun universitet üçün bəyəndiyi, proqram hazırladığı və icra etdiyi əsas məsələlər idi. O rejimin ümumi proqramında universitet İranın öz dini və milli kimliyindən uzaqlaşmasına doğru hərəkətinin öncülü olmalı idi.

Şübhəsiz, azğın rejimin əlli ildən artıq sürən hakimiyyəti dövründə ölkənin elmi gerliyinin günahının mühüm bir hissəsi ölkə universitetini elə yetişdirən və onun üçün proqram hazırlayan şəxslərin üzərinə düşür. O rejimin belə bir təfəkkür sayəsində yetişmiş vəzifəli şəxslərinin ləyaqətsizliyinin böyük hissəsi də onlara məxsusdur.

İslam inqilabı universitetin istiqamətini birdən-birə dəyişdirdi, özünəinamı, yaradıcılığı, müstəqilliyi, İslam dəyərlərinə sadiqliyi, elmi cihadı, əsirlik və tabelikdən azadlığı onun əsas istiqaməti etdi.

Universitet mənsublarının və tələbələrin həzrət İmam Xomeyninin xatirəsinə həsr olunan xüsusi toplantısına müraciətdən: 1999.

İmamın həmişəyaşar dərsləri

Burada bir məsələni diqqətdə saxlamaq lazımdır ki, bizim böyük imamımızın xatirəsini uca tutmaq yalnız keçmişə hörmət ifadə etmək deyil, onun öz inqilabı, qiyamı, davranışı, dərsləri və vəsiyyəti ilə İran xalqına və dünyanın bütün müsəlmanlarına göstərdiyi xətt və yol üzərində təkidlə dayanmaq deməkdir. İmam bizim xatirələrimizdə və cəmiyyətimizdə bir örnək, müəllim və rəhbər kimi yaşayır. Onun cismi bizimlə deyil, amma düşüncəsi, yolu, dərsi bizimlədir və bu dərs İran xalqının və bütün dünya müsəlmanlarının ehtiyacı olan dərsdir. Onların buna dünən də ehtiyacları vardı, bu gün də var. İmamın dərsi, yolu və xətti yaşayır. İmamın tövsiyələri hamının gözü önündədir. Əgər biz bu dərsi dünya müsəlmanları üçün xülasə etmək istəsək, bu əsl İslama – xalqlara hər şeyi ərməğan edən İslama qayıdışdan ibarətdir.

İslam dini xalqlara müstəqillik və azadlıq verir; həm diktatura və avtoritorizmdən, xurafat və cəhalətlərdən, cahil təəssübkeşlikdən və azğın fikirlərdən azadlıq verir, həm də hegemonluğun iqtisadi və siyasi istismarından. İslam dini xalqlara ictimai ədalətlə birgə olan rifah və iqtisadi inkişaf verir. Xalqın müxtəlif təbəqələri arasındakı fərqi artıran iqtisadi inkişaf İslamın nəzərdə tutduğu inkişaf deyil. Bu gün Qərb ölkələrinin dünya xalqlarına hazırladığı, cəmiyyətin bəzi təbəqələrini rifaha qovuşduran, iqtisadiyyatı rövnəqləndirən, bəzi təbəqələri isə yoxsullaşdıran, zəiflədən və sıxıntıya salan iqtisadi proqramı İslam bəyənmir. Ədalətlə, bərabərliklə və qardaşlıq ruhu ilə yanaşı olan iqtisadi rifaha məhz İslamın sayəsində nail olmaq mümkündür. Bu gün müsəlman xalqların problemi nədir? Dünyanın o başından müsəlman xalqlara hökmranlıq edən istismarçı və hegemon güclərin varlığı. Bu güclər müsəlmanların həyatına müdaxilə edir, onları yoxsulluq, zəiflik və ixtilaf içərisində saxlayır, sərvətlərindən qanunsuz istifadə edirlər. Müstəqilliyin, azadlığın və insani heysiyyətin olmaması, elmdə və həyatın müxtəlif sahələrində gerilik də müsəlman xalqların

problemlərindəndir. Bütün bu problemlər İslama qayıdışla, əməllə və İslam hakimiyyəti sayəsində aradan qalxa bilər.

Bizim böyük imamımızın müsəlmanlara mesajı əcnəbiləri, müsəlmanların və İslamın düşmənlərini rədd etmək idi. Bu gün problemlər bunlardır. İran xalqı bu yolu sınamış, özünü rəzillikdən, gerilikdən və böyük güclərə asılılıqdan xilas etmişdir. Biz iddia etmirik ki, ölkəmizdə tam İslam quruluşu yaratmışıq; biz iddia edirik ki, buna çalışmışıq və tam İslam hakimiyyətinin reallaşması üçün sonacan mübarizə aparacaq, çalışacağıq. İran xalqı böyük güclərin təhdidi qarşısında geri çəkilmir. İran xalqı və ölkənin məmurları imamın tövsiyələrini özlərinə böyük və yolaçan tövsiyələr bilirlər. İslam quruluşu və İslam xətti budur.

Həzrət İmam Xomeyninin vəfatının onuncu ildönümü tədbirində iştirak edən yerli və xarici qonaqlarla görüşdəki çıxışdan: 1999.

İmamın şəxsiyyətinin əsas cəhətləri

1. Təqva

Bizim böyük imamımız təqvalı şəxs idi. Sizin hamınız təqvanı özünüzə proqram seçin ki, ilahi rəhmət qapıları sizin də üzünüzə açılsın. Təqva ilahi rəhmət və hidayəti təqvalı insana və cəmiyyətə sarı yönəldir. Peyğəmbərlərin və onların canişinlərinin ilk və son tövsiyəsi ilahi təqvadır.

Birinci xütbədə uzun zaman bu böyük insanın bir şagirdi və ardıcılı olaraq hiss etdiyim, gördüyüm və bütün vücudumla gəldiyim qənaəti siz əzizlərə, xüsusən də gənclərə çatdırmaq istəyirəm. İmamın barəsində çox danışmışıq. Hamı – dost və düşmənlər, iranlı və qeyri-iranlılar, müsəlman və qeyri-müsəlmanlar bu böyük insanı tərifləyiblər. Bunlara dair sözümüz yoxdur. Onun əzəməti, məqamı və ucalığı hamıya aydındır. Lakin bu ümumi bir sözdür. Mən düşünürəm ki, bu böyük insanın bizim qarşımızda açdığı fəxr və şərəf yolu ilə bu gün qüdrətlə və həvəslə gedən gənc nəslimiz öz imamı haqda daha artıq bilmək istəyir. Mən öz təsəvvürlərimi deyəcəyəm. Yəni təxminən otuz il müddətində imamı yaxından tanımışam və hər bir dövrdə bu əzəmətli şəxsiyyətin bir cəhətini müşahidə etmişəm. Mənim gənclik dövrümdən onun vəfatına qədər sürən bu 31 ilin 14 ilində o, sürgündə olub, biz zahirən ondan uzaq olmuşuq, lakin onda da imamın yolunda idik, ondan ayrılmamışdıq, həmin 14 ildə də əslində imamla idik.

Siz əzizlərə bir məsələni deyim. İmamın şagirdləri və imamı tanıyanlar onu olduqca çox sevsələr də, imam haqda deyilənlər sevgidən qaynaqlanmır. Sevginin də qaynağı imamda olan həmin xüsusiyyətlər idi. İkinci məsələ budur ki, bu şəxsiyyət öz üstün cəhətlərini kiməsə göstərməyə əsla can atmır, çalışmırdı. Nə zaman və harada şəriət vəzifəsi onu bir hərəkətə vadar edirdisə, şəxsiyyətinin bir cəhəti aşkara çıxırdı.

Mən 1958-ci ildən başlayıram. Həmin ildə mənim özüm Quma getdim və imamı birinci dəfə yaxından gördüm. Ondan öncə Məşhəddə

eşitmişdik ki, Qumda gənclərin bəyəndiyi görkəmli və böyük bir müəllim var. Quma daxil olan gənc tələbə müəllim axtarır. Elm hövzələrində müəllim seçimi məcburi deyil, hər bir tələbə öz zövqünə uyğun olan və bəyəndiyi müəllimi seçir. İlk anda gənc və həvəskar tələbələri özünə cəlb edən müəllim, şagirdlərinin arasında Hacıağa Ruhullah kimi tanınan kişi idi. Əxlaqlı, dərs oxuyan və həvəskar gənclər onun dərsinə toplaşmışdılar. Biz belə bir şəraitdə Quma daxil olduq.

2. Fiqh və üsul elmlərini dərindən mənimsəmək

O, fiqh və üsulda mütəxəssis və elmi yenilikçi idi. Mən ondan öncə Məşhəddə böyük bir müəllimi, yəni görkəmli fəqihlərdən olan mərhum Ayətullah Milanini görmüşdüm. Qumda elmi hövzənin rəisi, həm də imamın müəllim olan mərhum Ayətullah Bürucerdi də vardı, digər böyüklər də var idilər. Lakin həvəskar, çalışqan və istedadlı gənclər üçün maraqlı və cəlbedici dərs imamın fiqh və üsul dərsi idi. Yavaş-yavaş köhnə tələbələrdən eşitdik ki, bu insan həm də böyük filosofdur, onun fəlsəfə dərsi Qumda birinci fəlsəfə dərsi olmuşdur, lakin indi fiqhi tədris etməyi tərcih edir. Sonra eşitdik ki, bu insan həm də əxlaq müəllimi olmuşdur. Bəzi şəxslər onun əxlaq dərsində iştirak edirdilər və o, gənclərdə əxlaqi dəyərləri gücləndirməyə çalışırdı. İllər uzunu dərslərin arasında biz bunu yaxından gördük. Lakin buraya qədər, daxili naməlum xüsuiyyətlərlə dolu olan bu böyük şəxsiyyət o zaman xalqın əksəriyyəti üçün yalnız bir alim, şagird yetişdirən müəllim, tələbə və şagirdlərin əxlaq ustadı kimi tanınırdı.

1961-ci ildə təqlid müctəhidi olan Ayətullah Bürucerdi vəfat etdi. Təqlid müctəhidliyi irəli sürülən böyük alimlər vardı. Hər birinin dostları onların adlarını çəkirdilər. Bu zaman bu kişi üçün verdiyi əxlaq dərsinin təkcə dildə və digərlərinə öyrətməkdən ibarət olmadığını sübut etməyə şərait yarandı. Onun özü nəfsi paklama dərslərinə ilk əməl edən olmuşdur. Hamı gördü, anladı və təsdiq etdi ki, bu kişi məqama, şöhrətpərəstliyə, hətta təqlid müctəhidliyindən ibarət olan ruhani və mənəvi bir rəsiliyə də arxa çevirir, vəzifə, dərəcə və şəxsiyyət üçün əsla

çalışmır, hətta digərləri çalışmaq istədikdə də bacardığı qədər mane olur.

3. Sayıqlıq və uzaqgörənlik

Mərhum Ayətullah Bürucerdinin vəfatından təxminən il yarım ötdükdən sonra İslam hərəkatı başlandı, 1962-ci ilin sonlarında bu şəxsiyyətin başqa bir cəhəti aşkar oldu. Bu, sayıqlıq, uzaqgörənlik və adətən diqqətdən kənarda qalan məsələlərə diqqət, digər tərəfdən isə dini qeyrət idi. O zaman dövlətin qərar qəbul edərək seçilmiş şəxsdə müsəlman olmaq şərtini və Qurana andı götürdüyünü çoxları eşitdilər, lakin bunun əhəmiyyətinə çox da diqqət yetirmədilər; halbuki böyük əhəmiyyətə malik idi. Səbəbi bu idi ki, Milli Şura Məclisi təyinatlı bir parlament olsa da, onu özləri təşkil etsələr də, yalnız özlərinin qəbul etdiyi namizədlər seçilsə və əslində xalqın seçim haqqı olmasa da, o rejim birliklərə aid qərarları və bu müsəlmanlıq şərtini həmin parlament zamanı irəli sürməyə cürət etmədi, reaksiyadan qorxub, parlament olmayan zamana saxladılar. O zaman parlamenti buraxmışdılar, parlament yox idi, bunu qapalı şəraitdə qəbul etdilər. Bu, məsələnin arxasında çoxlu plan və məqsədlərin durduğunu göstərirdi. Bunu heç kəs anlamırdı, lakin imam anladı və etirazını bildirdi. Din qeyrəti onu bu məsələdə önə keçməyə və zahirən kiçik olan bu antiislam əməli ilə mübarizəyə başlamağa vadar etdi.

4. Vəzifəyə əməl etmək

Burada mühüm bir məsələ var: Böyük İmam hətta mübarizə məsələsində də önə keçmək istəmədi. Onun özü bizə danışırdı ki, hərəkat başlayan zaman həmin dövrün məşhur təqlid müctəhidlərindən və onunla bir səviyyədə olan alimlərdən biri ilə birgə mərhum Ayətullah Hairinin evində söhbət etmişdilər. Ona demişdilər ki, siz qabağa düşün, biz də arxanızca hərəkət edəcəyik. İmamın məqsədi bu idi ki, vəzifə yerinə yetirilsin, üzərində hiss etdiyi vacib əməli yerinə yetirsin, irəliyə keçmək barədə fikirləşmirdi. Əlbəttə, digərlərində bu işə qoşulmaq üçün

yetərli bacarıq və cürət yox idi, onlar imama çatmazdılar. Bu hərəkatın rəhbərliyi təbii şəkildə imamın üzərinə düşmüşdü. O bu mübarizəyə başladı və xalqa arxalandı. O zamana qədər elmi hövzə böyüklərindən və təqlid müctəhidlərindən heç kəs güman etməzdi ki, elə qapalı bir dövrdə dini hərəkət bu şəkildə xalqın dəstəyini qazana bilsin. İmam isə dedi ki, mən bu xalqın dəstəyi ilə hərəkət edirəm, xalqı Qumun çölünə çağıraram. O bilirdi ki, xalqı çağırsa, bütün İrandan toplaşıb, ovaxtkı hökumət və mənfur rejim üçün qarşısıalınmaz və əzəmətli bir izdiham yaradarlar.

5. Rəhbərlik bacarığı və siyasi cəsarət

Burada bu insanın şəxsiyyətinin yeni bir cəhəti aşkara çıxdı: rəhbərlik qabiliyyəti, siyasi cəsarət, düşmənin işlərinin xırdalıqlarından xəbərdar olmaq, düşmənlərin məqsədlərinə qarşı sayıqlıq. Bu cəhət əməldə göründü. 1963-cü il, yəni mübarizənin ikinci ili çatdı. Bu il kəskin tədbirlər, təzyiqlər və qətllər ili idi. Orada imam İran xalqının ümid səmasındakı bir günəş kimi parladı, fədakar bir insan kimi meydana çıxdı, bir vulkan kimi püskürdü. Bütün dünyaya məxsus adam, bir vətən adamı və İslam adamı üçün lazım olan bütün hisslər onda toplanmışdı: lazımi şücaəti var, xalqı səfərbər etmək qabiliyyəti var, açıq mövqeyi var. İstər komandosların Feyziyyə mədrəsəsinə və Qum Elm Hövzəsinə hücum etdiyi 63-cü ilin yazında, istərsə də imamın əzəmətinin göründüyü 63-cü ilin yayında İran xalqı qəfildən hiss etdi ki, arxası, dayağı, ümid bəsləyə biləcəyi bir əzəmətli zirvə var. İmam 15 xordadda (5 iyunda) səhnədə belə göründü.

6. Fədakarlıq və təhlükədən qorxmamaq

Bu hadisədən sonra həbs, sürgün və təzyiqlər başlandı. İmam o zaman gənc deyildi. Gənc olduğumuzdan bizim üçün həbsə düşmək və çətin hadisələr çox da ağır gəlmirdi, daha çox əyləncəyə bənzəyirdi. Lakin imam mübarizənin başlandığı zaman 63 yaşında idi. Bu kişi 63 yaşında öz hissləri ilə bir xalqın hisslərini coşdura bilirdi. O yaşda olan

bir şəxs üçün həbsə düşmək və sürgün olunmaq asan iş deyildi. Lakin onda bu fədakarlıq və təhlükələri qəbul etmək duyğusu aşkarlandı. Bu da yeni bir cəhət idi. Yəni böyük amalları və dini vəzifəsi yolunda heç bir problem ona mane ola bilmirdi. Bu, imamın 14 ilə qədər əvvəlcə Türkiyəyə, sonra isə İraqa sürgünü ilə nəticələndi.

7. İslam quruluşu ideasını yaratmaq

İmamın sürgün dövründə zamanımızın həqiqətən müstəsna və bənzərsiz adamının şəxsiyyətinin yeni bir cəhəti aşkara çıxdı. İnsan böyük şəxsiyyətlərin həyatında nadir hallarda bu cəhətlərin bəzisini müşahidə edir. Əvvəla o bir siyasi texnoloq və nəzəriyyəçi mövqeyində durub heç bir real anoloqu olmayan yeni bir hökumətin və quruluşun layihəsini hazırlayır. O, müasir dünyanın ehtiyaclarını və dünyada irəli sürülən məsələləri nəzərə alıb bir İslam quruluşu təqdim edir və bunların hamısı o quruluşun layihəsini təşkil edir. İkincisi isə bu insan İranda olmasa da, 14 il ərzində uzaqdan İrandakı İslam mübarizəsinə və İslam hərəkatına sözün həqiqi mənasında rəhbərlik etdi. Bu 14 ildə, xüsusən də son bir neçə ildə - yəni 70-71-ci illərdən 75-76-cı illərə qədər çoxlu şiddət və repressiya vardı. Siyasi və qeyri-siyasi olan müxtəlif gizli mübariz qruplar, qruplaşmalar və siyasi partiyalar yaranır, hamısı rejimin təzyiqləri altında dağılıb gedir, yaxud təsirsiz olurdu. Onların bəzilərinin beynəlxalq siyasi dayaqları da vardı, Şərq və Qərb blokuna, xüsusən də Şərq blokuna bağlı idilər, oradan idarə olunur və yardım alırdılar. Lakin imamın hərəkatı partiya təşkilatına söykənmirdi. Ölkə daxilində imamın heç bir partiyası yox idi. Onun şagirdləri, dostları, fikri ilə tanış olanlar və xalq vardı. İmam da bəyanat yayanda xüsusi dostlarına və tanışlarına müraciət etmirdi. O bütün xalqa müraciət edirdi. O, xalqla və kütlələrlə danışırdı, onları yönəldirdi. 14-15 il boyunca uzaqdan İslam fikrinin və İslam hərəkatının bu mənbəyini əvvəlcə beyinlərdə dərinləşdirə, sonra isə cəmiyyət səviyyəsində genişləndirə bildi, gənclərin qəlbini, beynini və imanını ona yönəltdi və belə əzəmətli bir inqilab üçün şərait yarandı. Çoxları ölkə daxilində

böyük, ixlaslı və fədakar işlər görürdülər. Lakin əgər imamın mərkəzliyi olmasaydı, bu işlərin heç biri olmayacaqdı, hamısı məğlubiyyətə uğrayacaqdı, bu insanların hamısı yorulacaqdılar. Yorulmayan şəxs o idi, digərləri də ondan güc və qüvvə alırdılar. Sonra 14 il müddətində bir inqilabi hərəkətin və böyük bir hərəkatın rəhbərliyi və onu bütün dolanbaclardan keçirmək işi onun vasitəsi ilə baş tutdu. Elə oldu ki, qeyri-dini və antidin fikirlər təcrid olundu, kənara qovuldu, İslam fikri, bu məntiqli, möhkəm və güclü təfəkkür digər fikirlər üzərində öz qələbəsini günbəgün möhkəmləndirdi. Bütün mühüm hadisələrdə imamın rolu duyulurdu. 1968-ci ildə imam fiqhin mərkəzi olan Nəcəfdə güclü fiqh dəlillərinə əsaslanan Fəqih hakimiyyəti nəzəriyyəsini irəli sürdü.

Əlbəttə, Fəqih hakimiyyəti prinsipi şiə fiqhinin qəti məsələlərindəndir. İndi bəzi savadsızlar deyirlər ki, Fəqih hakimiyyəti nəzəriyyəsini imam irəli sürdü, digər alimlər onu qəbul etmirdilər. Bu, məlumatsızlıqdan irəli gəlir. Fəqihlərin sözləri ilə tanış olan şəxs bilir ki, Fəqih hakimiyyəti məsələsi şiə fiqhində aydın məsələlərdəndir. İmam bu fikri bugünkü dünyada, müasir siyasi məktəblərdə mövcud olan yeni və əzəmətli üfüqlərə əsasən tənzim edib, köklü, möhkəm, dəlilli və keyfiyyətli formaya saldı; elə şəklə saldı ki, günün siyasi məsələləri, siyasi məktəbləri ilə tanış olan və nəzər sahibi olan hər bir insan üçün dərk və qəbulediləsi olsun.

8. Ruhi böyüklük

Mənim əzizlərim! Həmin 14 ildə, xüsusən də son illərdə İranda İslam mübarizləri tənhalıq hiss etmirdilər, imamın həmişə onlarla əlaqədə olduğunu duyurdular. Övladının vəfatı zamanı bu əzəmətli şəxsiyyətin başqa bir cəhəti aşkara çıxdı. Çoxları böyükdürlər, alimdirlər, şücaətlidirlər, lakin bu əzəmətin daxili hisslərinə və ürəklərinin dərinliyinə qədər uzandığı şəxslər çox deyillər. Dəyərli və alim övladı dünyadan köçərkən - onun oğlu da əslində dəyərli bir oğul, görkəmli alim və gələcəyin ümidi idi - səksənə yaxın yaşı olan qoca bir

kişidən eşidilən cümlə bu oldu: “Müstafanın ölümü Allahın gizli mərhəmətlərindəndir”. O bunu ilahi mehribanlıq və Allahın gizli lütfü sayır, Tanrının ona mərhəmət göstərməsi kimi qəbul edirdi; özü də gizli mərhəmət. Görün bunun üçün insan necə əzəmətli olmalıdır. İnqilab dövründə bu böyük insanın belə çətinlik və əziyyət çəkməsinin və möhkəm dağ kimi dözməsinin kökü həmin mənəvi əzəmətdir; bir əzizinin ölümü zamanı belə rəftar edir. Sonra da onun İraqdan sürgün edilib Küveytə, sonra isə Fransaya mühacirəti başlandı. Buyurdu ki, əgər mənə hansısa bir ölkədə qalmaq icazəsi verməsələr, bir-bir hava limanlarını gəzib bütün dünyaya sözümü çatdıracağam. O əzəmət, şücaət, dözümlülük, misilsiz möhkəmlik, ilahi və peyğəmbərcəsinə rəhbərlik qabiliyyəti burada yenə özünü göstərdi. Bu da onun şəxsiyyətinin yeni bir cəhəti idi. Sonra onun İrana gəlişi, bəlli hadisələrlə qarşılaşması və İslam Respublikası quruluşunu təşkil etməsi baş verdi.

Tehranın cümə namazı xütbələrindən: 1999.

İnqilabın həqiqi və müsbət bir iş olması

İnqilab zehnə, düşüncəyə və xəyala aid olan bir məsələ deyil, real məsələdir. İnqilab ümumi bir hərəkət, bu xalqın özünü həqiqi qurtuluşa və səadətə çatdırması, dünyanın zülm altında olan ölkələrini ortaq problemlərindən xilas etməsi üçün seçdiyi yoldur. İnqilab bu xalqı və ölkəni başıuca etmək, rifaha, maddi və mənəvi üstünlüklərə, maddi və mənəvi tərəqqiyə və təkamülə sahib etmək istəyir. İnqilab əcnəbilərin istismarına son qoymaq, bir müddət bu ölkəni və xalqı salmaq istədikləri rəzilliyin və xarlığın kökünü kəsmək, əcnəbilərin və düşmənlərin istismarından yaranan fəlakətlərin təsirlərini aradan qaldırmaq istəyir. Bu, inqilabdır. Bəzi şəxslər özlərinin qərəzli təbliğatları ilə inqilabın adını, məfhumunu və kimliyini pis təqdim etmək, inqilab anlayışını parlaq, gözəl və şərəfli bir məfhumdan adi və bacardıqları təqdirdə mənfi bir məfhuma çevirmək istəyirdilər. Hətta İslamın, inqilabın və İranın düşmənlərinin verdiyi xətlə inqilab məfhumunun mənfi bir məfhum olduğunu yeritməyə çalışan şəxslər də vardı. Bəli, uzun illər bir ölkəni caynağına keçirənlər üçün inqilab təbii ki, ən böyük bəladır. Onlar üçün inqilabdan mənfi bir şey yoxdur. Özünü yüzillik və yüzəlliillik maddi, mənəvi, mədəni və iqtisadi istismardan xilas etmək istəyən xalq üçün isə inqilab şəfalı dərman, ilahi nemət və yeganə yoldur.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun komandirləri ilə görüşdəki çıxışdan: 1999.

Həzrət İmam Xomeyninin şəxsiyyətini yenidən öyrənmək

Əziz İran xalqı!

Dünya ölkələrinin hər hansı birində nə zaman bir insan elm, ağıl və yüksək düşüncə ilə, yaxud iman, təqva, zahidlik və güclü imanla, yaxud şücaət, igidlik və güclü iradə ilə, yaxud uzaqgörənlik və siyasi püxtəliklə böyük bir işə başlasa, möhkəm və dözümlü şəkildə müqəddəs məqsədi izləsə, şübhəsiz, öz ölkəsini, xalqını və bəzən bütün bəşəriyyəti böyük nailiyyətlərə və daimi inkişaflara çatdırar. Adları tarixin məşhurları sırasında çəkilənlər bu xüsusiyyətlərin bəzisinə malik olmuşlar.

Müasir dövrün böyük qəhrəmanı - yəni İmam Ruhullah Xomeyni isə bu xüsusiyyətlərin hamısına, özü də adətən əlçatmaz və bənzərsir bir həddə malik olmuşdur. O, zahid alim, təqvalı ağıl sahibi, siyasətçi həkim, aydın bir mömin, şücaətli və sayıq bir arif, ədalətli hakim və fədakar mücahid idi. O, fiqh və üsul alimi, filosof, arif, əxlaq müəllimi, ədib və şair idi. Hövzənin ən yüksək tədris kürsüsü, ən izdihamlı və ən səmimi elmi toplantıları uzun illər ona məxsus olmuşdur.

Allahın bəxş etdiyi dəyərli xislətləri Quran təlimlərindən öyrəndiyi, qəlbini və ruhunu zinətləndirdiyi təlimlərlə birləşdirərək əzəmətli, cazibədar və təsirli bir şəxsiyyət yaratmışdı. Böyük şəxsiyyətlər, məşhur dini, siyasi və ictimai islahatçılar əsri olan son bir əsrin dəyərli şəxsiyyətlərinin hər biri onun qarşısında daha az cəlbedici, təkyönümlü və kiçik görünürdülər.

Onun çalışdığı, öz imanı, Allaha arxalanması, ağlı və dözümü ilə nail olduğu iş də özü kimi böyük, inanılmaz və heyrətamiz idi.

Siyasi həyatının bütün mərhələlərində parlaq şəxsiyyəti gözqamaşdıran və spesifik idi; həm Qumda dini təqlid müctəhidi kürsüsündən ucalan peyğəmbərcəsinə fəryadı ilə asılı və azğın Pəhləvi rejimini və onun amerikalı hamilərini mübarizəyə çağırdığı, şahın və köməkçilərinin zülmünü, istibdadını, rüşvətxorluğunu və dinlə mübarizəsini xalqın qəzəb tufanına məruz qoyduğu gün, həm də

onbeşillik sıx və əzablı mübarizədən sonra İran xalqının böyük fədakarlığı ilə İslam quruluşu yaratdığı, fəsad dolu xəyanətkar və bacarıqsız rejimin kokünü kəsdiyi gün.

O, bütün hallarda öz dəyərli vücudunda dərin hikmət və ağlın kənarında iman, şücaət və fədakarlıq zirvəsi nümayiş etdirdi.

O, İranı yaxşı tanıyırdı; həm onun həssas və təyinedici coğrafi və geosiyasi mövqeyini, çoxlu təbii və insani potensialını, böyük istək, məqsəd və arzularını, həm də son 150 ildəki məşəqqətli tarixini, əcnəbi soyğunçular tərəfindən istismar edilməsini, Pəhləvi ailəsinin və ona bağlı min ailənin xəyanətini, fəsadını, azğınlığını, zorla yaradılan yoxsulluğu, elm, sənaye və əxlaq geriliyini, ən üstünü, onun böyük, köklü, rəşadətli və imanlı xalqını.

O, dünyanın, müstəmləkəyə çevrilmiş xalqların, hegemon dövlətlərin, həqiqət təşnəsi olan sərgərdan gənc nəslin, xüsusən də müsəlman ölkələrin və İslam ümmətinin acınacaqlı vəziyyəti ilə tanış idi, buna görə dərd çəkirdi, qəmli Fələstin məsələsi onun böyük qəlbini incidirdi.

Dini vəzifə hissi onu elə böyük və tarixi mübarizəyə vadar etdi ki, tarixin müstəsna şəxslərindən başqa heç kim ona qoşulmamış və kiçik bir hissədən başqa heç kim qalib çıxmamışdı.

O, iqtisadi, əxlaqi və elmi geriliyə, tənəzzülə və yoxsulluğa salınmış İranı azğın rejimin caynağından xilas etmək barədə düşünür və bunun yeganə yolunu İslama qayıdışda, ölkədə siyasi İslam quruluşu yaratmaqda və ilahi dəyərlərin hakimiyyətində görürdü.

O bu yolu açmaqla İslam ümmətinə real bir örnək göstərdi, İslam dünyasında müsəlmanların İslam kimliyinin yenidən dirçəlməsinin ilk mübarək məhsulu olan yeni bir cərəyan yaratdı.

Öz mübarizəsinə birinci addımdan Allahın adı və xalqın çoxlu təbəqələrinin köməyi ilə başladı, onlarla danışdı, onların imanını, ağlını, və iradəsini yardıma səslədi. Heç zaman iddialı partiya və qruplara sarı getmədi, onların məqsədlərinə çox zaman şübhə ilə yanaşdı, siyasi bazarlıqlarından üz çevirdi. Xalqla həmişə səmimi və xeyirxah danışdı.

Agah bir müəllim və mahir bir bələdçi kimi uzun mübarizə yolunda öz ağlını, hikmətini və dərkini yolçuların ixtiyarına buraxdı.

İran xalqının mübarizəsinin dünyanın inanmadığı şəkildə qələbə çaldığı və bütün İran xalqının onun rəhbərliyini ürəkdən qəbul etdiyi zaman öz rəftarı ilə bu ölkənin siyasi tarixində ən böyük dəyişikliyə imza atdı: zalım və dünyapərəstlərin avtoritar hakimiyyəti olan şah üsul-idarəsini Allah bəndələrinin ilahi və xalq hakimiyyət üsulu olan imamətlə əvəzlədi, öz iqtidarını ədalətlə zinətləndirdi, hamının qəbul etdiyi üstünlüyünü bəndəlik və təvazökarlıqla nurlandırdı, sərvətliliyi və varlılığı zahidliklə müalicə etdi, Allahın yolunu və Allaha bəndəliyi bir an da tərk etmədi, üzərində ağır əmanət məsuliyyəti olduğundan öz ruhuna diqqəti daha da artırdı, ürəkdən gələn sözü, Allahı yada salan, Ona təzim edən qəlbi və dindən ilham almış rəftarı onun paklığına və mənəviyyatına aşiq olan İran xalqının düşüncəsinə və beyninə ilahi dərk, hikmət və tədbirin çağlar bulağını cari etdi, dövlət rəsmilərini, məmurları və adi xalqı güclü düşmən və hiylələrlə mübarizəyə, yaradılan böyük problemlərin həllinə hazırladı.

Böyük İmamın mübarək həyatının onillik dövrü İslamın siyasi quruluşunun yarandığı, dünya müsəlmanlarında İslam kimliyinin dirçəldiyi və ölkəmizdə İslam bayrağının ucaldığı dövrdür; İranın müstəqilliyi, azadlığı, xalqın ucalığı, milli qüruru, inkişaf və tərəqqiyə doğru misilsiz irəliləyişi dövrüdür; inqilabi coşqu, siyasi şüur, ölkəni qorumaq və qurmaq üçün hərəkət dövrüdür; İranın dünya miqyasında başucalığı və beynəlxalq hadisələrə təsir göstərmə dövrüdür; ölkəmizin tarixində yeni yolun başlandığı dövrdür. Müsəlman İran bunu davam etdirib maddi və mənəvi inkişaflara nail olacaq.

Hikmətli və müdrik imam bu yolu bəzi əlamətlərlə müəyyən etmiş, yüzlərlə yolaçan tövsiyə əsnasında ölkənin məmurlarına və bütün İran xalqına aydın şəkildə izah etmişdir.

İmam Xomeyninin anadan olmasının yüzüncü ildönümü münasibəti ilə müraciətdən: 1999.

İmamın üç xüsusiyyəti: biliklilik, dindarlıq, qorxmazlıq

Bütün xüsusiyyətlərindən əlavə, çox güclü və mühüm üç xüsusiyyəti bu böyük şəxsiyyətdə qəribə gözəllik və təsir yaratmışdı.

Birinci xüsusiyyət ağıllılıq və biliklilikdən ibarət idi. O, bilikli, ağıllı və dərin bir insan idi. Onda sözün həqiqi mənasında bilik gövhəri vardı. Onun bütün hərəkətlərində bu biliklilik və ağıllılıq əlaməti görünürdü. Onun özünün mütəxəssis olduğu elmlərdə - fəlsəfədə, fiqhdə, irfanda, üsulda və əxlaqda da bu bilik, dərinlik və parlaq ağıllılıq gövhəri göründü, yeni söz ortaya qoydu, keçmiş sözləri təkrarlamaqla kifayətlənmədi.

İkinci xüsusiyyət aydın dindarlıq və iman idi. O, ibadət adamı, lakin qapalılıqdan və durğunluqdan uzaq idi. O, dini mövzularda aydın düşüncəli və yenilikçi idi, amma yenilikçilərin laqeydliklərindən uzaq idi. Çoxları dini məsələlərdə yeni söz ortaya qoyurlar, amma bu yeni söz onların İslam mətnlərinə laqeydlik və biganəliklərinin əlamətidir, dinin yox, onların sözüdür. İmamın aydınlığı və yenilikçiliyi isə dinə və dinin əsaslarına dayanırdı. Odur ki, İslamın etiqad, əxlaq və fiqh məsələlərində ortaya qoyduğu yeni sözü qarşısında bu elmlərin ən böyük mütəxəssis və alimləri təslim olur, onu prinsiplərə söykənən əsaslı bir söz kimi qəbul edirdilər. Buna əsasən, o, dindar və ibadət adamı idi, amma eyni zamanda aydın baxışlı, ayıq idi, ağlını işlədirdi, etiqadi və əməli məsələlərdə geniş üfüqlərə baxırdı. O, Peyğəmbər (s) və imamlar dövrünün dindarlığını yada salırdı.

Üçüncü xüsusiyyəti onun qorxmazlığı, igidliyi və fədakarlığı idi. O özünün haqq, dünyanın isə batil dediyi yerdə həmin dünya ilə mübarizəyə hazır idi. O öz bəyanatlarının birində buyurdu: "Əgər beynəlxalq hegemonluq bizim dinimizi təhdid etsə, biz də onun bütün dünyasını təhdid edəcəyik". O doğru deyirdi, bütün dünyanın qarşısında dayana bilirdi. Necə ki, 1962-ci ildə Qumda hərəkata başlayanda əvvəldə heç kimi yox idi. Əlbəttə, mömin və pak insanlar dərhal dəstə-dəstə ona qatıldılar. İşə başlayanda isə yalqız idi, yalqızlıq

hissi keçirirdi də, amma bu cəsarətə malik idi. İnsan elə bir işə qoşulur ki, qarşısında böyük güclər, hərbi qüvvələr, təhlükəsizlik qüvvələri var, vicdan, din və heç bir mülahzə yoxdur. Arxalarında da qlobal güclər və hegemonluq durur. Belə bir işə qoşulmağın birinci şərti ölümdən qorxmamaqdır və o öz canından keçmişdi, bütün təhlükələri qəbul etməyə hazır idi. Yəni onun üçün canın və digər məsələlərin əhəmiyyəti yox idi. Bəzi adamlar deyirlər ki, biz canımızdan keçdik, əməldə isə quru və boş bir hörmətdən də keçmirlər; puldan, ləzzətdən və ehtirasdan da keçmirlər. Belə adamlar candan keçə bilərlərmi?! O isə doğru deyirdi, həqiqətən canını verməyə hazır idi.

O, bu üç xüsusiyyətlə meydana atıldı. Əlbəttə, imamın müsbət cəhətləri olduqca çoxdur, amma bu üç xüsusiyyət bir-birinə bağlı, bir-birinə qarşı açıq və harmonik təsirli olduğundan mən bunları seçdim.

O bu yolu keçib qələbənin yaxınlığına, yəni 1978-ci ilə çatdı. İndi imam böyük bir hadisə qarşısında qalmışdır. Bu hadisə bir xalqın bütün vücudu ilə himayə etdiyi İslam hərəkatının qələbəsidir. Bu qələbə yalnız azğın və mürtəce bir rejim üzərində qələbə deyildi, həmin rejim ozamankı hegemon güclərin təxminən hamısı tərəfindən himayə olunduğuna görə onların hamısı üzərində qələbə sayılırdı. O bu məmləkəti İslamın üsulu, fikri və proqramı ilə idarə etmək istəyir. Onun qarşısında nə var? İki yüz ilə yaxın bir müddətdə müxtəlif cəhətlərdən təzyiq altında saxlanan, bütün üstün xüsusiyyətlərini sıradan çıxarmağa, zəiflətməyə və məhv etməyə çalışdıqları böyük bir xalq. Əgər son iki yüz ilin tarixinə müraciət etsəniz, imamın işinin əhəmiyyətini daha yaxşı dərk edərsiniz. Mən təkidlə tövsiyə edirəm ki, gənclər bu tarixi öyrənsinlər. Təbliğat qurumları da bu müddətdə ölkənin başına gətirilən həqiqətləri xalqa izah etsinlər. Məncə bu sahədə az iş görülmüşdür.

Tehranın cümə namazı xütbələrindən: 1999.

Acı müstəmləkə illərinin rəvayəti

İngiltərə məmuru olan ser Con Mülküm 19-cu əsrin əvvəllərində Hindistandan İrana daxil oldu. O zaman, yəni Fətəli şah Qacarın hökuməti dövründə ingilislər saray adamları və azğın siyasətçilər üçün aldadıcı və qiymətli hədiyyələrlə İrana daxil oldular, İngiltərə müstəmləkəçiliyi, yaxud başqa sözlə desək, İngiltərənin dağıdıcı nüfuzu - çünki İran adətən başa düşülən şəkildə müstəmləkələşmədi, ondan da pisi baş verdi - İran hökumətlərini güclü əllərində saxladı və onların vasitəsilə istədiyi işi gördü. O zamandan inqilabın qələbə çaldığı günə qədər təxminən 170-180 il ötdü. Bütün bu müddətdə, bütün böyük qlobal güclər, hərbi, siyasi, iqtisadi, mədəni və əxlaqi qüvvələr bu tarixi, köklü, mədəniyyətli, qorxmaz və böyük xalqın üzərində işləyib, onu böyük gücləri heç bir təhlükə ilə təhdid etməyəcək qədər zəif, kiçik, ümidsiz və məyus etdilər. İmam belə bir reallıq qarşısında qaldı. Əlbəttə, bu 170-180 ilin əsas hissəsində İranda İngiltərə, 1963-cü ildən sonra Amerika, ortalarda da Rusiya dövlətinin nüfuzu, rus və ingilis rəqabətləri olmuşdu; Qacarlar dövründə bir cür, Pəhləvi rejimi dövründə isə qat-qat təhlükəli və ağır formada.

Onlar bu xalqa qarşı bacardıqlarını etdilər. Nəticəsi bu oldu ki, imamın qarşısında siyasi baxımdan asılı və tabe olan bir ölkə mövcud idi. O zaman Amerika hökuməti nəyi iradə etsəydi, İranda icra olunurdu, iqtisadi sahədə, neft sahəsində, təyinatlarda, hökumətlərdə - filan hökumət gəlsin, filan hökumət gəlməsin - beynəlxalq münasibətlərdə, xalqa məcburən verilən adət və rəftarlarda, universitet sahəsində istədikləri işi görə bilirdilər. Biz bütünlüklə tabe və asılı, iqtisadi baxımdan da tamamilə istehlakçı və yoxsul idik. Hər şeyi idxal etməli idik. Mən bir dəfə dedim, amma bəziləri inanmadılar; inanın ki, bel dəstəyini bizim ölkəmizə idxal edirdilər, dərzi iynəsini idxal edirdilər, müxtəlif ərzaq məhsullarını idxal edirdilər, sənaye məhsullarını idxal edirdilər. Biz tamamilə istehlakçılıq idik. Yəni bu xalqın, bu istedadların, bu beyinlərin və bu gənclərin öz ehtiyaclarının

bir hissəsini özlərinin istehsal etmək qüvvəsi və imkanı yox idi; "xaricə ehtiyacımız yoxdur" - deyə bilmək imkanı yox idi. Ölkəyə bir sənaye, misal üçün, maşınqayırma, yaxud dəmirəritmə sənayesi gətirildikdə çox yarımçıq gətirilirdi, özü də başdan-ayağa asılı şəkildə. Satdıqları mütərəqqi və model cihazların, misal üçün, hərbi təyyarələrin təmirinə icazə vermirdilər. Bu iş xaricdə görülməli idi. İqtisadi baxımdan yüz faiz asılı və istehlakçı, elmi baxımdan təxminən sıfır həddində idik. Bu xalqın yeni dünya elmlərinə dair heç bir təzə sözü yox idi. Universitetlər kəmiyyət baxımından da çox az idi. Pəhləvi rejiminin sonlarında ölkədə indikinin təxminən onda biri qədər tələbə var idi. Əgər bir sinifdə bir dərs deyilsəydi də, hər bir sahədə - istər humanitar elmlərdə, istər texnika və sənaye elmlərində, istər təbii elmlərdə deyilən sözlər digərlərinin sözləri idi, heç bir elmi yenilik yox idi. Milli sərvət sarıdan talanmışdıq; özləri istədiyi qiymətə nefti, mədənləri, hər şeyi aparırdılar. İctimai baxımdan, yoxsul və zənginin vəziyyəti baxımından ölkə çox bərbad vəziyyətdə idi. Bu ölkədə elektrik enerjisi, içməli su və bu kimi imkanlar görməyən, bunlara ümidvar da olmayan minlərlə və bəlkə on minlərlə kənd vardı. Yalnız Tehrana və bir neçə böyük şəhərə baxırdılar, o da bəlli formada. Tehran o zaman dünyanın ən çirkin və ən çirkli paytaxtlarından biri sayılırdı. Təkcə özlərinə qulluq edirdilər, özlərinin harada ayaq yerləri var idisə, orada aeroport da var idi, rifah imkanları da. Amma özlərinə lazım olmayan yerlər ümumiyyətlə başlı-başına buraxılmışdı. Təbəqələr arasındakı fərq özünün pik həddinə çatmışdı.

Əxlaqi baxımdan işləri fəsad yaymaq idi. İnqilabdan öncə - altmışıncı illərin sonlarında və yetmişinci illərin əvvəllərində gənclər üçün etdiyim çıxışlarda dəfələrlə nümunə və faktlar göstərib deyirdim ki, cinsi özbaşınalıq, hicabsızlıq və pozğunluq baxımından bizim ölkəmizdə olan vəziyyət Avropa ölkələrində də yoxdur. Doğrudan da yox idi; mənim məlumatım vardı. Düzdür, Avropa ölkələrində hansısa fəsad mərkəzinin olması mümkün idi. Amma orada xalqın həyat tərzi, misal üçün, qadınların vəziyyəti, geyimi və rəftarı bizim xüsusən bəzi şəhərlərimizin vəziyyətindən yaxşı idi. Əxlaq baxımından xalq müxtəlif

bəlalara düçar olmuşdu; təkcə ehtiras məsələlərində yox. Onların vasitəsilə insanların bir-birləri ilə münasibətləri, xalqın etimadı bütünlüklə zədələnmişdi. Qəsdən bu hala salmışdılar. Xalqın həvəssiz, hövsələsiz, ümidsiz olmasını istəyirdilər. Bir xalqı inkişaf etdirən xarakterlər ümid, aktivlik və ciddilikdir. Ümidsiz olan, öz gələcəyindən məyus olan və özünü təhqir edən xalq inkişaf etməz. Hansı məhsulun daxildə istehsal olunduğu deyilirdisə, "dəyəri yoxdur" demək idi. Təhsilli şəxslər və digərləri bir-birinə deyirdilər ki, iranlı palçıq aftaba da düzəldə bilmir. Yəni inkişaf etmiş elmi nəsil də bu ölkənin elmi gələcəyinə ümidsiz idi. Bu, sözügedən əxlaq problemidir.

Biz dünyanın elm və sivilizasiya karvanından geridə, ən mürtəce hökumətlərdən birinə malik idik. Hakimiyyət sülalə hakimiyyəti idi: bir nəfər ölür, hansı yaşda, hansı şəraitdə və hansı xüsusiyyətdə olursa-olsun, xalq onun övladını özünün mütləq hakimliyinə qəbul etməyə məcbur olurdu. Nə elm, nə təqva, nə ağıl - heç bir şey meyar deyildi. Belə bir rejimi İranda konstitusiyaya salmışdılar; Rza xanın çəkmələri və onun məmurlarının iti baxışları altında bu Tehranda qəbul olunmuş konstitusiyaya. İran dünyada xar edilmişdi. Beynəlxalq toplantılarda bir fikir sahibi, bir şəxsiyyət kimi İranın adı çəkilmirdi, digərlərindən sədəqə alan və sınaq yeri olmuşdu. Bəzi iqtisadi və digər nəzəriyyələri burada sınaqdan keçirirdilər ki, görsünlər nəticəsi nə olacaq; maddi baxımdan yoxsul, mənəvi baxımdan yoxsul, siyasi baxımdan yoxsul, şəxsiyyət baxımından yoxsul idi. İmam belə bir cəmiyyət və belə bir ölkə qarşısında qalmışdı.

Burada çox mühüm bir məqam var. O da budur ki, İran xalqı böyük və istedadlı xalqdır. O vəziyyət sonradan yaradılmış bir şey idi. İmamın fəryadı ucalanda xalq hərəkətə gəldi. Düzdür, imamın başladığı gündən bu əzəmətli okeanın dalğalandığı və coşduğu günə qədər on beş il çəkdi - əziyyətli on beş il. Lakin xalq əsil-nəsəbli, köklü, istedadlı, qeyrətli, mədəniyyətli və dindar xalq idi, özünü uyuşdurucu və yuxulu vəziyyətdən xilas edib ayağa qalxa, mübarizə dövründə, xüsusən də son bir-iki ildə öz şəxsiyyətini göstərə bildi. Bu müsbət cəhət idi. Lakin uzun

illər bu ölkədə məcburən yaradılan və öz təsirlərini buraxan reallıqlar imamın qarşısında idi. İndi imam bu cəmiyyəti gözəl və ideal formada qurmaq istəyirsə, nə etməlidir? Görün bu nə qədər mühümdür, zarafat deyil. Siz elə bir yerə getmisiniz ki, materiallar var, imkan var, yer var, lakin bina uçulub-dağılmışdır. Bu materiallarla bu yerdə uca, əzəmətli və əbədi bir bina tikmək istəyirsiniz. Hər mühəndis bu işi görə bilməz. Burada həmin əzəmətli kimlik və şəxsiyyət özünü göstərir. İmam bu xalqa, bu ölkəyə, bu səhnəyə və bu materiallara baxdı. O, İslamı tanıyırdı, İslam amallarını və İslam hökmlərini də bilirdi. İslam materialları və bu xalqın əli ilə əzəmətli, müstəqil, başıuca, xoşbəxtliyə və inkişafa aparan və keçmişin nöqsanlarını düzəldən bir hökumət qurmaq istəyirdi. O bu xalqda hər şeydən çox nəyə diqqət yetirməli idi? Prioritet nə idi?

Tehranın cümə namazı xütbələrindən: 1999.

İmamın hərəkətində əsas prioritetlər

İmam prioritetləri təyin etdi və rəhbər tutdu. Mənim fikrimcə, bu prioritetlər birinci növbədə iki məsələdən ibarət idi. Biz ilk gündən imamın buyruqlarının, düşüncələrinin, mühakimələrinin və hadisələrdə rəftar tərzinin çoxunu yaxından müşahidə edirdik. Buna görə düzgün anlaya bilərik. Siz bu gün də imamın söz və əməllərini araşdırsanız, imam haqqında bildiklərinizi qarşınıza qoysanız, həmin iki məsələni aydın şəkildə müşahidə edərsiniz.

Birincisi xalqda özünəinam və müstəqillik hissinin dirçəldilməsidir. Uzun illər xalqı inandırmışdılar ki, siz bacarmırsınız. Bütün təbəqələrdən olan şəxslər – ruhani, qeyri-ruhani, ali təhsilli, alim, cahil nə qədər deyirdilərsə, cavab verirdilər ki, olmaz, faydası yoxdur. Bu hiss dəyişilməli idi. Belə ictimai xarakterlər fərdi xarakterlər kimi deyil. Fərdi xarakterlər də asanlıqla dəyişilmir, ictimai xarakterlər isə olduqca çətindir. İmam bunu özünəinam, özünə güvənmək və müstəqil hərəkət hissinə çevirməli idi. Bundan ötrü o bu xalqdan qeyrisinin heç bir müdaxiləsini və təsirini xalqa məcbur etməməli idi və etmədi. İmamın Amerika və ozamankı sovetlər qarşısında möhkəm dayanması bundan ötrü idi. Amerikalılar tam iyirmi beş il başlarını aşağı salıb asanlıqla buraya gəlib-gedirdilər. Burada geniş bir süfrə açılmışdı, onlar və bir qrup muzdur istədikləri hər bir işi görürdülər. İnqilabın ilk aylarına qədər hələ ümidlərini üzməmişdilər. Mən bəzi məsələləri xatırlayıram, lakin indi onları deməyə vaxt yoxdur. İmam bu böyük iddialıların hamısını susdurdu. Əgər azca diqqətsizlik etsəydi, qapıdan qovulmuş həmin şəxslər müxtəlif yollardan və müxtəlif pəncərələrdən yenidən daxil olacaqdılar. İmam əcnəbinin hər hansı nüfuz və hökmranlığının qarşısında möhkəm dayandı. Bu birinci məsələ idi.

İmamın çox diqqət yetirdiyi ikinci məsələ xalqda dini ruhiyyənin dirçəldilməsi və imanın gücləndirilməsi idi. Bu iman onun özündə də var idi. Buna görə dini məsələlər, bəndəlik və dinə aid olan hər bir iş

üçün çox çalışdı, diqqət göstərdi və bu sahədə əsla güzəştə getmədi. Çünki din çarədir. Bir xalqda dini ruhiyyə olduqda, təsiri təkcə fərdi baxımdan yaxşı, təmiz və abid insanların olması deyil, düzgün dini ruhiyyənin təsiri ictimai həyatda da əks olunur. Məhz buna görə dünyanın bütün böyük düşmənləri və ölkədəki ardıcılları imamın yaydığı və əsl İslam adlandırdığı dinə qarşı çıxmağa başladılar. Deyirdilər ki, bu din siyasət və hökumət dinidir. Bəzən də anadan qayğıkeş dayə olub - indi də bəzən belə olurlar - deyirdilər ki, siz siyasət və hökumət dinindən danışanda, xalqın dini və imanı zəifləyir. Bu həqiqətin tam ziddinədir. Bir cəmiyyətdə din olduqda orada fədakarlıq ruhiyyəsi olur; bir cəmiyyətdə din olduqda orada agahlıq, sayıqlıq və məsuliyyət hissi olur. Siz görürsünüz ki, bu gün bizim cəmiyyətimizdə və ölkəmizdə, xalqın məlumatlandığı qədərincə, dini məsələlərə qarşı məsuliyyət və qeyrət hissi var. Bu, dini ruhiyyəyə görədir. Düşmən bu ruhiyyəni zəiflətmək istəyir. İmam bütün cəmiyyətdə - həm hökumət orqanlarında, həm də xalqda bu ruhiyyəni bacardıqca gücləndirir, hökumətdə, parlamentdə, məhkəmə qurumlarında, qanunlarda, Nəzarət şurasında, seçkilərdə və hər bir işdə dini inanc, bəndəlik və dinə sadiqlik üzərində təkid göstərirdi. İmam bu iki xüsusiyyəti prioritet seçmişdi. İmamın bu xalqın qarşısında qoyduğu proqramların əksəri bu iki məsələyə aiddir.

İmam İslam Respublikası məsələsini irəli sürdü. İslam Respublikası yeni yaranmış bir hakimiyyət növü olub, dünyada geniş yayılmış quruluşların heç birinə bənzəmirdi. Amma bu quruluşlarda mövcud olan bütün müsbət xüsusiyyətlər İslam Respublikasında nəzərdə tutulmuşdur: İslam var, xalqın iradəsi var, xalqın imanı var, iqtidar hissi var, bəndəlik var, insanın həyatını dirçəldən İslam hökmləri və qanunları var. Bəli, biz İslamı imam tərəfindən tanındığı kimi, yəni düzgün və xalis formada, prinsip və əsaslara söykəndiyi şəkildə əməl mərhələsinə çıxarsaq, hər yerdə uğurlu alınacaq. Biz harada işə girişib müdafiə etdik və təkid göstərdiksə, uğurlu alındı. İslam dini hökumət sistemində uğurla həyata keçdi. İndi vaxt yoxdur ki, mən İranda hakim

quruluşun bir xalqın azadlığı və inkişafı üçün dünyanın bütün quruluşlarından daha münasib olduğunu deyim. Bu quruluş həm Qərb demokratiyasından, həm də digər müxtəlif hakimiyyət növlərindən üstündür. Avtoritar quruluşlarla müqayisəyə isə ümumiyyətlə ehtiyac yoxdur. İslam quruluşunun təklifinə harada əməl olundusa, uğurlu alındı. Mədəni məsələlərdə və düşmənlə mübarizədə də uğurlu alındı. O günə qədər bizim ölkəmiz və xalqımız həmişə Qərb mədəniyyətindən alırdı, imamın hərəkəti sayəsində isə ikitərəfli mədəni mübadilə yarandı, bir mədəni təsir də bizim mərkəzdən - yəni İslam cəmiyyətindən xaricə ötürüldü. Bu məsələ dəfələrlə hegemon başçıları qorxuya salmışdır, bu günə qədər bunu təkrarlayırlar. Onlar fəryad qoparırdılar ki, siz inqilabınızı ixrac etmək istəyirsiniz. Halbuki biz inqilabımızı qablaşdırıb harasa ixrac etmək istəmirdik. Burada məqsəd İslam ölkələrinə və hətta qeyri-müsəlman ölkələrə gedib insanları oyadan bu mədəni təsir idi.

Tehranın cümə namazı xütbələrindən: 1999.

13 Abanda hegemonluğun üç siması

Bizim bugünkü görüşümüz 13 abanla (4 noyabrla) bağlıdır. Bu gün Hegemonluqla mübarizə günü adlandırılmışdır. Bu çox əhəmiyyətli, dərin, mürəkkəb və diqqətəlayiq bir addır. Yaxşı olar ki, əziz gənclər tələbə və şagird məclislərində həm hegemonluq, həm mübarizə sözlərini özləri üçün dəqiq araşdırsınlar, inqilabın dünyanın siyasi leksikonuna daxil etdiyi bu yeni terminin dərinliklərinə vaqif olsunlar. Dünyanın siyasi ədəbiyyatına yeni sözlər əlavə etmək və bununla da özlərinin istədiyi anlayışları düzgün çatdırmaq bütün prinsipial, dərin və köklü hərəkətlərin xüsusiyyətidir. "Hegemonluq" və "hegemonluqla mübarizə" sözləri də bu qəbildəndir. 13 Aban (4 noyabr) tarixində baş vermiş üç hadisənin hər biri ayrı-ayrılıqda və məcmu halında çox diqqətəlayiqdir. Əgər diqqət yetirsəniz, görərsiniz ki, bu üç hadisənin hər biri həm hegemonluğun, həm də onun qarşısında dayanan xalqın bir simasını göstərir. Bunların məcmusu mühüm bir siyasi həqiqəti aydınlaşdırır.

Birinci hadisə 1964-cü ildə imamın sürgün edilməsi idi. O zaman amerikalılar İranda kapitulyasiya qanununu qəbul etdirdilər. Kapitulyasiya odur ki, amerikalılar, yaxud hər hansı bir başqa ölkədə hakim olan əcnəbi qüvvələr cinayət törətsələr, həmin ölkənin hüquq-mühafizə orqanlarının bu cinayətləri araşdırmağa, əcnəbiləri məsuliyyətə cəlb edib barələrində hökm çıxarmağa hüququ çatmır. O zaman İranın müxtəlif qurumlarında 200 000 nəfərdən çox amerikalı çalışırdı. Bu qanun çürük və qeyri-müstəqil sarayın əmri ilə ozamankı asılı və azğın parlamentdə qəbul olunmuşdu. Onun mənası bu idi ki, İranda sakin olub külli miqdarda maaş alan, ölkənin bütün işlərinə müdaxilə edən amerikalıların biri cinayət törətsəydi, bir nəfəri öldürsəydi, oğurluq etsəydi, hər hansı bir iş görsəydi, İran prokurorluğunun və məhkəməsinin onlara "gözün üstə qaşın var" deməyə haqqı çatmırdı. Onların mühakiməsi amerikalıların nəzarəti altında aparılmalı idi. Bu bütün xalqlar üçün rüsvayçı qanunlardan biridir. İmam bununla razılaşmadı və Qumda dini tələbələr qarşısında

öz etiraz səsini ucaltdı. O bu qanunu pislədi, asılı rejim də reaksiya verib imamı Türkiyəyə sürgün etdi. Bu hansı şəraitə aiddir? Bu elə bir şəraitə aiddir ki, Amerika dövlətinin İran dövləti ilə yüksək dost münasibətləri vardı, müştərək maraqlara malik idilər, Amerika İranda oturmuşdu. Amerikanın bizim ölkəmizdəki hökmranlığının əlamət və nəticələrindən biri bu hadisədir.

1978-ci ildə baş verən ikinci 13 Aban hadisəsi İranda rejim və Amerika əleyhinə mübarizənin qızğın çağına aiddir. Bu dəfə başqa bir sima görsənir. Belə bir gündə rejimə bağlı orqanlar - onların çoxunu, yaxud hamısını amerikalılar yetişdirmişdilər və onlardan əmr alırdılar - hətta şagirdlərə də rəhm etmədilər. Bu hadisədə onlarla şagird öldürüldü. Düzdür, həmişə öldürürdülər, həmişə xalqa qarşı zor işlədirdilər, lakin Tehran şəhərində bir yerdə bu qədər şagirdin qana boyanması hegemonluğun başqa bir simasını göstərir. Bu haraya aiddir? Bu, xalqın zalım hegemonluğa qarşı mübarizəsinin gücləndiyi yerə aiddir. Belə bir şəraitdə hegemonluq daha heç nəyə rəhm eləmir, bütün humanizm, xalqsevərlik və gəncləri müdafiə şüarlarına baxmayaraq, hətta şagirdlərlə üz-üzə gələndə onlarla şagirdi qətlə yetirir.

Üçüncü hadisə başqa bir simadır, uzun illər zülmlərə, təhqirlərə, müdaxilələrə və soyğunçuluqlara dözən bu xalqın qələbə çaldığı vaxta aiddir. Bu xalqın qələbə dövründə Amerika artıq qovulmuşdu, lakin buradakı casus orqanı işindən qalmırdı, xalqı və imamı çox bədgüman edən bəzi hərəkətlər edirdi. Belə bir gündə tələbələr arasından bəzi gənclər 13 aban yürüşündən istifadə edib Amerika səfirliyini tuturlar. Gənc tələbələr səfirliyə girib sənədləri topladılar, təxminən 70 cildlik, bəlkə daha artıq kitablar nəşr etdirdilər. Bu kitablar Amerika səfirliyinin bizim ölkəmiz daxilindəki adamları ilə əlaqələrini göstərir; bəziləri inqilabdan qabaqkı dövrə aiddir, bəziləri də sonrakı dövrə. Onların bəziləri hətta inqilab müvəqqəti hökumətində də vəzifə tutmuşdular; yəni amerikalılar əl çəkmək bilmirdilər.

Buna əsasən, 13 abanda hegemonluğun üç siması görünür. Biri Amerikanın İrandakı iqtidarının zirvə dövründə baş verdi:

kapitulyasiya, İran xalqının dirəniş tərənnümü olan imamın müqaviməti və onun ardınca gənclərin cavabı; o zaman əvvəlcə gənc hövzə tələbələri, sonra isə bütün ölkə gəncləri cavab verdilər. İkinci hadisə bu xalqın hegemonluqla mübarizəsinin zirvə dövründə baş verib hegemonluğun yırtıcı xislətini göstərir. Onlar şagird və yeniyetmələri qana bələşdirdilər. Üçüncü hadisə isə bu xalqın uzun illər əsarətdən sonra öz ayağı üstə dayanıb inqilabda qələbə çadığı və dövlət qurduğu, onların isə casusluqla məşğul olduğu zamana aiddir. Burada xalq qüdrətlə meydana atılır və Amerika səfirliyini tutur. Bunlar üç rəmz və üç simvoldur. Əgər bu üç hadisəni bir yerə toplasaq, ümumi şəkildə həm hegemonluğun, həm məzlum xalqın simasını, hegemonluğun taleyini və ölkəmizdəki hərəkət xəttini göstərər.

Nə üçün xalq hegemonluqla mübarizə apardı və hegemonluq nə üçün pisdir? Diqqət yetirin. Hegemon xislətlə qarşılaşdıqda bir xalqın keçirdiyi ilk hiss dini hiss deyil, milli qeyrət hissidir, şəxsiyyət və varlıq hissidir. Çünki hegemonluq bir ölkəyə daxil və ona hakim olduqda, o xalqın milli kimliyini inkar edir. Bəli, o ölkənin sərvətlərini qarət edir, siyasi işlərinə müdaxilə edir, lakin bunların hamısı xalqın kimliyini inkar edəndən sonra baş verir. Hegemonluq ilk dəfə daxil olanda demir ki, mən sizin milli kimliyinizi inkar etmək üçün gəlirəm. Belə demir, müxtəlif bəhanələrlə daxil olur və sonra milli kimliyi hədəfə alır; yəni o xalqdan mədəniyyəti, etiqadları, dini, iradəni, müstəqilliyi, hökuməti, iqtisadiyyatı və hər şeyi alır, öz əlində saxlayır. Bunlar inqilabdan öncə İranda baş vermişdi. Xalqları hegemonluq qarşısında coşduran və ayağa qaldıran bu hissdir. Buna görə görürsünüz ki, hətta müsəlman olmayan xalqlar da bu gün bacardıqları qədər Amerikaya qarşı çıxırlar. Təbii ki, söhbət bu gündən gedir, o zaman isə heç kim Amerikaya qarşı çıxmağa cürət etmirdi və bu yolu İran xalqı açdı.

Amerikanın casus yuvasının tutulmasının ildönümü - Beynəlxalq Hegemonluqla Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1999.

Amerika ilə rabitəyə dair acı təcrübə

Bizim xalqımızın hegemonluqla mübarizəsinin dini kökü də var. “İstikbar” (hegemonluq) və “müstəkbir” (hegemon) və onun qarşısında “istizaf” (məzlum acizlik) və “müstəzəf” (məzlum aciz) sözləri Quranda mövcuddur. Bizim xalqımız bu ruhiyyə ilə Amerika və ona bağlı olan mənfur rejimə qarşı mübarizə aparanda arxasında dini iman və etiqadlardan ibarət əzəmətli bir dayaq dayanmışdı. Bu, onları uğura çatdıra bildi. Hegemonluq hansı ölkəyə daxil olsa, onu boşaltmağa çalışır; yəni bacardığı qədər o ölkənin hər bir şeyini müsadirə edir. Bu gün ön sırada amerikalıların özləri, yəni qeyd etdiyim təbliğat maşınları, arxa sırada da ölkəmiz daxilindəki həqiqətən dəyərsiz, yaramaz, bəlkə də bəziləri aldanmış və avam olan muzdur qələm sahibləri elə bilirlər ki, Amerikanın hər hansı bir ölkə, məsələn İslam Respublikası ilə əlaqələri normallaşsa və münasibət yaransa, İran xalqının bütün iqtisadi problemləri birdən-birə həll olunacaq. Kim belə düşünürsə, böyük səhvə yol verir. İran xalqı Amerika ilə əlaqəni bir dəfə sınaqdan keçirmişdir. Amerikalılar İranda hegemonluq etdikləri 1953-cü ildən 1978-79-cu illərə qədər nəyimiz vardısa, bizdən aldılar, nə vardısa, apardılar. İran xalqının bugünkü problemlərinin çoxu o dövrə, eləcə də ingiltərəlilərin hökmranlıq dövrünə aiddir. İngiltərə də Amerika kimidir, fərqi yoxdur. Amerikalılardan qabaq İranda ingilislər hakim idilər. Qacarlar dövrünün sonlarından Rza xanın iş başına gəlməsinə və sonra 1953-cü ilə qədər İranda hər bir şey ingilislərin əlində idi; bir hökuməti gətirir, o birini aparırdılar, nefti aparırdılar, sərvətləri talayırdılar, mədəniyyət formalaşdırırdılar, istədikləri hər bir işi görürdülər. Sonra amerikalılar gəldilər və İranı beynəlxalq rəqabətlərdə fəth etdikləri bir bölgə kimi ingilislərdən təhvil aldılar.

Amerikanın casus yuvasının tutulmasının ildönümü - Beynəlxalq Hegemonluqla Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 1999.

İnqilabın İslam ümmətinə şərəf bəxş etməsi

İslam inqilabı bütün dünyada İslamı ucaltdı. İslam inqilabı göstərdi ki, İslam bir xalqı ucaldıb şərəfləndirə, əcnəbilərin istismarından və boyunduruğundan xilas edib düşdüyü təhqiramiz durumdan çıxara, bir xalqın bütün sahələrdə istedadlarını çiçəkləndirə, bir xalqa özünü, öz etiqadlarını, kimliyini və şəxsiyyətini müdafiə gücü verə bilər. İslam inqilabı bunu göstərdi. Məhz buna görə İslam inqilabı qələbə çalanda, dövrümüzün əzəmətli və misilsiz şəxsiyyəti olan böyük imamımız bu xalqın adından danışanda dünyanın bütün müsəlmanları fəxr hissi keçirdilər, sanki dirildiklərini duydular. İslam ümmətinin damarlarına köçürülən bu yeni qan düşmənləri çox təşvişə saldı. Onlar bütün güclərini toplayıb bu əzəmətli fenomenlə - yəni bu gün bir xalqın fəryad şəkdiyi inqilabçı İslamla mübarizəyə başladılar.

Bəsic həftəsi və İmam Mehdinin (ə) doğum günündə zühur müntəzirlərinin böyük bayram tədbirində çıxışdan: 1999.

Hərbi Hava Qüvvələrinin inqilaba qoşulmasının təhlili

Əgər 19 Bəhmən hadisəsini və Hərbi Hava Qüvvələrinin uyğun hərəkətini yaxşı təhlil etsək, bu hadisədə və bu hərəkətdə çoxlu mənalar görərik. O gün ordu əslində özünü xalqın ön sıralarına qoşdu; eyni məqsədlərlə, eyni arzularla, eyni maraq və üsullarla. Xalq əziyyət çəkirdi. İnqilab bu xalqın əzablarına son qoymaq və gələcəyini qurmaq üçün möhtəşəm bir hərəkət idi. Xalq bu ölkəyə hakim olan qara istibdad və diktaturadan əziyyət çəkirdi. Əvvəla bu şah üsul-idarəsinin nəticələrindən idi. Çünki belə quruluş bir xalqa ağalıq, sahiblik və onun bütün sahələrinə iqtidar caynağı batırmaq deməkdir, buna dözmək isə olduqca çətindir. İkincisi, həmin hakim sülalə bu istibdadı və azğınlığı əxlaqsızlıqla, müxtəlif fəsadlarla və ən pisi, bu ölkəni və bu xalqı bütünlüklə əcnəbilərə və düşmənlərə təslim etməklə qarışdırmışdı. Xalq bundan əziyyət çəkirdi.

Bir xalq əcnəbi bir qüvvənin mədəni, siyasi, iqtisadi və hərbi istismarı altında olanda öz arzuladığı istiqamətə hərəkət və inkişaf etmək imkanından məhrum olur. Hər bir canlı varlıq inkişaf etmək istəyir. Əgər siz bir bitkinin inkişafının qarşısını alsanız, onu əkdiyiniz qabı sındıracaq, daşı parçalayacaq və inkişaf edəcək. Bir insan və bir xalq da belədir. Bir xalqda bu hissi və marağı məhv etmək üçün böyük güclərin düşündüyü yol xalqları keyləşdirmək, biganələşdirmək və uyutmaqdır. Azğın Pəhləvi rejimi bütün mümkün vasitələrlə bu işi görür, xalqı xəyallara qərq edir və bəzən bərbəzək və təmtəraqlar göstərirdi. O zaman ordunu bu bəlaya salmışdılar. Ordu dözmədi və çərçivəni qırdı. Belə bir gündə Hərbi Hava Qüvvələrinin gəncləri Ələvi mədrəsəsinə gəldilər. Mən onda orada idim, həmin coşqunu və qəhrəmanlığı yaxından gördüm. Bu, sözügedən çərçivəni qırmaq məsələsi idi.

Ordunu daxildən məhv etmişdilər. Özlərinə sərf edən, öz zahiri cah-calallarına aid olan qədərincə orduya zahiri görkəm və bərbəzək verirdilər, lakin elm, texnologiya, tədqiqat və istehsal əsla mövcud

deyildi. Hərbi Hava Qüvvələri bir texnika və alət göstərib desin ki, bunu mən düzəltmişəm, mənim övladlarım öz düşüncələrinin məhsulu ilə düzəltmişdir; əsla belə bir şey yox idi və buna icazə vermirdilər. İnsan həmin insandır, Hərbi Hava Qüvvələrinin ozamankı gənci istedad və keyfiyyət baxımından bugünkü gənci kimi idi, lakin ona icazə vermirdilər. Təhsil xüsusi bir çərçivədə, əcnəbi ölkədə müəyyən şəraitdə verilirdi; əmr, ölçü və üsullar təkcə hərbi işdə yox, həm də mədəni və etiqadi sahədə əcnəbilərin təsiri altında və əlində idi. Onlara 3-4 texnika da verirdilər. Bu orduya bir qədər texnika verirdilər, amma bir ehtiyat hissəsi yerini dəyişdikdə, yaxud xarab olduqda onlardan istifadə edə bilmirdilər. Belə bir ordu necə ordudur və necə müstəqil ola bilər?! Məsələ belə idi. O zaman söhbət bundan getmirdi ki, İran ordusu öz tədqiqatının məhsulundan istifadə edə bilsin; əsla. Hətta bundan da getmirdi ki, ona verilən həmin təyyarəni, radarı, yaxud müasir elektron cihazı dəqiq öyrənsin; buna da icazə verilmirdi. Bu bir varlığın inkişafının qarşısını alan daş, maneə və pərdədir. Bu varlıq key və laqeyd qalana qədər bu pərdə var, özünə gəldikdə isə pərdələri və maneələri götürür. Bu baş verdi və ordu özünü İran xalqının ön sıralarına daxil etdi.

Şəhid Səttari adına Aviasiya Universitetində Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2000.

Diktator Pəhləvi rejiminin iqtisadi, sənaye və elmi asılılığı

Amerika dövləti iyirmi beş il diktaturanı müdafiə etdiyini boynuna alır; bugünkü gündə də diktaturanı müdafiə edir, lakin təbliğatla və hiyləgər formada. Bu gün onlar yoxdurlar, cəhənnəmə vasil olmuşlar, amma tör-töküntüləri və zibilləri Amerikada dövlətin himayəsi altında yaşayırlar. Dünyanın hər bir yerində və hətta öz ölkəmizin bəzi yerlərində də peyda olan muzdurlar Amerika tərəfindən himayə olunurlar. Bu gün Amerikanın bu qadın naziri[1] çıxışında şah rejimini təbliğ edir və yalandan tərifləyir. Deyir ki, şah rejimi diktator və pis idi, lakin İran iqtisadiyyatını inkişaf etdirdi. Bu, indiki şəraitdə bir Xarici işlər nazirinin deyə biləcəyi ən böyük və ən komik yalandır. Onlar İranın iqtisadiyyatını inkişaf etdirmişlər?! O zaman yaşayanlar həqiqətləri yaxından görmüşlər. Gənclər də bilsinlər ki, inqilabdan qabaqkı İranda yalnız Pəhləvi dövrünün iqtisadiyyatı baxımından yox, hətta təsiri illər sonraya qədər qalan iqtisadi təməllər baxımından da bu rejim İran iqtisadiyyatına ən böyük xəyanəti etmişdir. Onlar İranı Qərbin dəyərsiz və faydasız məhsullarının anbarına çevirdilər, çoxlu pullar verib keyfiyyətsiz və lazımsız mallar aldılar, bir zaman özünü tam təmin edən bu ölkənin əkinçiliyini bütövlüklə məhv etdilər. İllər ötəndən sonra indinin özündə də bizim əkinçiliyimiz qabaqkı vəziyyətinə qayıtmamışdır. Çünki onların həvəsləndirməsi ilə şəhərlərə sarı baş alan mühacirət selinin qarşısını asanlıqla almaq mümkün deyildi. Xalqı əkinçilikdə də əcnəbidən asılı etdilər. O zaman İranın buğdasını Amerikadan alırdılar, buğda anbarını da Sovet mühəndisləri düzəldirdilər. Yəni həm buğda, həm də onun saxlanma yeri baxımından asılı idilər. O zaman kəndləri dağıtdılar, sənaye inkişafı dövründə ölkənin sənayesini yerində saxladılar, idxalatın qarşısını almaq üçün zəruri olan sənaye inkişafı baş vermədi. Bu ölkədə fəal sənayenin qarşısı alındı, xaricə asılılığı istehsal olunmuş məhsullar qədər və hətta daha

[1] Amerika Birləşmiş Ştatlarının Xarici işlər naziri Madlen Olbrayt.

çox olan sənaye geniş yayıldı. Elmi inkişaf etməyə qoymadılar. Universitet və tələbədən bu qədər dəm vurdular, amma əməldə ölkə universitetlərinin ən az elmi fəaliyyəti də yox idi. Fəal beyni və parlaq istedadı olanlara ölkə daxilində imkan verilmirdi, xaricə gedib işləməyə məcbur olurdular. Onlar xarici kompaniyaları ölkənin iqtisadi mənbələrinə hakim etdilər, neft ehtiyatlarını təmənnasız olaraq onlara verdilər. Düzdür, bu gün də neftin qiyməti ucuzdur. Bu gün də neft istehsalçılarının neftdən ötrü aldıqları pul onun dəyərinin bəlkə də onda biri qədərdir. Mən bunu sizə deyim: Bu gün nefti idxal edən ölkələrin buna görə aldığı vergi onu ixrac edən ölkələrin satışdan əldə etdiyi gəlirdən çoxdur. Bu gün də elədir, amma o zaman bu günlə müqayisəediləsi deyil. Uzun illər - yetmişinci illərin əvvəllərinə qədər neftin bir barelinin qiyməti bir dollardan az idi. Sonra avropalıların və amerikalıların özləri öz məhsullarını baha qiymətə satmaq üçün və neft ölkələrinin həmin məhsulları almaq imkanı olsun deyə öz iradələri ilə neftin qiymətini bir qədər tərpətdilər və təxminən 8-9 dollara çatdı. Məqsəd bu idi ki, bunlar pullaşıb onların zavodlarının məhsullarını alsınlar. Elə də oldu. Şah rejimi dövründə İranda amerikalılara məxsus hesablara saysız-hesabsız pullar tökülürdü ki, qarşılığında təyyarə hissələri və lazım olan məhsulları alsınlar. İstehsaldan ümumiyyətlə söhbət getmirdi. İranın ozamankı iqtisadiyyatı İran xalqı üçün ən pis iqtisadiyyat idi. Sözsüz ki, soyğunçular və amerikalılar üçün çox yaxşı idi. Hər bir analitik və iqtisadiyyatçı bilir, o zaman da bilirdilər və heç kəsə sirr deyildi ki, şah rejimi ölkənin iqtisadiyyatını necə bərbad hala salmışdır. Uzun illərdən sonra bu gün bu cənab isə deyir ki, o rejim İranın iqtisadiyyatını çiçəkləndirmişdi. Nə üçün bu sözləri deyirlər? Ona görə ki, bu gün bu ölkədə yaşayan və bəzən iqtisadi baxımdan əziyyət çəkən gənc keçmiş rejimdə iqtisadi vəziyyətin yaxşı olduğunu düşünsün. Bu hiyləni həmin siyasi cənab çox sadə formada bəyan edir. Onun məqsədi keçmişdə İran iqtisadiyyatının güclü olduğuna dair fikir formalaşdırmaqdır. Yoxsul təbəqələr üçün ən pis, bu ölkənin təbii sərvətlərinin əcnəbilər, xüsusən də Amerika tərəfindən talanı

baxımından ən acınacaqlı dövr həmin dövrdür. O isə deyir ki, iqtisadi baxımdan çiçəklənmişdi.

Müqəddəs Məşhəd şəhərində həzrət İmam Rzanın (ə) ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2000.

Fəhlə və müəllimlərin inqilabda mühüm rolu

Əgər inqilabın 21 illik keçmişinə, həmçinin inqilabdan öncəki son illərə, xüsusən də sonuncu ilə baxsaq, bu iki təbəqənin - fəhlə və müəllimlərin inqilabın qələbə çalmasında, onun yolunun yaşamasında və uğurlarında təyinedici rol oynadığını görərik.

Beynəlxalq Əmək günü və Ustad Mütəhhərinin şəhadətinin ildönümü münasibəti ilə fəhlə və müəllimlərlə görüşdəki çıxışdan: 2000.

İnqilabın Şərq və Qərbdən örnək götürməməsinin səbəbləri

İnqilab bir sıra dəyərlər əsasında köklü bir dəyişiklik və irəliyə doğru hərəkət sayılır. Bizim ölkəmizdə baş verən inqilab İslam inqilabıdır. Bu inqilab cəmiyyətin siyasi, iqtisadi və mədəni sahələrində böyük dəyişiklik, bu ölkənin və bu xalqın inkişafa doğru bir addımı və hərəkəti idi. Biz inqilab əsasında yaranan quruluşda Şərq və Qərbdən örnək götürmədik. Bu çox əhəmiyyətli məsələdir. Biz quruluşlarının yanlış və bəşəriyyətin mənafeyinin ziddinə olduğunu bildiyimiz qüvvələrdən örnək götürə bilməzdik. Söhbət dini və coğrafi təəssübkeşlikdən getmir. Söhbət bundan gedir ki, ozamankı kommunist Şərq quruluşlarının - bu gün dünyada daha belə bir kimlik yoxdur - dayandığı təməllər, həmçinin Qərb quruluşlarının təməlləri yanlış təməllər idi. Buna görə biz onlardan örnək götürə bilməzdik və götürmək istəmirdik. Bizim örnəyimiz başqa dəyərlər idi və mən o dəyərlərin bəzisinə işarə vurdum.

Biz nə üçün həmin iki böyük rejimdən - kommunist Şərq rejimindən və kapitalist Qərb rejimindən örnək götürmədik? Çünki onlar batil rejimlər idi. Kommunist rejimlər xalq hakimiyyəti şüarı ilə iş başına gələn, amma əslində aristokrat və müstəbid rejimlər idi. Onlar aristokratlıqla düşmənlikdən dəm vurduqları halda əməldə aristokratik idilər. İstibdad baxımından son dərəcə avtoritar idilər və dövlətin iqtisadiyyata, mədəniyyətə, siyasətə və müxtəlif ictimai və qeyri-ictimai fəaliyyətlərə mütləq hakimiyyəti mövcud idi. Şərq rejimlərində xalqın heç bir rolu yox idi. Mən bu ölkələrin ömürlərinin sonunda gedib onları görmüşdüm. Hətta bəzi geri qalmış və yoxsul ölkələrinin başında da öz təbirlərincə bir fəhlə rejimi dururdu, amma eyni aristokrat rəftarlarını və qədim sarayların yanlış işlərini təkrarlayırdılar. Bu ölkələrdə nə seçki keçirilirdi, nə xalqın səsinə hörmət vardı, amma özlərini demokrat adlandırırdılar. Xalqın idarəçilikdə heç bir rolu yox idi, iqtisadi işlərdə, mədəni işlərdə tamamilə asılı idilər. Belə rejimlərin məhvə məhkum olması bəlli idi. Lakin şüarları parlaq və gözəgəlimli olduğuna görə

dünyanın müxtəlif yerlərində gəncləri özlərinə çəkib hökumətlər qura bildilər. Amma artıq ömür sürə bilmirdilər. Sonunu da gördünüz: bir neçə onillikdən sonra tamamilə məhv oldular. Təbii ki, bu rejimlər bizim üçün örnək ola bilməzdi. Bizim inqilabımız qələbə çalanda - yəni iyirmi bir il bundan öncə dünyada hansı inqilab qələbə çalırdısa, həmin Şərq hökumətinə yönəlir, ya marksist, ya da bir qədər yumşaq formada sosialist rejimi qururdu. Lakin İslam, İran xalqı və bu xalqın rəhbəri onu rədd etdilər, qəbul etmədilər və kənara qoydular.

Biz Qərbdən də örnək götürmək istəmirdik və götürə bilməzdik. Qərbin bəzi şeyləri vardı, amma daha mühüm olan bəzi şeyləri yox idi. Qərbdə elm vardı, əxlaq yox idi; sərvət vardı, ədalət yox idi; mütərəqqi texnologiya vardı, amma təbiəti məhv və insanı əsir edirdi; demokratiyanın adı vardı, əslində isə demokratiya yox, kapitalokratiya idi. Bu gün də elədir. Dediyim bu söz mənim iddiam deyil, hansısa təəssübkeş müsəlman yazıçıdan da söyləmirəm, qərblilərin özləri deyirlər ki, Amerikanın özündə demokratiya və seçkinin yalnız forması var, əslində isə kapitalın hakimiyyəti mövcuddur. Mən onların yazıçılarının və kitablarının adını çəkmək istəmirəm. Amma orada mer seçkilərinin, parlament seçkilərinin və prezident seçkilərinin hansı dəm-dəsgahla keçirildiyini Amerika yazıçılarının özləri yazırlar. Əgər insan nəzər salsa, görər ki, orada xalqın səsinin təxminən heç bir rolu yoxdur. Birinci və axırıncı sözü deyən pul, kapitalizm, modern təbliğat vasitələri və dayaz insanları aldadan cəlbedici üsullardır. Demokratiyanın adı var, özü isə əsla yoxdur. Qərbdə elmi inkişaflar vardı, amma bu elmi inkişaflar digər xalqların istismarına vasitə olmuşdu. Qərblilər elmdə inkişaf edən kimi onu siyasi və iqtisadi qüvvəyə çevirib dünyanın şərqinə və qərbinə sarı yola düşdülər. Harada ələ keçirib istismar etməli ölkə vardısa, çəkinmədilər. Harada etmədilərsə, mümkün deyildi.

Qərbdə azadlıq vardı, amma zülmlə, pozğunluqla birgə olan azadlıq. Qərbdə qəzetlər azaddırlar, hər şeyi yazırlar, amma onlar kimlərindir? Məgər xalqındır?! Bu aydın məsələdir, gedib baxsınlar. Siz Avropa və Amerikada oliqarxlara məxsus olmayan bir sanballı qəzet

göstərin. Orada qəzetin azadlığı deyildikdə öz sözünü danışan, istədiyini gözdən salan, istədiyini böyüdən, ictimai rəyi istədiyi tərəfə yönəldən kapitalistin azadlığı nəzərdə tutulur. Bunun harası azadlıqdır?! Əgər bir nəfər peyda olub sionizmin əleyhinə danışsa, həmin fransalı cənab[1] kimi sionistlər əleyhinə bir neçə cild kitab yazıb yəhudilərin yandırılmasının həqiqətə uyğun olmadığını desə, onunla başqa cür rəftar edirlər. Oliqarxlara və onların mərkəzlərinə bağlı olmayan adamın nə sözü deyilir, nə səsi bir kəsin qulağına çatır və nə söz azadlığından bəhrələnir. Bəli, oliqarxlar özlərinin qəzet, radio və televiziyaları vasitəsilə ürəkləri istəyəni deməkdə azaddırlar. Amma bu azadlıq dəyər deyil, antidəyərdir. Bu azadlıq xalqı pozğunluğa və imansızlığa sürükləmək, istədikləri yerdə müharibə yaratmaq, istədiklərini sülhə məcbur etmək və istədiklərinə silah satmaqdır. Azadlıq budur!

Tehranın cümə namazı xütbələrindən: 2000.

[1] Fransalı müsəlman yazıçı Roje Qarodi nəzərdə tutulur.

İnqilabın İslamdan örnək götürməsi

Təbii ki, özünün və əzizlərinin canı ilə qiyam etmiş, başında ilahi bir alimin və peyğəmbər canişininin durduğu bir xalq üçün Qərb quruluşu örnək ola bilməzdi. Deməli, biz örnəyi nə Şərq rejimlərindən, nə də Qərb rejimlərindən götürdük. Biz örnəyi İslamdan götürdük və bizim xalqımız İslamla tanışlığına görə İslam quruluşunu seçdi. Bizim xalqımız İslam ədəbiyyatını oxumuşdu, hədislərlə tanış idi, Quranla tanış idi, dini söhbətlərdə iştirak etmişdi. Son onilliklərdə din alimlərindən, ruhanilərdən və universitet mənsublarından ibarət dindar aydınlar çoxlu işlər görmüşdülər. Xalq üçün bir sıra dəyərlər oturuşmuşdu və xalq onlara sadiq idi. Keçmiş rejimdə bu dəyərlərdən heç bir əsər-əlamət görmürdülər. İnqilab o dəyərlərə nail olmaq üçün baş verdi. Bu dəyərlər hansılardır? Mən burada onların bəzisini deyəcəyəm. Əgər bu dəyərləri bir sözlə bəyan etmək istəsək, deməliyik "İslam". Lakin İslam ümumi bir sözdür və onun müxtəlif izahları var. Bizim xalqımızın hamısı İslamın daxilində olan dəyərləri istəyirdi. Mən onların bəzisinə işarə vuracağam.

Tehranın cümə namazı xütbələrindən: 2000.

İran xalqının istədiyi dəyərlər

Birinci dəyər imandır. Xalq məsləksizlikdən, etiqadsızlıqdan və imansızlıqdan bezmişdi, narazı idi, ürəklərinin imanla bərkiməsini istəyirdi. Sonrakı dəyər ədalətdir. Xalq cəmiyyətin ədalətsiz olduğunu görürdü. Yuxarıdan aşağıya qədər hər yerdə zülm olunurdu; özləri özlərinə də zülm edirdilər. Tağut rejimi daxilində də bir-birinə qarşı zülm və ədalətsizlik edirdilər. Xalqa qarşı isə sonsuz dərəcədə zülm olunurdu; məhkəmədə zülm olunurdu, sərvət bölgüsündə zülm olunurdu, işdə zülm olunurdu, ucqar şəhərlərə zülm olunurdu, zəif insanlara zülm olunurdu. Zülm və haqsızlıq hər yerdə duyulurdu, insan bütün vücudu ilə bunu hiss edirdi. Xalq ədalətin yaradılmasını, təbəqələr arasında fərqin və yoxsulluğun aradan qaldırılmasını istəyirdi. Bu da xalqın istədiyi dəyərlərdən biri idi və ədalətdən fərqli məsələdir. Cəmiyyətdə bir şəxs, yaxud qrup sərvətin və rifahın zirvəsində durur, başqa bir qrup isə ibtidai həyat amillərindən məhrumdur. Hamının bu durumdan acığı gəlir, heç kim onu xoşlamır. Xalq təbəqələr arasındakı məsafənin götürülməsini və onların yaxınlaşmasını istəyirdi. Biz kommunistlər kimi iddia etmirdik ki, hamı gəlib dövlətin çörəyini yesin və hamıya bərabər maaş verək. Xeyr! Amma təbəqələr arasında bu formada və bu qədər fərqin olması xalq, müsəlman inqilabçılar və onların rəhbəri üçün qəbuledilməsi deyildi.

Tağut rejimi və ondan öncəki rejimlər xalq rejimləri deyildilər, xalqın idarəçilikdə heç bir rolu yox idi. Bir nəfər ingilislərin köməyi ilə gəlib Tehranda çevriliş etmiş və özünü şah adlandırmışdı. Sonra İrandan gedəndə, yəni qocaldığına və işə yaramadığına görə vəzifəsindən kənarlaşdırılanda öz yerinə oğlunu təyin etdi. Axı bu oğul kimdir, nəçidir? Bəs xalq nədir və onun istəyi necə olsun? Bunlar əsla önəmli deyildi. Onlardan öncə də Qacarlar belə olmuşdu: bir zalım ölür, öz yerinə başqa bir zalımı təyin edirdi, hökumətin seçilməsində və idarəsində xalqın heç bir rolu olmurdu. Xalq bunu istəmirdi. Xalq

istəyirdi ki, hökumət onun olsun, onun istəyi və iradəsi ilə qurulsun və onun iradəsinin təsiri olsun.

Növbəti dəyər dindarlıqdır. Xalq dindar olmaq istəyirdi. Keçmiş rejim hər yerdə - cəmiyyətdə, hərbi hissədə, universitetdə, məktəbdə xalqı dinsizliyə sövq etməyə çalışırdı, xalq isə bunu istəmirdi. Xalq dindar idi. Xalq göstərdi ki, İslama iman və etiqad onun vücudunun dərinliyinə işləmişdir.

Başqa bir dəyər başçıların israfçılıqdan və dəbdəbədən uzaq durmasıdır. Sözsüz ki, dəbdəbə və israfçılıq hər yerdə pisdir, amma xalqı bu məsələyə həssaslıq göstərməyə vadar edən amil hakimiyyət başında oturanların xalqın sərvətləri ilə israfçılıq etmələri, dəbdəbəli və lüks həyat tərzi keçirmələri idi. Bu, xalqın istəmədiyi işlərdən idi. İslam quruluşu bu dəyər əsasında yarandı.

Başqa bir dəyər başçıların dini və əxlaqi sağlamlığıdır. Xalq istəyirdi ki, cəmiyyətin başında duranlar dindar olsunlar, fəsad törətməsinlər, əxlaqları, rəftarları pis olmasın, özləri fəsad içində olmasınlar, ətrafları fəsad içində olmasın. O zaman isə belə idilər.

Dəyərlərdən başqa birisi gözəl əxlaqın ümumiləşməsi idi. Xalq istəyirdi ki, cəmiyyətdə gözəl əxlaq və bəyənilmiş İslam xarakterləri yayılsın, xalq arasında qardaşlıq, sevgi, əməkdaşlıq, dözümlülük, güzəştə getmək, bağışlamaq, zəiflərə əl tutmaq və haqqı söyləmək vüsət tapsın.

Fikir və söz azadlığı da inqilabın dəyərlərindən biri idi. Xalq azad düşünmək istəyirdi. O zaman fikir azadlığı, söz azadlığı və seçim azadlığı da yox idi. Xalq bunu xoşlamır və bu azadlıqların mövcud olmasını istəyirdi.

Dəyərlərdən daha birisi siyasi, iqtisadi və mədəni müstəqillikdir. Xalq istəyirdi ki, bu ölkə siyasi baxımdan filan Avropa, yaxud Amerika rejiminin hökmranlığı altında, iqtisadiyyatı beynəlxalq kompaniyalardan asılı olmasın, onlar bu ölkəyə istədiklərini edə bilməsinlər, dərin və zəngin mədəniyyətləri ola-ola kor-koranə şəkildə əcnəbi mədəniyyətlərə tabe olmasınlar.

Dəyərlər dedikdə dini, imanı, siyasi müstəqilliyi, iqtisadi müstəqilliyi, mədəni müstəqilliyi, fikir azadlığını, əxlaqın ümumiləşməsini, xalq hakimiyyətini, dindar və təqvalı insanların iş başında olduğu imanlı hökuməti nəzərdə tuturuq. Bu istəkləri reallaşdıran amil nə idi? Bu mömin xalqın iman, cihad və fədakarlıq ruhu. Əsrlər sonrası bu məmləkətdə bu dəyərli İslam quruluşunu ucaldan amil nə idi? Qeyd etdiyim bu dəyərlərin yeni quruluşun təməli olması və dünyanın bu bölgəsində bu dəyərlər əsasında yeni bir həyatın başlanması. Xalq bunlardan ötrü fədakarlıq etdi, Allah yolunda cihad və şəhadət üçün özünün və övladlarının canını təhlükəyə atdı, çoxları şəhid oldular. Xalq nə istədiyini bilirdi. Xalq bu dəyərləri istəyirdi. Mən sonra deyəcəyəm ki, bütün bu dəyərlərin cəmiyyətdə reallaşması mümkündür. İslam quruluşu vasitəsi ilə yaranan bu miqdarı heç kəs güman və təsəvvür də etməzdi.

Təbii ki, biz ideal vəziyyətlə müqayisədə çox geridəyik. Lakin ozamankı vəziyyətlə, yaxud digər yerlərin vəziyyəti ilə müqayisə etsək, görərik ki, bu quruluş çox uğurla hərəkət etmiş və bu inqilab həqiqətən məharət göstərmişdir. Xalq da bunu istəyirdi. Bəzi qüvvələr deyirlər ki, xalq nə istədiyini bilmirdi. Xeyr! Xalq bilirdi, xalq İslamı istəyirdi. İslam yalnız namaz qılmaq və səcdə etmək deyil; baxmayaraq ki, bunlar da İslamdandır. İslam bir xalqın dünya və axirət səadətini təmin edəcək möhkəm təməllər üzərində ictimai quruluş və ümumi həyat sistemi yaratmaqdır. Bu sistem onlar üçün elmi, inkişafı, sənayeni, sərvəti, rifahı, beynəlxalq iqtidarı – hər şeyi təmin etməlidir. Xalq bunu istəyirdi.

Nə özləri İslamı tanıyan, nə də qəlblərində belə bir İslamı istəyən, ən azı Qərbin tağut rejimlərinə arxa çevirməyə, yaxud etinasızlıq etməyə cürəti çatmayan bəzi şəxslər bu gün o tərəf-bu tərəfdə deyirlər ki, xalq İslam Respublikası referendumunda nə istədiyini bilmirdi. Necə yəni nə istədiyini bilmirdi? Əgər xalq nə istədiyini bilmirdisə, öz fədakarlığl ilə səkkizillik müharibəni necə uddu? Bilmədikləri bir şeydən ötrü necə fədakarlıq edə bilərdilər?! Xalq nə istədiyini yaxşı bilirdi, bu gün də yaxşı bilir.

Bu gün cəmiyyətdə mövcud olan və İslam quruluşunun təməli sayılan bu dəyərlər əvvəla bütünlüklə qəbul olunmalıdır. Bunların bəzisini qəbul edib, bəzisindən üz çevirsək, yarımçıq olacaq; bəzisinə əhəmiyyətli yanaşıb bəzisinə əhəmiyyət göstərməsək, məqsəd hasil olmayacaq. İkincisi, inqilabın özü hərəkət etmək, dəyişmək və irəliləmək deməkdir. Cəmiyyət bu dəyərlər əsasında hərəkət etməli, dəyişməli və irəliləməlidir. Yanlış üsulları günbəgün düzəltmək və bir addım irəliləmək lazımdır ki, nəticəyə çataq.

Mənim əzizlərim! İnqilab birdəfəlik bir iş deyil, tədrici bir prosesdir. İnqilabın siyasi quruluşun dəyişməsindən ibarət olan bir mərhələsi birdəfəlikdir, amma inqilab tədricən həyata keçir. Bunun üçün nə lazımdır? Bunun baş verməsi üçün geri qalmış və dəyişməmiş sahələr dəyişməli, cəmiyyətdə sözügedən dəyərlər əsasında günbəgün yeni yollar, yeni işlər, yeni düşüncə və üsullar yaranmalı və inkişaf etməlidir. Bu zaman xalq həvəs və qüdrətlə öz məqsədinə sarı hərəkət edə bilər. Qayıdış yanlış, gerilik ziyandır, amma dayanmaq da səhvdir. Hərəkət etmək və irəliləmək lazımdır.

Tehranın cümə namazı xütbələrindən: 2000.

İyirminci əsrdə dünyada baş verən dəyişikliklərə qısa baxış

Mənim əziz qardaş və bacılarım! Miladi tarixinin iyirminci əsri böyük ictimai və siyasi dəyişikliklər əsri oldu. Xalqların hər biri mövqeyinə, şəraitinə, istedadına və sayıqlığına görə tez, ya gec böyük dəyişikliklərə nail oldular. İran xalqı bu əsrdə böyük siyasi və ictimai bir dəyişikliyə nail olan ilk xalqlardandır. İran xalqı 1905-ci ildə dünyanın əksər xaqlarından daha tez siyasi və ictimai dəyişikliyə yaxınlaşdı. Bu, Məşrutə dövründə baş verdi. İran xalqı bununla öz sayıqlığını, öncüllüyünü, mübarizliyini və potensialını sübuta yetirdi. Din alimləri və cəmiyyətin xeyirxah insanları o hərəkətin öncülləri idilər. Ozamankı İngiltərəyə bağlı siyasətçilərin bir səhvi qərbli və xarici qüvvələrin müsəlman xalqın bu hərəkətindən sui-istifadə etməsinə bais oldu. İran xalqının ədalətsevər hərəkətini əvvəlcədən öz fikirlərinə uyğun şəkildə hazırladıqları formaya salıb yayındırdılar, bir neçə ildən sonra da Pəhləvi sülaləsini iş başına gətirdilər və bununla İran xalqının hərəkətini və siyasi dəyişikliyi altmış ilə yaxın geri saldılar. Bu işi ingilislər gördülər. Bu 60-70 ildə İran xalqına qarşı edilən düşmənlik undulmaz və çox mühüm düşmənliklərdən biridir. Bizim ölkəmiz Hindistandan, Rusiyadan, Əlcəzairdən və iyirminci əsrin digər böyük inqilablarından öncə ictimai dəyişikliyə təşəbbüs göstərdi. Biz ölkəmizi, hökumətimizi və ictimai quruluşumuzu dəyişdirməyə çalışdıq. Bizim xalqımız Tehranda, Təbrizdə, Xorasanda, Farsda və bu ölkənin digər yerlərində böyük fədakarlıqlar göstərdilər, lakin əcnəbilər qoymadılar. Qərbdən asılı olan siyasətçilər də alət oldular. O zaman qərblilərlə və İngiltərə dövləti ilə isti münasibətdə olanlar İran xalqının hərəkətini yayındırdılar. Sonra da Rza xanı hakimiyyətə gətirdilər və İran xalqının dəyişikliyi altmış il təxirə düşdü.

Digər xalqlar da bu əsrdə müəyyən formada bu işə girişdilər. Hindistanda bu ictimai dəyişiklik bir formada həyata keçdi, Rusiyada başqa bir formada, Əlcəzairdə başqa bir formada. Asiyada, Afrikada və dünyanın onlarla müxtəlif ölkəsində bu ictimai dəyişiklik xüsusi

formada həyata keçmişdir. Bu dəyişikliklərin hamısı bir cəhətdə birləşirlər: bunların hamısında bəşəri qüvvələr hegemon qüvvələrə qalib gəlmişlər. Lakin bu qələbə bir yerdə aydın və qəti qələbə idi, daimi təsir buraxdı, başqa yerlərdə isə belə deyildi, təsiri tez ötdü və diqqətsizlik səbəbindən məhv oldu. Bu, aydın məsələdir ki, xalqlar öz qüvvələrinə arxalanıb işğalçı, zalım, hegemon və oğru güclər tərəfindən işlədilən təzyiq və zor vasitələrinə qələbə çala bilərlər.

İmam Xomeyninin müqəddəs məqbərəsində əzadarların böyük toplantısında çıxışdan: 2000.

Xalqların ən mühüm problemi: acizlik hissi

Bu gün xalqların problemi budur ki, güclülərin düşmənliyi qarşısında qaldıqda acizlik hissi keçirirlər. Bu gün siz dünyanın siyasi coğrafiyasına baxsanız, görərsiniz ki, hər şeyi özünə məxsus bilən, xalqları heçə sayan, insani və maddi sərvətləri mənimsəyib ixtiyarına keçirən hegemon güclər var. Onlar nəyə arxalanırlar? Onlar xalqları inandırıblar ki, onlara qarşı mübarizə aparmaq olmaz. Onların arxalandığı ən mühüm amil budur. Siz bu gün geri qalmış, o cümlədən müsəlman ölkələrin ziyalılarından, yaxud siyasətçilərindən "nə üçün milli hüquqlarınızın bərpasından ötrü hərəkət etmirsiniz?" - deyə söruşsanız, cavab verərlər ki, biz bacarmırıq, gücümüz yoxdur, böyük güclər hər şeyimizi almışlar və biz zalım güclərlə mübarizə apara bilmirik. Bu gün dünya ölkələri arasında zəif mövqedə duranların məntiqi budur. Quran isə bunun əksini deyir. Quran deyir ki, insanlar öz daxili qüvvələrinə - yəni imanlarına, iradələrinə, birliklərinə və fədakarlıqlarına güvənsələr, heç bir güc onların qarşısında dayana bilməz. Tağut rejimi dövründə biz İran xalqı bu səhvi edirdik. O zaman bizdən "bu rejim məmləkətin neftini aparır, sərvətlərini talayır, Amerikanı hakim edir, xalqın dinini alır, əxlaqı alır, milli, yerli və İslam mədəniyyətini alır, bu xalqın tarixini məhv edir, siz nə üçün ona qarşı mübarizə aparmırsınız?" deyə soruşsaydılar, ziyalı və siyasətçilərin cavabı bu olardı: "Biz heç bir iş görə bilmirik, əlimizdən bir şey gəlmir". İmamın bu xalqa və digər xalqlara böyük xidməti bunun əksini sübut etməsi idi; xalqa dedi ki, bacararsınız, gücünüz var, qüdrət sizin əlinizdədir, sizə məxsusdur, yalnız bu gücü işlətməniz, iradə göstərməniz, qərar verməniz lazımdır. Aparıcı şəxsiyyətlər və ictimai rəyə təsir göstərə bilənlər səhnəyə çıxmalı və xalq fədakarlığa hazır olmalıdır. O zaman hər şey mümkün olacaq və bütün uğurlar əldə ediləcək. Onun özü səhnəyə çıxan ilk şəxs oldu. Ondan sonra aparıcı şəxslər gəldilər, din alimləri gəldilər, ziyalılar, hövzə tələbələri, universitet tələbələri gəldilər, xalqın müxtəlif təbəqələri gəldi və bir neçə

il ərzində tədricən bütün təbəqələr bu möhtəşəm hərəkata qoşuldular. Nəticədə, belə möhtəşəm xalq qüvvəsinin qarşısında qalan siyasi, hərbi və informasiya hakimiyyəti müqavimət göstərə bilmədi. İman, iradə, hikmətli rəhbər, müqavimət və dözüm gücü yalnız tağut rejiminə yox, həm də onun arxasında duran Amerika dövlətinə qələbə çaldı.

İmam Xomeyninin müqəddəs məqbərəsində əzadarların böyük toplantısında çıxışdan: 2000.

Xalqların iradə və imana daimi ehtiyacı

Əgər otuz il öncə bu ölkədə kimsə Pəhləvi rejiminin bu xalqın əli ilə məhv oluv devriləcəyini desəydi, heç kəs inanmazdı; tağut Pəhləvi rejiminin yerinə bir İslam quruluşunun yaranacağını desəydilər, heç kəs inanmazdı, lakin inanılmaz görünən bu iş həyata keçdi, insanların siyasi və ictimai dəyişikliklərdə həqiqi və təsirli gücünün yaxıngörənlərin düşündüyündən və hegemon mediasının təbliğ etdiyindən fərqli olduğu aşkara çıxdı. Təsirli qüvvələr bunlardan ibarətdir: insan iradəsi, insan imanı, qərarlılıq, öncüllərin və rəhbərlərin fədakarlığı və yorulmazlığı. Bəli, Fələstin xalqı öz işlərini Fələstinə layiq olmayan şəxslərə tapşırsa, Fələstin məsələsi kimi əzəmətli bir məsələni uzərinə götürməkdən kiçik olan, gedib sionizm rejiminin və Amerikanın alət və muzdurlarının rolunu ifa edən şəxslərə tapşırsa, təbii ki, nəticə alınmayacaq. Lakin bu gün Fələstində müşahidə etdiyimiz kimi mömin insanlar, mömin gənclər, rəhbərlər, yorulmaz insanlar, qəlbləri Qurana və İslama iman nuru ilə işıqlanmış qüvvələr səhnədə olsalar və gənclər bugünkü kimi onların ətrafına toplaşsalar, onların imanından qidalansalar, bu hərəkət uğurla irəliləyəcək və bilin ki, bir gün dünya xalqları Fələstinin müsəlman, məsihi və yəhudilərdən ibarət əsas sahiblərinə qayıdacağını görəcəklər.

Mən söhbətimin sonunda əziz xalqımıza deyirəm: Əziz İran xalqı! Ey böyük xalq! Ey öz varlığı, fəallığı, iradəsi və fədakarlığı ilə erkən İslam çağının Quran təcrübəsini bir daha təkrarlayıb həyata keçirənlər! Elə bir xalq ki, sənin himayən və dayağınla Böyük Xomeyni dünyanın siyasi məfhumlarını dəyişdirib meyarları uçura və bəşəriyyət qarşısında yeni yol aça bildi! Ey böyük xalq! Əldə etdiklərinizi qoruyub-saxlamaq üçün bu gün sizin həmin iradə və imana ehtiyacınız var. Allaha şükür olsun ki, bu gün İslam quruluşu möhkəmlənmişdir. Amma siz xalqın inqilabından ziyan görənlər, İran xalqının qüdrətli əli ilə bu ölkəni talamalarına son qoyulanlar bekar oturmayıblar. Onlar düşmənlikdən daşınmamışlar və onların planları vardır.

İmam Xomeyninin müqəddəs məqbərəsində əzadarların böyük toplantısında çıxışdan: 2000.

İslam inqilabı - yeni təcrübə

Allahın yardımı olmadan heç bir iş görə bilmərik. Allahın yardımı və rəhməti də yalnız Ona diqqətlə, ibadətlə, mənəvi paklıqla, niyyəti saflaşdırmaqla, kiçik və dəyərsiz məqsədləri kənara qoymaqla əldə olunur. Bu inqilab bu ruhiyyə ilə qələbə çaldı. İslam Respublikası quruluşunun fəxri, bizim inqilabımızın və quruluşumuzun kimliyinin qızıl səhifəsi olan İslam Şurası Məclisi belə yarandı.

Biz inqilabdan öncə bu ölkədə Şura Məclisi adlı bir şeyi təcrübə etmişik. O məclisi, o vəziyyəti və o tarixi görən, duyan, yaxud oxuyan hər bir şəxs bu məclisin və bu inqilabın qədrini bilər, bu 21 il ərzində İslam Şurası Məclisinin bir gün də tətil olunmamasına bais olan zəhmətlərin qədrini bilər. Düzdür, o parlament də İslamın məhsulu idi. Əgər İslama imanlı şəxslərin və böyük alimlərin dini mübarizələri olmasaydı, o da yaranmazdı. Lakin o məclis yoldan yayınmışdı. O məclisə iki bəla hakim idi: biri tətillər, biri də düz yoldan yayınmaq. Məclisin yayınması belə oldu ki, deputatlar öz vəzifələrinə əməl etmədilər. Üçüncü və dördüncü parlamentdən sonra hər biri ikiillik müddət üçün dörd-beş parlament yarandı; təxminən hamısı xalq tərəfindən seçilirdi. Amma sonra daha seçim yox idi və xalq iştirak etmirdi. O vəziyyəti görən, duyan, eşidən və anlayan şəxslər qədər heç kim bu İslam Şurası Məclisinin, bu azad qanunverici orqanın və həqiqi xalq seçiminin qədrini bilməz. Allaha şükür edin ki, siz deputatları belə mühüm və uca yerdə çalışan, Onun üçün fikirləşən, qərar verən, vəzifənizi yerinə yetirmək üçün işləyib-çalışan, zəhmət çəkən şəxslərdən etdi. Bu ölkənin çalışmağa və zəhmət çəkməyə çox ehtiyacı var.

İslam inqilabı dünyada yeni bir təcrübə və yeni sözdür. İslam quruluşu dünyanın siyasi arenasında yeni söz sayılır. Bu elə bir şey deyil ki, dünyanın güclü və istismarçı qüvvələrinin böyük maraqlarının bağlandığı quruluşlar asanlıqla onun yanından ötə bilsinlər. Buna görə mübarizə aparır, vuruşur, əngəl törədir, təhdid edir və bu yeni təcrübəni məğlub etməyə çalışırlar.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2000.

Amerika və İngiltərənin İranın inkişafdan geri qalmasının əsas səbəbkarları olması

Məgər bu ölkədə fəsadın, repressiyanın və xarabalığın birinci mərhələdə İngiltərənin, sonra isə Amerikanın hegemon hakimiyyətindən başqa bir səbəbi var?! Hansı qüvvə bu məmləkətdə repressiya yaratdı? Hansı qüvvə bu məmləkətdə milli və dövlət qurumlarını fəsad üzərində qurdu? Hansı qüvvə əlli il əxlaqla mübarizə apardı? Rza xanı kim hakimiyyətə gətirdi? 19 Avqust çevrilişini kimlər etdilər? Əlli ildən artıq sürən bu müddətdə bu xalqı pozğunluğa, cinsi özbaşınalığa, əxlaqi prinsiplərə və dinə inamsızlığa sarı sürükləyən ən çirkin təbliğatları kimlər apardılar? Bizim gənclərimiz bu gün Pəhləvi rejimi dövrünün mətbuatını xatırlamırlar, amma siz xatırlayırsınız. Fəsadla dolu həmin mətbuat, bir məşhur müsəlman ziyalının sözü ilə desək, rəngli mətbuat kimin vasitəsi ilə yaradıldı? Onlar haradan qidalanır, həvəslənir və kimdən örnək alırdılar? Həmin rejimi hakimiyyətə gətirən və bütün vücudu ilə gücləndirən qüvvələrdən başqa kimdən?!

Bu gün Amerika dövlətinin adına, xatirəsinə və hegemon istismarına bütün vücudumuzla müxalif olmamızdan ötrü hansı dəlilə ehtiyacımız var? Halbuki o rejim əlli il bizim bütün insani, maliyyə, əxlaqi və potensial sərvətlərimizi talamışdır. Bu əlli ildə Pəhləvi rejimi İran üçün hansı uğuru gətirdi? Bunların yaratdığı bu xarabalıq necə, hansı işlə və nə vaxta düzələ bilər? Bunu kim yaratdı, kim kömək etdi, kim yönəltdi? Kim onun casus şəbəkəsini gücləndirdi? Kim onlara istiqamət verdi? Eyni zamanda Amerika və İngiltərə dövləti, onların başçıları, məmurları və media qurumları bu gün İranda islahat və azadlıq adlanan bir şeyi müdafiə edirlər. Bu hər bir ağıllı insanı düşünməyə vadar etməli, hər bir qafili oyatmalıdır. Məsələ nədən ibarətdir? Bu çox mühüm mövzu və çox əsaslı sualdır.

İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 2000.

Tarixdə ruhani rəhbərliyinin rolu

Rəhbərliyin belə təcəssüm olunmadığı repressiya dövründə dindar xalqın qəlbi rəhbərlə həmrəy idi, lakin rəhbərin konkret və real nümunəsi və qanuni mövqeyi yox idi. Təqlid müctəhidləri və böyük din alimləri formasında öz təsirini dəfələrlə göstərmişdi. Buna görə müstəmləkənin bəlli rüsvayçı müqaviləsinə işarə vuran kimi müqavilə məhv olurdu; münasib olmayan bir hadisəyə işarə vuran kimi o hadisə xalqın qəzəbinə tuş gəlirdi. Bir neçə min nəfərin canını fəda etdiyi və öldürüldüyü 15 Xordad qiyamı elə bir zamanda baş verdi ki, bizim böyük imamımız hüquqi baxımdan hələ rəhbər deyildi, görkəmli bir ruhani idi.

İran İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 2000.

Qumun İslam hərəkatında öncüllüyü

Bu hərəkatın meydana çıxdığı zaman Qum şəhərinin əhalisi ləbbeyk deyib imama yardım əli uzatdı. Mənim yadımdan çıxmır, əzəmətli ruhani hərəkatının ilk həftələrində Qum şəhərinin müxtəlif təbəqələrdən olan əhalisi bizim böyük imamımızın bu Əzəm məscidindəki dərsinə gəlib ucadan dedilər ki, biz sizi himayə etdik və edirik, bu iş nə üçün davam etmir? Mövzu əyalət və vilayət əncümənləri idi. Yəni ilk addımdan Qum əhalisi imamı və mübarizəni yalqız qoymadı. Muzdur və xain qələm sahibləri Böyük İmama hörmətsizlik edəndə yenə bu şəhər, bu xalq, bu gənclər, bu analar, bacılar qiyam etdilər, bu gənclər küçələrə çıxdılar, şəhid verdilər, döyüldülər, təzyiqlərə məruz qaldılar, amma möhkəm dayandılar.

Qum əhalisinin mübarizəsi İran xalqının mübarizəsinə səbəb oldu. Sizin şəhərin küçələrinə çıxmağınız digər şəhərlərin əhalisinə dərs keçdi, yol göstərdi, onlar da meydana atılmalı və laqeydliyi kənara qoymalı olduqlarını başa düşdülər. Ondan sonra bu böyük fırtına qopmağa və vulkan püskürməyə başladı, dünyanı silkələtdi, İran xalqını azad etdi. Sonra yeni qurulan İslam quruluşunu müdafiə məsələsi qarşıya çıxdı. Yenə siz Qum əhalisi ön sıralarda idiniz. Sizin diviziyanız, gənclәriniz, Bəsic üzvlәriniz, ailələriniz, analarınız, atalarınız mərdlik və fədakarlıqla meydana atılıb çox böyük işlər gördülər. Mən sizin aranızda olduğuma görə sevinir, inqilabın çox mühüm məsələlərindən birini sizinlə müzakirə etdiyimə görə mənən rahatlaşıram.

Bu gün mənim siz əziz xalqa demək istədiyim budur ki, bizim inqilabımızın əsas şüarı bu üç söz idi: istiqlaliyyət, azadlıq, İslam Respublikası. İslam Repusblikası yaranan quruluşdur. Bu respublika qarşılaşdığı çətinliklərə rəğmən, həvəslə irəliləyir və yolları açır. Azadlıq şüarı çox gözəl şüarlardandır. Bu şüar çox təkrar olunmuş, barəsində danışılmış, məqalə, kitab yazılmış və şüar verilmişdir. Azadlıq haqda bəzən mötədil, bəzən ifratçı, bəzən də təfritçi söhbətlər olunmuş, bu şüar

da yaşamışdır. Lakin bu iki şüarın əksinə olaraq, istiqlaliyyət şüarı diqqətdən kənarda qalmışdır.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2000.

İstiqlaliyyətin mənası

İstiqlaliyyət şüarı ən mühüm şüarlardan biridir. Əgər istiqlaliyyət olmasa, bir xalq öz azadlığına və azadlıq şüarına da bel bağlaya bilməz. İstiqlaliyyəti bəziləri bilərəkdən, bəziləri səhvən, bəziləri avamlıqdan və bəziləri xəbislikdən unutdurmaq istəyirlər. Mən bu gün vaxtın imkan verdiyi həddə siz əziz qardaş və bacılara istiqlaliyyətə dair bəzi məsələləri xatırladacağam.

İstiqlaliyyətin mənası nədir? Bir xalq üçün istiqlaliyyətin məfhumu və dəyəri nədir? İstiqlaliyyət odur ki, bir xalq öz taleyinə hakim olsun, əcnəbilər ona əl uzatmasın, onun taleyini xaincəsinə və qərəzli şəkildə dəyişdirməsin. İstiqlaliyyətin mənası budur. Əgər bir xalqın istiqlaliyyəti ondan alınsa və onun xeyrini istəməyən əcnəbilər taleyinə hakim olsalar, iki şeyi əldən verər: biri öz şərəfini, fəxrini və kimlik hissini, ikincisi isə mənafeyini. Bir xalqın taleyinə hakim olan düşmən o xalqın xeyrini istəməz, onun mənafeyinə önəm verməz. Bir xalqı öz güclü caynağına keçirmək istəyən qüvvə yalnız öz mənafeyini düşünər, istiqlaliyyətini əldən vermiş həmin xalqın mənafeyi onun üçün heç bir əhəmiyyət kəsb etməz. On doqquzuncu və iyirminci əsrlərdə buna dair çoxlu nümunələr görmüşük.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2000.

Dünyanın qara müstəmləkə tarixi

Avropa müstəmləkəçiləri Asiya, Afrika və Latın Amerikasının bir çox bölgələrini ələ keçirib, xalqlarını xar etdilər, mədəniyyətlərini, kimliklərini, sərvətlərini taladılar, hətta dillərini, əlifbalarını, keçmişlərini və adət-ənənələrini də ayaqları altına atdılar, xalqları rəzil etdilər, var-yoxlarını taladılar, sərvətlərini qarət, mədəniyyətlərini məhv etdilər; bacardıqları qədər qaldılar, sonra da getdilər. Mən belə nümunələrin bəzisini öz gözlərimlə görmüşəm, bəzisini eşitmişəm, bəzisini isə oxumuşam.

Bir nümunə böyük Hindistan ölkəsidir. İngilislər uzaqdan gəlib əvvəlcə hiylə ilə, sonra isə silahla və hərbi güclə Hindistanı tutdular, uzun illər bu məmləkətdə hökmranlıq etdilər, xalqı alçatdılar, böyüklərini məhv etdilər, Hindistanın sərvətlərini taladılar. İngiltərə Hindistanın sərvəti və məhsulları ilə öz xəzinəsini və oliqarxlarının cibini doldurdu, Hindistanı isə yoxsulluq, səfalət və bədbəxtlik içində buraxdı. Yalnız maddi yox, onların mənəvi sərvətlərini də aldılar, öz dillərini zorla onlara sırıdılar. Hindistan, Pakistan, Banqladeş və qədim Hindistan yarımadasının hamısı İngiltərənin müstəmləkəsinə çevrildi. Bu gün ingilis dili onların rəsmi dilidir. Həmin regionun onlarla yerli dili olmuşdur. Bu dilləri bacardıqları qədər sıradan çıxardılar, məhv etdilər. Bir xalq öz dilini əldən verəndə keçmişini, tarixini, adət-ənənələrini əldən vermiş, dəyərli irsindən ayrılmış olur.

Başqa bir misal vurum. Mən prezident olarkən Latın Amerikası ölkəsi olan Perunun prezidenti mənə dedi: "Biz bu yaxınlarda qazıntılar zamanı ölkəmizdə çox möhtəşəm bir sivilizasiyanın qalıqlarını aşkarlamışıq". O deyirdi ki, müstəmləkəçilər uzun illər Peruya hakim olmuşlar, amma xalqın, ziyalıların və fikir sahiblərinin keçmişdə belə bir sivilizasiyanın olmasını bilməyə qoymamışlar. Yəni bunlar hətta xalqın öz tarixini bilməsinə, keçmişi ilə fəxr etməsinə də mane olurdular.

Başqa bir nümunə ərəb və müsəlman ölkəsi olan Əlcəzairdir. Fransalılar on illərlə bu ölkəyə hökmranlıq etdilər. Oranı silahla

tutdular, orada hökumət qurdular, öz hakimlərini və zabitlərini hökumət başçısı və komandir təyin etdilər. Onların gördüyü ilk iş İslam irsini və hətta ərəb dilini məhv etmək idi. Yenə prezident olduğum zaman Əlcəzairin ozamankı yüksək dövlət məmurlarından biri Tehranda mənimlə görüşdü. Söhbət əsnasında bir söz demək istəyirdi, amma o sözün ərəbcəsini bilmirdi. Ərəb dilli bir insan mənə bir söz demək istəyir, amma ərəbcə deyilişini bilmirdi. Üzünü Xarici işlər nazirinə tutub fransızca soruşdu ki, buna ərəbcə nə deyirlər? O da dedi ki, ərəbcə belə olur. Yəni bir xalqın görkəmli və seçilmiş şəxsiyyətləri müstəmləkə səbəbindən öz dillərindən uzaqlaşdılar. Ondan sonra Əlcəzairin xeyirxah insanları bizimlə söhbətdə dedilər ki, biz müstəmləkədən sonra ərəb dilini bərpa etməyə çalışırıq.

Mənim əzizlərim! Mənim qardaş və bacılarım! İstiqlaliyyətin olmaması bir ölkəyə bunları edir: xalqdan milli kimliyi alır, fəxrlərini alır, tarixi keçmişini alır, maddi sərvətlərini talayır, mədəni kimliyini və dilini alır. Əcnəbi hökmranlığının axırı budur. Müstəmləkə dövründə belə oldu. İstismar dövrü adlanan müstəmləkədən sonrakı dövrdə də ayrı cür oldu. Düzdür, bizim ölkəmiz heç zaman müstəmləkəyə çevrilmədi. Yəni əcnəbilər bu ölkəyə gəlib qeyri-iranlı, məsələn ingilis hökuməti qura bilmədilər, İran xalqı buna icazə vermədi, amma hakim olduqları sürədə bacardıqları qədər nüfuzlarını genişləndirdilər.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2000.

Əcnəbi hökmranlığının nəticələrinə dair dörd nümunə

Mən son yüzillik tarixdən sizə dörd nümunə söyləmək istəyirəm. Bu dörd nümunə bizə göstərir ki, bir ölkənin siyasi və mədəni qurumlarına əcnəbi bir qüvvə hakim olanda o ölkənin və xalqın başına nə gəlir.

Bir nümunə Məşrutə nümunəsidir. Bilirsiniz ki, Qacar rejiminin zülmü xalqı cana doyurmuşdu. Xalq qiyam etdi, cəmiyyətin başbilənləri qiyam etdilər. Öndə gedənlər din alimləri idilər: Nəcəfdə mərhum Ayətullah Axund Xorasani kimi bir təqlid müctəhidi, Tehranda üç böyük alim - mərhum Şeyx Fəzlullah Nuri, mərhum Seyid Abdullah Bəhbəhani və mərhum Seyid Məhəmməd Təbatəbai Məşrutənin rəhbərləri sayılırdılar. Bunların mərkəzi Nəcəf Elm Hövzəsi idi. Bunlar nə istəyirdilər? Bunlar İranda ədalətin bərpa olunmasını və istibdadın bitməsini istəyirdilər. O zaman İngiltərənin İranda çox böyük nüfuzu vardı və ziyalılar arasında adamları çox idi. Xalqın fəallığı görünəndə İngiltərə dövləti öz proqramını onlara ötürdü. Əlbəttə, xeyirxahlar arasında da bir qədər ziyalı vardı. Lakin bir qrup ziyalı da muzdur, satqın və İngiltərənin maraqlarının müdafiəçisi idi. İngiltərədə məşrutə, yəni parlamentli hökumət forması vardı. Bu ziyalılar ədalətli kabinet qurmaq və ədaləti bərqərar etmək üçün yerli bir formul axtarmaq əvəzinə məşrutə formasına keçdilər. Nəticə nə oldu? Nəticədə arxasında din alimləri duran, din adı və din şüarı ilə meydana çıxan bu möhtəşəm xalq hərəkatı çox qısa müddətdən sonra Şeyx Fəzlulllah Nurinin Tehranda edam edildiyini gördü. Bir qədər sonra Seyid Abdullah Bəhbəhanini evində terror etdilər. Sonra da Seyid Məhəmməd Təbatəbai cəmiyyətdən təcrid olunmuş halda yalqız şəkildə dünyadan köçdü. Bu zaman Məşrutəni özləri istədikləri formaya qaytardılar və nəhayət Rza xanın hakimiyyəti ilə nəticələndi.

İkinci nümunə Rza xanın hökumətinin özüdür. İngilislər Qacar dövləti ilə bir müqavilə başlamışdılar. Bu müqaviləyə əsasən, İranın bütün maliyyə və hərbi məsələləri ingilislər tərəfindən idarə olunurdu.

Ayıq alim olan mərhum Seyid Həsən Müdərris bu layihəyə qarşı çıxdı və onun ozamankı Milli Şura Məclisində qəbul olunmasına imkan vermədi. İngilislər çarəsiz qaldıqda yeni fikrə düşdülər. Başa düşdülər ki, İranda Müdərris kimiləri məhv etmək, xalqla qəddarcasına davranmaq və ingilislərin istəyini icra etmək üçün bir diktatoru iş başına gətirməlidirlər. Buna görə Rza xanı hakimiyyətə gətirdilər. İranda Rza xanın şahlığının macərası bizim tariximizin çox ibrətli məsələlərindən biridir. Bu ölkənin bütün gəncləri bu gün bunu bilməlidirlər. Rza xandan qabaqkı hərc-mərcliyə onun polad yumruğu və İngiltərə dövlətinin köməyi ilə son qoyuldu və ölkədə əlli beş il davam edən bir diktatorluq yarandı, İngiltərənin siyasi və mədəni qurumlara təsiri xalqı sıxıntı içərisində saxladı.

Üçüncü nümunə 1941-ci ilə aiddir. O zaman Rza xan öz qabaqkı himayədarları tərəfindən taxtdan salındı və İrandan ixrac edildi. İngilislər mütləq təslimçilik şərti ilə Məhəmmədrzanı iş başına gətirdilər. Onlar istədikləri hər bir işi görürdülər, müstəmləkəyə ehtiyacları yox idi. Xain bir iranlı əcnəbilərin yardımı qarşısında İran xalqına şahlıq edib onların istəyini icra edəndə daha müstəmləkədən ötrü özlərinə zəhmət verməyə lüzum qalmır. Onlar bu işi gördülər.

Sonra dördüncü nümunə baş verdi. Bu, 1953-cü ilə aiddir. Əvvəlcə hiylə qurub mərhum Ayətullah Kaşanini təcrid etdilər, bacarıqsız siyasət nəticəsində prosesdən kənarlaşdırdılar, Müsəddiqin hökumətini devirəndən sonra isə yenidən işlərin başına keçdilər, İrana girdilər, öz nüfuzları, əlaltıları və fəaliyyətləri ilə 19 Avqust çevrilişini edib İrandan qaçmış Məhəmmədrzanı geri qaytardılar. Qaranlıq Pəhləvi diktaturası daha 25 il də davam etdi. Bu dörd dönəmdir. Bunların hamısı ibrətamizdir.

Bir xalq əcnəbi bir qüvvənin onun siyasi, yaxud mədəni qurumlarına nüfuz etməsinə icazə verəndə taleyi belə olur. Əgər İslam inqilabı baş verməsəydi, bu xalq Böyük İmamın arxasında bu möhtəşəm tarixi hərəkəti etməsəydi, bilirsiniz indi İran xalqı necə olardı? Bu xalq Qərbin elmi inkişaflarının heç birini öyrənməzdi, nə ixtira, nə kəşf, nə

quruculuq olardı, sərvətlərini əldən verərdi, neftini həmin düşmənlərə axar çayların suyundan da ucuz qiymətə satardı; neft onlarınkı, neftayırma onlarınkı, üzünmüddətli müqavilələr onlarınkı! Bu ölkənin düşmənləri onun digər mədən və sərvətləri üçün də planlar cızmışdılar. Bu xalqın beyinlərini oğurlayıb ölkənin elmi vəziyyətini aşağı səviyyədə saxlamaq istəyirdilər.

Amerika və İngiltərənin İranda hökmranlıq etdiyi zaman İran xalqı çətin günlərini yaşadı. Əvvəlcə ingilislər və sonra amerikanlar yüz il bu ölkəni geriyə saldılar. Biz bu gün hansı sahəyə baxırıqsa, onların səhlənkarlıqlarının, xəyanətlərinin və çirkin əməllərinin əlamətlərini öz gözlərimizlə görürük.

İslam inqilabının gördüyü ən böyük işlərdən biri Amerika istismarına son qoymaq idi. İslam inqilabının fəxrlərindən biri budur ki, Amerikanın bu ölkəyə uzanan əlini, onun kökünü və bütün dəm-dəsgahını darmadağın etdi. Düzdür, əvvəllərdə bu ölkədə hökumət başında olan bir qrup Amerikaya könül vermişdi və buna imkan vermək istəmirdi. Mən 1979-cu ildə Ali Müdafiə Şurasında bunu yaxından gördüm. Elə bir qanun qəbul edirdilər ki, ona əsasən Amerikanın hərbi müstəşar heyətləri - bütün cinayət və xəyanətləri törədənlər başqa bir ad altında İslam Respublikası ordusunda qalacaqdılar. Mən buna mane oldum. Bir qədər mübahisə oldu və məsələ dayandı. Sonra da Allah-Taala bu işi görmək üçün onlara macal vermədi və getdilər. İslam İnqilabının qələbəsindən hələ bir il ötməmiş həmin cənablar növbəti dəfə Əlcəzairdə bu xalqın qan düşmənləri olan amerikalılarla müzakirə layihəsi hazırladılar, amma imam mane oldu və qoymadı.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2000.

İstiqlaliyyət və azadlıq - iki yanaşı dəyər

İnsan belə şəxslərdən islahat və azadlıq sözlərini eşidəndə bədgüman olmağa haqlıdır. İlk növbədə Amerika istismarına qarşı çevrilən belə bir möhtəşəm inqilabdan sonra müxtəlif yollarla qapıdan qovulan amerikalıları pəncərədən qaytarmaq istəyən şəxslər indi azadlıqdan və islahatdan dəm vurur, keçmiş rejimin muzdurları və tör-töküntüləri də onlara kömək edirlər. Hər bir sayıq insanın nigaran olmağa və şübhələnməyə haqqı var. İslam inqilabının şah əsəri istiqlaliyyətdir; yəni əcnəbinin bu ölkəyə nüfuzunun yolverilməz olması; yəni Amerika, İngiltərə və digər supergüclərin ölkənin siyasi və mədəni məsələlərinə hər hansı müdaxiləsinin yasaq olması.

Mənim əziz qardaş və bacılarım! Mən istiqlaliyyət məsələsindən ona görə danışdım ki, bizim konstitusiyamız açıq şəkildə deyir: "Nə istiqlaliyyət azadlığın önünü kəsə bilər, nə azadlıq istiqlaliyyətin önünü". Bu çox güclü və möhkəm təməldir. Əgər kimlərsə azadlıq şüarı ilə düşmənin ayağını açmaq istəyirlərsə, bu, azadlıq deyil. Bu, düşmənin istədiyi və qurduğu tələdir. Bu gün həssas gün və bu dövr həssas dövrdür.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2000.

İnqilabın hegemonluğun istismar tilsimini qırması

Bu əsrin əvvəllərindən indiyədək həmişə qlobal güc mərkəzlərinin siyasəti xalqları siyasi səhnədən çıxarmağa yönəlmişdir. Yəni Avropa ölkələrinin və sonra Amerikanın xüsusən bu bölgənin İslam ölkələrini ələ keçirmək, neftlərini mənimsəmək, strateji mövqelərindən, istehlak bazarlarından və ucuz işçi qüvvələrindən istifadə etmək üçün plan cızdıqları zamandan bunun yanında başqa bir əsaslı və həyati qərar da verildi. O qərar bu bölgənin xalqlarını siyasi səhnədən kənarlaşdırmaq idi. Çünki xalqlar siyasi səhnədə olsalar, hökmranlıq istəyində olan hegemonluq məğlub olar. Xalqları necə kənarlaşdırsınlar? Bölgə məsələlərində xalqların sözünü, rolunu və iradəsini heçə endirmək üçün ölkələrin başında xalqa heç bir aidiyyəti olmayan və xalq tərəfindən əsla sevilməyən tərəfdarlarını hakimiyyətə gətirməli idilər. Bunun bizim İranımızdakı nümunələri Rza xan, sonra da onun oğlu idi. Bunların xalqla heç bir əlaqələri yox idi. İranda, yaxud bəzi Şimali Afrika ölkələrində və yaxud regionun digər ölkələrində xalqlar belə insanların hakimiyyəti və başçılığı ilə üzləşdikdə təbii ki, onları müdafiə etməyəcəkdilər. Xalq başçını müdafiə etməyəndə onun ixtiyarı xarici güc mərkəzinin əlinə keçir, "et" dedikdə etməyə, "etmə" dedikdə etməməyə məcbur olur; “Orta Şərq sülhünü rəsmən tanı” dedikdə tanımağa məcburdur; “neftin qitməyini bu qədər endir” dedikdə endirməyə məcburdur; “filankəsi öz hökumət kabinetindən kənarlaşdır”, yaxud “filankəsi öz kabinetində filan vəzifəyə təyin et” dedikdə etməyə məcburdur. Nə üçün məcburdur? Çünki bunu etməsə, beynəlxalq güc mərkəzinin qəzəbinə tuş gələr. Onu müdafiə edəcək bir xalqın da olmadığına görə nəticə belə olur: Bu ölkələrdə azğın və satılmış başçıların vasitəsi ilə verilən qərarlar qlobal güclərin qərarı olur; yəni inqilabın əvvəlindən bizim Hegemonluq adlandırdığımız qüvvənin - xalqları heçə sayan, xalqların hüququna etina etməyən, xalqların maraqlarını nəzərə almayan bir qüvvənin. Hegemonluğun siyasəti bu olmuşdur, bu işi görmüşlər. İnqilabdan öncə bizim əziz İranımızda on

illərlə bu siyasət izlənildi, digər ölkələrdə də, - mən ad çəkmir və zaman təyin etmirəm – bunun çoxlu nümunələrini görə bilərsiniz. Bunun əks tərəfi nədir? Əksi odur ki, bir ölkədə xalq siyasi proseslərə qoşulsun, "hə" və "yox" desin, öz istəyini bildirsin, hüququnu tələb etsin, ölkəsinin məsələlərinə açıq gözlə, möhkəm iradə ilə və qüdrətlə müdaxilə etsin. Bu işin tilsimini bu ölkədə bizim əzəmətli İslam inqilabımız və bu inqilabın misilsiz rəhbəri qırdı, bu işi yoluna qoydu. İnqilabdan öncə on illərlə bu ölkədə parlamentin, seçkilərin və bu kimi məsələlərin adı yox idi. O dövrdə bu xalq bir dəfə də seçkilərdə iştirak etmədi, seçkiləri tanımadı, hökuməti tanımadı, qərarlardan xəbəri yox idi. Bütün işlər bu xalqdan uzaqda görülür, qərar verilir və əməl olunurdu. İnqilabın əvvəlindən isə bu xalq səhnədədir. Ölkə məmurları qərar verirlərsə, şücaət göstərirlərsə, möhkəm addım atırlarsa, bu, xalqın dəstəyinə görədir. Bir ölkədə xalq səhnədə olanda siyasi proseslərdə iştirak edir, daha nə beynəlxalq hegemonlar onu bir şeyə məcbur edə, yaxud kimisə onların belinə mindirə bilir, nə də hakimlər zəiflik göstərib əcnəbilərin istəyinə təslim olurlar; çünki xalq tələb edir.

“İmam Əlinin (ə) dostları” adına mədəni və hərbi ekskursiyada iştirak edən Bəsic üzvlərinin böyük toplantısında çıxışdan: 2000.

Qum şəhərinin parlaq keçmişi

Allah-Taaladan diləyirəm ki, 19 Dey (9 yanvar) qiyamının bu yolun birincilərindən hesab olunan dəyərli və qabaqcıl şəhidlərinə xüsusi rəhmət və əfvini şamil etsin!

19 Dey yalnız Qumun tarixində yox, bizim ölkəmizin və inqilabın tarixində parlaq bir nöqtədir. Qumun gəncləri, qadın və kişilər, tələbə və qeyri-tələbələr belə bir gündə zamanın ehtiyacına imanla və qəhrəmancasına cavab verdilər. Əhəmiyyətli olan budur ki, hər bir xalq, hər bir şəxs və hər bir toplum öz zamanının ehtiyacına cavab verə bilsin. Əlbəttə, Qum əhalisi bu sayıqlığı, dərrakəni və şücaəti ilk dəfə 19 deydə göstərmədi. Qum şəhəri 1200 ildir nurlu Əhli-beyt (ə) düşüncələrinin mərkəzidir. Əhli-beytə (ə) müxalif hökumətlərin iş başında olduğu zaman da Qum əhalisi bu mövqeyi qorudu və onun çətinliklərinə dözdü. Yetmiş ildir Qum İslam dünyasının düşüncə və elm paytaxtıdır. Mərhum Ayətullah Hairinin hicri tarixi ilə 1340-cı ildə Quma gəlişindən etibarən bu şəhər İslam və Şiə dünyasının əsas elm mərkəzinə çevrildi və sonra mərhum Ayətullah Bürucerdinin dövründə öz zirvəsinə çatdı. O dövrlərin məhsulu Böyük İmam kimi əzəmətli və misilsiz şəxsiyyətin meydana çıxması idi. Qumun belə parlaq keçmişi var və həmişə dövrün ehtiyacına cavab vermişdir.

Başıqapazlı qalan və öz dövrünün hadisələrinə məğlub olan xalqların və insanların problemi budur ki, öz zamanlarını və onda baş verən hadisələri anlamır, zamanın tələbini və ehtiyacını dərk etmirlər, yaxud dərk etsələr də, onu aşkara çıxarmaq şücaətinə malik deyillər. Odur ki, zəmanə, müxalif və düşmən qüvvələr onlara qələbə çalır.

Əgər Qum əhalisi **1978**-ci ilin **19** deyində qiyam etməsəydi, ardınca bu böyük hadisələrə səbəb olmasaydı, güman ki, proses başqa səmtə doğru gedəcəkdi. Amma onlar təşəbbüs göstərdilər, kişi, qadın, gənc, qoca, ruhani, qeyri-ruhani - hamı bu hərəkətdə ortaq oldu. Bu işin əsas ağır yükü gənclərin üzərinə düşdü. Çünki fitrətinin paklığı və maddi bağlılığının azlığı gənci asanlıqla vəzifə meydanına çəkir. İnqilab

dövründə bütün İran xalqı bu böyük rəftarı göstərdi; biri bir qədər tez, biri bir qədər gec. Qum isə hamıdan birinci oldu. Nəticədə tamamilə İran xalqının düşmənlərinin, beynəlxalq oğruların və hegemonların əlində olan alınmaz qala - İran hökuməti qalası xalq tərəfindən onlardan alındı və fəth edildi.

Bəzən insanlar bir qalanı alır, lakin tez də əldən verirlər. Sizin yəqin ki, çoxunuz məcburi müharibədə iştirak etmiş və görmüsünüz ki, bəzən insan bir qalanı, bölgəni, şəhəri, kəndi alır, amma onu saxlamaqda səhvə yol verir. Yəni əvvəl həvəsi olur, amma sonra həvəsini əldən verir. Düşmən də dərhal əks-hücuma keçir, zəhmətlə, fədakarlıqla həvəs və imanla əldə ediləni geri alır. Bu günə qədər İran xalqı hər yerdə düşmənin əks-hücumunu dəf etmişdir. Düşmən buna cəhd etmiş və həmişə zərbə vurmağa çalışmışdır.

Qum əhalisi ilə görüşdəki çıxışdan: **2001**.

Xalqın oyanışında İslamın rolu

İslam bizim xalqımızı və gənclərimizi oyatdı. İslam əvvəla göstərdi ki, xalq iradə etsə, öz ayağı üstə dayanıb işlərini idarə etməyə qərar versə, bunu bacarar; ikincisi isə xalqın gözünü açdı və ölkənin taleyinə hakim olanların xalqdan uzaq və ayrı olduqlarını başa saldı. Xalq bunu hiss etdi və gördü. Hakimiyyət başında duran şəxs ya xalqa, ya əcnəbiyə, ya da öz zorakılığına və xəncərinə arxalanmalıdır. Onlar xalqa yox, əcnəbiyə arxalanmışdılar. Əcnəbi də zor və xəncərdən istifadə etmələri üçün onlara kömək göstərirdi. İslam quruluşu isə bütün bunları alt-üst etdi. Bu gün İslam quruluşu və İslam hökuməti sözün həqiqi mənasında xalqa və İslam əsaslarına arxalanır. Biz iddia etmirik ki, bütün İslam hökmləri icra olunmuşdur. Xeyr! İslamın bir çox hökmləri hələ qalmışdır. Bəs onları kim icra edə bilər? İslama imanı olan və xalqa arxalanan şəxs. Buna əsasən, hərəkət düzgündür.

Qum əhalisi ilə görüşdəki çıxışdan: **2001**.

İnqilabın dünyaya yeni sözü: həqiqət və ədalətin hakimiyyəti

Mənim fikrimcə, bu böyük inqilaba dair bir məsələ həmişə diqqət mərkəzində olmalıdır. O da budur ki, bu inqilab bəşər dünyasında yeni söz ortaya qoydu. İndi bugünkü dünyada tamamilə bədii və yeni olan bu sözü məhv etməyə, bütün dünyada xalqların və xüsusən gənclərin beynindən çıxarmağa çalışırlar. O yeni söz bu idi ki, inqilab zalım hökumətlər əleyhinə qiyam etdi. Biz bütün dünyada - istər İranda, istər digər yerlərdə uzun əsrlər şahid olmuşduq və indi də oluruq ki, xalqlar müxtəlif zülmlər törədən hökumətləri legitim hesab etməyə və onlara təslim olmağa vərdiş etmişlər; istər heç bir etiqadi və elmi əsası olmayan, heç bir məntiqə sığmayan sülalə rejimlərinə, istər çevrilişlə, zorakılıqla və qanunsuz yollarla iş başına gələn və yenə də arxasında heç bir məntiqin durmadığı hökumətlərə, istərsə də zahirən xalqın səsi ilə iş başına gələn hökumətlərə. Onlar da əvvəla xalqın səsinə və iradəsinə əsaslanmırlar, ikincisi isə əvvəldə belə xüsusiyyətə malik olanlar da müxtəlif təcavüz və zülmlərdən çəkinmirlər. Siz **19** və **20**-ci əsrə baxın, görün müxtəlif xalqlar arasında nə qədər zülm, fəsad baş vermiş, haqsızlıq, müstəmləkə, soyqırım törədilmişdir. Həmişə həmin güclərin əli belə işlərin arxasında olmuşdur. Onlar öz ölkələrində bəzən demokratiya adlanan zahiri bir şeyə malik olsalar da, demokratiya hər şey deyil və onda düzgün hakimiyyətin əsası olan ədalət yoxdur.

İslam inqilabı və İslam hökuməti bu yeni sözü ortaya qoydu ki, hakim, hökumət və siyasi güc təqvalı, ədalətli olmalı və həqiqətə söykənməlidir. Konstitusiya bunun əsasında yazıldı. Dünyada çox mühüm olan bu hadisə baş vermişdir. Uzun illər - Seyid Camaldan üzü bəri din aydınları və yenilikçiləri onun barəsində danışır, onu istəyir və arzulayırdılar. Həmin danışmaq, yazmaq, şüar vermək dünya güclərinin yuxusunu ərşə çəkir, onları qəzəbləndirir və reaksiyaya vadar edirdi. Siz görün əsas İslam bölgələrində - Misirdə, Hindistanda, İranda, İraqda və digər yerlərdə bu **100**, **150** və **200** il ərzində İslam aydınlarına nələr etdilər.

Hegemonluq və müstəmləkəçilik həm birbaşa, həm də dolayısı ilə hökmranlıq edir. İngilislər mərhum Ayətullah Kaşani kimi bir şəxsi İrandan sürgün etdilər. Yəni onlar başqa bir ölkədə istədiklərini edir, bir nəfəri tutub harasa sürgünə yollayır, yaxud həbs edirdilər. Həmçinin bir çox bölgələrdə dolayısı ilə, öz muzdurları və alətləri - yəni onların mənafeyini təmin edən yerli hakimlər vasitəsi ilə hökmranlıq edirdilər. Bunlar İslam şüarlarından belə qorxurdular. Hazırda isə bu şüarlar həyata keçmiş, bir inqilaba çevrilmiş və arxasınca dərhal İslam hökuməti yaradılmışdır.

Onlar çoxlu inqilablarda olduğu kimi, bu inqilabın da dinin köməyi və qüvvəsi ilə başlandığına baxmayaraq, dindarların onu kənara qoyacaqlarını və özlərinin də gedəcəklərini gözləyirdilər. Bu iş dünyanın bir çox yerlərində baş vermişdi. Azadlıq hərəkatlarının və müstəmləkə əleyhinə mübarizələrin bir çoxu din alimləri və dindarlar tərəfindən yarandı. Lakin onlar bir qədər nailiyyət əldə edəndən sonra, qələbədən bir az öncə, yaxud sonra kənara çəkildilər.

Onların kənara çəkilməsinin səbəbi nə idi? Burada müxtəlif amillər vardır; bəzən sadəlövhlük səbəb olurdu, bəzən zorla meydandan çıxarılırdılar, bəzən düşmənin təbliğatı nəticəsində kənara çəkilirdilər. Onları məsxərə edib psixoloji hücuma məruz qoyurdular. Bəzən başlarını müxtəlif məsələlərlə qatıb səhnədən çıxarırdılar. Biz Əlcəzairdə və bəzi Şimali Afrika ölkələrində bunu gördük. Orada hətta dini hakimiyyət də yarandı; məsələn Tunisdə belə oldu, amma bir qədər sonra müəyyən səbəblər üzündən həmin dini hökumətlər devrildi, müstəmləkənin muzduru olan bir qrup hakimiyyətə gəldi. Hindistanda da elə oldu və dini rəhbərlər yarıyolda işi buraxdılar. Misirdə də az-çox həmin vəziyyət yarandı. İraqda da buna bənzər hadisə baş verdi. Onlar ümidvar idilər ki, İranda da belə olacaq. Hətta inqilabın sayəsində meydana çıxmış, lakin Qərb düşüncəsi ilə yetişmiş şəxslərin biri inqilabın əvvəllərində imama tövsiyə etdi ki, siz Quma gedib işlərinizlə məşğul olun, biz də burada ölkəni idarə edək. Onların ümidləri bu idi, amma alınmadı. Gördülər ki, bu hərəkətin arxasında güclü iradə və

möhkəm dağ dayanır, xalq da tərk etmədi, etmir və ayıqdır. Təbii ki, sonra da bu günə qədər davam edən müxtəlif təxribatlar başladı. Hər tərəfdən əleyhinə təbliğat hücumları edilsə də, bu yeni söz dünyada geniş yayıldı.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: **2001**.

İnqilabın və universitetin qarşılıqlı xidmətləri

İnqilab və universitetin çoxlu qarşılıqlı xidmətləri var. Əgər biz inqilab və universitetin qarşılıqlı xidmətlərini yazmaq istəsək, uzun bir list alınar. Universitet inqilaba böyük xidmətlər göstərmişdir. İslam hərəkatının başlandığı 1964-cü ildən universitet fəaliyyətə keçən ilk yerlərdən idi. O zaman universitet xoşagəlməz vəziyyətdə idi. Lakin məsuliyyətli universitet mənsubları, müəllim və tələbələr mütləq azlıqda olsalar da, şəraitdən qorxmadılar və fərdi formada cavab verdilər. Bütün mübarizə dövründə - 1964-cü ildən 1979-cu ilə qədər ön sıradakı qüvvələrdən biri universitet idi. Mən buna yaxından şahid olmuşam. Bu gün universitetə dair istədikləri şəkildə fikir bildirən bəzi şəxslər o zaman universitetdə deyildilər; bəziləri heç İranda da deyildilər, Avropadan və uzaqdan tamaşa edirdilər. Bəzən tamaşa etməyə də hövsələləri çatmırdı və hadisələrdən xəbərdar olmurdular. İndi bunlar gəlib universitetin xidmətləri haqda danışırlar. Bilmirdilər ki, o zaman tələbə kim idi, nə iş görürdü, universitetdə nə iş görülürdü, hansı fəaliyyət və hisslər mövcud idi.

O zaman biz universiteti yaxından gördük. Hərəkət inkişafa başlayanda universitet tədricən qızışdı, nəhayət sonuncu ildə universitetin fəaliyyəti bir çox yerləri öz təsiri altına salıb kölgədə qoydu. İnqilab qələbə çalanda onun ilk addımlarında üzərinə çox təsirli rollar götürən birinci şəxslər universitet mənsubları idilər. Mən bu gün bu toplantıda iştirak edən möhtərəm müəllimlər arasında bu dostların bəzisini gördüm, İmamın İrana daxil olduğu günlərə və bunların fəaliyyətinə dair bəzi xatirələr yadıma düşdü. O zaman nə ad-san, nə çörək, nə yalançı şöhrət məsələsi vardı, yalnız pak və ixlaslı mübarizə aparılırdı. Müharibə dövründə də inqilaba və İslama 3000 tələbə şəhid təqdim olundu. Onların 90 nəfəri sizin universitetinizə aiddir. Bu kiçik məsələ deyil. Bunlar universitetin xidmətləridir.

İnqilab da universitetə böyük xidmətlər göstərmişdir. Mənim fikrimcə, inqilabın universitetə iki ən böyük xidməti olmuşdur. Biri budur ki, ona müstəqil milli kimlik hissi verdi və onu əcnəbiyə üz tutmaqdan, ona vurulub mat qalmaqdan, əcnəbi qarşısında passiv və gücsüz olmaqdan xilas etdi; inqilabdan qabaq vəziyyət belə idi. İkincisi budur ki, universiteti xalqla barışdırdı. İnqilabdan öncəki universitet xalqın tələtümlü okeanı arasında ucqar bir ada kimi idi. Mömin, dindar və yaxşı müəllim və tələbələri istisna etsək, o zaman universitetin əksər mühiti elə idi ki, siz oraya girsəydiniz, ümumi mədəniyyətə, imana, inamlara və xalqın etiqadlarına arxa çevirməli idiniz. Universitet müəllim və tələbələrin böyük əksəriyyəti üçün məhz fərdi maraq yeri idi. Siyasi və mübariz olan bir qrupdan başqa digər şəxslərin fikri-zikri şəxsi məsələlər idi, ictimai məsələlər barədə düşünmür, cəmiyyətlərinin dərdlərini hiss etmirdilər. O zaman bir tələbə üçün ən mühüm arzu bu idi ki, hansısa bir yolla özünü xaricə çatdıra bilsin. Universitet Qərbə vurulmuşdu, yenilik yaratmaq istəmirdi. Müəllim və tələbədə bu meyl var idi, amma universitetə hakim ənənə bu deyildi, şah rejiminin güclü təbliğ etdiyi asılılıq mədəniyyəti idi. Universitet daxilində ziyalılıq iddiasında olanlar da xalqçı ziyalılar deyildilər, xalqdan uzaq düşmüş kafe ziyalıları idilər. Onların çoxu inqilabdan sonra getdilər və indi də Avropa ölkələrində kafe adamlarıdırlar. Universitet belə bir vəziyyətdə idi. İnqilab universiteti bu iki böyük təhlükədən xilas etdi, onu düşünən, müstəqil, özünə inanan, düşüncə və elm istehsalına qadir, xalqın müxtəlif təbəqələri ilə əlaqədə, xalqın mədəniyyətinə və xalq arasında mövcud olan hiss və duyğulara bağlı bir mərkəzə çevirdi. Bunun çox böyük əhəmiyyəti var.

Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2001.

Amerikanın 19 Avqust çevrilişinə dair etirafları

Mən bu yaxınlarda eşitdim ki, CIA təşkilatının 28 mordaddan (19 avqustdan) əvvəlki mətbuatda rolu barədə sənədlər nəşr olunmuşdur. Düzdür, mən özüm onu görməmişəm, amma deyilənlərə görə, çox maraqlıdır. Göstərir ki, hansı qəzetlər CIA-nın pulu və rəhbərliyi ilə Tehranda 28 mordad çevrilişinə hazırlıq işləri görürdülər. Bəli, bunun nümunələrini başqa yerlərdə də görmüşük: Salvador Allendenin dövründəki Çilidə mühüm rollardan birini qəzetlər ifa edirdilər. Allendenin ikiillik hakimiyyətini uğursuz göstərmək və hamını onun əleyhinə səfərbər etmək üçün bu işi görürdülər və nəhayət başına bəlli bəlanı gətirdilər. Düzdür, o gün heç kəs etiraf etmədi, lakin sonra hamı anladı ki, kimlər olmuşlar, iş başına gələnlərin məqsədi nə imiş, haradan əmr alırmışlar, buna şərait yaradanlar kimlər imiş. Faciənin baş verməsinə qədər səbir edib gözləmək və onu sonradan anlamaq düzgün deyil. Bu gün görmək və açıq gözlə hərəkət etmək lazımdır.

Əmir Kəbir adına Sənaye Universitetinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: **2001**.

Gənc nəslin ölkənin tarixini bilməsinin zəruriliyi

Mən ümumiyyətlə gənclərə və xüsusən də tələbələrə tövsiyə edirəm ki, öz məlumatlarını artırsınlar. Sizin gördüyünüz bu neqativ halların çoxu məlumatın azlığından qaynaqlanır. Bugünkü nəsil, xüsusən də bizim gənc nəslimiz ölkələrinin tarixini bilməlidir; özəlliklə Məşrutə dövründən sonranı. Siz hansı fənn üzrə təhsil almanızdan asılı olmayaraq, cəmiyyətin aparıcı insanları olduğunuzdan - bundan sonra isə inşallah daha aparıcı insanlardan olacaqsınız - ölkənizin keçmişdə və indi hansı mövqedə olduğunu bilməlisiniz. Siz xüsusən keçmiş rejimin tarixini bilməlisiniz. Bizim bugünkü nəslimiz yaxşı bilmir ki, İslam inqilabı bu ölkəni necə bir rejimin caynağından xilas etmişdir. Bunu həmin rejimi əti, qanı və bütün varlığı ilə hiss edən bizlər yaxşı bilirik. Bunlar deyilməlidir. Düzdür, bu sahədə bəzi sözlər yazılmışdır. Keçmiş rejim fəsad dolu, tam asılı, ədalətdən tamamilə uzaq bir rejim idi, xalqın vəziyyəti onları əsla maraqlandırmırdı. Onlar üçün bir amerikalı müstəşarın, yaxud bir sionist səyyahın dəyəri İran xalqının böyük bir hissəsindən qat-qat artıq idi. O rejimin ünsürləri müftəxorluğa, tamahkarlığa, milli sərvətləri talamağa, ölkənin bütün imkanlarından qanunsuz istifadə etməyə alışmışdılar. O rejim qanunsuz təməl üzərində qurulmuşdu. O zaman hakimiyyət başında olan və təxminən 35 il hökmranlıq edən şəxs yalnız qabaqkı şahın oğlu olduğuna görə şah olmuşdu. Siz görün hakimiyyətə gəlmək üçün necə yanlış məntiq mövcud idi. Bütün hakimiyyət və sərvətlər onun ixtiyarında idi. Əgər soruşsaydılar ki, siz hansı səbəbdən hakimiyyətə gəlmisiniz, cavab bu olacaqdı: "Çünki məndən qabaq atam şah olmuşdur". O, ingilislərin birbaşa istəyi və dəstəyi ilə iş başına gəldi, 35 il hakimiyyətdə qaldı. Bəllidir ki, məmləkət onu hakimiyyətə gətirən və himayə edən şəxslərin olacaq. Biz belə bir rejimi arxada qoyduq. Onun atası nə üçün hakimiyyətə gəlmişdi? Çünki İngiltərə dövləti burada çevriliş etmiş və belə istəmişdi. Siz bunları bilməlisiniz. Siz 1921-ci ilin martındakı Rza xan çevrilişinin tarixini, 1924-cü ildə onun şah elan edilməsini və sonra

Məhəmmədrzanın canişin olmasının tarixçəsini bilməlisiniz. Bu barədə yaxşı televiziya proqramları hazırlayıb, kitablar da yazıblar.

Əmir Kəbir adına Sənaye Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2001.

İran inqilabının amalları

Bu inqilabın iddiadan çox amalları vardı. İnqilab gəlməmişdi ki, İran xalqı üçün cavabdehlik daşısın. İnqilab xalqın özünün inqilabı idi. Xalq bəzi amalları həyata keçirmək üçün inqilab etdi. Bu amallar gözəl və azad bir İran yaratmaqdan, ayıq və ictimai ədalətə sahib bir xalqa malik olmaqdan və o zaman bu məmləkətdə hakim olan elmi asılılıqdan, gerilikdən, diktaturadan və repressiyadan xilas olmaqdan ibarət idi.

Əmir Kəbir adına Sənaye Universitetinin tələbələri ilə sual-cavab məclisindəki söhbətlərdən: 2001.

Əmirəlmöminin Əli (ə) - inqilabın örnəyi

İslam inqilabı həmin kamil və kompleks şəxsiyyəti örnək götürüb qələbə çaldı. Keçmiş inqilablardan və digər ölkələrin bəzi hadisələrindən İslam inqilabı üçün örnək göstərən şəxslər buna diqqət yetirmədilər. İslam inqilabı öz örnəyini və nümunəsini Əmirəlmöminindən (ə) götürdü və İslam Respublikası quruluşunu yaratdı. Əmirəlmöminin (ə) məktəbinin bir şagirdi və davamçısı olan böyük imamımz həmişə bunu tövsiyə edirdi. Əgər baxsanız, onun sözlərində tez-tez İmam Əli (ə) meyarlarını müşahidə edərsiniz. Məhz buna görə düşmənlər imamın yolunun əks tərəfini özlərinə məqsəd seçmişlər. İnqilabın, İslam Respublikası quruluşunun və təbii ki, İran xalqının düşmənlərinin təbliğat qurumları Böyük İmamın bəlli meyarlarla təsvir və xalq arasında təbliğ etdiyi yolun əksini hədəf seçmişlər.

Məşhəd əhalisinin və İmam Rzanın (ə) müqəddəs məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: **2001**.

Mirzə Kiçik xanın İslam qiyamı

Qorxmaz Mirzə Kiçik xan Cəngəli bir nümunədir. Bu bölgədə mərhum Mirzə Kiçik Cəngəlinin qəlbi şücaətli müsəlman hissləri ilə dolanda bütün Gilan vilayətində və bu bölgənin aparıcı adamları arasında İslam birliyi nəğməsi artıq dolaşmışdı. Gilanlılar siyasi mübarizələrin və mətbuat fəaliyyətlərinin öncülləri olmuşlar. Ölkənin ən qədim qəzetlərindən bəzisi və ən qədim siyasi fəaliyyətlər bu bölgədə həyata keçmişdir. Zalım şah rejimi dövründə bura yaşıllıq və bərəkətli yer olduğuna görə, onlar bu vilayətdə əhalini dindən ayırmaq üçün bəzi imkanlar yaratmışdılar. Mən həmin illərdə Gilana gəldim, Rəşti və bu vilayətin müxtəlif bölgələrini yaxından gördüm. Gördüm ki, müstəmləkəçi və qərəzli əllər bunları dindən ayırmaq üçün onların düşüncəsi, qəlbi və ruhu üzərində hansı işi aparırlar. Lakin inqilab şöləsi qalxandan və inqilab qələbə çalandan sonra hamı gördü ki, müqaviməti və mərdliyi ilə diqqət çəkən, öz kimliyini və şəxsiyyətini göstərən bölgələrdən biri ölkənin şimalı, o cümlədən Gilan bölgəsidir; istər inqilabda, istər müharibədə, istər müharibədən qabaqkı günlərdə. Müxtəlif qruplaşmaların hər biri özünə tərəfdar və əsgər toplayanda, müsəlman xalqın qanı, mömin gənclərin səyi və Böyük İmamın rəhbərliyi hesabına yaranmış şəraitdən sui-istifadə etmək istəyəndə mən universitetdə və gənclərin qarşısında çıxış etmək üçün Rəştə gəldim. Yadımdan çıxmır, şəhərin böyük meydanında qruplaşmalar tərəfindən o qədər böyük plakatlar, elanlar və iri pərdələr asılmışdı ki, insanda təəccüb doğururdu. Biz Mirzə Kiçiyin məzarına fatihə oxumaq üçün mərhum Şəhid Doktor Əzudi ilə birgə şəhərin qəbiristanlığına getdik. Qruplaşma üzvləri bizi hədələmək, Mirzə Kiçik xanı təhqir etmək, İran xalqının möhtəşəm İslam hərəkətini maddi və mənəviyyatdan uzaq bir hərəkət kimi göstərmək üçün özlərini oraya çatdırdılar. Həmin şəraitdə bu əcnəbipərəstlərin təcavüzkar pəncəsinin bu şəhərdən və bu vilayətdən qoparılması imkansız görünürdü. Lakin bölgə əhalisinin dini, imanı, eşqi və mənəviyyatı əcnəbilərin əlini kəsdi, İslamı və bu vilayətin

mömin əhalisinin qəlbində olan imanı əcnəbilərin azğın həvəslərinə qalib etdi. Gilan vilayəti göstərdi ki, İslama, Qurana və Əhli-beyt (ə) məktəbinə ürəkdən inanır. Sonra da məcburi müharibə dövrü başlandı. Bu dövrdə Gilan diviziyası düşmən səddini yaran diviziyalardan biri idi. Gilanlı zabitlər, şəhidlər və müharibə əlilləri heç zaman unudulmayacaq parlaq ulduzlar oldular. Bu, Gilan əhalisinin nailiyyətlərinə dair çox kiçik və zəif bir təsvirdir. Bura çox faydalı bir ərazidir.

Rəşt şəhərinin Şəhid Əzudi stadionunda Gilan vilayətinin əhalisi ilə görüşdəki çıxışdan: **2001**.

İnqilab örnəyinin Cənubi Afrikaya təsiri

Bu məmləkətin gənci yetmişinci və səksəninci illərdə möcüzə yaratdı. Bu məmləkətin gənci o zamana qədər heç bir xalqın görə bilmədiyi işi gördü, sizin bu Rəşt şəhərinizdə, vilayətin və ölkənin digər şəhərlərində elə fəallıq göstərdi ki, dünyanın bütün müstəmləkəçilərinin himayə etdiyi və təpədən-dırnağa qədər silahlı bir rejim daha nəfəs ala bilmədiyini gördü və qaçıb getməyə məcbur oldu. Bu təcrübə bizdən sonra təkrar olundu, bizdən öncə isə heç yerdə baş verməmişdi. Digər yerlərdə baş verən inqilablar partizan döyüşlərinin, bomba və güllələrin nəticəsi olmuşdu. Amma bu təcrübə İran gəncləri vasitəsi ilə yaranan təcrübə idi.

Nelson Mandela həbsxanadan çıxandan bir az sonra, hələ Cənubi Afrikada qələbə çalmazdan öncə İrana gəlib mənimlə görüşdü. Biz onunla Cənubi Afrikanın vəziyyəti haqda danışdıq. Mən ona dedim ki, bizim belə bir təcrübəmiz var, düşünürəm ki, sizin ölkədə də həyata keçə bilər. O təcrübə budur ki, qadın və kişilərdən ibarət könüllü insanlar - bunlar bizim ölkəmizin əksəriyyətini təşkil edirdilər - küçələrə çıxsınlar. Bizdə xalq yumruq, silah, top-tüfəng və silahlı dəstələrlə yox, boş əllə küçələrə çıxdılar, üzlərini də bağlamadılar. Bununla rejimə təzyiq göstərdilər və rejim artıq dayana bilmədiyini gördü. Daha nəyi idarə edəcəkdi?! Dedim ki, mənim fikrimcə bu örnək Cənubi Afrikada həyata keçə bilər. O, başını tərpətdi. Gedəndən bir-iki ay sonra qəzetlərdə Cənubi Afrikada izdihamlı xalq nümayişlərinə dair xəbərləri oxuduq. Mən bildim ki, bu toxum cücərdi; eynilə İranda olduğu kimi. Cənubi Afrikanın böyük şəhərlərinin bütün küçələri qaralarla doldu. Bəzi ağdərililər də onlarla birgə nümayişə çıxdılar və dedilər ki, biz də irqi ayrıseçkiliyə müxalifik. Nəticə də hasil oldu və ölkənin başında duran adam bir iş görə bilmədiyini anladı. Əvvəlcə getdi və yerinə başqa birisini qoydu. O da gördü ki, mümkün deyil. Odur ki, sakit bir ötürmə ilə hakimiyyəti qaradərililərə verdilər və Mandelanın özü prezident oldu. Bu hadisəni təkrarlamaq mümkündür. Xalqların

azadlığına dair bu örnək yetmişinci və səksəninci illərdə iranlı gənc tərəfindən göstərildi; yetmişinci illərdə İslam inqilabı möcüzəsi, səksəninci illərdə isə səkkizillik müharibədə qalibiyyət möcüzəsi baş verdi.

Rəşt müsəllasında gənclərlə və müəllimlərlə görüşdəki çıxışdan: **2001**.

Rza xanın Qərbdən sovqat gətirdiyi əxlaqsızlıq

Bir gün bir qrup qərbpərəst gözlərini bağlayıb dedilər ki, biz hər şeyi Qərbdən almalıyıq. Onlar Qərbdən nə aldılar? Avropalıların yaxşı xüsusiyyətlərindən biri təhlükəli işlərə girişməkdir. Onların uğurlarının əsas səbəbi budur. Bizim qərbpərəstlərimiz İrana bunu gətirdilər?! İranlılar riskdən qorxmadılar?! Onların başqa bir yaxşı xüsusiyyəti yorulmazlıq və işdən qaçmamaqdır. İrana bunu gətirdilər?! Qərbin ən böyük və ən mahir alimləri və kəşf sahibləri uzun illər çətin şəraitdə otaqlarında oturub nəyisə kəşf etmişlər. İnsan onların həyatını oxuyanda necə yaşadıqlarını görür. Yalnız elmdən ötrü bu yorulmazlıq hissini İrana gətirdilər?! Bunlar Qərb mədəniyyətinin yaxşı hissələri idi. Bunları gətirmədilər. Bəs nəyi gətirdilər? Qadın və kişinin məhdudiyyətsiz münasibətlərini, əyyaşlıq azadlığını, stol arxasında oturmağı, ləzzət və ehtirasları dəyər saymağı gətirdilər.

Quldur Rza xanın Qərbdən bizə gətirdiyi ilk hədiyyə geyim formasından və hicabın götürülməsindən ibarət idi; özü də silah gücünə və özünün kazak quldurluğu ilə: paltarlar uzun olmamalı və qısaldılmalıdır, papaq filan cür olmalıdır və sair. Sonra onu da dəyişib dedilər ki, bundan sonra yalnız şlyapa qoyulmalıdır. Əgər kimsə başına Pəhləvi papağından başqa bir şey qoysaydı, yaxud qısa paltar geyinməsəydi, döyülməli idi. Bunları Qərbdən götürdülər. Qadınlara hicab bağlamaq yasaq idi. Çadra çoxdan götürülmüşdü. Əgər başlarını yaylıqla da örtsəydilər və çənələrinin önünü bir qədər tutsaydılar, döyülürdülər. Nə üçün? Ona görə ki, Qərbdə qadınlar başıaçıq gəzirdilər. Bunları Qərbdən gətirdilər. Bu xalqa lazım olanı gətirmədilər; elm gəlmədi, təcrübə gəlmədi, ciddilik və çalışqanlıq gəlmədi, riskə atılmaq gəlmədi. Hər halda, hər bir xalqın yaxşı xüsusiyyətləri də var. Gətirdiklərini də dərhal qəbul etdilər. Fikir və düşüncəni gətirdilər, amma təhlil etmədən qəbul etdilər. Dedilər ki, Qərbdən gəldiyinə görə qəbul etmək lazımdır; geyim və yemək forması, danışmaq və yol yerimək tərzi Qərbdən gəldiyinə görə qəbul etmək lazımdır, bunun

oyan-buyanı yoxdur. Bu bir ölkə üçün ən təhlükəli haldır və düzgün deyil.

Rəşt müsəllasında gənclərlə və müəllimlərlə görüşdəki çıxışdan: **2001**.

Böyük sivilizasiya darvazası, yaxud İranda mənəviyyatın məhvi

Keçmiş rejimdə muzdur və xain şah bu yalançı həll yolunu "böyük sivilizasiya darvazası" adı altında xalqa ərməğan etmək istəyirdi. Əlbəttə, illərlə bunun üzərində işləmişdilər. Bu ölkədə əxlaqi fəlakət yüksək həddə, mənəvi, psixoloji və elmi iflas misilsiz idi. Böyük sivilizasiya darvazası və İran modernizmi adı altında ölkənin mənəviyyatının olan-qalanını da hərraca qoymaq istəyirdilər. Əcnəbi qarşısında, Amerikanın və sionizmin pəncəsində məğlub olan əyyaş və savadsız şah, təhqir olunmuş və aşağılanmış xalq – bu İran modernizmi onlarınkıdır. Bu, modernizm və həqiqi sivilizasiya deyil. Həmin yalançı yolun timsalı bu idi ki, pul çıxan hər bir sahədə xarici şirkətlərin işçi və muzdurları yuva salmışdılar. Təbii ki, yerli şəriklərinin vasitəsi ilə bu işi görürdülər və yerli şərikləri də saraya, ozamankı xain və asılı məmurlara bağlı olurdular. Belə modernizmin faydası yoxdur. Bu bir xalq üçün bədbəxtliyə, fəlakətə və hər şeyin məhvinə səbəb olur. Əgər bu inqilab baş verməsəydi, şimşək fəryadı bu məmləkətdə hər şeyi tələtümə gətirməsəydi, qəlbləri yerindən oynatmasaydı, Allah bilir bu gün bizim ölkəmiz hansı vəziyyətdə idi. Siz Asiya və Afrikanın bəzi inkişaf etməmiş ölkələrinə baxın. Şübhəniz olmasın ki, bu əlverişli coğrafi və tarixi mövqeyə rəğmən, bizim vəziyyətimiz onlardan da pis olardı. İnqilab bu ölkənin köməyinə çatdı, bu xalqı heç zaman çıxa bilməyəcəyi bir uçuruma yuvarlanmaqdan xilas etdi. Buna əsasən, belə həll yolu yalançı həll yoludur və gənc onun arxasınca getməməlidir.

Rəşt müsəllasında gənclərlə və müəllimlərlə görüşdəki çıxışdan: **2001**.

Mirzə Kiçik xanın əhəmiyyəti və rolu

Mirzə Kiçik dünyanın ozamankı iki böyük gücünə - yəni ruslara və ingilislərə böyük bir "yox" deyən yalqız bir kişi idi. O nə ruslarla razılaşdı, nə ingilislərlə. Onun kənarında ozamankı hökumətlə və sonra hakimiyyətə gələn Rza xanla mübarizə aparan, amma ruslara sığınan, Bakıya gedib dəm-dəsgah toplayaraq İrana qayıdan və onlara muzdur olan şəxslər vardı. Mirzə Kiçik xan isə qəbul etmədi və işbirliyinə getmədi. O həm ingilislərlə vuruşdu, həm rus kazakları ilə, həm də Rza xanın və ondan qabaqkıların ordusu ilə. O, Ehsanullah xanla və digərləri ilə də razılaşmadı. Gilanlı gənc Mirzə Kiçik xanın məzarı başına gedəndə Gilan meşələrində məzlum şəkildə ölsə də, bu yalqız, imanlı və pak kişinin öz şəxsiyyətini İran tarixinə qeyd etməsini, ölməsini, lakin bir məşəl olmasını görür. Biz mübarizə dövründə Mirzə Kiçik xanın adını xatırlayanda və həyatını oxuyanda ondan güc alırdıq. O öz səyini, iradəsini, şəxsiyyətini və kimliyini xərclədi ki, bir nəslə kimlik, şəxsiyyət, güc və iradə bəxş etsin. Bu çox dəyərli məsələdir. Onun kimilər az idilər. Onlar qürbətdə mübarizə apardılar və qürbətdə də öldülər. Amma görürsünüz ki, bu gün qərib deyillər. Tarixin gərdişi qəribə bir şeydir. O, şeyxfəzlullahların, mirzəkiçikxanların, xiyabanilərin və digərlərinin qərib öldükləri kimi qərib qalmalarına qoymadı və qoymayacaq. Düşmənlər bu fəxrləri iranlı gəncdən almaq istəyirlər.

Rəşt müsəllasında gənclərlə və müəllimlərlə görüşdəki çıxışdan: **2001**.

Quruluşun möhkəm büövrəsinin əsas elementləri

Müasir dövrdə imamət və vilayətin parlaq günəşinin - yəni bizim böyük və əzəmətli rəhbərimiz olan İmam Xomeyninin qürub etməsinin on ikinci ildönümündə bu böyük kişinin və peyğəmbərlər canişininin rəftar və əməllərinə diqqət etdiyimizdə onun həyatında, davranışında və təlimlərində hidayət imamının xüsusiyyətlərini aydın şəkildə görürük. Bu gün bizim hamımız üçün çox önəmli olan budur ki, imamın şəxsiyyətinin həqiqi elementləri olan yolu, üsulu və təlimləri ilə tanış olaq; hərçənd Allaha şükür olsun ki, bizim xalqımız bu mənəvi sərmayəni qorumuşdur.

Mən bu gün bu böyük toplantıda siz qardaş və bacılara və bütün İran xalqına imamın şəxsiyyətinin bir cəhətini açıqlamaq istəyirəm. Çünki Böyük İmamın həyatı yalnız bir insanın şəxsiyyəti demək deyil, əslində bütün İran xalqının və dünya müsəlmanlarının əməli bələdçisi olub, İslamın sayəsində özlərinə layiqli həyat qurmaq istəyən bütün şəxslərə yol göstərir. Təbii ki, bu sözlər daha çox İran xalqına aiddir, çünki əmanət yükü bizim çiyinlərimiz üzərindədir. Bu inqilabın əzəmətli nailiyyətini qorumaq İran xalqı üçün bir özəllikdir. Biz bu böyük ehtiyatı qorumalı və bu nemətin şükrünü yerinə yetirməliyik. İmamın şəxsiyyətinin bu cəhəti İslam Respublikası quruluşunu çox məharətlə möhkəm elementlər üzərində qurmasından ibarətdir. Bu əsas elementlər İslamdan, xalqdan, qanunçuluqdan və düşmənlə mübarizədən ibarətdir. Böyük İmam İranda çürük şah rejiminin yerində güclü quruluş yaradarkən bu elementləri çox diqqətlə işlətdi, öz əməlində onlara sadiq və öhdəçi qaldı, müraciət, çıxış və təlimlərində onların üzərində təkid etdi. İslam quruluşunu özlərinin qanunsuz maraqları ilə ziddiyyətdə görən və onunla düşmənlik edən bütün şəxslər ötən iyirmi iki ildə olduğu kimi, bu gün də hər şeydən çox bu dörd elementlə mübarizə aparırlar. Onların əsas səyi budur ki, ya quruluşdan İslam faktorunu alsınlar, ya imamın nəzərdə tutduğu, geniş və bədii mənada olan xalqa arxalanmağı alsınlar, ya onun qanuni

təməlini sarsıtsınlar, ya düşmən qarşısında daimi sayıqlığını alsınlar, oyanışı yuxuya və avamlığa çevirsinlər. Odur ki, bu dörd element bizim üçün böyük əhəmiyyət kəsb edir. Mən bu gün bunların hər biri barədə qısa məqamlara toxunacağam:

İslam - inqilabın qələbə rəmzi

Quruluşu təşkil edən ən əsas element islamçılıqdan, İslam və Quranın güclü əsaslarından ibarətdir. Çoxları olduqca təsirli olan bu həqiqəti unutdular, lakin inqilabın qələbə rəmzi bu idi. Çünki İran xalqı İslama ürəkdən inanır, iman bəsləyirdi və indi də belədir. Əksər müsəlman xalqlar belədirlər; qarşılarındakı maneə götürülsə, İslama güclü imanları aşkara çıxar. Buna görə xalq imamın əlində İslam bayrağını görən kimi, onun İslamın əzəmətini dirçəltmək və İslam quruluşu yaratmaq üçün mübarizə apardığına inanan kimi ətrafına toplaşdılar. Sonra inqilab qələbə çalanda da həmin həvəslə könüllü şəkildə təhlükəli işlərə atıldılar. Çünki onların İslama imanı güclü idi.

Özlərini görkəmli şəxsiyyətlər, elita, siyasi partiyalar, düşüncə və siyasətə dair fikir sahibləri sırasında görən bəzi şəxslər bundan xoşlanmırdılar. İslama etiqadı olmayanlar heç, bəzilərinin isə İslama etiqadı vardı, amma İslam quruluşunu qəbul etmirdilər. Buna görə də inqilabın əvvəlindən imamın xəttinə paralel bir cərəyan peyda oldu. Bu cərəyan xalqı İslam rəngi və pərdəsi altında olan və Qərb quruluşlarından örnək götürülmüş laik bir quruluşa dəvət edirdi. Adı İslam idi, əslində isə belə deyildi; İslam quruluşu idi, amma istiqaməti qeyri-islami idi. Əlbəttə, onlar belə bir quruluşu xalqa qəbul etdirməkdən ötrü onun kənarında hörmətli bir ruhaninin olmasını da istəyirdilər; çünki xalq İslamı sevirdi. Bu quruluşu xalqa İslam quruluşu kimi göstərmək üçün onda hörmətli bir ruhaninin olmasına pis baxmırdılar. Həmin ruhani orada olsun, dövlət rəsmiləri də quruluşu özləri istədikləri qeyri-islami şəkildə və əslində dünya supergüclərinin qəbul etdiyi şah rejiminin yeni formasında idarə etsinlər. Zahirdə din rənginin olması xalqı cəlb etmək baxımından lazım idi. Yəni

müharibədə, müdafiədə, vergi ödəməkdə və digər işlərdə nə zaman xalqın iştirakına ehtiyac duyulsa, bu zahiri İslam xalqı quruluşla əməkdaşlığa vadar etsin. Xalqın şəriət haqları təmin olunmasa da, eybi yoxdur; digər istismarçılarla mübarizə aparılmasa da, eybi yoxdur; ölkənin müstəqilliyi, xalqın mədəniyyəti və iqtisadiyyatı düşmənlərin əlinə keçsə də, eybi yoxdur. Buna görə imam konstitusiyanın seçilmiş dini ekspertlər tərəfindən yazılmasını tapşıranda harada İslam adı və İslamın həqiqi iştirakından əlamət vardısa, bunlar qarşı çıxırdılar. "Fəqih hakimiyyəti" məsələsi ortaya çıxanda bunlar sərt mübarizə apardılar. Onların "hakimiyyət" sözü ilə problemləri yox idi, hakimiyyət təşnəsi idilər, lakin "fəqih" sözünə müxalif idilər. Çünki bu, cəmiyyətdə dinin həqiqi rolu demək idi. Buna dözmürdülər. Harada İslamın həqiqi rolundan əlamət görünürdüsə, bunlar etiraz edirdilər.

İmam çox iddialı olan bu cərəyanın qarşısında möhkəm dayanıb İslam əsasları üzərində durdu, quruluşun İslam forması üzərində ciddiliklə israr etdi. Çünki İslamla tanış olan hər bir şəxsin və bu gün bizim düşündüyümüz kimi, imam da düşünürdü ki, bir xalqın səadəti, rifahı, azadlığı, başucalığı, həmçinin ədalət və sözün həqiqi mənasında xalqa arxalanmaq məsələləri İslam hökmləri sayəsində təmin olunur. Ədalət və demokratiya şüarı ucaldanlar xalqın hüququnu və mənafeyini ədalətlə təmin edə bilmədiklərini göstərdilər. İslam isə bu işi görə bilər. Böyük İmamın İslam üzərində təkidi İslamın missiyasına güclü inam demək idi. Yəni İslam dini bu gün xalqları xilas edə bilər. Buna görə də imam konstitusiyanın yazılmasında, həm də mübarək həyatının on ilində müsəlman xalqlara verdiyi bütün tövsiyələrində İslam üzərində təkid etdi. Bu, İslam Respublikası quruluşunun dünya güclərinin həddi-hüdudu olmayan düşmənliklərinə rəğmən, müsəlman xalqlar arasında saysız-hesabsız tərəfdar toplamasına, həm də onlarda həvəs, ümid və maraq oyatmasına, bütün İslam dünyasında İslam hərəkatına zəmin yaratmasına basi oldu. Bu gün İslam Respublikası quruluşunun, bu quruluşun başçı və məmurlarının dünyada hörməti varsa, İslama görədir. İstər dünyada İslama etiqadı olanlar, istər hətta etiqadı

olmayanlar da İslama görə İslam Respublikasına və onun məmurlarına hörmət edirlər. İslama etiqadı olmayanlar İslamın rolunu, nüfuzunu, təsirini və iqtidarını görür və bu iqtidarın timsalı onların gözündə ucalır.

İmam İslam üzərində dayandı. O, İslamın adı ilə qane olmadı, bütün dövlət və hökumət qurumlarında İslam qanunlarının hakim olmasına israr etdi. Əlbəttə, bu iş uzunmüddətli bir iş idi. İmam da bilirdi ki, bu məqsəd qısa müddətdə həyata keçməyəcək. Amma yolu açdı, hərəkətə başladı, istiqaməti göstərdi və hamı anladı ki, sözün həqiqi mənasında İslam hökmlərinə, təlimlərinə, quruluş və cəmiyyət üçün islami struktura doğru gedərək ədaləti təmin edib yoxsulluğu aradan qaldıra və fəsadın kökünü kəsə biləcəklər. Bununla da bu xalqa vurulan daimi yaralar sağalacaq.

Bu gün mən statistik rəqəmlərdən və hökumət qurumlarının vəziyyətindən yaxından tanış olan bir şəxs kimi siz əziz xalqa deyirəm: Biz harada qətiyyətlə, inam və aydın baxışla İslam hökmlərini rəhbər tutduqsa, onların ardınca hərəkət etdiksə və səmimi şəkildə İslamı icra etmək istədiksə, müvəffəq olduq. Amma harada uğursuzluq və zəiflik yarandısa, bizim İslamı, İslam hökmünü unutduğumuza görə baş verdi. Bu gün həm iqtisadi, həm siyasi, həm beynəlxalq sahədə, həm də düzgün xalq tərbiyələri sahəsində harada zəiflik və uğursuzluq müşahidə olunursa, diqqətlə araşdırılsa, orada İslamın hökmünə və əmrinə diqqət yetirilmədiyi məlum olacaq. İmam bilirdi ki, biz İslama sarılsaq, xalq üçün həm dünyəvi iqtidar, həm maddi rifah, həm siyasi güc, həm də sabitlik və təhlükəsizlik hasil olacaq. Buna görə imam sözün həqiqi mənasında İslamiyyət faktorunu quruluşun strukturuna və mahiyyətinə daxil etdi.

İslam quruluşunda xalq elementi

İmamın maksimum diqqət yetirdiyi ikinci element xalq elementidir. Təxminən bütün hakimiyyət quruluşlarında xalqdan söhbət açılır. Heç kəs demir ki, mən xalqın mənafeyinin ziddinə işləmək istəyirəm. Hətta avtoritar sülalə rejimlərində də heç kəs xalqın istəyinin

əksinə gedəcəyini demir; yəni hər yerdə xalqçılıq iddiası var. Amma görək harada xalqa həqiqətən dəyər, hörmət, hüquq və rol tanıyırlar? İmam xalq elementi üzərində təkid edəndə bunu formal şəkildə etmirdi, sözün həqiqi mənasında buna inanırdı və bir neçə məsələdə xalqı həqiqətən və diqqətlə nəzərə aldı.

Birinci məsələ quruluşun xalqın səsi ilə yaranması idi. Xalqın quruluşda böyük rolu var. Xalqın iştirakı və bu iştiraka önəm vermək burada özünü göstərir. Bizim konstitusiyamızda, imamın söz və tövsiyələrində həmişə təkid olunmuşdur ki, xalqın dəstəyi, iştirakı və istəyi olmasa, quruluş əslində heç bir şeydir. Hökumət xalqın səsi ilə iş başına gəlməli, quruluş xalqın iradəsinə söykənib hərəkət etməlidir. Prezident seçkiləri, Dini Ekspertlər Məclisinin, İslam Şurası Məclisinin seçkiləri və digər seçkilər xalqın səsinin, iradə və istəyinin təzahürüdür. Böyük İmam həm öz həyatında xalqın bu iştirakına tam sadiq qaldı, həm də vəsiyyətnaməsində xalqı məmurlara tapşırdı. Əslində seçkilərin keçirilməsi və xalqın prezident, deputat və sair seçkilərdə iştirakı həm xalqın haqqı, həm də onların üzərində bir vəzifədir. İslam quruluşunda xalq təyinedicidir. Bu da İslamdan irəli gəlir.

Mənim dəfələrlə təkid etdiyim mühüm bir məsələ budur ki, İslam quruluşunda islamçılıq xalqçılıqdan ayrı deyil. İslam quruluşunda xalqçılığın dini kökü var. "İslam quruluşu" dedikdə xalqı görməzdən gəlmək imkansızdır. Xalqın seçki hüququnun təməli İslamın özüdür. Buna görə də bizim demokratiyamız - yəni dini demokratiya fəlsəfi əsasa malikdir. Xalq nə üçün səs verməlidir? Xalqın səsi nə üçün etibarlı sayılmalıdır? Bu, puç hisslərə və ümumi razılaşmaya əsaslanmır, çox güclü bir İslam əsasına dayanır. Deməli, imamın həmişə təkid etdiyi, İslam quruluşunda işlətdiyi və həmişəlik yadigar qoyduğu məsələlərdən biri quruluşun məmurlarını seçməkdə xalqın iştirakı və vəzifələrin xalqın iradə və istəyi ilə bölünməsidir.

Məmurların xalqa xidmət göstərməsi

İkinci sahə məmurların xalq qarşısında vəzifələridir. Biz xalq deyəndə mənası bu deyil ki, xalq gəlib səs versin, przidenti, yaxud deputatı seçsin və seçilmiş şəxsin xalq qarşısında heç bir məsuliyyəti olmasın; kimsə xalqa xidmət etmək istəsə də, yenidən xalqın səsini qazanmaq üçün olsun. Belə deyil. İslamda və İslam Respublikası quruluşunda məmurların vəzifəyə təyin edilməsinin fəlsəfəsi onların xalq üçün işləmələridir. Məmurlar xalq üçündürlər, onların xidmətçisi, əmanətdarı və onlara borcludurlar. Əsas xalqdır. İslam Respublikası quruluşunda bir vəzifəyə keçən şəxsin bütün fikri-zikri xalq olmalıdır; həm xalqın dünyası üçün, həm maddiyyatı üçün, həm mənəviyyatı üçün, həm ədalət yaratmaq üçün, həm xalqın insani məqamının dirçəldilməsi üçün, həm də azadlığı üçün. Bunlar hökumətin əsas vəzifələrindəndir. Əlbəttə ki, xalq dedikdə məqsəd bütün təbəqələrdir. Lakin məlumdur ki, daha məhrum olanlara daha artıq diqqət yetirilməlidir. Buna görə imam ölkənin məhrum və yoxsul təbəqələrinə həmişə xüsusi diqqət yetirirdi. Kiminsə əməldə yoxsul və məhrum təbəqələrin yox, rifah içində olanların xeyrinə çalışıb, xalqa xidmət göstərdiyini iddia etməsi bir yalandır. Bu o demək deyil ki, təminatlı təbəqələr üçün çalışmaq lazım deyil. Onlar da ölkənin ümumi hüquqlarından istifadə etməlidirlər, amma yoxsulluq içində və öz hüquqlarından məhrum olan insanlara daha çox diqqət ayırmaq lazımdır. Buna görə imam həmişə məzlum, məhrum və yoxsulların hüquqlarını tapşırırdı. İnqilabın qələbəsindən sonra və ondan öncə hamıdan çox sinəsini sipər edib quruluşu müdafiə edən, onun çətinliklərinə dözən və düşmənlər qarşısında dayananlar cəmiyyətin məhrum, yoxsul və məzlum təbəqələri olmuşdur. Bunlara digərlərindən çox diqqət yetirmək lazımdır.

Özünəinamın ölkə inkişafının şərti olması

Xalqın əsas amil olduğu üçüncü sahə ölkənin inkişafında, yəni istedadları çiçəkləndirməkdə xalqın düşüncə və əməlindən faydalanmaqdan, istedadları çiçəkləndirməkdən ibarətdir. İnqilabın

əvvəllərində imam həmişə cavanlara, tələbələrə, mütəfəkkirlərə və istedadlı insanlara müraciətlə deyirdi ki, özünüzə iman gətirin, öz gücünüzə inanın və bacardığınızı bilin. Bu, uzun istibdad dövründə bu ölkədə təlqin olunan fikrin tam əksinə idi. Biz inqilab dövründə gördük ki, İslama həqiqi mənada inanmayanlar buna da inanmırdılar. Onların gözləri həmişə ölkə sərhədlərindən bayıra dikilirdi, xalqa və onun bacarığına inanmırdılar. İmam bu quruluşda bu düşüncəni oturuşdurdu ki, ölkənin istedadlı gəncləri bacarıq hissinə malik olsunlar. Siz inqilabdan sonra ölkədə nə qədər elm və sənaye inkişafı görürsünüzsə, hamısı bundan irəli gəlir. Harada İran xalqına və onun istedadlarına təhqir sayılan asılılıq əlamətləri müşahidə olunursa, bu təfəkkürün əksindən doğmuşdur.

Maarifləndirmə və aydınlatmanın əhəmiyyəti

İmamın xalqa önəm verməsinə dair dördüncü sahə xalqı daimi maarifləndirmənin zəruriliyindən ibarətdir. İmamın özü ömrünün ahıl çağında xalqı maarifləndirməkdən ötrü hər bir fürsətdən istifadə etdi. Dünyanın informasiya şəbəkələrində təhrif və azdırma faktoru olduqca təhlükəlidir. İmam bunu bilirdi. Ölkənin və xalqın düşmənlərinə bağlı olan etimadsız informasiya və düşüncə mərkəzləri imamı vadar edirdi ki, həm özü daim xalqa yol göstərib məsələləri aydınlaşdırsın, həm də digərlərinə bu haqda tövsiyələr versin. İmam tapşırırdı ki, xalqa həqiqətləri söyləyin, onları düşmənin gizlətməyə çalışdığı məsələlərlə tanış edin. Biz də buna görə həmişə söz, qələm və müxtəlif tribuna sahiblərinə tövsiyə edirik ki, məsələləri xalqa düzgün izah etməyi özlərinə məqsəd seçsinlər.

Bu gün düşmən bu mühüm məsələnin tam ziddinə işləyir. İnqilabın əvvəllərindən düşmənin mühüm məqsədlərindən biri həqiqətləri və tarixi təhrif etmək olmuşdur. Əgər ölkə daxilində nə zamansa muzdur bir dil, yaxud qələm peyda olub müharibənin, inqilabın və İslamın həqiqətlərini dəyişdirirdisə, dünyanın hər tərəfindən alqışlandığını görürdünüz. Bu gün də elədir. Bu gün də ölkə

daxilində kimlərsə hegemonluğu, bu xalqın və ölkənin düşmənlərini razı salmaqdan ötrü İslamı, inqilab tarixini və inqilab şəxsiyyətlərinin fəaliyyətlərini təhrif edən bir söz deyir və yazırsa, dünyanın hər tərəfindən hegemonluğun təbliğat şəbəkələri ona "ura" deyir və həvəsləndirir. Maarifləndirmə çox mühüm məsələdir. İnsan öz baxış və görüşlərinə tabedir. Əgər kimsə həqiqətləri təhrif edə bilsə, xalqın əməl və iradəsini həqiqətdən yayındırmağı bacarmışdır. Düşmən bunu istəyir. Bu gün kimlərsə İslamın, bu xalqın müqəddəslərinin və fədakarlıqlarının əleyhinə nəsə yazırsa, kimlərsə bu ölkənin ən yaxşı övladlarının - yəni bizim şəhidlərimizin və Allah yolunun mücahidlərinin əleyhinə fikir bildirir və saqqal tərpədirsə, kimlərsə Bəsicin, cihadın və şəhadətin əleyhinə danışır və bir şey yazırsa, xarici radiolar, siyasətçi və yazıçılar onları həvəsləndirirlər. Bu gün hamı – istər sözləri geniş miqyasda işıqlandırılanlar, istərsə də daha kiçik dairələrdə, məsələn məktəbdə, sinifdə, universitetdə, fəhlələr arasında və digər yerlərdə nüfuzu olanlar məsuliyyət daşıyırlar. Əgər İslam və inqilab həqiqətlərinin təhrif olunduğunu görsələr, maarifləndirməli və sakit durmamalıdırlar. İmam bu məsələyə çox diqqət yetirirdi. Bu, quruluşun möhkəmlik, həmişəyaşarlıq və güclülük sirrinin yatdığı məsələlərdən biridir.

İmamın nizam-intizam və qanun üzərində təkidi

İmam üçün mühüm olan üçüncü məsələ nizam-intizam və qanun idi. Buna görə hətta inqilab qələbə çalmazdan öncə hökumət təyin etdi. Dünya inqilablarının, yaxud inqilab adı ilə baş verən çevrilişlərin - ötən əsrin ortaları belə çevrilişlərlə doludur - heç biri belə deyildi. Bir ölkədə inqilab, yaxud çevriliş baş verəndə uzun müddət hökumətdən, dövlət təşkilatlarından və nizam-intizamdan xəbər olmurdu. İnqilabın başçıları adlanan bir qrup ölkəni idarə və istədiklərini edirdilər. İslam inqilabında imam buna imkan vermədi. Nizam-intizamın yaranmasından ötrü hətta inqilabın qələbəsindən qabaq hökumət təyin etdi. O vaxt İnqilab Şurası olsa da, imam ölkəni qanuni və məntiqli formada idarə etmək istədi və

ölkədə hansı quruluşun yaranmasını referendumun öhdəsinə buraxdı. Dünyada bunun da analoqu yox idi. Dünyanın heç bir inqilabında eşitməmiş və görməmişdik ki, quruluşun növünü xalq təyin etsin; özü də inqilabın əvvəlində. İnqilabın qələbəsindən iki ay ötməmiş imam İslam quruluşunu referenduma çıxardı və xalq İslam Respublikası quruluşuna səs verdi. İnqilabın qələbəsindən bir neçə ay sonra imam konstitusiya yazılmasını tapşırdı. Bu iş də imamın təyin etdiyi bir qrup tərəfindən yox, xalqın seçdiyi Dini Ekspertlər Məclisi tərəfindən aparıldı. Sonra isə həmin qanun yenidən ümumxalq səsverməsinə çıxarıldı. İnqilabın qələbəsindən hələ bir il ötməmiş xalq prezident seçkilərində iştirak etdi, qısa müddətdən sonra İslam Şurası Məclisi seçildi. Buna əsasən, inqilabın işləri əvvəldən nizam-intizam və qanun əsasında görüldü. İnqilabın bu məntiqli forması ilə razılaşmaq istəməyən, yaxud bu inqilabın belə addım-addım məntiqli hərəkət etməsinə dözməyən şəxslər bunların hamısına əngəl yaratdılar. Onların tör-töküntüləri bu gün də inqilabı qanunsuzluqda ittiham edirlər. Bu inqilab nizam-intizamın və qanunun təcəssümüdür. Dünyanın heç bir yerində, istər bu əsrdə, istər öncə baş verən inqilabların heç birində belə bir şey görünməmişdi. Bunun qədrini bilmək lazımdır. Hamı nizam-intizama və qanuna tabe olmalı, hakimiyyət orqanlarının qanuni vəzifələrinə hörmət etməlidir.

Görürsünüz ki, ölkənin qanuni orqanları düşmənlərin təbliğatı və təhriki ilə hər bir dönəmdə informasiya hücumuna məruz qalır. Bu, əvvəldən İslam Respublikasında mövcud olan nizam-intizam və qanunla düşmənliyin davamıdır. Biz həmişə demişik, yenə də deyirik ki, üç hakimiyyət orqanı və qanuni məmurlar üçün konstitusiyada müəyyən olunmuş vəzifələr etibarlı və möhtərəmdir və hamı qanuna tabe olmalıdır. Qanunsuzluq özünü müxtəlif formalarda göstərir. Onlardan biri konstitusiya əleyhinə təbliğat aparmaq, şayiə yaymaq və hər hansı bir sahənin qanuni vəzifələrinə hörmətsizlik etməkdir. İmamın və İslamın düşmənləri inqilabın əvvəlindən bunun üzərində təkid göstərirdilər və imam onlara qarşı çıxırdı.

Sayıqlıq və düşmənlə mübarizə

İmamın İslam Respublikası quruluşunun təməllərində işlətdiyi və Allahın lütfü ilə quruluşun yaşamasına səbəb olan dördüncü əsas element düşmənlə və istismarçılıqla mübarizədir. İmam nə özü bir an düşmənin hiylə və təxribatlarına diqqətsiz qaldı, nə də məmurların diqqətsiz qalmasına imkan verdi. Dünyanın bu nöqtəsində və bir çox İslam ölkələrində dünya hegemonlarının mənafeyini təhdid edən İslam Respublikası kimi bir quruluşun düşmənlərinin olması təbiidir. Bizim əziz İranımızda bunlar uzun illər ilan kimi ölkənin milli sərvətləri və siyasi qurumları üzərində oturmuşdular. Qəsbkar və muzdur şah rejimində məgər kiminsə xalqı təhqir etmək, yoxsul və geridə saxlamaq və sərvətlərini talamaq üçün bu ölkəyə soxulanlara azca hörmətsizlik belə etməyə cürəti çatardı?! Heç kimin onlara "gözün üstə qaşın var" deməyə cürəti çatmırdı. Amerikalılar, sionsitlər və dünyanın digər oğru və soyğunçuları çox rahat və dinc şəkildə İrana gəlib-gedir, sərvətləri talayırdılar. Ölkə siyasəti, hökumətlər, hətta şahın təyin olunması da onların əlində idi. Baş nazirlər onların məsləhəti ilə təyin olunurdu. Ölkənin siyasi məsələləri bütünlüklə onların istək və maraqları istiqamətində idi. İslam Respublikası quruluşu bu vəziyyəti darmadağın etdi. İmam bilirdi ki, bu düşmən sakit oturmayacaq və hücuma keçəcək. Əgər bir dönəmdə hücum edib zərbə aldısa, yenidən hücum etmək üçün müvəqqəti olaraq geri çəkilir. Buna görə ayıq-sayıq olmaq lazımdır. Təəssüf ki, mən bu gün bəzilərinin həmin düşmənlərin istəyinə uyğun təbliğat apardığını görürəm. Bu illüziyadır. Düşmən istəyir ki, xalq, məmurlar, dövlət rəsmiləri, ölkəni idarə edənlər və qanun hazırlayanlar düşmənin təhdidini yaddan çıxarsınlar. Buna imkan vermək olmaz. Düşməni və onun üsullarını tanımaq lazımdır. Biz bunu həmişə yadda saxlamalıyıq. İmam bu məsələ üzərində təkid göstərirdi. İmam buna görə buyururdu ki, bacardığınız qədər Amerikanın başına çığırın.

Əziz qardaş və bacılar! Mənim əziz övladlarım! Əziz İran xalqı! Bunlar dörd mühüm müsbət cəhətdir. Həm xalq, həm də məmurlar

bunların qədrini bilsinlər. Bu dörd element quruluşun möhkəmlənməsinə səbəb olmuşdur. Bu dörd elementin sayəsində düşmən heç zaman bu quruluşa zərbə vura bilməz. Biz harada bu dörd elementi unutduqsa, ziyanını gördük. Əgər iqtisadi ziyan gördüksə, iqtisadiyyatda gerilədiksə, siyasi məsələlərdə zəiflədiksə, bu elementləri yaddan çıxardığımıza görə oldu. Harada inkişaf etdik, qüdrətlənib yolumuzdakı maneələri götürə bildiksə, harada düşməni nakam qoyduqsa, bu elementlərə arxalandığımıza görə oldu. Bunların xalqın əlindən çıxmasına, hücuma məruz qalmasına qoymayın. Düşmənin bu ölkəyə yenidən hökmranlıq etmək üçün özünə yol açmasına imkan verməyin. Bunun üçün ölkə məmurlarının və xalqın sayıq olması lazımdır.

İmam Xomeyninin müqəddəs məqbərəsinin ziyarətçilərinin toplantısında çıxışdan: 2001.

Pəhləviləri hakimiyyətə gətirməklə İranı təhqir etmək

Mənim əzizlərim! Sizin bəziləriniz tarixlə yaxşı tanışsınız. Mən də tarixlə tanışam, ötən yetmiş ilin və ondan qabaqkı dövrün tarixini sətir-sətir oxumuşam. Biz həqiqətən qlobal güclərin istismarı altında olan ən məzlum xalqlardan biri olmuşuq. Mən Hindistan yarımadası barədə geniş araşdırmalar aparmış və kitab yazmışam. İranın vəziyyətini Hindistan yarımadası ilə müqayisə edəndə görürəm ki, orada ingilislərin birbaşa müstəmləkəsi olsa da, dünyanın şeytan güclərinin bir ölkəyə insani təzyiqi baxımından bizim vəziyyətimiz onlardan pis olmuşdur. Onlar özününkülər və həmvətənləri tərəfindən xəyanətə, nifaqa, fəsada və asılılığa məruz qalmamışlar. Bir qrup ingilis o ölkəyə daxil olmuşdu. Onların özününküləri isə bunlar idilər: Qandi, Nehru, Mövlana Məhəmməd Əli, Mövlana Şövkət Əli, Cinah və sair. Onlar ingilislərlə vuruşdular və böyük zəhmətlərə qatlandılar. Bizim vəziyyətimiz isə belə deyildi. İngilislər Rza xanı öz adamları kimi hakimiyyətə gətirdilər ki, onların istədiyi işi görsün. Bu söz inkar oluna bilməz. Həm də bu mənim sözüm deyil, aydın tarixi həqiqətdir; həm jurnalistlər yazmışlar, həm də 30-40 ildən sonra nəşr olunmuş sənədlərdə mövcuddur. Bir neçə gün bundan öncə belə sənədlərin birində oxuyurdum ki, Seyid Ziyanın, Rza xanın və İngiltərə məmurlarının iştirak etiyi bir iclasda Rza xan deyib ki, mən siyasətdən bir şey anlamıram, siz nə əmr etsəniz, yerinə yetirəcəyəm. Doğrudan da belə idi. Lakin itaətkarlıq halının bir qədər zəiflədiyini və həqiqi müstəqilliyə sarı yox, Hitler Almaniyasına sarı meylləndiyini duyduqları anda - təbii ki, Rza xan Hitlerə baxdıqda vəcdə gəlirdi - onu kənarlaşdırıb, oğlunu hakimiyyətə gətirdilər. Bunlar faktlardır.

Mədəniyyət və incəsənət xadimləri ilə görüşdəki çıxışdan: 2001.

İnqilabın sənət adamlarından gözləntisi

İran ölkəsi bütün güclü mədəni xüsusiyyətlərinə rəğmən, təhqir olundu. 50-60 il bizə elə insanlar hakim oldular ki, onları iş başına gətirənlər nəinki biz deyildik – çünki İranda bu şəkildə xalq hakimiyyəti olmamışdır – hətta özlərinin igidlikləri də deyildi. Əgər diktator olsalar da, kaş ən əzı Nadir şah kimi öz qollarının gücünə, yaxud məsələn Ağa Məhəmməd xan kimi öz hiyləgərlikləri hesabına hakimiyyətə gələydilər. Təəssüf ki, belə deyildi; onları digərləri bu xalqa hakim edib onun bütün maddi və mənəvi sərvətlərini taladılar. Çox əzab və əziyyətlərlə bu mənfur vəziyyət qarşısında əzəmətli hərəkət baş verdi, canlar fəda olundu, qəddar düşmənin süngüsü qarşısında dayanmaqla nəticə əldə olundu. Bu gözəl deyil?! İncəsənət bunların kənarından necə laqeyd ötə bilər?! İnqilabın gözləntisi budur. İnqilabın əvvəlindən bizim dediyimiz və istədiyimiz inqilab sənəti budur. Bu gözlənti çoxdur?! Musiqi, film, teatr, rəssamlıq və sizin digər sənət növləriniz bunları təsvir etməlidir. Bunlar lazımlı işlərdir. İnqilabın sənətdən və sənətkardan gözləntisi hegemon və artıq gözlənti deyil, incəsənətin estetik əsaslarına söykənən gözləntidir. İncəsənət gözəllikləri dərk etməkdir. Bu gözəlliklər zəruri olaraq gül və bülbül deyil, bəzən bir nəfərin tonqala atılması və ona dözməsi hər bir gül və bülbüldən gözəldir. Sənətkar bunu görməli, dərk etməli və sənət dili ilə izah etməlidir.

Mədəniyyət və incəsənət xadimləri ilə görüşdəki çıxışdan: 2001.

Hegemonluğun incəsənətdən sui-istifadə etməsi

Mənim əzizlərim! Bugünkü dünyada siyasət incəsənətdən qeyri-sağlam məqsədlər üçün istifadə edir. Əgər etmir desək, məlumatsızlığımıza dəlalət edər. Həm də təkcə bu gün yox, xeyli vaxtdır istifadə edir. Amerika Xarici İşlər Nazirliyinin 19 Avqust çevrilişi barədə nəşr olunmuş sənədlərindən birini tərcümə edib mənə gətirdilər. Bu çevriliş baş verəndə mənim 14-15 yaşım vardı, yadımda az şey qalıb, amma barəsində çox eşitmiş və oxumuşam. Yenə də belə geniş şəkildə heç bir yerdə yoxdur. Bu çevrilişi edənlərin özləri bu sənədləri yazıb Xarici İşlər Nazirliyinə və CIA təşkilatına göndərmişlər. Bu sənədlər amerikalılara məxsusdur. Düzdür, sənədlərdə də göstərildiyi kimi, əməliyyat amerikalı və ingiltərəlilər tərəfindən hazırlanmışdır. Orada yazılanlara əsasən, Ruzvelt deyir ki, biz Tehrana gələndə tərcümə olunub qəzetlərdə çap edilməsi üçün özümüzlə yazılıb hazırlanmış məqalələr və həmçinin karikaturlar dolu böyük bir çamadan gətirdik. Siz baxın, Amerikanın CIA təşkilatı onlarla razılaşmayan, onların mənafeyini təmin etməyən bir hökuməti devirmək üçün bütün vasitələrdən, o cümlədən incəsənətdən istifadə edir. O hökumət Pəhləvi dövrünün bütün hökumətlərindən fərqli olaraq milli hökumət idi, qanuni yolla və xalqın səsi ilə hakimiyyətə gəlmişdi; onlar qorxurdular ki, birdən sovetlərin dəmir pərdəsi arxasına keçər. O zaman yəqin ki, həm bunların işinə yarayan, həm də güvənə bildikləri bir karikaturçu olmamışdır; buna görə özləri ilə hazır karikaturlar gətirmişdilər. O sənəddə göstərilir ki, biz bunları CIA-nın İncəsənət şöbəsinə sifariş etdik. Təsadüfən iki-üç il öncə də italiyalılar bir kitab yazdılar və fars dilinə tərcümə olundu. Orada da CIA təşkilatının İncəsənət şöbəsi və onun müxtəlif fəaliyyətləri haqda yazılmışdı. Siyasət bu şəkildə incəsənətdən istifadə edir. Bəs siz burada nə etmək istəyirsiniz? Əgər dünyanın bütün siyasətçiləri, hegemonları, quldurları və hakim qüvvələri öz müqəddəs kitabları önündə incəsənətdən istifadə etməyəcəklərinə dair Allaha and içsəydilər, insan nisbətən rahatlaşıb

deyərdi ki, çox gözəl, Allaha şükür olsun, daha incəsənət xilas oldu. Amma onlar incəsənətdən istifadə etməkdədirlər. Bəs siz nə düşünürsünüz? Siz istəyirsiniz onların incəsənət vasitəsi ilə nail olduqları tamahkar məqsədlər qarşısında bu vasitədən istifadə etməyəsiniz? Bu ağıllı işdir?! Xeyr, bu ağıllı iş deyil.

Mədəniyyət və incəsənət xadimləri ilə görüşdəki çıxışdan: 2001.

Pəhləvi dövründə əcnəbilərin müdaxiləsi

İran xalqı uzun əsrlər boyu həmişə ya özləri, ya əcdadları qılınc gücünə hakimiyyəti ələ almış, silaha güvənərək onu övladlarına ötürmüş hakimlər görmüşdür. Xalqa hakimiyyət haqqı xalqın istəyi, meyli və seçimi olmadan hakimlərin şəxsi malı kimi övladlarına, nəvələrinə və bir neçə nəsillərinə irs çatırdı. Son dövrlərdə, yəni Qacarlar dövrünün ortalarından Pəhləvi dövrünün sonuna qədər ölkə hakimiyyətinə başqa bir çirkin ünsür də daxil oldu. O ünsür əcnəbi müdaxiləsi idi. İngilislər Rza xan Pəhləvini hakimiyyətə gətirdilər və himayə etdilər. Sonra onun oğlunu hakimiyyətə gətirdilər. 19 Avqust çevrilişindən sonra İranda əsas amil və hakimiyyətin sahibi amerikalılar idilər. Bizim xalqımız heç bir rola malik deyildi, ən əsaslı məsələlərdə - təlim-tərbiyədə, iqtisadiyyatda, siyasətdə, beynəlxalq əlaqələrdə və adi yaşayış tərzində heç bir ixityara sahib deyildi. Onun taleyinə və bütün bu insanlara elə şəxslər hakim olmuşdular ki, bu vəzifəyə yiyələnmək üçün xalqdan heç zaman icazə almırdılar. Biz qısa bir dönəmdən başqa heç zaman xalqın seçkilərdə iştirakını təcrübə etməmişdik. Bu İslam inqilabı, xalqın mübarizəsi və fədakarlığı, Böyük İmamın misilsiz şəxsiyyəti və əzəməti Allah lütfünə və mərhəmətinə zəmin yaratdı və İran xalqına bu böyük hədiyyə verildi.

Tənfiz (prezidentin hökmünün təsdiqetmə) mərasimində çıxışdan: **2001**.

Məşrutənin məğlubiyyət amillərindən biri: dindarların etimadının sarsılması

İranda Məşrutənin məğlubiyyətinə səbəb olan amillərdən biri bu idi ki, dindarlar bir müddətdən sonra prosesin dinsizliyə doğru getdiyini hiss etdilər. O zaman mətbuat özünün bütün səyini dini müqəddəslərə hücum etməyə yönəltmişdi. Düzdür, Məşrutə vaxtı cəmiyyətdə dinlə, dinin atributları, dini etiqadlar, ruhanilik və bu kimi məsələlərlə qələm və şüar formasında mübarizə aparanlar, bunları aşağılayanlar az idilər, amma səs-küyləri çox idi və bu, Məşrutə mübarizəsinin ön sıralarında duran dindarların və din alimlərinin tədricən soyuyub kənara çəkilməsinə gətirib çıxardı. Belə olduqda hərəkat məğlub olur və Məşrutə də məğlub oldu. Məşrutənin ömründən **15-16** il ötəndən sonra Rza xan diktaturası yarandı. Bu çox ibrətamiz məsələdir. Quldur və kazak Rza xan hara, Məşrutə hərəkatı hara?! Bunlar bir-biri ilə nə qədər fərqlidir! Nə üçün belə oldu? Çünki mömin xalqın inamı və etimadı sarsıldı və onlar kənara çəkildilər. Məsul şəxslər möminlərdə belə halın yaranmasına qoymamalıdırlar.

Tənfiz (prezidentin hökmünü təsdiqetmə) mərasimində çıxışdan: **2001**.

Səltənət ideologiyası və onun İslamla ziddiyyət təşkil etməsi

İranın İslam quruluşu ona görə əhəmiyyətlidir ki, xalqın özünün əli ilə yaranmış möhkəm, güclü və köklü bir siyasi quruluşdur. Xalqa zorla verilmiş bir quruluş deyil və səltənət ideologiyasının ziddinədir. Şahlığın da bir ideologiyası var. Onun ideologiyası sizin dünyanın müxtəlif şah rejimlərində gördüyünüzdür; yəni istibdad, özəl imtiyazlar və ehtiyac olduqda hegemonluq. Bir gün də adını Adil qoymağa çalışdıqları bu Ənuşirəvan gənclik dövründən qalan bir şəxsi ədavətinə görə bir günün içində on minlərlə məzdəkini qətlə yetirir. Deyilənə görə gənclik çağında Məzdəkin müridi olan atası Qubad ona Məzdəkin ayağına düşməyi əmr etmişdi. O deyirdi ki, hələ Məzdəkin ayağının pis qoxusu burnumdadır və indi şah olduğum üçün intiqam alıram; həm də Məzdəkin özündən yox, on minlərlə tərəfdarından.

Biz Səfəvi şahları ilə fəxr edirik, onlara dəyər və hörmət tanıyırıq; çünki Əhli-beyt (ə) məktəbinin ardıcılı idilər və İranın ərazi bütövlüyünü qorudular. Amma siz görün çox görkəmli şəxsiyyət olan bu Şah Abbas yalnız qürurundan dolayı nə qədər zülm etmişdir. O qədər qohumunu öldürüb kor etdi ki, bəzi şəxslər bir çox Səfəvi şahzadələrini aparıb itirməyə məcbur oldular və şah onlardan xəbər tutmadı. Məsələn əmr etdi ki, İmamqulu xanın dörd oğlunun boynunu vurub başlarını hüzuruna gətirsinlər. Halbuki İmamqulu xan Səfəvilərə böyük xidmətlər etmiş şəxslərdən idi, onların qədim xidmətçilərindən, sərkərdə və siyasətçilərindən olmuşdu. Lakin şahda diktatorluq və istibdad ruhu olduğuna görə onun başına bu bəla gəldi. Zalımlıq yalnız Məhəmmədrzaya və Rza xana məxsus deyildi, şah ideologiyasında istibdaddan, totalitarizmdən, heç bir məsuliyyət hiss etməməkdən, Allah və xalq qarşısında heç bir öhdəlik götürməməkdən irəli gələn zalımlıq var. İslam quruluşu ölkəmizin uzun əsrlər boyu - İslamdan həm öncə, həm də sonra düçar olduğu şah ideologiyasına qarşı qiyam deməkdir. İslam Mədinədə sözün həqiqi mənasında azadlığı, bugünkü sözlə desək, demokratiyanı təmin edirdi. Peyğəmbərin vətəni və

mərkəzi olan Mədinədə belə idi, amma hansısa Əməvi sərkərdəsinin hakim olduğu Xorasanda, İsfahanda, Farsda, yaxud başqa ucqar yerlərdə belə şeylər yox idi. Belə yerlərdə hər bir sərkərdə özü üçün bir avtoritar padşah idi və istədiyini edirdi. Sözsüz ki, İran xalqı bu şəxsiyyətlərə və sərkərdələrə görə müsəlman olmadı, İslamın sözünə görə oldu. Bunun özü geniş mövzudur. İstibdadın zəruri şərt sayıldığı şah ideologiyasının hakim olduğu yüz il öncədən etibarən bizim ölkəmizdə çoxlu ziyanlar baş verdi. Onların biri asılılıq idi, biri şahın, onun ətrafının və saray adamlarının fəsadı idi; cinsi fəsad, əxlaq fəsadı və böyük maliyyə fəsadları.

Bunlar xalq üçün şah və mütləq hakim, əcnəbilərin önündə isə təslimçi və müti idilər, ən mühüm məsələlər onlara diktə olunurdu; özü də bir prezident tərəfindən yox, bir səfir tərəfindən. İngiltərə səfiri saraya müraciət edib deyirdi ki, filan cür olması sizin xeyrinizədir. Şah da "sizin xeyrinizədir" sözünün mənasının nə olduğunu anlayırdı. Mütləq asılılığın və əcnəbilər qarşısında itaətkarlığın kənarında olan bacarıqsızlığı da saymaqla qurtarmazdı.

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: **2001**.

Pəhləvi rejimində Qərbə elmi təqlidçiliyin təlqini

İnqilabdan qabaqkı yüz ildə bu ölkə üçün sözün həqiqi mənasında heç bir əsaslı iş görülməmişdir. Bu gün universitetdə sizin elmi məsələlərə gözünüz açılmışdır. Görürsünüz ki, bizim nə qədər görülməyən işimiz və gedilməyən yolumuz var. Bu yolları getmək, elm karvanı ilə yanaşı hərəkət etmək, ölkədə elmi, alimi, tədqiqatı, elm və tədqiqatda müstəqilliyi sınaqdan keçirmək olardı, amma bu işi görmədilər, onun əksini etdilər.

Yeni elmlərin ölkəmizə daxil olduğu zaman əslində daxil olan təqlid və tərcümədən ibarət idi. Məqsədim dəyərli bir əsərin tərcüməsi deyil; bu, lazımlı bir işdir. Məqsədim tərcümə düşüncəsi və psixologiyasıdır; yəni bir xalqdan yaradıcılıq qüvvəsini, yeni söz cəsarətini almaq, həmişə başından vurmaq, bir yerə çatmaq və adam olmaq istəyirsə, qərblilərin etdiyini yamsılamalı və ondan bir iynə ucu qədər də yayınmamalı olduğunu təlqin etmək. Bizim xalqımıza və elm mərkəzlərinə belə öyrətdilər, elmi yaradıcılığa və yeniliyə icazə vermədilər. Elm və düşüncəni istehsal etmək lazımdır. Onlar nə təcrübi elmlərdə buna imkan yaratdılar, nə humanitar elmlərdə, nə də siyasi və ictimai elmlərdə. Buna görə də vəziyyət gördüyünüz kimidir.

İnqilabdan sonrakı bu iyirmi ildə bütün çətinliklərə baxmayaraq vərəq çevrilmişdir. İnqilabdan, ölkədə istəmək, düşünmək, özünə inanmaq və iranlı istedadına güvənmək cəsarətinin yaranmasından öncə bir insanın ən son amal və arzusu qərblilərin gördüyü işi görə bilməsi idi. Yəni insanlar həmin xətdən yayınmağı mümkün bilmirdilər. Deməli, istibdad, asılılıq, fəsad, təşəbbüssüzlük, gerilik və bacarıqsızlıq mövcud idi. İslam inqilabı və İslam quruluşu isə bunların hamısının önündə baş qaldırdı, bunların əleyhinə qiyam etdi. Bu inqilab və bu quruluş xüsusi bir dəstənin və qrupun işi deyildi, xalqın işi idi.

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

İslam inqilabının digər inqilablarla fərqi

İyirminci əsr kiçik və böyük siyasi dəyişikliklər əsridir. Bu əsrdə çoxlu inqilablar, çevrilişlər və dəyişikliklər baş vermişdir. Siz nə qədər arxtarsanız, bu dəyişikliklərin arasında pərdəarxası razılaşmalardan və əcnəbi güclərin təsirindən uzaq olanı görməzsiniz. Əlbəttə, Sovet Oktyabr İnqilabı müstəsnadır. O başqa növdən idi. Dünyada baş verən digər siyasi dəyişikliklər isə ya arxasında Sovetin durduğu partiyaların təsiri altında, ya da bir neçə hərbçinin çevrilişi nəticəsində baş vermişdir. Bu dəyişikliklər xalqın işi olmamışdır. İranda isə inqilabı xalq etdi. Sovet Oktyabr İnqilabı da xalq inqilabı deyildi və qeyd etdim ki, onun təhlili və izahı geniş zaman tələb edir.

İran İslam İnqilabı bütövlüklə xalq inqilabı idi. İnqilab dövründə siz bu ölkənin hansı kəndinə getsəydiniz, orada xalqın oyandığını, danışdığını, tələb və şüar irəli sürdüyünü, bu tələb və sözlərin hamısının da vahid mərkəzdə - timsalını bizim əziz və böyük imamızda gördükləri İslamda birləşdiyini görərdiniz. İranlı cəhətləri baxımından İslam quruluşunun əhəmiyyəti bunlardır: əvvəla tamamilə xalq quruluşudur; ikincisi uzun əsrlər boyu ölkəmizin əziyyət çəkdiyi şah ideologiyasının ziddinədir. Siz elə bir millət tapa bilməzsiniz ki, hər kəsin qəlbində belə dərin hisslər yarada bilsin. Xalqın hər bir fərdi bu inqilabı və bu quruluşu bütün vücudu ilə tələb edir və istəyirdi. Ən laqeyd insanlar da bu hərəkətdə ortaq idilər. Bu, iranlı cəhətləridir.

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: **2001**.

İslam dünyasında dərdli müstəmləkə əhvalatı

İslam dünyası miqyasına gəlincə isə bir xalq adətən öz sərhədləri daxilində həbs olunur və sərhəd xaricində heç bir dəyəri və hörməti olmur. İslam quruluşu isə bütün İslam dünyasında və müsəlmanların yaşadığı hər bir yerdə həm insanlarda, həm də xalqlarda İslam kimliyini və şəxsiyyət hissini oyatdı. Dünyaya səpələnmiş müsəlman azlıqlar kimlik hiss etdilər. Müsəlman xalqlar, xüsusən də Orta Şərqin və Şimali Afrikanın – yəni qədim Osmanlı imperatorluğunun uzun illər müstəmləkə məşəqqəti çəkmiş xalqları yenidən qurtuluş mehinin əsdiyini duydular. Sözsüz ki, biz Osmanlı imperatorluğunun işlərini əsla qəbul etmirik. O da digər şah rejimləri kimi eyni problemlərə malik bir hökumət idi. Lakin Birinci dünya müharibəsinin qalibləri olan avropalılar Balkanlardan Ön Asiyaya, Orta Şərqə və Şimali Afrikaya qədər uzanan, Bosniya və Herseqovinadan tutmuş Misirə, indiki Türkiyəyə, İraqa, Suriyaya, Fələstinə qədər əraziləri əhatə edən bu böyük dövləti devirəndə yalnız hökuməti dəyişməklə kifayətlənmədilər, xalqlardan intiqam aldılar, onları təhqir etdilər. Bu dövlətin parça-parça olmuş hissələrinin hər biri bir Avropa dövlətinin əlinə düşdü və qəmli müstəmləkə macərası təkrar olundu. Bu macəra bu xalqların xatirəsindən və tarixindən heç zaman silinməyəcək. Bir əcnəbi başqa bir ölkəyə girib hökmranlıq edir, o ölkənin bütün sərvətlərinə sahib çıxır, həmin ölkənin xalqı bu əcnəbiyə itaət göstərmək məcburiyyətində qalır və onun maraqları əleyhinə bir söz deməyə, yaxud hərəkət etməyə cürət etmir. Müstəmləkə reallığı bu idi.

Birbaşa müstəmləkələşməyən yerlərdə, məsələn İraqda şah hökuməti qurdular. İngilislər iraqlı olmayan Feysəl sülaləsini xalqa hakim təyin etdilər, əslində isə özləri hakimiyyətdə idilər, siyasət onların siyasəti, iradə onların iradəsi idi. İraq xalqı əcnəbi bir hökumətə təslim və məğlub olmuşdu. Siz görün bir xalq üçün bundan böyük təhqir ola bilərmi?! Hər şeylərini təhqir etdilər, dinlərini, dünyalarını,

şəxsiyyətlərini, ədəbiyyatlarını, mədəniyyətlərini və müstəqilliklərini tamamilə məhv etdilər.

Dırnaqarası modernizm dalğasını bu bölgəyə daxil edəndə, əslində modernizmin çirkab sularını buraya göndərdilər. Əlcəzair, Misir, İraq və müstəmləkə altında olan digər region ölkələrinə elmi yaradıcılığı, yeni ixtiraları, düşüncə inkişafını və qabaqcıl universitetləri gətirmədilər. Gətirdikləri birinci şey pozğunluq, hicabsızlıq və yararsız məhsullar idi. Ən çoxu budur ki, öz orta təhsil sistemlərinin sıradan çıxmış ikinci və üçüncü dərəcəli formalarını gətirdilər. Yəni xalqı hər cəhətdən təhqir etdilər.

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

İslam inqilabının İslam dünyasına təsiri

Dünyada solçuluq ideyaları yayılanda İslam dünyasının bir çox ziyalıları solçu - sosialist və marksist şüarlar səsləndirir, bununla Qərbdən intiqam almaq istəyirdilər. İslam quruluşu və İslam inqilabı qələbə çalıb bütün aləmə səs salanda isə bütün İslam ölkələri gördülər ki, bir xalq İslam bayrağını ucaldıb ən ağır təhdidlər qarşısında duruş gətirir; bu xalq yalnız Qərbin qarşısında yox, Şərqin və Qərbin qarşısında duruş gətirib "nə şərqçi və nə qərbçi" şüarı verir və bu tamahlandırmalara etinasızlıq göstərir. Müsəlmanlar bunları görüb vəcdə gəldilər.

Mənim əzizlərim! Amerikanın və Qərbin İslam inqilabına qarşı münasibəti bu məsələlərdən irəli gəlir. İnqilab baş verəndə İslam dünyasında elə rezonans doğurdu ki, hamını vahiməyə saldı. Təhlil edib dedilər ki, əgər bu inqlabın qarşısında sədd çəkib onu məhv etməsək, İslam dünyasını fəth və Qərbin maraqlarını təhdid edəcək. Doğru da deyirdilər. Odur ki, İslam inqilabı əleyhinə təxribatlar başlandı. Deməli, İslam quruluşu və İslam inqilabı hamıya öz xalqı kimi fayda yetirdi, hamı doğmalıq hiss etdi və dəstəklədi. Ucqar ölkələrdə öz övladlarına inqilabın böyük şəxsiyyətlərinin adlarını qoydular. Bizim adlarını eşitmədiyimiz və İranla heç bir rabitəsi olmayan böyük ərəb şairləri Tehranın, İranın və İran xalqının mədhinə gözəl qəsidələr qoşdular. Çox dəyərli şair olan və üç-dörd il öncə dünyasını dəyişən Nəzar Qəbbani şeirlərinin həmişə ərəb hakimlərinə qarşı yönəlməsi ilə məşhur idi. O çox gözəl şeirləri ilə şah ailələrini və onların hərəmxanalarını təhqir edirdi. O heç zaman İrana gəlməmişdi, İrana mənsubluğu da yox idi, amma görüb tanımadığı Tehran və ərəb nasionalizminin həmişə qarşı çıxdığı İran barədə böyük qəsidəsi var.

Beynəlxalq miqyasa gəlincə isə, İslam inqilabının təsiri hətta İslam dünyasından kənarlara da çatdı və insanların səfərbər olunmasında dinin gücünü ortaya qoydu. Təcrid olunmuş və formal xarakter almış din amili gözlənilmədən bir xalqı elə səfərbər etdi ki, beynəlxalq

dəstəklərə güvənən bir rejimi bütünlüklə alt-üst etdi, onun xarabalıqları üzərində boşluğun yaranmasına qoymadı, əksinə, yeni sözlərə malik olan bir quruluş yaratdı. Bəşəriyyətin idealı olan sözlərdən - ədalətdən insaniyyətdən, insana hörmətdən, insan və irqlərin bərabərliyindən və beynəlxalq hegemonlarla mübarizənin zəruriliyindən danışan şəxslər, ürəklərində sözü olan, amma deməyə cürət etməyən, yaxud yer və şərait tapmayan insanlar gördülər ki, dünyanın bir küncündə meydana çıxmış güclü bir siyasi quruluş bu sözləri plakatlara yazıb hamının gözü önündə ucaltmışdır. Bu onlar üçün çox möhtəşəm idi.

İsfahan vilayətinin gəncləri ilə görüşdəki çıxışdan: 2001.

Neft sənayesini milliləşdirmə hərəkatında Ayətullah Kaşaninin taleyüklü rolu

Əgər Ayətullah Kaşani olmasaydı, bu ölkədə neft sənayesi milliləşməzdi. Mən gənclərə tövsiyə edirəm ki, ölkənin yaxın keçmişi ilə tanış olsunlar. Xalqı aldatmağın yollarından biri tarixi təhrif etməkdir. Bu gün təəssüf ki, bu iş geniş şəkildə baş verir. Doktor Müsəddiq və neft sənayesini milliləşdirmə hərəkatının digər liderləri məhz mərhum Kaşaninin köməyi ilə xalqın bu hərəkata dəstəyini qazana bildilər. Əks təqdirdə, xalqın dəstəyindən məhrum olardılar. Heç kəs Müsəddiqi tanımırdı, heç kəs neft sənayesini milliləşdirmənin mənasını bilmirdi. İctimai dəyişikliklərdə iştirakı və təsiri təyinedici olan xalq məsələlərdən xəbərdar deyildi, onlar üçün izah olunmamışdı. Xalqın məlumatlanmasına qarşı çıxan saray rejiminin özü ingilislərin əlində alət idi. Neftin milliləşdirilməsi istiqamətində hərəkət edən ziyalı və siyasətçilərin imkanları məhdud idi, xalq onlara inanmırdı. Bu zaman mərhum Ayətullah Kaşani işə qoşuldu. Din alimləri bu insanın keçmişini bilir və İran xalqı da ona hörmət edirdi. O, İngiltərənin İrandakı işğalçı və müdaxiləçi qoşunu tərəfindən sürgün olunmuşdu. Siz ölkənin ozamankı vəziyyətinə və bu gün İran xalqının siyasi müstəqilliyinə baxın. Bu gün dünyada heç bir güc bizim dövlət rəsmilərimizi heç bir mövqeyə məcbur edə bilmirlər. O zaman isə İkinci dünya müharibəsinin ardınca əcnəbi bir dövlət olan İngiltərə - Məhəmmədrza Pəhləvinin dövründə ingilislər, amerikalılar və ruslar bir neçə tərəfdən ölkəmizə daxil olmuşdular – onun siyasətinə qarşı çıxdığına görə bir din alimini tutub ölkədən xaricə sürgünə yollamağa cürət edirdi. Onu əvvəlcə Xürrəmabadın Fələküləflak qalasında həbs etdilər. Mən gedib onun saxlandığı kameranı yaxından görmüşəm. O, sürgündən Tehrana qayıdanda xalqın bu mübariz ruhaniyə qarşı böyük hörməti elə tufan yaratdı ki, bütün düşmənləri geriyə itələdi, ingilislər və digərləri mesajlarını aldılar və bu ruhani alimlə mübarizənin səmərəsiz olduğunu anladılar. Sonra mərhum Ayətullah Kaşani

Tehranın deputatı və ozamankı parlamentin sədri kimi neft sənayesini milliləşdirməyi dəstəklədi. Mərhum Ayətullah Kaşaninin nümayəndələri ölkənin hər bir yerinə səfər edirdilər. Mənim özüm o zaman yeniyetmə idim. Mərhum Ayətullah Kaşaninin nümayəndəsi Məşhədə gəlib minbərdə çıxış etdi. O, maqnit kimi xalqın qəlbini elə cəzb edirdi ki, başqa heç bir amil bu hərəkətin yerini tuta bilməzdi. Beləliklə 1950-ci ildə – yəni İranda neft sənayesini milliləşdirmə hərəkatının başlandığı 51 il öncə xalq neft sayəsinin milliləşməsini müdafiə etdi, Məhəmmədrzanın Müsəddiqin Baş nazirliyinə razı olmamasına rəğmən, o, xalqın dəstəyi ilə Baş nazir oldu. Əgər mərhum Ayətullah Kaşani xalqın dəstəyini təmin etməsəydi, Müsəddiq Baş nazir ola bilməzdi. Sonra 1952-ci ildə sarayın Müsəddiq əleyhinə əks-hücumu başlayanda və o, vəzifəsindən kənarılaşdırılanda yalnız bir amil onu yenidən vəzifəsinə qaytara bildi və o, mərhum Ayətullah Kaşani idi. Bunlar tarixin aydın məsələlərindəndir. O zaman hamı bunu görmüş, xəbərdar olmuş və nə baş verdiyini aydın şəkildə bilmişdir. Bəzi adamlar isə bunları qəsdən gizlədir və indiki nəslin xəbərdar olmasını istəmirlər. Təbii ki, məqsədləri bəllidir. Şah Müsəddiqin əvəzinə Qivamüssəltənəni Baş nazir təyin edəndə mərhum Ayətullah Kaşani ona qarşı bəyanat yaydı. İnsanlar Tehranda və digər şəhərlərdə kəfən geyinib küçələrə çıxdılar. Buna görə Qivamüssəltənə üç gündən artıq Baş nazir ola bilmədi. Məgər Ayətullah Kaşaninin təşkil etdiyi xalq izdihamı qarşısında müqavimət göstərmək olardı?! Buna görə də Qivamüssəltənə kənara çəkildi və Müsəddiq yenidən işinə qayıtdı. İngilislər İran neftini öz şəxsi mülkləri hesab edərək on illərlə onu mənimsədilər, İran xalqının sərvətini təxminən havayı apardılar, şah rejimi də öz mənfur hakimiyyətini bir neçə gün artıq davam etdirmək üçün ingilislərlə əməkdaşlıq etdi. Neft sənayesini milliləşdirmə hərəkatı isə buna son qoydu. Bu hərəkatın əsas amili və səbəbkarı da bu böyük və cəsur kişi idi: mərhum Ayətullah Seyid Əbülqasim Kaşani.

Kaşan, Aran və Bidqol rayonlarının əhalisinin böyük toplantısında çıxışdan: 2001.

Düşmənin çevriliş planı: siyasət adamlarını ruhanilərdən ayırmaq

Bu hadisənin çox mühüm hissəsini indi xüsusən gənclərimizin bilməsi üçün demək istəyirəm. Düşmən İran xalqının qələbə sirrinin nədən ibarət olduğunu anladığına görə siyasətçiləri və dövlət başçılarını ruhanilərdən və dindən ayırmağa çalışdı. Onları Ayətullah Kaşanidən ayırdılar, aralarına təfriqə saldılar və təəssüf ki, məqsədlərinə də çatdılar. Mərhum Ayətullah Kaşaninin İran xalqını izdihamlı şəkildə meydana çıxardığı 1952-ci ilin 30 tirindən (21 iyulundan) Amerika muzdurlarının Tehranda Müsəddiqi devirdiyi və xalqın da heç bir hərəkət etmədiyi 1953- cü ilin 28 mordadına (19 avqustuna) qədər bir il bir aydan artıq sürmədi. Bu bir il bir ayda bu ölkənin müstəqilliyinə qarşı çıxan muzdurların və bu xalqın düşmənlərinin təxribatı ilə Doktor Müsəddiq get-gedə cənab Kaşanidən daha da uzaqlaşdı. Nəhayət mərhum Ayətullah Kaşani 19 avqustdan bir neçə gün öncə bir məktub yazdı. Bu məktubların hamısı mövcuddur. O həmin məktubunda yazdı ki, belə getsə, sizin əleyhinizə çevriliş ediləcəyindən və problem yaradılacağından qorxuram. Doktor Müsəddiq dedi ki, mən İran xalqının dəstəyinə güvənirəm. Onun səhvi də bunda idi. İran xalqını Ayətullah Kaşani kimi ruhanilər meydana çıxmağa və təhlükəyə atılmağa vadar edirdi. 19 Avqusta qədər Kaşani artıq təcrid olunmuşdu; əslində Müsəddiq hökuməti onu təcrid edib uzaqlaşdırmışdı. Həmin vaxt onun səhnədə olmadığına görə xalq da meydana çıxmadı və Amerikanın birbaşa əmri altında olanlar ordunun bir hissəsindən istifadə edib asanlıqla çevriliş etdilər, Tehranın bir qrup oğru və quldurlarını da cəlb edib Müsəddiqi devirdilər. Ondan sonra isə Məhəmmədrza şahın diktatorluğu başladı, bu xalq iyirmi beş il onun çəkmələri altında tapdandı və neft sənayesinin milliləşməsi də əslində heç oldu. Çünki həmin nefti amerikalıların təşkil etdiyi konsorsiuma verdilər və nəticədə düşmənin istədiyi oldu. Səbəb isə ruhanilərdən və dindən ayrılmaq idi.

Kaşan, Aran və Bidqol rayonlarının əhalisinin böyük toplantısında çıxışdan: 2001.

Məşrutəni yayındırmaq üçün düşmənin planı: ruhaniləri məyus etmək

Məşrutənin əvvəllərində buna bənzər hadisə baş verdi. Orada da işi xalq gördü və onların fəallığı zalım Qacar hökmdarlarını Məşrutəni qəbul etməyə məcbur etdi. Müzəffərəddin şah Məşrutəni qəbul edəcək birisi deyildi, xalqın izdihamı və təzyiqi onu buna məcbur elədi. Ruhanilər və böyük din alimləri xalqı səhnəyə çıxarmışdılar. Məşrutənin yaranmasından sonra İngiltərəyə satılmış bir qrup ziyalı öz qəzetlərində təbliğat aparıb ruhaniləri və dindar insanları Məşrutə hərəkatına bədbin və ümidsiz etdilər. Nəticədə isə əvvəlcə xaotik bir diktatorluq, bir neçə ildən sonra isə sərt Rza xan diktatorluğu hakim oldu. Bu iki hadisə iki təcrübədir. Təbii ki, hər birinin ayrı təhlili və izahı var.

Mən bizim gənclərimizin bu məsələlərdən xəbərsiz olduğunu görəndə əziyyət çəkirəm. Düşmənin keçmişdə gördüyü işləri bilmək onun indiki hiylələrini başa düşməyə yardım edir. Sözsüz ki, üsullar dəyişilir. Siz görürsünüz ki, idman yarışlarında məşqçilər oturub filan rəqib komandanın yarışlarını diqqətlə izləyir, üsullarını öyrənirlər. İran xalqı İslam inqlabından öncəki son yüz ildə ən azı iki mühüm məsələdə Amerika və İngiltərə ilə qarşı-qarşıya dayanmışdır. Bunların biri Məşrutə, biri də Neft sənayesini milliləşdirmə hərəkatıdır. Onlar hər iki hadisədə hiylə işlədib İran xalqını qələbə həzzindən məhrum etdilər, bu iki dönəmin hər birində ölkədə sərt və ağır bir diktatorluq yaratdılar.

Kaşan, Aran və Bidqol rayonlarının əhalisinin böyük toplantısında çıxışdan: 2001.

İmamın sayıqlığı və hegemonların planlarının təkrarlanmasına mane olması

Üçüncü hadisə olan İslam inqilabında isə imam sayıqlıq göstərib buna imkan vermədi. İnqilabın əvvəlində bəzi qüvvələr həmin düşmənlərin təlqini ilə təbliğat aparırdılar ki, çox gözəl, imam gəldi, inqilabı qalib etdi, xalqı səhnəyə çıxardı və İslam Respublikası hökumətini qurdu; daha imamın işi bitmişdir, indi Quma gedib tədris, tədqiqat və bu kimi işləri ilə məşğul olsun. Bunun mənası o idi ki, Məşrutədə baş verən iş İslam inqilabında da baş versin. Bizim böyük imamımız, mömin xalqımız, tarixi təcrübələrə malik olan mübarizlərimiz, nə etdiklərini anlayan və düşmənin bu ölkəyə hansı bacadan hücuma keçmək istədiyini başa düşən inqilab böyükləri düşmənin hiyləsini anladılar. Konstitusiya yazılanda da Böyük İmam işin gedişinə nəzarət edirdi. Bu müddətdə xalq dini həqiqətlərin və din bayraqdarlarının kənarında qaldı. Bizim gənclərimiz düşmənin istəyi ilə dini həqiqətlərə, dini inancın gözəlliklərinə və bu gün dünyada ədalət bayrağını ucaltmış İslamın üstünlüklərinə arxa çevirmək əvəzinə bütün təbəqələrdən daha ayıq şəkildə və daha çox israrla ölkədə İslam və islamsevərlik bayrağını ucaltmışlar.

Kaşan, Aran və Bidqol rayonlarının əhalisinin böyük toplantısında çıxışdan: 2001.

Keşmiş rejimlərdə əcnəbilərin və saray adamlarının maraqlarının prioritet təşkil etməsi

Pəhləvi və ondan öncə Qacar rejimləri zamanı dövlət məmurları ölkəyə öz mülkləri kimi baxır, ciblərinə faydalı olan işləri görürdülər. Fərz edin bir nəfərin min hektar torpaq sahəsi var, lakin bir yerdə az zəhmət çəkib çoxlu məhsul götürür. O, həmin yerə daha çox əhəmiyyət göstərir və sərmayə yatırır. Başqa bir yer isə belə deyil; nə göz qabağındadır, nə də böyük məhsul verir. Ona görə həmin yerə sərmayə qoymur. Bizim ölkəmiz də belə idi. Hara düşmənin gözü önündə idisə, öz adamlarına məxsus idisə, saray adamlarının maraqlarını təmin edirdisə, dünyanın iqtisadi mərkəzlərinə aid şirkətlərə, sionistlərə məxsus idisə, abadlaşdırılırdı, oraya dövlət imkanları ayrılırdı, büdcə verilirdi, orada işlər görülürdü. Amma hara belə deyildisə, ümumiyyətlə gözə gəlmirdi; nə yol, nə bənd, nə başqa infrastruktur işləri, nə universitet, nə tələbə, nə elm, nə mədəniyyət, nə sənaye, nə incəsənət, nə də başqa bir şey.

Kaşan, Aran və Bidqol rayonlarının əhalisinin böyük toplantısında çıxışdan: 2001.

İnqilabda Qum əhalisinin böyük rolu

19 Dey (9 yanvar) hadisəsi hərəkat və inqilabda əzəmətli bir canlanmanın başlanğıcı oldu. Bu gün həm bu böyük hadisənin, həm də 1963-cü ilin 25 şəvvalında Feyziyyə mədrəsəsində baş verən mühüm və unudulmaz hadisənin ildönümünə təsadüf edir. Bu iki hadisə Qum şəhərinin, Qum hadisələrinin və Qum xalqının bu ölkədə baş verən dəyişikliklərdə böyük rolunu və əhəmiyyətini göstərir. Qumlular - istər müqəddəs Qum şəhərindəki elmi hövzə, istərsə də Qum şəhərinin əhalisi Allahın yardımı ilə inqilab dövründə, ondan öncə və sonra bu ölkənin böyük və unudulmaz məsələlərində təsirli rol oynadılar. Biz şəhidlərin - öz canı, düşüncəsi və ayıqlığı ilə bu parlaq səhifələri açan fədakar insanların xatirəsini uca tuturuq. Allah-Taaladan istəyirik ki, bizi bu əzizlərə qarşı qədirbilməz etməsin, biz həmin yolu və məqsədləri davam etdirə bilək.

19 Dey (9 yanvar) qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2002.

Hərəkatın amalı: təqva və ədalətin bərpası

19 deydə Qum əhalisi və gəncləri tərəfindən başlanan yol təhlükəli idi, amma bu yolun sonunda böyük bir məqsəd vardı. O məqsəd İslam quruluşu - yəni İslam hökmləri və şəriəti sayəsində ədalət və təqva quruluşu yaratmaq idi. Bütün peyğəmbərlərin məqsədi ədalət və təqvanın olduğu belə bir dünya yaratmaq olmuşdur. Dünyada nə zaman ədalət və təqva olar? Dünyanı idarə edənlər – dövlət məmurları və xalqların başçıları ədalətli və təqvalı olduqda. Əgər belə olmasa, hər bir ölkədə tağut rejimində olduğu kimi məmurlar təqva və ədalətdən fərsənglərlə uzaq olsalar, o ölkədə nə ədalət olar, nə təqva. Buna görə təməl düzgün olmalıdır. Düzgün təməl ilahi hökmlər əsasında yaradılan və məmurları ədalətli və təqvalı olan quruluş və hökumətdir. Xalq bunu istəyirdi, bu gün də bunu istəyir. Əgər bizim din və dünya problemlərimizin aradan qalxmasını istəyiriksə, bu məsələyə - yəni təqva və ədalətin bərpası məsələsinə əhəmiyyətli yanaşmalıyıq. Bu hərəkətdən və bu böyük ictimai dəyişiklikdən ziyan çəkən ilk şəxslər kimlər idilər? Təcavüzkarlıqla bu ölkəni istismar edənlər, xalqa hakim olanlar, zorakılıq edənlər, onun maddi və mənəvi sərvətlərini talayanlar. Bu hərəkətin və dəyişikliyin ilk düşmənləri onlar idilər. Biz İslam inqilabı terminologiyasında ona beynəlxalq hegemonluq deyirik. Bu gün dünya xalqlarının və ölkələrinin məsələləri bir-birinə bağlı, bir-biri ilə əlaqədar və məsafələr az olduğundan sərvət və hakimiyyət oğruları da öz ətrafları ilə kifayətlənmir və bütün dünyaya əl uzadırlar. Siz görürsünüz ki, bu gün hegemon güclər dünyanı, xalqları və ölkələri ələ keçirməkdən ötrü nələr edirlər. Əgər bir ölkədə xalq bu cəhənnəm və şeytan istismarına son qoymaq, haqqı və ədaləti bərpa etmək üçün qiyam etsə, onun birinci düşməni bu beynəlxalq mərkəzlərdir. Onlar həmin xalqın zülmdən qurtulmasına mane olmaq üçün bacardıqları bütün əngəlləri törədəcəklər. Olanlar xatırlayırlar ki, inqilab dövründə həmin beynəlxalq mərkəzlər bütün gücləri ilə İran xalqını bu yoldan daşındırmağa çalışdılar; istər silahla, istər top və tankla, istər təbliğat və

informasiya vasitələri ilə. Əgər xalqı daşındıra bilsələr, məqsədlərinə çatmışlar və öz təcavüzkar istismarlarını davam etdirəcəklər. Əgər məqsədə çatmasalar və xalq ölkədə tağut zülmünə son qoysa, o zaman hegemon və müstəmləkə mərkəzlərinin düşmənlik forması dəyişəcək. O zaman onların məqsədi bu olacaq ki, bu xalqı ölkədə ədalət və təqvanın bərqərar olunmasından ibarət olan məqsəd və amalına çatmağa qoymasınlar. Müxtəlif əngəllər törədəcək, düşmənlik və müxalifət edəcəklər. Bunu da bu 23 ildə görmüsünüz. Bizi müharibəyə məcbur etdilər, bombaladılar, informasiya hücumuna keçdilər, iqtisadi blokadaya saldılar, bütün dünyada inqilab əleyhinə təbliğat apardılar. Bunların hamısında məqsəd bir idi. O məqsəd nədir? İslam quruluşunun İran xalqının güclü dəstəyi ilə öz məqsəd və amallarına çatmasına qoymamaq; xalqı yormaq və məmurları təngə gətirmək. Xalqla məmurlar yorulduqda isə qovduğunuz düşmənin istismarı yenidən başlayır. Qayıdıb öz cəhənnəm istismarlarına yenidən başlayacaq, vəziyyəti xalqın devirdiyi və dəyişdirdiyi formaya qaytaracaqlar.

19 Dey (9 yanvar) qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2002.

22 Bəhmən - İranın təhqir və istismarının sonu

İnqilabın qələbəsi və 22 Bəhmən (11 fevral) hadisəsi haqda çox danışılsa da, həqiqət budur ki, bu hadisənin əhəmiyyəti, böyüklüyü və müxtəlif cəhətləri hələ bizim özümüz üçün tam aydın olmamışdır. Biz hadisənin çox möhtəşəm olduğunu bilir və görürük, amma yaxın olduğumuz üçün onun müxtəlif cəhətlərini düzgün dərk edə bilmirik. Bu haqda tarix mühakimə yürüdəcək. Bu hadisəni uzaqdan görənlər, ona tarixi hadisələr kontekstində baxanlar tarixi bir an olan bu hadisənin nə qədər böyük olduğunu anlayırlar.

22 Bəhmən (11 fevral) hadisəsi və inqilabın qələbəsi İran xalqına qarşı təhqirin sonu idi. İran xalqı uzun əsrlər boyu təhqir edilmişdi. Bir müddət diktator sultanların vasitəsilə təhqir olunurdu. Yəni hələ müstəmləkəçilik, istismarçılıq və xarici təsirlər olmayan qədim dövrlərdə padşahlar var idi. Onların bəziləri qüdrətli, bəziləri zəif və bacaraqsız idilər, amma istisnasız olaraq bu xalqı təhqir edirdilər. Əgər siz bəzi şahların, yaxud onların övladlarının və şahzadələrin yazdığı xatirələrə müraciət etsəniz, aydın şəkildə görərsiniz ki, onlar İranı özlərinə məxsus bir mülk hesab ediridlər. Bu mülkdə bir qədər rəiyyət də onlar üçün işləyir. Onlara hansısa hüquqlar verilsin? Xeyr. Onların iradəsi etibarlı sayılsın? Xeyr. Onların xalq, ölkə və özləri haqqında təsəvvürləri bu qədər yanlış və rüsvayçı təsəvvür idi. Doğrudan da təsəvvür edirdilər ki, bura onlarındır; əgər xalqdan kimsə xidmət göstərsə və bir iş görsə, öz vəzifəsinə əməl etmiş olur; səhlənkarlıq edənlər də qüdrətli və müstəbid hakimin maraqlarına zərbə vuran nankorlardır.

Təxminən Məşrutədən sonra başlayan başqa bir dövrdə də bu təfəkkür tam sıradan çıxmadı, şahlıq dövrünün sonuna qədər qaldı. Misal üçün, Pəhləvi şahları modernizm iddiası etmələrinə və özlərini dünyanı tanıyan kimi göstərmələrinə rəğmən, beyinlərində bundan başqa bir şey yox idi. Özlərini ölkənin və bu xalqın taleyinin sahibi bilirdilər.

Son dövrdə buna başqa bir şey də əlavə olundu və o, xarici təsir idi. Bu, Qacarlar dövrünün sonlarından başlandı və Pəhləvilər dövründə özünün pik həddinə çatdı. Çünki Rza xanı ingilislər hakimiyyətə gətirdilər, onlar onu saxladılar və necə hərəkət etməsini diktə etdilər. Ondan sonra oğlunu da ingilislər hakimiyyətə gətirdilər. Bunlar tarixin danılmaz faktlarıdır, iddia deyil. Biz keçmişdə bunları güman və təhlil kimi deyirdik, sonra isə çoxlu sənədlər açıldı və bəlli oldu ki, bu şəxsləri öz əlləri ilə gətirmişlər. Bunlar xarici siyasətlərin icraçıları idilər; bir müddət əsasən İngiltərə siyasətlərinin, Müsəddiqin dövründən sonra isə Amerika siyasətlərinin. Bəzi hadisələrdə yenə də xalqın mənafeyinə görə yox, özlərinin bəzi maraqlarına görə amerikalıların diktə etdiyi bir siyasətdən dolayı narahat ola bilərdilər, amma hər halda, onların siyasətlərini icra edirdilər, oyan-buyanı yox idi. Hökumət kabinetini onlar təyin edirdilər, Baş nazir onların tərəfindən təsdiq olunmalı idi. Onlar bəzən şaha bir qədər qulaqburması vermək və əmrdən çıxmaq fikrinə düşməsinin qarşısını almaq üçün onunla çox da yaxşı münasibəti olmayan bir nəfəri Baş nazir edirdilər. Bu dəfələrlə baş vermişdir. Yəni onun çox da bəyənmədiyi bir şəxsin Baş nazir olmasını tapşırırdılar. O da məcbur qalıb qəbul edirdi. Məmləkət bu formada əcnəbinin və Amerika siyasətlərinin ixtiyarında idi. Bu təkcə neft sektoruna məxsus deyil, məmləkətin bütün işlərində onların siyasətləri hakim idi və icra olunurdu; istər neft məsələlərində, istər ölkəni sənayeləşdirmək məsələlərində, istər xarici siyasətin idarəsində və dünya ölkələri qarşısında mövqe seçimində. Əgər ölkə daxilində dövlət rəsmiləri arasında kimsə bir zaman özünü başqa bir yerə, misal üçün, ozamankı Şərq blokuna, yaxud başqa bir gücə bağlamaq fikrinə düşsəydi, amerikalılar xəbər tutan kimi ya onu işdən çıxarırdılar, ya da bir yolla özləri istədikləri mövqeyə qaytarırdılar. Buna əsasən, bu ölkədə daha çox nüfuza malik olmaq üçün xarici qüvvələr arasında rəqabət gedirdi. Sözsüz ki, hakim qüvvə Amerika idi. Bu arada xalqın iradəsi, istəyi və qüdrəti heç idi.

Bir ölkə və bir xalq üçün ən böyük müsibət sayılmaması, öz evində aşağılanması və təhqir olunmasıdır. Bunun ardınca hər şey gəlir; iqtisadi problem gəlir, mədəni problem gəlir, etiqadlara, amallara, və milli mədəniyyətə etinasızlıq gəlir. Bunlar əcnəbi hökmranlığının qaçılmaz nəticələridir.

Xalqın qiyamının və möhtəşəm İslam inqilabının ən mühüm məqsədlərindən biri bu hökmranlığa son qoymaq idi. Buna görə siz gördünüz ki, o günlərdə xalq xarici məsələlərə dair, Amerikanın, İngiltərənin, şahın müdafiəçilərinin və İsrailin əleyhinə də şüar verirdi. Xalq tarix boyu həmişə xaricilərin hökmranlığından əziyyət çəkmişdir. Bu əzəmətli inqilab İslam şüarları ilə, İslam bayrağını, dinə və dini kimliyə qayıdış bayrağını ucaltmaqla başladı. Onun öncülləri də təqlid müctəhidləri və böyük alimlər idilər. Bu inqilab xalqda olan istiqlaliyyət hissini təmin etdi. Xalq dərk etdi ki, İslama arxalanmaqla təhqirdən qurtula bilər. Və bu, mübarizənin məqsədlərindən biri oldu.

Fiqh ali ixtisas (xaric) dərsinin sonundakı söhbətlərdən: 2002.

Mübarizə dövrünün çətinlik və problemləri

Bu hərəkata başlayanlar nəzərdə tutduqları hökuməti və quruluşu yaratmalarını güman edirdilər, lakin bu yolda şəhid olmalarının, bütün ömürlərinin mübarizədə, çətinlikdə və uğursuzluqda keçməsinin mümkünlüyünü də bilirdilər. Hər iki yol mövcud idi; İmam Hüseynin (ə) hərəkatında olduğu kimi. 1962 və 63-cü illərdə və sonra çətin və qaranlıq illərdə bu həbsxanalarda ürəkləri isidən, onları hərəkətə vadar edən yeganə amil mübarizəyə inam idi, hakimiyyət sevgisi yox. Bu yol İmam Hüseynin (ə) yolu idi və onun iki tərəfi vardı. Zaman və məkan şəraiti isə fərqlidir. Bir zaman imkan yaranır və İslam hakimiyyəti qurulur. Bir zaman da bu imkanlar yaranmır və şəhadətlə sonuclanır. Tarixdə belə nümunələr çoxdur.

İmamın bu yola qədəm qoyduğu dövrdə şərait və ictimai münasibətlər İmam Hüseynin (ə) dövründən dəfələrlə mürəkkəb idi. Bu gün də insanların münasibətləri daha da mürəkkəbləşmiş, yollar yaxınlaşmış, rabitələr asanlaşmışdır. Amma eyni zamanda əlaqələr daha çətin və mürəkkəb olmuş, bir hadisə üçün amillərin müxtəlifliyi daha çoxalmışdır. Bu gün Yezid ibn Müaviyənin yerində oturanlar öz səylərini bütün dünyaya yönəldə, bütün bəşəriyyəti azğınlığa və fəsada sövq edə bilirlər. Bu gün rabitələrin asanlığına görə bu iş mümkündür və təəssüf ki, dünyada bu azğınlıq yaranmış, inkişaf etmişdir. Mütərəqqi texnologiya və mürəkkəb bəşər elmi adi xalq üçün asanlıq və sürət yaratdığı qədər və bəlkə ondan da çox murdar məqsədlər üçün imkan, şərait və sürət yaratmışdır. Bu gün dünyanın tağut gücləri bütün dünyanı, bəşəriyyəti və bəşəri sərvətləri istismar etməyi öz məqsədləri seçə, onları bu yoldan saxlayan bütün maneələri vurub sıradan çıxara bilirlər. Təəssüf ki, bəzi yerlərdə belə çirkin və xəbis məqsədləri göstərən böyük azğınlıqlar müşahidə olunur. Bu gün vəzifə olduqca ağırdır.

İslam Respublikası quruluşunun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

Hegemonluğun qara qovluğu

Kommunizm düşərgəsi dağılandan sonra Amerikanın ozamankı prezidenti yeni dünya düzənini elan edəndə bu dövlətin qədim hegemon məqsədini aşkara çıxardı; özünün və Amerikanın siyasi sisteminin daxilindəkini göstərib bəyan etdi. Təbii ki, bu yalnız həmin günə məxsus deyildi. On illər öncədən qərara gəlib elan ediblər ki, başqa heç bir gücün Latın Amerikasına daxil olmasına imkan verməyəcəklər. Latın Amerikası Amerika Birləşmiş Ştatları dövlətinə məxsus bir bölgə sayıldı. Sonra bunu tədricən bütün dünyaya aid etsələr də, bir məqsəd kimi elan etmir və söyləmirdilər. Qarşılarında Sovet İttifaqı kimi böyük bir rəqibin olmadığını duyan kimi bu məqsədi təxminən açıq şəkildə elan etdilər: təkqütblü dünya, bütün dünyaya hakim olan vahid bir gücün olduğu yeni dünya düzəni. Ötən on illərdə Amerikanın bütün proqramları bu məqsədi izləmişdir. Məqsəd hərbi, onun ardınca isə siyasi və iqtisadi istismardır. Hamısı da Amerika dövlətinin polittexnoloqları olan kompaniyaların maraqları istiqamətində. Məqsədləri onlar təyin edirlər. Bu reallıqdır. Bugünkü insan bu reallıqları bilsə, vaxtında qərar seçər. İnsanlar dünyalarında nəyin baş verdiyini anlasalar, qərar və mövqe seçmək imkanları olar, xalqlar böyük işlər görə bilərlər.

Mənə verilən statistikada göstərilir ki, Amerika dövləti 1945-ci ildən bu günə qədər ona tabe olmayan qırx müstəqil hökumətin devrilməsində iştirak etmiş və iyirmidən çox hərbi müdaxiləyə imza atmışdır. Bu müdaxilələr istisnasız olaraq kütləvi qırğınlara və böyük faciələrə səbəb olmuşdur. Bəzi yerlərdə məqsədinə çatmış, bəzi yerlərdə isə çatmamışdır. Bəzi nümunələr bizim yadımızdadır: cənab prezidentin işarə vurduğu kimi, İkinci dünya müharibəsinin sonunda Yaponiyaya atom bombasının atılması, Vyetnamda qanlı müharibələr və sonda Amerikanın məğlubiyyəti ilə nəticələnən unudulmaz faciələr, Çili hadisələri, İranın özündə 19 Avqust çevrilişi və sair. 19 Avqust çevrilişində Amerikadan bir məmur Tehrana gəlib bunun üzərində

işlədi. Sonralar özləri bunu elan edib sənədlərini yaydılar. Bütün bu sadalananların amili Amerikanın böyük iqtisadi kompaniyaları, böyük oliqarxlar, siyasi partiyalar, nüfuzlu sionist təşkilatları, düşüncə və əxlaq baxımından nöqsanlı şəxsiyyətlərdir. Bu çox ağır qovluq və çox rüsvayçı keçmişdir. Bunlar kiçik məsələlər deyil. Onlar üçün insanların məhvinin önəmi yoxdur, sərvətlərin məhvinin önəmi yoxdur, ədalətin məhvinin və bəşəri faciələrin önəmi yoxdur. Bunların heç biri onlar üçün problem sayılmır. İmiclərini qorumaq üçün onların ixtiyarında çoxlu informasiya və media imkanları var. "Daha uca səs" təbiri düzgün təbirdir. Onlar daha uca səslə dünyada əlverişli şərait yaradıb bu faciələri ört-basdır etməyə, onları yenə də sülhün, demokratiyanın və insan haqlarının keşikçisi kimi göstərməyə çalışırlar.

İslam Respublikası quruluşunun vəfizəli şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

İradə və mübarizənin mükafatı: səadət

İlahi qanunlarda insan iradəsi təyinedicidir. İslam insanları mübarizəyə dəvət edir: "Allah yolunda cihad edən kimsələr Allahın mərhəmətinə ümidvardırlar"[1], yaxud "(Ey möminlər!) Allah yolunda layiqincə cihad edin"[2]; yəni bütün imkanlarınızı mübarizəyə sərf edin. Bunlar ondan ötrüdür ki, bu ilahi tövsiyəyə əməl etsək, ilahi məqsədə daha tez çatarıq. İlahi məqsəd sabit, qəti və qaçılmazdır. Əgər biz əməl etməsək, digərləri əməl edəcəklər: "Sizdən hər kəs dinindən dönsə, Allah (onun yerinə) elə bir tayfa gətirər ki, (Allah) onları, onlar da (Allahı) sevərlər"[3]. Allah-Taala bu yolu, bu mənzil başını və bu taleyi qəti etmişdir. Qəti olmayan onun zamanı və bu səadətə nail olmaq baxımından hansı xalqın birinci olmasıdır. Bu bizim iradəmizə bağlıdır.

İran xalqı Böyük İmamın rəhbərliyi ilə bir addım önə keçib burada İslam bayrağını ucalda bildi. Bu gün bu ölkədə Məhəmməd (s) şəriətinin bayrağı ucalmışdır. Bu baş verməyə, yaxud on il, yüz il sonra da baş verə bilərdi. Bu mühüm hadisəni bu zamanda həyata keçirən amil bu xalqın iradəsi, fədakarlığa və mübarizəyə qərarı idi. Bu hər yerdə belədir.

Əziz Peyğəmbərin (s) və İmam Cəfər Sadiqin (ə) mövlud bayramında quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

---

[1] Bəqərə/218.
[2] Həcc/78.
[3] Maidə/54.

İsraillə mübarizənin imamın əsas şüarlarından olması

Bizim Böyük imamımız məsələnin mahiyyətini yaxşı dərk edirdi. 1962-ci ildə bu hərəkat başlayan zamandan, Fələstin məsələsinin İranda hələ elita arasında da gündəmdə olmadığı bir vaxtda imamın sözü bu idi ki, İsrailin hegemonluğu qarşısında hamı təhlükə hiss etsin, dayansın və mübarizə aparsın. Sonra da həmin yolu davam etdirdi və bu həmin ilahi və səmavi kişinin böyük şüarlarından biri oldu.

Əziz Peyğəmbərin (s) və İmam Cəfər Sadiqin (ə) mövlud bayramında quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2002.

İmam Xomeyninin misilsiz şəxsiyyət olması

İmamın vəfatının ildönümü İran xalqının əziz və böyük imama sevgi və ehtiramını yeniləməsi, həmçinin imamı, onun prinsip və ideologiyasını sevənlərin onun üsuluna, xəttinə və təsvir etdiyi məqsədlərə vəfadarlığını göstərmələri üçün bir fürsətdir. Məhz buna görə hər ilin 14 xordadı (4 iyunu) dünyanın siyasi analitikləri üçün xüsusi əhəmiyyətə malikdir. Bu gün ölkənin hər bir yerində xalq Böyük İmama həmişə göstərdiyi hörməti, məhəbbəti və səmiyyəti ifadə edir.

Mən bu münasibətlə imam, onun dünyada və müasir tarixdə zirvəyə ucaltdığı böyük və bənzərsiz inqilab barədə danışmaq istəyirəm. Əslində isə imam və inqilab barədə söhbətlər bir-birindən fərqli deyil.

İmamın şəxsiyyəti yalnız onun vücudunda olan və şəxsiyyətini təşkil edən dəyərli xüsusiyyətlərdən ibarət deyil. Şübhə yoxdur ki, bizim böyük imamımız müxtəlif cəhətlərdən dəyərli və uca bir şəxsiyyət, böyük bir alim, məktəb sahibi olan fəqih, dəyərli bir filosof, siyasətçi, böyük bir islahatçı, dəyərli və misilsiz xislət və xüsusiyyətlərə sahib bir insan idi. Bütün bunlar imamın şəxsiyyətini həm öz dövründə yaşayan, həm də sonra gələcək insanların gözündə ucaldır. Lakin bizim böyük imamımızın şəxsiyyəti bu xüsusiyyətlərlə məhdud olmur. Onun şəxsiyyətinin digər cəhəti bu ölkədə, bu bölgədə və bütün dünya xalqlarının gözü önündə təsvir etdiyi aydın üsul və xətlərdən ibarətdir. O həmin xətlər əsasında siyasi və ictimai bir quruluş yaratdı, dünya məzlumlarının və İslam ümmətinin qəlbində böyük ümidlər oyatdı. İmamın şəxsiyyəti onun əsas prinsiplərindən ayrı deyil. Əslində bizim inqilabımızın kimliyi və prinsipləri imamın şəxsiyyətinin əsas xətlərini də təşkil edir. İnqilab haqda nə qədər danışsaq, əslində imam haqda danışmışıq.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2002.

Hegemon güclərin inqilabları müsadirə etməyə dair siyasəti

Böyük İslam inqilabının onu analitik və düşüncə sahiblərinin gözündə son əsrlərin misilsiz bir fenomeninə çevirən və ondan öncə dünyanın böyük inqilablarının heç birində olmayan, nə Fransa inqilabında, nə sovetlərin kommunist inqilabında, nə də bu iki inqilabı örnək götürən və onların istiqamətində hərəkət edən digər kiçik iniqilablarda olan xüsusiyyəti var. Əlbəttə, bunu yaddan çıxarmayın ki, böyük güclər dünyanın müxtəlif xalqlarının ədalətsevər hərəkatlarını siyasi və mədəni cəhətdən həzm edib əslində onların kimliyini məhv etməyə çalışmışlar və indi də çalışırlar. Bu, İranda da baş vermişdir. Yüz il öncə Məşrutə şüarı ilə başlayan ədalətsevər hərəkat xalqın dini hərəkatı idi. O zaman dünyanın hakim siyasi gücü olan İngiltərə İslam prinsiplərinə əsaslanan bu ədalətsevər hərəkatı siyasi və mədəni cəhətdən həzm edib dəyişdirdi, məhv etdi və İngiltərə növündən olan bir Məşrutə hərəkatına çevirdi. Nəticədə antiavtoritar bir hərəkat olan Məşrutə hərəkatı Qacar avtoritorizmindən də pis, mənfur və qəddar olan Rza xan diktaturası ilə nəticələndi. Həmçinin neft sənayesini milliləşdirmə hərəkatı onu idarə edənlər vasitəsi ilə Amerika liberal-demokratiyasına qoşuldu və nəticədə həmin amerikalılar neft sənayesini milliləşdirmə hərəkatına xəyanət etdilər. Onlar İranda ədalətsevər qüvvələrin mübarizə apardığı ingilislərlə əlbir olub milli hərəkatı məhv etdilər, onun ardınca Məhəmmədrza dövrünün kobud və qəddar diktaturası otuz ildən artıq müddətə bu ölkəyə hakim oldu və xalqı ağır durumda saxladı. On illər boyu Afrika və Asiya xalqlarının ədalətsevər hərəkatları kommunistlər və istismarçı Sovet siyasəti tərəfindən müsadirə olundu, Sovet İttifaqının maraqları istiqamətində işləyən müxtəlif diktatorluqlarla nəticələndi. Dünyanın xalqların ədalətsevər hərəkatları ilə rəftarı belə olmuşdur.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2002.

İnbqilabın əsas prinsiplərini təyin etməkdə imamın məharəti

Bizim imamımızın böyük məharəti bu inqilab üçün möhkəm çərçivə yaratması idi. O bu inqilabın istismarçı siyasi güc və cərəyanlarda həzm olmasına imkan vermədi. İmamın təlimlərinin və göstərdiyi xəttin xalqın ağzına saldığı "nə şərqçi, nə qərbçi, İslam Respublikası", yaxud "istiqlaliyyət, azadlıq, İslam Respublikası" şüarlarının mənası bu idi ki, bu inqilab nə Şərqin ozamankı sosializm düşərgəsinin prinsiplərinə, nə də Qərb düşərgəsinin liberal kapiralizm prinsiplərinə bağlı olan sabit və əsas prinsiplərə söykənir. Şərqin və Qərbin bu inqilaba düşmən olmasının səbəbi də budur.

Bu inqilab güclü əsaslar üzərində quruldu; həm ədalətin icrasını diqqətdə saxladı, həm xalqlar üçün ən mühüm dəyərlərdən olan azadlıq və müstəqilliyi, həm də mənəviyyat və əxlaqı. Bu inqilab ədalətsevərlikdən, azadlıqsevərlikdən, demokratiyadan, mənəviyyatdan, əxlaqdan təşkil olunmuşdur. Lakin bu ədaləti kommunistlərin keçmiş SSRİ-də, yaxud öz peyk ölkələrində şüar verdikləri iddialı və xəyali ədalətlə qarışdırmaq olmaz. Bu, özünün xüsusi tərifi olan İslam ədalətidir. Həmçinin İslam Respublikası quruluşunda mövcud olan azadlığı güc və sərvət sahiblərinin özbaşınalığı və insanların hər bir əmələ mütləq azadlığı mənasında olan Qərb azadlığı ilə səhv salmaq olmaz. Bu, İslam azadlığıdır. Onda həm ictimai azadlıq var, həm mənəvi azadlıq var, həm də İslamın tərif etdiyi fərdi azadlıq. İslam Respublikasının və İslam inqilabının öz prinsiplərinə daxil etdiyi bu mənəviyyatı və əxlaqı da bir çox cəmiyyətlərdə olan qapalı, məntiqsiz və durğun dindarlıqla səhv salmaq olmaz. O dindarlıqlar zahirdə və dildə dindarlıqdır, durğunluqla, qapalılıqla, cəmiyyət və insan üçün səadət yolunu dərk etməməklə yanaşıdır. Ədalət, azadlıq və mənəviyyat sözlərindən qabaq gələn bu İslam sözü çox mənalıdır və ona diqqət yetirmək lazımdır.

İmam bu prinsipləri inqilabın qələbəsindən öncə xalqa və ayıq insanlara izah etdi. İnqilabın qələbəsindən sonra onun əsasında İslam

Respublikasını yaratdı, yaşadığı qədər bu prinsiplər üzərində dayandı və onlar üçün çalışdı. Məhz buna görə İslam Respublikası yeni və misilsiz bir fenomen kimi müsəlman cəmiyyətlərdə ümid oyatmağı bacardı. Bütün İslam dünyasında və onun xaricində hər kəs anladı ki, bu, şüarını Şərq və Qərb rejimlərinin etimadsız dillərindən eşitdiklərinin təqlidçi forması deyil. Bu, yeni və canlı bir fenomen, yeni fəaliyyət gücüdür. Buna əsasən, İslam Respublikası yaranandan sonra bütün müsəlman xalqlar yeni hərəkət və ümid əldə etdilər. İndi də belədir. İndi bütün dünyada hegemonluğun təbliğat siqnallarının İslam Respublikası əleyhinə zəhərli təbliğat aparmalarına rəğmən, İslam quruluşunun dünya müsəlmanlarının qəlbində yaratdığı ümid hələ də yaşayır. Müsəlman ziyalılar, gənclər və İslam ölkələrində inkişaf etməkdə olan nəsillər ümid dolu bu aydın nöqtəni görürlər.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2002.

İranın yeganə səadət yolu: İslam və İslam Respublikası

İran xalqı bir məqama diqqət yetirməlidir. Allaha şükür olsun ki, bu 23 il ərzində də diqqət yetirdiyini göstərmişdir. Bu inqilabın və bu xalqın düşmənləri də bunun nə olduğunu bilsinlər:

Bu ölkənin xilası və bu xalqın layiqli mövqeyə ucalması yalnız İslamın, İslam Respublikasının və İslam quruluşunun sayəsində mümkündür. İnqilabın qələbə çaldığı dövrü görməyən və inqilabdan qabaqkı illəri yaşamayan gənclər bilsinlər ki, İslam inqilabı və bizim böyük imamımız olmasaydı, bu ölkədə inqilabın və dəyişikliyin arxasında İslam durmasaydı, bu məmləkətdə Amerikanın təhqiredici istismarının və qəddar Pəhləvi diktaturasının sona çatacağına heç bir ümid olmazdı. Bu ölkədə bütün mümkün yollar sınaqdan keçirildi və hamısı uğursuz çıxdı. Müxtəlif siyasi partiyaların, Şərqə və Qərbə bağlı cərəyanların və silahlı hərəkətlərin hamısı müəyyən bir dövrdə önə keçdilər, amma heç biri xalq üçün bir iş görə bilmədi və repressiya günbəgün gücləndi. İnqilabdan qabaqkı son illərdə gənclər silahlı mübarizəyə qalxanda çox sərt şəkildə məhv edildilər, Pəhləvi rejiminin nəzarəti də artdı və ümidsizlik tədricən hər yeri bürüdü. Pəhləvi rejiminin önündə həqiqətən dayana bilən qüvvə xalq idi. Yəni bütün xalq meydana çıxıb azğın, asılı, diktator və zalım Pəhləvi rejimini və onun arxasında duran Amerikanı məğlub etməli idi. İranda ruhanilərdən və din xadimlərindən başqa xalqı səfərbər edəcək heç bir güc yox idi. Bu bizim ölkəmizin böyük bir təcrübəsidir. Bunlara diqqətlə baxmaq lazımdır.

Din alimləri olmasaydılar, Məşrutə hərəkatı yaranmaz və qələbə çalmazdı. Qərbpərəstlər və İngiltərənin İrandakı nökərləri din alimlərini və din şüarlarını kənarlaşdıranda isə yenə də istibdad, xarici təsir və hökmranlıq başlandı. Neft sənayesini milliləşdirmə hərəkatında da belə oldu. Mərhum Ayətullah Kaşani bu mübarizənin ən əsas başçılarından biri idi. Ruhanilər meydanda olunca xalq da meydanda qaldı. Amma yanlış rəftarlar, səhv üsullar və inhisarçılıq səbəbindən mərhum Kaşani

kimi aydın, ayıq və qorxmaz bir ruhani təcrid ediləndə xalq da kənara çəkildi, milli hərəkat hökumətinin başçıları yalqız qaldılar və düşmən istədiyini etdi.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2002.

Xalqın ruhanilərə daimi etimadı

İranda xalq həmişə din çağırışı ilə meydana çıxmış, ədaləti dinin sayəsində görmüşdür. Ruhanilər harada öncül olmuşlarsa, xalq onları yalqız qoymamışdır. Bizim böyüm imamımız bir təqlid müctəhidi, din alimi, sınaqdan çıxmış pak və səmimi bir insan kimi güclü iradəsi ilə meydana atılanda və ruhanilər də onun arxasınca səhnəyə çıxanda bütün xalq meydana atıldı və düşmən heç bir müqavimət göstərə bilmədi. Və xalqın fəallığı bu ölkədə avtoritorizmin kökünü kəsdi.

Əziz qardaş və bacılar! Bizim ölkəmizdə diktatorlar həmişə xarici istismarçılara arxalanmışlar. Pəhləvi və ondan öncə başqa bir formada Qacar rejiminin diktatura və hegemonluğu onların əcnəbi qüvvələrə söykəndiyinə görə idi. Rza xan İngiltərəyə arxalanırdı. Məhəmmədrza əvvəlcə İngiltərəyə arxanlanırdı, sonra isə Amerikaya üz tutdu. O, Amerikanın maraqlarını və nüfuzunu onların istəyinə uyğun şəkildə təmin edirdi. Onlar da onu müdafiə edir, sonra bu ölkəyə və bu xalqa qarşı istədikləri işi görürdülər. Bu xalqı əlli il repressiya şəraitində saxladılar. Beynəlxalq baxımdan inkişaf üçün ən yaxşı və ən hazırlıqlı bir dövrdə bu xalqın elm, sənaye, mədəniyyət və əxalq inkişafının qarşısını aldılar, bu xalqı və bu ölkəni geriyə saldılar. Onların məqsədi eyş-işrət, sərvət toplamaq və öz xarici ərbablarına xidmət göstərmək idi. Onlar həmin xarici qüvvəyə arxalanaraq özlərini İranda tam möhkəmlətmişdilər. Onları uzaqlaşdırmaq, bu əyri, zərərli, lənət, nifrət və uğursuqla dolu rejimi devirmək hər kəsin işi deyildi. Böyük İmam İslam bayrağı ilə hərəkat yaratdı. İmamın prinsipləri İslam prinsipləri, ədaləti İslam ədaləti, demokratiyası İslam demokratiyasıdır.

Bizim Böyük imamımız və İslam quruluşumuz barədə ən böyük insafsızlıqlardan biri budur ki, əcnəbi təbliğat imamı, İslam quruluşunu və İslam Respubilkasını avtoritorizmdə və demokratiyadan uzaq olmaqda ittiham edir. Bu inqilab İranda belə möhtəşəm şəkildə baş verdi, qələbədən sonra xalq ilk referendumu keçirdi. Bu heç bir inqilabda görünməmişdi. Siz baxın, bir ölkədə bir çevriliş, kiçik bir

dəyişiklik və yerdəyişmə baş verəndə seçkilər 2-3 il təxirə düşür. Ölkədə xalq seçki qutusunu tanımırdı. Tağut rejimi dövrünün seçkiləri formal və yalançı idi. Xalq heç zaman seçkilərdə iştirak etməmiş və sözün həqiqi mənasında səs verməmişdi. Parlament seçkilərində kimi istəyirdilərsə, qutulardan onun adını çıxarırdılar. Belə bir şəraitdə inqilabın qələbəsindən iki ay sonra imam xalqı seçki məntəqələrinə çağırdı və xalq İslam Respubilkasına səs verdi. Bir ildə xalq beş dəfə seçkilərdə iştirak etdi. İnqilabdan ötən 23 il ərzində bizim xalqımız 23 dəfə İslam Şurası Məclisi, Dini Ekspertlər Məclisi, prezident və bələdiyyə seçkiləri, həmçinin konstitusiya və İslam Respubilkası quruluşunu təyin etmək üçün 23 dəfə seçkilərdə iştirak edib, səs verib. Hətta zahirən demokratik olan hansı quruluşda xalqın səsinə və istəyinə bu qədər önəm verilir? Bu inqilabın və bu xalqın həyasız düşmənləri bu insafsızlığı edir, bu inqilabı, onun böyük banisini və memarını demokratiyaya müxaliflikdə ittiham edirlər.

İmam Xomeyninin məqbərəsinin ziyarətçilərinin böyük toplantısında çıxışdan: 2002.

İnqilab təlimlərinin qalın kitabı

İnqilabı bir kitab kimi açdıqda onun daxilində təlim dolu fəsil və sətirlərin mövcud olduğu görünür: dini təlimlər, siyasi təlimlər, əxlaqi təlimlər. Bütün bunlar inqilab sözündə cəm olmuşdur. İnqilab siyasi sahədə yalnız İran xalqı üçün yox, bütün bəşəriyyət üçün ən yeni və ən gözəl sözə malikdir. Bəzi adamlar elə bilirlər ki, Qərbin dırnaqarası liberal-demokrat düşərgəsində hazırlanıb ölkəyə gətirilən elmi söz və terminlər inqilabın eşitmədiyi yeni söz və sovqatlardır, inqilab və inqilabçılar bu sözləri indi eşitməlidirlər. Bu yanlışdır. İslam inqilabı və bu qalın elmi kitab bu sözlərin hamısının həm söz kimi, həm də real nümunə kimi mövcud olduğu bir vaxtda yazıldı və baş verdi.

Xalq başında Amerikanın durduğu Qərb düşərgəsinin əsl mahiyyətini bu gün Amerikanın siyasətindən anlayır. Lakin o zaman bundan əlavə marksizm, kommunizm və sosializm adlanan, iddiası da Qərb liberallarından olduqca çox olan başqa bir cərəyan da vardı. Biz İslamın tapşırdığı əsaslardan, İslamın siyasi, yaxud elmi gərəklərindən danışanda onlar deyirdilər ki, "gərək" nədir? Bizdə "gərək" yoxdur. Marksizm elmdir. Siz deyirsiniz ki, gərək belə olsun. Biz deyirik ki, istəsəniz də, istəməsəniz də, belə olacaq. Onlar marksizmin təlimlərini bu qədər qəti hesab edirdilər. Yüz il və ondan da artıq oturub dünyada sosialism və sonra kommunizm quruluşunu yaradacaq amilləri bir-bir yazmışdılar və deyirdilər ki, bunun oyan-buyanı yoxdur, siz istəsəniz də, istəməsəniz də, baş verəcək; marksizmə doğru proses təbii şəkildə gedir və bütün dünyanı əhatə edəcək. Marksistlərin təsvir etdiyi həmin qəti və qaçılmaz məsələlərdən bu gün dünyada heç bir əsər-əlamət qalmayıb. Özü gedən kimi adı, etibarı və imici də getdi. Bu gün həmin gərəkləri, qaçılmaz və qəti məsələləri qərblilər öz məfhumları üçün təkrarlayırlar: “Çarə yoxdur, qloballaşma bəşərin qaçılmaz taleyidir, istəsəniz də, istəməsəniz də, baş verəcək”. Kommunistlər öz həyat reallıqlarını dəmir pərdə arxasında saxlamışdılar ki, heç kim görməsin və həqiqətdən xəbər tutmasın. Buna görə də çoxlu gənclər həmin sözlərə

aldanırdılar. Bunların isə işlərinin mahiyyəti bəllidir, amma eyni zamanda xəcalət çəkmir və iddia etdiklərinin həyasızlıqla qəti və qaçılmaz olduğunu söyləyirlər. Bir qrup sadəlövh yazıq da - mənim fikrimcə, onlar üçün ən yaxşı təbir sadəlövh sözüdür - bu sözləri götürüb qəti məsələ kimi qəbul edir, gənclərin və qeyri-gənclərin elmi arenasına çıxarır və təbliğ edirlər; onlar üçün sinə döyür, özlərini öldürür, bu məfhumları insanların beyninə yeritməyə çalışırlar. İnqilab baş verəndə bunların hamısı vardı və inqilab bu sözlərin hamısını puça çıxardı.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan: 2002.

Qərb dünyasının yalançı gözəlliyi

Qərblilərin təsvir etdiyi, insan haqlarının, azadlığın və seçim hüququnun olduğu gözəl dünyanı biz Pəhləvi dövründə öz həyatımızda gördük, ozamankı demokratiyanın və insan haqlarının mənasını anladıq. Amerikalıların özləri SAVAK təcridxanasının yaradılmasında, işgəncə yerlərinin və alətlərinin hazırlanmasında, gəncləri ovlamaq və xalqı əzmək üsullarında Pəhləvi rejimi ilə əməkdaşlıq etdilər. Onların bu gün dünya xalqlarına vəd etdiyi və radiolarının biz daxil üçüncü dünya xalqlarını çağırdığı liberal-demokratiya budur. Biz bunu öz həyatımızda sınaqdan keçirmişik, bizim üçün yeni bir şey deyil. Biz pəncələrindən qan daman, başından fəsad tökülən Amerikanın sayəsində bütün cinayətləri törədən Pəhləvi diktaturasının qəddar hakimiyyətini yaxından görmüşük. Bu məsələlər bizə yeni deyil. Biz Amerikanın insan haqlarını burada - həbsxanalarda və işgəncə yerlərində öz ətimiz və qanımızla hiss etmişik. Məgər İran xalqı bunları unudar?!

İnqilab öz siyasi görüşünü ortaya qoyanda dünyada bütün bu sözlər vardı və inqilabın sözü belə bir şəraitdə rezonans doğurdu. Onları bu inqilabın əleyhinə çıxmağa vadar edən amil həmin rezonansdır. Bütün xalqlar və ziyalılar onların puç məfhumlarına şübhə ilə yanaşdılar. Bu gün də Qərbin Amerikanın Dövlət Departamentinə, CIA təşkilatına və müxtəlif qurumlarına bağlı olan dırnaqarası ziyalılarının söylədiyi, yaxud azad adlandırdıqları, əslində isə əsla azad olmayan mətbu orqanlarında yazıb nəşr etdirdikləri bütün sözlər istər İslam dünyasında, istər onun xaricində olan gənc nəslin, ziyalıların və ayıq insanların nəzərində tamamilə sual atına düşmüş, bir çoxu qətiyyətlə rədd olunmuşdur. Əlbəttə, siyasətçilər üz vurmur və həmin sözləri siyasi mövqedən və amiranə şəkildə təkrarlayırlar. Lakin İslam və İslam inqilabı öz işini gördü. İslam inqilabı təqdim etdiyi siyasi görüşlə istibdada qarşı çıxdı. Hər hansı bir adla və hər hansı bir şəxs tərəfindən olan avtoritorizm İslama görə yasaqdır. İslam inqilabı hegemonluğa, xarici müdaxiləyə, məzlum xalqlara təcavüzə, qəddar və zalım

müharibələrə və zahiri gözəl olan adlar altında xalqların maraqlarını mənimsəməyə qarşı çıxdı. İslamdan götürülən bu məfhumlar dünyada İslam quruluşunun və İslam Respublikasının siyasi məktəbi kimi təqdim olundu və hamı onun önündə baş əydi.

Böyük İmamın adının yayılmasına bunlar səbəb oldu. Siz dünyanın hansı ölkəsinə getdinizsə, insanların İmam Xomeyninin adı önündə təzim etdiklərini gördünüz. Səbəb xalqların həm anladığı və bütün vücudları ilə dərk etdiyi, həm də dərdlərinin yeganə dərmanının olduğunu düşündükləri məfhumların olmasıdır. Bəzi xalqlar üçün əlverişli şərait yarandı və bu proqrama əməl edə bildilər, bəziləri isə əməl edə bilmədilər və məğlub oldular. Dünyanın çoxlu yerlərində bəzi hissələrinə əməl etdilər və təsirini gördülər.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan: 2002.

Hegemonluq - bugünkü dünyanın problemi

Bu gün dünyanın problemi böyük güclərin diktatorcasına müdaxiləsi və təcavüzüdür. Məgər belə deyil?! Böyük güclər iradə edib 48 saat ərzində bir-iki ölkəni bütün iqtisadi fəaliyyətlərindən məhrum edir və çökürdürlər. Bir neçə il öncə gördünüz ki, İndoneziya və Malayziyada bu işləri gördülər. Bu ölkələrin valyuta və iqtisadiyyatına sahib olduqlarına görə bu ölkələrdən öz pullarını çıxarmaqla bir neçə gün ərzində onların iqtisadi göstəricilərini 40-50 faiz endirdilər. Xalq bu zülmkar istismarı duyur. Əfqanıstan kimi, Avropanın və digər yerlərin müsəlmanlar yaşayan bölgələri kimi yerlərdə xalq bir hegemon gücün hansısa bəhanə ilə ölkəyə daxil olub ürəyi istəyən işi görməsinə şahid oldu. Xalq hiss edir ki, belə güclərlə mübarizə aparan və onları cilovlamağa çalışan məktəb və inqilab haqlıdır. O məktəb İslam və onun təmsilçisi İslam Respublikasıdır.

Cənubi Afrikada xalq irqi ayrıseçkilikdən əziyyət çəkirdi. Həmin günlərdə hələ aparteid rejimi iş başında olduğu zaman Cənubi Afrikanın ziyalıları imama və buranın mübarizlərinə hörmət ifadə edirdilər. Sonradan prezident olan Nelson Mandela o zaman həbsdə idi. Mən bir görüş üçün Zimbabveyə getmişdim. O, həbsxanadan mənə mesaj göndərdi ki, salamımı imama çatdırın. Sonra onlar İmam Xomeynidən öyrəndikləri üsulla işə başladılar və aparteid hakimiyyətini devirdilər. Onların qonşu ölkəsində və dünyanın bir çox başqa yerlərində də belə etdilər. Buna əsasən, inqilab yaşayır.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan: 2002.

Düşmənin inqilabı təcrid etməyə çalşması

İnqilabın əvvəlindən düşmənlər tərəfindən başlanan işlərdən biri inqilabın qlobal nüfuzunu inkar etmək, onun təcrid olunduğunu və heç kim tərəfindən qəbul edilmədiyini söyləmək idi. İyirmi il öncəki bu sözləri indi də deyirlər. Onda da yalan idi, indi də yalandır. İnqilab məfhumları bütün dünyada yaşayır. Bizim inandıqlarımız dini demokratiya, haqq din, dini və əxlaqi dəyərlərə hörmət, hegemon güclərə nifrət, onlarla mübarizə aparmaq, bütün insanların və insaniyyətin hüququnu tanımaq – bunlar bütün xalqların qəbul etdiyi və bəyəndiyi məsələlərdir. Sözsüz ki, düşmənlərin təbliğatı güclüdür. Mən dəfələrlə demişəm: Bu gün pul, güc və hiylə birlikdə hegemonluğun ixtiyarındadır və hiylələrini informasiya şəbəkələri vasitəsi ilə həyata keçirirlər.

İnqilab canlı və dinamikdir. İnqilabın mühafizəçisi belə bir canlı, dinamik, aktiv və inkişafda olan varlığı qoruyur. Əgər belə olmasaydı, İslam inqilabı və İslam quruluşu indiyədək on kəfən çürütməli idi. Amma canlı varlığı dəfn etmək və hərəkətdən saxlamaq olmaz; yaşayır və yaşayacaq. Bizim xalqımız da bu məfhumları qəbul etdi; qərəzsiz və insaflı şəxsiyyətlər də qəbul edirlər. Bu xüsusiyyətlərə malik olan inqilabın və quruluşun duruş gətirmək gücü var. Bunu bizim düşmənlərimiz də anlamışlar. Onların yeganə ümidi budur ki, xalqın və ondan öncə məmurların bu məfhum və əsaslara inamı zəifləsin və şübhəyə düşsünlər. Bu quruluşun hər hansı bir mühüm sahəsində çalışanlarda bu şübhələri yaratmaq istəyirlər. Şübhə çox pis xüsusiyyət və təhlükəli ünsürdür. Bu şübhəni dəlillə təlqin etmirlər; dəlil yoxdur. Bu gün dünya rəhbərliyinə iddialı olan və başında Amerikanın durduğu sistem zülmdən, qətldən, misilsiz qəddarlıqlardan, hüquq pozuntusundan və ayrıseçkilikdən başqa bir şey göstərmir və heç kimin qəlbində əminlik yarada bilmir. Onların dəlili yoxdur. Onlar təbliğatla, insanları satın almaqla, onun-bunun ağzını şirinləşdirməklə İslam quruluşu daxilində pozuntu yaratmağa çalışırlar. Bundan ehtiyatlı

olmaq lazımdır. Yalnız siz yox, bizim hamımız bu təhlükədən ehtiyatlı olmalıyıq. Hər kəs birinci növbədə öz qəlbindən, sonra isə idarəsindən və yaxınlarından ehtiyatlı olmalıdır. İman və etiqadla dolu olan aydın qəlblər heç zaman məğlub olmur və qorxmurlar. Qorxmaq, məğlub və təslim olmaq üçün əvvəlcə qəlblərdə şübhə yaratmaq lazımdır. Bu şübhələr həmişə beyin yolu ilə yaradılmır. Bəzən fiziki yolla yaradılır; fiziki istək və meyllər, pula meyl... Cəbhə zamanı bizim gənclərimizin çoxu Səhifeyi-Səccadiyyənin bir duasının bu hissəsini oxuyurdular: "Fitnə törədən mal fikrini onların qəlbindən çıxar". Həmçinin fitnə törədən sərvət istəyi, vəzifəpərəstlik, rahatlığa can atma, eyş-işrətə və dəbdəbəyə təmayül cisim və ehtiraslar yolu ilə insanın qəlbinə və beyninə şübhə salan amillərdir. Bunlardan ehtiyatlı olun.

İslam İnqilabının Mühafizəçiləri Korpusunun üzvləri ilə görüşdəki çıxışdan: 2002.

İnqilab proqnozunun imkansızlığı

Əgər bir xalq bu mənəvi və dini məfhumlarla tanış olsa, onları qəlbən mənimsəsə və öz hərəkətini bu meyarlarla tənzimləsə, irəliləyəcək və qarşısındakı dağları da aşacaq. Bizim xalqımız tarixi bir anda belə bir vəziyyətə düşdü və bu inqilab baş verdi. Siz elə bilməyin ki, bu inqilab proqnoz verilirdi. Xeyr! Proqnoz ediləsi deyildi. Bu qədər möhtəşəm idi. Bir xalqın yalın əllə azğın və çürük, lakin dünyanın bütün zalım gücləri tərəfindən tam dəstəklənən, ölkəni ən sərt şəkildə idarə edən və heç kəsin nəfəs almağa cürət etmədiyi bir rejimi devirib yerinə öz etiqadı və amalı olan İslamı gətirməsi əsla təsəvvür olunmurdu. Hətta optimist insanlar da belə bir şeyin mümkünlüyünü düşünmürdülər. Amma bizim xalqımız bu işi gördü. Mənəvi və əxlaqi amallar və böyük arzular bu xalqa elə qüvvə verdi ki, heç bir zor, şiddət, təhdid və acı hadisə onu yarıyolda saxlayıb dayandıra bilmədi.

İmam Hüseynin (ə) doğum gününün ildönümü və Mühafizəçi günü münasibəti ilə korpus mühafizəçiləri ilə görüşdəki çıxışdan: 2002.

Mehdilik – zalım dünya düzəninin məhvi

İnsanlar çalışıb məhdud bir bölgədə olsa belə ədalət bayrağını ucalda bilərlər. Bu gün dünyanın müxtəlif yerlərində zülm altında yaşayan xalqlar zülmlə mübarizənin mümkünlüyünə ümidvar olsalar, siz görün dünyada hansı hadisə baş verər və xalqlar necə oyanarlar! Bir zaman İran xalqı da tağut rejiminin qüdrətli pəncəsində bu məyusluğa düçar olmuşdu. Amma bizim böyük imamımız İslam təlimləri ilə bu məyusluğu qəlblərdən çıxarıb xalqa ümid və şücaət verdi. Nəticədə bu xalq ayağa qalxdı, hərəkətə başladı, çətinliyə dözdü, mübarizə apardı, canını əsirgəmədi və dünyanın bu nöqtəsində zülm amilləri, zalım və şeytani sistemlə mübarizə aparıb onun kökünü kəsə və devirə bildi.

Bu gün dünyanın hegemon mərkəzlərinin informasiya şəbəkələri və onlara bağlı ziyalılar belə təbliğat aparırlar ki, indiki zalım sistemin önündə heç bir hərəkət mümkün deyil. Onlar inqilab və amalçılıq düşüncəsi ilə mübarizə aparıb xalqları qane etmək istəyirlər ki, dünyanın indiki vəziyyəti ilə razılaşsınlar və ona heç bir reaksiya verməsinlər. Mehdiyə (ə) inam bu yanlış və zülmkar təbliğatın ziddinədir. Gənclər, ziyalılar və bizim bütün xalqımız Mehdinin (ə) zühuruna inamla bu güclü etiqadı öz qəlblərində yaradırlar ki, zalım dünya düzəni məhv olasıdır, əbədi deyil, onunla mübarizə aparmaq və qarşısında duruş gətirmək mümkündür.

Şəban ayının 15-i İmam Mehdinin (ə) doğum günü münasibəti ilə Tehran müsəllasında xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2002.

Mehdiyə (ə) etiqadın dərsləri: mənəvi paklıq və ayıqlıq

Mehdiyə (ə) etiqadın və 15 Şəban bayramının bizim üçün başqa bir dərsi budur: Həzrət Mehdiyə (ə) etiqad uca bir amal olsa və bunda heç bir şübhə olmasa da, onu yalnız amal kimi saxlamaq olmaz. Yəni onu yalnız ürəkdə, yaxud uzaqbaşı dildə bir arzu kimi və ya bayram formasında saxlamaq olmaz. Bu amalın ardınca əməl gəlməlidir. Barəsində danışılan intizar yalnız oturub ağlamaq deyil. İntizarın mənası odur ki, biz özümüzü dövrün imamına əsgər hazırlayaq. Dövrün imamının əsgəri olmaq asan iş deyil. Bütün beynəlxalq güc və fəsad mərkəzləri ilə mübarizə aparan böyük bir xilaskarın əsgəri olmaq üçün mənəvi paklıq, ayıqlıq və aydınlıq lazımdır. Bəzi adamlar bu etiqadı özlərini, yaxud digərlərini uyutmaq üçün vasitə edirlər. Bu yanlışdır. Dövrün imamı gəlib dünyanı ədalətlə dolduracaq deyə bizim uzərimizə heç bir vəzifənin düşmədiyini düşünməmiz yolverilməzdir. Əksinə, bu gün bizim vəzifəmiz həmin istiqamətdə hərəkət edib o həzrətin zühuruna hazır olmaqdır. Eşitmisiniz ki, keçmişdə imamı gözləyənlər həmişə silahlı olurdular. Bu, simvolik xarakter daşıyır. Yəni insan özünü elm, düşüncə və əməl baxımından hazırlamalı, fəaliyyət və mübarizəyə hazır olmalıdır.

Dövrün imamına etiqad kənara çəkilmək demək deyil. İnqilabdan öncəki azğın cərəyanlar bunu təbliğ edirdilər. İndi də bəzi yerlərdə təbliğat aparırlar ki, dövrün imamı gəlib vəziyyəti düzəldəcək, bu gün bizim hansısa hərəkətimizə lüzum yoxdur. Sanki qaranlıq bir gecədə çıraq yandırmır və deyirik ki, sabah günəş doğacaq, gündüz olacaq və bütün dünya işıqlanacaq. Sabahkı günəşin mənim və sizin indiki vəziyyətimizə dəxli yoxdur. Bu gün biz dünyanın hər bir nöqtəsində zülmün, ədalətsizliyin, ayrıseçkiliyin və hegemonluğun olduğunu görürüksə, bunlar dövrün imamının mübarizə aparacağı amillərdir. Əgər biz dövrün imamının əsgəriyiksə, özümüzü bu mübarizəyə hazırlamalıyıq.

Şəban ayının 15-i İmam Mehdinin (ə) doğum günü münasibəti ilə Tehran müsəllasında xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2002.

13 Aban - Amerikanın İslam hərəkatı ilə üz-üzə gəldiyi gün

İslam inqilabının qələbəsindən öncə bizim ölkəmiz bu bölgədə Amerika imperatorluğunun bir hissəsi sayılırdı və Amerikaya çox sadiq idi. Amerikanın siyasətləri İranda və bu ölkə vasitəsi ilə mümkün olan hər bir yerdə icra olunurdu. Milli sərvətlər təmənnasız olaraq Amerikanın ixtiyarına verilirdi. Ozamankı siyasi qüvvələr - hökumət, parlament və Ali Məhkəmə bütünlüklə amerikalıların iradəsinə tabe idi. Bizim qonşu ölkələrimizin əksəri belə idi. O zaman Amerikanın dünyadakı böyük rəqibi Sovet İttifaqı və o da bizimlə qonşu idi. Buna görə amerikalılar öz istismar pəncələrini bizim ölkəmizə daha qanlı və daha həyasızcasına batırmışdılar. Bu ölkədə vəziyyət belə idi.

Amerikanın istismarı altında olan ölkəmiz onun bütün soyğunçuluqlarına rəğmən, hətta bir addım da inkişafa doğru getmədi. Onda nə elmi inkişaf etdik, nə iqtisadi inkişaf, nə bir sənaye işi gördük. Tamamilə asılı, Amerikanın və digərlərinin məhsullarının istehlakçısı qaldıq. Yalnız sənaye məhsullarında yox, hətta əkinçilik, mədəni və digər məhsullarda da istehlakçı idik. İran kimi sərvətli bir bölgə Amerikanın mülkü, Amerika hökumətini idarə edən və etməkdə olan kompaniyaların əlində idi.

1962-ci ildə İslam hərəkatı başlayanda bu hərəkatın təhlükəsini hamıdan çox Amerikanın casus və kəşfiyyat şəbəkələri duydular. Buna görə 1964-cü ildə imamı İrandan sürgün etdilər. Düzdür, İran hökuməti sürgün etdi, amma işin arxasında amerikalılar dururdu. Onlar imamı bizim qonşu ölkəmizə apardılar və ora da Amerikaya bağlı hərbçilərin və hökumətlərin tabeliyində idi.

13 Abanın (4 noyabrın) birinci hadisəsi Amerika rejiminin İslam hərəkatı və İslam oyanışı ilə üz-üzə gəlməsindən ibarətdir. Onlar güman edirdilər ki, İslam müsəlmanların qəlbində dirçəlsə və əməllərində təcəssüm olunsa, bu yalnız İranla kifayətlənməyəcək və İslam dünyasını bürüyəcək. Necə ki, inqilabın qələbəsindən sonra Fələstində, Livanda və bir çox müsəlman və ərəb ölkələrində elə də oldu. Bir neçə ildən sonra

İranda İslam hərəkatı gücləndi. İnqilabın qələbəsindən öncə - 1978-ci ilin 13 abanında şagird qırğını törədildi. Yəni yenə də arxasında Amerikanın kəşfiyyat şəbəkələrinin durduğu rejimin qəddar siması aşkarlandı. Bu da İslam hərəkatı ilə qarşıdurma idi və təbii ki, heyvani qəddarlıqla. Həmin günlərdə Amerika prezidenti və Amerikanın media təmsilçiləri İranı ideal bir nöqtə, sabitlik və təhlükəsizlik adası adlandırır, onunla fəxr edir və indi daim təkrarladıqları insan hüquqları və bu kimi məsələlərə əsla toxunmurdular.

13 Aban hadisələrinin ildönümü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan: 2002.

İnqilabın qələbəsindən öncəki acı həqiqətlər

Hər bir xalq bu müharibədə öz məqsədlərinə və iradəsinə uyğun şəkildə iştirak edir. Siz bizim xalqımızı təsəvvür edin. Bizim xalqımız ən azı ötən əsrin əvvllərindən, yəni yüz il öncədən sərhədlərimiz xaricindəki güclərin iradə və istəyi ilə idarə olunmuşdur. Ondan öncə ayrı formada idi, amma təxminən 120 il öncədən bu ölkənin idarəsi və bütün təsirli qurumları xaricdə tərif olunan və əcnəbilərin maraqlarının nəzərə alındığı siyasətlərin təsiri altında olmuşdur. Onlar öz maraqlarından ötrü gəlib şahdan, nazirlərdən, deputatlardan və digərlərindən istifadə edirdilər. Bu, bizim cəmiyyətimizin inqilabın qələbəsindən öncəki həqiqətlərinin bir hissəsidir - yəni asılılıq hissəsi, əsas insani və maddi sərvətlərimizin əncəbilərin əlində olması.

Bizim cəmiyyətimizin inqilabın qələbəsindən öncəki həqiqətlərinin başqa bir hissəsinin daha qədim kökü var və bu, ölkəmizdə istibdad və zadəganlığın hakimiyyətidir. Uzun əsrlər bu mədəniyyətə, tarixə və istedada malik olan bu xalqa hakim olanlar məmləkəti özlərinki bilirdilər. Sanki bir mülkədarın tarlası, kəndi, yaxud mülkü var və bir qrup adam da orada işləyir və yaşayır. Onu düşündürən həmin insanlar yox, onun özüdür. Mülk onunkudur; gəliri və təbii ki, zəhmətləri də var. Həmin insanlar üçün də zəhmət çəkməlidir. Məsələn nə vaxtsa həkim çağırmalıdır, dindar olsalar, onlar üçün ruhani gətirməlidir, məscid tikməlidir, su çəkməlidir və sair. Hökumət başçılarının xalqla rabitəsi belə olmuşdur. Onlar xalqı heç vaxt ölkənin əsas sahibləri saymamışlar. Bu böyük mülkdə bütün xalqı öz nökərləri hesab edən Nasirəddin şah hökumət başında olmuşdur. O, Sədri-əzəmdən tutmuş nazirlərə, saray adamlarına qədər rəsmi nökərlərindən əlavə, bu mülkdə işləməli olan xalqı da qulu bilirdi; yəni özləri bir şey yeyirdilər və bu hökumətin maraqları da qorunurdu. Uzun əsrlər bütün ölkəyə hakim olan siyasət və zehniyyət belə olmuşdur və xalqın siyasətdə heç bir rolu olmamışdır.

Bu inqilab baş verib hər iki sahədə qəti və əsaslı işlər görmüşdür. İkinci sahədə aristokrat təbəqəsini, ölkənin hakim və sahiblərini

tamamilə məhv etmişdir. Bu gün bu ölkədə elə bir şəxs yoxdur ki, ölkənin sahibi olduğunu hətta ağlından belə keçirə bilsin. Bu ölkənin sahibi xalqdır. Hər hansı şəxsin hakimiyyətə və vəzifəyə gəlməsinin şərti budur ki, xalq onu istəsin, xalqla yaxşı münasibəti olsun, xalqın maraqlarına cavab versin, yaxud bunları zahirdə göstərsin. Yəni hamı xalqın bu ölkəyə sahib olmasını rəsmən tanımağa məcburdur. Bizim inqilabımız belədir.

Həmin ikinci sahədə inqilab ölkənin xarici qurumlara bütün rəsmi asılılıqlarına son qoydu. Əlbəttə, bilirik ki, iqtisadi, yaxud mədəni asılılıq bu asanlıqla bitəsi deyil. Amma asılılığın əsas görünən tərəfi siyasi asılılıqdır və İslam inqilabı beynəlxalq güc mərkəzlərinin sözünü eşitmək, onlara yaltaqlanmaq, onların maraqlarına riayət etmək işinə birdəfəlik son qoydu. Bu xalq amallarını, məqsədlərini, ideya və arzularını həyata keçirmək istəyir və bunun üçün heç bir qlobal gücü nəzərə almır. Məqsəd birinci növbədə ölkənin və xalqın böyük və uzunmüddətli amallarını reallaşdırmaqdır. Bu amallar din, azadlıq, rifah, təhlkəsizlik və bu kimi sözlərdə xülasə olunur.

Teleradio şirkətinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 2003.

Azğın Qacarlar, daha azğın Pəhləvilər

Pəhləvilər hakimiyyətə gələndən sonra Qacarları pisləməyə başladılar. Qacarlar çox pis idilər, amma Pəhləvilər qədər yox. Onlar da avtoritar, asılı və azğın idilər, amma Pəhləvilər daha pis idilər. Onların arasında da bacarıqlı və bacarıqsız vardı, bunların arasında da; yəni müqayisə etmək olmaz. Şübhəsiz ki, onların keçmişdə gördüyü işlərin çoxu bunların gördüyü işlərdən ya zamana nisbətən yaxşı, ya da eyni həddə idi. Lakin bunlar onları tamamilə gözdən salmaq və özlərini haqq göstərmək üçün uzun illər sərf etdilər.

Biz bacarıqsız, azğın, asılı, dinsiz, sui-istifadə edən, eqoist və digər çirkin xüsusiyyətlərə malik bir rejimi devirmişik, amma bunların nə etdiyini xalqa demirik. Onların bacarıqsızlığı bir kitabdır, asılılığı bir kitabdır, əxlaqi və cinsi fəsadları bir kitabdır, iqtisadi fəsadları bir kitabdır. Bunların hər biri böyük bir fəsildir. Bunlar gənc nəslə deyilməlidir ki, öz mənfi və qaranlıq cəhətlərini gizlətməyə, məchul və yanlış bir tarix yazıb gənclərimizin beyninə ötürməyə cürət etməsinlər.

Teleradio şirkətinin məsul işçiləri ilə görüşdəki çıxışdan: 2003.

29 Bəhmən - Təbrizin izzət və şərəf bayrağı

Əziz və sayıq Təbriz əhalisinin bu hərəkətinin – yəni 29 Bəhmənin xatirəsini uca tutmaq həqiqətən oyanışdan irəli gələn ayıq bir hərəkətdir. Dünyanın siyasi istismarçıları bütün səylərini inqilabın yadigarlarını, xalqın dini və milli qeyrətinin əlamətlərini öz təbliğat ajiotajları altında gizlədib unutdurmağa yönəltmişlər. Lakin ayıq-sayıq olanlar bu şeytan siyasətinin tam əksinə əməl edir, bu xalqın izzət və şərəf amillərini ucaldırlar. 29 Bəhmən belə bir gündür və siz öz hərəkətinizlə - uzun yol gəlib burada toplaşmanızla bu adı və xatirəni yaşadırsınız. Bu həqiqətən oyanışdır. Mən burada iştirak edən siz əzizlərə, bütün Təbriz və Azərbaycan əhalisinə deyirəm:

Azərbaycan! Oyaqsan! İnqilaba dayaqsan!

Bu oyanış çox dəyərlidir. 1978-ci ildə 29 Bəhmən hadisəsini yaradan oyanış idi. Qorxmaz Təbriz əhalisi və həqiqi mübarizlər Qum şəhidlərinə qırx mərasimi keçirib əslində iqnilabı hərəkətə gətirdilər. Bu əməl üçün sayıqlıq lazım idi. Tağut rejimi elə bilirdi ki, həmin ilin 19 deyində Qum əhalisinin qiyamını yatırtmaqla məsələ bitdi. Amma təbrizlilər buna imkan vermədilər, 29 bəhməndə Qum şəhidlərinin və o möhtəşəm hərəkətin qırx mərasimini keçirdilər və bəlli tufanı yaratdılar. Bu həm sayıqlıqdır, həm dini və milli qeyrətdir, həm də fədakarlıqdır. Bu xüsusiyyətlərin məcmusu Təbriz və Azərbaycan əhalisini ucaltmışdır. İnqilabdan öncə Məşrutə hadisələrində və ondan qabaqkı hadisələrdə də belə olmuşdur. Tənbəki qadağasında İngiltərə şirkətinə və İngiltərənin İrandakı iqtisadi istismarına qarşı mübarizədə əsas mərkəzlərdən biri Təbriz və onun böyük alimi mərhum Hacı Mirzə Cavad Müctəhid idi. Məgər bu keçmişi unutmaq olar?!

Şərqi Azərbaycan əhalisi ilə görüşdəki çıxışdan: 2003.

Pəhləvi rejiminin İran cəmiyyətini fəsada çəkməsi

İnqilabdan öncə ölkəmizin rəsmi təbliğatı xalqı pozğunluğa və əyyaşlığa sövq edirdi. Hətta insanların bir parça çörəyə möhtac olduğu yoxsul və məhrum bölgələrdə də əyyaşlıq imkanları yaradılırdı. Bu iş universitetlərdə, hərbi hissələrdə və gənclərin olduğu digər yerlərdə qəsdən, həm də gənc instinktinin təbii tələbi qədərincə yox, nəslin başını qatmaq və onu fəsada çəkmək üçün görülürdü. Bir nəslin gəncləri fəsada uğradıqda isə daha xalq yoxdur və müqavimət mövcud deyil.

Sistan və Bəlucistan gəncləri ilə görüşdəki çıxışdan: 2003.

Həmişəyaşar İslam oyanışı düşüncəsi

İslam inqilabı ölkə daxilində təkcə dəyişiklik yox, həm də bir mədəniyyət yaratdı. Bu mədəniyyət bütün İslam ölkələrində beyinlərə, xüsusən də gənclərin, ziyalıların və universitet mənsublarının beyinlərinə təsirini - bəzi ölkələrdə çox güclü, bəzilərində bir qədər zəif təsirini buraxdı. Siz İslam ölkələrinin gənc təbəqəsinin inqilaba, imama, İran xalqının dəyərlərinə və müqavimətinə sevgisi barədə mütləq eşitmisiniz. Əmin olun ki, eşitdikləriniz həqiqətdə mövcud olanlardan qat-qat azdır. Bu 21-22 ildə İslam təfəkkürü, İslam oyanışı və İslama qayıdış düşüncəsi tədricən zehinlərdə silinməz bir düşüncə kimi formalaşmışdır.

Şəhid Behişti universitetinin tələbələri ilə görüşdəki çıxışdan: 2003.

Möhtəşəm və ümumrespublika İslam oyanışı hərəkatı

Böyük İslam ümməti uzun əsrlər boyu problem və yayınmalara düçar olmuşdur. Biz özümüzü İslamdan uzaqlaşdırıb, İslamın çəkindirdiyi işlərlə məşğul olduq, bu uzun tarixdə daxili müharibələrə getdik, tağut qüvvələri vasitəsi ilə başımız qatıldı. Nəticə bu oldu ki, İslamın ilk əsrlərindən sonra uzun əsrlər boyu böyük İslam ümməti özünü İslam Peyğəmbərinin (s) və əziz İslamın nəzərdə tutduğu məqsədə çatdıra bilmədi. Allah-Taala İslam ölkələrində çoxlu maddi sərvətlər yerləşdirsə və bu bizim inkişafımıza səbəb ola bilsə də, elm, sənaye və bir çox inkişaf göstəricilərində dünyanın geriqalmış yerlərindən olduq. İslam bizim üçün bunu nəzərdə tutmamışdı. Bu, biz müsəlmanların pis əməlinin, rəftarının və qafilliyinin nəticəsi idi: "(Ey insan!) Sənə üz verən hər bir pislik özündəndir".[1] Qafillik səbəbindən tarix boyu özünü bu vəziyyətə salan biz olduq.

Bu gün İslam dünyasında vəziyyət dəyişmişdir. Bu gün bütün İslam dünyasında İslam oyanışı hiss olunur, İslam dünyasının hər bir yerində müxtəlif mərhələlərdə olan əzəmətli hərəkatlar müşahidə olunur, başucalığı, inkişaf və tərəqqi amili olan İslam təməllərinə və prinsiplərinə qayıdış istəyi görünür. İslam dünyasının ziyalıları, alimləri və siyasi xadimləri bu hərəkatı gücləndirməlidirlər. İslam dünyasında kimlərinsə gənclər arasındakı İslam oyanışı hərəkatının hökumətlərin zərərinə olduğunu güman etməsi səhvdir. Xeyr! Müsəlman hökumətləri İslam oyanışı sayəsində hegemon qüvvələrin onlardan aldığı başucalığını özlərinə qaytara bilərlər. Bir nümunə bizim ölkəmiz, inqilabımız və imamımızdır. Biz uzun əsrlər istibdada və tam iki əsr əcnəbilərin hömkranlığına məruz qaldıqdan sonra özümüzə gəldik. Böyük İmam başucalığını bizim xalqımıza qaytara bildi. İngilislər, ruslar və amerikalılar növbə ilə bu ölkəyə ağalıq və həqiqi hökmranlıq etdilər. Zahirən hökumətin başında durmasalar da, ölkənin hər bir işi onların

[1] Nisa/79.

əlində idi. Bizim xalqımız öz hüququndan, sərvətlərindən, izzətindən və dininin həqiqi dadından məhrum olmuşdu.

Bizim Böyük imamımız İslama qayıdışla, İslama sarılmaqla ölkəmizdə istibdad və müstəmləkənin uzunmüddətli hökmranlığına son qoyub bizə başucalığı bəxş edə bildi. O bizim xalqımıza İslam kimliyi hissini qaytardı. Hiss etdilər ki, öz ayaqları üstə dura bilirlər, özləri qərar verə, seçə bilirlər, taleyüklü məsələlərdə özləri "hə", yaxud "yox" deyə bilirlər. Bizim xalqımız əsrlər uzunu belə bir şey görməmişdi. Bunu İslam onlara verdi. Dünyanın hər hansı bir nöqtəsində İslam oyanışı hərəkatı güclənsə və möhkəmlənsə, o ölkənin xalqı və gəncləri İslama sarı yaxınlaşdıqlarını duysalar, kimliyin və başucalığının uyğun yenilənməsi baş verəcək.

17 Rəbiüləvvəl Peyğəmbərin (s) mövlud bayramı münasibəti ilə quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2003.

Mübarizənin məşəqqətləri

Mübarizə dövründə sizin bir çoxunuz meydanda idiniz, hamı deyirdi ki, nə üçün əbəs yerə vuruşur və faydasız mübarizə aparırsınız. Həqiqətən də tağut rejiminin polisi elə bir qüvvə deyildi ki, onunla asanlıqla mübarizə aparmaq mümkün olsun. Bu iddiaçıların, marksist və ziyalı baxışı, iddiası və sözü olan şəxslərin çoxu o zindanları görəndə, hətta bir çoxu verilən işgəncələri görməyib, yalnız eşidəndə yarıyoldan qayıtdılar, təslim oldular, çoxları da yollarına davam etdilər, hərəkət edib gəldilər. Hərəkətlərinin ilk faydası kimi, Allah-Taala onların səmimiliyini xalqa aşkarlardı, yollarının düzgün olduğunu göstərdi və xalq onlara dəstək verdi. Xalq dəstək verəndə isə hər şey düzəlir. Əsas odur ki, mübariz və qərarlı qrup öz səmimiliyini sübuta yetirsin və sədaqətlə bu işə girişdiyini göstərsin. O zaman Allah-Taala yardımını göndərəcək. İmam Əli (ə) Nəhcül-bəlağədə buyurur ki, Allah bizim səmimiliyimizi, doğru danışdığımızı, dünya, pul və nəfs ardınca getmədiyimizi görəndə bizi qalib, düşmənlərimizi isə məğlub etdi.[1] Bizim mübarizəmizdə də belə oldu. Bu 23-24 ildə də belə olmuşdur. Ölkə və hökumət həmişə təzyiq altında olmuşdur.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2003.

[1] Nəhcül-bəlağə, xütbə: 56.

Din və siyasətin əlaqəsinə dair yüzəlliillik fəryad

Yüz əlli ildir bizim xalqımızın ən dəyərli və ən şərafətli siyasi və dini şəxsiyyətləri İslam hakimiyyəti bayrağını ucaltmış, bunun yolunda fədakarlıq etmiş və canlarını vermişlər; məsələn müdərrislər, axundxorasanilər, seyidcamallar və sair. Bu yalnız bu günə aid məsələ deyil ki, din və siyasətin bir olduğunu deyək; bəziləri təsdiq etsinlər, bəziləri də desinlər ki, xeyr, əsl belə deyil. Bu günün sözü deyil, bu sözün yüzəlliillik kökü var. Bu ölkənin ən dəyərli şəxsiyyətləri bu düşüncə uğrunda məşəqqətlər çəkmiş, minlərlə pak insan şəhid olmuş, Müdərris kimi bir şəxsiyyət sinəsini sipər etmişdir. Ümumiyyətlə İran məşrutəsi bundan ötrü yarandı, sonradan isə yolundan çıxdı. Bəziləri pis və naşı rəftar etdilər, bəziləri də xarici güclərə söykənib onu xalqın əlindən qapdılar. Böyük İmam gələndə də əvvəldən bunun əsasında hərəkət etdi, İran xalqı da bunu istədi və istəyir. Mən sizə deyirəm ki, bu gün ətrafımızda olan ən laik dövlətlərin xalqları da belədir. Mən bu ölkələrin adlarını çəkmirəm, özünüz bilirsiniz. Yəni əgər şərait yaransa, imam kimi bir insan və ozamankı şərait kimi bir şərait meydana çıxsa, hökumətlərinin laiklikdən dəm vurduğu, sekulyar təfəkkür əleyhinə azca danışan, yaxud hərəkət edən hər bir kəsin başına oyun açılan bu ölkələrdə xalqlar həmin bayrağın ətrafına toplaşarlar. İslam budur, bu düzgün və xalqların xeyrinədir. Xalqlar bunu bilirlər. Əgər bu gün bu məmləkətdə İslam hökmləri icra olunsa, yəni mən və siz onları icra etmək səadətinə nəsib olsaq, bütün bu düyünlər və problemlər həll olunar. Biz nə qədər geri qalmışıqsa, bu sahələrdə ya səhlənkarlıq etdiyimizə, ya da mümkün olmadığına görə geri qalmışıq. Bu fəryad yüz əlli illdir müsəlmanların arasında ucalır. Məgər ondan dönmək olar?! Minlərlə pak insanın canının məhsulu olan bu yüzəlliillik səyin timsalı nədir? Bu yolda canından keçib şəhid olanlar adi insanlar deyildilər, mübarizlər, fədakarlaq, şərəfli, rəşadətli və qorxmaz insanlar idilər. Hər halda, bu yüzəlliillik səyin timsalı İslam Şurası Məclisi, İslam

Respublikası hökuməti və İslam quruluşudur. Bütün bu səylərin məhsulu bunlardır.

İslam Şurası Məclisinin deputatları ilə görüşdəki çıxışdan: 2003.

Dözüm və yəqin - haqq yolunu göstərənlərin iki xüsusiyyəti

Söhbətimi bizim böyük imamımızın real nümunəsi olduğu bir Quran ayəsi ilə başlamaq istəyirəm. Allah-Taala mübarək Səcdə surəsində mübariz, çalışqan və mömin xalqlar, tayfalar və insanlar haqda danışarkən buyurur: "(Çətinliklərə) dözdükləri və ayələrimizə ürəkdən inandıqları üçün Biz onlardan əmrimizlə (insanlara) haqq yolu göstərən rəhbərlər təyin etdik"[1]. Özlərində iki xüsusiyyəti yaradanlar Allah-Taala tərəfindən insanlara rəhbərlik tapşırığının verilməsindən ibarət olan böyük səadətə nail oldular. Həmin iki xüsusiyyətin biri dözüm, digəri isə yəqindir: "(Çətinliklərə) dözdükləri və ayələrimizə ürəkdən inandıqları üçün". Yəqin aydın və ayıq imandır; vəsvəsələr onu zəiflədə bilmir. Dözüm böyük bir insana ayıq şəkildə və aydın baxışla seçdiyi amallar yolunda problemlərlə üzləşərkən özünü və yolunu itirməmək, məqsədi unutmamaq və yoldan dönməmək imkanı verən xüsusiyyətdir. Bütün peyğəmbərlər, haqq yolunu göstərənlər, bəşər tarixində həmişəyaşar və təqdirəlayiq təsir buraxan bütün şəxslər bu iki xüsusiyyətə malik olmuşlar. Bizim xalqımız və İslam ümməti arasında İslamı yenidən yaşadan mərhum imamımız da bu iki xüsusiyyətə malik idi.

Bu gün 15 Xordad (5 iyun) hadisəsindən qırx il ötür. Siz görürsünüz ki, imamın məzlum hərəkatı bütün İslam dünyasına yayılmışdır. Bir zaman bu Tehran şəhərində və Qumda bugünkü və sabahkı günlərdə insanlar məzlumcasına can verirdilər. Çünki onlar Böyük İmamı eşidib İslam şüarı ucaldır, bu ölkədəki əcnəbi istismarına, əcnəbilərin vasitəsi ilə bu ölkənin həyati sərvətlərinin talan edilməsinə qarşı çıxırdılar. O zaman kim bu səhnəyə baxsaydı, bəlkə də bu sözün və bu fəryadın sona çatdığını düşünərdi. İmamı çox qəddarlıqla tutub evindən apardılar, xalqı çox vəhşiliklə yatırtdılar, amma bu düşüncə Allahın həmin böyük qaydasından - yəni dözüm və yəqinin

[1] Səcdə/24.

birləşməsindən ilham alıb yoluna davam etdi. İmam on beş il mübarizə apardı və həmin ayıq iman sayəsində İran xalqını bütünlüklə daxili istibdad və beynəlxalq hegemonluqla qarşıdurma səhnəsinə çəkə bildi. Bir qarşıdurmada xalq meydana çıxsa, qələbə qətidir.

Bizim böyük imamımızın son bir-iki əsrin digər İslam islahatçıları ilə fərqi bu idi. İmam meydanda, xalqın arasında idi, xalqla danışdı, öz proqramlarını xalqa izah etdi və onlara öz imanı kimi aydın və ayıq iman bəxş etdi. Bundan sonra isə xalqın imanı, həvəsi və İslam təlimələri qarşıdurmanı haqqın və həqiqətin xeyrinə bitirdi. Digərləri bu çətin mərhələni adlaya bilmədilər, imam isə bunu bacardı. İran xalqı bu proqramlara inandı, iman gətirdi və onun yolunda mübarizəyə başladı. Nəticədə əvvəla bütün əngəllərə və düşmənliklərə rəğmən, İslam quruluşu qələbə çaldı və günbəgün gücləndi. İkincisi isə İslamın yenidən həyata qayıtması, canlanması, İslam ümmətinin hegemon güclərin zülm və hegemonluğundan qurtuluşu düşüncəsi bu ölkənin sərhədləri daxilində qalmadı.

Siz bu gün İslam dünyasının şərqində və qərbində olan hər hansı müsəlman ölkəsinə - istər Orta Şərqə, istər ərəb ölkələrinə, istər Şimali Afrikaya, istər Şərqi Asiya ölkələrinə və istər müsəlmanların kompakt yaşadığı digər bölgələrə getsəniz, müsəlmanlıq hissinin, İslam hakimiyyətinə rəğbətin, istismarçıların, müstəmləkəçilərin və zalımların hökmranlığına nifrətin xalq, xüsusən də gənclər, yeniyetmələr, elita və ziyalılar arasında güclü olduğunu görəcəksiniz. İslam dünyasında belə şeylər yox idi. İmamın prinsipləri nə idi ki, bu böyük nailiyyəti əldə edə bildi?

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışdan: 2003.

İslam və xalq - imamın əsas prinsipləri

Bizim böyük imamımızın bütün proqram və prinsipləri iki şeydə xülasə olurdu: İslam və xalqda. Bizim imamımız xalqa inamı da İslamdan götürmüşdü. Xalqların haqqı, xalqların iradəsinin əhəmiyyəti, onların cihad və mübarizəsinin təsiri üzərində təkid göstərən İslamdır. Buna görə Böyük İmam İslamı və xalqı mərkəz seçdi: İslamın və xalqın əzəməti; İslamın və xalqın qüdrəti; İslamın və xalqın məğlubedilməzliyi.

Bizim böyük imamımızın İslam dünyası səviyyəsində gördüyü ən mühüm iş İslamın siyasi və ictimai yönlərini dirçəltməkdən ibarətdir. İslam ölkələrinə daxil olan gündən müstəmləkəçi və istismarçıların bütün səyləri İslamın siyasi və ictimai yönlərini, ədalətsevərliyi, azadlıqsevərliyi və istiqlalsevərliyi İslamdan çıxarmağa yönəlmişdi. İstismarçılar İslam ölkələrinin xalqlarını və sərvətlərini daha çox istismar etmək üçün İslamın siyasi cəhətlərini ondan ayırmaqdan və İslamı müxtəlif hadisələr, işğalçı, zalım və güclü düşmən qarşısında təslimçi kimi izah etməkdən başqa çıxış yolu görmədilər. İmam İslamın unudulmuş həqiqətlərini dirçəltdi, azadlıqsevərliyini ucaltdı, ayrıseçkiliyə, təbəqələrarası fərqlərə və zadəganlığa müxalif olduğunu aşkara çıxardı. Böyük İmam ömrünün son günlərinə qədər məzlum, məhrum və yoxsul təbəqələrə xüsusi diqqət yetirdi. İslam quruluşu yarananda və İslam quruluşunun rəhbəri vəzifəsində çalışdığı səmərəli on il boyu məmurlara və hamıya tapşırdı ki, zəif təbəqələrə qayğı göstərin, siz bu ölkənin yoxsul təbəqəsinə borclusunuz. Mənim əzizlərim! Böyük İran xalqı! Biz harada və hansı işdə imamın bu tövsiyəsinə diqqət yetirdiksə, proqramlarda, qanunlarda, icra işlərində, vəzifəyə təyin etmələrdə bu nəsihətə əməl etdiksə, işlərimiz uğurlu oldu.

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışdan: 2003.

Əsl Məhəmməd (s) İslamı

İslam xalqın xoşbəxtliyini məqsəd seçir, fəsada, zülmə və ayrıseçkiliyə qarşı çıxır. İslam xalqın mənəviyyatının kənarında onun rifahı üçün də çalışır. İmam mübarizələrin başlandığı zamandan İslam quruluşu yaranana və ömrünün sonuna qədər bunu dəfələrlə bəyan etdi. Bizim əzəmətli imamımız İslam dünyasına göstərdi ki, İslam fiqhi - yəni xalqın idarəsinə dair qanunlar İslam fəlsəfəsinin - yəni aydın, dərin və əsaslı təfəkkürün və İslam irfanının - yəni zahidliyin, Allaha bağlanmağın və nəfsdən uzaqlaşmağın kənarında necə böyük möcüzə edə bilər. İmam əməldə siyasi İslamın elə mənəvi İslam olduğunu göstərdi. Müstəmləkə dövründə İslam düşmənləri və müsəlman xalqların oyanışını istəməyənlər mənəvi və əxlaqi İslamın siyasi İslamdan ayrı olduğunu təbliğ edirdilər. Bu gün də bu təbliğatı aparırlar. Bu gün də İslam quruluşunun düşmən cəbhəsinin informasiya şəbəkələri müxtəlif üsullarla siyasi, ictimai və ədalətsevər İslamı dünyaya kobud tanıtdırmağa, xalqı təcrid olunmuş və təslimçi İslama, təcavüzkar, zalım və hegemon qarşısında heç bir reaksiya verməyən İslama sövq etməyə çalışırlar. İmam İslam haqda bu yalançı təsəvvürü rədd edib əsl İslamı ortaya qoydu. İmamın ortaya qoyduğu əsl İslam qapalı və xurafatçı İslama, həmçinin əcnəbi və eklektik məktəblər qarşısında rəngini itirmiş İslama zidd idi. Siyasəti mənəviyyatdan ayırmaq həm o zaman, həm İslam quruluşu uğrunda mübarizə illərində, həm də ondan sonra bu günə qədər İslama düşmən cəbhənin təkidlə dayandığı məsələlərdən biridir. Yəni kimsə müsəlman olmaq istəyirsə, başını tutub bir küncdə oturmalı, düşmənin, təcavüzkarın və işğalçının nə etdiyinə fikir verməməlidir. Bu gün də bunu təbliğ edirlər. İmam İslam dünyasında bunun əksini ortaya qoydu və bu gün İslam dünyası öz daxilində bu möhtəşəm dalğaya malikdir. Siz müsəlman ölkələrin hansına getsəniz, orada elitaların, gənclərin, universitet mənsublarının alimlərin və azadlıqsevər insanların nəzərində canlı İslamın xalqı dünya hegemonları, quldurları və təcavüzkarları qarşısında qoruyub himayə

edən, ona toxunulmazlıq verən, düşmənə müdaxilə, hökmranlıq və istismar icazəsi verməyən İslam olduğunu görərsiniz. Onlar bu İslamı istəyirlər və əsl Məhəmməd (s) İslamı budur.

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışdan: 2003.

Demokratiyanın dindarlıqla uyğunluğunun isbatı

İmamın xalq barədə gördüyü ən mühüm işi demokratiya məfhumunu Qərbin demokratiya nəzəriyyəçilərinin və onların əməli tərəfdarlarının istədiyindən tamamilə uzaqlaşdırmasıdır. Onlar təlqin edirdilər ki, demokratiya dindarlıqla uyğun gəlmir. İmam bu batil məfhumu rədd edib dünyada dini demokratiyanı, yəni İslam Respublikasını ortaya qoydu. O, sözlə kifayətlənmədi və yalnız elmi dəlil göstərmədi, bunu əməldə göstərdi.

İran İslam Respublikasının banisi həzrət İmam Xomeyninin vəfatının on dördüncü ildönümü tədbirində çıxışdan: 2003.

Vəramin əhalisinin fədakarlığı

Allaha şükür edirəm ki, bu gün bu pak torpağı və siz əziz xalqı ziyarət etmək səadətini mənə nəsib etdi. Xordad ayının çox möhtəşəm xatirəsinə görə görüşün bu ayda baş tutmasını istəyirdim. Vəraminin xordadı unudulmaz zamandır. Bu bölgənin dəyəri Vəramin, Pişva, Qərçək, Cavanabad və Pakdəşt şəhərlərinin bütün əziz əhalisinin iman və iradəsindən yaranmışdır. Həqiqət də budur. İmam Musa ibn Cəfərin (ə) böyük övladı olan həzrət Cəfər ibn Musanın (ə) düşmən və müxaliflər tərəfindən təzyiqlərlə üzləşdikdən sonra Vəramin əhalisinə sığındığı, bu əhalinin bu uca məqamlı imamzadəni şirin can kimi qəbul etdiyi və onun aldığı yaralar səbəbindən burada şəhadətə qovuşduğu gündən bu xalqın uca İslam dəyərlərinə sadiqliyi sübuta yetdi; xüsusən də iradə və mübarizəyə ehtiyacı olan məsələlərdə. Vəramin əhalisi 1963-cü ilin xordad ayının 15-də (5 iyunda) həqiqət yolunda, haqqı və İslamı müdafiə etmək üçün hətta canları bahasına olsa belə, sona qədər dayandıqlarını göstərdilər. Vəraminlilər həzrət Cəfər ibn Musanın (ə) pak məqbərəsində and içib Tehrana yola düşdülər və yarıyolda qaniçən Pəhləvi rejiminin qəddarlığı ilə üzləşdilər, Baqirabad və Qərçək bölgələrində pak qanları töküldü, məzlumcasına can verdilər. O zaman heç kim güman etmirdi ki, gün gələcək bu məzlum və tanınmaz şəhidlər yalnız Vəraminin yox, bütün müsəlman İranın səmasında parlaq ulduz kimi işıq saçacaqlar. Onlar məzlumcasına can verdilər, Allah da onların məzlumluqlarına və qürbətlərinə bərəkət verdi. Onların fədakarlığı digər fədakarlıqlara səbəb oldu və haqq hərəkəti hər gün daha gücləndi.

Vəramin əhalisi ilə görüşdəki çıxışdan: 2003.

Xalqın iradə və əzmkarlığının inanılmaz və ideal şəkildə reallaşması

Əziz gənclər! Burada əksəriyyəti təşkil edən əziz övladlarım! Bilin ki, sizin İranınızda İslam quruluşu yaratmaq bir zaman hətta yuxu, xəyal və röya da sayılmırdı, heç kimin təsəvvürünə gəlmirdi. Yalnız burada yox, İslam dünyasının heç bir yerində kimsə inanmazdı ki, İslam ümmətinin yolu üzərinə tökülən böyük daş-qayalar arasında bir xalq İslam adı altında baş qaldırıb inkişaf edə, İslam bayrağını ucalda, dünyanı İslam ədalətinə və azadlığına dəvət edə bilər. Bunu kim düşünərdi?! Amma bu baş verdi və həm də təsadüfi olmadı. Bu xalq öz iradə və əzmkarlığı ilə Allah-Taalanın tarixi hadisələr üçün müəyyən etdiyi səbəbləri biri o birindən sonra yaratdı və nəticə hasil oldu.

O zaman çoxları xalqı və mübarizləri məyus edib deyirdilər ki, faydası yoxdur. Zahiri gedişat da onların sözünü təsdiqləyirdi. Baqirabad körpüsü üzərində bir qrup kəndli və şəhərli mömin gəncin qanı töküldü; nə dünyanın hüquq təşkilatları xəbərdar oldular, nə azadlıq müdafiəçisi olduqlarını iddia edənlər Pəhləvi rejiminə qaş çatdılar. Həmin gün Tehranda və Qumda bir neçə min gənc Pəhləvi muzdurlarının silahları ilə asfalt üzərində qana bələşdilər, insan hüquqlarının həmin yalançı və həyasız iddiaçıları isə dünyada Pəhləvi rejiminə ən az etiraz belə etmədilər. Kim inanardı ki, bu məzlum şəhadətlər bir gün belə çiçəklənsin və inkişaf etsin. Zahiri vəziyyət də məyus edənlərin sözlərini təsdiqləyirdi. Lakin müqavimət, iradə və səy bu imkansız işi mümkün etdi. Bu gün də belədir. Bu gün də dünyanın bütün təbliğat mikrofonları işə düşmüşdür. Onlar həm İran xalqına, həm də digər müsəlman xalqlara zorla qəbul etdirmək istəyirlər ki, faydası yoxdur, İslam oyanışının nəticəsi olmayacaq, İranda yaranan bu İslam quruluşu yarıyolda qalacaq. Onlar indiyədək əllərindən gələn hər bir işi görmüşlər və görəcəklər, lakin Allahın lütfü ilə nəhayət burunları ovulacaq və məqsədlərinə çatmayacaqlar.

Vəramin əhalisi ilə görüşdəki çıxışdan: 2003.

Müstəmləkəçilərin İslam quruluşu təfəkkürü ilə mübarizəsi

İslam adı və İslam həqiqəti İslam dünyasında fərdi formada vardı, bəzi yerlərdə güclü, bəzi yerlərdə isə zəif idi. Amma İslamın dünyaya, xalqa və İslam ümmətinə böyük istedada malik, hərəkətə və oyanışa qadir olan əzəmətli bir varlıq kimi baxışı müsəlman İranda kök saldı, meydana çıxdı və bütün dünyanı işıqlandırdı. İslama bu baxışla yanaşmaq, azadlığı, demokratiyanı və xalqın iradəsinə söykənən bir hakimiyyəti İslam təlimlərindən çıxaran və hökumət quran bu təfəkkürün İslam dünyasında təbliği bizim dövrümüzdə və bizdən öncəki əsrlərdə İslam dünyasının heç bir yerində görünməmişdi. Xalqın Osmanlı xəlifələri və ondan öncəki Abbasi və Əməvi xəlifələri dövrünün İslam hökümətinə dair təsəvvürü bu gün İslam dünyasının müsəlman İrana baxarkən dərk etdiyi hökumət məfhumu ilə tamamilə fərqlidir. Özü İslam quruluşunun qaynağı olmuş və həm də İslam quruluşundan irəli gələn bu dini mədəniyyət, İslam vəhdətinə doğru hərəkət, həmçinin İslam dünyasında və müsəlman cəmiyyətlərdə irqi və milli ixtilaflardan çəkinmək İslam inqilabının mesajlarıdır. Bu təfəkkürdə mövcud olan amillərdən biri İslam ümmətinin birliyi, yəni İslamın ümmətə vahid bir toplum kimi baxışıdır. Bunları diqqətdən qaçırmaq və yaddan çıxarmaq olmaz.

İslam inqilabı azadlıq, demokratiya və ədalətsevətlik şüarı verdi, İslamı dünyaya bu baxış, şüar və fikirlərlə tanıtdırdı. Biz bu məsələlərə diqqət yetirməliyik. Bu gün də dünyada müxtəlif səviyyələrdə İslam quruluşunun İslamdan qaynaqlanan təfəkkürlər məcmusuna qarşı mübarizə aparılır. Din hakimiyyəti, dinin xalqın həyatını idarə etməsi və demokratiyanın dinlə uyğunluğu ilə həm nəzəri, həm də əməli müstəvidə mübarizə aparılır. Həmçinin İslam ümmətinin birliyi ilə də kəskin mübarizə aparılır. Bu, müstəmləkəçilərin qədim təcrübələrindəndir.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: 2003.

Müsəlmanların söz birliyindən ötrü mübarizə

İslam quruluşunun qaynağı olan əsl İslamın şüarı budur ki, müsəlmanlar öz dini etiqad və əsaslarındakı fərqlərinə rəğmən, söz birliyinə malik olmalı, müştərək cəhətlər üzərində dayanmalı və bir-birinin heysiyyətinə toxunan məsələlərdən çəkinməlidirlər. Daxilində azadlığın, ədalətin, demokratiyanın, İslam dünyasında və İslam ümməti arasında vəhdətin mövcud olduğu bu dini mədəniyyət bizim mübarizə sahələrimizdən biridir. Biz bundan ötrü çalışmalıyıq.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: 2003.

Hegemonların həqiqi İslamdan qorxması

Bu parlaq istedad, bu zəngin məmləkət, bu həssas coğrafi mövqe, bizim mədəniyyətimizin və fəxrlərimizin dayağı olan bu möhtəşəm tarix və ən üstünü, bu gün gənclərimizin qəlbində parlayan və dünyanın diqqətini özünə yönəldən iman nuru bizim gənc və yeniyetmə nəslimizə gələcək üçün müjdələrdir. Siz həmin gələcəyi daha yaxşı qurmağa çalışmalısınız. Bu gənc, bu mövqe və bu tarixi keçmiş bizdə inqilabdan öncə də vardı, amma bu nailiyyət və inkişaf yox idi. Nə üçün? Çünki o zaman bu ölkəyə, onun bütün fəal mərkəzlərinə hakim olan siyasi sistem əvvəla dindən, imandan və dəyərlərdən çox uzaq idi, heç bir dəyəri olmayan bir qrup səviyyəsiz insan xalqa hakim olmuşdu; ikincisi, bu amillər onların özlərinin düşmənlərdən asılı olmasına səbəb olmuşdu. Bizim əziz İranımız oğru və soyğunçuların cənnəti idi. Nə üçün? Çünki kəndxudanı görüb kəndi çapırdılar; rejimin məmurlarını da öz soyğunçuluqlarına şərik edib xalqı talayırdılar. İnqilab gəlib əcnəbilərin xain nüfuzu, həmçinin azğın insanların qeyri-qanuni və qeyri-məntiqi istismarı qarşısında ən böyük maneənin yaratdı. O maneə İslam idi. İslam öz mövqeyində durduğu təqdirdə beynəlxalq hegemonluğun təbliğatçıları İslamdan çox qorxurlar. Bəli, əgər İslam siyasətdən, həyatdan və ictimai mühitdən uzaqlaşıb ibadət ocaqlarının və məscidlərin bir küncünə məxsus olsa, ondan qorxmazlar. Əgər bir qrup adam xəlvətdə ibadətlə məşğul olsa, cəmiyyətin, ölkənin idarəsi, işləri müxtəlif düşüncə, həvəs və məktəblərin əlində olsa, onlar İslamdan qorxmaz və ona əhəmiyyət verməzlər. Lakin İslam Allahın istədiyi və Quranın təyin etdiyi kimi həyat proqramı sayılsa və qəbul olunsa, ondan qorxarlar. Nə üçün? Çünki bu İslam birinci növbədə öz daxilində iki böyük elementi daşıyır. Bunların biri insan şəxsiyyətinə hörmətdən və insanın inkişafına diqqətdən, ikincisi isə soyğunçuların, tağutların, haqsız, zalım və qlobal güclərin nüfuzunun qarşısını almaqdan ibarətdir. Bunlar tövhid sözündə vardır: “Allahdan başqa heç

bir tanrı yoxdur”[1]. Bu sözün dəyərli və mühüm bir hissəsi tağutlarla, beynəlxalq azğınlarla, bu gün dünyada necə at oynatdıqlarını və xalqlara nələr etdiklərini gördüyünüz zalımlarla və qlobal güclərlə razılaşmamaqdan ibarətdir. Tövhid müsəlmanın Fələstinlə, İraqla və Əfqanıstanla bəlli rəftarı edən, ondan öncə Bosniya, Livan və digər müsəlman ölkələri və dünyanın digər bölgələri ilə ayrı cür rəftar edən cilovsuz güclər qarşısında əyilməsinə icazə vermir. Bəzi zəif xalqların əyilməsi həmin qaniçənləri belə gücləndirmişdir. Əgər xalqlar öz hüquqlarını bilsələr, qlobal hegemonların boyunduruğu altına girmək istəməsələr və bu beynəlxalq riyakarların yalançı şüarlarını qəbul etməsələr, bunlar belə güclənməzlər.

Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdəki çıxışdan: 2003.

[1] Saffat/35.

Gəncin həvəskarlığı və yüksək ruhiyyəsi

Sözümün əvvəlində siz gənclərə deyim ki, ölkənin müxtəlif sahələrində sizin fəaliyyətiniz Allahın bu xalqa bəxş etdiyi böyük nemətlərdən biridir. Mən hər zaman siz gənclərin toplantısında və buna bənzər toplantılarda iştirak etdikdə Hafizin bu beytini xatırlayıram:

Səba yelinin nəfəsi müşk ətri səpəcək,

Qoca aləm yenidən gəncləşəcək.

Bu vəd İran xalqı üçün böyük həddə həyata keçmişdir. Qoca aləmin cavanlaşmasının amillərindən biri sayılan siz gənclər gənclik həvəsini, ümidini və fəallığını bu xalqda daha da artırmağa çalışacaqsınız.

Gənc olmaq bir mərhələdə əhalinin gənc olmasına aiddir. Gənc bir ölkə öz gəncliyinin bir hissəsi üçün ölkədə mövcud olan gənclərinin çoxluğuna borcludur. Biz bu baxımdan gənc ölkəyik. Digər hissə yeni hərəkətə başlamaq üçün xalqın arzularının yeniləşməsinə, iradələrinin canlanmasına, damarlarına ümid ruhunun köçürülməsinə aiddir. Bu da bizim ölkəmizdə inqilabın sayəsində yarandı.

Bu gün beynəlxalq hegemonluq şəbəkəsinə bağlı olanlar bizim xalqımızın gənclik simasını, həvəsini və ruhiyyəsini almağa çalışırlar, lakin bacarmırlar. Mən yaxşı hiss edirəm ki, bizim ölkəmizdə gənclik ruhiyyəsi, iradəsi, həvəsi və qanı mövcuddur. Bu nə şah rejiminin ağır və rəzil sayəsi altında mümkün idi, nə də düşmənlərdən asılılığın xaredici sayəsi altında. Əldə edilən İran xalqının azadlığının məhsuludur.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

Pəhləvi dövrünün xüsusiyyəti: diktatorluq və asılılıq

Bizim xalqımız və ölkəmiz bir-birinin ardınca gəlib-gedən diktator rejimlərin və şah sülalələrinin uzun dövründən sonra elə bir halda yeni mərhələyə daxil oldu ki, bir tərəfdən diktatura dövrü bitməmişdi, digər tərəfdən isə asılılıq dövrü başlanmışdı. Əgər ölkənizin tarixinin inqilabdan qabaqkı son hissəsinə baxsanız, inqilabın gətirdiyi bu tarixi dönüş ərəfəsində bizim hansı vəziyyətdə olduğumuzu görərsiniz. O zaman indiki mövqeyimizi düzgün dərk edə bilərik. O dönəmdə bu ölkədə avtoritorizm və diktatura dövrü asılılıq dövrü ilə əvəzləndi. Sözsüz ki, ölkənin asılılığı birdən-birə yaranmadı. Qacarlar dövrünün sonlarından etibarən bir-birinin ardınca xaricilərə İran xalqının zərərinə olan imtiyazlar verməklə tədricən dünyanın və əcnəbi dövlətlərin iqtisadiyyatına və siyasətinə asılılıq başlandı. Sonra diktatura dövrü Məşrutə hərəkatı və digər məsələlərə görə zəifləyəndə birdən-birə Pəhləvi hökumətində bədbəxt və rüsvayçı asılılıq bayrağı ucaldı - yəni qeyri-müstəqil siyasətlərin, əmr altındakı müqavilələrin, xarici fərmanlara qulaq asan, onların tərəfindən təyin olunmuş hakimlərin və siyasilərin hakimiyyəti. Əlbəttə, onda da diktatorluq vardı və günbəgün daha təhlükəli, daha modern və daha çətin olurdu. İnqilab belə bir şəraitdə qələbə çaldı; yəni İran xalqı eyni zamanda həm uzun əsrlər bu ölkəyə hakim olan diktatorlar və eqoist hakimlər əleyhinə əzəmətli hərəkətə başladı, həm də asılılıq, mütilik və xarici qüvvələrə tabe olmaq əleyhinə. İnqilab bizim ölkəmiz üçün çox dərin, qədim və təhlükəli olan bu iki amilə qarşı vuruşdu. Buna görə inqilabın işi çətin idi.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

İslam inqilabının əsas sütunu: tövhid

Əgər inqilab dini etiqada və İslam inancına söykənməsəydi, qələbə çala bilməzdi. Bu hərəkəti yaradıb davam etdirən xalqın hər bir fərdinin imanı idi. İslam inqilabından qabaqkı 150 ilin bütün hərəkatları bu məqsədlə çalışdılar, amma uğursuzluqla üzləşdilər. Lakin inqilab bu yolda qüdrətlə irəliləyib uğursuzluq amillərinə qələbə çala bildi. Nə üçün? Çünki İslam inqilabı ortaya yeni söz qoydu. Bu söz dünyanın, xüsusən də İslam dünyasının ictimai rəyində özünə böyük yer açа bilərdi. Bu yeni sözün ən böyük hissəsi Tövhid idi; dərin, dəqiq və kompleks mənada. Tövhid - cəmiyyətdə ilahi dəyərlərin hakimiyyəti, tağut, avtoritorizm, mənfur və azğın hökumətlərin insani və prinsipial dəyərlərə hökmranlığının inkarı deməkdir. Buna əsasən, tövhid İslam şüarının və İslam inqilabının mesajının fəqərə sütunu və əsas hissəsi idi.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

İnsana hörmətin inqilabın şərtlərindən olması

İslam inqilabının başqa bir sütunu insana hörmətdir. Bir coğrafi və siyasi ərazidə yaşayan cəmiyyətə hörmət onun azad və müstəqil olmasını, istedadlarının çiçəklənməsini, öz taleyinə hakim olmasını, təhqirə və hörmətsizliyə məruz qalmamasını tələb edir. Avtoritar rejimlərdə və sonra asılı Pəhləvi hökumətində bunlara önəm verilmirdi. Avtoritar hakimlər bəzən fəthlər etmiş, abadlıq işləri görmüş və xalqa böyük xidmətlər göstərmişlər. Lakin hər bir insanın ən böyük insani dəyəri olan azadlıq, müstəqillik, öz taleyinə sahib olmaq dəyərlərini İran xalqından almışdılar. Bu bütün avtoritar rejimlərin xarakteridir.

Təəssüf ki, diktatura rejimi sayılmayan, azadlıq, liberalizm və demokratiya bayraqlarının ucaldığı ölkələrin çoxunda işin mahiyyəti elə diktatura və xalqın iradəsinə hökmranlıqdır. Şüarları və siyasi üsulları demokratiya olan ölkələrin çoxunda bu gün əslində xalqın düşüncə azadlığı və seçim haqqı yoxdur. Bu azadlıqlar müxtəlif təbliğat vasitələri altında gizlədilir. Bu gün görkəmli Qərb ziyalıları istər Amerikada, istər Avropada bunu açıq şəkildə deyirlər. İnsana hörmət isə bunun əksini tələb edir və İslam inqilabı onun bayraqdarıdır.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

İslam inqilabının möcüzəsi: demokratiya

Bu gün düşmənlər təbliğatlarında deyirlər ki, İran demokratiyaya doğru getməlidir. İnqilab İrana demokratiyanın ən azad növünü bəxş etmişdir, İran haraya getməlidir?! Demokratiya xalq hakimiyyəti deməkdir, yəni siyasi hakimiyyətdə və ölkənin idarəsində xalqın istəyinin hakim və meyar olması. İnqilab bunu möcüzə kimi İranda həyata keçirdi. Məşrutə dövründən İslam inqilabına qədərki on illər boyunca bunu təsəvvür etmək belə mümkün deyildi. Düzdür, azad seçkilərin mövcud olduğu milli hərəkat dövründə bu, həyata keçdi, amma təəssüf ki, başçıların ardıcıl səhvləri ucbatından bu dövr təxminən iki ildən artıq sürmədi. Hər halda, məqsəd budur ki, o qısa dövrdən sonra İran xalqı bu ölkədə öz taleyini seçmək üçün bir gün də azad olmayıb.

İran xalqı inqilab vasitəsi ilə öz ucalığını dərk etdi, düşünüb qərar verə, addım ata və seçə bildi. Xoşbəxtlikdən, İran xalqının İslam əsaslarına dərin imanı demokratiyanı təbii formada dini təfəkkürlər üzərində ucaltdı. Demokratiyanın ən gözəl forması da budur. İslam və din dəyərləri çərçivəsində demokratiyanı mütləq şəkildə müdafiə etmək olar və bu bizim ölkəmizdə təbii formada həyata keçdi. Çünki xalqımız mömindir və imanı dayaz deyil.

Zəncan vilayəti universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2003.

İstismarçıların acı soyğunçuluq dövrü

Bu günlər möhtəşəm İslam inqilabının ildönümü, İran xalqı və hətta dünya müsəlmanları üçün bir bayramdır. İslam soyğunçu və istismarçı güclərin hökmranlığı və istismarı ilə vuruşub bir xalqı xilas etmək fəxrinə nail ola bildi. Müstəmləkəçi qüvvələr on illərlə İranda hökmranlıq etdilər. On illər ərzində müstəmləkəçi İngiltərə dövlətinin İran xalqının başına gətirdiyi bəlalar yaddan çıxmaz. Onlar Məşrutə inqilabını müsadirə, bu xalqı sərt Rza xan diktatorluğuna məcbur etdilər. Nefti qarət elədilər, ölkəni geridə saxladılar, xalqı aşağıladılar, xar etdilər, on illər boyu bir xalqın bütün haqlarını tapdadılar. Beynəlxalq miqyasda ingiltərəlilərin qüdrəti azaldıqdan sonra amerikalılar özlərini bu süfrəyə çatdırdılar, oğurluğa başladılar. Məhəmmədrzanın 25 illik diktatorluğu və o vaxta qədər ingilislilərin törətdiyi cinayətlər İranda amerikalıların vasitəsilə törədildi. Onlar caynaqlarını bu ölkəyə günbəgün daha artıq batırır, sərvətləri talayır, dini və milli mədəniyyəti məhv edir, onun yerinə əcənəbiyə pərəstiş mədəniyyətini gücləndirirdilər. Bu ölkənin hər bir şeyi onların hökmranlığı altında idi. Bu xalqın son qüvvəsini almışdılar. İslam bu xalqın damarlarına yenidən qan köçürə bildi. İslam oyanışı şüarı bu xalqı hərəkətə gətirdi. Böyük İmamın rəhbərliyi bu xalqa yolu göstərdi. Bu xalq Quranın buyurduğu kimi, öz taleyini öz iradəsi, müqaviməti və səyi ilə dəyişdirdi, diktaturanı məhv etdi, Amerikanı bu ölkədən qovdu, supergüclərin istismarına son qoydu, xalq öz taleyini seçmək və ona hakim olmaq hüququnu yenidən əldə etdi və nəticədə İran xalqı dirildi.

Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2004.

Şəfəq ongünlüyü - bütün müsəlmanların bayramı

Şəfəq ongünlüyü İran xalqının və bizim əziz ölkəmizin yenidən həyata qayıtmasının ildönümüdür. Xalq bu günləri bayram edir və buna haqqı da var. Mənim əzizlərim! Bilin ki, dünyanın harasında ayıq müsəlmanlar varsa, onların gəncləri, görkəmli şəxsiyyətləri, mədəni və siyasi elitası da bunu öz bayramları sayır və bu oyanışı öz xeyirlərinə bilirlər. Hegemon güclərin istismarı altında yuxuya qalmış İslam dünyası oyandı; bəzi yerlərdə özlərini xilas edə bildilər, bəzi yerlərdə də oyanışın özü xilasa müqəddimədir.

Bu inqilabın dəyəri İranı dünyanın hegemon güclərinin istismarından xilas etməsindədir. Siz görün dünyada beynəlxalq istismarçı və inhisarçılar xaqlara nə edirlər. Bu ölkəyə, bu xalqa, bizim neftimizə, mədəniyyətimizə, hökumətimizə, bütün insani və maliyyə resurslarımıza bunlar hakim olmuşdular. İnqilab bu vəziyyətə son qoydu, bunları ölkədən qovdu və xalqı istismardan qurtuldu. Bizim inqilabımızın dəyəri budur. Bu inqilabın qədrini bilək, onu öz yolunda qoruyaq və uca məqsədlərinə sarı getməsinə yardımçı olaq. Bu prinsip və əsaslar bizim gələcəyimizi, taleyimizi, iqtisadiyyatımızı, mədəniyyətimizi, din və dünyamızı yaxşılaşdıracaq, əziz və məzlum İranın yaralarına məlhəm olacaq.

Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2004.

Keçmiş rejimlərin diktatorluq və asılılıqlarının acı təsirləri

Bu xütbədə bir qədər inqilab haqda danışmaq istəyirəm. Əvvəla bizim inqilabımız nə idi, bu fenomen hansı rolu öhdəsinə götürdü və ifa etdi? İkincisi, düşmənlər bəzən əvəzlənsə də, bu günə qədər davam bu düşmənliklərin səbəbi nədir? Üçüncüsü, bu inqilabın və bu quruluşun düşmənlərinin istifadə etdiyi üsullar hansılardır? Dördüncüsü, çıxış yolu nədir? Bunlar mənim birinci xütbədə qısa şəkildə danışacağım mövzulardır.

Bu inqilab bizim tariximizdə yeni bir dövrün başlanığıcı oldu. Keçmişdə uzun bir dövrdə biz İran xalqı istibdada düçar olduq. Diktator, avtoritar və təkəbbürlü padşahlar bu məmləkətin bütün işlərini əllərinə almışdılar; məmləkəti öz mülkləri, xalqı öz rəiyyətləri bilirdilər. Son dövrdə - yəni Qacarların şahlığının sonlarından Pəhləvilərin axırına qədər bu məsələyə başqa bir dərd və xəstəlik də əlavə olundu və o, asılılıq idi. Qədim padşahlar diktator olsalar da, əcnəbi güclərdən asılı və onların fərmanına tabe deyildilər. Lakin Qacar dövrünün sonlarından və bütün Pəhləvi dövründə padşahlar həm diktator, həm də asılı idilər. Bu oldu keçmiş dövrdə İranda hakim olan siyasi quruluşun əlavə xəstəliyi. Bu diktatorluğun və asılılığın bizim ölkəmiz və xalqımız üzərində çoxlu təsir və nəticələri olmuşdur. Bizim ölkəmizi geridə saxlayan, təbii sərvətlərimizi düşmənlərə yedirdən, xalqımızın fikir və elm inkişafına mane olan bu diktatorluq və asılılıq idi. Biz bir zaman dünyada elmin bayraqdarı idik. Sonra isə digərlərinin elminin zəif və əhəmiyyətsiz cəhətlərinin və artığının dilənçisi olduq, digərlərinə əl açdıq. Onlar da istədikləri zaman bizim əlimizə bir az nəsə qoydular, istəmədikdə də - əksər vaxtlarda istəmirdilər - imtina etdilər. Buna əsasən, bizim xalqımız həmin diktatorluq və asılılıq ucbatından geriqalmış və zəif bir xalq oldu, neftimiz və digər sərvətlərimiz də getdi. Gələcək üçün keçmişdən qat-qat təhlükəli olan planlar cızmışdırlar. İnsan mənfur Pəhləvi hökumətinin son dövrünün sənədlərinə baxanda aydın şəkildə görür ki, bunlar bu ölkənin və bu xalqın gələcəyi üçün çox

təhlükəli planlar nəzərdə tutmuşdular. Əgər onlar icra olunsaydı, bizi daha yüz il geriyə salacaqdılar. İnqilab gəlib bu prosesi dayandırdı, xalqımızın tarixində yeni dövr başlandı. İnqilabın əsas dörd xüsusiyyəti olan müstəqillik, azadlıq, özünəinam və inkişaf bütün müxalifətlərə və düşmənçiliklərə rəğmən, inqilabın bu məmləkətdə ucaltdığı möhkəm təməllərdir.

Tehranın cümə namazı xütbələrindən: 2004.

İnqilabın əsas təməlləri

1. Müstəqillik

Müstəqillik odur ki, İran xalqı və hökuməti əcnəbi güclərin iradəsinə tabe olmağa məcbur deyil. Əcnəbilər istəyirlər ki, hər bir iş onların meylinə uyğun görülsün; onlar ölkənin maraqlarını qurban vermək istəsələr də, hökumət yerindən tərpənməsin; ölkənin milli sərvətlərinə təcavüz etsələr də, heç kim danışmasın; xalq buna qarşı çıxsa da, hökumət başından vursun. Biz Pəhləvi dövründə bu vəziyyəti bütün vücudumuzla hiss etdik. İnqilab qələbə çalıb xalqı, ölkəni və hökuməti müstəqil etdi. Bu gün dünyanın heç bir güclü dövləti ölkəmizin məsələlərinə müdaxilə edib, bizi nəyəsə məcbur edə bilməz. Ölkənin məmurları məsləhət bildikləri hər bir işi görürlər. Xalq məmurların işlərinə baxır və mühakimə yürüdür; bəyənsə, onların arxasında dayanır, bəyənməsə, onları əvəzləyir. İxtiyar xalqın əlindədir.

2. Azadlıq

Azadlıq odur ki, bizim xalqımız ölkə məmurlarını digərlərinin məcbur etdiyi qanun çərçivəsində yox, öz qanunları çərçivəsində seçir. Əgər onların fəaliyyətindən razı qalsa, bu seçimi davam etdirir, razı qalmasa, onları kənarlaşdırır və digərlərini seçir. Bizim ölkəmizdə azadlığın ən mühüm cəhəti budur. Bu gün bizim ölkəmizdə düşüncə və ifadə azadlığı tam şəkildə mövcuddur. Əcnəbi radiolar bunun əksini deyirlərsə-desinlər, xalqın özü görür. Nə quruluşu, nə hökuməti, nə rəhbəri qəbul edən şəxslər danışır və fikirlərini bildirirlər, heç kimin də onlarla işi yoxdur. Bu gün heç kim öz düşündüyünü danışdığına görə mühakimə olunmur. Düzdür, onlar yenə də narazıdırlar və narazılıqlarının səbəbi xalqın onlara qulaq asmamasıdır. Bu heç kimin təqsiri deyil, xalq onları sevmir, onlardan yaxşı bir şey xatırlamır. Xalq inqilaba yaxın keçmişdən indiyədək onların bənzərlərini görmüşdür. Buna görə onlara inanmır. Bu heç kimin təqsiri deyil. Azadlıq isə mövcuddur.

3. Özünəinam

Üüncüsü özünəinamdır. Bu xalq İslam inqilabının və İslam quruluşunun sayəsində özünəinam əldə etdi; yəni bacardığına inandı. Bunu bizə imam öyrətdi və İslam quruluşunun ümumi ab-havası ərməğan etdi. Bu gün bizim gəncimiz, tələbəmiz, müəllimimiz, tədqiqatçımız, sənətkarımız və qurucumuz bacardığına inanır. Bu özünəinam elmdə bizə kömək etdi. Biz bu gün elm sahəsində çox inkişaf etmişik, lakin hələ geridəyik. Heç kəs güman etməsin ki, elmdə inkişaf etdiyimizə görə məqsədə çatmışıq və daha bəsdir. Xeyr! Bizi çox geridə saxlayıblar, amma biz inkişaf etmiş və bu 25 ildə çox irəliləmişik. Statistikaya əsasən, inqilab dövründə bizim elmi inkişafımızın nisbəti bütün dünyadan yüksək və çox olmuşdur. Bir neçə gün öncə buraya gələn gənc alimlərə də bunu xatırlatdım. Elmdə, siyasətdə və ölkənin müdafiəsində özünəinam bizə kömək etdi. Səkkizillik müharibə zamanı özünəinam olmasaydı, bu xalq fəlakətə düşər, bu ölkə məhv olardı. Müharibədə 25 yaşlı bir gənc özünə inanır və güvənirdi. Bir diviziyanı 25 yaşlı bir gəncə tapşırırdılar; idarə edir, hazırlayır, hərəkət edir və böyük işlər görürdü. Bu gün bu özünəinam mövcuddur. Bu gün bizim universitetlərimiz elmi işlər görürlər, gənclərimiz elmi cəhətdən inkişaf edirlər. Bizim bəzi elmi inkişaflarımız dünyanı narahat edir. Bu, inqilabın sayəsində əldə olunmuşdur. Onlar İran xalqının və ölkəsinin elmi cəhətdən inkişaf etməsini istəmirlər, bunu açıq şəkildə söyləyirlər. Bir ölkənin elmi və iqtisadi inkişafı olmayınca həmişə güclülər ona hegemonluq edəcəklər. İstismar və işğal altında olan Yaponiya özünü toparlayıb elmi cəhətdən inkişaf etdi. Qərblilər Şərq regionuna nəzər salmağı, qeyri-Avropa irqinə diqqət yetirməyi əsla istəmirlər, ancaq elmi inkişafına görə onu ciddiyə almağa məcburdurlar. Amerikanın bəzi siyasi, yaxud siyasi-elmi mərkəzlərində demişlər ki, biz bir müsəlman Yaponiyasının yaranmasını istəmirik. Müsəlman Yaponiya - yəni siz. Demişlər biz imkan vermərik ki, İran xalqı elmi inkişaflara nail olsun.

Bunlar İran xalqının hərəkətini, bu özünəinamı görürlər. Bu da inqilabın və İslam quruluşunun faydalarından idi.

4. İnkişaf

Dördüncüsü inkişafdır. Düşmənlərimizin istəyinin və bu gün təbliğat apardıqlarının əksinə olaraq, biz inkişaf etmişik. Bu inkişafların mənası bu deyil ki, biz öz məqsədlərimizə çatmışıq. Mən dəfələrlə demişəm, yenə də təkrar edirəm: mən İslama və inqilaba inanan bir hövzə tələbəsi kimi düşünürəm ki, məqsədlərimizin bir çoxunda hələ yarıyoldayıq. Biz ictimai ədalət və yoxsulluğa son qoyulmasını və ölkənin hərtərəfli abadlığını istəyirdik. Hələ bu məqsədlərə çatmasaq və yarıyolda olsaq da, hərəkət etmiş, irəliləmiş, yolun mühüm bir hissəsini keçmişik. Bu işləri İslam inqilabı və quruluşu gördü.

Bunlar İslamın sayəsində və İslam bayrağı altında qələbə çalan inqilabın dörd əsas təməlidir. Əgər İslam olmasaydı, müstəqillik, azadlıq, özünəinam və inkişaf əldə edilməzdi. Bunları İslam bizə verdi. Bunlar İslamın hədiyyəsidir. Bir qrup İslamın adına, bir qrup İslam hökmlərinə, bir qrup İslamın ruhuna qarşı çıxır. Bunlar ölkəyə və onun gələcəyinə necə zərbə vurduqlarını anlamırlar. Bunlar İran xalqının hərəkətini dayandırmaq istəyirlər. Xoşbəxtlikdən, bu gözəl ağacın[1] gücü və müqaviməti bu zərbələrdən artıqdır. Hər halda, bəzi adamlar yara vurur, amma səhvə yol verirlər.

Tehranın cümə namazı xütbələrindən: 2004.

[1] İbrahim surəsinin 24-cü ayəsinə işarədir.

Hegemonların inqilabla düşmənliyinin səbəbi

Nə üçün düşmənlik edirlər? Bəzi adamlar elə bilirlər ki, inqilabın məmurları, yaxud imam özünə düşmən yaradır. Xeyr, məsələ belə deyil. Əgər bir zalım və qoluzorlu illərdir sizin evinizi zəbt etmişsə, siz sənədlərlə qanuni mərkəzlərə müraciət edib öz evinizi geri alırsınızsa, təbii ki, həmin quldur sizə düşmən olacaq. Sizi qınamaq olmaz ki, nə üçün düşmən yaradırsınız. Siz öz haqqınızı almaq istəmisiniz, bu, düşmən yaratmaq deyil. Əcnəbilərin qarşısında bir süfrə salınmışdı və burada istədikləri işi görürdülər. İnqilab bu süfrəni yığışdırdı. Bəllidir ki, düşmən olacaq, kin bəsləyəcək və qəzəblənəcəklər. Bu inqilab İslam və ərəb dünyasında ümid oyatdı. Bizim inqilabımız qələbə çalanda ərəb və İslam dünyası ümumi şəkildə bir durğunluq, sükut və ümidsizlik halında yaşayırdı. Sionistlər öz işlərini görmüş və hamını qorxutmuşdular. Heç bir xalq onun üçün ümid qapısının açılacağını güman etmirdi. Birdən əzəmətli qurtuluş darvazası açıldı və xalqlar ümidləndilər. Sionistlər Fələstini yediklərini və məsələnin bitdiyini güman edirdilər. Amma siz baxın, bu gün Fələstin xalqı bütün vücudu və qüvvəsi ilə meydandadır. Ona çoxlu təzyiq göstərilməsinə rəğmən, yenə dayanmışdır. Bu yalnız İsrailin məğlubiyyəti deyil, həm də Amerikanın və dünyaya hakim olan bütün sionist qüvvələrin məğlubiyyətidir. Fələstin ərazisində mühasirədə qalmış silahsız bir xalq bütün bunları aciz etmişdir. Livan xalqını oyadan bu ümidvarlıq idi. Bizim inqilabımızın baş verdiyi günlərdə sionistlər Livanda istədikləri işi görürdülər: hücum edirdilər, öldürürdülər, təcavüz edirdilər, təyyarələri Livan səmasına gəlib-gedirdi, sanki öz ölkələrinin səmasıdır. Əvəzində Livanlı qruplar bir-birinin canına düşmüşdülər. İnqilabın qələbəsinə yaxın mərhum Doktor Çəmrandan ikisaatlıq bir kaset gətirmişdilər. Mən Məşhəddə onu dinlədim. Özü Livanda idi və orada Livan xalqının faciələrinin təfərrüatını açıqlayırdı. İndi Livan xalqı elə bir həddə çatmışdır ki, İsrailə heç bir ərəb dövlətinin vurmadığı zərbəni vurur. İki il öncə onları geri çəkilməyə məcbur etdilər. Bir neçə həftə

öncə də sionistlərin qarşı çıxmasına rəğmən, özlərinin bir neçə yüz məhbusunu azad etdilər, möhtəşəm bayram keçirdilər. Əgər bir xalqın qəlbində ümid olmasa, bu işləri görə bilməz. Bu ümidi siz verdiniz. Bu gün bu ümidlər bütün İslam və ərəb dünyasında nəzərə çarpır. Bu məsələnin xırdalıqlarını şərh etməyə fürsət yoxdur. İran inqilabı İslam dünyasında ümid yaratdı, müsəlmanları oyatdı. Bu xüsusiyyətlərə malik olan bir inqilab qələbə çalanda İslam dünyasının zəifliyindən və durğunluğundan sui-istifadə edənlərin düşmən olması təbiidir. Biz canlı bir məxluq da olsaq, özümüzü müdafiə etməliyik. Bir xalq canlıdırsa və onunla düşmənlik edirlərsə, reaksiya verməsi təbiidir. Biz əlibağlı oturub gözləyə bilmərik ki, siyasi və iqtisadi cəhətlərdən bizə qarşı düşmənlik etsinlər, biz də düşmən yaratmaq istəmədiyimizə görə sakit durub özümüzü müdafiə etməyək. Bu məntiqdən deyil. Düşmənliyin səbəbi də budur.

Tehranın cümə namazı xütbələrindən: 2004.

İmamı və onun yolunu sual altına salmaqda düşmənin məqsədi

İslam inqilabının qələbəsindən və İslam Respublikası quruluşunun yaranmasından 25 il, bu respublikanın banisi və inqilabın böyük rəhbərinin vəfatından isə 15 il sonra hələ də inqilabımızın və ölkəmizin düşmənlərinin qəzəbli təbliğatının əsas hədəfi bizim imamımızdır. Onlar hətta İslam quruluşunun yaranmasından 25 il sonra da sionist və hegemon şəbəkələrin dünyanın müxtəlif yerlərindən yayımlanan yüzlərlə radio və televiziya kanalı üçün ayda minlərlə saat proqram hazırlayıb imamın böyük şəxsiyyətini və parlaq simasını sual altına salmağı özlərinin ən mühüm məqsədləri seçmişlər. Qəbul etməliyik ki, İslam quruluşunun düşmənlərinin bu quruluşa və İran xalqına qarşı mübarizə üçün bundan başqa yolları qalmayıb. Çünki İran xalqının öz şərəfli yolunda təslim olmasından və duruş gətirməsindən ibarət olan mühüm amil imamın siyasi məktəbi və siyasi fəlsəfəsidir. Bizim xalqımız buna ürəkdən inanır. İnqilabın düşmənləri bu xalqı öz iradələrinə təslim etməkdən ötrü imamın fəlsəfəsi, məktəbi və hələ də yaşayan şəxsiyyəti ilə düşmənlik etməkdən başqa yol görmürlər. Bizim böyük imamımız özünün siyasi məktəbi ilə bu ölkədə uzunmüddətli istibdad tilsimini qıra bildi. Böyük İmam özünün siyasi məktəbi ilə bu ölkəni soyğunçulardan xilas etməyi bacardı. Bu soyğunçular diktatorlarla əlbir olub İranı özlərinə təhlükəsiz yuva etmişdilər. Onlar İranı özlərinə xammal istehsal edən və tükənməz neft anbarı olan bir ölkə kimi saxlamağa ümid bəsləyirdilər. Mən imamın siyasi məktəbi üzərində dayanmaq istəyirəm. İmamın siyasi məktəbi onun böyük şəxsiyyətindən ayrıla bilməz. İmamın uğurunun sirri təklif etdiyi və bir quruluş formasında bütün dünyaya təqdim etdiyi məktəbdədir. Düzdür, bizim möhtəşəm İslam inqilabımız xalqın vasitəsi ilə qələbə çaldı, İran xalqı öz böyük istedadını və bacarığını göstərdi, amma bu xalq imamsız və onun siyasi məktəbi olmadan belə böyük işə qadir deyildi. İmamın siyasi məktəbinin əhatə dairəsi hətta İslam quruluşu yaratmaqdan da genişdir. İmamın ortaya qoyduğu, çalışdığı və gerçəyə

çevirdiyi siyasi məktəbin bəşəriyyətə və dünyaya yeni sözü var, yeni yol təklif edir. Bu məktəbdə bəşəriyyətin təşnə olduğu amillər olduğu üçün o köhnəlmir. Bizim böyük imamımızı tarixə və keçmişə aid bir şəxs kimi təqdim etməyə çalışanlar istədiklərinə nail olmayacaqlar. İmam öz siyasi məktəbi ilə yaşayır. Bu məktəb yaşadıqca imam İslam ümmətinə və hətta bütün bəşəriyyətə böyük və həmişəyaşar təsirlər bağışlayacaq.

İmamın siyasi məktəbində mənəviyyat siyasətlə qarışmışdır... Bizim böyük imamımızın siyasi məktəbinin dünyaya yeni sözü budur ki, bütün dövlət proqramlarında siyasət mənəviyyatla, hakimiyyət əxlaqla yanaşı olsun və əxlaq qaydalarına riayət edilsin.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışdan: 2004.

İmamın siyasi məktəbinin indeksləri

1. Mənəviyyat və siyasətin güclü rabitəsi

İmamın siyasi məktəbinin öz indeksləri vardır. Mən bu gün burada onun dəyərli xətlərindən bir neçəsini söyləyəcəyəm. Bu xətlərdən biri imamın siyasi məktəbində mənəviyyatın siyasətlə birgəliyidir. İmamın siyasi məktəbində mənəviyyat siyasətdən ayrı deyil; siyasət və irfan, siyasət və əxlaq. Öz siyasi məktəbinin təcəssümü olan imam siyasət və mənəviyyata birgə malik idi və onlarla məşğul olurdu. Hətta imamın siyasi mübarizələrində ən əsas amil onun mənəviyyatı idi. İmamın bütün mövqe və rəftarı Allah və mənəviyyata əsaslanırdı. İmam Allahın iradəsinə inanır, etimad bəsləyirdi. O, xilqətin qanunlarının ilahi şəriəti həyata keçirmək istəyən şəxsə kömək edəcəyini bilirdi. O inanırdı ki: "Göylərdəki və yerdəki ordular Allahın ixtiyarındadır. Allah yenilməz qüvvə və hikmət sahibidir!"[1] İmam şəriət qanunlarını öz hərəkətinin dayağı bilir, bələdçi əlamətləri sayırdı. İmamın ölkənin və xalqın xoşbəxtliyinə hesablanan hərəkəti İslam şəriətinə əsaslanırdı. Buna görə, ilahi vəzifə imam üçün səadətin açarı sayılır, onu özünün böyük və ideal məqsədlərinə çatdırırdı. Biz hamımız imamın belə buyurduğunu eşitmişik: "Biz vəzifəmizi yerinə yetirməkdən ötrü əməl edirik, qələbədən ötrü yox". Bu onun qələbəyə könülsüz olduğuna görə deyildi. Şübhəsiz ki, imam bütün böyük məqsədlərdə qələbəni arzulayırdı. Qələbə Allahın nemətlərindəndir və imam qələbəni sevirdi, lakin onu bu məqsədlərə sarı aparan amil ilahi vəzifəyə əməl etmək, Allah üçün çalışmaq arzusu idi. Onun məqsədi din olduğuna görə qorxmur, şübhəyə düşmür, məyus və məğrur olmur və yorulmurdu. Bunlar Allahdan ötrü vəzifəyə əməl etməyin xüsusiyyətləridir. Vəzifəsini yerinə yetirmək üçün əməl edən şəxs qorxuya düşmür, yorulmur, yolundan dönmür, şəxsi mənafeyi onun yolunu və istiqamətini dəyişdirmir. Siyasəti irfanla, mənəviyyatı siyasi

[1] Fəth/7.

hərəkətlə birləşdirib öz proqramlarına salan şəxs üçün ölüm və məğlubiyyət qorxusu mənasızdır.

Dini siyasətdən ayırmağın təsirləri

Bu, Qərbin köhnəlib dəbdən düşmüş bir siyasətinin tam əksidir. İndi yalandan bunu modern siyasət adlandırırlar; yəni dini siyasətdən və hökuməti mənəviyyatdan ayırmaq. Qərb mədəniyyəti mənəviyyatla düşmənlik və mənəviyyatın rəddi üzərində quruldu. Bu, Avropada sivilizasiyanı, elm və sənaye inkişafını başladanların böyük səhvidir. Elmə əhəmiyyətli yanaşdılar - bu yaxşı idi, lakin mənəviyyatla muharibəyə başladılar - bu pis idi. Odur ki, bu maddi və mənəviyyatdan uzaq sivilizasiya nə qədər inkişaf edirsə, azğınlığı da çoxalır, öz zəhərli meyvələri ilə həm onları, həm də bütün bəşəriyyəti acılayır; necə ki, bu günə qədər bunu etmişdir. Uzun illər onlarla ölkəni və milyonlarla insanı ən ağır əzablara düçar edən müstəmləkə faktoru Avropada elm və siyasətin mənəviyyatdan, dövlətin əxlaqdan ayrılması nəticəsində baş verən işlərdən biridir. Birinci və İkinci dünya müharibələri də həmin acı meyvələrdən idi. Kommunizm və avtoritar marksist hökumətləri də elm və sənaye hərəkətinin mənəviyyatdan ayrılığının acı nəticələrindən idi. Ailə institutunun dağılması, cinsi fəsad seli və ifratçı kapitalizmin tüğyanı həmin ayrılığın nəticələridir. Mənəviyyatdan uzaq düşmənin pik nöqtəsini bu gün Əbu Qüreybdə və İraqın digər həbsxanalarında görürsünüz. Bu həbsxanaları idarə edənlər bəşəri sivilizasiyada ən inkişaf etmiş olduqlarını iddia edirlər. Belə inkişafın nəticəsini dünya xalqları İraq həbsxanalarında çəkilən şəkil və filmlərdə gördülər. İraq və ondan öncə Əfqanıstan xalqının başına gətirilən faciələr bunlarla bitmir. İki-üç il bundan qabaq Əfqanıstanda bir gəlin karvanını bombaladılar, ötən ay İraqda bir toy mərasimi İngiltərə təyyarələri tərəfindən matəmə çevrildi. İraqlı gənclərin təhqiri, iraqlı kişilərin işgəncəsi, iraqlı qadınlara təcavüz, ailələrə, evlərə soxulmaq, İraq xalqı üçün sifarişli hökumət yaratmaq - bunların hamısı mənəviyyatsız siyasətin qaçılmaz sonuclarıdır. Mənəviyyat siyasətdən çıxarılmışdır. Keçmişdə də

dünyanın avtoritar hakimləri və diktatorları dünyanın şərqində və qərbində bu işlərdən görürdülər. Lakin avropalılar insan hüquqları və insan azadlıqları kimi gözəl ad və şüarlarla tanış olub elm yoluna qədəm qoyanda mənəviyyatdan uzaq düşmələri bu şüarların gözlənilən və ifadə etdiyi şəkildə bəşəriyyətə xeyir gətirməsinə qoymadı. Onlar da bəşəriyyət üçün şər və fəsad amili oldu. Bizim böyük imamımızın siyasi məktəbinin dünyaya yeni sözü budur ki, bütün dövlət proqramlarında siyasət mənəviyyatla, hakimiyyət əxlaqla yanaşı olsun və əxlaq qaydalarına riayət edilsin. İmamın siyasi məktəbinin əsas indekslərindən birincisi budur.

İmamın siyasi məktəbində xalqın səsi sözün həqiqi mənasında təsirli və təyinedicidir. Bu, xalqın səsinə hörmət və dəyərdir.

2. İnsana hörmət və onun iradəsinə dəyər tanımaq

İkinci xüsusiyyət xalqın roluna güclü və səmimi inam, insana və insan iradəsinin təyinedici olmasına hörmətdir. İmamın siyasi məktəbində insani kimlik həm dəyərli və hörmətlidir, həm də güclü və təsirli. Bu dəyər və hörmətin nəticəsi olaraq cəmiyyətin taleyində xalqın səsi mühüm rol oynamalıdır. Buna görə bizim böyük imamımızın siyasi məktəbində İslamdan alınmış demokratiya həqiqi demokratiyadır, Amerika və Qərb demokratiyası kimi şüar verib xalqı aldatmaq və çaşdırmaq deyil. Xalq öz iradəsi, istəyi və inamı ilə yolunu seçir, öz məmurlarını seçir. Məhz buna görə imam inqilabın qələbəsindən iki ay ötməmiş quruluşun növünü ümumxalq referendumuna çıxardı. Siz bunu dünyada baş verən hərbi çevrilişlərlə, kommunist hökumətləri və Amerikanın bugünkü rəftarı ilə müqayisə edin. Amerikanın hərbi hücumla İraqı işğal etməsindən on beş ay sonra hələ bu ölkənin əhalisinə icazə vermir ki, hökumətinin necə olmasını və kimlər tərəfindən idarə olunmasını desinlər. Dünən Birləşmiş Millətlər Təşkilatının nümayəndəsi müsahibəsində deyir ki, Amerika qoşunları İraqda olduğuna görə hökumət seçimində Amerikanın istəyi nəzərə alınmalıdır. Bunların demorkatiyası budur. Demokratiya adı çaşdırmaq üçündür. Hətta öz ölkələrində də həqiqi demokratiya yoxdur. Güclü

təbliğat kampaniyaları və bu yolda xərclədikləri saysız-hesabsız pullarla şəxsiyyət formalaşdırır və xalqın səsini qazanırlar. İmamın siyasi məktəbində xalqın səsi sözün həqiqi mənasında təsirli və təyinedicidir. Bu, xalqın səsinə hörmət tanımaq və dəyər verməkdir. Digər tərəfdən imam xalqın gücünə arxalanmaqla və xalqın polad iradəsi ilə bütün beynəlxalq təcavüzkarların qarşısında dayanmağın mümkünlüyünə inanırdı və dayandı da. İmamın siyasi məktəbində demokratiya dini mətnlərdən - "İşlərini öz aralarında məsləhət-məşvərətlə görərlər"[1] və "O (Allah) səni Öz köməyilə və möminlərlə müdafiə edib möhkəmlətdi"[2] ayələrindən götürülmüşdür. Biz bunu başqa heç kimdən götürməmişik.

Qərb demokratiyasının dünyaya təsirləri

Bəzi adamlar inandırmağa çalışırlar ki, xalqın siyasi iştirakını qərblilər bizə öyrətməlidirlər. Qərblilərin özləri hələ ilişib qalmışlar. Amerikalılar və demokratiya iddiaçıları otuz beş il bu məmləkətdə mütləq diktatorluq edən və özündən qabaq atasının təxminən iyirmi il diktatorluq etdiyi Məhəmmədrza Pəhləvi kimilərə qucaq açır və onları dəstəkləyirdilər. Bunlar demokratiya tərəfdarıdırlar?! Yalan danışırlar. Kim bunların demokratiyasını görmək istəyirsə, İraqa getsin; gedib onların məzlum Əfqanıstan xalqı ilə rəftarını görsün; Amerika demokratiyasını onun cinayətkar Şarona sonsuz dəstəklərindən anlasın. Onların demokratiyası budur. Biz bunlardan demokratiya öyrənək?! Bunlar insana dəyər tanıyırlar?! Siz görün bu gün Fələstində hansı faciələr törədilir. Fələstinlilər insan deyillər?! Öz torpaqlarının sahibi deyillər?! Seçim və düşüncə haqları yoxdur?! Bu gün Fələstində, İraqda, Əfqanıstanda, əvvəllər də bir çox bölgələrdə ən çirkin və ən faciəli işləri törədiblər və törədirlər. Bu çirkin işləri görənlər xəcalət çəkmir və demokratik olduqlarını deyirlər. Amerikanın prezidenti həyasızcasına iddia edir ki, dünyada və Orta Şərqdə demokratiyanı inkişaf etdirmək

[1] Şura/38.
[2] Ənfal/62.

missiyası onu narahat edir. Dünya xalqları onların demokratiyasını Əbu Qüreyb və Quantanamo kimi çoxlu həbsxanalarda görürlər. Onların demokratiyası və insan haqları budur. Bizim cəmiyyətimizdə və İslam ümməti daxilində kiminsə qərblilərin bizim xalqlara demokratiya öyrətməsini düşünməsi çox avamlıqdır. Biz insaflı natiq və yazıçıların belə danışmamasını və yazmamasını gözləyirik; sanki onlar bizim xalqımıza demokratiya dərsi keçməlidirlər. Demokratiyanı imam gətirdi, inqilab gətirdi. Bir an kimi ötən çox qısa dönəmlərdən başqa uzun əsrlər boyu bu ölkədə xalqın səsinin və iradəsinin nə demək olduğunu bilmirdilər. Biz ömrümüzdə bir dəfə də seçki qutusu görməmişdik. Heç kim İran xalqının səsinə dəyər tanımırdı. Diktatorlar da öz hakimiyyətləri zamanı bizim xalqımıza maksimum etinasızlıq etmişlər. İmam, inqilab və bizim İslam quruluşumuz demokratiyanı gətirdi. Bəzi adamlar elə danışırlar ki, sanki biz demokratiyanı indi öyrənirik. Bu, insafsızlıq deyil?! Bu, həqiqətə göz yummaq deyil?!

3**. İslam inqilabının sözünün cahanşümul olması**

İmamın siyasi məktəbinin xüsusiyyətlərindən üçüncüsü bu məktəbin beynəlxalq və cahanşümul baxışıdır. İslamın siyasi məktəbi öz düzgün fikrini və yeni sözünü izah edib bütün bəşəriyyətin öhdəsinə buraxır, o da bahar mehi və güllərin ətri kimi hər yeri dolaşır, iybilmə qabiliyyəti olanlar onu duyur, həzz alırlar. Bu gün dünyanın bir çox ölkələrində ondan istifadə etmişlər.

İmamın siyasi məktəbinin üçüncü xüsusiyyəti onun beynəlxalq və qlobal baxışıdır. İmamın siyasi söz və ideyasında müraciət tərəfi bütün bəşəriyyətdir, yalnız İran xalqı deyil. İran xalqı bu sözü ürəkdən dinlədi, arxasında dayandı, onun üçün mübarizə apardı, öz müstəqilliyini və başucalığını əldə etdi. Amma bu sözün müraciət tərəfi bütün bəşəriyyətdir. İmamın siyasi məktəbi bu xeyri, müstəqilliyi, başucalığını və imanı bütün İslam ümməti və bütün bəşəriyyət üçün istəyir. Bu bir müsəlmanın üzərinə düşən missiyadır. İmamla özlərinə beynəlxalq missiya tanıyan digər şəxslərin fərqi bundadır ki, imamın siyasi məktəbi bir xalqı topla, tankla, silah və işgəncə ilə öz düşüncəsinə və yoluna

inandırmaq istəmir. Amerikalılar da deyirlər ki, biz dünyada insan hüquqlarını və demokratiyanı bərqərar etmək missiyasını daşıyırıq. Demorkatiyanı bərqərar etməyin yolu Hiroşimaya atom bombası atmaqdırmı?! Latın Amerikasında və Afrikada çevriliş etmək, müharibə yaratmaq, top və tankdırmı?! Bu gün də Orta Şərqdə bu qədər yalan, hiylə, zülm və cinayət gözə çarpır. Bu vasitələrlə insan hüquqlarını bərqərar etmək və beynəlxalq missiyalarını yerinə yetirmək istəyirlər. İslamın siyasi məktəbi öz düzgün düşüncəsini və yeni sözünü izah edib bütün bəşəriyyətin öhdəsinə buraxır, o da bahar mehi və güllərin ətri kimi hər yeri dolaşır, iybilmə qabiliyyəti olanlar onu duyur, həzz alırlar. Bu gün dünyanın bir çox ölkələrində ondan istifadə etmişlər. Fələstinlilər deyirlər ki, biz imamın sözündən yeni həyat və oyanış dərsi götürmüşük. Livanlılar deyirlər ki, biz sionizm ordusu üzərində qələbəmizi və sionistlərin ixracını imamın məktəbindən öyrəndik. Dünyanın hər bir nöqtəsində olan müsəlmanlar - gənclər, ziyalılar və elitalar özlərinin siyasi düşüncə zəfərlərini imamın düşüncə məktəbinin sayəsində əldə etdiklərini bilirlər. İslam ümməti İslamın adı ilə şərəf duyur. Bu, imamın məktəbinin bəşəriyyət məsələlərinə qlobal baxışıdır. Bu yalnız İslam dünyasına məxsus deyil. Məhz buna görə bu gün Fələstin məsələsi bizim üçün əsas məsələ, İslam ümmətinin problemləri bizim üçün ağrılıdır. İslam dünyasında baş verənlər İran xalqı və böyük imamın adına və xatirəsinə könül verənlər üçün əsas məsələlərdir. Onlar bu məsələlərə laqeyd qala bilməzlər. Hegemon dünya elə bir halda müsəlman xalqlara qarşı ən böyük cinayətləri törətmək istəyir ki, digər müsəlman xalqlar görməsinlər, anlamasınlar, qərar verməsinlər və hətta etiraz da etməsinlər. İran xalqı görür, anlayır, etiraz edir, mövqe bildirir və İslam dünyasının problemlərinə biganə qalmır.

Fəqih hakimiyyəti quruluşun təməlini, xəttini və istiqamətini qoruyan, sağa-sola yayınmanın qarşısını alan amildir. Bu, fəqih hakimiyyətinin ən mühüm cəhətidir.

4. Dini dəyərlərin keşikçiliyi

Bizim böyük imamımızın siyasi məktəbinin digər mühüm xüsusiyyəti dəyərlərin keşiyini çəkməkdir. O bu dəyərləri fəqih hakimiyyəti məsələsinin izahında aydınlaşdırdı. İslam inqilabının qələbəsindən və İslam quruluşunun yarandığı gündən çoxları fəqih hakimiyyəti məsələsini yanlış, pis və həqiqətin ziddinə göstərməyə çalışmış, İslamın siyasi sisteminə və Böyük İmamın siyasi düşüncəsinə uyğun olmayan gözləntiləri, istəkləri və yalan təsəvvürləri ortaya qoymuşlar. Düşmənlərə meyllənən bəzi təbliğatçılar bu sözləri yayırlar. Bunlar bugünkü günə aid deyil, həmin cərəyanlar və digərləri tərəfindən öyrədilənlər əvvəldən bu sözləri danışırlar. Bəzi adamlar fəqih hakimiyyətini monarxiya kimi tanıtdırmağa çalışırlar. Bu yalandır, fəqih hakimiyyəti bizim konstitusiyamıza əsasən ölkənin idarəetmə orqanlarının vəzifələrini rədd etmir. Onların vəzifə və səlahiyyətlərini almaq olmaz. Fəqih hakimiyyəti quruluşun təməlini, xəttini və istiqamətini qoruyan, sağa-sola yayınmanın qarşısını alan amildir. Bu, fəqih hakimiyyətinin ən mühüm cəhətidir. Buna əsasən, fəqih hakimiyyəti nə sırf simvolik, formal və bəzən nəsihətçidir, - bəzi adamlar inqilabın əvvəlindən bunu istəyir və təbliğ edirdilər - nə də icraçı hakimiyyət statusu var. Çünki ölkənin icraçı, qanunverici və məhkəmə məmurları var, hamısı öz işlərini görməli və üzərlərinə düşən məsuliyyətdən ötrü cavabdehlik daşımalıdırlar. Fəqih hakimiyyətinin rolu budur ki, bu mürəkkəb və müxtəlif fəaliyyətlər məcmusunda quruluşun hərəkəti məqsəd və dəyərlərdən yayınmasın, sola-sağa yönəlməsin. Quruluşun ideal və ali məqsədlərə sarı ümumi hərəkətinin keşiyini çəkmək fəqih hakimiyyətinin ən mühüm və əsas roludur.

Böyük İmam bu rolu İslamın siyasi fiqhindən və dindən anladı. Necə ki, Şiə firqəsi və şiə fiqhi tarixi boyu bizim fəqihlərimiz bunu dindən anlamış, bilmiş və söyləmişlər. Təbii ki, fəqihlər onu həyata keçirmək imkanı əldə etməmişlər, amma bunu İslam fiqhinin qəti məsələlərindən bilmişlər. Çox həssas və mühüm olan bu vəzifə öz növbəsində həm dini meyarlardan, həm də xalqın səsindən və iradəsindən yaranır. Yəni bizim böyük imamımızın siyasi məktəbinə

görə fəqih rəhbərliyinin və hakimiyyətinin meyarları dini meyarlardır, kapitalist ölkələrində olduğu kimi filan güclü və sərvətli cinaha bağlılıq deyil. Onlarda da müəyyən qaydalar var və bu qaydalar çərçivəsində seçirlər. Amma onların qaydaları budur ki, filan güclü və sərvətli mafiyadan olsun, ondan xaric olsa, mümkün deyil. İslamın siyasi məktəbində isə meyar mənəvi meyarlardır, elmdən, təqvadan və siyasi ayıqlıqdan ibarətdir. Elm agahlığa səbəb olur, təqva şücaət gətirir, siyasi ayıqlıq ölkənin və xalqın mənafeyini təmin edir. İslamın siyasi məktəbinə görə bunlar əsas meyarlardır. Həmin həssas kürsüdə oturan şəxsdə bu meyarlardan biri olmasa, bütün ölkə əhalisi onu istəsə də, səlahiyyətini itirir. Xalqın səsi təyinedicidir, amma bu meyarlar çərçivəsində. Fəqih rəhbər məsuliyyətini üzərinə götürən şəxs elm, yaxud təqva və yaxud siyasi ayıqlıq meyarından uzaqlaşdıqda xalq onu istəsə və onun lehinə şüar versə də, səlahiyyətini itirmiş olur və daha bu vəzifəni davam etdirə bilməz. Digər tərəfdən, bu meyarlara malik olan və xalqın seçdiyi Dini Ekspertlər Məclisi vasitəsi ilə seçilən şəxs deyə bilməz ki, məndə bu meyarlar olduğundan gərək xalq məni qəbul etsin. Burada "gərək" yoxdur, seçən xalqdır, seçim haqqı ona məxsusdur. Görün dini meyarlar və xalqın iradəsi necə gözəl şəkildə sintezə girir; özü də quruluşun ən həssas mərkəzində. İmam bunu gətirdi. Bəllidir ki, İmam Xomeyninin və onun siyasi məktəbinin düşmənləri bundan xoşlanmır və bunu hədəf seçirlər. Onların başında duranlar bizim böyük imamımızın və onun siyasi məktəbinin sayəsində bu ölkənin maddi və mənəvi sərvətlərini talamaqdan məhrum olanlardır. Onlar öncüllərdir, bəziləri də onların arxasınca hərəkət edirlər. Bəziləri nə etdiklərini anlayır, bəziləri isə anlamırlar.

5. İctimai ədalət

İmamın siyasi məktəbinin xüsusiyyəti kimi demək istədiyim son məsələ ictimai ədalət məsələsidir. Bizim böyük imamımızın siyasi məktəbində ən mühüm və əsas xətlərdən biri ictimai ədalətdir. Hökumətin bütün proqramlarında, qanunvericilikdə, icrada və məhkəmədə ictimai ədalət və təbəqələrarası fərqi azaltmaq diqqətdə

saxlanmalı, məqsəd seçilməlidir. Biz ölkəni varlandırsaq, yəni ümumi daxili məhsulu artırsaq, amma sərvətlər bir qrupun xeyrinə olan müəyyən bir yerdə cəm olsa və xalqın çoxu ondan bəhrələnməsə, bu, imamın siyasi məktəbinə uyğun olmaz. Xalq arasında iqtisadi fərqləri azaltmaq, müxtəlif təbəqələr arasında müxtəlif milli sərvətlərdən istifadədə ayrıseçkiliyi aradan qaldırmaq bizim ən mühüm və ən çətin vəzifəmizdir. Bütün texnoloqlar, qanun qəbul edənlər, icraçılar və müxtəlif qurumlarda çalışan şəxslər bunu diqqətdə saxlamalı, özlərinin ən mühüm fəaliyyətlərindən biri hesab etməlidirlər.

Bu məktəb İslam quruluşunun əsasını qoydu. O zamandan iyirmi beş il ötür. Bu iyirmi beş il ərzində bizim ölkəmizə, xalqımıza və bu siyasi məktəbə olduqca çoxlu hücumlar olmuş, amma bizim xalqımız günbəgün inkişaf etmişdir.

İmam Xomeyninin vəfatının on beşinci ildönümü mərasimində çıxışdan: 2004.

Ruhanilik və İran tarixində onun böyük rolu

Bu gün bizim ölkəmiz və müsəlman cəmiyyətimiz keçmişdəki bütün dövrlərdə olduğundan fərqlidir. Bu gün ruhaniliyin rolu da eyni nisbətlə keçmişdəkindən olduqca böyükdür. Keçmişdə bizim ruhanilərimiz cəmiyyətin idarəsindən tam uzaq bir qrup olmuş, məğlub dəstəyə məğlub olmuşdu. Hətta Səfəvi padşahlarının şiəlik iddiasında olduqları, din alimlərinə hörmət etdikləri, Fətəli şahın Qumda Mirzə Quminin evinə gedib ona hörmət ifadə etdiyi dövrdə də ruhanilik tam kənarda qalan bir qrup olmuşdur. Sanki bir sel axır, bir tərəfdə isə kiçik bir körfəz var. Bu körfəzin bu sellə əlaqəsi var, amma ona heç bir köklü təsiri yoxdur. Yalnız ruhanilik yox, din də belə olmuşdur. Bu gün din bizim ölkəmizin və bəlkə də bütün İslam ölkələrinin tarixində İslamın erkən çağından sonra ilk dəfə olaraq hakimiyyətin və idarəçiliyin əsası olmuşdur. Meyar ruhaninin olub-olmaması deyil, dinin olub-olmamasıdır. Bizim qanunverici orqanımız İslam Şurası Məclisidir; yəni qanunlarımızın qəbul olunmasında meyar dinə uyğunluqdur. Bizdə dini ekspertlərdən təşkil olunan Konstitusiyaya nəzarət şurası var, ölkənin icraçı orqanı və bütün idarəetmə qurumları bir dini mənbəyə birləşir. Bunlar bizim bugünkü cəmiyyətimizin əsas xüsusiyyətləridir. Keşmişdə belə bir şey olmamışdır. Böyük küfr və hegemon cəbhəsi məhz buna görə bütün vasitələrlə bu xüsusiyyətlərə qarşı sərt mübarizə aparır. Nəzarət şurasına qatı müxalifdirlər; İslam Şurası Məclisinə qatı müxalifdirlər; İslamdan danışan prezidentə qatı müxalifdirlər; rəhbərə və fəqih hakimiyyətinə isə daha çox müxalifdirlər, çünki bunlar quruluşun İslam hərəkətini və istiqamətini təmin edən mühüm cəhətlərdir. Tarixə nəzər salsanız, görərsiniz ki, erkən İslam çağından sonra belə bir şey olmamışdır. Əgər bu ölkə maddi inkişafda nailiyyətlər əldə etsə, elm, texnologiya və sənayeyə yiyələnsə, güclü beynəlxalq siyasət və diplomatiya yürütsə, cəmiyyətin iqtisadiyyatını sahmana salsa, yeraltı və yerüstü sərvətlərdən, əzəmətli mənbələrdən -

mədənlərdən, əkinçilikdən və digər işlərdən istifadə edə bilsə, böyük və rəngarəng İran torpağından və onun mühüm strateji mövqeyindən yararlana bilsə, qısası, beynəlxalq və mədəni inkişaf standartlarına uyğun gəlsə, bu, dəyər və mənəviyyat işığı altında maddi inkişafa yiyələnmiş ilk ölkə və hökumət olacaq. Bu, yeni bir sivilizasiya olacaq. Tarixdə bunun misli yoxdur və bu, Qərb sivilizasiyası qarşısında çox təhlükəli bir fenomendir. Əgər siz bu məsələdə ruhanilərin rolunu artıra bilsəniz, görün bu mədəniyyətə nə qədər xidmət etmiş olarsınız.

Ayətullah Müctəhidi mədrəsəsinin tələbə və müəllimləri ilə görüşdəki çıxışdan: 2004.

İnkişafların dəyərində din və mənəviyyat faktoru

Yeni elmlər çox yaxşıdır. Biz universitetlərdə təhsil alan gəncləri elmə və tədqiqata həvəsləndiririk. Eşidir və görürsünüz ki, mən universitetlərə gedib tələbə və müəllim gənclərlə söhbət edirəm, onları elmin sərhədlərini aşmağa həvəsləndirirəm; deyirəm ki, yeni elmlər əldə etsinlər, elmi istehsal etsinlər. Bunlar mümkün işlərdir. Biz ölkənin idarəçilərini və fəal qurumlarını texnologiya, sənaye, əkinçilik işlərinə, milli sərvəti istehsal etməyə və artırmağa həvəsləndiririk, bu iş üçün çalışır və sərmayə qoyuruq. Bunların hamısı lazımdır və ən gözəl şəkildə görülməlidir, lakin mənəviyyat, fəzilət və din işığını yandırmağa çalışan sizlər olmasanız, bütün bu inkişaflar dəyərsiz olar və hətta antidəyərə çevrilər. Elm hövzələrinin əhəmiyyəti burada bəlli olur. Bu baxışla sizin işiniz görülən bütün işlərdən əhəmiyyətlidir. İnkişaf halında olan bir cəmiyyətdə elmli, məlumatlı, aydın, şücaətli, imanlı, iffətli və Allahdan qorxan bir ruhani toplumun olması bu inkişafların azğınlıq istiqamətində və süquta doğru gedən tarixi prosesdə işlənməyəcəyinə zəmanət verir. Dini elmləri öyrənən siz gənclərin işi budur. Bunun qədrini bilin. Bu çox əhəmiyyətli məsələdir. Sözsüz ki, sizin problemləriniz də var. Bu gün bizim ruhanilərimizin və hövzə tələbələrimizin çoxlu problemləri var - maddi problemləri, müxtəlif çətinlikləri və sair. Lakin bunlar bu böyük məqsəd qarşısında sıfra bərabərdir. Heç bir toplum problemlərlə çarpışmadan təsirli və həmişəyaşar rol ifa edə bilməz. Bəşərin xisləti belə deyil ki, mütləq dincliyə və rahatlığa təmayüllə böyük məqama çata bilsin. Çətinliklərə dözmək lazımdır. Bu, Allahın razılığına və bir cəmiyyətin xoşbəxtliyində rol oynamağa sarı səmt götürməkdir. Bu gün elm hövzələri özlərini hazırlayıb sözün həqiqi mənasında böyük işlər görə bilərlər.

Ayətullah Müctəhidi mədrəsəsinin tələbə və müəllimləri ilə görüşdəki çıxışdan: 2004.

Pəhləvi rejiminin Qum Elm Hövzəsi ilə düşmənliyi

Qum hövzəsi qəməri tarixi ilə 1340-cı ildə, yəni təxminən 85 il öncə mərhum Hacı Şeyx Əbdülkərim Hairi tərəfindən yaradıldı və 15 ildən sonra, Rza xan iqtidarının və repressiyasının zirvə çağında isə onun vəfat etməsi ilə zahirən dağıldı. Mərhum Şeyx Əbdülkərim Hairi dünyadan köçəndə Qumda təhsil alan bir neçə yüz tələbə dağılışdı; ac, pulsuz-parasız və qorxu halında gündüzlər Qum şəhərindən çıxıb ətraf bağlarda dərs oxuyur, gecələr isə Feyziyyə mədrəsəsinə, yaxud evlərinə qayıdırdılar. Lakin sərgərdan olmuş, dağılışmış, rejimin gücündən qorxan, iqtisadi, siyasi və heysiyyət təzyiqi altında əziyyət çəkən həmin tələbələrin arasından İmam Xomeyni kimi bir şəxs çıxdı. Qum Elm Hövzəsinin yaranmasından 40 il sonra ruhani hərəkatı başlandı. Bunların çox böyük mənası var. Üstəlik bu 40 ilin bir neçə ili belə ağır keçmişdi. 1963-cü ilin əvvəllərində Feyziyyə hadisələrinin baş verdiyi, polislərin tələbələri vurub damdan yerə atdığı gün biz imamın evinə getdik. Mən onda sizin indiki yaşlarınızda olan gənc bir tələbə idim. Məhəmmədrzanın elmi hövzə əleyhinə repressiyasının qızğın çağı idi. Mən öz gözümlə görmüşəm ki, Qumun İrəm xiyabanında tələbə yolun bu tərəfindən o tərəfinə keçməyə cürət etmirdi. Şah rejiminin komandosları Şimr kimi üstünə tökülüb döyür, əmmaməsini götürür, paltarını cırırdılar. Belə bir qorxunc vəziyyətdə imam axşam namazından sonra Qumda indi də qalan evinə getdi. Tələbələr və mən də onunla getdik. O, Rza xan dövrünün repressiyasını və tələbələrin Qum şəhərindən bayıra çıxdığı dövrü xatırladıb dedi ki, biz onda belə yaşayırdıq - onlar getdilər, biz isə qaldıq. İndi də bunlar gedəcəklər və siz qalacaqsınız. Bu, imamın ilahi vədə əsaslanan proqnozu idi. Allah-Taala vəd etmişdir ki, bir qrup mömin Onun yolunda mübarizə aparsa və dözümlə müqavimət göstərsə, şübhəsiz, məqsədə çatacaq. Allahın vədi yalan deyil. Allah-Taala yolu insanın önündə qoyur və addım-addım ona əl tutur. Məqsəd Allah olduqda isə: "Bizim uğrumuzda

çalışanları (cihad edənləri) mütləq Öz yollarımıza yönəldəyəcəyik”.[1] Əsas məsələ bu məqsədin və imanın olması, mübarizə aparmaq və çalışmaqdır. Harada bu olsa, şübhəsiz ki, uğur da olacaq.

Ayətullah Müctəhidi mədrəsəsinin tələbə və müəllimləri ilə görüşdəki çıxışdan: 2004.

[1] Ənkəbut/69.

Qacar və Pəhləvi dövründə İranın məhv edilməsi

İslam quruluşunun 25 illik hakimiyyəti dövründə ötən yüz ildə bu ölkədə görülmüş işlərdən yüz dəfə artıq işlər görülmüşdür. Həmin yüz ildə mənfur Qacar və Pəhləvi sülalələri bu məmləkətdə zalımcasına hökmranlıq etmiş, bu xalq üçün heç bir iş görməmiş, potensialları ya məhv etmiş, ya da istifadəsiz qoymuşlar. İslam inqilabı və İslam quruluşu isə ölkəni və xalqı özünə layiq bir gələcəyə doğru aparır.

Həmədan əhalisinin böyük toplantısında çıxışdan: 2004.

İnqilabın azadlıq və müstəqilliyə diqqəti

İslam inqilabı bu ölkədə iki faktoru möhkəmlətdi: biri azadlıq, digəri isə müstəqilliyi. 2500 il diktatura və istibdadpərəstliyə düçar olan cəmiyyət - bizim böyük xalqımız həqiqətən istibdada adət etmişdi – bu gün inqilabın sayəsində daha belə deyil və nə zamansa kiminsə beyninə xalqla belə rəftar etmək düşsə, xalq qəbul etməz. İndi siz görün bunlar İslam Respublikası quruluşunda avtoritorizmin olmasına dair nə qədər təbliğat aparırlar. Sanki gündüz çağı deyirlər ki, indi gecədir.

İranda müstəqilliyi də İslam Respublikası quruluşu yaradıb möhkəmlətdi. Bu xalq daha heç nəyin bahasına böyük güclərin asılılığını qəbul etməz. Mən siz əziz gənclərə, bütün Bəsic üzvlərinə və ölkənin bütün öhdəçi gənclərinə demək istəyirəm ki, bu günədək gördüyümüz işlər çox dəyərlidir. Ölkədə azadlığı və istiqlaliyyəti institusional şəkildə möhkəmlətmək əhəmiyyət, dəyər və bu 25 il ərzində İslam Respublikası quruluşu sayəsində əldə olunan maddi və mənəvi nailiyyətlər baxımından vəsfəgəlməzdir. Həm də bunlar son deyil, başlanğıcdır.

Həmədan vilayətinin Bəsic üzvləri ilə görüşdəki çıxışdan: 2004.

İslam hərəkatının ən böyük səmərəsi: insanların oyanması

O zaman bizim ölkəmiz, böyük xalqımız və xüsusən gənc nəslimiz bəzi istisnaları çıxmaq şərti ilə, ümumi olaraq qəflət içində idi. Bu qafillər arasında dindar və təqvalı insanlar da vardı, dinsiz və laqeyd adamlar da. Elələri də vardı ki, günah adamı deyildilər, pak gənclər idilər, lakin ümumi qafilliyə ortaq idilər. İranda İslam hərəkatının gördüyü ən böyük iş bu idi ki, biz iranlıları tərpədib qəflət, laqeydlik və etinasızlıq yuxusundan oyadıb gələcəyə sarı apardı. Sədi Gülüstan kitabında birinci babın ikinci, yaxud üçüncü dastanında bir oğru qrupunun hekayəsini danışır. Deyir ki, bunlar insanlara hücum etmək istəyirdilər, amma o insanlara hücuma keçən birinci düşmən yuxu idi. Xarici düşmənin gəlməsindən qabaq onların daxilindən bir düşmən onlara qələbə çaldı. O düşmən yuxudan ibarət idi. Biz yuxuda idik, inqilab bizi yuxudan oyatdı. Mənim özüm Həmədanın 3100 illik tarixini yada salanda qürur duyuram. Həmədan həm də mənim evimdir. Bir şəhər 3100 il ayaqda qalmışdır! İnsan qürur duyur, lakin bu, məsələnin bir tərəfidir. Məsələnin başqa bir tərəfi odur ki, İran tarixinin, simvolu Həmədan olan 3100 ilində biz İran xalqı ilahi peyğəmbərlərin, ilahi dinlərin insandan istədiyi formada öz taleyimizə hakim olmuşduqmu? Özümüzü tanımışdıqmı? Öz gələcəyimiz üçün bir proqram cızmışdıqmı? Bu uzun və qədim tarixin ən yaxşı dövrləri bacarıqlı diktatorların şah olduğu dövrlərdir. O bizim üçün qərar verib, bizim üçün gələcək müəyyənləşdirib, ölkəni böyüdüb.

Həmədan universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdəki çıxışdan: 2004.

İslam Respublikasında mənzərə seçimi fürsəti

İran xalqı bir xalq olaraq İslam inqilabının qələbəsindən qabaq özü üçün bir mənzərə tərif etməyə, seçməyə, onun üçün proqram hazırlamağa və ona doğru hərəkət etməyə fürsət və imkan tapmadı. Özümüz üçün bir mənzərə tərif etməyincə, heç bir əsaslı iş görülməz, hamısı gündəlik işlər olar. Tərif etdikdən sonra onun üçün proqram hazırlamasaq, proqramsız işin nəticəsi olmayacaq. Proqram hazırlayandan sonra iradə ilə hərəkət etməsək, öz beynimizi, əzələlərimizi və cismimizi çətinliyə salıb işə başlamasaq, məqsədə çatmayacağıq. Bunlar mütləq lazımdır.

Bir zaman söhbət bir nəfərdən gedir. O, qərara gəlir ki, qalxsın; iradə edir ki, hərəkət etsin - və hərəkət edir. Lakin bir zaman söhbət bir xalqdan gedir. Bir xalq hərəkət etməli, çalışmalı və seçməlidir. Burada iş mürəkkəb və çətin olur. İnqilab bizə bu bacarığı verdi. Biz tarixin daş-divarını yarıb özümüzü bu çərçivədən və daş hasardan xaric edə bildik. İnqilab bununla da kifayətlənmədi, bizim qarşımızda bir örnək göstərdi və o, İslam Respublikasıdır: respublika və İslam.

Həmədan universitetlərinin müəllim və tələbələri və həmədanlı gənclərlə görüşdəki çıxışdan: 2004.

İmamın xalqa inamı

Bu xalq çox yaxşı xalqdır. İran xalqı şəxsiyyət, hörmət və dəyər indekslərinə görə həqiqətən zirvədə durur: gözütox, fədakar, imanlı, iradəli, şücaətli və fədakarlığa hazırlıqlı. İniqlabdan öncə heç kim imam qədər bundan xəbərdar deyildi. Görkəmli şəxsiyyətlər arasında bizim xalqımızın bu xüsusiyyətlərini tanıyan və üzərində dayanan ilk şəxs bizim böyük imamımız idi. O zaman mən bəzi böyük şəxsiyyətlərlə ünsiyyətdə olur və danışırdım. Onlar təqsiri xalqın boynuna atırdılar - xalq gəlmir, xalq etmir, bu xalqı boşlayın və sair. İmam onların əksinə olaraq xalqı tanıdı, xalqa inandı, onunla səmimi danışdı, xalqın meydana çıxmasını gözləməyib əvvəlcə özü meydana çıxdı. Rəhbər belə olmalıdır. İmam kimi bir rəhbərlə adi bir bələdçi arasında fərq budur: bələdçi deyir ki, filan yerə getmək istəyirsənsə, bu yolla get, sonra sağa dön, sonra sol tərəfə get; rəhbər isə özü yola düşür, məqsədə sarı gedir və sonra deyir ki, kim gəlirsə, mənimlə gəlsin. İmam belə etdi. O həm də xalqın gələcəyinə əmin idi və xalq da onunla gəldi. O əvvəlcə bu xüsusiyyətləri kəşf etdi və bizim kimi - mən özümü deyirəm - yaxıngörən, təcrübəsiz və xalqı yaxşı tanımayan insanlar da heyrət və təəccüb içərisində xalqın möhtəşəm hərəkətinə tamaşa edib sevinirdik. Biz bunu ilk dəfə inqilabda təcrübə etdik. Mən bir çoxlarının belə meydana çıxsmasını təsəvvür etməzdim, amma gəldilər, can verdilər, övlad verdilər, həyatlarını verdilər və inqilab üçün harada lazım oldusa, fədakarlıq etdilər. Xalqın böyük əksəriyyəti belə idi.

Həmədan vilayətinin vəzifəli şəxsləri və elita nümayəndələri ilə görüşdəki çıxışdan: 2004.

İslam inqilabının beynəlxalq prinsip və təsirləri

Bizim diplomatik prinsiplərimiz inqilabımızın prinsiplərindən ayrı deyil. Biz kiçik iş görməmişik. Biz yeni, möhtəşəm, güclü və həmişəyaşar bir iş görmüşük. Bu, İslam inqilabı və İslam Respublikası quruluşudur. Biz istər inqilabın əvvəlində öz xarici siyasi kursumuzu müəyyən etmiş olaq, istər olmayaq, bu yeni hərəkətin və fenomenin meydana çıxması bizim xarici siyasətimizi də təyin etmişdir. Biz inqilab edərək ölkəmiz daxilində istismarçı sistemi, siyasi və ictimai cəhətdən ərbab-rəiyyət münasibətlərini pozduğumuz kimi, beynəlxalq məsələlərdə də eyni fikirdəyik. Biz beynəlxalq aləmdə mövcud olan ərbab-rəiyyət sisteminə müxalifik, istismarçı düzənə qarşı çıxırıq. Bizim xarici siyasətimizin əsası budur: Biz istismarçılığa müxalifət ideyasını güclü bir təməl kimi beynəlxalq siyasətdə, hökumət və xalqlar səviyyəsində möhkəmlətmək istəyirik. Bu gün təkqütblülük və Amerikanın yeganə böyük güc olması haqda çox danışılır. Düzdür, bu çox mənfi bir tendensiyadır, amma təkqütblülük olmasa da, böyük güclülük yalnız Amerikaya məxsus olmasa və keçmişdə olduğu kimi başqa bir böyük güc də peyda olsa da, biz yenə də istismarçı sistemə müxalif olarıq. Biz o zaman da müxalif idik, bu gün də müxalifik. Bu, İslam Respublikasının siyasətidir. Biz beynəlxalq siyasətdə istismarçı sistemdən irəli gələn münasibətləri rədd edir, qəbul etmirik. Özümüz də İslam Respublikasının kimliyində və şəxsiyyətində istismarçı sistemə qoşulmağı, istismar olunmağı, yaxud istismarçılıqla məşğul olmağı rədd edirik. Biz dünyada bu düşüncəni təbliğ edir, işıqlandırır və onun əsasında işləyirik. Bizim əsas kursumuz budur.

Bizim konstitusiyamızın giriş hissəsində müsəlman və məzlumları müdafiə məsələsi açıq şəkildə qeyd olunmuşdur. Biz müsəlman və məzlumları müdafiə etməyi öz təməl siyasətlərimizdən bilir və ondan imtina etmirik. Bizim siyasətimizdə məzlum bir xalqı müdafiə etmənin ideoloji əsası Amerika kimi bir dövlətin siyasətində sionizmi müdafiə prinsipindən dəfələrlə güclüdür. Müəyyən fərqləri nəzərə almaqla,

sionizm dövlətini və onun işğalını müdafiə etmək onların diplomatik prinsiplərindəndir. Onlar bu işdən əl çəkmirlər, lakin bunun heç bir ideoloji əsası yoxdur. Məzlum Fələstin xalqını, yaxud hər hansı bir məzlum xalqı müdafiə etmək və ya işğalçılığa və hərbi müdaxiləyə qarşı çıxmaq bizim siyasətimizdə və əməli proqramlarımızda bundan daha güclü əsasa malikdir. Nə qədər bacarıb-bacarmamağımız, imkanlarımızın nə qədər olması ikinci mövzudur. Bu bizim təfəkkürümüzdə və xarici siyasətə baxışımızda olan həqiqəti dəyişdirə bilməz. Hansısa məsələdə qısamüddətli və taktiki məqəsdlərimizin olması və onlardan istifadə etməyimiz mümkündür. Bu bizim bacarığımıza, sayıqlığımıza, peşəkarlığımıza, sürətimizə bağlıdır. Lakin bu məsələ bizim beynəlxalq münasibətlərə və dünya məsələlərinə dair sözügedən baxışımızı və əsaslı siyasətimizi dəyişdirə bilməz. Biz İslamın, müsəlmanların və İslam oyanışının tərəfdarıyıq, istismarçı qüvvələrin məzlum xalqların zəngin qaynaqlarından qidalanmalarına qarşı çıxırıq, müstəmləkəçiliyə və istismarçılığa müxalifik. Bu təkcə dildə və sözdə deyil, bizim etiqadımız budur. Bizim xarici siyasətimiz də budur və bu, qeyd etdiyim kimi, İslam Respublikası təfəkkürünə əsaslanır.

İslam Respublikası kiçik bir şey deyil, bu günə qədər İslam Respublikası quruluşunu yaratmaqdan daha böyük, daha dərin və daha təsirli bir iş görülməmişdir. Tarixə baxın, görün ondan öncə belə bir şey olub, yoxsa yox. Biz beynəlxalq münasibətlərdə və dünya miqyasında dövrümüzün ən dərin, ən mühüm, ən təsirli və ən köklü fenomeniyik. Biz böyük iş görmüşük. Bu müftə başa gəlməyib, onun üçün mübarizə aparılmış, zəhmət çəkilmişdir. Biz şəhid vermiş, qan vermişik. Biz bu hərəkətin arxasında bu günə qədər həmişə xalqın hiss və duyğularını müşahidə etmişik. Biz fədakarcasına özümüzü müdafiə etmişik.

Xarici İşlər Nazirliyinin əməkdaşları və İran İslam Respublikasının xarici ölkələrdəki nümayəndəliklərinin başçıları ilə görüşdəki çıxışdan: 2004.

Əsl İslamın üç əsas səciyyəsi: mənəviyyat, məntiq və ədalət

Biz İslamı müdafiə edirik. Bəs İslam dedikdə məqsədimiz nədir? Bizim İslamımız prinsip və əsaslar baxımından həm qapalı İslamla, həm də liberal İslamla tam fərqlidir; biz həm onu rədd edirik, həm bunu. Bizim İslamımız mənəviyyata, məntiqə və ədalətə əsaslanır, onda bu üç əsas səciyyə var. Biz əsla mənəviyyatdan əl çəkmərik. Bizim işimizin ruhu və məğzi mənəviyyatdır. Məntiq bizim ən mühüm vasitəmizdir. Biz ağılı işlədirik. Xarici siyasətdə dəfələrlə dediyimiz kimi, bizim üç prinsipimizdən biri hikmət və onun kənarında olan məsələhətdir. Biz hikmətlə və ağılla hərəkət edirik. Bu yalnız bizim xarici siyasətimizə məxsus deyil, bütün sahələrdə belədir. Bizim İslamımız ağıl İslamıdır. Bizim dərkimizdə, məqsəd və vasitələrimizdə ağlın çox böyük rolu var. Biz bir məqsəd kimi ədalətdən də heç zaman uzaqlaşmarıq. Liberal-demokratiyaya əsaslanan kapitalist dünya üçün ədalət məsələsi ikinci dərəcəli bir məsələ olduğuna və onlar üçün qazancın, mənfəətin və pulun əsas sayıldığına görə, önəmli və mühüm məsələ olan ədalətdən imtina edəcəyimiz güman olunmasın. Bizim iqtisadi fəaliyyətlərimiz, daxili və xarici siyasətimiz ədalətə əsaslanır. Bizim İslamımız budur: mənəviyyat, ağıl və ədalət İslamı. İslamın adı ilə qane olmuruq ki, liberal İslamımız olsun, Qərbin və Amerikanın dəyərlərini təbliğ etsin, onların üsullarından yararlansın, müxtəlif sahələrdə onlarla həmrəy olsun və hərdənbir Nüdbə duası da oxusun. Biz mürtəce Taliban İslamını da qəbul etmirik; təkcə indi yox, hərəkatın əvvəlindən qəbul etmirdik. Sizin aranızda böyük keçmişi olanlar var. Onlar inqilabdan öncəki dövrü xatırlayır, inqilabdan qabaqkı İslam cərəyanlarını tanıyır və mənim nə dediyimi bilirlər. Bu hərəkatın istiqaməti əvvəldən aydınlıq və məntiqə doğru və qapalılığa müxalif olmuşdur. Bu gün də bu xətt bizim İslam təfəkkürümüzdə günbəgün gücləndirilmişdir, zəifləməmişdir. Biz bunların arasından öz düzgün yolumuzu seçmişik və irəliləyirik. Buna əsasən, bizim əsas işimiz budur. Bizim diplomatiyamız bu təməllər üzərində qurulmuşdur. Biz belə bir İslam

istəyirik. Biz İslam Respublikasının möhkəmlənməsini, İslam oyanışını və öz məqsədlərimizin həyata keçməsini istəyirik. Əsla istəmirik və yol vermərik ki, bizi hazırkı beynəlxalq oyunlarında həll edib, kimliyimizi və şəxsiyyətimizi ortadan götürsünlər.

Xarici İşlər Nazirliyinin əməkdaşları və İran İslam Respublikasının xarici ölkələrdəki nümayəndəliklərinin başçıları ilə görüşdəki çıxışdan: 2004.

İstismarçıların İslam inqilabına qarşı çıxmasının kökü

Daxili və xarici məsələlərdə, müxalifət və mübarizələrdə, atom enerjisində və digər məsələlərdə irili-xırdalı hadisələr baş verir. Biz harada durduğumuza və hansı vəziyyətdə olduğumuza nəzər salsaq, bütün bu sualların cavabı verilər, bu hadisələrin nə üçün baş verdiyi və bunlarda məqsədin nə olduğu bilinər? Məsələ burasındadır ki, İran xalqı öz inqilabı ilə dünyanın mədəniyyət və siyasət tavanını yarıb içəriyə yeni layihə atmışdır. Dünya ikiqütblü olanda və iki böyük güc bir-biri ilə mübarizə aparanda bu yeni layihəyə qarşı əlbir oldular. Bəlli olur ki, İran xalqının İslam inqilabı ilə ortaya qoyduğu yeni layihə bu iki gücün ortaq cəhətini hədəf seçmiş və təhdid etmişdir. Həmin müştərək cəhət nədir? Hegemonluq və istismarçılıq. Bəli, biz istismarçı sistemə qarşı çıxdıq. İstismarçı sistem budur ki, dünyada müxtəlif tərəflərdən təşkil olunan bir güc imperatorluğu vardır. Onların qarşısında xalqlara məxsus olan sərvət qaynaqları durur. Bu iki cinah arasındakı əlaqə istismar əlaqəsidir: istismar edən və istismar olunan. İstismarçı istismar edir; ya torpağı, ya suyu, ya nefti, ya təbii mənbələri, ya strateji mövqeyi həmin böyük gücə lazım olan xalqlar da istismar olunmalı, ona lazım olanı və maraqlarını təmin edəni təqdim etməlidirlər. Əgər bu ölkələr öz təbii mənbələrini və sərvətlərini təqdim etsələr, problem yaranmır. Necə deyərlər, üçüncü dünya ölkələrinin, yəni inkişaf etməmiş ölkələrin çoxu belədir. Həmin ölkələrdə hakimiyyət başında oturanlar öz xalqlarının mənafeyini ikiəlli təqdim edirlər. Tağut rejimi dövründə bizim ölkəmiz də belə idi. Rejimin başçıları müti və tabe idilər. Tabe olmağın mənası bu deyil ki, bütün işlərdə onların sözünü dinləyirdilər. Xeyr! Bəzi işlərdə fikir ayrılıqları da olurdu, amma onların istəyini təmin edirdilər. Onlar deyirdilər ki, neft müqaviləsi filan cür olsun - bunlar qəbul edirdilər; OPEK-də filan qərara səs verin - bunlar deyirdilər: "baş üstə"; İsrail və sionizmlə belə rəftar edin - bunlar deyirdilər: "baş üstə"; region ölkələri ilə belə edin - bunlar deyirdilər: "baş üstə"; Birləşmiş Millətlər Təşkilatında filan mövqeyi seçin - bunlar deyirdilər: "baş üstə". Sonra

tədricən ölkələrin daxili işlərinə müdaxilə edir və deyirdilər ki, filan cür hökumət qurun, filan siyasətləri icra edin, ölkədə filan dəyişiklər yaradın - bunlar da deyirdilər: "baş üstə".

Quruluşun vəzifəli şəxsləri ilə görüşdəki çıxışdan: 2004.

Köhnə Qacar istibdadı və modern Pəhləvi avtoritorizmi

Həzrət Əlinin (ə) Malik Əjdərə məktubu çox möhtəşəmdir. Bu məktubda olan hikmətli məqamlar doğrudan da saymaqla qurtaran deyil. İnsan bu məktubun dərin məzmununa baxanda onun hər bir cümləsində olan əzəmət qarşısında həqiqətən təzim hissi keçirir. Buyurur ki, yerin məhvi yer adamlarının yoxsulluğundan yaranır; yəni camaat yoxsul olanda yer məhv olur. Həzrət bunu fəlsəfi bir məsələ kimi demir, reallıq kimi bəyan edir. Burada "yer" dedikdə məqsəd Malik Əjdərin getdiyi Misir məmləkətidir. Əlbəttə, o zaman Şam, İraq, İran, Mədinə və hər bir ölkə və ya vilayət Misirlə müqayisəolunası idi. Deyir ki, sən getdiyin yerdə xalqı varlandıra bilsən, ora abadlaşacaq. Əgər xalqı yoxsul saxlasan və ya yoxsul etsən, məmləkət də abad olmayacaq, xaraba qalacaq. Öz fəallıqları və bacarıqları ilə məmləkəti abadlaşdırmalı olan xalqın özüdür. Yerin hər tərəfini abadlaşdıran amil insanların yaradıcılığıdır. Sonra buyurur ki, xalqın yoxsulluğu hakimlərin təqsiridir. Xalqın yoxsulluğuna onlar bais olurlar. Çünki sərvət və mənafeyi özləri mənimsəyirlər və bu, xalqın yoxsulluğuna səbəb olur. Əlbəttə, bir zaman hakimlər qədim müstəbidlər kimi olurlar. Məsələn Rza xan hər şeyi istəyirdi və heç bir şeylə doymurdu. Bir qrup da onun yanında istifadə edir və bacardıqlarını aparırdılar. Şahın payı birinci idi, sonra da tədricən şahın ətrafında duranların hər biri öz qədərincə talayırdı. Qədim avtoritarlar belə idilər. Əlbəttə, Pəhləvi hökuməti daha müasir forması idi, daha qədim formasını da kitablarda Qacarlar, Nasirəddin şah və digərləri haqda oxumuşuq. Bir forması da modern üsuldur - yəni zahirən demokratik, əslində isə avtoritar hökumətlər. Bu gün bu hökumətləri iqtisadi kompaniyalar idarə edir. Siyasi texnoloqlar onlardır. Zahirdə heç kimdirlər, amma əslində parlamentə deputatı onlar göndərirlər, prezidenti onlar hakimiyyətə gətirirlər. Prezidentin köməkçiləri var, səfirlər var, nazirlər var, müxtəlif sahələrin başçıları var. İstibdadın icra növü də qabaqkı kimi deyil ki, desin hökm edirəm. Rza xan Tehranda bəyanat verir və onda dörd-beş

dəfə "hökm edirəm" sözünü işlədirdi. Bu gün hakim demir ki, hökm edirəm. O öz demokratik nəzakətini əldən vermir, əsla hökm etmir, amma mahiyyəti elə hökmdür. Yəni bu kompaniya üçün lazım olan qanun mütləq qəbul olunur, onların yaşaması üçün lazım olan işlər mütləq görülür; hətta İraq kimi bir ölkəyə hücum etməklə olsa belə. Məgər İraqın abadlaşmasından və neftindən kimlər istifadə edirlər? Amerikanın, yaxud İngiltərənin hökumət başçıları dövlətin mənafeyi üçün çalışmırlar ki, kompaniya, neft və hər şey dövlətə məxsus olsun. Xeyr! Hər bir yeni şeydən bu ölkələrə hakim olan iqtisadi və maliyyə şəbəkələri istifadə edirlər.

Dövlət Şurasının üzvləri ilə görüşdəki çıxışdan: 2004.

19 **Deydə Qum əhalisinin tarixi rolu**

19 Dey (9 yanvar) xalqımızın siyasi tarixinin mühüm dönəmlərindən biridir. Güclü təhlil qabiliyyəti olan hansı şəxs bu hadisəyə baxsa, bunu görər. Bu hadisənin qəhrəmanı Qum əhalisidir - Qumun fəal gəncləri, mömin xalqı, həmin gün və ondan sonra öz rolunu sözün həqiqi mənasında ifa edən və gəncləşmiş qədim elmi hövzə.

Məsələnin xülasəsi bu idi ki, İran xalqı bir tərəfdən muzdur rejimin diktatorluğundan, bir tərəfdən məişət problemlərindən, bir tərəfdən fəsad mədəniyyətinin yayılmasından, bir tərəfdən də xarici amillərin və konkret olaraq Amerikanın istismarından təngə gəlmişdi. Bu ümumi qəzəb və ümumi məqsəd İran xalqının dini inancından yetərincə qidalanıb xüsusi məna kəsb etdi. Bu ümumi qəzəb kor qəzəb və məqsəd tərif olunmamış məqsəd deyildi. Xalq nə arzuladığını və nə iş görmək istədiyini bilirdi və bu, İslam təlimlərindən irəli gəlirdi. Gənc hövzə tələbələrinin və böyük alimlərin uzun illər Böyük İmamın misilsiz rəhbərliyi altında hərəkət etməsi İran xalqında özünüdərk hissi yaratmışdı, onlar bu vəziyyəti bir xalq və bir ölkə üçün utanc amili bilir, onu dəyişməyin mümkünlüyünü və həm də yalnız xalqın özü tərəfindən mümkünlüyünü anlayırdı. Xalq bunu düzgün dərk etmişdi. Ümumi qəzəb İranın hər yerinə çatmışdı. Lakin bütün hadisələr kimi bunda da başlanğıc nöqtə yaranmalı, bir qəhrəman meydana çıxıb başlamalı idi. Bunu başlayan Qum əhalisi və Qumun elm hövzəsi oldu. Məsələnin əhəmiyyəti bundadır. Hərəkətverici amil İslam, məqsədlər iman və İslam vasitəsi ilə tərif olunmuş məqsədlər idi, ilahi dəstəyə ümid və milli mübarizənin gücünə inam vardı. İran xalqı istər 19 deydə, istər ondan sonra və onun nəticəsində baş verən hadisələrdə bu xüsusiyyətləri özündə toplamışdı. Bu hadisə tufanı başlatdı və bu tufan həqiqət düşmənlərinin, azğın və şər qüvvələrin həlakını qaçılmaz edirdi: “Biz kitabdan (Tövratdan, yaxud lövhi-məhfuzdan) sonra Zəburda da

yeri yalnız Mənim saleh bəndələrimin irs aparacağını yazmışdıq”[1]. Bu, Allahın vədidir. Haqq xalq tərəfindən himayə olunmayınca zehni və mənəvi bir məsələdir; onun haradasa həyata keçməsini gözləmək olmaz. Lakin haqqın ardınca insanların iman qüvvəsi səfərbər olunsa, işə girişsə, varlıq sisteminə uyğun olduğuna görə həyata keçəcək və bizdə həyata keçdi. Əgər İslam ümmətinin uzun tarixi boyu, müsəlmanların zəifliyi başlanandan bu günə qədər haqqın məzlum və məğlub olduğunu görürüksə, bu çatışmazlığa görədir. Çünki imanlı insan qüvvəsi özünü kənara çəkmiş, cəmiyyətdə haqq bayrağını ucaltmamış və haqq sütununu möhkəmlətməmişdir. Buna görə də gördüyünüz vəziyyət yarandı, İslam ümmətinin həyatı bu gün dünyanın bir çox bölgələrində müşahidə etdiyimiz fəlakətli hala düşdü. İran xalqı isə ilahi qanuna əməl etdi; yəni haqqı daşıdı, çiynini ilahi həqiqəti həyata keçirmək yükünün altına verdi, meydana atıldı, Allah-Taala da Quranda dəfələrlə söz verdiyi yardımını bəxş etdi. Bu iş Qumdan başlandı. Bu günü uca tutun. Bu gün tarixi bir gündür. Onu qorumaq və bu hadisədə olan dərsləri təbliğ etmək lazımdır.

19 Dey qiyamının ildönümü münasibəti ilə Qum vilayətinin əhalisi ilə görüşdəki çıxışdan: 2005.

[1] Ənbiya/105.

Xalqın müstəqillik və azadlıq üçün iradəsi

İran xalqı səhnəyə çıxıb asılı diktatorluğun istismarına son qoydu, soyğunçu düşməni ölkəsindən qovdu, yanlış mədəni sistemi və əcnəbi mədəniyyətinin istismarını bacardığı qədər məhv edib haqqı hakim etdi. Tağut getdi, xalqa arxalanan və dini imandan irəli gələn qüvvələr hakimiyyətə gəldilər, Allahın söz verdiyi kimi ilahi bərəkətlər nazil oldu: "Əgər bu yerlərin əhalisi iman gətirib (Allahdan) çəkinsəydilər, sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq"[1]. Allah-Taala söz verib ki, iman və təqva səhnəyə çıxsa, rəhmət və bərəkət qapısını açar. Və bu iş baş verdi.

Siz bu gün ölkəyə baxsanız, görərsiniz ki, tağut dövrü ilə müqayisəolunası deyil. Maddi baxımdan daha inkişaf etmişdir, imkanları daha genişdir, mənəviyyat və əxlaq baxımından o dövrdən dəfələrlə uca və yüksəkdir. O zaman bu ölkə tamamilə amerikalıların əlində idi; həm iqtisadiyyatı, həm siyasəti, həm ictimai münasibətləri. Bu ölkədə görülən işlər İranda nüfuzu olan əcnəbi istismarçıların maraqları istiqamətində idi. O zaman ölkənin yüksək məmurlarının seçilməsində xalqın ən az rolu belə yox idi. O zaman xalqın əksəriyyəti üçün əsla fikirləşmir, bir iş görmür və ümumiyyətlə əhəmiyyət vermirdilər. O zaman ölkədə elm son dərəcə geridə idi. Bu ölkədə mövcud olan bütün bu parlaq istedadlar dondurulmuşdu. Əgər kimsə bir yol tapa bilsəydi, digər ölkələrə gedib onlar üçün çalışırdı. Çoxları belə etdi. O zaman İran xalqı özünün ən kiçik istehsalı üçün xaricilərə möhtac idi; ya idxal edirdi, ya da daxildə düzəldilirdisə, yenə xaricilər düzəldirdilər. Biz o zaman tikanlı məftili, bel dəstəyini və bu kimi şeyləri də xaricdən idxal edirdik. Ölkə inqilabın sayəsində hərəkətə gəldi və dəyişdi. O zaman ölkənin 35-40 milyonluq əhalisi arasında çox az sayda tələbə var idi. Bu gün bizim cəmiyyətimiz təxminən iki dəfə, tələbələrimizin sayı isə təxminən on beş dəfə artmışdır. Universitetlərin və müəllimlərin sayı

[1] Əraf/96.

bundan dəfələrlə artıqdır. İran xalqının öz əli ilə yaratdığı sənayenin möhtəşəm sərgüzəşti var. O zaman ən sadə əşyaları da digərləri gəlib düzəldirdilər; bizim pulumuzu alırdılar, bizi təhqir edirdilər, sonra da onun ən aşağı növünü düzəldirdilər. Bu gün bizim gənclərimiz ən mürəkkəb və ən dəyərli texnologiyalara yiyələnmişlər. Onun nümunələrini eşitmisiniz və bilirsiniz. İctimai rəyin və ümumi tamaşaçıların qarşısına çıxarılan isə reallıqdan dəfələrlə azdır. O zaman çay üzərində bir bənd düzəltmək istəsəydilər, gedib dörd ölkəyə yalvarmalı və çoxlu pul verməli idilər. Onlar da gəlib yararsız yerlərdə bənd tikirdilər. Bu gün bizim gənclərimiz öz əlləri ilə belə şeylərdən o dövrdən ən azı onlarla dəfə çox düzəldirlər. Ölkə inkişaf edib. Ölkənin elmi inkişaf edib. Ölkənin iqtisadi inkişafı ozamankından dəfələrlə artıqdır. Ölkənin imkanları o zamandan çox genişlənib. Ölkənin mənəviyyatı və əxlaqı o zamanla müqayisəolunası deyil. Milli özünəinam bu gün o zamandan yüz qat artmışdır. Bunların hamısından üstünü odur ki, bu gün ölkə müstəqildir. Gördüyünüz bütün bu beynəlxalq ajiotajlar və kobudluqlar bu müstəqilliyə görədir. Bu müstəqilliyi xalqın mübarizəsi bu ölkəyə ərməğan etdi. Bu yolun dönüşü yoxdur. Bunu dünyada hamı bilsin. İran xalqı bir də heç zaman amerikalıların bu məmləkətə qayıtmasına icazə verməyəcək. Birinci gündən İranda soyğunçu və israfçı rejimin - yəni Amerika Birləşmiş Ştatlarının düşmənliyi başlandı, bu günə qədər də davam edir və bundan sonra da davam edəcək. Bu günə qədər bu düşmənliklər təsir etməyib, bundan sonra da Allahın qüdrəti və yardımı ilə heç bir təsir etməyəcək. Əlbəttə, hegemonluğun strateq və analitikləri elə bilirlər ki, inqilabda baş verən, ölkədə və siyasi sistemdə böyük bir dəyişiklik yaradan hadisəni öz çirkin niyyətləri ilə yenə də təkrarlaya bilərlər. Özlərini o qapıya-bu qapıya vururlar. Son 10-15 ildə Amerikanın, sionistlərin və dünyanın hegemon düşərgəsinin casusları dəfələrlə İranda xalqı təhrik etməyə, onun bir hissəsini xalq adı ilə ayağa qaldırıb inqilab hadisələrini simulyasiya etməyə çalışmışlar. Ağılsızlar bilmirlər ki, inqilab daxildən və imandan baş qaldıran hadisə idi, İran xalqının

hər bir fərdinin qəlbinə dayanırdı, məcburən və pulla baş vermədi. Əgər nə zamansa belə bir şey mümkün olsa, Birləşmiş Ştatları rejiminin və onların muzdurlarının əleyhinə baş verəcək. Dayağı xalqın qəlbində olan güclü iman quruluşu bu küləklərlə əsla yerindən tərpənməz, amma onlar öz səylərini göstərirlər. Xalq gərək ayıq olsun.

19 Dey qiyamının ildönümü münasibəti ilə Qum vilayətinin əhalisi ilə görüşdəki çıxışdan: 2005.

19 **Bəhmən - Hərbi Hava Qüvvələrinin ayıqlığının tərənnümü**

Hər il 19 bəhmən (8 fevral) günü mənim üçün şəfəq ongünlüyünün ən gözəl günlərindən biridir. Bu gün mənalı, dərin və ilham bəxş edən xatirəyə malik bir gündür. 19 Bəhmən yalnız çətin gündə bir qrup adamın bizim böyük imamızla beyət etməsindən ibarət deyil. Bunun ozü də mühüm məsələ olsa da, bu gündə baş verən hadisə bundan böyükdür. Bu hərəkət bizim cəmiyyətimizin bütün təbəqələrinin seçdikləri yolda və gördükləri işdə çox ayıq olduqlarını göstərirdi. Bəzi qərəzli analitiklər möhtəşəm inqilabı dərk və ayıqlığa malik olmayan bir hərəkət kimi təqdim etməyə çalışırlar. Lakin inqilab xalqın ayıq hərəkəti idi. Bunun canlı sənədlərindən biri 19 Bəhmən hadisəsidir.

Tağut rejimi Hərbi Hava Qüvvələrinə xüsusi diqqət ayırır, onu tam şəkildə əlində saxlamaq və özünə aid etmək istəyirdi. Həmin gün ordunun Hərbi Hava Qüvvələrinin mömin və həvəskar işçilərinin bir qrupu hərbi geyimdə və bəziləri hərbi biletlərini əllərində tutaraq mübarizənin ən həssas zamanında səhnəyə çıxdılar. Onlar nə iş gördüklərini anlayırdılar; həm onun təhlükəsini bilirdilər, həm də əhəmiyyətinə və əzəmətinə vaqif idilər. Əməldə də İran xalqının hərəkətinin ayıq hərəkət olduğunu göstərdilər. Göstərdilər ki, bu xalqın bütün təbəqələrdən olan azad insanları İran xalqının istəyinə və kimliyinə etinasız yanaşan əcnəbi və hegemon güclərin kəndirini öz əl və ayaqlarında görmək istəmirlər; hətta düşmənlərin bu işi onların daxili muzdurları vasitəsi ilə həyata keçsə də. Odur ki, bu xatirə çox mühüm, həmişəyaşar və mesajlı bir xatirədir. İran xalqı fəxr edir ki, müxalifət və ədavətin ağır tufanları önündə bu ayıq hərəkəti əldən vermədi, buraxmadı və qorudu.

Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2005.

İlkin məqsədləri qorumaqda İslam inqilabının digər inqilablarla fərqi

Bu, son əsrlərdə dünya inqilabları tarixində belə uzun müddət ərzində öz düzgün xəttini və istiqamətini qoruya bilən ilk böyük inqilabdır. Belə hal olmamışdı. 18-ci əsrin sonunda Fransa inqilabından hələ 15 il ötməmiş istibdad əleyhinə baş verən bu inqilab Fransa ölkəsinin özündə çox ağır bir avtoritorizmə çevrildi. Fransa xalqı Böyük Fransa İnqilabı adı ilə məşhur olan inqilabda istibdad əleyhinə ayağa qalxmışdı. Onların problemi şah üsul-idarəsi idi. Lakin hələ 15 il ötməmiş devrilmiş Burbonlar sülaləsindən daha qəddar, daha qüdrətli və güclü bir padşah hakimiyyətə gəldi, diktatura və imperatorluq yarandı. Ondan sonra yarım əsr, yaxud daha artıq müddətdə Fransa daimi təlatüm halında idi; bu onun əlindən alırdı, o bunun üzünə pəncə atırdı, bir-birinə zidd olan sülalə və padşahlar hakimiyyətə gəlib xalqı daimi qorxuya və pərişanlığa salırdılar. Bu, dünyada Böyük Fransa İnqilabı adı ilə məşhur olan inqilabdır.

Sovet inqilabı öz amallarından 15 ildən də tez yayındı. Xalqın köməyi ilə hakimiyyətə gəlmiş inqilab uzun illər davam edən və sonra xələflərinə irs çatan Stalin diktaturası ilə nəticələndi. O böyük ölkədə xalqın nəinki ictimai, siyasi, dövlət və ölkə məsələlərində, heç öz şəxsi həyatının mühüm hissəsində də azca ixtiyarı yox idi. Dünya inqilablarının taleyi belə olmuşdur. Dünyada baş vermiş xırda inqilabların da hər biri buna bənzər tale yaşamışdır. Əgər kimsə tarix adamı olsa və araşdırsa, çoxlu qəribəliklər görər.

Xalqla başlayan, xalqla davam edən, öz sözünü dəyişdirməyən, yolunu əvəz etməyən və məqsədlərini azaldıb-artırmayan ilk inqilab İran İslam İnqilabıdır. Bu inqilab Allahın adı ilə, xalq üçün, ədalət, istiqlaliyyət və azadlıq naminə başlandı və hələ də eyni ideallarla davam edir. Şüarlar hələ də bunlardır və Allahın yardımı ilə bunlar da qalacaq.

Bu inqilabın kimliyini təşkil edən ən mühüm amillərdən biri İran xalqının müstəqilliyi və etibarı idi. Bu amil Pəhləvi hökumətinin əlliillik

dövründə və ondan öncəki Qacar hökumətinin təxminən son əlli ili ərzində tamamilə tapdanmışdı. Bu qədər böyük ölkə, bu qədər istedadlı xalq, bu qədər çoxlu sərvət əcnəbilərin ixtiyarında idi; bir zaman rusla ingilisin əlində, bir zaman tamamilə ingilisin ixtiyarında, sonda da bunlardan daha güclü bir oğrunun - yəni Amerikanın ixtiyarında. İran xalqının alim və ziyalıları öz məlumatları və ayıqlıqları ilə o vəziyyətdən əziyyət çəkirdilər. Adi xalq da ondan işgəncə və zülm görürdü. Bu xalqın ən böyük məqsədlərindən biri bu əsir kimliyi yenidən əldə etmək, öz müstəqilliyinə qovuşmaq və hansısa ölkənin siyasətinə tabe olmamaq idi. Bu gün bu inqilaba qarşı ən mühüm düşmənliklər buna görədir.

Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2005.

İran xalqının uzun illər geridə qalması

Sizin yaşlarınızda olan hər bir gəncin - qız və oğlanın ən mühüm arzularından biri bu xüsusiyyətlərə malik olan bir cəmiyyətdə yaşamaqdır: elm və mədəniyyət baxımından inkişaf etmiş olsun, ədalətə, insani və əxlaqi münasibətlərə malik olsun, hamı və xüsusən gənclər üçün işıqlı gələcək müjdələsin. Bizim xalqımızın 26 il öncə İslam inqilabı ilə gördüyü böyük iş əlli il, yaxud hətta otuz il tez baş versəydi, bu gün ölkəmizdə və evimizdə belə ideal cəmiyyətimiz olardı. İran xalqı İslam inqilabında gördüyü işi Məşrutə hərəkatında, yaxud ondan sonrakı illərdə görə bilsəydi, yol o zamandan başlayardı, biz bu gün elm və sənaye baxımından inkişaf etmiş, həm də ədalətli və gənclər üçün çox mühüm olan mənəviyyatlı və imanlı bir cəmiyyətin şahidi olardıq. Lakin İran xalqı belə bir dəyişikliyə can atanda onun qarşısını aldılar. Mən bu sözü çox dəqiq elmi əsaslarla deyirəm. Belə deyil ki, İran xalqı fədakarlıq etmək istəmirdi, yaxud buna hazır deyildi. Əslində Məşrutə dövründə xalqın və onun rəhbərlərinin təcrübəsizliyindən istifadə etdilər, bu ölkədə bütün bədbəxtliklərin mənşəyi olan uzunmüddətli şah istibdadı əleyhinə baş qaldırmış möhtəşəm hərəkəti yolundan çıxardılar və daxildən məhv etdilər. Məşrutə məsələsi bizim son dövr tariximizin acı macəralarından biridir. İran xalqı səhnəyə çıxdı, Nəcəfdə və ölkə daxilində olan ruhani rəhbərlər, böyuk alimlər və təqlid müctəhidləri xalqı səfərbər etdilər. Xalq da yaxşı fədakarlıq göstərdi, amma təcrübəsi olmadığına görə düşmənin qüvvələri və əcnəbi istismarçılar bu hərəkəti daxildən zərərsizləşdirib məhv edə bildilər.

Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdəki çıxışdan: 2005.

Xalqın yolunu yayındırmaq üçün müstəmləkəçilərin planı

O zaman düşmən konkret olaraq İngiltərə dövləti idi və Amerikanın bu gün dünyada gördüyü işləri görürdü. Onların məqsədi istismarçılıq, soyğunçuluq, talançılıq, Asiya, Afrika və başqa yerlərin xalqlarının milli sərvətlərini sormaq, özlərini də geridə saxlamaq üçün onların daxili işlərinə müdaxilə etmək idi. İlk addımlardan mürəkkəb üsullardan istifadə edib Məşrutəni xalqın istədiyi İslam, müstəqillik və azadlıq yolundan yayındırdılar. Məşrutənin bəzi rəhbərlərini ittiham, bəzilərini edam, bəzilərini terror, bəzilərini təcrid etdilər və öz muzdurları vasitəsi ilə ajiotaj yaradıb vəziyyəti nəzarətə götürdülər. 10-15 ildən sonra ingilislər Məşrutəyə və İran xalqına qarşı əks-fənd işlədib Rza xan Pəhləvini hakimiyyətə gətirdilər. Xalqın və hətta rəhbərlərin də təcrübəsiz olduğuna görə düşmən öz işini görə bildi. Odur ki, bu böyük hərəkət 80-90 il təxirə düşdü, bu müddət ərzində bu məzlum xalqa və bu ölkəyə nə bilirdilərsə, etdilər. Daxili istibdadla yanaşı xalqın qara taleyini təkmilləşdirən əcnəbi istismarını reallaşdırmaqdan ötrü Pəhləviləri iş başına gətirdilər. Onlar xalqın dünya inkişafları ilə tanış olduğunu bilirdilər və bu inkişaflara olan çox səmimi həvəsini soyutmaqdan ötrü sivilizasiyanın bərbəzəkləri ilə xalqın başını qatdılar və Qərb sivilizasiyasının məğzi olan elmi və inkişafı əsirgəyib xalqı zahiri məsələlərlə aldatdılar. Sanki bir uşaq acdır, ona proteinli və vitaminli qidalar əvəzinə duzlu qarğıdalı çubuqları verib iştahını kəsirlər ki, daha yeməyə meyli olmasın. Onlar xalqa bunu etdilər.

Bu xalq illərlə əcnəbi istismarından yaranan çətin vəziyyətdə yaşadı və nəhayət İslam inqilabına şərait yarandı. Hikmətli və qüdrətli bir rəhbər bütün qəlblərə təsir edən güclü iradə ilə xalqın arasına çıxdı və meydana daxil oldu. Xalq da təcrübə qazanmışdı. Buna görə də İslam inqilabı baş verdi və bu dəfə düşmənin hiyləsi təsirsiz qaldı. İslam inqilabında xalq və rəhbərlər təcrübə toplamışdılar. Məşrutə dövründə rəhbərlər və xalq əcnəbilərin hazırlıqlı pusqusunun nə qədər təhlükəli olduğunu bilmirdilər. Buna görə də öz hasarlarını götürüb düşmənin

hücumuna şərait yaratdılar. Düşmən də gəlib istədiyi işi gördü. İslam inqilabında isə Məşrutə təcrübəsindən istifadə edərək həm xalqımız, həm ruhani rəhbərlərimiz, həm də vicdanlı ziyalılarımız anladılar ki, düşmənin təxribatları qarşısında mənəvi qalanı - yəni imanı, inqilabi dəyərləri və ictimai oyanışı qorumaq lazımdır.

Şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdəki çıxışdan: 2005.

Düşmənin daimi məqsədi: İranın asılı qalması

Keçmişdə uzun illər bu xalqa və bu milli kimliyə zülm olunub. Bunu bizim hamımız daim göz önündə saxlamalıyıq. Tarix boyu bizim xalqımıza həqiqətən zülm olunmuşdur. Bu gün sizdə olan bacarıq və istedad bizim ölkəmizin gənc nəslində, kişi və qadınlarında həmişə mövcud olmuşdur. Amma insan istedadının çiçəklənmək üçün həvəsləndirməyə, tanınmağa, inam və ümid ruhunun köçürülməsinə ehtiyacı var. Müxtəlif dövrlərdə bu siyasətin tam əksi icra olundu. Bu sahədə əsl günahkar hökumətlər və siyasilər olmuşlar. Buna əsla şübhə etmək olmaz. Bəziləri nə etdiklərini bilirdilər. Məsələn, Pəhləvi dövründə əksər məmurlar bilərəkdən bu yolu getdilər, istedadların parlamasının qarşısını aldılar. Səbəb də bəllidir. Onlar iranlının asılı qalmasını istəyirdilər. Onların İranın istedadlı nəslinə qarşı düşmənliyi təbii düşmənlik deyildi. Doğrudan da şəxslərlə düşmənlik etmək istəmirdilər. Xeyr! Dünyanın zalım siyasi hakimləri onlardan bunu istəmişdilər.

Siz görün Pəhləvi hökumətini kim hakimiyyətə gətirdi, Rza xanı kim bu ölkəyə hakim etdi. Bu daha tarixin qaranlıq məqamlarından deyil. Bu gün hamı bilir ki, Rza xanı ingilislər hakimiyyətə gətirdilər və onun daha işə yaramadığını hiss edən kimi kənarlaşdırıb Məhəmmədrzanı gətirdilər. Bu bizim müasir tariximizin aydın həqiqətidir. Onları hakimiyyətə gətirənlər müxtəlif siyasətlərlə özlərindən asılı saxlamağa çalışırdılar. Bu ölkədə milli hərəkat olan Müsəddiq hərəkatı başlayanda ən çox təhlükə hiss edən tərəf hökumət və şah rejimi deyildi. Ən çox təhlükəni ingilislər hiss etdilər. Sonra ingilislər işin öhdəsindən gələ bilmədiklərini görüb amerikalıları prosesə cəlb etdilər. Onlar gəlib ağalığı ingilislərin əlindən aldılar və özləri hakim oldular. Bir nəfər qalxıb bir çamadan dollarla buraya gəldi və süni bir böhran yaradıb milli hökuməti devirdi, Məhəmmədrza Pəhələvi rejimini ölkəyə hakim etdi. Bu onların siyasətidir. Bu aydın bir

məsələdir. Onun sənədləri və əlyazmaları bu gün hamının ixtiyarındadır.

Təəssüf ki, siz gənclər bu məsələləri öyrənməyə az vaxt tapırsınız, amma bunlar lazımlı işlərdir, bunları bilməlisiniz. Bu gün Rza xanı İranda hakimiyyətə gətirən şəxsin adı bəllidir; Məhəmmədrzanı hakimiyyətə gətirən şəxsin adı bəllidir; İrana pul gətirən şəxsin adı bəllidir; Amerikada cızılan və əməliyyat otağı Avropada təşkil olunan plan bəllidir. Bunlar aydın və bəlli məsələlərdir. Onların özlərinin Xarici İşləri Nazirlikləri bunları çap etmişdir və bu gün bizim hamımızın ixtiyarındadır.

İran xalqının müstəqilliyindən və özünəinamından dünyanın istismarçı və müdaxiləçi qüvvələri ziyan görürdülər. Asılılıq bir xalq üçün böyük zəhərdir. Bu zəhərin dərmanı özünüdərkdən, düşüncə müstəqilliyindən, elmi müstəqillikdən, öz ayağı üstə dayanmaqdan, özünü idarə etməkdən, özünü digərlərinə möhtac bilməməkdən ibarətdir. Odur ki, onlar bu dərmanı xalqdan uzaq saxlamalıdırlar - bu təbiidir.

Pəhləvi rejiminin siyasəti bu xalqın istedadlarına qarşı yönəlmişdi. Bu bir şüar deyil, məntiqə və dəlilə söykənən sözdür. Uzun illər beləcə ötdü. Düzdür, onlardan öncə Qacarlar da eyni işi gördülər, lakin bilmədən, axmaqlıqdan, cəhalətdən, elmlə tanış olmadıqlarına görə. Onlarda da asılı olan şəxslər tapılırdı. Bu bizim keçmişimizdir. Bütün bu tarix boyu İran xalqına zülm olunmuşdur.

İslam inqilabı bu rejimi devirdi, lakin bu kifayət etmir. Maneələr götürülmüşdür, amma bu, böyük arzuları həyata keçirmək üçün hər şey demək deyil.

Gənc ixtiraçılar və yenilikçilərlə görüşdəki çıxışdan: 2005.

İslam inqilabının nəticəsi: asılılıqdan qurtuluş

Bizim ölkəmiz tağut dövründə qəsdən geridə saxlanır, istedadları məhv edilir və zəncirlənirdi. O zaman hegemon dünya digər ölkələrə qarşı olduğu kimi bizim ölkəmizə qarşı da istismarçı siyasət yürüdürdü. Buna görə də ölkənin inkişafını istəmirdilər. Onlar ölkənin neftindən, mədənlərindən, sərvətlərindən və istehlak bazarından istifadə etmək istəyirdilər. Bir ölkənin elmi cəhətdən inkişaf edib onlara rəqib olmasını istəmirdilər. Onlar özlərinə istehlakçı və süfrələrinin artığını yeyən istəyirdilər. Hökumət onlardan asılı idi, siyasət və proqramlar da onlarınkı idi.

İslam inqilabı və İslam quruluşu ölkəni asılılıqdan qurtardı, zəncirləri götürüb xalqın yolunu açdı. Bu gün ölkə sənayedə, istehsalda, texnologiyada, elmdə, ölkənin gələcəyini qurmaq üçün mühüm infrastruktur işlərində inqilabdan öncə ilə müqayisəolunası deyil. Statistika və göstəricilərə baxdığımızda bəzi sahələrin yüzlərlə faiz, bəzilərinin min faiz, bəzilərinin isə minlərlə faiz inkişaf etdiyini görürük.

Kerman əhalisinin böyük toplantısında çıxışdan: 2005.

Mübarizə dövründə Ciroft əhalisinin imanı və fədakarlığı

Təxminən 27 il öncə isti bir yay günündə mən bir neçə polis məmuru ilə birgə Ciroft şəhərinə daxil oldum. Şəhərdə heç kimi tanımırdım. Daxil olanda məmurlar mənə Ciroftun polis idarəsini göstərdilər. Bu vəziyyətdə Cirofta daxil oldum, amma hələ bir neçə gün ötmədən öz qohumlarımın, qardaşlarımın və əzizlərimin arasında olduğumu hiss etdim. Ciroft əhalisi bu zəif bəndəyə və o zaman tağut rejimi tərəfindən bu şəhərə sürgün olunan digər şəxslərə qucaq açdılar, haqq və həqiqət yolunun əsgərləri saydıqları bu şəxslərə dəstək verdilər və onlarla həmrəylik nümayiş etdirdilər. Düzdür, o zaman Ciroft şəhəri bu qədər böyük və gözəl deyildi, bir neçə xiyabanı olan kiçik bir şəhər idi, amma məhəbbət və səmimiyyət dəryası idi. Ramazan ayında, isti yay fəslində Ciroftun bu Came məscidi çoxlu qadınları, kişiləri və gəncləri özünə cəlb edirdi və onlar sürgün olunmuş hövzə tələbələrinin dilindən həqiqətləri dinləyirdilər. Mənim özüm həmin gecələrdə Ciroftun Came məscidində bir neçə dəfə çıxış etmişəm. Tağut rejiminin məmurları mane olurdular, amma xalqın istəyi və sevgisi bu maneələri ortadan götürürdü. Mən xüsusən Ciroftun şücaətli, ayıq və sayıq qadınlarını yada salmaq istəyirəm. Came məscidində sürgün olunan digər dostlarla keçirdiyimiz və xalqın iştirak etdiyi həmin məclislərdə birinci inqilab şüarını və tağut rejimi əleyhinə etiraz fəryadını ucaldan pərdə arxasında oturmuş qadınlar oldu. Ciroft qadınları həmin gün öz məscidlərində uca səslə Qumun, Tehranın və digər böyük şəhərlərin əhalisinin az-çox verdiyi şüarları təkrar etdilər. Bu bölgənin əhalisi imanlı, vəfalı, dinə və vilayətə böyük inamı olan insanlar idilər. Bu insanlar inqilab illərində və həmçinin məcburi müharibə dövründə çox yaxşı imtahan verdilər.

Ciroft əhalisinin böyük toplantısında çıxışdan: 2005.

Məlumatsızlıq - bütün geriliklərin kökü

Əziz qardaşlar! Əziz bacılar! İran xalqı son bir-iki əsrdə elm və sivilizasiya karvanından geri qaldı. Ölkə əcnəbilərin, düşmənlərin, yaxud onların təyin etdiyi adamların vasitəsilə idarə olundu. Bütün bunların səbəbi məlumatsızlıq idi. Ölkənin başına gələnləri dərk etməmələri üçün xalqı, gəncləri və müxtəlif təbəqələri məlumatsız və xəbərsiz saxlamışdılar. Dünyanın hər bir nöqtəsinə tamah salan müstəmləkəçilər bu iki əsrdə öz maraqları və şeytani məqsədləri naminə ölkəmizin hər bir yerində bacardıqları hər bir işi gördülər, qarşılarında maneənin olmaması üçün xalqı məlumatsız saxladılar. Əcnəbilərin özləri bu işi görə bilməzdilər, bu işdə asılı və azğın hökumətlər - Qacar və Pəhləvi sülalələri onlara yardım etdilər. Bunlar İran xalqından olsalar da, oğruların şəriki idilər. Özləri bu xalqa mənsub və ona borclu olsalar da, əcnəbiyə çalışırdılar. Əcnəbi də onların maraqlarına zəmanət verirdi. Əcnəbilərin vasitəsilə Qacarların maraqları bir şəkildə təmin olunurdu, mənfur, asılı və azğın Pəhləvi hökumətinin maraqları da başqa şəkildə. Onlar xalqı məlumatsız saxladılar və ona qarşı əllərindən gələni etdilər.

Ciroft əhalisinin böyük toplantısında çıxışdan: 2005.

İslam inqilabı və oyanış hərəkatı

İranda İslam hərəkatı bizim böyük imamımızın, ayıq və mübariz ruhanilərin, mömin və dindar ziyalıların rəhbərliyi ilə bu ölkədə oyanış dalğası yarada bildi və bu, inqilabla sonuclandı. Bir xalqın inqilabı hegemonluğun ən möhkəm qalalarını belə uçurmaq gücünə malikdir və uçurdu da. İslam inqilabı Amerika və İngiltərə müstəmləkəçilərinə arxalanan Pəhləvi rejiminin istibdad qalasını məhv etdi, onun ardınca xalq və İslam hakimiyyəti yarandı. İslam Respubilkasını siz xalq yaratdınız. İslam Respubilkası – xarici qüvvənin müdaxiləsi olmayan, totalitarizmin və istibdadın olmadığı, aristokrat təbəqəsinin qarışmadığı, feodalizmin və mülkədarlığın xalqın işlərinə müdaxilə etmədiyi bir hökumətdir. Biz Ciroftda olanda xalq mülkədarların əlindən təngə gəlmişdi. Mülkədarlar mənfur Pəhləvi rejiminin, onlar da Amerikanın aləti idilər; yəni fəsad şəbəkəsi mövcud idi.

İslam Respubilkası - tağut hökumətinin sarayı, əcnəbilərin və mülkədarların müdaxiləsi olmayan bir quruluş, xalqın və ləyaqətli insanların hökumətidir. İslam Respublikasında hökumətin təsirli postlarına yiyələnmək səlahiyyətlərdən asılıdır. Kimin səlahiyyəti varsa, ölkənin hansı bölgəsindən və hansı ictimai təbəqədən olmasından asılı olmayaraq, vəzifəyə təyin olunmalıdır. Bunların hamısı İslamın hidayəti ilə, ilahi mətnlərdən və Qurandan ilham almaqla baş verir. İslam Respubilkası quruluşunun mənası budur. Yoxsul və varlı arasında, zadəgan və qeyri-zadəgan arasında ayrıseçkilik salmaq, xüsusi bir təbəqəyə üstünlük vermək İslam Respubilkası quruluşuna uyğun deyil. İslam Respubilkası quruluşunun hər hansı bir sahəsi hər hansı bir yerdə bu halların birinə düçar olsa, deməli, İslam Respubilkasının və İslam quruluşunun düzgün yolundan çıxmışdır və onu düzəltmək lazımdır.

Ciroft əhalisinin böyük toplantısında çıxışdan: 2005.

Keçmişdə xalqın ixtiyarsızlığı

Qarşıdan seçkilər gəlir. Seçkilər həmrəyliyin mühüm yerlərindən biridir. Seçkilər haqda danışmışıq, hamı danışıb və seçkilərə qədər lazım olsa, yenə danışacağıq. Önəmli olan isə budur ki, xalq bu seçkilərdə öz həmrəyliyini göstərsin. İran xalqı İslam inqilabına qədər heç zaman bu seçim imkanına malik olmamışdır. İslam inqilabı İran xalqının ixtiyarında bu imkanı qoymuşdur. İslam inqilabından öncə İran xalqı oturub tamaşa edirdi ki, kim hakimiyyətə gəlib istədiyi qərarı verəcək. Onları kim hakimiyyətə gətirirdi? Dünyanın müxtəlif gücləri və müxtəlif siyasi cinahları; bir gün ruslar, bir gün ingilislər, bir gün amerikalılar. Bu hadisələrdə İran xalqı tamaşacı idi və heç bir ixtiyara malik deyildi.

Şəhid ailələri ilə görüşdəki çıxışdan: 2005.

Müsəddiq dövrünün demokratiyasının İslam Respublikası quruluşu ilə müqayisəsi

İnqilabın bizə verdiyi azadlıq və demokratiya, hətta nisbətən azad və öz sözləri ilə desək, demokratik bir dövr olan Müsəddiqin dövründə də yox idi. Doktor Müsəddiq o zamanın Şura Məclisini - yəni demokratiyanın atributu olan parlamenti buraxdı. Düzdür, onda demokratiya da yox idi, lakin Müsəddiq dedi ki, mən səlahiyyət istəyirəm. Səlahiyyəti aldı - əvvəl altı ay, sonra daha altı ay. Özünün ikiillik hökumətində bir il, yaxud bir qədər artıq mütləq səlahiyyətlərlə rəhbərlik etdi; özü qanun çıxarır, özü imzalayır və özü icra edirdi. Bunun harası İslam Respubilkası quruluşu ilə müqayisəolunasıdır?! Bu 26 il ərzində İslam Şurası Məclisinin və xalqın nümayəndələrinin iş başında olmadığı bir gün də olmamışdır.

Şəhid ailələri ilə görüşdəki çıxışdan: **2005**.

İmamın müstəsna şəxsiyyətinin müxtəlif cəhətləri

Bizim böyük imamımız tariximizdə həqiqətən müstəsna bir şəxsiyyət və İran xalqının hərəkətində uca bir zirvə idi. Bunu onu sevdiyimizə görə demirik, hər bir insaflı adam bunu təsdiqləyər. İmam həqiqətən müstəsna bir şəxs idi. Biz ölkənin tarixi şəxsiyyətlərini tanıyırıq. Mən tarixlə az-çox tanışam. Bu kamil şəxsiyyətin nə bizim böyük alimlərimiz arasında bənzəri var, nə bu ölkənin başçıları arasında, nə də siyasi dəvətçilər və islahat tərəfdarları arasında. Bizim ölkəmizdə, hətta bütün İslam dünyasında dəyişiklik istəyənlər, mərhum Seyid Camal kimi böyük şəxsiyyətlər hara, həqiqətən vəsfəgəlməz, güclü və çoxcəhətli bu insan hara?! Bizim böyük alimlərimiz, fəqihlərimiz olmuşdur. Onların sözləri qalır. Böyük İmam belə şəxsiyyətlərin birinci sırasında durur. Mən bir çox filosofların, ariflərin, əqli elmlər üzrə mütəxəssislərin, siyasətçilərin, təcrübəli qocaların və görkəmli insanların həyatını ya kitablarda oxumuşam, ya həyatımda onlarla rastlaşmışam. Onlarla Böyük İmam arasında fərq çoxdur. Bu şəxsiyyətin müxtəlif cəhətlərinin hər biri təklikdə də öz oxşarlarından üstün və öndədir.

Bu insanın təqvası, zahidliyi və dünyaya etinasızlığı başqa bir mövzudur. Biri var ki, insan evinin dörd divarı arasında oturub nə dünya ilə maraqlansın, nə xalqla maraqlansın, nə imtahan olunsun, amma zahid olsun. Biri də var ki, bütün bu inqilabın səbəbkarı olan, xalqın da bu qədər hörmət və qəbul etdiyi dünya şöhrətli bir insan bu şəkildə zahidlik etsin. Onun böyük işlərdə qətiyyəti, güclü iradəsi və polad əzmi də belədir. Yəni insan bu geniş okeanın hansı tərəfinə baxırsa, həqiqətən vəsfəgəlməz olduğunu görür. Okeanın dərinliyində başqa aləmlər var. İnsan okeanın sahilində bir qədər su görür və ilk baxışdan onunla böyük bir hovuz arasında fərq hiss etmir. Amma okeanın dərinliyinə baş vuranda orada başqa aləmlər aşkara çıxır, insan yaxınlaşdıqca və dərinliyə getdikcə daha yeni şeylər kəşf edir. İmam da həqiqətən belədir.

Bizim qeyd etdiyimiz tərifl ərin tarixi tətbiqi ola bilər, amma bu müstəsna şəxsiyyət yalnız tarix üçün deyil. İran tarixində böyük iş görmüş, xalqı hərəkətə gətirmiş, bütün əzəməti və gözlənilməzliyi ilə yanaşı güclü İslam Respublikası yaratmış şəxsiyyətimiz var. Çox gözəl! İndi bu böyük şəxsiyyəti qiymətli əşya kimi tarixin vitrininə qoyub tamaşa etməli və tərifləməliyik?! Belə olmalıdır?! Biz imamı bu cəhətdən peyğəmbərlərə bənzətməliyik. Peyğəmbərlərin varlığı və kimliyi yaşadıqları dövrlə bitmir, tarix boyu davam edir. Yəni onların həyatı özlərindən sonra təlimləri, dinləri və yolları ilə davam edir; beləliklə əzm və şəriət sahibi olan peyğəmbərlər olurlar. Belə olmasa, peyğəmbərlərin həyatı da digər insanlar kimi olar; əlli il, altmış il, yüz il bu dünyada yaşayıb böyük işlər görər, sonra da gedərlər. Buna əsasən, məsələ bununla bitmir. Əgər belə olsaydı, bu gün peyğəmbərlərin din və təlimlərindən dünyada əsər-əlamət qalmazdı. Halbuki belə deyil. Bu gün bütün uca bəşəri bilgilər, vasitəli olsa da, peyğəmbərlərin təfəkkürünün məhsuludur. Ədaləti, əxlaqı, Allaha diqqəti, özündə qapanıb qalmamağı, insanlar üçün fədakarlıq etməyi və bu gün bütün dünya xalqlarının qəbul etdiyi digər dəyərləri söyləyən və ortaya qoyanlar onlar olmuşlar. Hegemonların və zalımların əlində olan bir dünyada nə üçün ədalət, azad düşüncə, qardaşlıq və fədakarlıq sözləri yaşamış və həmişə dəyər sayılmışdır? Bu, peyğəmbərlərin təliminə görədir. Onlar bu təlimləri qoyub getmişlər. Onların həyatı 50-60 illə bitmir. Onların həyatı bu təlimlərin insanların hidayətindən ötrü tarix boyu qalması ilə davam edir. Bizim imamımız da belədir.

İmam Xomeyninin vəfatının ildönümü tədbirlərinin təşkilat komitəsinin üzvləri ilə görüşdəki çıxışdan: 2005.

İmamla əhdi yeniləmək və onun yolunu davam etdirmək

Bu gün bizim böyük imamımızın vəfatının kədərli xatirəsinin canlandığı gündür. Bu kədərli gün İran xalqı üçün unudulmazdır. Bizim bu yerə gəlişimiz isə əhdi yeniləməkdən ötrüdür. Biz böyük imamımızın yatmış cismi kənarında onun pak ruhuna müraciətlə deyirik: "Biz əhdimizə sadiqik". Böyük imamımızla bağladığımız əhd-peyman onun yolunu davam etdirmək və məqsədlərinə çatmaq üçün səy göstərməkdir. Biz imamı yalnız adı və işi ilə fəxr etməkdən ötrü istəmir, yalnız İslam Respublikasının bəzəyi hesab etmirik. Bunlardan daha üstün və daha mühüm məsələ budur ki, imam bizi bir yola yönəltdi, qarşımıza məqsədlər qoydu, yolu itirməmək üçün bizə meyarlar göstərdi. Biz yalnız bu yolla getdikdə gözəl həyata nail ola və onu dada bilərik. Biz bununla cəmiyyətimizdən və xalqımızdan yoxsulluq və gerilik kabusunu uzaqlaşdıra, bəşərin qədim arzusu olan ədaləti həyata keçirə, müsəlman xalqların təhqirinə son qoya, hegemon güclərin tamahını yaltaqlıqla və rəzilliklə yox, qüdrətlə özümüzdən dəf edə bilərik. Biz bununla əxlaqı, təqvanı və imanı həm öz fərdi rəftarlarımıza, həm də ölkənin ümumi proqramlarına hakim edə, Allahın böyük neməti olan azadlığı bütün faydaları ilə birgə qazana bilərik. Bunlar imamın məqsədləridir. İmamın hərəkəti, inqilabı və yaratdığı quruluş bu məqsədləri həyata keçirməkdən ötrüdür. Deməli, imamın yolu iman, ədalət, maddi inkişaf və şərəf yoludur. Biz bu yolu davam etdirməyi əhd etmişik və Allahın yardımı ilə davam etdirəcəyik. İmam bizim qarşımızda bu yolu açdı, bu məqsədləri bizə başa saldı. O özünün qətiyyətli iradəsi, güclü qolu və xalqın yardımı ilə bu uzun yolun ən mühüm mərhələsini arxada qoydu və İslam dünyasını dəyişdirdi. Allah adamları belədirlər: dünya bəzəklərinə etinasız olmalarına rəğmən, dünyanı dəyişdirə bilirlər. Onların gücünün əsas amili dünyaya etinasızlıqdır. Allah adamlarının hər şeyə və hər kəsə baxışları Allaha baxışları ilə tənzimlənir. Allah adamları tarixə ruh bəxş edirlər və etmişlər. Bəşərin həqiqi və mənəvi tarixini Allah adamları yazmışlar. Siz

baxın, bu gün İbrahimin, Musanın və İsanın (ə) dövründən min illər keçsə də, onların bəşəriyyətə töhfə verdiyi düşüncələr bu gün bəşərin ən gözəl düşüncələridir. Əgər bu gün azadlıqdan və insan hörmətindən söhbət gedirsə, cəmiyyətlərdə insan hüquqlarından danışılırsa, ədalət, ayrıseçkiliyi aradan qaldırmaq dünyada hələ də müqəddəs missiya sayılırsa, fəsadla, fəsad törədənlərlə və zülmlə mübarizə və haqq uğrunda fədakarlıq hələ də insanlar üçün xoşagələndirsə, onları peyğəmbərlərin - Allah adamlarının tarixə təqdim etdiyinə və bəşəriyyətin ixtiyarında qoyduğuna görədir. Buna əsasən, Allah adamları tarixi dəyişdirir, Allaha ümidlə və Ondan qorxmaqla qeyri-mümkünləri mümkün edirlər. Maddi və heyvani qorxu və ümidlə insanı və insaniyyəti dəyişdirmək olmaz. Allah adamlarının qorxu və ümidi dünya adamlarının qorxu və ümidi kimi deyil. Onlar Allahı sevirlər, Allaha arxalanırlar, Ona itaətsizlikdən qorxurlar. Onlar Allahın qüdrətlə yaratdığı bütün təbiət qanunlarını öz məqsədlərinin xidmətində görür və Allaha güvənərək hərəkət edirlər. Məhz buna görə də bütün dünyanı dəyişdirirlər. Bizim böyük imamımız belə insanlardan idi.

İmam Xomeyninin vəfatının on altıncı ildönümü mərasimində çıxışdan: 2005.

Allah adamlarının hakimiyyətinin digər hakimiyyətlərlə fərqi

Allah adamları qəlblərə hökumət edir, Allaha bağlı olduqlarına görə qəlblərin sultanı olurlar. Allah adamlarının hakimiyyəti mənəvi hakimiyyətdir. Siyasi hakimiyyət də bu onların mənəviyyatından və mənəvi hakimiyyətindən irəli gəlir. Allah Öz adamlarına, peyğəmbərlərinə və onların canişinlərinə Öz gücünü verib onları qəlblərə hakim edir. Mənəvi hakimiyyətdən payı olmayan hakimiyyət gözəl olsa da, yalandan, hiylədən başqa bir şey olmayacaq. Buna görə də Allah adamlarının və ilahi hakimlərin hakimiyyət növü digərləri ilə fərqlidir. İmam bizə bu örnəyi göstərdi və biz onu yaxından gördük. Biz özümüzlə Allahın peyğəmbərləri, övliyaları, böyük ilahi və mənəvi insanlar arasında fərqin olduqca böyük olduğunu bilirik. Amma bizim dövrümüzdə yaşayan Böyük İmam ilahi peyğəmbərlərin və vəhyin olmadığı şəraitdə öz varlığı, düşüncəsi və rəftarı ilə mənəvi hakimiyyətə dair canlı bir nümunə göstərə bildi. Bu gün də imamın yolu, düşüncəsi və məqsədi İran xalqı və İslam ümməti üçün qurtuluş amilidir.

İmam Xomeyninin vəfatının on altıncı ildönümü mərasimində çıxışdan: 2005.

İmamın sayıqlığı və inqilabın müsadirəsinin qarşısını alması

İslam inqilabından sonra məhz İslam quruluşu yarandı. İslam inqilabı və İslam hərəkatı baş verə, lakin qeyri-islami quruluş da yarana bilərdi. Çox yerlərdə belə olmuşdu. Əlcəzairdə belə oldu. Orada hərəkat İslam hərəkatı, hərəkatın sosial dayağı və rəhbərləri müsəlmanlar idilər, amma qələbə çalandan sonra İslamın düşüncə əsaslarına etiqadı olmayanlar hakimiyyəti ələ keçirdilər. Burada da həmin işlər görülürdü; 21, 22 və 23 bəhməndə bu işləri görürdülər. Mən bəzi işləri yaxından müşahidə edirdim. Öz sözləri ilə desək, bir fəhlə hərəkatını bu ümumi hərəkata hakim etməyə, dünyada sosialist quruluşların hakimiyyətə gəlməsində işlədilən formulu - yəni fəhlə inqilabını həyata keçirməyə və sonra da bir neçə nəfəri hakimiyyətə gətirməyə çalışırdılar. Lakin onlar imamı nəzərə almamış, plan cızarkən bu sarsılmaz və məğlubedilməz qüvvəni yaddan çıxarmışdılar. Buna görə də güclü zərbə aldılar. Hətta inqilabın qələbəsindən üç gün sonra imamın Ələvi mədrəsəsindəki evinin qarşısına toplaşıb piket keçirdilər, dırnaqarası sosialist və fəhlə tələbləri irəli sürdülər, lakin İslam quruluşu yarandı.

Prezident və nazirlərlə görüşdəki çıxışdan: 2005.

Ədalətin zəruri şərti: ağıl

Əgər ədalətin cəmiyyətdə həqiqi şəkildə həyata keçməsini istəyiriksə, onu mütləq başqa iki amillə birgə nəzərə almalıyıq: bunların biri ağıl, biri isə mənəviyyatdır. Əgər ədalət ağıl və mənəviyyatdan ayrı olsa, sizin istədiyiniz ədalət yaranmayacaq və bu ümumiyyətlə ədalət olmayacaq. Əgər ədalətin nümunələrini təyin etməkdə ağıl işlədilməsə, insan sapqınlığa və səhvə düşər; bəzi işlərin ədalətli olduğunu düşünər, halbuki belə olmaz, yaxud bəzi ədalətli işləri görməz. Buna əsasən, ağıl və düşüncə ədalətə nail olmaq üçün zəruri şərtlərdəndir.

Ağıl və düşüncə deyəndə mühafizəkarlıq başa düşülməsin. Ağıllı olmaq və ağlı işlətmək mühafizəkarlıqdan fərqli bir şeydir. Mühafizəkar mövcud vəziyyətin tərəfdarı olub, hər bir dəyişiklikdən qorxandır. O heç bir yeniliyə dözmür və ondan qaçır. Ağıl isə belə deyil. Əqli düşüncənin özü bəzən böyük dəyişikliklərə səbəb olur. Bizim əzəmətli İslam inqilabımız ağıldan irəli gəldi. Xalq düşünmədən küçələrə çıxıb belə bir rejimi devirə bilməzdi. Bunun üçün əqli işlər görülmüş və düşüncə işlədilmişdi. Uzun illər xalq arasında haqsevərlik, ədalətsevərlik və azadlıqsevərlik mövzuları aktual olmuşdu. Bu, xalqın potensialını işə salıb əzəmətli cihad meydanına gətirdi və düşmən üzərində qələbə ilə nəticələndi. Buna əsasən, ağıllılıq bəzən belə böyük dəyişikliklərə səbəb olur.

Prezident və nazirlərlə görüşdəki çıxışdan: 2005.

Xalqın sükut günahının cəzası: repressiya illəri

Bəzən bir xalq, yaxud bir xalqdan olan təsirli toplum bir günah edir. Bu günahın da öz bağışlanma üsulu var. Bəzən bir xalq uzun illər pis işin və zülmün qarşısında sükut edir, heç bir reaksiya vermir. Bu da bir günah və bəlkə də daha ağır günahdır. Bu, "Hər hansı bir tayfa öz vəziyyətini dəyişmədikcə, Allah onun vəziyyətini dəyişməz"[1] məsələsidir. Bu, böyük nemətləri məhv edən günahkar qruplara və xalqlara ağır bəlaları yönəldən günahdır. Bir xalq Tehranda durub Şeyx Fəzlullah Nuri kimi böyük bir müctəhidin dar ağacından asılmasına tamaşa etdi və yerindən tərpənmədi; Məşrutənin ingilis və qərbpərəst qoluna qoşulmadığına görə onun əsasını qoyanlardan və rəhbərlərindən olan bu şəxsə antiməşrutə damğası vurduqlarını - hələ də bizim bir qrup qələm adamımız, natiq və yazıçımız bu əsassız və məntiqsiz yalanı çeynəyir və təkrarlayır – gördü və əlli ildən sonra altını çəkdi: bu Tehran şəhərində Təsisçilər məclisi təşkil olundu və orada şahlığın və hakimiyyətin Rza şaha keçməsini qəbul etdilər. Onlar xüsusi bir qrup deyildi. Bu, ümumi və milli bir günah idi: "Sizin aranızda təkcə zalımlara toxunmayacaq bəladan qorxun"[2]. Bəzən cəza təkcə günahı törədənlərə şamil olmur, ümumi olur. Hamı onda birbaşa iştirak etməsə də, hərəkət ümumi olmuşdur. Həmin xalq küçələrə çıxıb Məhəhəmmədrza Pəhləvinin tankları önündə sinələrini sipər edəndə və ölümdən qorxmayanda - yəni əlliillik dözüm və sükut günahını tərk edəndə isə Allah-Taala onların mükafatını verdi; zülm hakimiyyəti devirildi və xalq hakimiyyəti yarandı; rüsvayçı siyasi asılılıq götürüldü, müstəqillik başlandı. Bu müstəqillik davam edir, davam edəcək və bu xalq Allahın yardımı və öz istəyi ilə amallarına qovuşacaq.

Quruluşun məsul şəxsləri ilə görüşdəki çıxışdan: 2005.

---

[1] Rəd/11.

[2] Ənfal/25.

Qum şəhərinin ixlaslı qiyamı

Qumun qəhrəmanlıq dolu günlərinin, xüsusən də 19 deyin xatirəsi İran xalqının yaddaşından silinməyəcək. Qum 1962-ci ildə İslam hərəkatı qəsidəsinin mətləi olduğu kimi, 1977-ci ildə də inqilabın möhtəşəm və fəxr dolu qələbəsinin başlanğıcına çevrildi. Biz 28 ildən sonra həmin günün, həmin gündə şəhid olan məzlumların, həmin misilsiz və anoloqu olmayan qəhrəmanlığın xatirəsini uca tutmalı, Allaha doğru əl açıb dua etməli, Allah-Taaladan həmin şəhidlərin ruhunun ucalığını və Qum əhalisinin uğurlarının davam etməsini istəməliyik. Qum əhalisi uzun illər boyu - həm müqəddəs müdafiə dövründə, həm də ondan sonra bu ruhiyyəni qorumuşdur.

Sabah Ərəfə - dua, zikr, münacat və raz-niyaz günüdür. Xüsusən siz gənclər bu böyük günlərin və dəyərli saatların qədrini bilin. Allahla rabitə qəlbləri genişləndirir, yolu açır, insana iradə və ixlas, işlərə isə bərəkət verir. İlahi yardıma səbəb olan bu rabitənin nəticəsində əsl İslam dəyərləri istiqamətində inkişaf hasil olur. Bu dəyərli günləri və saatları heç vaxt əldən verməyin.

Qum əhalisinin qiyamı ixlaslı olduğuna görə qlobal İslam inqilabı ilə nəticələndi. Siz bu gün İslam dünyasının hansı nöqtəsinə baxsanız, xalqın, xüsusən də gənclərin, universitet tələbələrinin və ziyalıların qəlbində İslam hakimiyyəti və İslam ucalığı hissini müşahidə edərsiniz. Keçmişdə belə bir şey yox idi. Haqq və xoş söz budur: "Xoş bir söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər"[1]. Qum xalqının qiyamı xoş söz idi. Tam ixlasla bu hərəkətə başlayan imamın gördüyü iş xoş söz idi. Bu xoş söz bəhrəsini verdi. Bunu kim düşünərdi?!

Qum əhalisi ilə ümumi görüşdəki çıxışdan: 2006.

---

[1] İbrahim/24-25.

İmamın qiyamında əsas amil: əxlaq və vəzifəyə əməl etmək

İmam birinci gündən buyurdu ki, biz vəzifəmizə əməl etməyə əmr olunmuşuq, nəticəyə yox. Bu, ixlasın son həddidir. Bu zaman iş yalnız Allahdan ötrü həyata keçir, belə bir qəlbdə zərrə qədər də hakimiyyət istəyi və maddi maraq olmur. İmam üzərinə düşən vəzifəni yerinə yetirdi, Allah da ona nəticə bağışladı: imamın səsi bütün dünyanı dolaşdı. Biz o zaman nə beynəlxalq təbliğat aparmağı bacarırdıq, nə də inqilabın və yeri quruluşun uyğun imkanları vardı. Lakin bununla yanaşı kim İslam dünyasının və hətta digər yerlərin hansı nöqtəsinə qədəm qoyurdusa, orada imamın nəfəsinin, adının və xatirəsinin yaşadığını görürdü. Allah-Taala gözəl sözə belə bərəkət verir və onu inkişaf etdirir. Zaman-zaman imamın yolunu və xəttini məhv etməkdən ötrü çox çalışdılar. Amma həmin möhtəşəm hərəkatın başlanmasından, inqilabın qələbəsindən və İslam Respublikasının yaranmasından iyirmi yeddi il ötəndən sonra bu gün inqilab şüarlarının və xalqa xidmət ətrinin bütün ölkədə duyulduğunu, xidmət, cavabdehlik, sadə yaşayış və ədalətsevərlik şüarlarının geniş yayıldığını görürsünüz. Bu, inqilabın səmərəsidir. Düzdür, hələ də xalqı zalım düşmənlər qarşısında təslimçiliyə və xarlığa dəvət edənlər var, lakin xalq öz yolunu seçmişdir.

Qum əhalisi ilə ümumi görüşdəki çıxışdan: 2006.

19 **Bəhməndə Hərbi Hava Qüvvələrinin qorxmaz hərəkəti**

19 Bəhmən şərəfli bir gündür. Hərbi Hava Qüvvələrinin gəncləri - pilot və zabitlər həmin gün qorxmaz bir iş gördülər. Bu məclisdə iştirak edən siz əziz gənclər həmin təyinedici və möhtəşəm dövrdə baş verən bu işin çəkisini və əhəmiyyətini düzgün anlaya bilməzsiniz. Bu iş yalnız həmin gün yox, bütün bu 27 ildə təsirli və işıqlı bir nöqtəyə çevrilmişdir.

Hərbi Hava Qüvvələri bu illərdə silahlı qüvvələrdən gözlənilən bütün fəxrli işlərin ön sıralarında durdu. Müqəddəs müdafiə dövründə Hərbi Hava Qüvvələri parlaq işlər gördü. Mən bilmirəm ki, siz əziz gənclər bu macəra dolu dövrdə onların fəaliyyətlərindən xəbərdarsınız, yoxsa yox. Bu qədər bilin ki, müqəddəs müdafiədə bir quruluş üçün lazım olan ən üstün fədakarlıqlar Hərbi Hava Qüvvələri tərəfindən edildi və bu qüvvələrinin rəşadətli döyüşçüləri onun öhdəsindən gəldilər. Bu məsələlər dəqiq, düzgün və şişirdilmədən gənc nəslin ixtiyarına qoyulmalıdır. Bunları şişirtməyə ehtiyac da yoxdur. Həqiqətlər o qədər möhtəşəm və əzəmətlidir ki, hamının heyrətinə səbəb olur.

...Bu gün Hərbi Hava Qüvvələrinin siz əməkdaşları və bu mühüm sahədə fəaliyyət göstərən hərbçilər öz mövqeyinizi düzgün tanımalısınız. Hərbi Hava Qüvvələri çox əhəmiyyətli və müəyyən mənada təyinedici qüvvədir. Bu gün sizin müdafiə bölməniz İran xalqının başucalığını və müstəqilliyini müdafiə etmək üçün ölkənin ən təsirli hərbi qurumlarındandır. Sizin səyiniz, iradəniz, özünəinamınız, Allaha güvəniniz və yorulmazlığınız olmadan bu uca zirvələri fəth etmək mümkün deyil. Bir zaman Hərbi Hava Qüvvələri özünün 19 bəhməndə etdiyi bəlli böyük hərəkəti ilə bütün ölkədə dəyişiklik yaratdı. Bəlkə də həmin gün imamın yanına gələn gənclər necə mühüm iş gördüklərini bilmirdilər. İman və eşq onları buna vadar etmişdi. Onların işi bütün inqilab prosesinə böyük təsir göstərdi. Buna əsasən, silahlı qüvvələrin hər bir sahəsi və digər qurumlar xüsusi zamanlarda böyük təsir buraxa bilərlər. Özünüzə inanın, daxili qüvvələrinizdən

istifadə edin və bilin ki, iradəniz, yaradıcılığınız, yeniliyiniz və fəallığınızla öz sahənizi xalqınızın başucalığına mühüm vasitə edə bilərsiniz. Bu mümkündür. İndiyədək sınamışıq və mümkün olmuşdur. Proqramla, nizam-intizamla və özünəinamla işləmək, dəqiq və incə hərbi qaydalara riayət etmək, ixlasla və Allaha etimadla çalışmaq bütün sahələrdə böyük təsirlər buraxa bilər.

Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2006.

İranın Aşura rəngli və şərəfli inqilabı

Uzun illər bizim xalqımızı asılı bir xalqa çevirmiş, ardıcıl təbliğatla öz mədəniyyətindən, özünəinamdan uzaqlaşdırmış və ümidsiz etmişdilər. Belə tarixi keçmişə malik olan, belə həssas coğrafi mövqedə yerləşən, bu qədər insan kapitalı və zəngin təbii potensialı olan bir xalq əcnəbi güclərin meydanına çevrilmişdi; bir müddət İngiltərənin, sonra da Amerikanın. Bu inqilab isə bizi oyatdı, özümüzə gətirdi. Bu, Aşuraç rəngli hərəkət idi. Bu böyük addım bizim taleyimizi və yolumuzu dəyişdirdi. Biz bu gün öz şərəfimiz, müstəqilliyimiz, təbii və insani potensiallarımızdan istifadə edir və yüksəlirik. Dünya da böyük həddə bu yüksəlişi etiraf və qəbul etməyə məcbur olur. Lakin biz bu yolu davam etdirməliyik. Heç bir xalq tənbəlliklə başucalığına nail ola bilməz. Müstəqilliyə, mill başucalığına, insani hörmətə nail olmağın bir xalq üçün bədəli vardır. Bu bədəli ödəmək və çalışmaq lazımdır. İşin aqibətinə ümidlə və realistcəsinə baxmaq lazımdır. Realist baxış insana ümid verir.

Hərbi Hava Qüvvələrinin şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2006.

İmamın sayıqlığı və əsas məqsədin unudulmasının qarşısını alması

Mən öz inqilabımıza baxanda görürəm ki, imamın böyük hünəri bu diqqətsizliyə yol verməməsidir. İmamın əsas işi budur. İmam dediyi sözü və seçdiyi məqsədi digərlərinin qınağı və şüarlarının təsiri altında itirib yaddan çıxarmadı. İmamın uğurunun əsas səbəbi bu idi ki, birbaşa məqsədə doğru getdi. Onu açıq və şəffaf şəkildə göz önündə saxladı və ona doğru hərəkət etdi. Təəssüf ki, Məşrutənin ruhani və digər başçıları bu işi görmədilər və bu diqqətsizliyi etdilər. Buna görə də ixtilaf yarandı. İxtilaf yarandıqda onlar hakim oldular və daha bir iş görmək mümkün olmadı. Mən İraq hadisələrində də bu məsələni eynilə gördüm. İraqda da din alimləri əvvəlcə ciddi şəkildə işə qoşuldular, sonra isə tərəddüd və bəhanələr başlandı: "bəlkə bunlar doğru deyirlər", "bəlkə məqsədləri pis deyil" və s. İngilislər İraq xalqı arasında belə fikirlər yayırdılar: “Biz sizi osmanlılardan azad etməyə gəlmişik, müstəmləkəyə çevirməyə yox”. Amerikalılar da son dövrdə iraqlılara buna bənzər söz dedilər: “Biz sizi Səddamın əlindən xilas etməyə gəlmişik, sizə hakim olmağa yox”. Eyni zamanda ingilislər 1920-ci ildən 1958-ci, yaxud 57-ci ilə qədər İraqı elə günə saldılar ki, insan bu uzun dövrün tarixini görəndə və oxuyanda onu ağlamaq tutur. Bunlar İraqda və təbii ki, əksərən elə iraqlıların əli ilə nələr etdilər: xalqı qırmaq, talamaq, aşağılamaq, ölkəni qarət etmək və geridə saxlamaq.

Məşrutə hərəkatının yüzilliyinə dair konfransının Mərkəzi şurasının və elmi komitələrinin üzvləri ilə görüşdəki çıxışdan: 2006.

İnqilabdan ibarət olan gözəl ağacın[1] şirin meyvələri

Biz tanınmaz xalq və əcnəbi güclərin siyasətinə tabe idik. Nüfuzlu dövlətlərin - bir gün Amerikanın, ondan öncə İngiltərənin, bir gün də rusların qərarlarına tabe idik, amma bu inqilab bizi dünyanın ən təsirli xalqlarından birinə, regionun isə ən təsirili ölkəsinə və xalqına çevirdi. Bunu bizim düşmənlərimiz də etiraf edirlər. Biz özünəinamı olmayan, öz daxili qüvvəsini tanımayan, ona güvənməyən, əcnəbilərin bərbəzəyinə göz dikən və aldanan bir xalq idik. İnqilab isə bizi yaradıcı, özünə inanan, müxtəlif sahələrdə yeni sözü olan bir xalqa çevirdi. Bu gözəl ağacın şirin meyvələri bu gün minlərlə tədqiqatçı, minlərlə alim, minlərlə mütəfəkkir beyin və müxtəlif sahələrin bacarıqlı kadrlarıdır; istər humanitar elmlərdə, istər təcrübi elmlərdə, istər ictimai elmlərdə, istər siyasətdə, istərsə də dində. Biz bu gün əksəriyyəti gənclərdən ibarət olan aktiv, imanlı və bütün inkişaf şərtlərinə cavab verən bir ölkəyik.

Bu gözəl acağın meyvələri İslam dünyasının hər bir yerində müşahidə olunur. Müsəlmanlar oyanmış və öz İslam kimliklərinə qayıtmışlar. Onlar müsəlman olmaları ilə şərəf duyurlar. Müsəlman ölkələrində gənclərin, universitet tələbələrinin, ziyalıların və müxtəlif elitaların qəlbi İslam məqsədlərinə yönəlmişdir, onun üçün dəyər tanıyır və uğrunda çalışırlar. İslam dünyasında xalqlar bu gözəl ağacın sayəsində öz həqiqi, milli və müsəlman kimliklərini əldə etmiş, uzun illər böyük güclərin pəncəsində olmalarına baxmayaraq, qüdrət duymuşlar. Bu gün Fələstin bir nümunədir, İraq bir nümunədir. Şimali Afrikada da çoxlu nümunələr var. Livan başqa bir nümunədir. Bu xalqların amalı İslam və müstəqillikdir. Onlar ümid və həvəslə çalışırlar. Bunlar sözügedən gözəl ağacın meyvələridir. Həmin ağacı bu böyük kişi, bu saleh bəndə öz qiyamı və özünəməxsus xüsusiyyətləri ilə ərsəyə gətirdi.

---

[1] İbrahim surəsinin 24-cü ayəsinə işarədir.

Həzrət İmam Xomeyninin vəfatının on yeddinci ildönümü tədbirində çıxışdan: 2006.

Quranda buyurulan ilahi yardımın inqilabda həyata keçməsi

Bizim böyük imamımızın uğurunun əsas səbəbi budur ki, bir Quran ayəsinə bütün vücudu ilə iman gətirib bütün səyi ilə onun naminə çalışdı. Quranın bu şərafətli ayəsində deyilir: "Əgər Allaha (Allahın dininə və Peyğəmbərinə) yardım göstərsəniz, O da sizə yardım göstərər və sizi sabitqədəm (möhkəm, qüvvətli) edər"[1]. Həmçinin digər ayələrdə də deyilmişdir ki, Allaha yardım etsəniz, Allah da sizə yardım edər; Allah yolunda bir addım atsanız, Allah sizi onlarla və yüzlərlə addım irəliyə salar. Bu bir qayda və Allahın qanunudur. Allaha yardım etmək Onun dininə yardım etmək deməkdir. Allahın dini isə yalnız murdar-təmizdən və dinin zahiri əməllərindən ibarət deyil. Allahın dini insanın dünya və axirətdə xoşbəxtliyinə dair proqramdır. Bu proqram cəmiyyətlərin mənəvi inkişafının təminatçısı olduğu kimi düşüncə istedadlarını dirçəltməyin, onların şəxsiyyət və bacarıqlarını inkişaf etdirməyin də təminatçısıdır. Allahın dini mənəviyyata diqqət yetirdiyi kimi insanın dünya həyatına da diqqət yetirir və insanın xoşbəxtliyi üçün proqram ortaya qoyur. Əmirəlmöminin (ə) Nəhcül-bəlağədə əziz İslam peyğəmbərinin peyğəmbərliyə seçilməsinin məqsədini belə izah edir: "Ağıl xəzinələrini aşkar etmək üçün (peyğəmbər seçildi)". İmam Hüseynin (ə) Ərbəin ziyarətnaməsində isə belə oxuyuruq: "Bəndələrini cəhalət və azğınlıqdan xilas etmək üçün qiyam etdi". İmam Hüseynin (ə) qiyamı insanların həyatındakı cəhalət və qəflət buludlarını dağıtmaq, insanları elmli etmək və həqiqi hidayətə çatdırmaq üçündür. Allah-Taalaya yardım etməyin mənası ilahi ənənələri dirçəltmək istiqamətində addım atmaqdır. Təbiətə və cəmiyyətə təsir göstərək, fitrətləri oyatmağa çalışaq, insanın bədbəxtlik amillərindən xilasına səy göstərək. Bu bizim Allahın dininə yardımımızdır. İmam öz ölkəsini və xalqını xilas etmək üçün bu Quran əmrini yerinə yetirdi, Allaha yardım etdi, çalışdı və qiyama qalxdı. Allah-Taala da ona yardım etdi, hərəkətinə bərəkət

[1] Məhəmməd/7.

verdi, bir addımına yüz addım təsiri bağışladı. Biz özümüzün Allahın dininə etdiyimiz yardımı Allahın bizə yardımı ilə ölçsək, bu, birin yüzə və minə nisbətindən də böyük olar. Biz bir addım atırıq, amma Allah-Taala bizi yüz və min addım irəliyə salır. Allahın yardımı ilə bizim yardımımız arasında fərq olduqca böyükdür.

Həzrət İmam Xomeyninin on yeddinci ildönümü tədbirində çıxışdan: 2006.

Allah üçün qiyam etmək və onun uğura təsiri

Bir ölkənin xilası üçün milyonlarla amil və səbəb lazımdır: təbii amillər, insani amillər, beynəlxalq amillər, siyasi və iqtisadi amillər. Bir xalqın öz həyatında dəyişiklik yarada bilməsi üçün bütün bu amillər cəm olmalıdır. Bu amillər biz insanların əlində deyil və bizim iradəmizlə birbaşa əlaqəsi yoxdur. Amma biz Allah üçün qiyam etdikdə Allah-Taala bizim bir hərəkətimizlə ictimai həyatda minlərlə və milyonlarla hərəkət yaradır və dəyişiklik baş verir; eynilə təbiətdə olduğu kimi. Siz balaca bir budağı torpağa əkirsiniz. Sizin işiniz yalnız bu kiçik işdir. Amma bu budaq torpaqda, özündə və havada olan olan milyonlarla reaksiyadan sonra böyük bir ağaca çevrilir, qol-budaq atır, meyvə verir və birinci vəziyyətinə nisbətən yüzlərlə, minlərlə dəfə dəyişir. Bütün bu amillərə baxanda sizin işiniz heçə bərabərdir, amma siz bu kiçik işi görməsəniz, bütün bu reaksiyalar da baş verməz. İmam Allah üçün qiyam etdi, bütün varlığı ilə səhnəyə çıxdı, öz fəryadı, fəaliyyəti və zəhmətləri xalqı meydana çıxardı. Bu hərəkətdən və bu güclü iradədən sonra Allah-Taala sözügedən milyonlarla amili və reaksiyanı yaratdı və baş verən iş bir möcüzəyə bənzədi: həssas bir bölgədə İslam quruluşu yarandı. Düzdür, bu hərəkət bütün dünyanın güc və pul sahiblərinin kin və ədavətlərinin hədəfinə çevrildi, amma onların istəyinin əksinə olaraq həyata keçdi.

Həzrət İmam Xomeyninin on yeddinci ildönümü tədbirində çıxışdan: 2006.

İmamın böyük hünəri: xalqı tanımaq və ona inanmaq

Fikrimizcə, bizim mərhum imamımızın ən böyük işlərindən biri xalqın gücünü tanımaq, kəşf etmək, ondan bəhrələnmək və xalqa inanmaq idi.

İnqilabın qələbəsindən öncə İranın vəziyyəti yaxşı deyildi, xalq başlı-başına qalmış, düşmənlər ona hakim olmuşdu. Bura İsrailin bazası və sionizm rejiminin başçılarının istirahət mərkəzi idi. Onlar gəlib aparırdılar, yeyirdilər, siyasi və maliyyə cəhətdən istifadə edirdilər. Bəzi ərəb ölkələri neftdən İsrail əleyhinə təzyiq vasitəsi kimi istifadə etmək istəyəndə İran şahı sionistləri arxayın edib dedi ki, mən sizə neft verəcəyəm. O zaman İran belə idi, heç kəsdə ümid qalmamışdı. Bizim mərhum imamımız böyük iradə ilə bu mübarizəyə başlayanda xalqdan başqa heç bir qüvvəsi yox idi. O bu qüvvəyə inandı, arxalandı və Allah-Taala da ürəkləri yönəltdi. Hər şey Allahın əlindədir: "(Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı".[1] Ürəklər yönələndə qüvvələr meydana çıxdı, tağut rejimi və asılı şah hakimiyyəti silkələndi və İslam quruluşu yarandı. Biz İslam dünyasının ən həssas nöqtəsində və dörd yolayrıcındayıq. Bu regionda Amerikanın və hegemonluğun əsas etimad nöqtəsi şah rejimi idi.

Xalqın gücünü tanımaq lazımdır. Bu güc möhtəşəmdir. Bu potensialı işlətmək üçün güclü iradə, ixlas və mücahidlik lazımdır. Əgər xalq meydana atılsa, siyasətçi və rəhbərlər ölkələrinin milyonluq izdihamlarına yaxınlaşsalar, onların qarşısında heç bir qüvvə dura bilməz, onlara heç bir təhdid təsir etməz. Əlbəttə, çalışmadan və çətinliklərə dözmədən insan nəyəsə nail ola bilməz. İslam ümməti özünün uca məqsədlərinə çatmaq üçün çətinliklərə dözməyi bacarmalıdır. Bunlar bu gün İslam dünyasında bizim mühüm vəzifələrimizdir.

İslam birliyi konfransının iştirakçıları ilə görüşdəki çıxışdan: 2006.

---

[1] Ənfal/17.

Pəhləvi hökumətinin əcnəbilər qarşısında xar olması

Bizim xalqımızı oyadan və onun gücünü işlədən böyük imamımıza Allah rəhmət eləsin! Biz də elə idik. Biz də əl-ayaq altda əzilirdik. Bu Tehran şəhərində ən böyük günahlar baş verirdi və heç kim qaşını da çatmırdı. İslamın ən böyük düşmənləri Tehranda öz evlərindəki kimi tam təhlükəsiz halda yaşayırdılar. Bu məmləkətin sərvətlərini talayırdılar, nefti aparırdılar, inkişafın qarşısını alırdılar, öz xain və zalım proqramlarını bu xalqın üzərində icra edirdilər. Ölkənin başçıları, yəni Məhəmmədrza şah və onun ətrafı əlləri sinələrində onların fərmanına müntəzir dayanırdılar. Zahirdə lovğalıqları vardı, amma əslində tabe idilər, icazəni onlardan alırdılar. Bu Tehran şəhərində şahın sarayı ən mühüm məsələlərdə qərar vermək üçün Amerika və İngiltərə səfirlərinin fikrini öyrənirdilər. Bunlar bu gün sənədlərimizdə mövcuddur. Təəssüf ki, bu gün İslam ölkələrinin çoxunda vəziyyət belədir. O zaman bu qüdrətli, sayıq, çox əzəmətli tarixə malik olan, bu gün elmdə, cihadda, texnologiyada, siyasətdə parlayan xalq əl-ayaq altda əzilirdi. İmam xalqı səhnəyə gətirdi, xalqa etimad etdi, xalq da etimadı doğrultdu. O, xalqa etimad edəndə, xalq da ona etimad etdi. Küfrün ümid yeri olan bu nöqtə əsl Məhəmməd (s) İslamının bayraqdarı oldu. İran xalqı inşallah bu yolda günbəgün irəliləyəcək.

Əzəmətli Peyğəmbərin (s) Məbəs bayramı münasibəti ilə İslam ölkələrinin səfirləri, İslam birliyi konfransının qonaqları və quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2006.

İran xalqının dəyərləri qorumaqda qərarlı olması

İnqilabdan müəyyən zamanın ötməsindən və böyük imamımızın vəfatından sonra xalqın dəyərlərdən uzaqlaşacağını güman edənlər səhv etmişlər və səhv etdiklərini görürlər. Biz bu dəyərlərə sadiqik. Biz İslam dəyərlərini milli başucalığımızın səbəbkarı bilirik. Biz bu dəyərləri xalqımızda istedadların inkişafının amili hesab edirik. Biz Allahın gücü və qüvvəsi ilə və İslamın sayəsində normaldan artıq sürətlə elm zirvələrinə yüksələcək və bu zirvələri fəth edəcəyik. Biz uzun illər məcburən salındığımız zəifliyə üstün gələcək və özümüzü gücləndirəcəyik. Təbii ki, hegemonluq bunu istəmir. Təbii ki, güclülər ajiotajla, təbliğatla, siyasi işlərlə və iqtisadi təzyiqlərlə bu hərəkətə mane olmaq istəyirlər, amma bacarmayacaqlar. Biz möhkəm dayanmışıq. Bu xalq möhkəm dayanmışdır və müsəlman xalqlar oyanmışlar. Bu gün müsəlman xalqların qəlbi sionistlərə və Amerikaya nifrətlə doludur. Bu gün Orta Şərqin, Şimali Afrikanın və Asiyanın hər bir yerində gənclər və müsəlman ölkələr öz İslam kimliklərini aşkar etməyi xoşlayırlar. Xaqlarda bu hiss yaranmışdır.

Əzəmətli Peyğəmbərin (s) Məbəs bayramı münasibəti ilə İslam ölkələrinin səfirləri, İslam birliyi konfransının qonaqları və quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2006.

Müstəqillik və xalqın yanında olmaq - şiə elm hövzələrinin iki xüsusiyyəti

Ümumiyyətlə şiə ruhanilərinin həmişə özünəməxsus xüsusiyyətləri olmuşdur. Bu gün də İslam Respublikası quruluşunun yaranmasına, bəzi məmurların bu hövzələrdən çıxmasına və bu hökumətdə ruhani və din rənginin aydın görünməsinə baxmayaraq, şiə elm hövzələri yenə də bu xüsusiyyətləri qorumuşdur. Bu xüsusiyyətlər hansılardır? Bunlar müstəqillikdən və xalqın yanında olmaqdan ibarətdir.

Bu, dünyanın heç bir yerində yoxdur. İstər müsəlman, istər məsihi və istər yəhudi olan qeyri-şiə ruhani təşkilatları xalqla əlaqədə olurlar, yəni xalq kilsələrə gedir, amma oradakı ruhaninin bizim məscid imamımızla yerlə-göy qədər fərqi var. O, dövlətə, hakim rejimə və yaxud məsihilər kimi hansısa təşkilata bağlı adamdır; misal üçün, katoliklər bir yerə bağlıdırlar, protestantlar başqa bir yerə və müxtəlif firqələrin hər biri bir hakim mərkəzə bağlıdır; onların tərəfindən təyin olunur və işdən azad edilirlər. Şiə ruhaniliyi isə belə deyil.

Şiə ruhanisi yalnız xalqa bağlıdır və xalqa xidmət göstərir. Buna görə ruhanilərin maliyyə mənbəyi də xalqdır. Qumun bəzi mötəbər və məşhur adamları dəfələrlə mənə deyiblər ki, dövlət imkanlarından hövzələrə aylıq büdcə verin. Mən illərdir buna qarşı çıxmış, bundan boyun qaçırmışam. Mənim hövzə tələbələrinə verdiyim aylıq təqaüd də şəriət ödənclərdir. Bu çox mühüm məsələdir. Bizim maliyyə dəstəyimiz xalqdandır.

Ölkədə icraçı fəaliyyətlə məşğul olan ruhani məmurların hər biri birinci növbədə ruhani, sonra məmurdurlar. Yəni bu vəzifəni kənara qoysalar, yaxud işdən çıxarılsalar, bir ruhanidirlər və ruhani fəaliyyəti ilə məşğul olacaqlar. Bu çox böyük və mühüm məsələdir və buna əhəmiyyətli yanaşmaq lazımdır.

Xalqla əlaqə ikitərəfli və sıx əlaqədir. Xalq ruhaninin qayğısına qalır, ruhani də xalqın. Ruhaninin xalqın qayğısına qalması yalnız şəriət

hökmünü söyləmək deyil. Biz adətən belə başa düşürük, amma əslində ruhani düyünləri açır, düşüncə baxımından məsləhət verir, düşmənlikləri və ixtilafları həll edir. İndi də belədir; oturub danışır, xalqa nəsihət və ürək-dirək verirlər. Biz dostları, hövzə tələbələrini və ruhaniləri müxtəlif işlərə göndərəndə onlara bu haqda tövsiyə edirik. Məsələn universitetə göndərəndə deyirik: orada elə rəftar edin ki, sanki məsciddə imamsınız, xalqla danışırsınız, soruşurlar, cavab verirsiniz, gileylənirlər, psixoloji və düşüncə probelmlərini deyirlər.

Simnan vilayətinin ruhaniləri ilə görüşdəki çıxışdan: 2006.

İctimai dəyişikliklərdə şiə ruhanilərinin öndə olması

Bu, xalqla birlik deməkdir. Bu xüsusiyyət ən mühüm şiə ölkəsi olan ölkəmizin böyük ictimai dəyişikliklərində ruhanilərin öndə olmasına səbəb olmuşdur. Siz görün ölkədə baş verən hansı böyük və mühüm dəyişiklikdə və siyasi hadisədə ruhanilər ön sırada olmamışlar?! Xaricilərin iqtisadi soyğunçuluğuna ruhanilər etiraz etdilər. Bunun nümunəsi Mirzə Şirazinin dövründə tənbəki hadisəsi və Reji müqaviləsidir. Başqa bir nümunə yenə də ruhanilərin qarşı çıxdığı Röyter müqaviləsidir. Başqa bir nümunə Məşrutə hərəkatında Nəcəfdən tutmuş digər bütün şəhərlərə qədər ruhanilərin öncül olmasıdır. Əgər ruhanilər olmasaydı, zalım Qacar sülaləsini devirmək mümkün olmazdı. Məşrutədən sonrakı hadisələrdə də müxtəlif müxalifətlər olurdu. Ruslar və digər siyasi soyğunçular şəhərlərdə iğtişaş törədəndə yenə də ruhanilər önə çıxıb qorudular və vəziyyəti düzəltdilər. Hətta bir siyasi məsələdə xalq iki dəstəyə ayrılanda da hər iki dəstənin başında ruhani dururdu; yəni xalq ruhanilərə inanırdı. Məşrutə məsələsində iki dəstəyə bölünəndə də xalq başda dayanan ruhaniyə inandığına görə bir düşüncəni dəstəklədi; Məşhəddə bir cür, Zəncanda bir cür, Tehranda bir cür, digər bölgələrdə bir cür. Əlbəttə, bunu bilin ki, ruhanilərdən heç kim Məşrutəyə müxalif deyildi. Müxalifət ingilislərin ortaya çıxmasından və Məşrutə daxilində gizli əllərin görünməsindən sonra başladı. Əvvəldə isə hətta Nəcəfdə də heç kim Məşrutəyə qarşı çıxmırdı.

Neft sənayesini milliləşdirmə hadisəsində də ruhanilər qabağa düşdülər. Əgər mərhum Ayətullah Kaşani olmasaydı, əmin olun ki, bu ölkədə neft sənayesi heç zaman milliləşməzdi. Məncə bəziləri milli hərəkatın çörəyini yeyir və sonra mərhum Ayətullah Kaşanini pisləyirlər. Halbuki o bu hərəkatın öncülü idi. Əgər o olmasaydı, bu ölkədə neft sənayesini milliləşdirmə işi əsla nəticəyə çatmazdı.

İslam inqilabında da məsələ aydındır. Baxın, xalqın yanında olmaq budur. Ruhani hərəkətə başlayanda xalq da ardınca hərəkət edir. Şiə ruhanilərinin xüsusiyyəti belədir.

Simnan vilayətinin ruhaniləri ilə görüşdəki çıxışdan: 2006.

İnkişafın qərbləşməklə şərtlənməsinə dair yanlış təfəkkür

Dünyada "inkişaf nədir?" sualına müxtəlif cavablar verilir. Hər növ cavab var. Saxta sözlər, ziddiyyətli, qəribə və bəzən xəyanətkar tövsiyələr bu ölkənin modernləşdirilməsinin əvvəllərində biz iranlıların canına salınan bir bəla idi. İranlılar Avropanın inkişafından xəbərdar olanda yavaş-yavaş fikrə düşdülər ki, görsünlər Avropada, dünyanın o tərəfində nə baş verir. Ondan əvvəl ümumiyyətlə dünyada nə baş verdiyini bilmirdilər. Qacar şahlarının başı hərəmxanalara, ziyafətlərə, şəxsi problemlərə və öz dəyərsiz işlərinə o qədər qarışmışdı ki, ümumiyyətlə dünyada nə baş verdiyindən xəbərsiz idilər. Renessans nə idi? Necə yarandı? Nə üçün yarandı? Nəticəsi nə oldu? Fətəli şahın dövrünə qədər və ondan sonra bu məsələləri ümumiyyətlə bilmirdilər. Sonra İranla Rusiya arasında müharibə başlandı. Qacar rejimi rusların inkişaf etmiş silahları tərəfindən güclü zərbələrə məruz qaldı. O zaman bəzi şəxsləri Avropaya göndərdilər. İranda yaşayan Avropa səfirləri də əl-ayaq açdılar, siyasi nüfuza şərait yaratmaq üçün İrana xüsusi elçi və məmurlar göndərildi. Modernizmlə qarşılaşan ilk şəxslər kimlər idilər? Şahzadələr, saray adamları və o zamanın nüfuzlu siyasi şəxsiyyətləri. Ümumi xalqın xəbəri yox idi, din alimlərinin xəbəri yox idi, digərləri də bir şey bilmirdilər. Çox az adamları çıxmaq şərti ilə, bunlar ümumi və bəlkə də istisnasız olaraq Qərbin bu mədəniyyəti və inkişafı ilə qarşılaşanda ona heyran oldular, əl-ayaqlarını itirdilər, öz beyinlərini və ağıllarını işlədə bilmədilər, tərəf-müqabilin inkişafını görüb öz inkişafları haqda fikirləşmədilər. Nəticə nə oldu? Nəticədə Məşrutə zamanı və onun yaradılmasından sonra bizim birinci dərəcəli ziyalılarımızın fikri bu oldu ki, İran inkişaf etmək istəyirsə, gərək təpədən-dırnağa qədər qərbləşsin. Bu, mütləq təqlidçilik demək idi. Elə də etdilər və bu proses Pəhləvi hökumətinə qədər davam etdi.

Pəhləvi hökuməti bu işin daha sürətlə həyata keçməsi üçün xüsusi proqram hazırladı, Qacar dövründə olanla kifayətlənmədi. Pəhləviləri bundan ötrü hakimiyyətə gətirmişdilər. Qərb bu işi görmək üçün öz

təsiri altına düşmüş iranlılardan, özünün inandığı ziyalılarından bir neçəsini mədəni məmurlar adı altında şahın ətrafında yerləşdirdilər. Hicab qadağası, geyim formasının dəyişdirilməsi, yerli əlamətlərdən olan mirzə, seyid, xan və ağa adlarının çıxarılması, neftə dair çoxlu imtiyazlar vermək, günbəgün artan xarici müstəşarları gətirmək belə işlərdəndir. Sonra ingilislər Rza xanı hakimiyyətdən kənarlaşdırdılar və 1953-cü ildən etibarən amerikalılar ölkədə tam ixtiyar sahibi oldular. Bu bizim tağut dövründə qeyd etdiyim təhlükəli idarəçiliklə fundamental dəyər və prinsipləri məhv etməyə doğru gedən yenilik sərgüzəştimizdir. Kaş bunun qarşısında heç olmasa nəsə almış olaydılar - heç nə almadılar. Yəni İran uzun illər boyu, 60-70 il ərzində ingilislərin və qərblilərin ixtiyarında idi. Buna gücləri çatmadı ki, misal üçün, ölkədə bir elmi tədqiqat mərkəzi açsınlar və o, əlli il ərzində iki şey ixtira etsin; elə alimlər yetişdirsinlər ki, iki-üç yeni elmi kəşf etsinlər. Yəni bunlar Qərbdən bu qədər də istifadə etmədilər. Onlar nə istəyirdilər? Onlar istehlakçı istəyirdilər; həm də təbii olaraq mədəni və siyasi təslimçiliklə yanaşı olan iqtisadi istehlakçı. Onlar bunu istəyirdilər. Bunlar da asanlıqla təslim oldular və istədiklərini verdilər. Bütün bu iğtişaşlar, çəkişmələr, sizin Qacar rejimi zamanı tənbəki hərəkatından Rza xanın dövrünədək və ondan sonra gördüyünüz bu problemlər, bir tərəfdən alimlərin rəhbərlik etdiyi mömin cəbhə, bir tərəfdən də zalım hakimlər arasında baş verən toqquşmalar həmin məsələlərdən qaynaqlanırdı. Reji imtiyazı məsələsində Mirzə Şirazi ölkənin böyük bir gəlir mənbəyinin müftə şəkildə qərblilərə verilməsinə etirazını bildirdi; Röyter imtiyazı məsələsində də həmçinin. Vüsuquddövlə müqaviləsi adı ilə tanınan və əslində bütün ölkənin ingiltərəlilərə verildiyi müqavilədə də belə oldu. O zaman görkəmli ruhani olan Müdərris etiraz etdi.

Mərhum Ayətullah Kaşaninin qoşulduğu Neft sənayesini milliləşdirmə hərəkatında da belə oldu. Alimlərin müxtəlif dövrlərin hökumətləri ilə bu problemlərinin hamısı - xalq və bir çox ziyalılar da onlara dəstək verirdilər - milli maraqlar və qarşı tərəfdən də əcnəbi

qüvvələrin iradəsindən və qərarından irəli gələn yenilik ətrafındadır. Deməli, Qərbin əcnəbi inkişaf proqramları bəzən hətta xaincəsinədir.

Simnan vilayəti universitetlərinin müəllimləri və tələbələri ilə görüşdəki çıxış: 2006.

İranın birinci nəsil ziyalılarının böyük günahı

Uzun illər, bəlkə də on illərlə müstəmləkəçilər İran xalqını özünə, öz dəyərlərinə və keçmişinə inamsız etməyə çalışdılar. Bu ölkənin Qərb təfəkkürlərini və Qərb mədəniyyətini təbliğ edən birinci nəsil ziyalılarının böyük günahı budur. Onlar İran xalqına təkidlə başa saldılar ki, sən heç bir şey deyilsən, sənin dəyərlərin, etiqadların, keçmişin, tarixin və böyüklərin heç bir işə yaramır. Onlar özünə inamsız olan bir nəsil yetişdirə bildilər və bu nəsil quldur Rza xan rejimi kimi muzdur və zalım bir hökuməti qəbul etdi. Bizim düşmənlərimiz uzun illər bu işi görmüşlər.

İnqilabın qələbəsi ilə nəticələnən İslam hərəkatı, ruhanilərin və xalqın möhtəşəm hərəkəti xalqı öz kimliyinə, bacarıqlarına, keçmişinə və tarixinə nikbin etdi, düşmənlərin milli inamlarımız üzərinə çəkdiyi yalan və xəyal pərdəsini götürdü. Onlar buna nail oldular.

Şahrud əhalisi ilə görüşdəki çıxışdan: 2006.

Keçmişdə xalqın siyasi məlumatsızlığı

İslam inqilabından öncə bizim böyük xalqımızın problemi yalnız bu deyildi ki, əcnəbilər ölkənin siyasi məmurlarını xalqın xəbəri olmadan vəzifəyə gətirir və vəzifədən kənarlaşdırırlar. Təbii ki, bu, böyük dərd idi. Amma əsas məsələ bu idi ki, xalq ölkənin hadisələrindən, inkişafından, digər ölkələrlə müqayisəsindən və məqsədlərinə doğru hərəkət sürətindən tamamilə xəbərsiz və uzaq idi. Əgər kimsə işləyən idisə, özü üçün işləyir, öz işi ilə məşğul olurdu və ölkənin vəziyyəti xalqı maraqlandırmırdı. Nəticəni görürdünüz; gənclər də ya kitablarda oxuyurlar, ya da böyüklərdən eşidirlər. Bəziləriniz isə ölkənin qlobal güclərin oyuncağına çevrilmiş azsaylı bir qrup tərəfindən necə idarə olunduğunu xatırlayırsınız. Xalq müxtəlif sahələrdə geriqalmış bir xalqa çevrilmişdi. Çünki onun ölkənin vəziyyəti və böyük məsələlərlə işi yox idi, ölkədə nə baş verdiyindən, hansı siyasətin aparıldığından, ölkəni hansı gələcəyin gözlədiyindən, ölkəyə kimlərin müdaxilə etməkdə olduğundan xəbəri də yox idi. Xalq bu kimi məsələlərə diqqət yetirmirdi və kimsə onları məlumatlandırmırdı. Nəticəni də görürdük: ölkəni xalqın nə imanına, nə dünyasına, nə də axirətinə zərrə qədər ürək yandıran bir qrup idarə edirdi. Onlar öz şəxsi həyatlarını düşünür, onu qorumaq üçün xarici ərbablarla işbirliyinə gedirdilər. İnqilabdan öncə bizim xalqımızın vəziyyəti belə idi. İniqlab isə səhifəni çevirdi, xalq ölkənin sahibi oldu və müxtəlif məsələlərdə qərar verdi. Xalqın iştirakı budur.

Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2006.

İranın geriliklərinin müstəmləkə və istibdadın nəticəsi olması

Həqiqət budur ki, bizim ölkəmiz və cəmiyyətimiz inqilabdan bu günə qədər həssas anlar yaşamışdır. Bu arada gənclərin rolu, gəncliyin və gənclik istedadının təsiri səciyyəvi olmuşdur. Biz istedadlı xalqıq, əvvəldən istedadlı olmuşuq, lakin müstəmləkə və diktatura hökmranlığının, sülalə hakimiyyətlərinin, haqsız və zalım hökumətlərin təsirindən iki-üç əsr ərzində dünyanın elm karvanından geri qaldıq.

Elmi gerilik özü ilə birgə iqtisadi, mədəni, hərbi və digər gerilikləri də gətirir. Öz istedadlarına, özünün təbii və insani potensialına, coğrafi mövqeyinə, - dünya xəritəsinə baxsanız, İranın necə həssas nöqtədə yerləşdiyini görərsiniz - yeraltı sərvətlərinə görə dünyanın ən mütərrəqi və ən sərvətli ölkələrindən birinə çevrilməli olan bir ölkə Qacar və sonra Pəhləvi rejimləri dövründə geriqalmış, asılı, yoxsul, zəif və başıqapazlı bir ölkəyə çevrildi. Bu bizim tariximizdə baş verdi. Günah kimdədir? İlk növbədə fəsad içərisində olan bacarıqsız və asılı başçılarda. Qərbin müstəmləkə siyasəti başlayanda onlar həm də asılı oldular. Onların iradə və təəssübləri yox idi, təkcə özləri, ağalıqları və hökumətləri haqda düşünürdülər. Günah ilk növbədə bunların boynuna düşür - ən azı Qacar və Pəhləvi sülalələrinin.

İran xalqının qiyamətdə və Allah-Taala yanında bu zalımların yaxasını tutmağa, onların əleyhinə böyük və dəhşətli ittihamlar irəli sürməyə haqqı var. Bunlar istedadlı, zəngin, böyük və misilsiz mədəni keçmişə malik olan bir ölkəni aşağı səviyyəli, həm yoxsul, həm zəif, həm təhqir olunmuş, həm başıqapazlı, həm də ümidsiz bir ölkəyə çevirdilər. Belə bir ölkə ən azı dünyanın birinci dərəcəli ölkələri sırasında olmalı, əslində isə ən birinci olmalı və ölkələrin başında durmalı idi.

Ölkə üzrə şagirdlərin İslam birliklərinin üzvləri ilə görüşdəki çıxışdan: 2007.

Ötən 120 ildə ayıq din alimlərinin xəbərdarlıqları

Sonra nə baş verdi? Bu 100-120 ildə vicdanlı və böyük şəxsiyyətlər peyda oldular. Onlar xəbərdarlıq etdilər, bu ölkənin həyatının qaranlıq və zülmət səmasında ildırımların çaxmasına bais oldular və oyanış yarandı. Bunun bir nümunəsi Mirzə Şirazinin məşhur Reji kompaniyasına qarşı çıxması idi. O əslində tədricən bütün ölkəni udub, İranda Hindistanın taleyinə bənzər bir iş görmək istəyirdi. Başqa bir nümunə mərhum Ayətullah Müddərrisin o zamanın Milli Məclisində Rza xana və bütün ölkəni ingilislərə verən həmin xəyanətkar müqaviləni imzalayanlara qarşı fəryadlarıdır. Bunlar ölkədə ildırımlar yaratdı, qəlbləri işıqlandırdı, iradələri möhkəmlətdi. Hərəkat bu fikrin öncüllərinin vasitəsilə başlandı. Allah-Taala bu xalqa imam kimi ilahi, əzmkar və iradəli bir rəhbər bəxş etdi. Yenə də bu gənclər öz işlərini gördülər, möhtəşəm və əsaslı bir dəyişiklik baş verdi, İran xalqının saxlandığı həbsxana milləri qırıldı. Lakin inqilabın başladığı nöqtədən İran xalqının çatmalı olduğu yerə qədər uzun yol var. Bu uzun yol müxtəlif problemlərlə doludur; iradə, qüvvə, həvəs və yaradıcılıq istəyir, qüvvələrin böyük səfərbərliyini tələb edir. Bunlar gənclərin, gənclik ruhiyyəsinin və gənclik həvəsinin vasitəsilə təmin olunmalıdır.

Ölkə üzrə şagirdlərin İslam birliklərinin üzvləri ilə görüşdəki çıxışdan: 2007.

Uzun tağut dövrünün məşum irsi

Hər halda, biz tağutların bu ölkəyə uzun hökmdarlıq dövrünün varisləriyik. Bizim hər şeyimiz üzərində təsir qoymuşlar. Bizim mədəniyyətimiz, fikirlərimiz, inamlarımız, sərvətlərimiz, coğrafiyamız, beynəlxalq mövqeyimiz və təbəqələrarası fərq üzərində - hər şeydə mənfi təsir qoymuşlar. Uzun illər bu ölkədə əsas məsələ aristokrat, mal və pul elitası, yaxud qohum elita yetişdirmək olmuşdur. Məmləkəti öz mülkləri bilir və xalqın böyük əksəriyyəti olan adi insanlara heç bir hüquq tanımırdılar; həm Qacarlar dövründə belə idi, həm də Pəhləvilər dövründə. Həqiqətən xalqa heç bir haqq tanımırdılar. Nə isə deyirdilərsə də, formal olaraq və təbliğat xatirinə deyirdilər. Onların xalqa baxış tərzi tamamilə bəlli idi. Biz belə bir vəziyyətin varisiyik.

Prezidentlə və quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2007.

İslam cəmiyyətinin əsas səciyyələri

Əziz qardaş və bacılar! Mübarizə dövründə bizim arzumuz bu xüsusiyyətləri ilə seçilən bir cəmiyyət qurmaq idi. İslam inqilabı bir qrupun, bir partiyanın, yaxud bir cəmiyyətin hakimiyyət istəyindən ötrü baş vermədi. İslam inqilabını İranın müsəlman xalqı etdi. Bu inqilabda məqsəd İslam cəmiyyəti qurmaqdır. İslam cəmiyyətinin əsas meyarları isə elm, əxlaq və ədalətdən ibarətdir. Hamı bunun üçün çalışmalıdır. Bizim sadiq olduğumuz prinsiplər bunlardır. İslam cəmiyyəti bu dəyərlərdən ötrü qurulmuşdur. Bizim maddi həyatımızı, rifahımızı, siyasi və beynəlxalq qüdrətimizi və təhlükəsizliyimizi tam təmin edən amillər də bunlardır. Hamı elmli, əxlaqlı və ədalətli bir cəmiyyət yaratmağa çalışmalıdır; hökumətlərin vəzifəsi də budur; bütün məmurların vəzifəsi də budur; müxtəlif sahələrin müdirlərinin vəzifəsi də budur; xalqın arzusu, istəyi və məmurlardan tələbi də budur: elmli, əxlaqlı və ədalətli bir cəmiyyət. Biz inqilabın əvvəlindən bu günə qədər harada öz dini vəzifəmizə əməl etdiksə, İslam hökmlərinə hörmətlə yanaşdıqsa, vəzifəmizi yerinə yetirməyə çalışdıqsa, uğur qazandıq. Harada müxtəlif amilləri nəzərə aldıqsa, əsaslı İslam qaydalarından yan keçdiksə, gözümüzdə və qəlbimizdə maddi məktəblərin bəzəklərini böyütdüksə, məğlub olduq və uğursuzluqla üzləşdik.

Əziz Peyğəmbərin (s) Məbəs bayramında quruluşun məsul şəxsləri və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2007.

İmamın və ümmətin inqilabda birinci dərəcəli rolu

"Hər hansı bir tayfa öz vəziyyətini dəyişmədikcə Allah da onun vəziyyətini dəyişməz". Seçim xalqın öz əlindədir. Əgər belə zülm altında olan bu xalqın arasında böyük insanlar tapılsa, azadlıqsevər insanlar peyda olsa, görkəmli din alimləri qorxmadan səhnəyə çıxsalar, xalq həyatın gündəlik ötəri ləzzətlərindən və kiçik rahatlığından imtina etməyə, mübarizə aparmağa və şəhidliyə sarı getməyə hazır olsa, özlərini istismar altında qalmaq rüsvayçılığından qurtara bilərlər. Bu, İran xalqının İslam inqilabı ilə etidiyi seçimdir.

Birinci rol ümmətə və imama aiddir. Bizim ölkəmizin tarix boyu misilsiz və unudulmaz şəxsiyyəti olan Böyük İmamın müsbət cavabı və ümmətin imama cavabı səhifəni çevirdi. Bizə zərbə vurulmuşdu. Biz də qarşılığında zərbə vurduq. İslam inqilabı Amerikanın və hegemon qüvvələrin uzun illər davam edən əluzunluğuna, təcavüzünə, hegemonluğuna, təhqirinə və zalım müstəmləkəçiliyinə İran xalqının böyük zərbəsi idi.

Bəsic üzvü olan şagird və tələbələrlə görüşdəki çıxışdan: 2007.

Rüsvayçı kapitulyasiya qanunu

Bizim ölkəmiz bir zaman hegemon istismarçıların regiondakı mühüm bazası idi. Xain rəhbərlər, mənfur Pəhləvi sülaləsi, satqın və rüşvətxor məmurlar, sakit ziyalılar, laqeyd din alimləri - bunların hamısı əl-ələ verib xalqı durğun bir su halına salmışdılar. Müstəmləkəçilər bu xalqa istədiklərini edirdilər. Bunun bir nümunəsi işarə vurduğum kapitulyasiya məsələsidir. İran parlamentində qanun qəbul etdirdilər ki, İran hökumətinin və məhkəməsinin İrandakı amerikalı cinayətkarı istintaqa cəlb etməyə haqqı yoxdur. İmam bu zaman fəryad qopardı və xalqa məsələnin mahiyyətini açıqladı. Əgər Amerikanın aşağı səviyyəli bir hərbçisi - amerikalı bir çavuş, amerikalı bir aşpaz bizim ölkənin ən böyük dini, yaxud siyasi şəxsiyyətini təhqir etsəydi, xalq onu mühakimə edə bilməzdi. Amerikalıların zülm etdiyi ölkələrdə bu hadisə indi də baş verir. Siz baxın, Amerikanın "Black water" şirkəti Bağdadda günahsız xalqı atəşə tutur, amma heç kim bunları mühakimə edib səbəbini soruşmağa cürət göstərmir. Bunlar İranda belə bir vəziyyət yaratmaq istəyirdilər. Bunlar bir xalqa hakim olanda o xalqın heç bir şeyinə rəhm etmirlər. Xalq özünə gəlib sayıq olmalı, öz yolunu tapmalıdır. Və İran xalqı tapdı.

Bəsic üzvü olan şagird və tələbələrlə görüşdəki çıxışdan: 2007.

İslam cəmiyyəti

Mənim əziz qardaş və bacılarım! Bizim inqilabımız yalnız bir iqtidarın hakimiyyətdən getməsindən və yerinə başqa birisinin gəlməsindən ibarət deyil. Əgər belə olsaydı, xalq nə üçün fədakarlıq göstərməli idi?! Hər halda, iki qrup bir-biri ilə rəqabət aparır və biri hakimiyyətə gəlir. Görürsünüz ki, başqa ölkələrdə də belə rəqabət aparır, ya udurlar, ya da uduzurlar. Lakin bir xalqın bütün vücudu, var gücü, canı, cismi, övladı və malı ilə meydana çıxmasının mənası budur ki, bu hərəkət yalnız iki qrup arasında hakimiyyət davası deyil. Bu, bir sıra milli amallara yönəlik möhtəşəm dəyişiklikdir. Mənası budur.

Bizim inqilabımız bir sıra amallar təsvir etdi. Bizim mömin xalqımız da bu amallara ehtiyaclı olduğunu görüb onun üçün çalışdı, övladını verdi, canını verdi, malını verdi və sonacan arxasında dayandı. Biz bu amallara nail olmaq istəyirik. Bu amallar hansılardır? Bir cümlədə bəyan etmək istəsək, deməliyik ki, İslam cəmiyyətidir. Biz bu gün İslam cəmiyyəti reallaşdırmağa doğru hərəkət etməkdəyik.

İslam cəmiyyəti ədalətin tam bərqərar olunduğu, İslam əxlaqının xalq arasında geniş yayıldığı, insanların ilahi peyğəmbərlərin istədiyi səviyyədə olduğu - yəni qüdrətli, şücaətli, başıuca, maddi nemətlərə malik, eyni zamanda Allahın bəndəsi və Allahın iradəsinə tabe olan bir cəmiyyətdir. Bir xalq və bir insan üçün həqiqi azadlıq budur ki, öz iradəsini, qüvvə və gücünü öz xeyri üçün işlətsin və o xeyri Allaha bəndəlikdə görsün. Biz bunu istəyirik.

Bu gün Qərbin liberal-demokrat dünyasının böyük çatışmazlığı budur; zavodları çoxaltdılar, maşınları çoxaltdılar, elmin əhatəsini genişləndirdilər, lakin ictimai ədaləti təmin edə bilmədilər, insani əxlaq süquta uğradı. Bu əsassız söz deyil. Məgər bütün dünyada yayımlanan bir beynəlxalq tribunadan o xalqların fikrinin ziddinə bir söz demək olar?! Bu onların öz sözləridir.

Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.

Liberal-demokratiyanın böyük çatışmazlığı: ədalət və əxlaq

Bu gün əxlaq böhranı Qərb liberal-demokratiyasının yaxasından tutmuşdur. Bu gün cinsi, iqtisadi, əxlaqi və ailə böhranı öz elmi inkişafları ilə tarixin gözünü qamaşdıran ölkələrdə problemə çevrilmişdir.

Bəşərin xoşbəxtliyi onun elminin inkişafı ilə əldə olunmur. Elm xoşbəxtliyə vasitədir. Bəşərin xoşbəxtliyi düşüncə və ruh dincliyində, stressiz, əxlaqi, mənəvi və maddi baxımdan təhlükəsiz həyatda və cəmiyyətdə mövcud olan ədalət hissindədir. Qərbdə bu yoxdur; nəinki yoxdur, hətta günbəgün ondan uzaqlaşır da. Biz bunu öz amalımız kimi təsvir edib bütün dünyaya göstərdik; Biz göstərmədik, Allah göstərdi. İran xalqı bu yola inandığına görə bu yolla getdi.

Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.

Amala nail olmağın şərti: özünəinam

Mənim əziz qardaş və bacılarım! Əziz Yəzd əhalisi! Əziz İran xalqı! Əgər o amala çatmaq istəyiriksə, özünəinamımız olmalı, bacardığımıza inanmalıyıq. Necə ki, bu günə qədər milli iradənin yönəldiyi işləri görməyi bacarmışıq. Hegemonluğun və müstəmləkənin təzyiqi altında olan, dünyanın ən fəsadlı sülaləsinin hakim olduğu, dünyanın şərqinin və qərbinin maraqlarının bu mənfur sülalənin hakimiyyəti ilə təmin olunduğu bir ölkədə rejimi devirmək, sülalə hakimiyyətinə birdəfəlik son qoymaq, əsrlər boyu avtoritar şəkildə idarə olunan belə bir ölkədə xalqın iradə və istəyinə arxalanan bir xalq quruluşu yaratmaq məgər zarafatdır?! İran xalqı bu işi gördü. Bu gün bu regionda xalqa arxalanmaq baxımından heç bir ölkə İslam Respublikasına çatmır.

Yəzd əhalisinin böyük toplantısında çıxışdan: 2008.

Qabaqkı hökumətlərdə məmurların məsuliyyət hiss etməməsinin təsiri

İnqilabdan öncəki on illər boyu və hətta ondan qabaq da bizim ölkəmizdə iki amil mövcud deyildi. Onların biri məmurlar arasında məsuliyyət hissindən ibarətdir. O zaman dövlət rəsmiləri xalq qarşısında heç bir məsuliyyət hiss etmirdilər. Başçılar ölkəni öz mülkləri bilir və bu mülkdən istifadə edərkən özlərinə daha faydalı olan işlərə can atırdılar. Xalqın xeyri onlar üçün önəmli deyildi. Bu "ucqar və yaxın" ənənəsi o zaman yarandı. Deyirlər ki, filan şəhər ucqardır. Ucqar nə deməkdir? Yəni ölkənin paytaxtı olan Tehrandan uzaqdır. Bu, həmin yerin baxımsız qalması üçün kifayət edirdi. Çünki gözləri öz ətraflarında olan bölgələri görürdü, xalqa yox, özlərinə daha qazanclı və mənfəətli işlərə, mərkəzlərə və bölgələrə maraq göstərirdilər. İnqilab bu ənənəni dəyişdirdi. İnqilab dövlət rəsmilərinin və ölkə məmurlarının məntiqində ucqar və yaxın meyarlarını götürdü. Siz görürsünüz ki, məmurlar, Dövlət şurası və prezident ölkənin hər bir yerinə səfər edirlər. Bu o deməkdir ki, məmurların baxışı, iradə və səyi ölkənin bütün şəhərləri arasında bölünməlidir. Ucqar bir şəhər və ya bölgə məmurların diqqətindən kənarda qalmamalıdır. Bizdə ucqar və yaxın yoxdur. Bu gün bu ölkədə ucqar və kiçik şəhər və bölgələrin əhalisi də ölkə məmurlarını, yəni prezidenti, onun kabinetini və nazirləri yaxından görə, onlara məktub verə, onlarla danışa və onları dinləyə bilirlər. Keçmişdə isə hətta üçüncü dərəcəli bir məmurun da onlara baş çəkməsinə ümid bəsləmirdilər. Deməli, bir amil budur və bu gün ölkə məmurları və yüksək dövlət rəsmiləri məsuliyyət hiss edirlər.

Əbərkuh əhalisi ilə ümumi görüşdə çıxışdan: 2008.

Keçmişdə xalqın iradəsizliyinin və özünə inamsızlığının təsiri

İkinci amil xalqın iradəsi və özünəinamıdır. Hər hansı bir xalq və əhali özünə dəyər verməsə, bütün insani yarışmalarda və bütün cəmiyyətlər arasında həmişə geri qalmağa məhkum olar. Müstəmləkənin bu bölgəyə və bizim ölkəmizə hakim olduğu dövrdə xalqımız arasında aparılan ən təhlükəli təbliğatlardan biri bu idi: bizim xalqımızı, kişi və qadınlarımızı inandırmağa çalışırdılar ki, siz Qərb və Avropa xalqlarından geridə və onlara nisbətən ikinci dərəcəli xalqsınız. Bu ikinci dərəcəli olmaq da ölkənin müxtəlif bölgələri arasında bərabər deyildi. Bəziləri özlərini daha əziz bilir və gözləntiləri çox idi, bəzilərinin isə az. İslam inqilabı baş verib bir tufan kimi bu çirkli havanı ölkədən çıxardı.

Bu gün bizim xalqımız parlaq tarixinə güvənərək, özünün daxili istedadalarına və bu gün bəşəriyyətə yeni sözü olan İslama və imana arxalanaraq daha özünü geriqalmış bir xalq bilmir və özünə inanır. Bu, milli iradəni oyadan, xalqı inkişaf zirvələrinə hazırlayan və həvəsləndirən amildir. Mənim siz qardaş və bacılara, xüsusən də gənclərə sözüm budur ki, gələcəyə ümidvarlıqdan ibarət olan bu şirin hissin itməsinə imkan verməyin.

Bu ölkə haqsız olaraq geridə saxlanmışdı. Biz bu gün çox inkişaf etmişik, amma bu inkişaflar İran xalqının layiq olduğuna nisbətən azdır. İran xalqı bir zaman İslamın sayəsində elmin, maddi və mənəvi iqtidarın zirvəsində dururdu. Biz bu gün İslama yenidən qayıtmış, qucaq açmışıq. Biz İslamı dövrə və zamanın inkişafına uyğun şəkildə dünyaya təqdim edirik. Bu gün İslamın siyasi, ictimai və mənəvi təfəkkürü, daxili münasibətlərə və insanların cəmiyyət daxilində bir-biri ilə əlaqələrinə dair fikri dünyada bir proqram və nümunə kimi ortaya qoyula bilər. Bu sözü yalnız biz demirik, dünyanın insaflı mütəfəkkirləri də deyirlər. İran xalqı bunu asan əldə etməmişdir. Siz şəhid verdiniz. Əbərkuhun əziz şəhidləri, müharibə əlilləri, inqilab dövründə bu inqilabı və müqəddəs müdafiə dövründə ölkə sərhədlərini qorumaq üçün öz övladlarını verən

ata-anaları var. Bu inqilabı ayaqda, bu bayrağı zirvədə saxlayan və bu gün İran xalqını başıuca edən bunlardır.

Əbərkuh əhalisi ilə ümumi görüşdə çıxışdan: 2008.

Tarixin təsirli an və hadisələri

Bu böyük tarixi anlar əslində xalqların tarixinin inkişaf amilləridir. Aşura yarım gündən artıq sürmədi, amma tarixi titrətdi və dəyişdirdi. Bəzən bir xalqın həyatında dərin, hikmətli və güclü bir hadisə baş verir və onun təsirləri uzun illər, bəzən də əsrlərlə qalır. Şübhəsiz, 19 Dey hadisəsi İran xalqı üçün belə hadisələrdən idi. Tağut rejiminin zülmü və əcnəbilərin müdaxiləsinə qarşı xalqın müqəddəs və inqilabi qəzəb kasası uzun illər ərzində ağzınacan dolmuşdu. Sayıq və yerli bir hərəkət lazım idi. Bu hərəkəti siz Qum əhalisi dey ayının 19-da etdiniz və bu maşın hərəkətə gəldi. Tağut rejiminin qara və mənfur hakimiyyətinin uzun illəri ərzində bu ölkənin və xalqın başına gətirdiyi bəlalar tariximizin həqiqətən acı dönəmlərindən biridir.

Bu faciələrdən biri Rza şahın zamanında baş verən 17 dey hadisələridir. İslamın və İranın düşmənlərinin planı və Pəhləvi sarayına bağlı olan ozamankı ziyalıların köməyi ilə iranlı qadını öz iffət və hicabından uzaqlaşdırmağa, qadının müsəlman cəmiyyətlərində həmişə iffət sayəsində malik olduğu bu möhtəşəm iman gücünü məhv etməyə qərar verdilər.

19 Dey qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışdan: 2008.

Hicabı qadağan etməkdə tağut rejiminin məqsədləri

Tağut rejiminin böyük cinayətlərindən biri 17 Dey (7 Yanvar) hadisəsidir. Hicabı və İslamda qadın və kişinin, eləcə də cəmiyyətin sağlamlığı üçün iki cins arasında təyin olunmuş pərdəni götürmək Qərb cəmiyyətlərində qadının başına gətirilmiş bəlanı iranlı müsəlman qadının da başına gətirmək demək idi. Rza xan ölkə daxilində dəyənəklə bu işi gördü.

Qərb qadınının fəsad bataqlığına girməsi ailə institutunun məhvinə gətirib çıxardı. Hicabı ləğv etməklə qadın elmdə, siyasətdə, yaxud ictimai fəaliyyətlərdə inkişaf etmədi. Bunların hamısı hicab və iffətlə də mümkün idi. Biz İslam quruluşunda bunu sınaqdan keçirdik. Hicabı ləğv etmək iffəti məhv etməyə, İslam cəmiyyətində həyanı sıradan çıxarmağa giriş idi və insanları çox güclü cinsi amillə məşğul etməkdən ötrü həyata keçirildi. Məqsəd onları bütün işlərdən saxlamaq idi. Bir müddət buna nail oldular, amma İran xalqının güclü imanı qoymadı. Bizim müsəlman qadınlarımız yaradılan əngəllərə rəğmən, həmişə bu təzyiqin qarşısında müqavimət göstərdilər; Rza xan gedəndən sonra bir şəkildə, onun dövründə bir şəkildə, tağut rejiminin digər dövrlərində də bir şəkildə. 1978-ci ilin yanvar ayının yeddisində Məşhəddə müsəlman qadınların hicabı müdafiə üçün keçirdikləri böyük mitinq baş tutdu. Biz o zaman sürgündə idik. Məlumat aldıq ki, mömin, müsəlman və şücaətli qadınlar belə bir iş görmüşlər. Bu, tağut rejiminin faciələrinin bir hissəsidir. Dini amalları, əxlaqi dəyərləri, iqtisadi inkişafı və beynəlxalq iqtidarı məhv etmək, bir xalqın sərvətlərini havaya sovurmaq da həmin tağut və bədnam rejimin işlərindən idi.

İran xalqı vaxtında oyanıb öz böyük rəhbərinin çağırışına müsbət cavab verdi və meydana çıxdı. 19 Dey belə bir həssas tarixi dönəmdir. Bunları yaşatmaq lazımdır. Xalqın hisslərini və bu həssas dönəmləri yaddan çıxarmağa çalışmışlar, indi də çalışırlar.

Qum əhalisi vəfalı və sadiq olduğunu göstərdi. Bu hadisələrdə beyəti pozan şəxslər də tapıldı. Quranın sözü ilə desək: “Kim (beyəti)

pozsa, ancaq öz əleyhinə pozmuş olar”[1]. Onlar inqilabla, İslamla və imamla etdikləri beyəti sındırdılar, amma bu öz zərərlərinə oldu. Bəziləri vəfadarlıqlarını göstərdilər: “Kim Allahla etdiyi əhdə sadiq qalsa, (Allah) ona böyük mükafat verər!” Bizim xalqımızın böyük əksəriyyəti buna sadiq qaldı, sözünün arxasında durdu, Allah-Taala da onlara böyük əcr verdi, müharibədə qələbə nəsib etdi, müxtəlif sahələrdə böyük güclər qarşısında zəfər verdi, milli inkişaf və müxtəlif sahələrdə uğur bəxş etdi.

İran xalqı öz amallarına doğru hərəkət etdi, iri addımlar atdı. Bu gün də hərəkət edir və iri addımlar atır.

19 Dey qiyamının ildönümü münasibəti ilə Qum əhalisinin müxtəlif təbəqələrinin nümayəndələri ilə görüşdəki çıxışdan: 2008.

[1] Fəth/10.

Xalqın inkişafının əsas elementləri

1979-cu ilin 19 bəhmənində baş verən hadisə şübhəsiz, dönüş nöqtəsi idi. Hərbi Hava Qüvvələrinin bir qrup əməkdaşı öz duyğu və fikirlərini göstərən bir özfəaliyyət hərəkəti ilə can verməkdə olan tağut rejiminə son zərbəni endirdilər. Bu həm çox cəsarətli iş idi, həm də çox ağıllı. Ehtiyac zamanında baş verən belə hadisələr bəzən bir xalqın taleyini dəyişdirir, yaxud müsbət yolda sürətini artırır. Hərbi Hava Qüvvələri o zaman bu işi gördü. Bu çox böyük hərəkət idi və xalqın çoxuna yol açdı. Bu əzizlərin oxuduğu gözəl nəğmədə deyilir: "Rəhbərə könül verən birinciyəm". Həqiqətən belədir. Bu hərəkət köklü hərəkət idi; belə deyildi ki, bu gün fikirləşib sabah yola düşsünlər. Qeyd etdiyim kimi, bu, Hərbi Hava Qüvvələrinin duyğu və düşüncələrinin məhsulu idi və münasib zamanda bu formada aşkara çıxdı. Odur ki, bu gün önəmli və çox mübarək gündür.

Tarixi hadisələri yenidən öyrənmək əsasən onların dərs və ibrətlərini sonrakı nəsillərə ötürmək üçün lazımdır. Bu hadisənin bütün dövrlərdə İran xalqına dərsi canlı bir dərs, özünə inanan düzgün bir ağıldan və güclü imandan irəli gələn qorxmaz və qüdrətli hərəkətdir. Əgər iman olmasaydı, bu hərəkət baş verməzdi. Bizim bütün inqilabımız əvvəldən sona qədər belə bir həqiqətin tərənnümüdür: güclü imanla, şücaətlə, hərəkətlə və bu yolda qarşıya çıxacaq hadisələrdən qorxmamaqla birgə olan düzgün və ağıllı bir düşüncə. Bunlar bir xalqı ucaldan əsas elementlərdir. Bunların yoxluğu bir xalqı kiçildir.

İran xalqı tağut dövründə ağır günlər yaşadı. Bu xalq bütün şərəfli keçmişinə rəğmən, əcnəbilər, özlərini üstün bilən, İrana biçməli, tapdamalı, otlamalı və aparmalı bir tarla gözü ilə baxan ünsürlər tərəfindən təhqir olundu; ordu təhqir olunurdu, xalq təhqir olunurdu, yuxarıdan aşağıya qədər bütün ölkə məmurları təhqir olunurdular, cəmiyyətin aparıcı adamları təhqir olunurdular. İran xalqı buna qarşı mübarizə apardı.

Ordunun Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və komandirləri ilə görüşdəki çıxışdan: 2008.

İran xalqının İslam inqilabı ilə əldə etdiyi başucalığı

İslam inqilabı əcnəbilərin bu xalqa qarşı təhqirlərini başucalığı ilə, acı və xaredici asılılığı müstəqilliklə və əcnəbilər qarşısında mütləq təslimçiliyi qüdrətlə əvəzlədi. O zaman bizim böyük ölkəmizin məmurları əcnəbilərə müti idilər. Bir dövrdə İngiltərədən və sonra bir neçə onillikdə Amerikadan ibarət olan əcnəbilər nə istəsəydilər, həyata keçirdi. Xalq da dözməyə məcbur idi. Mütləq təslimçilik hökm sürürdü. İslam bu təslimçilik halətini iqtidar və müqavimətə çevirdi, asılılığı müstəqilliklə əvəzlədi, həqarəti başucalığına dönüşdürdü, məntiqsiz və əsassız sülalə monarxiyasını xalq hakimiyyətinə və demokratiyaya çevirdi. İnqilab insani dəyərləri məhv edən və ölkənin daxilində tağut rejimi vasitəsi ilə uzun illər əsası qoyulan dağıdıcı təməlləri bütünlüklə darmadağın etdi, ölkə üçün yeni kimlik yaradan yeni təməllər qurdu.

Ordu da yeni kimlik əldə etdi. Bu gün ordunun kimliyi tağut dövrünün ordusunun kimliyi ilə tamamilə fərqlidir. Bu gün siz xalqın maraqlarını qoruyursunuz. O zaman isə ordu şahın, tağut rejiminin və bu ölkəyə hakim olan asılı və mənfur ünsürlərin maraqlarını qorumağa borclu idi. Siz bu gün düşmən qarşısında başucalığı hiss edirsiniz; özünüz düzəldirsiniz, özünüz öyrənirsiniz, özünüz tədqiqat aparır və araşdırırsınız. O zaman isə onların verdiyini gözübağlı qəbul etməyə məcbur idiniz. Bu yola çıxan bir xalqı tərəqqi və əzəmətin zirvəsinə çatdıran bunlardır. Odur ki, İran xalqı inkişaf yolunu tapdı və hərəkət etdi. Bədəlini də ödədik. Bu xalq bilirdi ki, amallar uğrunda bədəl ödəmək lazımdır; bunsuz ucalmaq mümkün deyil. Biz bu bədəli ödədik və Allahın yardımı ilə inkişaf etdik.

Bu gün İran xalqı başıucadır, ilham mənbəyidir. İslam Respublikası quruluşu qüdrətli bir quruluş kimi tanınmışdır, müxtəlif ölkələr, regional və qlobal güclər İran xalqının əzəmətini etiraf etməyə məcburdurlar. İran xalqı bütün sahələrdə öz bacarığını və gücünü göstərdi. Bunun qədrini bilmək lazımdır.

Ordunun Hərbi Hava Qüvvələrinin şəxsi heyəti və komandirləri ilə görüşdəki çıxışdan: 2008.

Qum qiyamının yaşamasında Azərbaycan əhalisinin rolu

Əziz Azərbaycan əhalisinin başdan-ayağa fəxr dolu tarixi bəzi yerlərdə zirvəyə çatır. Bu yerlərdən biri 29 bəhməndir.

Əgər həmin günü görməyən əziz gənclərimizə bu məsələni iki-üç cümlədə təsvir etmək istəsək, belə deməliyik: Qum Elm Hövzəsi və Qum əhalisi tərəfindən qəddar rejimə qarşı bir hərəkət baş qaldırdı, Amerikaya güvənən qəddar rejim də onu amansızlıqla yatırtdı və bununla da səslər boğuldu. Hamı məsələnin bitdiyini düşündü, lakin Təbriz və Azəbaycan onu bitməyə qoymadı və bir prosesə çevirdi. Qeyrətli, şücaətli və sayıq Təbriz əhalisi bir hadisəni prosesə çevirib Qumda dəfn edilməsinə qoymadı. Biz bunu erkən İslam çağının hadisələri arasında Aşura hadisəsini qoruyub Kərbala səhrasında dəfn olunmasına, yaddan çıxmasına qoymayan cənab Zeynəlabidinin (ə) və Zeynəb-Kübranın (ə) işinə bənzədə bilərik. Siz bunu bir bayrağa çevirdiniz, qüdrətlə saxladınız və bu bayraq meyar oldu. Hadisənin əhəmiyyətini göstərən budur.

Əgər bu hadisəyə Azərbaycan xalqının ruhiyyə və xüsusiyyətləri ilə birgə nəzər salsaq, deməliyik ki, bu xalqın həm fəallığı və həyəcanı var, həm yüksək səviyyəli şüuru və sayıqlığı var və hansı işin nə zaman önəmli olduğunu bilir, həm də kifayət qədər şücaəti və qeyrəti var və bu işi çox təhlükəli olsa da, yerinə yetirir. Bu xalq ayıq xalqdır. Siz də indi bu barədə şüar deyirsiniz. Mən bütün vücudumla bu şüarı qəbul edirəm, illər öncə də bunu demişəm. Mən sizin şüarınızı təsdiq edərək deyirəm: Azərbaycan! Oyaqsan, inqilaba dayaqsan!

29 Bəhmən münasibəti ilə Azərbaycan əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2008.

Xalqların hegemonluqla yeganə mübarizə yolu: oyanış və müqavimət

Bütün məsələlər bu oyanışda, sayıqlıqda, yüksək dərkdə, mövqeyi tanımaqda, vaxtında və qorxmadan hərəkət etməkdə xülasə olunur. Fərz edin bir xalq əsrlər boyu hakim rejimlər və müxtəlif despotlar tərəfindən yuxuda saxlanır, elmdə, sivilizasiyada və hər şeydə geridə qalır. Sonra da müstəmləkə gəlib çox mürəkkəb və sirli üsullarla onları həmin halda saxlayır, həyati sərvətlərini, tarixi və mədəni dəyərlərini məhv edib xalqın və ölkənin idarəsini ələ keçirir. İndi bu xalq vəziyyəti dəyişmək istəyirsə, onun nəyə ehtiyacı var? Gedib zalım və qəddar müstəmləkəçidən xahiş etmək olar ki, cənab, siz müstəmləkədən əl çəkin və öz maraqlarınıza göz yumun?! Bu işi görmək olar?! Bunun faydası var?! Yalvarmaq istəmiriksə, bəs müzakirə ilə necə, həll olarmı?! Müzakirə ilə və məntiqli sözlərlə canavardan istəmək olarmı bu işi görməsin?!

Belə dönəmlərdə xalqların yalnız bir yolu var. O da özlərini göstərmək, güclərini ortaya qoymaq və bacarıqlarından istifadə etməkdir. Bu zaman düşmən onların zəifliyindən və acizliyindən yararlana bilməyəcək. Bir xalq üçün bundan başqa yol yoxdur. İran xalqı bu işi gördü. Bunun da oyanmağa, ayıq olmağa, tənbəllik etməməyə, kiçik, maddi və nağd istəklərə meyl salmamağa, böyük məqsəd və amalları diqqətdə saxlayıb meydana çıxmağa ehtiyacı var. Əsas məsələ oyanışdır. İran xalqı da məhz bu işi gördü.

22 Bəhmən bu işin zirvə nöqtəsi, illərlə fəryad edib bu xalqı oyadan isə bizim böyük imamımız idi. Bütün xeyirxahlar, islahatçılar, qayğıkeş alimlər bu işə kömək etdilər. Müxtəlif təbəqələrin hər biri tədricən səhnəyə çıxdı və yardım etdi. Gözlənilmədən bizim xalqımız Qacar dövrünü yaşamış və sonra Pəhləvi dövründə tamamən tapdanmış bir xalqdan canlı və ayıq bir xalqa çevrilib meydana atıldı və hamıya öz gücünü göstərdi. Bu güc milli gücdür, xalqın gücüdür və heç bir güc onun qarşısında dayana bilməz. Xalqlar bunu sınaqdan keçirsinlər.

Düzdür, bu asan deyil, fədakarlıq və düzgün rəhbərlik tələb edir, amma baş versə, dünyada heç bir xalq zülm altında inləməz, səfalət içində çabalamaz. Bizim əziz ölkəmizdə bu şərait yarandı.

29 Bəhmən münasibəti ilə Azərbaycan əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2008.

Ölümdən qorxmamağın sirri: iman

İman olmadan bu oyanışın yaranması mümkün deyildi. Xalqın imanı daxildən bir mühərrik kimi onları hərəkətə gətirdi. Əgər iman olmasaydı, ölüm xalqın gözündə bu qədər əhəmiyyətsiz görünməzdi. Ölümü xalqın gözündə kiçildən amil imandır; iman nə qədər çox olsa, ölüm bir o qədər kiçik görünər. Əli ibn Əbu Talibin (ə) imanı kimi bir iman ölümü o qədər kiçik sayır və aşağılayır ki, ondan nəinki qorxmadığını, hətta onunla ünsiyyət qurduğunu deyir. Deyir nəinki qorxmuram, hətta onu istəyir, sevir və gözləyirəm. Bu, imandan irəli gəlir. İman varsa, ölüm həyatın sonu deyil.

"Allahdan başqa hər şey məhvə məhkumdur!"[1] Bu dünya ilə o dünya arasında bir xətt vardır. Bəzilərini bu xətdən zəncirlə keçirirlər - bunlar dünya həyatına yapışanlardır. Bəziləri isə özləri atılıb keçirlər. Nə üçün? Çünki orada olanlardan xəbərdardırlar və ilahi vədi görürlər. Buna görə də adlarını eşitdiyiniz, bir çoxlarını tanıdığınız, bəzilərinizlə yoldaş olan və bir yerdə yaşayan bu əziz şəhidlər ölümdən qorxmurdular. Onların vəsiyyətnamələrini oxuyanda bunu anlamaq olur. Bir xalqın yolu budur. Bizim xalqımız bu yolu rəhbər tutdu.

29 Bəhmən münasibəti ilə Azərbaycan əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2008.

[1] Qəsəs/88.

İnqilabın yaşamasının şərti: iman və Allahla rabitə

Bu xalqın çoxlu inqilabçı xalqlarla fərqi budur ki, özünü möhkəm yerə birləşdirdi: "Hər kəs tağutu inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur"[1]. Siz bir uçurumdan keçmək istəyəndə, nazik bir divar üzərində yerimək istəyəndə bu möhkəm kəndir sizə yardım edir. Ondan tutandan sonra daha yıxılmayacağınıza əminsiniz. Tağutu inkar və Allaha iman! Bizim xalqımızda bu vardı, buna görə də bu keçiddən keçdi, qorxmadı və bu, xalqın arasında bu böyük hərəkətin yaşamasına səbəb oldu.

Bizim əziz gənclərimiz, elm və düşüncə adamları bu məsələyə diqqət yetirsinlər. İnqilab bir prosesdir. Hər yerdə belədir, prosesdir, bir hadisə deyil. Lakin bu proses çox zaman yarıyolda qalır. Müxtəlif inqilabların, hətta böyük inqilabların tarixinə baxın; yarıyolda qalmışlar. Bəziləri müəyyən zəfərə nail olub könüllərini xoş edir, xalqı unudurlar, xalq da yavaş-yavaş səhnəni tərk edir və məsələ bitir.

18-ci əsrin sonlarında baş verən Böyük Fransa İnqilabı elə əvvəllərdə və 19-cu əsrin ilk illərində məhv oldu, ondan heç bir şey qalmadı. Onlar diktator şah əleyhinə qiyam etdilər, şahlığı devirdilər, amma 15 ildən sonra Napoleon Bonopart adlı başqa bir avtoritar və qüdrətli imperator hakimiyyətə gəldi. Bunlar on illərlə bu vəziyyətdə qaldılar və sonra yavaş-yavaş özlərini bir qədər vəziyyətdən çıxardılar.

İnqilablar qalmır, yarıyolda tərk olunur. Çünki iman və sözügedən möhkəm kəndir yoxdur. Bizim inqilabımız isə qaldı, günbəgün yeniləndi və təsirini daha da artırdı.

29 Bəhmən münasibəti ilə Azərbaycan əhalisinin müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan: 2008.

---

[1] Bəqərə/256.

Pəhləvi rejiminin Fars vilayəti əhalisinin imanını məhv etməyə çalışması

Fars vilayətinin və xüsusən Şiraz şəhərinin əhalisinin iman gücü bir iddia deyil. Bu söz araşdırmaqla və bütün cəhətləri nəzərə almaqla deyilir. Bu şəhərin parlaq dini keçmişi olmuş, ondan böyük din alimləri və ruhanilər çıxmışdır. Buna və keçmişdə görülən dini işlərə rəğmən, inqilabdan qabaq xalqın imanını məhv etmək üçün orada iki yöndən iş aparılırdı:

Bir iş tağut sarayı tərəfindən aparılırdı. Bu, əllinci illərin əvvəlindən başlandı və inqilabın qələbəsinə yaxın vaxtlara qədər iyirmi ildən artıq davam etdi. Bütün imkanları ilə bu məqsədlə fəaliyyət göstərdilər və Şirazı dünyaya tam qərbləşmiş bir şəhər kimi tanıtdırmağa çalışdılar. Mənim özüm təxminən 1960-61-ci illərdə bu şəhərdə, Zənd xiyabanında və digər mərkəzlərdə qəsdən rəvac verilən fəsad nümunələrinə şahid olmuşam. Qəsdən çalışırdılar ki, gənclər pozulsunlar və dinə laqeyd yanaşsınlar. Bu proses 70-ci illərə, Şirazın incəsənət bayramına, hamınızın bilidiyiniz və bəlkə də bəzi gənclərin eşitmədiyi və bilmədiyi hadisələrə qədər davam etdi. Bu bir proses idi.

Şiraz əhalisi ilə görüşdəki çıxışdan: 2008.

Tudə partiyasının İranda din və dindarlıq əleyhinə mübarizəsi

Bu şəhərdə din və dindarlıq əleyhinə yönələn və bir çox şəhərlərdən artıq təbliğ olunan başqa bir məsələ Tudə (kommunist) partiyası tərəfindən aparılan ateizm cərəyanı idi. Onlar burada yuva salmışdılar və güclü fəaliyyət göstərirdilər. Rejim xüsusən şücaətli, təşkilatçı, fəal və zamanı tanıyan mərhum Seyid Nurəddinin səhnədə olduğu illərdə bu şəhərdə ruhanilərin və dinin nüfuzunun artdığını görüb Tudə partiyasını bu ruhani ilə vuruşmağa həvəsləndirirdi.

Həm saray tərəfindən idarə olunan işlər, həm də ozamankı marksistlər və Tudə partiyası tərəfindən təbliğ olunan fikirlər bir qayçının iki tərəfi kimi bu əhalinin və gənclərin imanını məhv etməyə çalışırdı. Amma bu xalq və bu gənclər İslam və ruhani hərəkatının başlandığı 62 və 63-cü illərdə bu şəhərdə ən dəyərli işlərdən birini gördülər. Bu fəaliyyətdə Qum, Tehran, Şiraz, Təbriz və Məşhəd şəhərləri birinci sırada dururdular. Şirazın görkəmli din alimlərinin bir hissəsi həmin hadisələrdə həbs olunub Tehrana göndərildilər.

Xalqı dindən uzaqlaşdırmağa çox çalışdılar, xalqın cavabı isə bəlli şəkildə oldu, onların əziyyətlərini öz əməl və müqavimətləri ilə puça çıxardılar. Tağut dövrünün son illərində, yəni 77 və 78-ci illərdə də Şiraz əhalisi və Fars vilayətinin xalqı ölkənin bir çox şəhərlərinə nümunə kimi tanınırdı.

Şiraz əhalisi ilə görüşdəki çıxışdan: 2008.

İslam inqilabı - İran tarixində hakimiyyət dəyişikliyinə müstəsna nümunə

Ölkəmizin tarixinə nə qədər baxırıqsa, nə qədər geriyə qayıdırıqsa, İsalm inqilabı üçün başqa bir nümunə tapmırıq. Mən bunu bir qədər aydınlaşdırım. Tarix boyu bizim ölkəmizdə hakimiyyət dəyişikliyi həmişə hərbi güclərin vasitəsilə, ordu yeritməklə, güclərin bir-biri ilə qarşıdurması ilə, yaxud bu gün çevriliş adlandırılan amillə həyata keçmişdir. Bu ölkədə müxtəlif sülalələr hakimiyyətə gəlib-getmişlər, amma bu dəyişikliklərin heç birində xalqın rolu olmamışdır. Məsələn sizin bu Şiraz şəhərinizdə və Fars vilayətində Zəndiyyə sülaləsi hakim idi, sonra Qacarlar gəlib hakimiyyəti ələ keçirdilər. Bu zaman iki ordu və iki qoşun arasında müharibə gedirdi, xalqın heç bir rolu yox idi. Bizim ölkəmizin bütün tarixinə - istər İslamdan öncəki, istər sonrakı tarixinə baxsaq, görərik ki, hakimiyyət dəyişikliklərinin hamısı belə olmuşdur. Qədim dövrdə yalnız bir istisna var; onu deyəcəyəm. Ondan başqa həmişə hakimiyyət dəyişikliyi ordu yeritməklə, hərbi hücumla və xalqın təsiri olmadan baş vermişdir. Xalqın iradəsi olmamışdır; istər hakimiyyəti bir sülalənin o biri sülaləyə verdiyi zaman, istər bir sülalə daxilində hakimiyyət dəyişikliyi olanda. Yenə də sizin Şirazınızdan misal vurmaq istəyirəm: Qacarlar dövründə və Fətəli şah Qacarın ölümündən sonra Şirazda onun Hüseynəli Mirzə adlı böyük oğullarından biri hakim idi və özü şah olmaq istəyirdi. Amma Tehranda Fətəli şahın nəvəsi olan Məhəmməd şah olmuşdu. Müharibə baş verdi. Şiraz şəhərinin bu darvazalarının bayırında iki tərəf arasında müharibə baş verdi. Əlbəttə, bu müharibələrdə xalq tapdanırdı, insanlara xəsarət toxunurdu, tarlaları, malları, mülkləri və canları təhlükəyə düşürdü, amma heç bir rolları olmurdu. Tarix boyu belə olmuşdur.

Qeyd etdim ki, yalnız bir istisna var, o da tarixi baxımdan şübhəlidir və əfsanələrlə qarışmışdır. O, dəmirçi Kavə macərasıdır. Deyirlər bu dəmirçi xalqın köməyi ilə hərəkət etdi və Zəhhak Marduşun

səltənətini devirdi. Əgər düz olsa, tarixdə bu bir nümunə var və başqa nümunə yoxdur.

Bizim tariximizdə ən böyük hakimiyyət dəyişikliyi olan, şahlığı və monarxiyanı xalq hakimiyyətinə çevirən İslam inqilabı xalqın gücü ilə baş verdi. Burda daha iki qüvvənin qarşılaşması, hakimiyyət davası və bu məsələlər yoxdur. Xalq səhnəyə çıxır, ruhanilik də onlara başçılıq və rəhbərlik edir. Möhtəşəm ilahi qüvvəsi ilə hakimiyyəti zalımların, padşahların, tağutların və totalitar hakimlərin əlindən xaric edən qüvvə xalq idi. Hakimiyyət xalq hakimiyyəti oldu. Bizim öyrəndiyimiz və dərk etdiyimiz qədərincə, bu bizim ölkəmizin tarixində baş vermiş yeganə belə hadisədir.

Şiraz əhalisi ilə görüşdəki çıxışdan: **2008**.

İnqilaba ümumi baxışda əsas elementləri təyin etmək

Bu hadisə müxtəlif cəhətlərdən diqqətəlayiq məsələdir. Mən deyirəm ki, İslam inqilabından otuz ilə yaxın bir müddət keçəndən sonra bu gün bu hadisəyə ümumi və kompleks nəzər salmamız lazımdır. Müxtəlif məsələlərə, yoldakı hadisələrə və yıxılıb-qalxmalara baxmaq çox da yetərli deyil. İslam inqilabına ümumi və kompleks baxış ictimai rəy səviyyəsində canlanmalıdır. Əlbəttə, bizim xalqımızın və görkəmli şəxslərimizin bir çoxu və bəzi əcnəbilər inqilabı bu şəkildə araşdırmışlar.

1. Allaha iman

Dünyanın bütün hadisələrində bir neçə elementi bir-birinin kənarında nəzərə almaq lazımdır: biri hadisənin ilk baxışda görünən amillərinə baxışdır: məqsədlər, maraqlar, tarixi, coğrafi və geosiyasi şərait - bunlar hadisəni öyrənməkdə təsirli məsələlərdir. Bizim inqilabımızda birinci element xalqın imanından, azadlıqsevər mübarizələrdən, bu mübarizələrin qığılcımlarından, - Məşrutə hadisəsində, Mirzə Şirazinin tənbəki qadağasında, neft sənayesini milliləşdirmə hərəkatında və digər müxtəlif hadisələrdə bu tarixi amillər mövcuddur - mübariz ruhanilərin və bu şəraitdən ən gözəl şəkildə istifadə edən, bu hərəkəti başladan Böyük İmamın özünün oyanışından ibarətdir.

2. Xalqın iştirakı

İkinci element meydanda olan qüvvələrə və hadisənin sahibinə baxmaqdır. Bu hadisədə meydan sahibi xalq idi. İslam inqilabından ibarət olan bu möhtəşəm, misilsiz və tarixi hadisəni xalq etdi. Xalqın rolunu inkar etmək və ona əhəmiyyətsiz yanaşmaq səhvdir. Təəssüf ki, bu gün bəzi ziyalınüma baxışlarda insan bunu müşahidə edir. Xalq bir istiqamətə yönələndə bundan özlərinə fayda görməyənlər adını populizm qoyurlar. Bu səhvdir. İnqilabı xalqın iradəsi və onun imanına söykənən fəallığı qalib etdi. İran xalqı öz imanı, hissləri, milli qüruru ilə,

tarixi keçmişi və möhtəşəm mədəni irsi ilə fəxr etdiyinə görə bu möhtəşəm işi görə bildi.

İran xalqının məqsədi bu idi ki, İslamın sayəsində istiqlaliyyət və azadlıq əldə edə bilsin. Kimdən soruşurduqsa, müxtəlif sözlərlə bu cavabı verirdilər. İnqilab dövründə verilən bu "istiqlaliyyət, azadlıq, İslam Respubilkası" şüarı xalqın ürək sözü idi, xalq bunu istəyirdi. Xalq görürdi ki, bu əzəmətli ölkənin başçılarında fikir müstəqilliyi yoxdur, əcnəbilərə və hegemon qüvvələrə tabedirlər, onların boyunduruğu altına girmişlər, onların qarşısında zəif və qeyri-müstəqil, öz xalqlarına qarşı isə zalım və qəddardırlar. Onlara qarşı təzyiqlə, ağır tədbirlərlə və şiddətlə rəftar edirdilər. Onların başına qamçı vurub, seçim icazəsi vermirdilər. Bu xalq Məşrutə illəri boyu və İslam inqilabından öncə heç zaman səsvermədə həvəslə, rəğbətlə və məlumatlı şəkildə iştirak etmədi. Seçkinin mənası yox idi. Hakimiyyət sülalə hakimiyyəti, məmur və başçılar əcnəbi qüvvələrin sifariş etdiyi adamlar idi. Məşrutə dövründə yaranmış Şura Məclisi isə xüsusi təyinatla qurulan və xalqın seçmədiyi parlament idi. Xalq isə bu məsuliyyətsiz və öhdəliksiz qrupun onlar üçün çıxardığı qərarların əsiri olmuşdu. Xalq müstəqillik, azadlıq qazanmaq, milli başucalığına nail olmaq, xoşbəxtlik, dünya rifahı, mənəvi və axirət başucalığı əldə etmək istəyirdi. Bu, xalqın arzusu idi və onlar buna görə səhnəyə çıxdılar. Bu da ikinci elementdir.

3. Məcburi bədəlləri ödəmək

Hər bir hadisədə üçüncü element həmin hadisə, yaxud hərəkətə müxalif olan və ona qarşı çıxan qüvvələrin bəzi sıxıntılar yaratmasıdır. İslam inqilabında da belə oldu. Əvvəldən müxalif ünsürlər vardı. Bunun mənası odur ki, İran xalqı müstəqilliyi və azadlığı öz səyi ilə əldə edir, amma onun bədəlini də ödəməlidir və ödəyir. Məqsədinə çatmaqdan ötrü qarşılıq ödəməyən və zəhmət çəkməyən insan heç zaman o məqsədə çatmaz. Oturmaqla, rahatçılıqla, zəhmətə və təhlükəyə qatlanmadan insan heç zaman arzularına çata bilməz. Xalqlar da belədirlər. Yalnız qorxmadan meydana atılan, işi davam etdirən və onun

çətinliyinə tam rəşadətlə dözən xalq şərəfə və başucalığına nail olar. İran xalqı da belə etdi.

İran xalqının ödədiyi bədəl səkkiz il məcburi müharidə idi. Bu, İran xalqının istiqlalsevərliyinin, azadlıqsevrəliyinin və izzətsevərliyinin əvəzi idi. İran xalqı onu ödədi və qaşını da çatmadı. Səkkiz il müharibəyə dözdü; çünki bu, xalqın müstəqilliyə, milli iqtidara və şərəfə nail olmasının qarşılığı idi. Bu ölkədə səksəninci illərin kor terrorçuluğunun qurbanları İran xalqının ödədiyi digər qarşılıq idi. İnqilabın əvvəlindən bu günə qədər xalqımıza qarşı tətbiq edilən iqtisadi embarqo və blokadalar İran xalqının ödədiyi əvəzlərdir. İndinin özündə də iki ildir hegemon güclər daim təhdid edirlər ki, biz İran xalqına embarqo tətbiq edəcəyik, onları blokadaya salacağıq. Sanki indiyədək bu işi görməmişlər.

Kapitalizm və müstəmləkə düşərgəsi özünün bütün siyasi gücü, bütün maliyyə və iqtisadi qüdrəti və bütün təbliğat maşınları ilə İran xalqını təslim etmək üçün təzyiq göstərməkdədir. Onlar İran xalqını yalnız nüvə hüququndan yox, həm də başucalığı, müstəqillik, qərar və elmi inkişaf hüquqlarından məhrum etmək istəyirlər. İran xalqı bu gün elmi-texnoloji inkişafa başlamışdır və özünün tağutlar dövründəki ikiəsrlik geriliyini düzəltmək istəyir. Bunlar da əl-ayağa düşərək dünyanın bu həssas nöqtəsində yerləşib İslamın bayraqdarı kimi tanınan İran xalqını bu uğurlardan saxlamaq istəyirlər. Odur ki, təzyiq göstərirlər. Lakin İran xalqı möhkəm dayanmışdır.

Təhdid edirlər ki, sizə embarqo tətbiq edəcək, sizi iqtisadi blokadaya salacağıq. Bu otuz ildə İran xalqını bəzən güclü, bəzən zəif blokadalara saldınız, bundan kim ziyan gördü?! İran xalqı ziyan gördü?! Əsla! Biz embarqodan öz inkişafımız üçün istifadə etdik. Bir zaman hərbi sursata ehtiyacımız vardı, ən sadə hərbi sursatı biz satmır və embarqo tətbiq edirdilər. Biz embarqodan istifadə etməyi bacardıq. Bu gün İran xalqı elə nailiyyətlər əldə etmişdir ki, dünən və bu gün bizə embarqo tətbiq edənlər İran xalqının regionun birinci hərbi gücünə çevrilməsindən dolayı əl-ayaq çalırlar. Bu sizin embarqonuzun

nəticəsidir. Bu embarqo bizə ziyan vurmadı. Biz bu təhdiddən bir fürsət yarada bildik. Bu gün də belədir. Biz Qərbin embarqosundan qorxmuruq. İran xalqı Allahın gücü və qüvvəsi ilə hər bir embarqonun, hər bir iqtisadi blokadanın qarşısında lazımınca çalışacaq və öz inkişafını bir neçə dəfə artıracaq.

İnqilaba belə kompleks baxış, inqilabın və quruluşun məqsədlərinə, şəraitinə, görünən amillərə, inqilabın əsas amilinə, yəni xalqa, onun dini inancına və ödənən bədəllərə baxış bizim hansı məqamda və harada olsaq, xırda və kiçik məsələlərə çox əhəmiyyət göstərməməyimizə səbəb olur. İnqilabın əzəmətinə və ümumi hərəkətinə baxaq. Allaha şükür olsun ki, bu otuz ildə bu hərəkət həmişə qüdrətlə davam etmiş, düşmən təxribatlarının artmasına rəğmən, İran xalqı hər gün əvvəlkindən daha səmərəli şəkildə irəliyə doğru hərəkət etmişdir.

Şiraz əhalisi ilə görüşdəki çıxışdan: 2008.

İslam inqilabının qurmağa can atdığı İran

İnqilabın məqsədi aşağıdakı xüsusiyyətlərə malik olan bir İran qurmaqdan ibarət idi: müstəqil, azad, sərvətli, təhlükəsiz, dindar, mənəviyyatlı, əxlaqlı, elmdə və digər sahələrdə beynəlxalq yarışmada öncül - əzəldən insanlar arasında bəşəri nailiyyətlərdə, elmdə və digər istək və nailiyyətlərdə yarışma olub – və bütün mənalarda azad. Azadlıq yalnız ictimai azadlıqdan ibarət deyil; baxmayaraq ki, ictimai azadlıq onun mühüm şaxələrindən biridir. Həm ictimai azadlıq nəzərdə tutulur, həm sərbəst və asudə olmaq, ölkənin əcnəbilərin əluzunluğundan və onların istilasından azad olması. Bəzən ölkə zahirən müstəqil, lakin əslində təsir altında olur. Burada həm də mənəvi azadlıq nəzərdə tutulur; yəni insanın qurtuluşu, əxlaqi və mənəvi yüksəlişi. Daha üstün məqsəd budur. Bütün işlər insanın təkamülü və insani yüksəlişi üçün hazırlıqdır. Bu, İslam cəmiyyətində özünü göstərməlidir.

İnqilabın idealı bu xüsusiyyətlərə malik olan İran idi. Siz soruşun ki, bu xüsusiyyətlər inqilabın hansı cəhətindən başa düşülür, harada yazılmışdır? Mən deyirəm ki, "İslam" sözündən başa düşülür. İslam ümumiyyətlə bunlardır. İslam haqda bundan qeyrisini düşünən şəxs İslamı tanımamışdır. İslamın yalnız mənəvi cəhətlərlə, özü də mənəvi cəhətlərin xüsusi izah və təsəvvürü ilə - ibadət, oruc, zahidlik, zikr və bu kimi işlərlə məşğul olduğunu təsəvvür edən, xalqın dünyasına, ləzzətlərinə, bəşəri istəklərinə diqqət yetirmədiyini düşünən şəxs İslamı düzgün tanımamışdır. İslam belə deyil. Dediyimiz bütün bu məsələlər - həm cəmiyyətin dünyəvi məsələlərinə aid olanlar, məsələn ədalət, təhlükəsizlik, rifah, sərvət, azadlıq və istiqaliyyət, həm də axirət məsələlərinə aid olanlar, məsələn qurtuluş, təqva, iman, əxlaqi inkişaf, insanın mənəvi təkamülü İslam sözündə mövcuddur.

Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2008.

İlahi bərəkətlərin iman və təqvanın mükafatı olması

Quran ayəsi bizə buyurur: "Əgər bu yerlərin əhalisi iman gətirib təqvalı olsaydılar (pis əməllərdən çəkinsəydilər), sözsüz ki, onların başlarına göydən və yerdən bərəkət yağdırardıq". İman və təqva olsa, səmanın və yerin bərəkətləri axacaq. Səmanın bərəkətləri mənəvi faydalardır, ilahi rəhmətdir, Allaha yaxınlaşmaqdır, səma mələklərinin və ərşin daşıyıcılarının yer üzündəki Allah bəndələri üçün bağışlanmaq istəyidir. Yerin bərəkətləri insanın yer həyatı ilə əlaqədar olanlardır; yəni azadlıq, rifah, müstəqillik, təhlükəsizlik, ruzi bolluğu, fiziki sağlamlıq və bu qəbildən olan məsələlər. Əgər iman və təqva olsa, insan üçün həm o bərəkətlər olacaq, həm bu bərəkətlər. Bu, İslamdır. Deməli, İslam inqilabı dedikdə mənası bunlardır.

Biz bu xüsusiyyətlərə malik olan bir İran qurmaq istəyirik. Bu mətləbin bir əlavəsi var. O da budur ki, məsələ yalnız İran deyildi. İran birinci növbədə İslam cəmiyyətləri və sonra bütün bəşəriyyət üçün bir örnək olaraq nəzərdə tutulmuşdu. Biz - yəni İran xalqı, İran inqilabı, İranın inqilabçıları istəyirdik ki, bu xüsusiyyətlərə malik olan bu cəmiyyəti quraq, onu insanlara və İslam ümmətinə göstərək. Onlar bunun həm İslamın istədiyi, həm də bu dövrün xalqı üçün mümkün olduğunu görsünlər; düşünməsinlər ki, bəli, bu yaxşıdır, amma mümkün deyil. İslam hərəkatının mübarizə çağında bunu deyirdilər. Bəzi xoşməramlı insanlar deyirdilər ki, nə üçün əbəs yerə zəhmət çəkirsiniz, faydası yoxdur; bəli, sizin sözləriniz düzdür, lakin olası deyil. İnqilab İslam dünyasının hər bir nöqtəsində olan bütün insanlara göstərmək istəyirdi ki, bu örnək həyata keçəsi və olasıdır; bu da nümunəsi. İnqilabın məqsədi bu idi. Bu məqsəd əvvəldən vardı. Sizə deyim ki, bu gün də həmin məqsəd var, gələcəkdə də olacaq. Bu, dəyişməz məqsəddir.

Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2008.

Günah və fəsadın keçmiş rejimlərin məmurları üçün adiləşməsi

Başıqapazlılıq, zorakılıq eşitmək, cəmiyyətin ədalət, insaf və paklıq gözlədiyi şəxslərdə azğınlıq görmək adət olmuşdu. Yəni inqilabdan öncə xalqa desəydilər ki, ölkənin filan yüksək rütbəli məmuru, şahın özü, yaxud nazirlər və ya məmurlar filan əyyaşlığı etdilər, filan azğınlığı etdilər, filan çirkin və pis əməli gördülər, xalq təəccüblənməzdi; deyirdilər bəli, bu təbiidir. Təmiz və iffətli olmalı məmurları hamı natəmiz və çirkab içində görməyə adət etmişdilər. Biz təəccüb edirdik ki, necə olur İslamın erkən çağında bir sərxoş xəlifə gedib sübh namazına imamlıq etdi. Bunu həm xəlifə haqqında demişlər, həm də xəlifə tərəfindən təyin olunmuş əmirlərdən biri haqqında. Bu, İslam tarixində var, məşhur və qətidir. Sübh namazı iki rəkətdir, amma o kefli olduğuna görə altı rəkət qıldı. Dedilər ki, ağa, sübh namazını çox qıldın. Dedi ki, bəli, halım yaxşıdır, istəsən, daha çox qılaram. Bu, tarixdə olmuşdur. O zaman xalq görürdü ki, xəlifə belə bir günah edir, amma dözürdülər və laqeydliklə məsələnin yanından keçirdilər. Bizim dövrümüzdə - tağut dövründə də belə idi. Xalq İslam ölkəsinin padşahının fasiqlik və günah etməsinə, şərab içməsinə, mənasız işlər görməsinə təəccüb etmirdi. Bəlkə də öncə demişəm ki, atamın müəllimi olan və mənim də gördüyüm böyük Təbriz alimlərindən biri çox elmli, lakin çox sadə bir qoca idi. Mən bir dəfə Təbrizə getmişdim. Şagirdləri və onu sevən dostları danışırdılar ki, Məhəmmədrza gənc olarkən bir dəfə Təbrizə gəlib bu ağanın yanına getmiş, ona hörmət bildirmiş və dərs dediyi mədrəsəyə baş çəkmişdi. Məhəmmədrza gedəndən sonra elmli, təqvalı, lakin sadəlövh olan bu alimdə şaha rəğbət yaranmışdı və onu tərifləyirdi. Dostlar demişdilər ki, ağa, siz bu adamı tərifləyirsiniz, amma bu kişi filan pis işləri görür; o alimə çox böyük görünməli olan işlərdən biri bu idi ki, misal üçün, şərab içir. Demişdi ki, bəli, şahdır da, deyirsən şərab içməsin?! Demişdilər ki, məsələn qumar oynayır. Demişdi şahdır da, bəs nə oynasın?! Adət belə idi ki, şah olduğuna, nazir olduğuna görə fasiqlik, günah və natəmizlik etməlidir. Bu, bizim

cəmiyyətimizdə mövcud adətlərdən idi. Bunlar sözügedən daxili maneələrdir. Bunlar uca məqsədə çatmaq qarşısında maneçilik törədən amillərdir.

Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2008.

Bəzilərinin inqilaba qarşı çıxmasının səbəbi: dini təlimləri yanlış anlamaq

Cilovsuz və tərbiyə olunmamış qəzəb və ehtiraslar, keçmişdən miras qalmış xurafatçı etiqad və adətlər və dinin sözünü pis anlamaq daxili zəifliklərdəndir. Bəzi adamlar çox şeyləri anlamırlar. Mübarizə zamanı bəziləri həzrət Mehdinin (ə) bayrağından öncə ucalan hər bir bayrağın odda olmasına dair hədislərə istinad edərək mübarizəyə qarşı çıxırdılar. Deyirdilər ki, siz həzrət Sahibəzzamandan (ə) öncə mübarizəyə başlamaq istəyirsiniz? Ucaltdığınız bu mübarizə bayrağı oddadır. Hədisin mənasını anlamırdılar. Erkən İslam çağında və imamların dövründə bir dəstə Mehdinin (ə) zühur edib dünyanı ədalətlə dolduracağını eşitmişdi; buna görə mehdilik iddiası edirdilər. Bəziləri özləri də çaş-baş qalırdılar. Bilməniz pis deyil ki, həm Bəni-Ümməyyədə mehdilik iddiası vardı, həm Bəni-Abbasda, həm də sonrakılarda. Bəli, kim mehdilik bayrağı ucaltsa, oddadır. Bunun mənası o deyil ki, xalq zülmlə mübarizə aparmasın, ilahi və İslam cəmiyyəti, Əli cəmiyyəti qurmaq üçün mübarizə aparmasın və qiyam etməsin. Bu, dini pis anlamaqdır. Görürsünüz ki, bunların hamısı daxili maneələrdir. İnqilab qələbə çalandan sonra biz İran xalqı belə bir vəziyyətdə ölkəni o məqsədlərə sarı aparmaq istəyirdik. Bunların hər biri bir maneə idi. Sözsüz ki, bunları aradan qaldırmaq mümkün idi, qeyri-mümkün deyildi, çoxu da açıqlamaqla aradan qalxdı. Odur ki, İslam mübarizələrində açıqlamanın böyük rolu var. Mən bunu məsuliyyət hissi keçirən siz əziz gənclərə mötərizə arasında deyirəm ki, açıqlamaq çox önəmlidir. İslam mübarizələrində istənilən halda açıqlamağın - həqiqəti söyləməyin, çatdırmağın və təbliğ etməyin böyük əhəmiyyəti var və bunu əldən vermək olmaz. O zaman geniş yayılan marksist təfəkkür isə buna inanmırdı. Onlar deyirdilər ki, mübarizə bir ənənədir, həyata keçəcək; istər istəyəsiniz, istər istəməyəsiniz; istər deyəsiniz, istər deməyəsiniz. Yəni onların izah etdiyi dialektikanın nəticəsi olaraq, mübarizənin açıqlamağa ehtiyacı yox idi. 1970-ci ildə Məşhəddə bizimlə

tanış olan, o zaman yenicə baş qaldırmış qruplaşmalardan birinə bağlı olan kommunist bir gənc bir dəfə mənimlə görüşdü. Dedi ki, filan işləri görmək istəyirik. Mən dedim ki, belə ictimai şəraitdə olmaz; bir qədər xalqla söhbət edin, məsələni açıqlayın, danışın, xalqa nə iş görmək istədiyinizi başa salın. Çox etinasızlıqla dedi ki, bu, İslamın üsuludur. Bəli, İslamın üsulu budur. İslam açıqlamağın tərəfdarıdır. Həmin açıqlamalar İslam inqilabının bu tarixi şəraitin və səhv tərbiyələrin bir çoxuna qalib gəlməsinə bais oldu.

Şiraz universitetlərinin müəllim və tələbələri ilə görüşdəki çıxışdan: 2008.

İmamın hələ də dünya müsəlmanları tərəfindən sevilməsi

İran xalqı on doqquz ildir bu münasibətlə Böyük İmama dərin sevgisini bildirir. Bizim xalqımızın əksəri Böyük İmamın səmərəli həyatını görməyən, ya o həzrətin vəfatından sonra dünyaya gələn, ya da Böyük İmamın mübarək həyatının onillik dövründə azyaşlı oğlan və qızlar olan gənclərdən ibarətdir. Ölkənin hər bir yerində bu mömin və nurlu gənclər imama elə eşq bəsləyir, onun adını və xatirəsini elə uca tuturlar ki, sanki onunla oturub-durmuşlar. Səmat duasında belə deyilir: "Onu görmədiyimiz halda sədaqətlə ona iman gətirdik". Həm də bu yalnız bizim xalqımıza məxsus deyil. Dünyanın bir çox bölgələrində və müsəlman ölkələrində bizim böyük imamımıza qarşı bu hiss var. Bu, iki böyük amildən irəli gəlir: Biri imamın əzəməti, onun şəxsiyyətinin müxtəlif cəhətlərinin böyüklüyüdür. O, müasir və hətta bizə yaxın dövrlərdə müstəsna bir şəxsiyyət olmuşdur. Başqa bir amil isə bu inqilabın əzəməti, Böyük İmamın öz imanı, ağlı və güclü iradəsi ilə bu dövrdə gördüyü böyük işdir: İslam inqilabı etmək və İslam quruluşu yaratmaq. Bu inqilabın əzəməti də bizim böyük imamımızın əzəmətindən xəbər verir. Bu inqilab Allahın bir möcüzəsi idi.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü tədbirində çıxışdan: 2008.

İslam inqilabının kompleks cəhətlərə sahib olması

İslamın və İslam ümmətinin düşmənləri İslam və ruhanilik əleyhinə təxminən yüz il təbliğat aparmış və işlər görmüş, asılı rejim bu ölkədə əlli il İran xalqının maraqlarını düşmənlərə və əcnəbilərə qurban və ölkəni bütövlüklə əcnəbilərdən asılı etmişdi. Böyük İmam İslam naminə və istismarçılıqla mübarizə məqsədilə qiyam etdi və qələbə çaldı. İslam inqilabı bütün inqilablardan fərqlidir; nə sırf mənəvi və mədəni inqilabdır, nə sırf iqtisadi inqilab, nə də sırf siyasi inqilab. Bu inqilab kompleks cəhətlərə sahib olan bir inqilabdır, İslamın özü kimidir. İslamın mənəvi, əxlaqi və ilahi cəhətləri olduğu kimi, bu din həm də xalqın həyatına önəm verdiyindən və İslamda iqtisadi, siyasi və ictimai cəhətlərin də mövcud olduğundan İslam inqilabı da bu müxtəlif cəhətlərə malik idi. İslam inqilabının yaşamasının, region və dünya səviyyəsində günbəgün güclənməsinin səbəbi onun bəşəri ehtiyaclara uyğun müxtəlif cəhətlərinin olmasıdır.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü tədbirində çıxışdan: 2008.

İmamın vəsiyyətnaməsinin mənəvi irs olması

İmam sözü və rəftarı ilə öz ümmətinə - biz xalqa davamlı bir hidayət əlaməti qoyub getdi. İmamın sözləri həyatın bütün döngələrində bizi yönəldir. İmamın ən güclü və ən yaxşı mənəvi irslərindən biri onun vəsiyyətnaməsidir. Yaxşı olar ki, xalq, müxtəlif məmurlar və gənclər zaman-zaman bu vəsiyyətnaməni yenidən öyrənib araşdırsınlar. Mən bu gün bu möhtəşəm toplantı münasibəti ilə və sizin qəlblərinizin ayıq olduğuna görə imamın dərin məzmunlu vəsiyyətnaməsinin bir neçə məqamına toxunacağam.

İmam öz vəsiyyətnaməsində deyir ki, bu inqilab ilahi inqilabdır və onun əsas dayağı xalqdır. Yəni bu inqilab xalqa məxsusdur. Bu sözün mənası odur ki, heç kim, heç bir təbəqə, heç bir fərd və heç bir qrup bu inqilabın sahibi olduğunu deyə, özünü ona sahib, digərlərini isə borclu saya bilməz və bilməməlidir. Əgər kimsə özünü bu inqilabın sahibi bilməli olsaydı, hamıdan münasib və layiqli olan imamın özü idi. İnqilab onun iradəsi və şəxsiyyəti hesabına baş verdi, amma o özünü heçkim və Allahı yeganə səbəbkar bilirdi. Bu, imamın sözlərində çox görünür və vəsiyyətnamədə də təkidlə deyilmişdir. Deməli, bu inqilabın sahibi xalqdır. Hamının çiyni üzərində ağır bir vəzifə var və bu, Allahın böyük əmanətini qorumaqdan ibarətdir. Xalq özünü bu inqilabın keçikçisi bilməlidir. İnqilab öz şüarlari, istiqaməti, dəyərləri və əsasları ilə yaşayır. Dünyanın dəyişdiyini bəhanə gətirib inqilabın şüarlarını dəyişdirməyə, yaxud dini şüarları ondan ayırmağa, yaxud ictimai ədalət cəhətini, yaxud istismarçılığa və əcnəbipərəstliyə qarşı mübarizəni, yaxud antiavtoritorizm cəhətini məhv etməyə çalışan şəxslər həmişə olmuşlar, bu gün də vardırlar, gələcəkdə də olacaqlar. Müxtəlif amillərin müxtəlif bəhanələrlə inqilabın şüar və məqsədlərini dəyişdirməyə çalışması həmişə mümkündür. Xalq sayıq olmalı və bilməlidir ki, bu inqilab öz şüarları ilə yaşayır. Bu inqilabın bayrağı üzərinə yazılmış ən əsas şüar onun İslam inqilabı olması, din əsaslarına və dini prinsiplərə sadiq qalması, istismarçılıqla, hegemonluqla mübarizəsi, dünya məzlumlarını

müdafiə etməsidir; özü də bütün məzlumları açıq və səmimi şəkildə müdafiə etməsi.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü tədbirində çıxışdan: 2008.

Xalqın inqilabın əsl sahibi olması

Bu inqilabın ən üstün şüarlarından biri də onun bütün xalqa məxsus olmasıdır. İnqilab məsələsində heç bir təbəqənin digərinə üstünlüyü yoxdur. Bugünkü gənclər də müqəddəs müdafiə dövrünün gəncləri kimi inqilabın sahibidirlər. Demək olmaz ki, inqilabı edənlərin, onun qələbəsində rol oynayanların inqilaba daha çox aidiyyəti var. Xeyr! İnqilabın qələbəsində iştirak etməyən, amma müqəddəs müdafiədə öz canı ilə səhnəyə çıxan şəxslər də inqilaba eyni həddə aiddirlər. Müqəddəs müdafiədən sonrakı bu iyirmi ildə öz şüuru, qeyri-adi həvəsi, marağı, ilahi hissləri, elmi, ictimai və siyasi fəaliyyəti ilə onun yaşamasını və yeniliyini təmin edən gənclər səhnədə olmuşlar. Onlar da inqilabın övladlarıdır; onlar da inqilabın sahibləridir. İnqilab ozamankı insanlar qədər bunlara da aiddir. Gələcəkdə də belə olacaq. Bu inqilab gənc təbəqəyə və gələcək nəsillərə də eyni həddə məxsusdur. Hamı inqilabda və bu əmanəti qorumaq vəzifəsində ortaqdır.

Bizim bugünkü gənclərimiz, müasir nəslin gəncləri və gələcəkdə meydana çıxacaq gənclər bilsinlər ki, inqilab yolunun iradəyə, imana və möhkəmliyə ehtiyacı var. Bəziləri möhkəm və davamlıdırlar, bəziləri isə yarıyoldan qayıdırlar. Təbii ki, bu öz zərərləri ilə nəticələnir: "Kim (beyəti) pozsa, ancaq öz əleyhinə pozmuş olar"[1]. İnqilabdan dönənlər yayda oruc tutan, günün sonlarında iftara bir-iki saat qalmış taqəti tükənən və orucunu açan adam kimidirlər. Belə bir şəxs sanki əvvəldən oruc tutmamışdır. Gündüzün hər hansı bir saatında orucu batil etməyin fərqi yoxdur. İnqilab yolunda davamlılıq olmasa, hərəkət davam etməsə, insanın onunla rabitəsi qırılar. Bu, inqilaba qarşı vəfasızlıqdır. İnqilaba vəfasızlıq edən, ona sevgisini azaldan və arxa çevirənlər həmişə olmuşdur. İmamın vəsiyyəti budur ki, bizim gəncimiz, xalqımız və müxtəlif nəsillərimiz realist gözlə baxsınlar. Əsas məsələ inqilabdır.

[1] Fəth/10.

İnsanlar əsas deyillər. İnqilabçılıq özünün inqilabla rabitəsini, əməlini və sadiqliyini qorumaqla mümkündür. Bu birinci məsələdir.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

İmamın proqnozu: inqilabın dünyaya yayılması

İmam vəsiyyətnaməsində elan edir ki, bu inqilab yayılıb İslam dünyasında müstəmləkəçilərin istismarına son qoyacaq. Bu, Böyük İmamın proqnozudur. Bu gün baxdıqda bunun baş verdiyini görürük. İmama görə, bəzi inqilabların əksinə olaraq, İslam inqilabı digər ölkələrə iğtişaş törətməklə, ordu yeritməklə və terrorçuluqla yayılmayacaq. Xalqlar arasında inqilabı yaymaq İslam Respublikası quruluşunu örnək göstərmək yolu ilə həyata keçir. Yəni İran xalqı İslam Respublikası quruluşunu elə bir səviyyəyə və dərəcəyə çatdırsın ki, digər xalqlar ona baxıb həvəslənsinlər və onu istəsinlər. Bu, İslam təlimlərini təbliğ etmək, İslam dünyasının məzlum təbəqələrini və hegemonluğun zülmü altında tapdanan məzlum müsəlman xalqları müdafiə etməkdə açıq mövqe yolu ilə həyata keçir. İslam quruluşunun yayılması budur və bu baş vermişdir.

Bu gün dünya xalqları İran xalqına baxıb ondan güc və enerji alır, həvəslənirlər. Bu gün İran xalqının antihegemon şüarları bütün İslam dünyasına yayılmışdır. Siz bu gün müsəlman ölkələrinin hansına getsəniz, hansı rejim və hansı quruluş hakim olsa da, xalqların sizin şüarlarınıza, təsvir etdiyiniz məqsəd və amallara hörmətlə baxdığını görərsiniz. Zülmə, istismara qarşı mübarizə aparmaq, məzlumları, Fələstin xalqını müdafiə etmək və sionizmin xərçəng şəbəkəsi ilə düşmən olmaq belə məsələlərdəndir. Müsəlman xalqlar bunu istəyirlər. İslam inqilabının yayılması budur. İran xalqının düşmənlərin təzyiqi qarşısında möhkəm dayanması, öz haqqını tələb etməsi, hətta nüvə enerjisi məsələsi bu gün İslam dünyası tərəfindən dəstəklənir. Müsəlman və ərəb ölkələrinin sözçüləri nüvə enerjisi məsələsinin ərəb xalqlarının ümumi istəyinə çevrildiyini bildirirlər.

İran xalqının dost və düşmənləri etiraf edirlər ki, imamın inqilaba dair proqnozu bu gün həyata keçmişdir. Onlardan biri Fələstin amalıdır. Xalqlar İran xalqı kimi İsrail rejimini regionda qondarma və zorla yaradılmış bir rejim bilirlər. Düzdür, hökumətlər xalqların yanında

deyillər və təssüf ki, İsraili gücləndirən də budur. Sionizm rejiminin özünün gücü, öz ayağı üstə dayanmaq bacarığı yoxdur. Bu gün iki amil sionizm rejimini ayaqda saxlamışdır: biri Amerikanın bu mənfur rejimi qeyd-şərtsiz və həyasızcasına dəstəkləməsi, digəri isə ərəb və müsəlman hökumətlərinin Fələstin xalqını müdafiə etməməsi. Təəssüf ki, müsəlman hökumətlərin və dövlətlərin bir çoxu bu gün Fələstinə dair vəzifələrini layiqincə yerinə yetirmir və xalqlarının səsinə səs vermirlər. Onlar öz xalqları ilə həmfikir olub məzlum Fələstin xalqını müdafiə etsələr, regionda vəziyyət tamamilə dəyişər. Bu, xalqların ümumi istəyi və bizim böyük imamımızın xəbər verdiyi inqilab yayılmasıdır.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

İslam inqilabı nəticəsində İranın inkişaf etməsi

İmamın vəsiyyətnaməsində mövcud olan, onun səmərəli ömrünün on ili ərzində çıxışlarında toxunduğu və bizim xalqımız və gənclərimiz üçün mühüm olan üçüncü məsələ budur ki, İslam inqilabı xalqın inkişafına və yaradıcılığına kömək edir. İslam düşmənləri uzun illər bunun əksini təbliğ edirdilər. İslam düşmənləri belə gösətərməyə çalışırdılar ki, dindarlıq inkişafla ziddiyyət təşkil edir və uyğun gəlmir. Bir xalq inkişaf etmək istəyirsə, dindən əl çəkməli, Qərbin yanında durub özünü başdan-ayağa onların rənginə salmalı və inkişaf etməlidir. Uzun illər bunu İran xalqına bir inam kimi aşılamışdılar. Bizim böyük imamımız inqilabın əvvəlindən son günə qədər və həmçinin öz vəsiyyətnaməsində təkid edir ki, inqilabi ruh irəliyə doğru hərəkət, inkişaf və yaradıcılıq amilidir. Bu amil İran xalqında yarandı.

Bu gün İran xalqı özünə inanır, elmi işlərə, siyasi işlərə qoşulur. İran xalqı ciddi şəkildə hansı sahəyə girişirsə, xalqların ön sırasında durur. Elmi yeniliklərdə, siyasi iqtidarda və beynəlxalq imicdə xalqımızın bugünkü vəziyyəti inqilabdan öncəki dövrlə müqayisəolunası deyil. Bu xalq oyanmışdır, dirilmişdir və bu, inqilabın nəticəsidir. Bu inqilabi ruh xalqda nə qədər dirçəlsə və fəal olsa, yenilik və yaradıcılıq daha da canlanar. Elə inqilabın özü də böyük bir yenilik idi. İmam İslam inqilabı və İslam Respublikası ilə gerilik və qərbpərəstlik arasında orta yol cızdı. Xalqlar elə bilirdilər ki, ya geridə qalmalı, ya da qərbpərəst olmalıdırlar. İmam göstərdi ki, xeyr, insanın Qərbə əsir və qərbpərəst olmaması, amma eyni zamanda inkişaf etməsi üçün düzgün bir yol vardır. İran xalqı bu yolu keçmişdir. Əziz gənclər! Ölkənizin inkişafı və tərəqqisi naminə bacardığınız qədər bu düzgün yolla gedin. Siz Allah-Taalaya və öz daxili gücünüzə inamla qarşınızdan bütün maneələri götürə bilərsiniz.

Hegemonluğun və beynəlxalq təxribatçıların nüvə enerjisi və digər oxşar məsələlərdə İran xalqına düşmənliyinin səbəblərindən biri budur. Siz görürsünüz ki, amerikalılar və onların bəzi avropalı ardıcılları İran xalqının nüvə enerjisi əldə etməsinə qarşı çıxır, bunun əleyhinə çalışır,

təhdid edir, kobud sözlər deyirlər, lakin elm və sənaye baxımından qat-qat geridə və İran xalqından zəif olan digər ölkələrə gedib nüvə enerjisinə dair müqavilə bağlayırlar. Bu sözün mənası nədir? Mənası budur ki, nüvə enerjisi bir xalqın özünə daha çox güvənməsinə səbəb olsa, ona icazə vermirlər. Onlar bir xalqın onlara ehtiyacı olmadan, öz yaradıcılığı ilə tam müstəqil şəkildə əldə etdiyi nüvə enerjisinə müxalifdirlər. Bizim əziz gənclərimiz və böyük xalqımız öz qüvvəsinə arxalanıb bu mütərəqqi elm və sənayeyə nail olmuşlar, asılılıq yaratmamışlar, hətta asılılıqdan qurtarmışlar. Hegemon dövlətlərin digər xalqlara verdiyi nüvə yanacağı asılılıq amilidir. Özü əldə edən, yaradan, yaradıcılıq göstərib istehsal edən İran xalqı üçün isə asılılığın kəsilməsinə səbəb olur. Beynəlxalq hegemonluq və İran xalqının düşmənləri bununla düşməndirlər.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

Düşmənin psixoloji müharibə törətməyə çalışması

İmamın vəsiyyətnaməsində mövcud olan başqa çox mühüm məsələ düşmənin soyuq müharibəsinə və psixoloji əməliyyatına diqqətdir. Düşmən aciz qalanda psixoloji müharibəyə əl atır, xalqları məyus etməyə və həvəsdən salmağa çalışır. Onlar psixoloji müharibə ilə və təhdidlə qarşılarındakı xalqları meydandan çıxarmağa çalışırlar. Bu o deməkdir ki, bu xalqın qarşısında əməli müqavimət gücləri yoxdur. Bu psoxoloji müharibə inqilabın ilk günlərindən otuz il ötən bu günə qədər davam edir. Bəzən deyirdilər ki, bu inqilab iki aydan artıq yaşamayacaq, bəzən deyirdilər ki, iki ildən artıq qalmayacaq. İndi otuz ildir bu inqilab çox qüdrətlə irəliləmiş, İran xalqını günbəgün daha yekdil, daha ümidli və enerjili etmişdir.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

Gənc nəsli yayındırmaq üçün düşmənin təxribatı

Böyük İmamın vəsiyyətnaməsində olan başqa bir məsələ gənclərə onların hədəf seçildiyi təxribatlar qarşısında xəbərdarlıqdır. Bir ölkənin gəncliyi bir mühərrik kimi öz xalqını irəliyə aparmaqdan ötrü fəal, həvəsli, sağlam, güclü, işə və inkişafa maraqlı olmalıdır. Düşmən iranlı gəncdə bu ruhiyyəni məhv etmək üçün müxtəlif təxribatlara əl atır, idarə etdiyi qruplar vasitəsilə fəsadı, pozğunluğu və narkotik maddələri yayıb iranlı gənci yolundan daşındırmağa çalışır. İran gənci sayıq olmalıdır. Bu gün İslam Respublikası quruluşunun məmurları narkotik maddələrlə sərt mübarizə aparırlarsa, bu, böyük bir cihad və İran xalqının inkişafı üçün çox önəmli fəaliyyətdir. Bunlar iranlı gəncin sexdə, laboratoriyada, universitetdə, elm mərkəzində, iş yerində, sənaye fəaliyyətində və əkinçilikdə aktiv olmasını istəmirlər. Cinsi ehtirasa qərq, yaxud narkotik maddələrə əsir olan gəncin nə işləməyə taqəti var, nə düşünməyə hövsələsi, nə çalışmağa qüvvəsi, nə yaradıcılığı, nə gücü, nə lazımi iradəsi, nə də əzmkarlığı. Bu gün iranlı gənci ehtiraslara, narkotik maddələrə, müxtəlif cinsi əyləncələrə çəkmək üçün aparılan mütəşəkkil təxribatlar çox təhlükəlidir. Onlarla mübarizə birinci növbədə xalqın, xüsusən də gənclərin özlərinin üzərinə düşür. Gənclər sayıq olsunlar. Düşmən iranlı gəncin təqvasının və dindarlığının müxtəlif sahələrdə onun inkişafına yardım etdiyini bilir və onu zəiflətmək istəyir. İmam xəbərdarlıq edir; həm universitetlərə, həm elm hövzələrinə, həm də ölkə gənclərinə tapşırır ki, ayıq-sayıq olsunlar. Gənci qafil və həvəssiz etmək xalqı geridə saxlamaq deməkdir. Bütün xalq məsuliyyət hiss etməli və məmurlar da böyük cihad olan bu yolda ciddi çalışmalıdırlar.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

Beynəlxalq istismarçılara qarşı güclü mübarizənin zəruriliyi

İmamın vəsiyyətnaməsində və sözlərində olan başqa bir mühüm məsələ dünya istismarçılarına qarşı mübarizə məsələsidir. Beynəlxalq istismarçılar və hegemon qüvvələr tarix boyu həmişə olmuşlar, lakin elm və sənayenin inkişafı və modern rabitə imkanları səbəbindən bu gün bu istismar asanlaşmışdır. Buna görə amerikalıların bütün dünyaya tamah saldığını görürsünüz. Maraqlarının təhlükəyə düşməsi bəhanəsi ilə müxtəlif yerlərə soxulurlar. Sanki onların maraqları bütün dünyanın, bütün xalqların maraqlarından üstündür. Bu hegemonluğun, quldurluğun, qanmazlığın və haqsızlığın qarşısında necə hərəkət etmək lazımdır? İki yol var: biri təslim olmaq, biri isə müqavimət göstərmək. Dünya hegemonlarına təslim olmaq onları hegemonluğa həvəsləndirir. Xalqların, dünya siyasətçilərinin, müxtəlif cəmiyyətlərin ziyalılarının beynəlxalq hegemonluğa təslim olması onları inkişafa və daha artıq hegemonluğa həvəsləndirir. Xalqlar üçün birdən artıq doğru yol qalmır və o da müqavimətdir. Əgər bir xalq hegemonların və bu gün özəlliklə Amerikanın hegemonluğunu dəf etmək istəyirsə, qarşısında çox qüdrətlə və möhkəm dayanmalıdır.

Həzrət İmam Xomeyninin vəfatının on doqquzuncu ildönümü mərasimində çıxışdan: 2008.

İnqilabın güclü materializm dalğasına qarşı yeni layihəsi

Mənim əzizlərim! İnqilab yalnız İran tarixində deyil, bütün dünya və bəşəriyyət tarixində mühüm bir hadisə idi. Mən bu məqam üzərində dayanmaq istəyirəm. Bu, şüar deyil, dəqiq məsələdir. Bu, bəşəriyyət tarixinin bir hadisəsidir. Zaman ötdükcə bu həqiqət daha çox aydınlaşacaq. Məsələ bundan ibarət deyil ki, bir ölkədə azğın tağut rejimi hakim idi və sonra bir İslam quruluşu yarandı. Düzdür, belədir, amma yalnız bu deyil. Əsrlərdir dünyanı bilərəkdən maddi baxışlara, həyatın və dünyanın materialist dərkinə sarı aparırdılar; indi də aparmaqdadırlar. Bu inqilab bütün maddi imkanları ilə daim gücləndirdikləri bu böyük dalğanın qarşısında dayanıb ona zərbə endirdi. İmam mənəviyyat bayrağını ucaltması ilə böyük sürətlə aparılan bu hərəkətə zərbə endirib onu zəiflətdi. Bu gün materializmin beşiyi olan ölkələrdə müxtəlif formalarda mənəvi təmayüllərin baş qaldırdığını görürsünüz. Orada gənclər arasında mənəviyyat istəyi, mənvəiyyata eşq və rəğbət yaranmışdır. Sözsüz ki, bu mənəviyyatı düzgün idarə edə bilməyəndə sapqın təmayüllər, yalançı irfanlar və sair məsələlər ortaya çıxır. Bunda fırıldaqçıların da böyük rolu var. İslam və Əhli-beyt (ə) məktəbinin Qərbin materialist imperiyasının qəlbində də istəyəni, dinləyicisi və sevəni var. Bu gün dünyada bu tendensiya hiss olunur və danılmazdır. İslamın əleyhinə və əzəmətli Peyğəmbərin (s) mübarək adına qarşı bütün bu hücumlar dünyada bu adın nüfuzunun artdığına, təsirinin çoxaldığına və gəncləri daha çox cəlb etdiyinə görədir. Bu, hegemon mərkəzləri təşvişə salmış, muzdurlarını hər gün bir formada reaksiyaya vadar etmişdir. Bu onların məğlubiyyətini göstərir.

Əhli-beyt (ə) məddahları ilə görüşdəki çıxışdan: 2008.

İslam inqilabı və dünyanın vəziyyətinin dəyişməsi

Təxminən iki yüz il öncədən müstəmləkə məsələsi, yəni güclü dövlətlərin tədricən zəif ölkələrə əl uzatması başlandı. Həmin zamandan, yəni on doqquzuncu əsrdən istismarçı sistem formalaşdı, dünya iki hissəyə bölündü: hegemon və istismarçı hissə, zəif, başıqapazlı və istismar olunan hissə. Sizin İslam inqilabınız siyasət dünyasında təbii qarşılanan bu amil qarşısında dayandı. Bu gün çoxlu ölkələrdə "Amerikaya ölüm" sədasının ucalması yeni bir şeydir. Bu, İran xalqının hərəkətindən törəmişdir, əvvəllər belə bir şey yox idi. Siz görürsünüz ki, bu gün bütün dünyada – istər müsəlman ölkələrində, istər hətta Avropa ölkələrində Amerika siyasəti ən mənfur siyasət və Amerika başçıları dünyanın ən mənfur siyasətçiləri sayılırlar. Bu, İran xalqının möhtəşəm hərəkətindən irəli gəlir. Böyük güclərin buynuzu ilk dəfə burada sındırıldı və istismarçı sistem çətin duruma düşdü. Nə üçün? Nə üçün ABŞ kimi böyük güclər həmişə istismar olunan ölkələrlə hakim mövqedən danışmalıdırlar? Bizim öz İranımızda tağut rejiminin rəzil və bədbəxt başçıları mühüm qərarlar verə bilmirdilər. Əvvəlcə Amerikanın və İngiltərənin İrandakı səfirləri ilə məsləhətləşməli idilər. Nə üçün? Nə üçün böyük potensiala, güclü maddi, mənəvi və mədəni resurslara malik olan bir xalq əcnəbi dövlətə tabe və təslim olmalıdır? Nə üçün? Bu sualı birinci dəfə İslam inqilabı ortaya qoydu.

Bu siz İran xalqının inqilabının mənəvi və siyasi cəhətlərdən dünyanın ümumi vəziyyətinə göstərdiyi təsirdir. Bu iki nümunədən başqa nümunələr də var, amma indi bu haqda danışmağa vaxt yoxdur.

Əhli-beyt (ə) məddahları ilə görüşdəki çıxışdan: 2008.

İran xalqının müqavimət qəhrəmanı olması

Bu böyük iş görüldü - düşmənliklər də başlandı, qarşılığında müqavimət də. Böyük İmamın möhtəşəm rəhbərliyi ən çətin zamanlarda bu müqaviməti çox qüdrətlə qoruyub davam etdirə bildi. İran xalqı və ölkə gəncləri həqiqətən rəhbərlərinin sözünü dinlədilər, ürəkdən qəbul etdilər, anladılar və əməl etdilər. Xalqı yayındırmağa, daşındırmağa, yollarını dəyişdirməyə, inamlarını almağa çox çalışdılar, amma bacarmadılar. İndiyədək mümkün olmayıb, bundan sonra da inşallah mümkün olmayacaq. Bu hərəkət davam etmiş, bu düşmənliklər də günbəgün müxtəlif formalara düşmüşdür. Biz bir yerə sarı qaçan bir qaçışçıya bənzəyirik. Bəzi qüvvələr onun çatmasını istəmir və daim yolunda maneələr yaradırlar. O həmin maneələrin üzərindən hoppanır, ona daş atırlar, qınayırlar, ətrafdan qışqırırlar ki, getmə, çatmayacaqsan, faydası yoxdur. O isə onlara qulaq asmır, yaralanır, ağrılara dözür, amma yolunu davam etdirir və istədiyi yerə çatır. İran xalqı bu günə qədər belə bir qəhrəman qaçışçı kimi hərəkət etmiş və irəliləmişdir.

Əhli-beyt (ə) məddahları ilə görüşdəki çıxışdan: 2008.

Ayıqlıq və dözüm - iki uğur amili

Mən bir dəfə bəzi dostlara dedim ki, Peyğəmbərin (s) həyatını millimetrlərlə mütaliə etmək lazımdır. Bu həyatın hər bir anı bir hadisədir, bir dərsdir. Bu iyirmi üç ilin hamısı belədir. Bizim gənclərimiz Peyğəmbərin (s) tarixini güclü və əsaslı mənbələrdən oxuyub nə baş verdiyini öyrənsinlər. Bu gün bəşəriyyət üçün ən yaxşı sözlər, ən yaxşı yollar, ən böyük dərslər, ən güclü dərmanlar İslam ümməti daxilində mövcuddur. Əgər siz bu qədər əzəmətli bir ümmətin yarandığını görürsünüzsə, bilin ki, belə yaranmış, inkişaf etmiş və kök atmışdır. Yalnız haqq olduğumuza görə inkişaf edə bilmərik. Haqlılıq müqavimətlə yanaşı olmalıdır. Mən dəfələrlə Əmirəlmöminindən (ə) bu cümləni söyləmişəm. O, Siffeyn döyüşündə buyurdu: "Bu bayrağı yalnız ayıq və dözümlü olanlar götürə bilərlər". Yəni bu bayrağı götürənlər əvvəla ayıq olmalı, məqsədin nədən ibarət olduğunu anlamalı, ikincisi isə dözümlü olmalı, müqavimət göstərməlidirlər. Biz bunu Peyğəmbərdən (s) dərs almalıyıq.

Bizim əziz imamımız o çağlar bulağı dünyada belə əzəmətlə cari etdi. İmamın da qəlbi öz yoluna imanla dolu idi; Peyğəmbərin (s) özünün birinci mömin olduğu kimi: "Peyğəmbər Rəbbi tərəfindən ona nazil edilənə inanmış və möminlər də iman gətirmişlər. (Onların) hamısı Allaha, Onun mələklərinə, kitablarına və peyğəmbərlərinə iman gətirmişlər"[1].

Bizim inqilabımızda da Böyük İmamın özü bu yola inanan birinci şəxs idi. Onun qəlbi bu yola və bu məqsədə imanla dolu idi, nə iş gördüyünü bilir, işin əzəmətini dərk edir, şərtlərini də anlayırdı. Bu işin birinci şərti Allaha təvəkkül edib bu yolda möhkəm dayanmaq idi və o da möhkəm dayandı. Bu xalqın gəncləri də ondan ilham alıb möhkəm dayandılar. Bu dözüm və təmkin bulağı aşıb-daşanda bütün xalqı əhatə etdi: "Möminlərin imanı üstünə iman artırmaq üçün onların ürəklərinə

[1] Bəqərə/285.

arxayınlıq (təmkin və mənəvi möhkəmlik) göndərən Odur!”[1] Bu arxayınlıq insanların qəlbinə nazil olanda iman çoxalır. Sonra buyurur: “Göylərdəki və yerdəki ordular Allahın ixtiyarındadır”. Nədən qorxursunuz?! Yerin və göyün qoşunları Allaha məxsusdur. Allahla olun. Yerin və göyün bu qoşunları sizə məxsusdur, sizin ixtiyarınızdadır. Bu, ilahi qanundur.

Həzrət Peyğəmbərin (s) Məbəs bayramı münasibəti ilə quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2008.

[1] Fəth/4.

Dinin təbiət qanunları ilə uyğunluğu

Baxın, Allah-Taala eyni zamanda iki şey yaratmışdır: biri bütün qanunları və ənənələri ilə birgə bu təbiət aləmini, biri isə şəriət qanunlarını, xalqın dinini və həyat qaydalarını. Bunların ikisini bir yerdə yaratmışdır və bunlar bir-birinə uyğundur. Əgər siz ilahi qanunlara əməl etsəniz, həyatınız, rəftarınız təbiət qanunları ilə uyğun olar. Sanki bir gəmi küləyin istiqamətində hərəkət edir, külək ona kömək edir; yaxud suyun axdığı səmtə hərəkət edir və suyun axarı onu sürətlə aparır.

Təbiət qanunları bu yolla hərəkət edən insana yardım edir, lakin şərti budur ki, siz hərəkət edəsiniz. İran xalqı hərəkət etdi, təbiət qanunları da ona köməkçi oldu, Allahın təbii qanunları ona yardım etdi. Yoxsa kim düşünərdi ki, dünyanın ən həssas bölgəsi olan Orta Şərqin qəlbində, beynəlxalq hegemonluğa ən çox bağlı olan ölkələrdən birində birdən-birə İslam bayrağı ucalsın və bu cəmiyyət İslam ümmətini İslama çağırsın. Üstəlik on illər idi Pəhləvi rejiminin çoxlu ziyalılarının və aparıcı adamlarının beyni Qərb təlimləri, Qərbin vəsvəsələri və nəfs istəkləri ilə çirklənmişdi. Kim belə bir işin baş tutacağını düşünərdi?! Amma baş tutdu.

Bunun mənası odur ki, bir camaat, bir xalq bu yolla hərəkət edəndə Allahın təbii qanunları onlara kömək edər.

Söhbət yalnız İrandan getmir. Bu gün İslam dünyası oyanmışdır. Bir vaxt belə güman olunurdu ki, böyük güclər və quldurlar – ABŞ, yaxud keçmiş Sovet ittifaqı nə istəsə, o da olacaq və dövlət rəsmilərinin onların istəyi ilə razılaşmaqdan başqa yolları yoxdur. Bu gün xalqlarda bu inam əsla yoxdur; dövlət rəsmiləri və siyasi elita arasında da olduqca zəifləmişdir. Möhkəm dayanmaq və müqavimət göstərmək lazımdır.

Həzrət Peyğəmbərin (s) Məbəs bayramı münasibəti ilə quruluşun məsul işçiləri ilə görüşdəki çıxışdan: 2008.

İnqilab iksiri

Bir dostumuz dedi ki, yeni nəsil baş qaldırmaqdadır. Bu tamamilə doğrudur. Əlbəttə, bu, inqilabda meydana çıxan birinci nəsil deyil. Sizdən öncə bir nəsil də inqilabda meydana çıxdı, əslində doğuldu, özünün qüdrətli əlini işlətdi. O da inqilab nəsli idi, başqa bir yerdə və ayrı bir mühitdə yetişməmişdi. Çünki inqilab əşyaları formaya salan isti bir soba kimidir. Qədimdəkilər də deyirdilər ki, iksir misi qızıla çevirir. Təbii ki, bu indi bəzilərinə əfsanə kimi görünə bilər, ancaq əfsanə deyil, reallığı olub və var. İnqilab belə bir şeydir; dəyişdirir, formaya salır. Bu dəyişdirmə yalnız ictimai münasibətlər səviyyəsində deyil, ilk növbədə insanların daxilində və zehniyyətlərdədir. İlk dəyişiklik burada baş verir – qəlblərdə. Buna əsasən, inqilab vaxtı 15, 16, 18 yaşı olan, inqilabda öz imtahanını verən, sonra da müqəddəs müdafiə dövründə möhtəşəm ab-havanı yaradan gənc nəsil də inqilabda doğulmuşdur, sizin baş qaldırdığını dediyiniz bu nəsil də həmçinin. Mən bunu tamamilə qəbul, təsdiq və hiss edirəm.

Tələbələrin inqilab rəhbəri ilə görüşündəki söhbətlərdən: 2008.

150 **il Qərbə təqlidçilik və tərəqqi şüarı**

Son 100-150 ildə ölkəmizdə islahat, inkişaf və tərəqqi iddiası edib bizi doğrudan da yanlış yola çəkənlər bu böyük günahı etdilər: biz bu 150 ildə həm məqsədə çatmadıq və geridə qaldıq, həm də vaxtımız tələf oldu. Ardıcıl bir neçə nəsil gəlib tələf oldu, bu biyabanda sərgərdan qaldı və məqsədə çatmadı. Nəhayət bir nəsil səhv etdiklərini gördü və qayıdıb yenidən hərəkət etməyə başladı. Cəmiyyətləri səhv yola çəkənlərin günahı budur ki, onların vaxtlarını, ömürlərini və fürsətlərini tələf edirlər.

Bir zaman bizim cəmiyyətimizə inkişaf yolunun qərbliləri yamsılamaqda olduğunu başa salmışdılar; özü də elm öyrənməkdə yox, zahiri işlərdə yamsılamaqda; yəni qadınlarımız hicabsız olsunlar, kişilərimiz filan cür papaq qoysunlar, filan cür paltar geyinsinlər. Bilirsiniz ki, bir zaman bizim ölkəmizdə Pəhləvi papağı adlı xüsusi bir papağı qoymaq məcburi edildi. Kimsə bu papağı qoymasaydı, cihayətkar sayılırdı. Sonra bir addım da irəliyə gedib dedilər ki, ya Pəhləvi papağı, ya şlyapa. Çünki qərblilər - avropalılar bu papağı qoyurdular. Ölkə daxilində geyilən müxtəlif geyim növlərinin və yerli paltarların hamısı sıradan çıxdı, qadağan olundu və hamı Qərbdən gəlmiş vahid geyim formasına keçməli idi. Nə üçün? İnkişaf üçün. Ölkənin inkişafını bunda gördülər ki, bizim insanlarımız kostyum geyinsinlər, qalstuk bağlasınlar, qadınlarımız hicabsız gəzsinlər, qərblilərin adət-ənələrini öyrənsinlər. Görün bunlar bir ölkə üçün nə qədər ziyanverici, nə qədər utancvericidir. O zaman isə nəinki xəcalət çəkmir, fəxr də edirdilər, bunu uca səslə deyirdilər də. Bu, səhv yol və yanlış inkişaf proqramıdır. Dəyər və prinsiplər bu səhvlərin qarşıya çıxmaması üçündür.

Tələbələrin inqilab rəhbəri ilə görüşündəki söhbətlərdən: 2008.

Hegemonluğun inqilabla düşmənliyinin əsas səbəbi

İslam Respublikası ilə hegemon Amerika hökumətinin problemi bu qəbildən deyil, daha köklüdür. Məsələ burasındadır ki, Amerika Birləşmiş Ştatları rejimi İkinci dünya müharibəsindən sonra dünyanın mütləq supergücü iddiası edirdi. Düzdür, o zaman onun qarşısında SSRİ var idi, lakin Amerika və ozamankı SSRİ arasındakı rəqabət sırf iki supergüc rəqabəti deyildi. Amerika dünyanın bütün həyati mənbələri üzərinə əl qoymaq istəyirdi. Orta Şərq adlanan əzəmətli və həssas region, neft zonası olan Şimali Afrika və Fars körfəzi də əməldə Amerikanın ixtiyarında idi. Neft bugünkü dünyanın həyatverici qanıdır. Sabah nə olacağını bilmirik, amma bu gün və bu dünyada neft çoxlu ölkələr üçün istehsal, istilik, işıq və əslində həyat amilidir. Neft olmasa, zavodlar işləməz, istehsal başa gəlməz, ticarət olmaz. Neft qandır, həyatdır. Bu neftin əzəmətli hissəsi adı Orta Şərq olan bu regiondadır. Buraya hakim olmaq mühümdür və Amerika hakim olmuşdur.

Orta Şərqin ortasında hegemonluğun əsas bazası olan İran yerləşirdi. İranın ətrafında hər biri bir şəkildə Amerikanın əlində olan müxtəlif ölkələr vardı. Bu arada sovetlər də bəzi əluzunluqlar etmişdi, amma amerikalılar qələbə çalmışdılar və bu proses davam etməli idi. Əlbəttə, tamahkarlıq yalnız bu regiona və neftə məxsus deyildi. Amerikalılar Latın Amerikasında, Afrikada, Şərqi Asiyada və müxtəlif yerlərdə öz nüfuzlarını möhkəmlətməklə məşğul idilər; günbəgün hökmranlıqlarını gücləndirir və rəqiblərini geri oturdurdular.

Hegemonluğun qüdrətinin hər an çoxaldığı bu qızğın çağda ən həssas nöqtədə - İranda İslam inqilabı baş verdi. Bu inqilabın ən mühüm şüarı zülm və hegemonluqla mübarizə və xalqların hüququnu müdafiə idi. İslam inqilabı bu əsas nöqtəni - yəni İranı Amerika istismarından xilas etdi. Bir zaman amerikalıların sizin bu ölkənizdə, Tehranınızda, ölkənin müxtəlif bölgələrində, bütün həssas nöqtələrdə adamları vardı; silahlı qüvvələrdə, maliyyə orqanlarında, həssas siyasi qurumlarda, təhlükəsizlik sahələrində onların adamları tam səlahiyyət sahibi idilər.

Ölkənin bütün qurumlarının rəisi olan və bütün işlərə müdaxilə edən şahın özünün də qulağı Amerika və İngiltərə səfirlərinin ağzında idi. Onlar bir şey istəsə və israr etsəydilər, çarəsiz qalıb istər-istəməz itaət göstərirdi. Bəzən istəmirdi də, amma itaət etməyə məcbur olurdu və edirdi. Amerikalılar belə bir yerdən qovuldular. Bu çox mühüm hadisə idi, kiçik yara deyildi...

İslam Respublikası quruluşu və İran xalqı tərəfindən də məsələ bu qədər dərindir. İran xalqının Amerika ilə problemi bugünkü əməllərin problemi deyil, 1953-ci ildən bu günə qədər onun tərəfindən İran xalqına qarşı törədilən 50 ildən artıq bir müddətlik əziyyət və xəbislik problemidir. İnqilabdan illər öncə, xüsusən də imamın ruhani hərəkatı başlayandan inqilabın qələbəsinə qədər İran xalqına qarşı istədikləri qədər təxribat apardılar, zərbə vurdular, xəyanət etdilər, təzyiq göstərdilər, hegemoncasına bu xalqa qarşı müxtəlif pislikləri etdilər.

13 Aban hadisəsinin ildönümü ərəfəsində şagird və tələbələrlə görüşdəki çıxışdan: 2008.

Tələbə hərəkatı iddiasının səmimilik meyarı

Bizim ölkəmizin tələbə hərəkatı qeyd olunmuş və tanınmış tarixində həmişə antihegemon, antiistismar, antiistibdad, antidiktatura və güclü şəkildə ədalətsevər olmuşdur. Bizim tələbə hərəkatımızda əvvəldən bu günə qədər bu xüsusiyyətlər olmuşdur. Əgər kimsə tələbə hərəkatı iddiasında olsa, lakin bu xüsusiyyətlərə malik olmasa, doğru demir. Tələbə hərəkatı Fələstində qətliam, İraqda cinayət törədənlərlə, Əfqanıstanda xalqı qılıncdan keçirənlərlə əlbir ola bilməz. Bu, tələbə hərəkatı deyil. Ən azı bizim ölkəmizdə və bəlkə də çoxlu ölkələrdə tələbə hərəkatı hegemonluğun, istismarçılığın, diktaturanın əleyhdarı və ədalətin tərəfdarıdır. Bu hərəkətin başlanğıcı, yaxud tanındığı zaman 16 azər (7 dekabr) günüdür.

Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdəki çıxışdan: 2008.

16 **Azər - tələbələrin Amerika istismarına qarşı etiraz günü**

Maraqlıdır ki, üç tələbənin qana boyandığı 1953-cü ilin 16 azəri (7 dekabrı) 28 mordaddan (19 avqustdan) təxminən dörd ay sonra baş verdi. Yəni 28 mordad çevrilişindən, o müdhiş repressiyadan, bütün qüvvələrə qarşı şiddətdən və hamının sükutundan sonra qəflətən Tehran universitetində tələbələrin vasitəsi ilə bir partlayış baş verir. Nə üçün? Çünki o zaman Amerikanın vitse-prezidenti olan Nikson İrana gəlmişdi. Bu tələbələr Amerikaya və 28 mordad çevrilişinin icraçısı olan Niksona etiraz əlaməti olaraq universitetdə aksiya keçirdilər. Bu əlbəttə, təzyiqlə üzləşdi və üç nəfər öldürüldü. 16 Azər (7 dekabr) hər il bu xüsusiyyətlə tanınmalıdır. 16 Azər Niksona etiraz edən, Amerika və istismar əleyhdarı olan tələbənin günüdür.

Həmin ildən ruhani, din və İslam hərəkatının başlandığı 63-cü ilə qədər tələbə hərəkatının az-çox fəaliyyəti olmuşdur. Mənim yadımdadır, 59-cu, 60-cı, 61-ci və digər illərdə tələbələr fəaliyyət göstərir, lakin ciddi təpkiyə məruz qalırdılar və genişlənməsinə imkan verilmirdi. Nəhayət 1962-ci və tam şəkildə 63-cü ildən ruhani hərəkatı başlandı. Siz burada da tələbə hərəkatının əlamətini müşahidə edirsiniz. Yəni ruhani hərəkatının başlandığı 1963-cü ildən inqilabın qələbə çaldığı 1979-cu ilə qədər siz hər yerdə ruhanilərlə çiyin-çiyinə və onların kənarında tələbə hərəkatını müşahidə edirsiniz. Ölkə universitetləri və elm ocaqları fəaliyyətin mərkəzidir və bütün bu müddətdə hərəkatın əsas qollarından biri tələbələrdir. Bunu həm özümüz yaxından müşahidə etdik, həm hərəkat və mübarizə işində olan digər dostlar, həm də digərləri təcrübə edib sınamışlar. Buna əsasən, universitetlər ruhani hərəkatının ayrılmaz hissəsi oldular. Düzdür, universitetlərdə ateist, marksist, antidin və digər cərəyanlar da vardı, lakin əsas cinah müsəlman tələbələrə məxsus idi. Odur ki, təşkil olunan mübariz qruplarda və görülən işlərdə, məsələn həbsxanalarda - bizim özümüz müxtəlif illərdə müxtəlif həbsxanalara düşdük - və digər yerlərdə tələbələr vardı; yəni ruhani və tələbələr əsas məhbusları təşkil edirdilər.

Məhz buna görə biz Məşhəd ruhaniləri, din alimləri və Məşhəd xalqının böyük bir hissəsi inqilabdan öncə - 78-ci ildə İmam Rza (ə) adına Tibb universitetində piket keçirdik; yəni universitet mərkəz oldu. Tehranda da imamın gəlişinin gecikdirilməsinə etiraz edən din alimlərinin, ruhanilərin, inqilabçıların və mübarizlərin piketi Tehran universitetində baş tutdu. Bunlar universitetin və tələbənin rolunu göstərir. Və nəhayət inqilab qələbə çaldı.

Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdəki çıxışdan: 2008.

Məşrutə hərəkatının əcnəbilər tərəfindən müsadirəsi

Bizim inqilabımızın bu macəra dolu tarixini öyrənməkdə bir məsələ var. Biz bilməliyik ki, ölkəmiz Məşrutə dövrünə qədər uzun illər şah istibdadına düçar olmuşdu. Məşrutə nəfəs çəkmək üçün bir fürsət idi. Yəni Məşrutə hərəkatının xalqa tənəffüs imkanı yaratması və azadlıq verməsi gözlənilirdi, lakin belə olmadı. Məşrutə əvvəldən əcnəbilər, dünyanın ozamankı istismarçı gücü, yaxud güclərindən biri olan İngiltərə dövləti tərəfindən müsadirə olundu.

Məşrutənin əvvəllərində yaranan hərc-mərclikdən bir neçə il sonra həmin istismarçı dövlət - yəni İngiltərə Məşrutədən öncəki şahlardan - Müzəffərəddin şah və Nasirəddin şah kimilərdən çox təhlükəli olan qəddar və rəhmsiz bir diktatoru hakimiyyətə gətirdi. O, Rza xan idi. Rza xanın diktatorluğu bizim ölkəmiz və xalqımız üçün Nasirəddin və Müzəffərəddin şahların diktatorluğundan dəfələrlə sərt və ağır idi. Onu ingilislər hakimiyyətə gətirdilər. Biz əslində avtoritorizmdən azadlığa çıxmadıq, asılılıqla yanaşı olan digər bir avtoritorizm dövrünə daxil olduq və xalq azadlığı dadmadı. Odur ki, İranda İslam hərəkatı başlayanda və imam bu hərəkatın məqsədinin avtoritar və istismarçı rejimin kökünün kəsilməsindən və əcnəbilərin nüfuzuna son qoyulmasından ibarət olduğunu elan edəndə qədim mübarizlərin, mübarizədə iştirak edənlərin çoxu inanmırdı. Onlar bunun mümkünlüyünü təsəvvür edə bilmirdilər: yəni bu ölkədə şahlığı devirmək olarmı? Mənim yadımdadır, mübarizənin son illərində - o zaman imam hökumətə dair əsaslı məsələləri bəyan etmiş və bu məsələlər xalqın arasında yayılmışdı; o demişdi ki, şah xaindir və getməlidir - sonralar inqilabda böyük fəaliyyətlər göstərən bəzi fəal və mübariz qüvvələr də deyirdilər ki, məgər belə bir şey mümkündür?! Məgər şah üsul-idarəsini devirmək olar?! İnanmırdılar. Səbəb bu idi ki, bu ölkədə uzun repressiya və istibdad dövründə ölkəni istismar edən əcnəbilər daim şah rejimini himayə etmişlər.

Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdəki çıxışdan: 2008.

İslam inqilabının qələbə amili: imamın dözümlülüyü və ayıqlığı

Möhtəşəm İslam hərəkatı, xalqın səyi və imam kimi misilsiz bir şəxsiyyətin rəhbərliyi öz bəhrəsini verdi. Mən dəfələrlə Əmirəlmöminininin (ə) bu kəlamını söyləmişəm: "Bu bayrağı yalnız ayıq və dözümlü insanlar ucaldar". Hədisdə işlənmiş "bəsirət" sözü ayıqlıq, "səbr" isə dözüm, israr və yorulmazlıqdır. İran xalqında bu iki xüsusiyyət yarandı, öz bəhrəsini verdi və inqilab qələbə çaldı. İslam Respublikası quruluşunun yaranması əslində İran xalqının uzunmüddətli tarixi ehtiyacının aradan qalxması idi. İran xalqı özünün tarixi arzuları arasından İslam Respublikası bayrağını ucaltdı. Bəllidir ki, xalqın qədim arzularında dərin köklərə malik olan bir quruluş qalasıdır, yaşamağa və inkişafa qabiliyyətlidir, kök salacaq və onunla düşmənlik asan olmayacaq. Və belə də oldu.

Şübhəsiz, bizim ölkəmizdə şah üsul-idarəsini başqa heç bir mübariz hərəkat məhv edə bilməzdi. Əziz gənclər! Bunu bilin və əmin olun ki, İslam hərəkatından və dini hərəkatdan başqa heç bir hərəkat, heç bir partiya, heç bir mübariz qrup bu ölkədə Amerika dövlətinə bağlı olan despotizmi devirə bilməzdi. O zaman qədim mübariz hərəkatların hamısı işdən düşmüşdü; istər solçu hərəkatlar, istər sağçı hərəkatlar, istər silahlı qruplar. 75-76-cı illərdə bu qrupların hamısı rejim tərəfindən məhv edilmişdi. Bu batil rejimi sıradan çıxara bilən yeganə qüvvə əzəmətli milli dalğa və xalqın birliyi idi. Bu da din amalı, böyük imam kimi bir təqlid müctəhidinin və mübariz ruhanilərin rəhbərliyi olmadan imkansız idi. Həmin fəsad dolu rejim devriləndən sonra da hakimiyyətə İslam Respublikası quruluşundan başqa hər hansı bir quruluş - istər solçu, istər sağçı quruluş gəlsəydi, düşmənin nüfuzu və müxtəlif müdaxilələri qarşısında tab gətirə bilməzdi.

Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdəki çıxışdan: 2008.

Müqavimət baxımından İslam inqilabının digər inqilablarla fərqi

Biz gördük ki, solçu və digər inqilablar qələbə çaldı, bir neçə il hakimiyyətdə qaldılar da, lakin Amerikanın nüfuzu, siyasi və hərbi müdaxiləsi və iqtisadi blokadası onları məhv etdi. Siz bu gün Şərqi Avropaya baxın. Bura sosialist və solçu hökumətlərin əsas mərkəzi idi. Baxın, vəziyyət elə bir həddə çatıb ki, indi orada Amerikanın hərbi və raket bazaları yaradılır, amerikalılar geniş fəaliyyət göstərirlər. Buna əsasən, İslam Respublikasından başqa heç bir quruluş Amerikanın təsiri və təzyiqi qarşısında müqavimət göstərə bilməzdi.

Bir məsələni də deyim: Hegemonluğun və ilk növbədə Amerikanın və ümumdünya sionizm şəbəkəsinin İslam Respublikasına qarşı güclü və barışmaz düşmənliyinin səbəbi bəzən müxtəlif yerlərdə deyilən bu sözlər - istər onların şüar verdikləri, istər bəzilərinin daxildə təsəvvür etdikləri deyil. Səbəb İslam Respublikasının bir inkarı və bir təsdiqidir.

İslam Respublikası istismarı, müstəmləkəni, dünyanın siyasi gücləri vasitəsi ilə xalqın təhqirini, siyasi asılılığı, dünyanın hakim güclərinin ölkəyə müdaxiləsini, əxlaqi sekulyarizmi və mütləq halalçılığı qətiyyətlə inkar edir.

Bu quruluş bəzi məsələləri də təsdiq edir: milli kimliyi, iranlı kimliyini, İslam dəyərlərini, dünya məzlumlarını müdafiəni, elm zirvələrinə nail olmaq üçün çalışmağı, elmdə yalnız digərlərinin ardınca getməyi yox, zirvələri fəth etməyi. Bunlar İslam Respublikasının təkid etdiyi məsələlərdir.

Elm və Sənaye Universtetində müəllim və tələbələrlə görüşdəki çıxışdan: 2008.

19 **Bəhməndə Hərbi Hava Qüvvələrinin möhtəşəm hərəkəti**

Bizim hamımız dilləri və müqavilələri ilə yox, öz əməlləri, hərəkətləri və iradələri ilə 19 bəhmən gününü yaşadan və unudulmaz edən şəxslərə mütləq minnətdar olmalıyıq. Bir iş səmimi, düzgün şəkildə, düzgün düşüncəyə söykənərək və ixlasla görüləndə həmişəyaşar olur. Biz çoxlu nümayişkaranə işlər görə, bəzi sifarişli işləri yerinə yetirə bilərik, amma onlarda yetərincə ixlas olmaz. Zaman belə işləri məhv edir. Lakin 19 Bəhmən hadisəsi belə deyil, imandan, ixlasdan və güclü iradədən doğan hadisələrdəndir. İnqilabın qəti qələbəsinə bir neçə gündən artıq vaxt qalmasa da, həmin şəraitdə heç kim proqnoz verə bilməzdi ki, 19 bəhmənin ardınca 22 bəhmən də gələcək. Qəti proqnoz vermək mümkün deyildi, şərait təhlükəli idi. Sizə bənzəyən o gənclərin güclü iradəsi onların öz imanlarını, iradələrini, xalqla birliklərini və baş verməkdə olan hadisəyə dair düzgün və dərin dərklərini öz əməlləri ilə göstərmələrinə səbəb oldu. Təbii ki, bu həm də təhlükəli idi, amma bunu etdilər və 19 bəhmən tarixdə qaldı.

Bu hadisə birdəfəlik bir hadisə deyildi. Hərbi Hava Qüvvələri bu işlə öz möhtəşəmliyini göstərdi. Bu möhtəşəmlik müharibədə həm hücum, həm də müdafiə sahəsində özünü göstərdi. Səkkizillik müdafiədə İran xalqı öz ətrafında mühafizə qalalarının olmadığını, düşmənlərin əsla çəkinib qorxmadan bombaladığını, hücum etdiyini duyanda Hərbi Hava Qüvvələri uyğun möhtəşəmliyi göstərdi. Məcburi müharibə başlayarkən İslam Respublikası ordusunun ən yaxşı, ən birinci, ən parlaq və ən şərəfli işləri Hərbi Hava Qüvvələrinin işləri idi. Bu həmin möhtəşəmliyin davamı idi. İndi də belədir.

Önəməli olan budur ki, bir insan, bir toplum öz ətrafında baş verən hadisələri düzgün dərk edib qiymətləndirməyi bacarsın. Çoxlarının gözünə görünməyən bir hərəkəti ayıq insanlar anlayırlar. Bu çox mühüm məsələdir. İslam inqilabında baş verən dəyişiklik də belə idi. Bəziləri onu anlamadılar, təyin etmədilər, bəziləri onu dünyanın çoxlu yerlərində baş verən kor bir hərəkətlə səhv saldılar və ona həmin

gözlə baxdılar. Bəziləri öz tamah kasalarını çıxardılar ki, bu hadisədən şəxsi maraqları üçün istifadə etsinlər. Bunların hamısı yaxıngörənlikdən irəli gəlir. İnqilab birinci növbədə İran cəmiyyətində bir dəyişiklik idi, ikinci növbədə bütün İslam ümmətində və sonra ümumi siyasət dünyasında. İnqilab dünyada, xüsusən də bəzi bölgələrdə hakimiyyət coğrafiyasını tamamilə dəyişdirdi. İnqilab belə bir möhtəşəm hadisə idi. Bu gün bu əzəmət öz əlamətlərini göstərməkdədir. İranda baş verən dəyişiklik qapalı, avtoritar, zalım və hegemon bir rejimi, eləcə də onun dünyapərəst, şəhvətpərəst, yalnız özünü düşünüb insaniyyəti və insanları unudan, digər tərəfdən asılı, digərlərinin siyasətinin əsiri və istismarçı güclərin itaətkarı olan başçılarını bu vəziyyətdən çıxarmaq idi. Əsas dəyişiklik bu idi. Həmçinin məqsəd cəmiyyəti rəşadətli, ayıq, güclü, iradəli bir cəmiyyətə, xalqı seçim qüvvəsi, seçim haqqı və digər cəmiyyətlərə təsir qabiliyyəti olan başıuca bir xalqa çevirmək idi. Əsas dəyişiklik bu idi və bu baş verdi.

Ordunun Hərbi Hava Qüvvələrinin komandirləri və əməkdaşları ilə görüşdəki çıxışdan: 2009.

Avtoritar hökumətlərdə xalqın təsirsiz olması

Mənim əzizlərim! Bizim xalqımız bir neçə əsr boyu ölkənin idarəsində təsirsiz bir qüvvə idi. Nə üçün? Çünki avtoritorizmin və şah üsul-idarəsinin xüsusiyyəti belədir; onda xalqın heç bir rolu olmur. Bu zaman xalqın vəziyyəti necə olur? Bu, yuxarıda əyləşən şəxsin insafından asılıdır. Əgər xalqın bəxti gətirsə və qəlbində bir qədər rəhmi olan bir diktator iş başında olsa, - bizim tariximizdə buna misal üçün Kərim xan Zəndin adını çəkirlər - xalqın vəziyyəti bir qədər yaxşı olacaq. Amma əgər quldur Rza xan, Nasirəddin şah və digər diktatorlar hakimiyyətdə olsalar, ölkəni öz mülkləri, heç bir rolu olmayan xalqı da rəiyyətləri biləcəklər. Tarixə baxın. Əsrlər öncəni demirəm, Məşrutədən sonrakı tarixə baxın. Məşrutə adı ölkədə tanındı, amma milli hərəkatın qısa dövrünü çıxmaq şərtilə Pəhləvi rejimi hakimiyyətə gələndən seçkilər tam simvolik bir hərəkətə çevrildi. İkiillik dövrdə vəziyyət bir qədər yaxşı idi, amma onun da çoxlu problemləri vardı; parlamenti buraxdılar, onun səlahiyyətlərini hökumətə verdilər və sair. Bunlar Müsəddiqin dövründə baş verdi. Digər dövrlərdə isə seçkilər əməlli-başlı teatr səhnəsi idi. Mən və mənim yaşımda olanlar xatırlayır ki, o zaman seçkilərin xalqın seçimi olmadığını hamı bilirdi. Hakim aparat – ozamankı saray bəzi şəxsləri seçirdi və onların arasında rəqabət aparılırdı; bir-biri ilə vuruşurdular da, amma onlar istədiklərini - müti, başıaşağı olan, onların maraqlarını təmin edən, onların qanunsuz maliyyə haqqını verən adamı gətirib parlamentdə oturdurdular. Səs verənlər də özləri üçün səs verirdilər. Bütün bu dövrün çox qısa bir dönəmində xalq səsvermədə iştirak etməli və ölkənin idarəsinə təsir göstərməli olduğunu hiss etdi. Əsla belə bir şey yox idi. Biz seçkilərin adını qəzetlərdən oxuyurduq; yazırdılar ki, indi seçkilərdir, xalq onun nə zaman keçiriləcəyini bilmirdi. Seçki zamanı bir yerdə bir neçə qutu qoyurdular. Öz adamları bir qədər danışır, hay-küy salır, istədikləri işi görürdülər və məsələ bitirdi. Xalqın rolu yox idi.

İslam inqilabı vəziyyəti tamamilə dəyişdi, xalqın roluna önəm verdi; yalnız parlament seçkilərində yox, prezident seçkilərində, rəhbəri seçməli olan Dini Ekspertlər Məclisinin seçkilərində, bələdiyyə seçkilərində də. Bütün bu həssas mərhələlərdə xalqın iradəsi təyinedici oldu, konstitusiya bu əsasla yazıldı və bu gün inqilabdan otuz il ötəndən sonra mən sizə deyirəm ki, bu iş bu günə qədər çox qüdrətlə davam etmişdir.

İnqilabdan öncə İran əcnəbilər üçün bir otlağa çevrilmişdi. İstismarçı və hakimlər - bir gün İngiltərə, bir gün Amerika və sionistlər buranın neftindən, bazarından, məhsullarından, canlı qüvvəsindən - nə vardısa, hər şeydən istifadə edirdilər. İnqilab qələbə çalanda isə xalq hakimiyyətə gəldi, onların maraqlarına son qoyuldu. Odur ki, bu quruluşla düşmənlik etmələri təbiidir və otuz ildir düşmənlik edirlər.

Müəllim, feldşer və fəhlələrlə görüşdəki çıxışdan: 2009.

Tağutun İran milliyyətlərinə şeytan baxışı

Tağut dövründən ölkəyə çirkin bir siyasət hakim idi və o, müxtəlif milliyyətləri özgə bilməkdən ibarət idi; kürd özgə sayılırdı, bəluc özgə sayılırdı, türk özgə sayılırdı, ərəb və türkmən özgə sayılırdılar. Bunları özgə hesab edirdilər. Bu onların əməllərində də görünürdü. Tağut dövründə bu vilayətdə nə düzgün abadlıq işləri aparılmışdır, nə düzgün mədəni iş görülmüşdür; heç bir qayğı göstərmirdilər. Bu vilayətdə tağut dövründə abadlıq işləri sıfır həddində idi. Mədəni işlər də həmçinin. Siz bu gün Kürdüstan vilayətində iyirmidən artıq ali təhsil müəssisəsində əlli minə yaxın tələbənin oxuduğunu görürsünüz, amma tağut dövründə bu rəqəm yalnız 360 idi. Tağut dövründə bu vilayətdə savadsızlığın nisbəti də dəhşətli idi: vilayət əhalisinin yalnız 29 faizi savadlı idi. Tağut rejimi kürd xalqının - bu istedadlı və zəkalı insanların savadlanmasını istəmirdi. Bu xüsusiyyət və keyfiyyətlərə malik olan vilayət əhalisinin yalnız 29 faizi savada malik idi. O abadlıq işləri, bu da elmi-mədəni işləri. Onların bu vilayətə baxışı şeytan baxışı idi. İslam quruluşu bu baxışı düzəltdi; həm də yalnız məmurlar səviyyəsində yox, bütün xalq səviyyəsində.

Sənəndəc şəhərinin Azadlıq meydanında Kürdüstan vilayətinin əhalisi ilə görüşdəki çıxışdan: 2009.

Şərq xalqlarını boyunduruq altına salmaq üçün müstəmləkənin planı

Müstəmləkəçilər 16-17-ci əsrlərdən, Şərq, o cümlədən müsəlman torpaqlarına daxil olduqları zamandan bu xalqların əl-ayaqlarını əsarət kəməndi ilə möhkəm bağlayıb özlərinə əsir etmək üçün onları öz keçmişlərinə, sərvətlərinə, dinlərinə, adət-ənənələrinə və geyimlərinə bədbin etməyə başladılar. Bunlar ibarətamiz məsələlərdir. İş elə bir yerə çatdı ki, Məşrutə dövrünün əvvəllərində bu ölkədə bir ziyalı dedi ki, iranlı başdan-ayağa avropalaşmalıdır; yəni dinini, əxlaqını, geyimini, əlifbasını, keçmişini və fəxrlərini kənara qoyub unutmalı, Qərb mədəniyyətini, Qərbin adət-ənənələrini, təfəkkürünü və davranış tərzini qəbul etməlidir. Bizim ölkəmizdə dinə arxa çevirənlər bu rüsvayçı sözü dedilər. Bəllidir ki, bir ölkə hər şeyini əldən verib daxilən boşaldıqda İngiltərə müstəmləkəsi onun hər bir şeyinə - neftinə, ordusuna, sərvətinə və siyasi sisteminə asanlıqla hakim ola bilər. Pəhləvi dövründə vəziyyət elə bir həddə çatmışdı ki, xain şah kimisə Baş nazir təyin etmək istəyəndə İngiltərənin və sonralar Amerikanın səfiri ilə söhbət etməyə və əslində onlardan icazə almağa məcbur idi. Bu bizim dərdli keçmişimizdir. Bu, milli başucalığının əks tərəfidir. Asılı və azğın diktatorların hakimiyyəti İran xalqını izzət kürsüsündən endirdi; nə onun elmini inkişaf etdirdilər, nə dünyasını abadlaşdırdılar, hətta axirətini də alıb əyninə əsarət donu geyindirdilər. İslam inqilabı belə bir vəziyyətə qarşı qiyam etdi. İslam inqilabı və Böyük İmam belə böyük bir bəlanın qarşısında dayandı və İran xalqı bu yolda canını fəda edib qələbə çaldı.

Bir xalqa belə bir ruhiyyə hakim olanda o ölkənin hakimiyyəti və həmin xalq təbii şəkildə kölə kimi olur; öz xalqı qarşısında yırtıcı it və qaniçən canavar kimi, düşmənlər qarşısında isə sakit bir quzu kimi. Rza xan xüsusən şahlığının ikinci yarısında öz xalqına qarşı çox kobud rəftar edirdi, xalqın nəfəs almaq cürəti yox idi, öz evləri daxilində ata övlada və övlad ataya inanmırdı, amma ingilislərin "taxtdan en" mesajı ilə ölü

bir siçan kimi hakimiyyəti buraxıb ölkədən getdi; Məhəmmədrza Pəhləvi də həmçinin. Məhəmmədrza Pəhləvi altmış və yetmişinci illərdə bu xalqa, mübarizlərə və azadlıqsevərlərə qarşı heç bir şeyi nəzərə almadan ən sərt təpkilər göstərdi, amma həmin adam Amerika və İngiltərənin səfirləri önündə hörmətlə dayanır, sözlərini dinləyirdi; bundan xoşlanmırdı, amma məcbur idi. Milli başucalığından məhrum olan bir xalqın hökuməti belə olur.

İslam inqilabının İran xalqına bəxş etdiyi ən mühüm məsələlərdən biri başucalığı hissi idi. Bizim böyük imamımız başucalığının tərənnümü idi. İmam aşkar şəkildə "Amerika heç bir qələt eləyə bilməz" deyəndə dünyada Amerikanın siyasi və hərbi iqtidarının zirvə çağı idi. İmam bu xalqa başucalığı hissini qaytardı; inqilab İran xalqına başucalığı hissini qaytardı. Bu gün iranlı özünün iranlı və müsəlman olması ilə fəxr edir. Bu gün dünya gücləri də etiraf edirlər ki, onların İran xalqına qarşı təhdidinin, hərbi və siyasi təbliğat kampaniyasının heç bir təsiri yoxdur. İran xalqı seçdiyi yolu qüdrətlə gedəcək və məqsədinə çatacaq.

Mühüm olan bu milli başucalığını qorumaqdır.

Sənəndəc şəhərinin Azadlıq meydanında Kürdüstan vilayəti əhalisi ilə görüşdəki çıxışdan: 2009.

İmam tərəfindən ucaldılan iki bayraq: İslamın dirçəlişi və İranın başucalığı

İmamın tövsiyələrinə, şüarlarına, xalqdan, məmurlardan və bütün dünya müsəlmanlarından etdiyi tələblərə kompleks nəzər saldıqda onun əlində iki uca bayraq görürük. Bizim böyük imamımız ölkəmizdə və İslam dünyasında yaratdığı bu əzəmətli hərəkatda həqiqətən iki bayrağı ucaltdı və yüksəkdə saxladı: bir bayraq İslamın dirçəlişi, bu əzəmətli və tükənməz gücü fəallaşdırmaq bayrağı, ikinci bayraq isə İranın və iranlının izzət və şərəf bayrağıdır. Bizim böyük imamımız qüdrətli əlləri ilə bu iki bayrağı ucaltdı. İmamın dəvətinin və hərəkatının bir cəhətini təşkil edən birinci bayraq böyük İslam ümmətinə aiddir. İkinci bayraq da İran xalqına, İrana və iranlıya aid olsa da, İslamın həyatverici rolunun əməli təcrübəsi kimi İslam ümməti üçün ümidverici və hərəkət oyadandır. Çünki bu böyük hərəkat İranda İslam oyanışının və İslamın həyata keçməsinin əməli təcrübəsi idi. Buna əsasən, birbaş İrana və iranlıya aid olsa da, onun nəticəsi yenə də İslam ümməti üçün dəyərli və əhəmiyyətlidir.

İslam bayrağının ucalması müsəlmanların dünyanın hər bir yerində kimlik və şəxsiyyət hiss etmələrinə səbəb oldu. Uzun illər İslam kimliyinin tapdanmasına çalışmışdılar. Bu inqilab baş verəndə, bizim böyük imamımızın uca qaməti dünya müsəlmanlarının qarşısında görünəndə isə hamı bir kimlik, şəxsiyyət və qürur duydu. Bu, İslam dünyasının şərqində və qərbində müsəlmanların oyanış əlamətlərinin görünməsinə səbəb oldu; on illərlə uğursuzluqdan sonra Fələstin xalqı canlandı, hökumətlərinin sionizm rejimi ilə üç müharibədə məğlubiyyətə uğramasından sonra məyus olan ərəb gənclər yenidən ruhlandılar. Bunlar yalnız bizim ölkəmizə aid məsələlər deyil, bütün İslam dünyasına aiddir. Müsəlman ölkələrin qəlbində xərçəng vəzisi olan sionizm rejimi inqilaba qədər məğlubedilməz bir qüvvə sayılırdı. İslam dünyasında çoxları onun məğlubedilməz olduğuna inanmışdılar. Amma bu rejim müsəlman gənclər tərəfindən güclü zərbəyə məruz

qaldı, Fələstin intifazəsi başlandı və işğalçı rejimə zərbələr endirildi; həm birinci intifazədə, həm Əqsa intifazəsində, həm doqquz il öncə Livandan məğlub olub geri çəkildiklərində, həm 33 günlük müharibədə, həm də ötən il məzlum Qəzzə əhalisi ilə 22 günlük müharibədə. Bunların hamısı sionizm rejiminə vurulan zərbələr idi. Halbuki İslam inqilabı baş verəndə sionizm rejimi müsəlman hökumətlərin və xalqların, xüsusən də ərəb xalqların nəzərində məğlubedilməz bir rejim hesab olunurdu. Bu, sionizm rejiminin hələlik "Nildən Fərata qədər" şüarını kənara qoyub unutmasına səbəb oldu. (İslam inqilabının nəticəsində) Afrikadan Şərqi Asiyaya qədər bütün müsəlmanlar müxtəlif formalarda İslam quruluşu və İslam hökuməti yaratmaq fikrinə düşdülər. Yəni mütləq bizim İslam Respublikası quruluşumuz kimi olmasa da, ölkələrində İslamın hakimiyyəti haqda düşündülər. Bəzi ölkələr buna nail oldular, bəzilərini də müjdəli gələcək gözləyir.

İslam dünyasında ziyalılar yeni ümidlə səhnəyə çıxdılar. Məyus danışan və məğlubiyyət hiss edən şairlər, yazıçılar və incəsənət xadimləri İslam inqilabının qələbəsindən, Böyük İmamın möhtəşəm hərəkətindən və bu xalqın müqavimətindən sonra yeni əhval-ruhiyyə əldə etdilər, söz, şeir və qələmlərinin tonu dəyişdi, ümid rənginə boyandı. Bu nümunələr haqda çox danışmaq olar.

İkinci cəhət İranın və iranlının başucalığına aiddir. Burada bizim böyük imamımızın gördüyü ilk və ən mühüm iş İran xalqındakı həqarət hissini yox etmək, bunu onların ruhundan silmək idi. Bu çox mühüm məsələdir. Bizim xalqımız 100-150 il öncədən müxtəlif amillər səbəbindən həqarət hissi keçirirdi, özünü kiçik sayırdı; Qacarlar dövründəki müharibələrdən, ağır məğlubiyyətlərdən və həmin dövrdə müxtəlif şəhərlərin itirilməsindən tutmuş Pəhləvi dövrünə, Rza xanın zamanına, heç kimə nəfəs almaq imkanı verməyən diktaturaya və xalqa qarşı zor tətbiqinə qədər, birinci Pəhləvi dövründən sonra Məhəmmədrza xanın dövrünə, amerikalıların müdaxiləsinə, SAVAK və Təhlükəsizlik komitəsinin yaradılmasına, xalqa qarşı kobud rəftara və xalqın daha heç bir gücünün qalmadığını hiss etməsinə qədər. İran xalqı

bir neçə mühüm məsələdə məğlubiyyət hissi keçirdi; Məşrutə məsələsində qələbə çaldıqdan sonra məğlubiyyətə uğradı. Milli hərəkat məsələsində yenidən möhtəşəm bir hərəkət etdi, lakin başçı və rəhbərlər onu qoruya bilmədilər və İran xalqı məğlub oldu. Sonra 1954-cü ildən 1978-ci ilə qədər sürən 24 il ərzində xalqa ağır bir diktatura rejimi hakim oldu. Xalqda daha heç bir işə həvəs qalmamışdı.

İmam Xomeyninin vəfatının iyirminci ildönümü mərasimində çıxışdan: 2009.

Xalqa həqarət ruhunun aşılanmasında qərbpərəst ziyalıların rolu

Digər tərəfdən, əksəri zalım hökumətin işçiləri olan qərbpərəst ziyalılar öz sözləri və əməlləri ilə xalqı başa salmışdılar ki, sizin bacarığınız yoxdur, heç bir iş bacarmırsınız, gərək digərlərini yamsılayasınız; elmdə yamsılayasınız, sənayedə yamsılayasınız, mədəniyyətdə yamsılayasınız, geyimdə yamsılayasınız, yeməkdə yamsılayasınız, danışmaqda yamsılayasınız. Hətta iş elə bir həddə çatdı ki, bir dəfə "biz əlifbamızı dəyişdirməliyik" dedilər. Görün bir xalq müstəqillikdən və başucalığından nə qədər uzaq olmalıdır ki, kimlərsə ona "əlifbanı dəyişdirməlisən" - deməyə cürət etsin. Yəni min il elmi irsimizin yazıldığı fars əlifbasını dəyişdirib avropalıların əlifbasını götürək və onları yamsılayaq; vəziyyət bu həddə çatmışdı. İmam gəlib bu həqarət hissini məhv etdi. İmam inqilabın qələbəsindən on beş il öncədən on il sonraya qədər müxtəlif formalarda bu xalqa daim özünəinam ruhu aşıladı: siz bacarırsınız, biz bacarırıq, siz qadirsiniz, siz böyüksünüz, siz güclüsünüz.

Bu milli özünəinam hər bir ölkənin inkişafının əsas iki şərtindən biridir. Bir şərt maddi imkanlardır, amma onlar təklikdə kifayət etmir. Bir xalqın böyük maddi imkanları ola, amma inkişaf və tərəqqidən uzaq qala bilər, başıuca və qüdrətli olmaya bilər. İnqilabdan öncə bizim neftimiz vardı, qazımız vardı, möhtəşəm və qiymətli metal mədənlərimiz vardı, parlaq istedadlarımız və güclü insan kapitalımız vardı, amma eyni zamanda dünyada üçüncü dərəcəli, ad-sansız, böyük güclərin qapazı altında, azğın, muzdur və düşmənlərdən asılı bir hökumətin boyunduruğu altında yaşayan xalq idik. Deməli, maddi imkanlar kifayət etmir, mənəvi şərtlər də lazımdır. Bu mənəvi şərtlərin ən önəmlilərindən biri özünəinam, bir xalqın öz bacarığına inanmasıdır. İmam bizim xalqımızda bu inamı yaratdı ki, duruş gətirə, müqavimət göstərə, ölkəsini azad edə, özünün yaratdığı quruluşu çox qüdrətlə

qoruya, dünyaya və beynəlxalq siyasətə təsir göstərə bilər. Və elə də oldu.

İmam Xomeyninin vəfatının iyirminci ildönümü mərasimində çıxışdan: 2009.

Milli başucalığının müxtəlif cəhətləri

Bu, sözügedən milli başucalığıdır. Mən iyirmi gün öncə Sənəndəcdə kürd qardaşlarımıza da bu haqda danışdım. Bir ölkə üçün milli başucalığı çox mühüm məsələdir. Bu milli başucalığı yalnız sözdə deyil, həyatımızın bütün sahələrində onun əməli yeri var.

Ölkə idarəçiliyində milli başucalığı budur ki, bir hökumət, bir quruluş öz xalqına arxalansın, xalqa güvənsin.

İqtisadi məsələlərdə milli başucalığı budur ki, ölkə özünü təmin etməyə qadir olsun, dünyada ehtiyacı olanı ala bilsin. Həmçinin dünyanın da ona ehtiyacı olsun və qarşılığında ondan alsın.

Elmdə milli başucalığı budur ki, xalqın tələbə gənci, tədqiqatçısı, araşdırıcı alimi çalışıb elmin sərhədlərini keçsin və elmi istehsal etsin. Biz bunu Proqramlaşdırma və elm istehsalı hərəkatı adlandırmışıq. Elmi bu həddə çatdıranlar orta istedad baxımından bizdən geridə olmasalar da, öndə olmamışlar. Tarixdə bizim əsrlərlə parlaq elmi keçmişimiz olub, bu gün də elmi istehsal etməli, yaratmalı, kəşf etməliyik və dünya elminə mühüm töhfələrimiz olmalıdır. Bu olur başucalığı.

Müxtəlif siyasətlərdə, digər ölkə, hökumət və böyük güclərlə münasibətdə bir xalqın başucalığı budur ki, onun fikir müstəqilliyi olsun, böyük güclər heç bir məsələdə onu öz iradələrinə məcbur edə bilməsinlər.

Mədəniyyət sahəsində milli başucalığı budur ki, bir xalq öz ənənələrinə sadiq olsun, dəyər göstərsin, əcnəbi və düşmən mədəniyyətlərə təqlidçi olmasın. Təəssüf ki, bizim ölkəmiz inqilabdan qabaqkı yüz ildə, yaxud daha artıq müddətdə Qərb mədəniyyətinin dağıdıcı fırtınasına məruz qaldı. Biz hələ də onun təsirlərini görür, əziyyətlərini çəkirik. Milli başucalığı budur ki, bir xalq öz adət-ənənələrinə əhəmiyyətli yanaşsın, hörmət etsin, onlarla fəxr etsin, digərlərinin "siz mürtəcesiniz" deməsinə etina etməsin. Bu gün bəzi Avropa ölkələri elə işlər görürlər ki, onları ağıllı və normal bir insana göstərsəniz, yalnız istehzalı təbəssüm edə bilər. Biz deyirik ki, nə üçün

belə edirsiniz? Deyirlər ki, bu bizim ənənəmizdir. Onlar özlərinin köhnə və çürük ənənələrinə sadiq qalırlar, digər xalqlar öz ənənələrinə hörmət edəndə isə onları ələ salırlar. Xeyr! Bu, özünə inamsızlıq və milli başucalığının ziddidir. Milli başucalığı odur ki, bir xalq digərlərinin mədəniyyəti qarşısında özünü itirməsin. Milli başucalığı budur. Milli başucalığı həyatın bütün sahələrində əks olunur, nümunələri görünür.

Ölkə idarəçiliyində və insanlarla münasibətdə milli başucalığı budur ki, bir cəmiyyətdə hər bir insana hörmət olunsun: "Ya sənin din qardaşındır, ya da yaranışda oxşarın (sənin kimi insan)".[1] Sizinlə eyni dində olsa da, hörmət etməlisən, eyni dində olmasa da. Cəmiyyətdə kim insandırsa, ona hörmət olunmalıdır. Bu, milli başucalığı yaradır. İmam milli başucalığının bu müxtəlif cəhətlərini tövsiyə edirdi.

İmamın söz və tövsiyələrinin yetirməsi olan bu böyük xalqımızın inkişaf və tərəqqinin zirvəsinə doğru gedən yolu bütün sahələrdə bu milli başucalığını qorumaqdan ibarətdir. Bu xalq tərəqqi zirvəsinə ucala bilər. Bir xalq güclənəndə, maddi və mənəvi cəhətdən yüksələndə onun təhlükəsizliyi də tam təmin olunur; yəni təhlükələr aradan qalxır və düşmənlər ona tamah salmırlar. Əgər bizim xalqımız tam təhlükəsiz olmaq, düşmənlərin daha onu təhdid etməyə cürət göstərməməsini istəyirsə, həmin yolla getməlidir; əgər inkişaf və ədalət istəyirsə, həmin yolla getməlidir. Bizim ölkəmiz üçün böyük təhlükə xalqdan, İslam dəyərlərindən və imamın mübarək xəttindən ayrılmaqdır. Bunlar bizim ölkəmiz üçün təhlükəlidir. Əgər inqilabın yaratdığı bu güclü skelet qorunsa, zaman ötdükcə müxtəlif problemlərin çoxunu həll etmək olar. Bu güclü skeletin dağılmasına qoymayın. Əgər dağılsa, daha heç bir yara sağalmayacaq, işdən düşən heç bir hissə düzəlməyəcək. İslam quruluşunun imamın bizə öyrətdiyi güclü skeletinin qorumalıyıq.

İmam Xomeyninin vəfatının iyirminci ildönümü mərasimində çıxışdan: 2009.

---

[1] Hədis İmam Əlidəndir (ə).

Tağut dövründə xalqın və mənəvi dəyərlərin kənarda qalması

İnqilabdan öncə bizim öz ölkəmizdə xalqın heç bir siyasi iştirakı yox idi. Hökmdarlar silah gücünə xalqa hakim olmuşdular, zor və şiddətlə hökmranlıq edirdilər. Gedəndə də bu böyük ilahi əmanəti, yəni hakimiyyəti şəxsi bir mülk kimi övladlarına ötürürdülər. Xalqın heç bir rolu yox idi. Bu gün dünyada demokratiyadan, insan haqlarından və bu kimi məsələlərdən dəm vuranlar həmin yanlış və qeyri-insani üsullarla hakimiyyətdə qalan zalım rejimlə əməkdaşlıq edir, onu dəstəkləyirdilər. Hakimiyyətdə xalqın rolunun ən azı iddia olunduğu ölkələrdə də mənəvi dəyərlər kənarda qalırdı.

İslam Respublikasını bədii bir fenomen kimi səciyyələndirən amil budur: xalqın iştirakı və mənəviyyat, ilahi hökm və Allah qarşısında təzim. Bu iki amil vahid bir həqiqəti təşkil edir. İslam quruluşunda cümhuriyyətin, yoxsa İslamın birinciliyi mövzusu mənasız və çaşdırıcı bir mövzudur. İslamiyyət və cümhuriyyət iki ayrı element deyil ki, birləşərək bir həqiqəti yaratmış olsunlar. İslamiyyətin qəlbində cümhüriyyət də var; ilahi hökmə əsaslanmaqda xalqa güvənmək, xalqın istəyinə və səsinə hörmət də var. İslam Respublikası İslam inqilabının İran xalqına hədiyyəsi olan vahid bir həqiqətdir. Bu respublika bu otuz ildə öz bacarığını ən gözəl şəkildə göstərmişdir.

Onuncu prezidentin Tənfiz (prezidentliyi təsdiqetmə) mərasimində çıxışdan: 2009.

İslam inqilabının şüarlarının köhnəlməməsi

Həqiqi İslam Respublikası - yəni imam tərəfindən əsası qoyulan və ölkəmizə hədiyyə olunan İslam Respublikası bu xüsusiyyətləri təmin edə bilər: beynəlxalq iqtidarı, siyasi qüdrəti, başucalığını, dünya rifahını və axirətin mənəvi gözəlliyini. Amma ehtiyatlı olun ki, bizim üçün saxta İslam Respublikası quruluşu düzəltməsinlər. Ötən on ildə bəzən buna doğru addımlar atmışlar, amma Allah-Taala saxlamışdır; xalq ayıq olmuş, sayıqlıq göstərmiş və icazə verməmişdir. Bəzi işlər görüb imamın şüarlarını muzeyə ötürmək istəyirdilər. Açıq deyirdilər ki, bunlar köhnəlmişdir. Xeyr! İnqilab şüarları köhnələn deyil, həmişə yeni və cəlbedicidir. Məzlumların və milli başucalığının xeyrinə olan, müqavimət və dirənişin olduğu şüarlar heç zaman və heç bir xalq üçün köhnəlmir. Bizim quruluşumuz üçün də köhnəlməyəcək.

Tehranın cümə namazı xütbələrindən: 2009.

Quruluşun İslamiyyət və cümhuriyyət cəhətlərinin eyniliyi

İslam inqilabından doğan İslam Respublikası iki cəhətə malik olan vahid bir sistemdir: İslam cəhəti və xalq cəhəti. Bu quruluş həm İslam quruluşudur, həm xalq quruluşu. Ona görə xalq quruluşudur ki, İslam quruluşudur və İslam cəmiyyətin dinidir, ümumi məsuliyyət dinidir. İslam ayrı-ayrı fərdlərin dini deyil. O da var, lakin fərdlər cəmiyyət olaraq da İslamın müraciət tərəfidirlər. İslam xalq dinidir, ümumi məsuliyyət dinidir. Buna əsasən, xalq quruluşu olması onun İslam quruluşu olmasından irəli gəlir. Və ona görə İslam quruluşudur ki, Allah-Taala belə minnət qoymuşdur: "Sizi imana müvəffəq etməklə, əslində Allah sizin boynunuza minnət qoymuşdur".[1] Bizə minnət qoymuş, bizi bu imana hidayət etmişdir. Allah bizim xalqımıza, bizim özümüzə minnət qoyub bizi bu dinə yönəltmişdir. Bizim toplumumuz İslamı istəyir. Bu ilahi dini bizə verdiyinə görə Allaha şükür olsun! Deməli, İslam Respublikasıdır, bir sistemdir, bir topludur, yaxud bir-biri ilə mülahizə olunmalı, bir olmalı və bu birliyin qorunmalı olduğu vahid sistemdir. Bu cəhətlərin hansı zəifləsə, bütün toplu və sistem zəifləyəcək.

Dini Ekspertlər Məclisinin üzvləri ilə görüşdəki çıxışdan: 2009.

[1] Hucurat/17.

Hegemonluğa qarşı ayıqlığın zəruriliyi

Ayıqlığın birinci şərti budur ki, mübarizə aparmağın lazım olduğu bu hegemonluğun nə olduğunu bilək. Hegemonluq odur ki, dünyada güc, yaxud güclər özlərinə baxıb pul, silah və təbliğat imkanlarına malik olduqlarını görür və bu səbəbdən özlərini digər ölkə və xalqların işlərinə amiranə müdaxiləyə haqlı bilirlər. Hegemonluğun mənası budur. İstismarçılıq ruhu inqilabdan öncə bizim ölkəmizdə aydın görünürdü. Amerika bu böyük ölkəyə, zəngin tarixə malik olan bu böyük xalqa hegemoncasına pəncə atmışdı, ölkəmizin mühüm və əsaslı işlərini ələ keçirmişdi. Səbəb bu idi ki, ölkənin başçıları fəsada uğramışdılar, xalq arasında yerləri yox idi, dayaq axtarır və Amerikaya söykənirdilər. Amerika da heç kəsə qarşılıqsız bir şey vermir; onları himayə etməyi ölkələrinin işlərinə tam müdaxiləyə qarşılıq etmişdi. Sizin üçün bəlkə də təəccüblü olar, amma bilin ki, Məhəmmədrza şah bir Baş naziri işdən çıxarıb başqasını təyin etmək üçün Amerikaya gedib iki-üç həftə orada qalmağa və onların razılığını almağa məcbur olurdu. Bizim ölkəmizin vəziyyəti bu həddə çatmışdı. Pəhləvi rejiminin son illərində vəziyyət bundan da pis olmuşdu; daha Amerikaya getmək söhbəti yox idi. Amerika və İngiltərənin səfirləri burada şahın sarayına gedir və ona deyirdilər ki, neft məsələsində belə edin, beynəlxalq münasibətlərdə belə edin, xalqla belə rəftar edin, mübarizlərlə belə davranın; əmr edirdilər, şah da qəbul edirdi. Bir məmləkətin başçısı bu qədər zəif, zəbun və əcnəbilər qarşısında bu qədər təslimçi olduqda digərlərinin vəziyyəti bəllidir. Bizim ölkəmizdə vəziyyət belə idi. Hegemonluğun mənası budur.

Amerika tam bir hegemondur; həm də yalnız bizə qarşı yox, bütün dünyaya və İslam dünyasına qarşı. Amerikalılar bütün dünyaya qarşı hegemon hissə sahibdirlər.

13 Aban (4 noyabr) ərəfəsində şagirdlərlə görüşdəki çıxışdan: 2009.

Hegemonluğun xalqın ixlasını və mübarizliyini dərk etməkdə acizliyi

Bu inqilab Allah üçün baş verən bir inqilab idi. Bu inqilab və bu hərəkat yarananda partiya hərəkatları kimi yaranmadı, hakimiyyətə gəlmək məqsədi daşıyan partiyaların siyasi hərəkəti kimi deyildi. Məzlum vəziyyətdə ilahi hökmləri icra etmək, İslam cəmiyyəti qurmaq və cəmiyyətdə ədalət bərqərar etmək üçün yarandı. İnqilabın qələbəsinə qədər mübarizə aparan, inqilabın arxasında dayanıb çalışan, onun möhkəmliyini və yaşamasını təmin edənlərin niyyəti saf idi. Sizin şəhidləriniz, Hərbi Hava Qüvvələrinin şəhidləri də belə idilər. Silahlı qüvvələrin şəhidlərinin hamısı belədirlər. Allah onun üçün işləyən və çalışan şəxslərin işlərinə bərəkət verdi. İnqilab düşməninin dərk edə bilmədiyi də budur. Hegemon və sionizm düşərgəsinin anlaya bilmədiyi məsələ budur. Onlar dərk edə bilmirlər ki, bu quruluşun möhkəmliyi onun Allah üçün olduğuna, ixlasla yaradıldığına və mübarizə ilə inkişaf etdiyinə görədir. İslam inqilabı və quruluşu buna görə qəlbləri fəth edir.

Siz görün bu gün neçə min müxtəlif media qurumu ən modern üsullarla bu quruluşun əleyhinə işləyir. Fikir otaqlarında yüzlərlə beyin oturub bu inqilabın əleyhinə hər gün bir söz, bir şüar, bir düşüncə və bir hiylə irəli sürür, amma ona zərər yetirə və İslam quruluşuna zərbə vura bilmirlər. Bu nədən irəli gəlir? Onun möhkəmliyi Allaha iman prinsipi üzərində qurulduğuna görədir. Bu yolla hərəkət edənlər ilahi iş gördülər.

Bu quruluş digər quruluşlara bənzəmir. Bu gün dünyada elə bir quruluş yoxdur ki, onun əleyhinə bu qədər təbliğat aparsınlar, siyasi işlər görsünlər, iqtisadi təzyiqlər göstərsinlər, embarqo tətbiq etsinlər və o belə möhkəm dayana bilsin. Dünyada belə bir şey yoxdur. Bu quruluş isə duruş gətirmişdir və bundan sonra da gətirəcək. Bunu hamı bilsin. Nə Amerika, nə sionizm, nə hegemon qüvvələr nə siyasi vasitələrlə, nə iqtisadi vasitələrlə, nə embarqo ilə, nə ittihamla, nə də daxildəki muzdurlarını təhrik etməklə bu inqilabı azca olsa belə laxlada biləcəklər.

Bu inqilabın həmişəyaşarlığının sirri imanlara söykənməsi və Allaha güvənməsidir.

Ordunun Hərbi Hava Qüvvələrinin komandanı və şəxsi heyəti ilə görüşdəki çıxışdan: 2010.

İslam inqilabının daim inkişaf və tərəqqi halında olması

Bu gün inqilabın hərəkət və məqsədləri bizim böyük və hikmətli imamızın ilk gündə təsvir etdikləridir. Bu məqsədlər xalqın fitrətinə uyğun olduğuna görə xalq onu götürdü. Əks təqdirdə, milyonlarla insanın qəlbini bir işə yönəltmək asan iş deyil. Bir şəxs fitrətlə danışdıqda, Allahdan danışdıqda, fitrətlər ona sarı yönəlir: "Əgər sən yer üzündə nə varsa, hamısını xərcləsəydin belə, yenə də onların ürəklərini birləşdirə bilməzdin. Lakin Allah onları birləşdirdi".[1] Qəlbləri yönəldən Allahın qüdrətidir. 22 Bəhməndə İslam inqilabının otuz birinci ildönümü münasibəti ilə küçələrə çıxan izdiham qabaqkı illərdən çox oldu; nəinki azalmamış, zəifləməmiş, hətta çoxalmış və güclənmişdir də. Bu, təbiət qaydalarının əksinədir. Siz suya bir daş atırsınız, orada bir dalğa yaranır. Bu dalğa get-gedə zəifləyir və tamamilə itir. Zaman ötdükcə ictimai dalğalar sönür. Bu necə hadisədir ki, zaman onu söndürmür və hətta günbəgün daha da qabardır - Kərbəla hadisəsi kimi! O zaman dostların olmadığı və düşmənlə dolu olan quru səhrada Hüseyn ibn Əli (ə) və yoldaşları şəhid olurlar, ailəsi əsir edilir, onları aparırlar və iş bitir. On-on beş gün ərzində bütün əlamətləri itməli olan həmin hadisə görün əsrlər ötdükdən sonra bu gün nə qədər parlayır. Yalnız müxtəlif ölkələrdə yaşayan milyonlarla şiə arasında yox, yalnız müsəlmanların arasında yox, hətta qeyri-müsəlmanların arasında da Hüseyn ibn Əlinin (ə) adı günəş kimi parlayır, qəlblərə işıq saçır və yol göstərir. İnqilab da belədir. Bu inqilab zaman ötdükcə daha çox işıq saçmışdır.

Azərbaycan əhalisi ilə görüşdəki çıxışdan: 2010.

[1] Ənfal/63.

Yayınmanın qarşısını almaq üçün meyarlara diqqətin zəruriliyi

İnqilabın mahiyyətini dəyişdirmək istəyənlər adətən rəsmi bayraqla və plakatla işləmir və inqilaba qarşı çıxdıqlarını bəlli etmirlər. Hətta bəzən inqilabı müdafiə adı altında bir addım atır, fikir bildirir, iş görür, bununla azacıq yayınma yaradırlar və inqilab get-gedə öz istiqamətindən tamamilə uzaqlaşır.

Bu yanlış istiqamətlənmənin və yayınmanın baş verməməsi üçün müəyyən meyarlara ehtiyac var, yolda bəzi işarələr olmalıdır. Əgər bu işarələr aydın, açıq və xalqın gözü önündə olsa, yayınma baş verməz. Kimsə buna çalışsa da, xalq tərəfindən tanınar. Amma əgər işarə olmasa, o zaman təhlükə ciddi olar.

Bəs bizim inqilabımızda işarə və meyar nədir? Bu çox mühüm məsələdir. Otuz ildir biz bu inqilab istiqamətində hərəkət edirik. Bizim xalqımız ayıq olmuş, qorxmamış və həqiqətən öz ləyaqətini sübut etmişdir. Otuz ildir bu inqilabı siz yaşadırsınız. Amma təhlükə var. İnqilabın və imamın düşməni bekar oturmur, bu inqilabı yıxmağa çalışır. Necə? İnqilabın yolunu yayındırmaqla. Buna görə bizim işarə və meyara malik olmamız lazımdır.

İmam Xomeyninin məqbərəsində Tehranın cümə namazı xütbələrindən: 2010.

İmamın xəttinin iniqlab üçün ən yaxşı meyar olması

Mən deyirəm ki, ən yaxşı meyar imamın özü və xəttidir. İmam bizim üçün ən yaxşı meyardır. Biz bütün fərqlərinə rəğmən, onu müqəddəs Peyğəmbərə (s) bənzədə bilərik. Quran buyurur: "Həqiqətən Allahın Rəsulu sizin üçün, Allaha, qiyamət gününə ümid bəsləyənlər və Allahı çox zikr edənlər üçün gözəl örnəkdir!"[1]. Peyğəmbərin (s) özü, onun rəftarı, əməli və əxlaqı nümunədir. Yaxud başqa bir şərafətli ayədə buyurur: "İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir"[2]. İbrahim (ə) və onun dostları örnəkdirlər. Burada İbrahim peyğəmbərin (ə) dostları da qeyd olunub. Kimsə deyə bilməz ki, Peyğəmbər (s), yaxud İbrahim (ə) məsum idi və biz onlar kimi ola bilmərik. Xeyr! "İbrahim və onunla birlikdə olanlar (möminlər) sizin üçün gözəl örnəkdir. O zaman onlar öz qövmlərinə belə demişdilər: "Şübhəsiz ki, bizim sizinlə və sizin Allahdan başqa ibadət etdiklərinizlə (bütlərlə) heç bir əlaqəmiz yoxdur. Biz sizi (dininizi) inkar edirik. Siz bir olan Allaha iman gətirməyincə bizimlə sizin aranızda həmişə ədavət və nifrət olacaqdır!"

Bu məktəbin şagirdi və böyük peyğəmbərlərin davamçısı olan Böyük İmam üçün də bu sözü söyləmək olar. İmamın özü, rəftarı və sözləri ən dəyərli meyardır. Xoşbəxtlikdən imamın sözləri mövcuddur, yazılmışdır. İmamın vəsiyyətnaməsi inqilabın gələcəyi üçün onun bütün düşüncələrini açıq şəkildə ortaya qoyur. Bu meyarların səhv izah olunmasına, yaxud gizlədilməsinə və ya unudulmasına imkan vermək olmaz. Əgər biz bu meyarları pis izah etsək, səhv göstərsək, sanki bir yolda kompası itirmişik, yaxud kompas xarab olub. Fərz edin bir dənizdə, yaxud səhrada insanın kompası sınır və xarab olur. Bu zaman yolu təyin etmək olmaz. Əgər imamın fikirləri pis bəyan olunsa, pis izah olunsa, sanki kompas xarab olur və yol itir; hər kəs öz fikri və istəyi ilə

[1] Əhzab/21.

[2] Mümtəhinə/4.

bir söz danışır. Bu arada bədxahlar da fürsətdən istifadə edir və xalqı çaşdırmaq üçün yolu yanlış izah edirlər.

İmamın fikirləri açıq-aydın, özünün dediyi və yazdığı şəkildə izah olunmalıdır. Bu, imamın yolunun, xəttinin və inqilabın düzgün istiqamətinin meyarıdır. Bir nəfər açıqca deyir ki, mən imamı qəbul etmirəm. Bu başqa bir mövzudur. İmamın ardıcıllarının və tərəfdarlarının imamı qəbul etmədiyini və yolunu səhv saydığını açıq söyləyən şəxsə münasibəti bəllidir. Amma bu inqilab imamın xətti və yolu ilə getməlidirsə, onun yolu aydın olmalı və fikirləri düzgün izah edilməlidir.

Onun-bunun xoşuna gəlməkdən ötrü imamın bəzi həqiqi mövqelərini inkar etmək, yaxud gizlətmək olmaz. Bəzi adamlar yanlış olaraq belə düşünürlər ki, imamın tərəfdarlarının çoxalmasından və müxaliflərinin də onu sevməsindən ötrü biz onun bəzi açıq mövqelərini ya deməməli, yaxud az deməliyik. Xeyr! İmamın kimliyi və şəxsiyyəti özünün açıq şəkildə və aydın sözlərlə bəyan etdiyi fikirləri ilə tanınır. Dünyanı silkələdən bunlardır; böyük kütlələri İran xalqına müştaq və çoxlarını davamçı edən bu açıq mövqelərdir. Bu gün sizin İslam dünyasının müxtəlif yerlərində əlamətlərini gördüyünüz bu möhtəşəm qlobal hərəkat bu fikirlərlə başlandı.

İmamı aydın şəkildə tanıtdırmaq, onun hegemonluq, mürtəcelik, Qərbin liberal-demokratiyası, münafiq və ikiüzlülər əleyhinə fikirlərini açıq şəkildə ortaya qoymaq lazımdır. O böyük şəxsiyyətin təsiri altına düşənlər bu mövqeləri görüb təsirlənmişlər. Biz kimlərinsə imamdan xoşu gəlsin deyə onun mövqelərini gizlədə, yaxud fikrimizcə sərt olanları yumşalda bilmərik. Bizim gənclik dövrümüzdə bəzi adamlar İslamın tərəfdarlarını artırmaq üçün onun bəzi hökmlərini gizlədir və görməzliyə vururdular; qisas hökmünü, cihad hökmünü, hicab hökmünü inkar edir və gizlədirdilər; deyirdilər ki, bunlar İslamdan deyil; qisas İslamdan deyil, cihad İslamdan deyil. Məqsəd filan şərqşünasın, yaxud İslamın əsasları ilə düşmən olan bir adamın

İslamdan xoşu gəlməsi idi. Bu səhvdir. İslamı olduğu kimi bəyan etmək lazımdır.

Bəlli xətti olmayan imam nəfəsi və hidayəti ilə İran xalqının özünü və övladlarını ölümə yollayan, candan, maldan keçməyə və müasir dövrün ən böyük hərəkətinə hazırlayan imam deyil. Bəlli xətti olmayan imam kimliksiz imamdır. İmamdan kimliyini almaq ona xidmət deyil. İmamın əsasları aydın əsaslardır. Bu əsaslar imamın sözlərində, çıxışlarında, məktublarında, xüsusən də sözügedən mövqelərin xülasəsi olan vəsiyyətnaməsində əks olunmuşdur. Bu düşüncə əsasları dünyada Qərb soyğunçuları və Amerika quldurları əleyhinə əzəmətli və güclü etiraz dalğası yaradan amildir. Amerikanın müxtəlif prezidentləri Asiyanın, Orta Şərqin və hətta bəzi Avropa ölkələrinin hansına səfər edirsə, insanlar toplaşıb onların əleyhinə şüar verirlər. Siz elə bilirsiniz həmişə belə olmuşdur? Xeyr! Hegemonluğu və sionizmi rüsvay edən, xalqlarda, xüsusən də müsəlman cəmiyyətlərində müqavimət ruhu oyadan amil imamın hərəkəti, ifşası və mövqeyi idi.

İmamın fikirlərini inkar etmək yanlış işdir. Təəssüf ki, bu fikrə bəzən özləri imamın düşüncələrini yayanlardan, yaxud onun ardıcıllarından olanlar rəvac verirlər. İndi hər hansı səbəbdən yollar ayrılır, məqsədlər itir, bəziləri dönürlər. Bəzi adamlar uzun illər imam və bu məqsədlər uğrunda danışdıqdan və hərəkət etdikdən sonra bu məqsəd və əsaslara qarşı çıxır, əleyhinə danışırlar.

İmam Xomeyninin məqbərəsində Tehranın cümə namazı xütbələrindən: 2010.

İmamın xəttinin xüsusiyyət və hissələri

İmamın xəttinin müəyyən hissələri var. Mən burada imamın xətti və yolu haqda ən mühüm məqamlara toxunacağam. Xüsusən gənclərə deyirəm ki, imamın vəsiyyətnaməsini oxuyun. Dünyanı silkələdən imam bu vəsiyyətnamədə əks olunan, bu əsər və sözlərdə görünən imamdır.

1. Əsl Məhəmməd (s) İslamı

İmamın fikirlərində birinci və ən əsas amil əsl Məhəmməd (s) İslamı məsələsidir; yəni zülmlə barışmayan, ədalətsevər, mübariz, məzlum, məhrum və yoxsulların hüququnun müdafiəçisi olan İslam. İmam bu İslama qarşılıq olaraq bizim siyasi leksikonumuza "Amerika İslamı" terminini daxil etdi. Amerika İslamı formal İslam, zülm və məzlumların hüququna təcavüz qarşısında laqeyd qalan, hegemonlara və güclülərə kömək edən, onların hamısı ilə razılaşan İslamdır. İmam bu İslama belə ad qoydu: "Amerika İslamı".

Bizim böyük imamımız daim əsl İslam haqda düşünürdü. Bu yalnız İslam Respublikası dövrünə məxsus deyildi, lakin İslam hakimiyyəti və İslam quruluşu olmadan əsl İslamın həyata keçməsi imkansız idi. Əgər ölkənin siyasi quruluşu İslam şəriətinə və təfəkkürünə əsaslanmasa, İslamın dünyanın və bir cəmiyyətin zalım və hegemonları ilə həqiqi mübarizəsi mümkün deyil. Buna görə imam İslam Respublikasını qorumağı ən vacib iş bilirdi; ən vaciblərdən biri yox, ən vacib iş. Çünki həqiqi İslamı qorumaq İslamın siyasi quruluşunu qorumaqdan asılıdır. Siyasi quruluş olmadan mümkün deyil.

İmam İslam Respublikasını İslam hakimiyyətinin timsalı bilirdi. Buna görə İslam Respublikasını istədi, onun üçün çalışdı və qüdrətlə onun arxasında dayandı. İmam şəxsi hakimiyyətini, özünün hakimiyyət başında durmasını istəmirdi, onun istədiyi İslam idi. Buna görə də İslam Respublikası təfəkkürü üzərində dayandı və bu modeli bütün dünyaya təqdim etdi.

İslam Respublikasında ən mühüm məsələ dünyada özünü müxtəlif formalarda göstərən hegemon qüvvələrlə mübarizədir. Diktator və avtoritar hökumət yalnız şah hökuməti deyil. Bu, diktatura rejimlərindən biridir. O zaman bəzi ölkələrdə təkpartiyalı diktatorluq olan solçu diktatorluqlar vardı. Onlar xalqa qarşı istədiklərini edirdilər və heç kim xalq qarşısında cavabdehlik daşımırdı. Əslində xalq məhdud bir azlığın əlində dustağa çevrilmişdi. Bu da bir növ diktatorluq idi. Bir növ diktatorluq da zahirdə demokrat olan liberal-demokratik quruluşlarda görünən kapitalistlərin diktatorluğudur. Bu da bir növ diktatorluqdur, lakin çox ağıllı və dolayı diktatorluq. Bu, kapitalistlərin və multimilyarderlərin diktatorluğudur. İmam İslam Respublikasını bu bəşəri tağutların qarşısında yaratdı, xalqa, xalqın iradə və istəyinə arxalanan İslamiyyəti bu quruluşun əsas meyarı seçdi. Odur ki, İslam Respublikası həm respublikadır, yəni xalqın iradəsini əks etdirir, həm də İslam quruluşudur, yəni ilahi şəriətə əsaslanır. Bu yeni bir modeldir. İmamın xəttində əsas meyarlardan biri budur. Kim İslam Respublikası quruluşuna dair bunun əksini düşünsə, imamın düşüncəsinə zidd getmişdir və imamın ardıcılı olduğunu iddia etməsin. İmamın fikri budur. Bu, imamın ən aydın düşüncə xəttidir.

2. İslamın cazibə və dafiə meyarı olması

İmamın proqramında, xəttində və düzgün yolunda başqa bir meyar onun cazibə və dafiə məsələsidir. Böyük insanların cazibə və daifəsi geniş sahəni əhatə edir. Bu hamıda var. Öz rəftarınızla biri sizi sevir, biri isə sizdən inciyir. Bu, cazibə və dafiədir. Böyük insanların cazibə və dafiəsi isə böyük bir sahəyə şamil olur.

İmamın cazibə və dafiəsinin meyarı da məktəb idi, İslam idi. Bu eynilə İmam Səccadın (ə) Səhifeyi-Səccadiyyənin ramazan ayının girişinə dair duasında Allah-Taalaya dediyi kimidir. Dəfələrlə demişik ki, İmam Səccadın (ə) duaları İslam təlimlərinin həqiqətən ən dəyərli xəzinələrindəndir. Bu dualarda elə bilgilər var ki, insan onları hədis kitablarından əldə edə bilmir. Bu dualarda isə açıq şəkildə bəyan olunmuşdur. Səhifeyi-Səccadiyyənin ramazan ayının girişinə dair 44-cü

duasında o həzrət Allah-Taaladan ramazan ayı üçün bəzi diləklər istəyir. Bu diləklərin birində deyir ki, İlahi, Səndən istəyirəm bütün düşmənlərimlə barışım və sülh bağlayım. Sonra dərhal deyir ki, Sənə görə düşmənlik etdiyim və Sənin yolunda düşmən olduğum şəxslərdən başqa. Yəni biz belə bir düşmənlə heç zaman barışmarıq.

İmam da belə idi. Onun heç kimlə şəxsi ədavəti yox idi. Şəxsi kin-küdurəti olsaydı da, ona göz yumurdu. Amma məktəbdən ötrü düşmənlik imam üçün çox ciddi məsələ idi. 1962-ci ildə hərəkat başlayanda xalqın arasında mövcud olan müxtəlif düşüncəli insanlara belə qucaq açan, hər bir milliyyətdən, hər bir qrup və məzhəbdən olan insanları qəbul edən imam inqilabın əvvəlində bəzi qrupları özündən uzaqlaşdırdı. Kommunistləri açıq şəkildə kənarlaşdırdı. İmamın bu işi inqilabın əvvəlindən mübarizədə olan bizlərin çoxuna qəribə görünürdü. İmam inqilabın əvvəllərində kommunistlərin qarşısında açıq mövqe bildirdi, onları özündən ayırdı, liberalların, Qərb quruluşlarını və Qərb mədəniyyətini istəyənlərin qarşısında qətiyyət göstərdi, onları da özündən ayırdı. O bu işdə heç bir şeyi nəzərə almadı, heç nədən çəkinmədi. İlahi həqiqətləri və İslam hökmlərinin Quran ruhunu qəbul etmək və böyük dəyişikliyi qəbul etmək istəməyən mürtəceləri də özündən kənarlaşdırdı. İmam mürtəceləri dəfələrlə ağır və acı sözlərlə qınadı. İmam özünün İslam əsasları və İslam düşüncəsi dairəsində olmayanları uzaqlaşdırmaqda zaman gözləmədi. Halbuki onlarla şəxsi düşmənliyi yox idi.

Siz imamın vəsiyyətnaməsinə baxın. İmam bu vəsiyyətnamədə daxildə cinayət törədib xaricə qaçmış kommunistlərə müraciət edir. Orada imamın danışıq tonuna diqqət yetirin. İmam onlara deyir ki, ölkəyə qayıdın, qanunun və ədalətin sizə verəcəyi cəzanı qəbul edin; yəni özünüzü ilahi əzabdan xilas etmək üçün gəlin edamı, həbsi, yaxud digər cəzaları qəbul edin. Onlarla qayğıkeşliklə danışır, buyurur ki, gəlib cəzanızı çəkmək cəsarətiniz yoxdursa, ən azı orada yolunuzu dəyişin və tövbə edin, İran xalqı və İslam quruluşu ilə mübarizə aparmayın, istismarçı və hegemonların piyadası olmayın.

İmamın heç kimlə şəxsi davası yox idi, amma məktəb dairəsində öz cazibə və dafiəsini tam qətiyyətlə işə salırdı. Bu, imamın həyatında və məktəbində əsas meyardır. İmama görə, siyasətdə dostluq və düşmənlik də İslam və din əsaslarına uyğun olmalıdır. İnsan burada da meyarı belə seçməli, Allahın ondan nə istədiyinə baxmalıdır.

İmamın seçdiyi, sözlərində və əməllərində əks etdirdiyi bu üsula əsasən, insan özünü açıq şəkildə imam və İslamla mabarizə bayrağını ucaldan şəxslərlə bir cəbhədə tərif etdiyi halda, həm də imamın ardıcılı hesab edə bilməz. Qəbul etmək olmaz ki, Amerika, İngiltərə, CİA, MOSSAD, şah tərəfdarları və münafiqlər bir şəxs haqda razılığa gəlsinlər, bir mərkəz ətrafında toplaşsınlar, o şəxs və o mərkəz də imamın xəttində olduğunu iddia etsin. Belə olmaz və bu məqbul deyil.

Hər kəslə və hər əclafla blok yaratmaq olmaz. Görək imamın dünənki düşmənləri bizim qarşımızda hansı mövqeyi seçirlər. Əgər hegemon Amerikanın, işğalçı sionizmin, müxtəlif muzdurların, imamın, İslamın və inqilabın müxalif və düşmənlərinin bizi tərifləyini, bizə hörmət etdiyini görsək, mövqeyimizə şübhə ilə yanaşmalı və düzgün yolla getmədiyimizi bilməliyik. Bu bir meyardır. İmam da dəfələrlə bunun üzərində təkid göstərirdi. İmam buyururdu ki, bizi tərifləyirlərsə, deməli, xəyanətkarıq. Bu, imamın yazılarında və dəqiq sənədlərdə mövcuddur. Bu çox mühüm məsələdir.

Bəzi adamlar imama əks xətdə hərəkət edir, Qüds günündə Fələstin məsələsinə dair bəlli mövqe seçir, Aşura günü bəlli rüsvayçılığı törədirlər, biz də imamın əsaslarına və yoluna açıq müxalif olanlarla həmrəylik nümayiş etdirir, özümüzü onların yanında göstərir, yaxud onların qarşısında sükut edirik. Eyni zamanda imamın ardıcılı olduğumuzu iddia edirik. Bu mümkün və məqbul deyil. Xalq da bunu gözəl dərk edir, görür, bilir və anlayır.

3. Qərarlarda mənəvi meyar

İmamın xəttində və rəftarında çox mühüm olan başqa bir meyar mənəvi və ilahi məsələləri nəzərə almaqdır. İmam öz qərarlarında, işlərində mənəvi məsələlərə birinci dərəcəli əhəmiyyət verirdi. Bu nə

deməkdir? Yəni görmək istədiyi hər bir işdə insanın məqsədi birinci növbədə Allahın razılığını qazanmaq olsun, qələbə çalmaq, hakimiyyətə gəlmək və kimlərinsə yanında hörmətli olmaq yox. Birinci məqsəd Allahın razılığı olmalıdır. Bu bir məsələ. Sonra da Allahın vədinə inansın, etimad etsin. İnsanın məqsədi Allahın razılığı olanda ilahi vədə də inanır. O zaman daha məyusluğun, qorxunun, diqqətsizliyin və qürurun mənası olmur.

İmam yalqız olanda qorxuya düşmədi, məyus olmadı. İran xalqı hamılıqla bir səslə onun adını çəkəndə, hətta digər xalqlar da ona eşq bəsləyəndə və bunu bildirəndə də qürurlanmadı. Xürrəmşəhr iraqlı təcavüzkarlar tərəfindən alınanda imam məyus, bizim əsgərlərimiz öz qəhrəmanlığı və fədakarlığı ilə onu azad edəndə də məğrur olmadı, buyurdu ki, Xürrəmşəhri Allah azad etdi; yəni biz heçkimik. Rəhbərliyi zamanı baş verən bütün müxtəlif hadisələrdə imam belə idi. Yalqız olanda qorxmadı, hakimiyyətdə olanda məğrur olmadı və heç nəyi unutmadı. Bu, Allaha etimaddır. Allahın razılığı olanda belə olur.

İlahi vədə inanmaq lazımdır. Allah-Taala Fəth surəsində buyurur: "(Cihad əmri həm də ona görədir ki) Allah (Muhəmmədin Rəbbi nə Muhəmmədin özünə, nə də möminlərə kömək edəcəkdir - deyə) Onun barəsində bədgüman olan münafiq və müşrik kişi və qadınları əzaba düçar etsin"[1]. Münafiqin və müşrikin xüsusiyyətlərindən biri Allaha bədgüman olmaq, ilahi vədi qəbul etməmək, ona inanmamaqdır. Allah-Taala "Allah Ona (Onun dininə) yardım edənlərə, şübhəsiz ki, yardım edər"[2] deyə buyurursa, mömin insan bunu bütün vücudu ilə qəbul edir, münafiq isə qəbul etmir. Allah buyurur: "Onların bədniyyətliyi öz başlarında çatlasın! Allahın onlara qəzəbi tutmuş və onlara lənət etmişdir. (Allah) cəhənnəmi onlar üçün hazırlamışdır. Ora necə də pis yerdir!"[3] Allaha bədgüman olanların vəziyyəti belədir.

---

[1] Fəth/6.
[2] Həcc/40.
[3] Fəth/6.

İmam Allahın vədlərinə əmin idi. Biz Allah üçün mübarizə aparır, Allah üçün addım atır, çalışırıq. Nəticəni Allah-Taala vəd etdiyi kimi həyata keçirəcək. Biz vəzifəmizi yerinə yetirmək üçün çalışırıq, Allah-Taala bunun ardınca ən yaxşı nəticəni də verəcək. Bu, imamın rəftarının və xəttinin xüsusiyyətlərindən biridir. İnqilabın düzgün yolu budur.

4. Bütün fərdi və ictimai məsələlərdə təqva

Bu sahədə mövcud olan məsələlərdən biri imamın bütün işlərdə təqvaya gözəl şəkildə əməl etməsi idi. Şəxsi məsələlərə nisbətən ictimai, siyasi və ümumi məsələlərdə təqva çox çətin, əhəmiyyətli və təsirlidir. Biz dostlarımıza və düşmənlərimizə qarşı nə deyirik? Burada təqva təsirlidir. Siz birinə müxalif və düşmən olanda onun haqqında necə mühakimə yürüdürsünüz? Mühakimənin obyektiv olmaması təqva yolundan çıxmaq deməkdir. Əvvəldə qeyd etdiyim şərafətli ayəni təkrar edirəm: "Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!"[1] Biz belə danışmalıyıq. Mən əziz gənclərimizə, imamı sevən, danışan, yazan, çalışan inqilabçı və mömin gənclərimizə demək istəyirəm ki, buna tam riayət edin. Kiminləsə müxalif olmaq bizi həddimizi aşmağa, ona zülm etməyə vadar etməsin. Xeyr! Zülm etmək olmaz. Heç kəsə zülm etmək olmaz.

Mən imamdan bir xatirə danışım. Biz bir gecə imamın yanında idik. Mən bizə yaxın dövrdə İslam dünyasının məşhur şəxsiyyətlərindən biri olan, hamının tanıdığı və barəsində eşitdiyi bir şəxsin adını çəkib imamdan soruşdum ki, sizin onun haqqında fikriniz nədir? İmam bir qədər fikirləşib dedi ki, tanımıram. Sonra da o şəxs haqda məzəmmətli bir cümlə dedi və mövzu bağlandı. Ondan bir, yaxud iki gün sonra səhər çağı imamla işim var idi. Onun yanına getdim. Mən oturan kimi imam həmin şəxs haqda söhbətimizi yada salıb dedi ki, cavabım elə "bilmirəm"dir. Yəni bu sözdən sonra dediyi məzəmmətli cümləni sildi. Baxın, bu çox mühüm məsələdir. Həmin məzəmmətli cümlə nə söyüş idi, nə təhqir; xoşbəxtlikdən mənim də tam yadımdan çıxıb. Bu ya

[1] Əhzab/70.

imamın mənəvi kəramətindəndir, ya də mənim yaddaşımın zəifliyindən. Hər halda, bu qədər xatırlayıram ki, məzəmmətli bir cümlə idi. Həmin gecə o cümləni dedi, bir-iki gün sonra isə sözünü geri götürüb dedi ki, "bilmirəm" qədərincə qəbul elə. Baxın, bunlar örnəkdir: "Həqiqətən Allahın Rəsulu sizin üçün gözəl örnəkdir!"[1].

Qəbul etmədiyiniz biri haqqında iki cür danışa bilərsiniz: biri tam haqqa uyğun şəkildə, biri də haqsızlıqla birgə. İkincisi pisdir. Ondan çəkinmək lazımdır. Haqq və doğru olan, Allahın ədalət məhkəməsində açıqlama verə biləcəyiniz düzgündür. Onu deyin, artıq söz danışmayın. Bu, imamın hərəkətinin və xəttinin əsas səciyyələrindən biridir. Biz bunu yadda saxlamalıyıq.

5. Xalqın roluna diqqət

İmamın xəttinin əsas səciyyələrindən başqa birisi xalqın həm seçkilərdə, həm də müxtəlif ictimai məsələlərdə roludur. Seçkilərdə imamın xalqın roluna verdiyi əhəmiyyət həqiqətən möhtəşəm idi. İyirminci əsrin birinci yarısı müxtəlf inqilablar dövrüdür. Dünyanın şərqində və qərbində müxtəlif formalarda çoxlu inqilablar baş vermişdir. Bu inqilabların heç birində qələbədən iki ay sonra hakimiyyət növünü və quruluşu seçmək üçün referendum keçirilməmişdir. Amma imamın səyi nəticəsində İranda bu baş verdi. Hələ inqilabdan bir il ötməmişdi ki, konstitusiya yazıldı və qəbul olundu. İlk aylarda, hələ konstitusiyanın yazılmadığı və işin gecikdiyi zaman imam bizi çağırdı və biz Quma getdik. Onda hələ Qumda yaşayırdı. O narahat şəkildə dedi ki, konstitusiyanı tez yazın. Sonra Dini Ekspertlər Məclisinin seçkiləri keçirildi və xalq konstitusiya yazmaq üçün ekspertlər seçdilər. Konstitusiya yazılandan sonra onu ümumi səsverməyə çıxardı, referendum keçirildi və xalq konstitusiyaya səs verdi. Sonra da prezident və parlament seçkiləri keçirildi. Tehranın bombalar altında olduğu ən çətin dövrdə də seçkilər tətil olmadı. Bu günə qədər İranda seçkilər bir gün də təxirə düşməmişdir. Dünyada belə demokratiya

[1] Əhzab/21.

görmüsünüzmü? İnqilablar heç, amma demokratik ölkələrdə də belə diqqətlə, vaxtında seçki keçirilmir. Bu, imamın xəttidir.

Seçkilərdən başqa məsələlərdə də xalq dəfələrlə imamın diqqət mərkəzində idi, imam onların roluna aydın işarə vurur, bəzən də açıq şəkildə söyləyirdi. Bəzən deyirdi ki, məmurlar görməli olduqları filan işi görməsələr, xalq özü meydana atılıb bunu edəcək.

6. İslam inqilabını qlobal saymaq

İmamın xəttinin aydın nöqtələrindən daha birisi hərəkatın qlobal olmasıdır. İmam hərəkatı qlobal sayır və bu inqilabın bütün müsəlman, hətta qeyri-müsəlman xalqlara məxsus olduğunu deyirdi. İmam bundan çəkinmirdi. Bu, ölkələrin işlərinə qarışmaq deyil. Biz bunu etmirik. Bu, inqilabı dünənki müstəmləkəçilərin üsulu ilə ixrac etməkdən fərqli bir şeydir. Biz bu işi görmürük, belə adamlar deyilik. Bunun mənası odur ki, bu ilahi hadisənin gözəl ətri dünyaya yayılmalı, xalqlar vəzifələrinin nə olduğunu anlamalı, müsəlman xalqlar kimliklərinin necə və harada olduğunu bilməlidirlər. Bu qlobal baxışın bir nümunəsi imamın Fələstin barədə mövqeyidir. İmam açıq-aşkar buyurdu ki, İsrail bir xərçəng vəzisidir. Xərçəng vəzisini nə edirlər? Vəzini kəsməkdən başqa müalicə yolu varmı?! İmam heç kəsi nəzərə almadı. Onun məntiqi bu idi. Bu, şüar deyil, məntiqli sözdür. Fələstin tarixi bir ölkədir. Tarix boyu Fələstin adlı bir ölkə mövcud olmuşdur. Dünyanın zalım qüvvələrinin dəstəyi ilə bir qrup gəlib bu xalqı ən kobud və ən şiddətli yolla ölkədən çıxarıb; öldürüb, sürgün edib, işgəncə verib, təhqir edib və bu milləti qovub. Bu gün işğal olunmuş Fələstinə qonşu ölkələrdə və digər yerlərdə əksəriyyəti düşərgələrdə olmaqla bir neçə milyon fələstinli qaçqın yaşayır. Əslində gəlib ölkəni coğrafi səhnədən sildilər, xalqı bütünlüklə sıradan çıxardılar. Onun yerinə zorla qondarma və yeni bir inzibati vahid yaradıb adını İsrail qoydular. Görün məntiq nə tələb edir? Bizim Fələstin haqda sözümüz şüar deyil, tam məntiqli bir sözdür.

Əvvəllər başında İngiltərənin durduğu, sonra da Amerikanın qoşulduğu və ardınca Qərb ölkələrinin gəldiyi qüdrətli bir qrup deyir ki, Fələstin ölkəsi və Fələstin xalqı məhv olmalı, onun yerinə İsrail adlı bir

ölkə və İsrail xalqı adlı qondarma bir xalq yaranmalıdır. Bu bir sözdür. Bunun qarşısında başqa bir söz də var. O, imamın sözüdür; deyir ki, xeyr, bu qondarma və zorla yaradılmış dövlətə son qoyulmalı, onun yerinə əsl xalq, əsl ölkə və əsl inzibati vahid iş başına gəlməlidir. Bu iki sözün hansı məntiqlidir? Süngüyə və məhvə söykənən, siyasi bir sistemi, bir neçə minillik keçmişi olan tarixi bir bölgəni bütünlüklə xəritədən çıxarmaq istəyən söz məntiqlidir, yoxsa onun qalmasını, qondarma və zorla yaradılmış inzibati vahidin məhv olmasını deyən söz? İmam bunu deyirdi. İşğalçı İsrail və Fələstin məsələsi barədə ən məntiqli söz budur. İmam bunu açıq söylədi. İndi kimsə bu sözü işarə ilə desə, imamın xəttinin iddiaçısı olan bir qrup deyəcək ki, nə üçün bu söz deyildi. Bu, imamın sözüdür. Bu, imamın düzgün məntiqidir. Dünyanın bütün müsəlmanları, bütün azadlıqsevər insanları və bitərəf xalqlar bu sözü qəbul etməlidirlər. Bu düzgündür. Bu, imamın mövqeyidir.

7. Fərd və qrupların keçmişdəki yox, indiki əməlinin meyar olması

Sonda bir məqama da toxunmaq istəyirəm. Siz əziz qardaş və bacılar isti havada dözdünüz. Allah sizə əcr versin! İmamın xətti və yolu haqda başqa bir əsas məsələ də budur: İmam dəfələrlə buyurdu ki, şəxslər haqda mühakimə üçün onların indiki vəziyyəti meyar seçilməlidir, keçmişi deyil. İndiki vəziyyət bəlli olmayanda keçmişə baxılır. İnsan keçmişə baxıb deyir ki, əvvəl belə olub, indi də yəqin belədir. Əgər insanların indiki halı keçmişdəkinin əksinə olsa, daha keçmişin etibarı yoxdur. İmam Əmirəlmöminin (ə) cənab Təlhə və cənab Zübeyrlə belə rəftar etdi. Siz bilməlisiniz ki, Təlhə və Zübeyr kiçik adamlar deyildilər. Əmirəlmöminin (ə) səhabələri arasında az adam Zübeyr kimi parlaq keçmişə malik idi. Cənab Əbu Bəkr xəlifə seçiləndən sonra ilk günlərdə onun minbər etdiyi zaman bir neçə səhabə qalxıb etirazlarını bildirdilər və dedilər ki, siz haqlı deyilsiniz, Əli ibn Əbu Talib (ə) haqlıdır. Bu şəxslərin adı tarixdə qeyd olunmuşdur. Bunu yalnız şiələr nəql etməmişlər, bütün tarix kitablarında vardır. Cənab

Əbu Bəkrin minbər etdiyi zaman qalxıb Əmirəlmöminin (ə) hüququnu müdafiə edənlərdən biri də Zübeyr idi. Bu, Zübeyrin keçmişidir. Həmin gündən onun Əmirəlmöminə (ə) qarşı xəncər çəkdiyi günə qədər 25 il ötmüşdür. Əhli-sünnə qardaşlar Təlhə və Zübeyri üzrlü sayıb deyirlər ki, onların ictihadları belə nəticə vermişdir. Çox gözəl! Hər halda, mövzu bu deyil. Biz onların Allah-Taala qarşısında hansı vəziyyətdə oluğunu araşdırmırıq. Bəs Əmirəlmöminin (ə) bunlarla necə rəftar etdi? Vuruşdu. Əmirəlmöminin (ə) Təlhə və Zübeyrlə vuruşmaq üçün Mədinədən qoşun yığıb Kufəyə və Bəsrəyə sarı yollandı. Yəni həmin keçmiş məhv oldu, bitdi. İmamın da meyarı bu idi.

Bəziləri Parisdən İrana imamla bir təyyarədə gəldilər, amma elə onun dövründə xəyanətə görə edam olundular. Bəzi adamlar imamın Nəcəfdə olduğu və sonra Parisə getdiyi zamandan onunla əlaqədə idilər, inqilabın əvvəlində imam onlara hörmət də edirdi. Amma sonra rəftar və mövqeləri səbəbindən onlardan üz çevirdi və vəzifələrindən kənarlaşdırdı. Meyar bugünkü vəziyyətdir. Əgər Allah eləməmiş, əmmarə nəfs və şeytan mənim yolumu yayındırsa, mühakimə ayrı cür olacaq. İslam quruluşunun əsası budur və imam belə etdi.

İmamın yolu və xətti haqda digər məsələləri də bəyan etmək olar. Qeyd olunanlar ən mühüm və ən təsirliləri idi. Yaxşı olar ki, qardaşlar, gənclər, düşüncə və tədqiqat adamları, hövzə və universitet tələbələri bu əsaslar üzərində fikirləşsinlər, işləsinlər, yalnız mətn şəklində qalmasın və onlar düzgün izah olunsun.

İmam Xomeyninin məqbərəsində Tehranın cümə namazı xütbələrindən: 2010.

İslam inqilabı - ümmət imamının gözəl yadigarı

Eşq və iman, ayıqlıq və amal - bunlar əsas şərtlərdir. İmanı olmayan insanın hərəkət üçün əsası olmaz, eşqdən və qəlbin güclü duyğusundan məhrum olan insan da hərəkəti davam etdirə bilməz. Uca amalı olmayan insan kiçik işlərlə və məhdud məsələlərlə kifayətlənər, yüksək zirvələrə baxa bilməz. Ayıq olmayan insan yolu səhv gedər, eşq və imanı olsa da, onları yanlış yolda işlədər. Eşq və iman, amal və ayıqlıq! Bunları inqilab bizim xalqımıza və cəmiyyətimizə verdi. Buna görə inqilab Quranda deyilən gözəl ağac oldu: "Məgər Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş bir söz kökü yerdə möhkəm olub budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt (ilin bütün fəsillərində) verər"[1]. Bu, xoş sözdür. İnqilab belə bir şeydir. Bizim böyük imamızın – müqəddəslərin, övliyaların, şəhidlərin, məsumların və siddiqlərin həqiqi davamçısının bizə göstərdiyi inqilabi hərəkət həmin xoş sözdür.

Bir vaxt cəmiyyət daxilində müdafiəyə ehtiyac vardı, bir vaxt ölkə sərhədlərini müdafiəyə ehtiyac vardı, bir vaxt elmə ehtiyac olur, bir vaxt etiqad və imanları gücləndirməyə, bir vaxt xalqa xidmət göstərməyə. İnqilab bütün bu şəraitlərdə xalqa fəslə münasib meyvələr verir.

Bəzi adamlar elə bildilər ki, inqilab köhnəldi, yaxud köhnələsidir; dedilər ki, inqilab bitdi. Özləri bitmişdilər, ehtiyatları tükənmişdi, yolu davam etdirə bilmirdilər, dünyanı, cəmiyyəti, inqilabı da özləri ilə müqayisə edirdilər: "Allahı unutduqları üçün Allah da onları özlərinə unutdurdu".[2] Allahla əlaqə kəsiləndə insan hətta özünü də yaxşı tanıya bilmir, nəinki cəmiyyəti və onun amallarını. İnsan Allahla əlaqəni necə kəsir? Maddi həvəslər, meyllər və eqoistlik insana hakim olanda, bu meyllər hörümçək toru kimi onun zəif iradə və imanını tutanda. Bizdə belələri olmuşdur; keçmişdə də olmuşdur, gələcəkdə də olacaq. Bunlar

[1] İbrahim/24.

[2] Həşr/19.

töküntülərdir. Yarıyolda qalanlar mütləq əvvəldən inqilabla düşmənlik edənlər deyillər. Maddi təmayül hakim olanda insan yolda qalır. Kiçik şəxsi məqsədlər - mal-dövlət istəyi, dəbdəbə, vəzifə, hakimiyyət həvəsi insana məqsəd olanda əsas məqsəd yaddan çıxır.

Quruculuq Bəsici təşkilatının üzvləri ilə görüşdəki çıxışdan: 2010.

Qumun iki tarixi və qəhrəmanlıq yaradan dönəmi

Müasir dövrdə də həmin xüsusiyyətlər mövcuddur; yəni Qum ən böyük dini və ilahi elm mərkəzidir, böyük alimlərin yaşaması, mübarizəsi və ayıqlığı sayəsində burada İslam dünyasının şərqinin və qərbinin bəhrələndiyi bir bulaq çağlayır.

Mən iki mühüm dönəmi yada salmaq istəyirəm. Bu iki dönəmdə qumlular həqiqətən təsirli və həmişəyaşar rol ifa etdilər: Biri 1963-cü ilin Aşura günü və ondan iki gün sonra baş verən 15 Xordad (5 İyun) hadisəsidir. Qum əhalisi Aşura günü Feyziyyə mədrəsəsinə toplaşıb imamı dinlədi, onun sözləri ilə qəlbini doyurdu, iki gündən sonra Böyük İmamın saxlanması xəbərini eşitdikdə isə müqəddəs məqbərəyə toplaşdılar. Onların bu möhtəşəm hərəkəti böyük imamımızın rəhbərlik etdiyi ruhani hərəkatının hövzənin divarları arxasında qalmamasına və cəmiyyətə çıxmasına bais oldu. Bu işin avanqardı qumlular oldular; onlar bu böyük işi gördülər.

Başqa bir dönəm 1977-ci ildir. O zaman düşmənin Böyük İmamı təhqir etməklə başlayan təxribatının əsl mahiyyətini dərk etdilər, məsələnin nə olduğunu anladılar; çünki məsələ yalnız təhqirlə bitmirdi. Həmin vaxt Qum şəhərində sözügedən xəyanətkar hərəkət əleyhinə izdihamlı yürüş təşkil olundu, bu küçələrdə - İrəm xiyabanında, Çaharmərdan xiyabanında qumlu gənclərin qanı töküldü. Onlar canları və qanları ilə sözlərinin doğruluğunu sübuta yetirdilər. İnqilabın qələbəsindən sonrakı bu otuz il boyu bu xalq bütün dönəmlərdə ixlasla, sədaqətlə, səmimiyyətlə və nümunəvi ayıqlıqla meydana çıxmışdır. Düşmənin Quma dair xüsusi proqramı və layihəsi vardı. Əgər Qum əhalisi ayıq-sayıq olmasaydı, bu təhlükəli layihələr çox ziyan vuracaqdı. Xalqın oyanışı və bu şəhərdə elmi hövzənin olması onun ayıqlıq mərkəzinə çevrilməsinə bais oldu.

Elmi hövzənin təsisçisi olan mərhum Ayətullah Hairinin dövründən bu şəhərdə böyük təqlid müctəhidləri olmuşdur: mərhum

Ayətullah Bürucerdi, mərhum Ayətullah Gülpayiqani, mərhum Ayətullah Əraki, mərhum Ayətullah Mərəşi, mərhum Ayətullah Bəhcət. Bu gün də Allaha şükür olsun ki, bu şəhərdə böyük təqlid müctəhidləri və görkəmli din alimləri var. Elmi hövzə xeyir-bərəkət amilidir. Doğruçu, ayıq və Allah yolunda mücahid olan bu şəhər hövzənin və ruhanilərin qədrini bildiyini, lazımi yerdə meydana atıldığını göstərmişdir. Bu şəhər dövrün böyük insanı olan həzrət İmam Xomeyninin hərəkata başladığı yer olduğuna görə inqilabın mərkəzinə və ümidinə çevrilmişdir.

Bizim bu izdiham qarşısında çıxış müddətimiz məhduddur. Təəssüf ki, gələrkən xalqın sevgisi üzündən küçələrdə çox gecikdik; odur ki, vaxt ötmüşdür. Mən yalnız bir neçə qısa cümlə deyəcəyəm.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2010.

İnqilabın beşiyi və düşmən hücumlarının hədəfi: Qum

Əvvəla Qum inqilabın vətəni, ölkənin ən dindar şəhəri və müasir dövrün ən böyük inqilabının mərkəzidir. Bunun mənası nədir? Bunun mənası odur ki, bütün dünya bu inqilabın dini bir inqilab olduğunu bilsin. Bu inqilab barədə heç bir yanlış və materialist təhlil yürütmək olmaz. Onun vətəni Qumdur, rəhbəri bir fəqih, filosof, böyük bir alim və ruhanidir. İnqilab bütün dünyada belə tanınmışdır. Bu bir məsələ.

Bu sözün davamı odur ki, düşmənlər bu müddət ərzində bu inqilaba və quruluşa zərbə vurmaq istəyəndə onların hücumlarının hədəfi nə olmuşdur? İki mühüm amil düşmən hücumlarının hədəfi olmuşdur: biri din, biri isə xalq və onun vəfadarlığı. Bilirlər ki, bu inqilab dini inqilab olmasaydı, dirəniş gücü olmazdı. Çünki öz ardıcıllarına zülmə tabe olmağı qadağan edən, onları zülmlə mübarizəyə həvəsləndirən, insanların həyatına ədalət, azadlıq, mənəviyyat və inkişaf təklif edən dindir. Bu, dinin xüsusiyyətidir. Deməli, dinə əsaslanan bir quruluşun düşmənlərin, hegemonların və artıqtamahların təzyiq və şiddətinə tabe olması mənasızdır. Əgər bu inqilabda din elementi olmasaydı, inqilabın məsul şəxslərinin və rəhbərlərinin düşməndən bir imtiyaz almaqla güzəştə getmələri və düşmənin istismarına yenidən yol açmaları mümkün idi. Amma dinin bu inqilabın fəqərə sütunu olduğuna görə indiyədək belə bir şey baş verməmişdir və bundan sonra da baş verməyəcək.

Bizim əziz imamımızın bizə və bütün xalqa böyük dərsi bu idi: öz gücünüzə inanın, bu gücü daim artırmağa çalışın, Allah-Taalaya və Onun vədinə güvənin. Əgər duruş gətirib ağılla hərəkət etsəniz, əmin olun ki, Allahın yardımı sizinlə olacaq. Bu, xalqın dindar olmasına, inqilabın və İslam quruluşunun dini inqilab və quruluş olmasına görədir.

Xalq inqilabı o deməkdir ki, bu inqilab xalq tərəfindən sədaqətlə himayə olunur. İslam quruluşu xalq tərəfindən tam təsdiqlənir və dəstəklənir. Bu da bu müddətdə təmin olunmuşdur.

Qum əhalisinin böyük toplantısında çıxışdan: 2010.

İnqilabda Allahın yardım əli

İmamın bəsirətli gözü bu ilahi qüdrət və yardım əlamətlərini görürdü. Bizim eybimiz budur ki, bəzən ilahi yardımlara toxunuruq, amma onları yaxşı görmür, Allahın bizə necə böyük yardım etdiyini ayırd edə bilmirik. O isə görürdü.

O bir dəfə mənə buyurdu ki, inqilabın əvvəlindən bu günə qədər - o zaman təxminən 1986-ci il idi – hər yerdə bizə yardım edən və işlərimizi düzəldən qüdrət əlini görürəm. O bu qüdrət əlini görürdü. İmamın İran xalqına baxışı digərlərindən fərqlənirdi. O zaman dini və qeyri-dini elm adamlarının, siyasi xadimlərin çoxu İran xalqı haqda qəribə mühakimələr yürüdürdülər; bəziləri bu xalqı imanlı, bəziləri sədaqətli bilmirdi, bəziləri də onların gücünə və vəfadarlığına şübhə ilə yanaşırdı. Biz bunları çoxlarından eşitdik. İmam isə 1962-ci ildə, bu möhtəşəm toplantıların heç birinin olmadığı zaman bu Qum şəhərində, bu Əzəm məscidində dedi ki, biz xalqa çağırış etsək, Qum səhrası insanla dolar, hamı ləbbeyk deyər. Onun xalqa baxışı belə idi. İmam xalqı tanıdı, xalqın canında və qəlbində olub misləri qızıl edən bu iksirəbənzər dəyərli qüvvəni kəşf etdi və işlətdi. Odur ki, böyük maneələrə rəğmən, inqilab qələbə çaldı. Heç bir analitik burada bu hadisənin baş verəcəyinə inanmırdı. O isə Allaha arxalandı, Allaha təvəkkül edib işə girişdi, xalqla mənəvi ünsiyyət qurdu, xalq səhnəyə çıxdı və bu möhtəşəm hərəkət baş verdi.

Qum vilayətinin minlərlə Bəsic üzvü ilə görüşdəki çıxışdan: 2010.

İmamın İslam inqilabına cahanşümul baxışı

İslam inqilabının və mübarək İslam Respublikası quruluşunun bizə öyrətdiyi birinci dərs bu idi ki, baxışımızı İran xalqı hüdudundan geniş İslam ümmətinə yönəldək. Böyük imamımız bizə öyrətdi ki, baxışımız böyük ümmətə yönəlməlidir. Düzdür, İran tağut dövründə diktatura və müstəmləkədən cana doymuşdu, əzilirdi və xilas edilməli idi. Lakin əsas təzyiq və əsas hücum İslam ümmətinə yönələn tarixi hücumdan ibarət idi. Dünyanın ən həssas coğrafi nöqtələrinin birində yerləşən böyük İslam ümməti böyük güclərin müdaxiləsi, qüdrətli dövlətlərin tamahkarlığı və hegemonluğun təcavüzü nəticəsində bir neçə əsr zəifliyə, geriliyə, müstəmləkəyə, maddi və elmi yoxsulluğa düçar olmuşdu. İslam inqilabının baxışı İslam dünyasına yönəlmişdi, hegemonluğun zalım və təcavüzkar əlinin İslam ümməti üzərindən götürülməsini istəyirdi. Buna görə İranda inqilab qələbə çalanda dünyanın şərqində və qərbində yaşayan bütün müsəlman xalqlar həyatlarına yeni mehin əsib havanı dəyişdirdiyini hiss etdilər, qurtuluş ətri duydular. Odur ki, İslam inqilabının qələbəsi və İslam quruluşunun yaranması ilə Afrikada, Asiyada və digər bölgələrdə yaşayan müsəlmanlar öz qarşılarında yeni yolun açıldığını duydular. Biz bunu imamdan öyrəndik və İslam Respublikası quruluşunun bu aydın xətti bu günədək davam etmişdir.

Böyük işin bir hissəsi sizin görməkdə olduğunuz işdir. Siz əsl xilaskar İslam təlimləri ilə tanış olmaq üçün yüzə yaxın ölkədən buraya toplaşmısınız. Məqsəd bu deyil ki, biz inqilabı siyasi ənənələrdə və siyasi leksikonda başa düşülən formada bu və ya digər ölkəyə ixrac edək. İnqilabı siyasi yollarla ixrac etmək olmaz; iniqlabı hərbi və kəşfiyyat üsulları ilə yaymaq olmaz. Bu səhvdir. Biz əvvəldən bu yolu bağladıq.

İslam Respublikasının işi müsəlmanların kimlik hiss etməsi, İslam kimliyi duyması, bəşəriyyətin xilaskarı olan İslam təlimləri ilə tanış olması üçün uca İslam bilgilərinin yenidən istehsalıdır; bilsinlər ki,

Allah-Taala Peyğəmbəri "onların ağır yükünü yüngülləşdirən və üzərlərindəki buxovları açan"[1] göndərmişdir. İslam dini şirk dolu mühitlərdə insanların ayağına dolanmış bu zəncirləri acmaq istəyir. Bəs bu zəncirlər nədir? İslam ümməti qafillik səbəbindən uzun müddət bu həqiqətləri unutmuşdu. İslam ümməti azad ola, inkişaf edə, alim, əziz və iqtidarlı qala bilər. Bunlar İslam təlimləri sayəsində mümkündür. Hegemonluq və müstəmləkəçi təşkilatlar iki yüz il boyu bu məfhumları müsəlmanların yadından çıxarmağa çalışdılar, onların siyasi və iqtisadi mərkəzlərini və yerli mədəniyyətlərini istismar edib talamaq üçün onları öz kimliklərindən xəbərsiz etdilər. İnqilab İslam ümmətinə bunları xatırlatdı.

Qum Elm Hövzəsinin xarici tələbələri ilə görüşdəki çıxışdan: 2010.

[1] Əraf/157.

İslam Respublikası - bəşəriyyət üçün yeni layihə

İslam və İslam Respublikası bəşəriyyətə yeni yol açdı, xalqlara yeni bir hərəkət təqdim etdi, göstərdi ki, bir xalq güclü silahı və böyük maddi imkanları olmadan dünyanın ən quldur dövlətləri qarşısında müqavimət göstərib dayana, onların boyunduruğu altına girməyə, öz yolunu davam etdirə, ədalət, insaf və insaniyyət bayrağını ucalda bilər. Bu, müasir dünyada yeni bir şeydir. Bunu siz göstərdiniz.

19 Dey qiyamının ildönümündə Qum əhalisi ilə görüşdəki çıxışdan: 2011.

Həssas tarixi dönəmlərdə Qum əhalisinin ayıqlığı

Ölkə və inqilab düşmənləri siz Qum əhalisinə qarşı olduqca həssasdırlar. Bunlar Qumla, qumlu ilə, Qumun elm hövzəsi, gəncləri və xalqı ilə düşməndirlər. Nə üçün? Çünki Qumdan zərbə görmüşlər. Hegemonluq, antiislam və antiiran cəbhəsi Qumdan zərbə almışdır. Zərbə aldığı günlərdən biri bu 19 deydir. Qum əhalisi digərlərindən daha tez vəzifə hiss edib vəziyyəti tanıdı, məsuliyyət hiss etdi və meydana atıldı. Bunlar çox mühüm məsələlərdir; həm vəziyyəti tanımaq və ayıqlıq göstərmək mühümdür, həm vəzifə hiss etmək. İnsanın vəzifə hiss etməsi üçün iman və öhdəlik ruhu lazımdır. Bəziləri güclü hadisələri və düşmənin rolunu görürlər, amma vəzifə hiss etmir və tərpənmirlər. Bəziləri hətta düşmənin cəbhə açdığını da görürlər. Düşmən cəbhə açdıqda biz də məsuliyyət hiss etməliyik. Bu, öhdəliyin və imanın şərtidir. Bəzi adamlar isə bunu hiss etmirlər. Əziz İran xalqında mövcud olan bu ruhiyyə İslam hərəkatı ilə gücləndi, möhkəmləndi və inqilabda özünü göstərdi. Yerlər müxtəlif idi, qumlular isə öndə idilər. Onlar 19 deydə vəzifə hiss edib meydana çıxdılar. Meydan asan meydan deyildi, çətin idi; güllə ilə qarşılaşmaq idi; tağut rejiminin polis və təhlükəsizlik qüvvələrinin sərt cavabı idi. Onlar heç kimə rəhm etmirdilər. Amma qumlular meydana çıxdılar.

Bu ayıqlıq, bu məsuliyyət hissi və meydana atılmaq düşmənlərə möhkəm zərbə vurdu. Buna gözlənilmədən Təbrizdən cavab gəldi. O tərəfdən Yəzddə və digər şəhərlərdə fəryad ucaldı. Odur ki, bizim böyük imamımızın illər ərzində hazırlıq gördüyü bu möhtəşəm hərəkət baş verdi. Bu zərbədir. Düşmən zərbə görəndə kin bəsləyir və mübarizə aparır. Biz özümüzü dəyərləndirmək üçün fikirləşməliyik. Düşmən qarşımızda diş qıcayırsa, bilməliyik ki, imkanlarımız yüksəkdir və düşmənə zərbə vura bilirik.

19 Dey qiyamının ildönümündə Qum əhalisi ilə görüşdəki çıxışdan: 2011.

Allahın təqvalılara yardımı

Cümə namazında iştirak edən siz əziz qardaş və bacıların hamısını ilahi təqvaya çağırıram. Bu gün Əli ibn Musa Rzanın (ə) şəhadət günüdür. Qabaqkı günlərdə bizim xalqımız əziz və əzəmətli İslam Peyğəmbəri (s) həzrət Məhəmməd ibn Abdullahın (s) vəfatını və "böyük oğul" olan həzrət Müctəbanın (ə) şəhadətini qeyd etdi. Bu böyük müsibətlər, tarixin bu acı və dərdli hadisələri münasibəti ilə namazda iştirak edən siz möminlərə, bütün İran xalqına və bütün dünya müsəlmanlarına başsağlığı verirəm. Allah-Taala Öz Peyğəmbərinə (s) buyurur: "Ey Peyğəmbər! Allahdan çəkin və təqvalı ol". Təqva və onun zəruriliyi hətta müqəddəs peyğəmbərə də xatırladılır. Allahı yaddan çıxarmayaq, öz əməllərimizdən, rəftarımızdan, sözümüzdən, hətta düşüncə və təsəvvürlərimizdən ehtiyatlı olaq. Təqvanın mənası budur. Əgər bu baş versə, bütün bağlı yollar açılacaq və Allah-Taala bütün mərhələlərdə təqvalı xalqa yardım edəcək.

Tehranın cümə namazı xütbələrindən: 2011.

İslam ümməti arasında ixtilaf yaratmaq üçün hegemonların planı

Mənim inqilabımız barədə, İran xalqının bizim üçün bu ibrətli və əzəmətli hadisəsi haqda demək istədiyim əvvəla dünya hadisələrinin təsvirinə aiddir. Görək hegemonlar, müstəmləkəçi və hakim qüvvələr nə istəyirdilər və nə oldu; hansı məqsədi güdürdülər və nəticədə nə baş verdi. Bundan sonra inqilabın bizim dövrümüzə aid olan iki xüsusiyyətini qeyd edəcəyəm.

Mövcud vəziyyətə, onun dünyanın hegemon və quldurlarının istədiyi ilə müqayisəsinə aid olan birinci hissədə deyirəm: Birinci və İkinci dünya müharibələrinin əsasən bir neçə Avropa ölkəsindən və Amerikadan ibarət olan qalibləri mühüm region olan Orta Şərq üçün bir siyasət planladılar. Çünki bu region həm strateji mövqe baxımından əhəmiyyətli olub Asiya, Avropa və Afrikanın kəsişdiyi nöqtədə yerləşirdi, həm dünyanın ən böyük neft anbarlarına sahib idi və neft dünyaya hakim olan bütün burjua gücləri üçün həyati əhəmiyyət daşıyırdı, həm də burada qədim, köklü və tarixi keçmişi olan xalqlar yaşayırdılar. Odur ki, bu region üçün bir siyasət planladılar. O siyasət bu regionda yerləşən ölkələrin və siyasi vahidlərin aşağıdakı xüsusiyyətlərə malik olmasından ibarət idi:

Əvvəla, zəif olsunlar; ikincisi, bir-birinə düşmən və müxalif olsunlar, razılaşa və birlik yarada bilməsinlər - gördünüz ki, uzun illər ərəb, türk və iranlı nasionalizmi deyilən faktorlar gücləndirildi; üçüncüsü, hökumət başçıları muzdur, müti və Qərb dövlətlərinin boyunduruğu altında olsunlar, sözə qulaq assınlar; dördüncüsü, iqtisadi baxımdan istehlakçı olsunlar, yəni təxminən müftə qiymətə satdıqları neftin pulunu yenidən idxalata və istehlaka xərcləsinlər və Qərb zavodları rövnəqlənsin; beşincisi, elmi baxımdan geridə qalsınlar, elmdə inkişaf etmələrinə imkan verilməsin. Mən başlıqları qeyd etdim. Bunların hər birinin həqiqətən bir kitab izahı var. Onlar bizim İranımızda və digər ölkələrdə elmin inkişafının qarşısını aldılar. Məqsəd

bu idi ki, region xalqları mədəni baxımdan avropalıların sırf təqlidçisi, hərbi baxımdan xar və zəif, əxlaqi baxımdan pozğun və müxtəlif əxlaq problemləri içərisində, dini baxımdan tamamilə dayaz, fərdi dindarlığa qane olan və bəzən formal məzhəbçi olsunlar. Onlar bu region haqda özlərinə belə bir plan cızdılar, siyasət təyin etdilər. Bəlkə də qərbli strateqlər minlərlə saat oturub bu məsələlər üzərində araşdırma apardılar, fikirləşdilər, proqram hazırladılar, bu region ölkələrindəki adamlarını müəyyən etdilər və onların vasitəsi ilə işlər gördülər. Bu təhlillə Rza xanın rəftarını düzgün anlamaq olar, Məhəmmədrzanın işlərini, Türkiyədə Mustafa Kamalın və digərlərinin işlərini anlamaq olar. Onların planı bu idi. Onlar yuxarıda sadalanan məqsədlərini uğurla həyata keçirdilər. Bəzi qısa dönəmlərdə bunların bəzisini çıxmaq şərtilə İslam inqilabının qələbəsinə qədər işləri həmişə uğurlu oldu. Yalnız bəzi qısa dönəmlərdə, məsələn Misirdə bir neçə il sürən bir milli hökumət quruldu; İranda və digər yerlərdə də buna bənzər işlər baş verdi, lakin ümumi götürsək, inqilaba qədər onlar bütün bu sahələrdə məqsədlərinə nail oldular.

Tehranın cümə namazı xütbələrindən: 2011.

İslam inqilabı və hegemon qüvvələrin planlarının pozulması

Amma gözlənilmədən böyük bir hadisə və möhtəşəm partlayış baş verdi, bütün planlar pozuldu, İranda İmam Xomeyni adlı dəyərli alim, filosof, fəqih, mücahid, riskdən qorxmayan, nüfuzlu və şücaətli bir insan meydana çıxdı. Bu kişinin meydana çıxması, bu böyük insanın yetişməsi həqiqətən Allahın işi, ilahi lütf idi. İran xalqı da hazırlıqlı idi, onu yaxşı qarşıladı, qəbul etdi, təhlükələrdən çəkinmədi, meydana atıldı, canını, malını verdi, imtahandan keçdi və İslam inqilabı qələbə çaldı. İnqilabın qələbəsindən sonra bütün bu planlar pozuldu, proqnozlar səhv çıxdı. İranda İslam inqilabı qüdrətlə qələbə çaldı və qüdrətlə davam etdi. Yəni belə deyildi ki, birinci, ikinci və üçüncü illərdə coşqu yaransın və sonra hər şey bitsin. Xeyr! Bu inqilab davam etdi. Mən sonra onun davam etməsi haqda bir qədər danışacağam.

İmam və onun arxasında xalq möhkəm dağ kimi dayandılar. Düşmən bir deyildi, bütöv bir cəbhə idi. Bu cəbhə bacardığı qədər çalışdı, əllərindən gələn hər bir işi gördülər, küçə döyüşlərindən milli davalara, hərbi çevrilişə, səkkizillik müharibəyə, iqtisadi embarqolara və bu 32 il ərzində güclü psixoloji müharibəyə qədər hər şeyi etdilər. 32 ildir İran xalqının, inqilabın və imamın əleyhinə psixoloji müharibə aparılır: yalan danışırlar, böhtan atırlar, şayiə yayırlar, ixtilaf yaratmağa, daxili qüvvələri parçalamağa çalışırlar.

Tehranın cümə namazı xütbələrindən: 2011.

Müxtəlif təxribatlarda düşmənlərin məqsədləri

Onların qarşılarına qoyduqları məqsəd birinci növbədə inqilabın və İslam Respublikası quruluşunun süqutu və onu devirmək idi. İslam Respublikası quruluşunu devirmək mümkün olmadıqda sonrakı plan onu dəyişdirmək idi; yəni inqilabın forması qalsın, əsl həqiqətini və ruhunu isə itirsin. Bu sahədə çox çalışdılar. Onların tamaşaya qoyduqları son pyesləri 2009-cu il fitnəsi idi. Bu əslində bir cəhd idi. Daxildə bəziləri xudbinlik, vəzifə həvəsi və bu qəbildən olan digər təhlükəli mənəvi xəstəliklər səbəbindən bu təxribata qoşuldular. Mən dəfələrlə demişəm: səhnənin müəllifi və rejissoru bu sərhədlərdən kənardadır, daxildəkilərin bəziləri bilərəkdən, bəziləri də bilmədən onlarla əməkdaşlıq etdilər. Bu da ikinci məqsəd idi.

Üçüncü məqsəd budur ki, İslam quruluşu yaşayacağı təqdirdə ələ alınması mümkün olan zəif kadrlardan istifadə edib onları öz əsas tərəfdaşlarına çevirsinlər. Hər halda, elə bir quruluş yaransın və davam etsin ki, yetərli qüvvəsi olmasın, mütləq asılı, zəif və müti olsun, Amerikaya qarşı çıxmasın, onun önündə baş qaldırmasın. Məqsəd bunlardır.

Bu işlər və müxtəlif məqsədlər bu günə qədər iflasa uğramışdır, bu günə qədər bacarmamışlar. Düzdür, çox cəhd etmiş və müxtəlif işlər görmüşlər. Mən söhbət əsnasında bu işlərin bəzisinə toxunacağam. Onlar kifayət qədər səy göstərmiş, lakin bacara bilməmişlər. Çünki xalq ayıq olmuşdur. Bizim cəmiyyətimizdə yaxşı aparıcı adamlar var, yaxşı xalqımız, məmurlarımız var. Allaha şükür olsun ki, bu günə qədər düşmən öz məqsədlərinə çata bilməmiş, inqilab öz yolunu davam etdirmiş və irəliləmişdir.

Tehranın cümə namazı xütbələrindən: 2011.

Ölkədə baş verən dəyişikliklərdə İslam inqilabının mühüm təsirləri

Bəs inqilabda nə baş verdi? Baxın, bunlar mühüm məsələlərdir. İranda baş verən bu inqilab çox mühüm və əsaslı dəyişikliklər yaratdı. Bu dəyişikliklərə əsaslanaraq cəmiyyəti inkişaf etdirmək və böyük yeniliklər yaratmaq olar. Əsas təməllər möhkəmdir.

Mən baş verən bu dəyişikliklərin bir neçəsini deyəcəyəm. Təbii ki, hamınız və hamımız bunları bilirik, bunlar bizim gözlərimiz önündə baş vermişdir. Lakin Allah-Taala da Quranda bizim diqqətimizi günəşə yönəldir: "And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta)!" Günəş bizim gözümüzün önündədir, amma ona and içir ki, biz onun nə qədər əzəmətli olduğuna diqqət yetirək. Biz də öz ətrafımızdakı bu əzəmətli məsələlərə diqqət yetirməliyik. Bunları demək bu baxımdan vacibdir.

Əvvəla, inqilabdan öncə ölkəyə hakim rejim çox islamofob bir rejim idi. Onlar zahiri işlərlə çox da maraqlanmırdılar, amma xalqın İslam inancının köklərini həqiqətən kəsmək istəyirdilər. Bu barədə mənim yaddaşımda çoxlu misallar, faktlar və xatirələr var, amma indi deməyə vaxt yoxdur. İnqilab həmin vəziyyətin düz 180 dərəcə əksinə olaraq, İslamı ölkə idarəçiliyində əsas faktora çevirdi, İslamın hökm və qanunları ölkə qanunlarında, eləcə də icra orqanının rəftarında meyar seçildi.

Tehranın cümə namazı xütbələrindən: 2011.

Demokratiyanın şah üsul-idarəsinə zidd olması

İnqilabdan öncə ölkə siyasi baxımdan asılı idi, yəni hökumət - istər Məhəmmədrzanın özü, istər müxtəlif orqanlar Amerikaya tabe idilər, onun icazəsini gözləyirdilər. Buna dair çoxlu faktlar var. Doktor Əmini İranda Baş nazir olmaqdan ötrü qalxıb Amerikaya getdi, amerikalıları razı saldı və gələndən sonra Baş nazir oldu. Şah buna razı deyildi, bir-iki ildən sonra o da qalxıb Amerikaya getdi, onu vəzifəsindən kənarlaşdırmaq üçün amerikalılardan icazə aldı və gəlib işdən çıxardı. Bizim məmləkətimiz bu vəziyyətdə idi. Baş nazir seçmək üçün məmələkətin şahı, ölkənin başçısı Amerikanın razılığını almalı idi. Bir çox məsələlərdə şah Amerika və İngiltərənin səfirlərini sarayına dəvət edir və görmək istədiyi işi onlarla müzakirə edirdi. Əgər onlar müxalif olsaydılar, həmin işi görməzdi. Siyasi asılılıq budur. Onlar Amerikaya, ondan öncə isə İngiltərəyə tabe idilər. Rza xanı ingilislər özləri hakimiyyətə gətirdilər, sonra işlərinə yaramadığını görüb özləri də hakimiyyətdən kənarlaşdırdılar, ölkədən çıxardılar, oğlunu gətirdilər. İnqilabdan qabaq belə idi.

İnqilab gəlib ölkəyə tam siyasi müstəqillik verdi. Bu gün bu böyük dünyada, bu böyük güclər arasında elə bir güc yoxdur ki, öz istək və iradəsinin İranın məmurlarının, yaxud xalqının iradəsinə azca təsir etdiyini iddia edə bilsin. Bu məsələ - yəni müqavimət, müstəqillik və siyasi iqtidar xalqlar tərəfindən xüsusi şəkildə sevilir. Digər xalqların böyük İran xalqına hörmətinin əsas səbəbi onun siyasi müstəqilliyidir.

İnqilabdan öncə şah üsul-idarəsi hakim idi. Bunun əksi demokratiyadır. Şah üsul-idarəsində xalqın heç bir siyasi rolu olmur, demokratiyada isə söz sahibi xalqdır. İnqilabdan öncə hakimiyyət sülalə hakimiyyəti idi; biri öləndə öz yerinə canişin təyin edirdi və xalqın heç bir rolu olmurdu; istəsəydilər də, istəməsəydilər də, qəbul etməyə məcbur idilər. İslam Respublikasında isə inqilabın sayəsində hökumət seçki ilə müəyyənləşir, xalq seçir, onun iradə və istəyi təyinedicidir.

İnqilabdan öncə ölkəyə sərt diktatura hakim idi. Mənim yadımdadır, bizim dostlarımızdan biri Pakistandan qaçaq yolla Məşhədə mənim yanıma gəlmişdi. O danışanda dedi ki, biz filan elanı parkda dostlarımızla oxuyurduq. Mən təəccüb etdim ki, məgər parkda elan oxumaq mümkündür? Biz əsla təsəvvür etmirdik ki, kiminsə cibində hakimiyyəti bir qədər tənqid edən bir elan olsun və küçədə yol yeriyə bilsin. Ozamankı təhlükəsizlik qurumlarının nəzarəti bu həddə idi. İnqilab gəlib azad tənqid, islahat, müzakirə və hətta müxalifət və etiraz şəraiti yaratdı. Bu 32 il ərzində, hətta inqilabın ilk illərində də belə olmuşdur.

İnqilabdan öncə ölkənin elm və texnologiyası tamamilə Qərbə bağlı idi. Dəfələrlə demişəm: bizim hərbi təyyarəmizin bir ehtiyat hissəsi xarab olanda, yeyiləndə, təmirə ehtiyacı olanda Hərbi Hava Qüvvələrinin yerli mühəndislərinin nəinki onu düzəltmələrinə, heç açıb baxmalarına belə icazə vermirdilər. Həmin hissəni təyyarəyə qoyub Amerikaya aparır və əvəzinə başqasını gətirirdilər. Əgər təmir lazım olsaydı da, orada təmir edirdilər. Mövcud sənaye tamamilə montaj sənaye idi, heç bir yaradıcılıq yox idi. İnqilabdan sonra isə elmi və milli özünəinam yarandı, müxtəlif fənlərdə bu qədər dəyərli və böyük alimlər meydana çıxdı. Bu gün ölkə daxilində elə alimlərimiz var ki, bütün dünyada onların misli azdır. Bizim alimlərimiz inkişaf etmişlər və əksəri də gənclərdən ibarətdir.

İnqilabdan öncə İranın dünya və hətta region məsələlərinə heç bir təsiri yox idi, təhqir olunmuş bir ölkə idi, hadisələrə heç bir təsir göstərə bilmirdi. İnqilabdan sonra bu xalqın dünyadakı hörmət və əzəməti, regionda baş verən hadisələrə təsiri düşmənləri heyrətə saldı, onlar etiraf etməyə məcbur oldular. Siz bu gün baxın, xarici xəbərlərin verildiyi saytlarda həmişə İranın nüfuzundan, təsirindən və region hadisələrindəki rolundan danışır, qərəzli formada olsa da, bunu etiraf edirlər.

İnqilabdan öncə mədəni sahələrdə sırf təqlidçi idik, amma inqilabdan sonra mədəni hücum bir təhlükə kimi tanındı. Bu qəbildən olan başlıqlar çoxdur, bunlar əsaslarıdır.

Bir ölkədə bu təməllər qoyulduqda xalq həmin təməllər üzərində yeni və möhtəşəm bir sivilizasiya qurmağa ümid bəsləyə bilər. Bu xüsusiyyətlərin hər biri bir formada xalqların diqqətini cəlb edir. Digər xalqlar baxır, görür, sevir və alqışlayırlar. Əlbəttə, hamısından əhəmiyyətlisi düşmənlərin, hegemonluğun qarşısında siyasi müstəqillik və duruş gətirmək məsələsidir.

Mən qərbli bir rəsmidən bir cümlə demək istəyirəm. Mən adətən qərbli siyasətçilərdən və məşhurlardan sitat gətirmirəm, amma bu, maraqlı cümlədir. O deyir ki, iki şey müsəlmanlar tərəfindən yaxşı tanınsa, müsəlman xalqlar bu iki şeydən xəbərdar olsalar, Qərbin bütün tabuları - qəti prinsipləri dağılıb məhv olacaq. Bu iki şey nədir? Bu qərbli mütəfəkkir deyir ki, biri İslam Respublikasının konstitusiyasıdır. Bu konstitusiya dünya müsəlmanlarına mütərəqqi və eyni zamanda dini bir xalq hakimiyyətinin mümkünlüyünü isbat edir. Bu konstitusiya göstərir ki, həm modern və mütərəqqi, həm də tam dini bir hökumət qurmaq olar. Konstitusiya bunu təsvir edir, bunun mümkünlüyünü göstərir. Biri budur. İkincisi isə İslam Respublikasının elmi, iqtisadi, siyasi və hərbi nailiyyətləridir. Əgər müsəlmanlar bunu bilsələr, görərlər ki, həmin mümkün iş həyata keçmiş və baş vermişdir. O deyir ki, müsəlman xalqlar bu gün müsəlman İranda nisbətən həyata keçmiş bu mümkün məsələdən, onun nisbi reallaşmasından xəbərdar olsalar, belə quruluş yaratmağa can atacaqlar və daha inqilabların önünü kəsmək mümkün olmayacaq.

Bu gün bu baş vermişdir. Əlbəttə, bu hadisə bu gün baş verməmişdir, 30 ildir xalqların beyninə yavaş-yavaş və tədricən hopur, inkişaf edir, püxtələşir. Bu gün isə Şimali Afrikada və digər yerlərdə bəlli formada təzahür etməkdədir.

Tehranın cümə namazı xütbələrindən: 2011.

Qərbin siyasi səhvlərinin İranın inkişafına fürsət olması

Qərblilərin özlərinin də siyasi səhvləri olmuşdur. Bu siyasi səhvlər İslam Respublikasına kömək etmişdir. Baxın, bu nüvə məsələsində qərblilər səhv etdilər. İranın nüvə işinə qarşı çıxmaq üçün onu böyütdülər, ajiotaj yaratdılar, İslam Respublikasını geri oturtmaq üçün təzyiq göstərdilər. Onlar yeddi ildir çalışırlar. Bu yeddi il ərzində dünya xalqına iki şey aydın oldu: biri budur ki, İran nüvə sahəsində gözlənilməz inkişaflara nail ola bilmişdir; ikincisi budur ki, İran bütün təzyiqlərə baxmayaraq duruş gətirir və geri çəkilmir. Bunlar İran xalqının xeyrinədir. İndi bütün dünya bilir ki, Amerika, Avropa, onların müttəfiqləri və muzdurları göstərdikləri bütün təzyiqlərə rəğmən, İslam Respublikasına üstün gəlib onu geri çəkilməyə vadar edə bilməmişlər. Bu, İran xalqının düşmənlərinin vasitəsi ilə məlum oldu və onlar İran xalqının tanınmasına kömək etdilər.

Digər hadisələrdə də belədir. Səs-küy saldılar ki, benzinə embarqo qoyacağıq və benzin idxal olunmayacaq. Bəli, biz benzin idxal edirdik və edirik. Dedilər ki, benzinin idxalının qarşısını almaq istəyirik. Ajiotaj və qalmaqal yaratdılar, analitikləri proqnoz verib dedilər ki, ölkə qarışacaq, xalq filan edəcək. Bu, ölkə məmurlarının daha çox benzin istehsalı haqda düşünməsinə səbəb oldu. Bu gün məndə olan məlumata əsasən, ölkə Allahın köməyi ilə bəhmənin 22-ə (11 fevrala) qədər benzin idxalına tamamən son qoyacaq. Mənə verilən məlumata görə, hətta ondan sonra benzinin ixracına başlanacaq. Deməli, onların bu ajiotajı İran xalqının xeyrinə bitdi. Beynəlxalq müşahidəçilər də bunu gördülər. Bütün məsələlərdə belədir. Müharibə zamanı silah embarqosunda belə oldu, paralel və ifratçı İslam cərəyanı yaratmaqda da belə oldu. İslam Respublikasının kökünə balta vurmaq üçün gəlib bizim qonşuluğumuzda bir ifratçı İslam cərəyanı yaratdılar. İndi isə öz canlarının bəlasına çevrilib, qarşısını ala bilmir və çıxış yolu tapmırlar. Məzhəb ixtilafları yaratmaqda da belə oldu, 2009-cu il fitnəsində də belə

oldu. Ajiotaj yaratdılar, səs-küy saldılar, dedilər ki, İslam Respublikası bitdi və sair. Sonra baxıb gördülər ki, İran xalqı qələbə çaldı. Ötən ilin 9 deyi (30 dekabrı) və bu ilin 22 bəhməni (11 fevralı) sözün həqiqi mənasında Allah günlərindən idi. Ürəklər Allahın əlindədir, Allah-Taala onları meydana çıxardı və İran xalqı öz əzəmətini göstərdi. Nə edirlərsə, ziyanlarına bitir. Bundan sonra da belə olacaq. Bu, hazırkı dünyanın reallığıdır; nə istəyirdilər, amma nə oldu.

Tehranın cümə namazı xütbələrindən: 2011.

Prinsiplər üzərində dayanmaq - İslam inqilabının örnək olmasının səbəbkarı

İndi isə qeyd etdiyim ikinci hissəyə keçirəm. Hər bir məsələnin əhəmiyyət və uğurunu təyin etmək üçün onun nə qədər örnək və nümunə olduğuna, nə qədər duruş gətirdiyinə, nə qədər möhkəm dayandığına və öz sözünün üstündə durduğuna baxmalıyıq. İnqilablar da belədir. Əgər bir inqilab digərlərinin beyninə və əməlinə təsir göstərmək, onlara örnək olmaq istəsə, bəzi xüsusiyyətlərə malik olmalıdır. Bu xüsusiyyətlərin ən mühümü sözügedən möhkəmlik, müqavimət və duruş gətirməkdir. Əgər bunlar olsa, inqilab digərlərinə örnək olacaq, əks təqdirdə, çox da örnək ola və digərlərini öz ardıcıllığına həvəsləndirə bilməyəcək. Bizim inqilabımız belə olmuşdur. Bizim inqilabımız ilham mənbəyi və örnək ola bilmişdir. Bu, inqilabın möhkəmliyinə, müqavimətinə, imam tərəfindən elan olunan əsas prinsip və təməlləri üzərində duruş gətirdiyinə görədir.

Bu inqilab duruş gətirdi. Mən bu barədə də bir neçə nümunə göstərəcəyəm. Bir nümunə İslam quruluşunun yaranmasıdır. İmam əvvəldən bizim inqilabımızın İslam inqilabı olmasını və İslama əsaslanmasını deyəndə dünyada hay-küy qopdu, dedilər ki, İslam demokratiya ilə uyğun gəlmir, quruluşun İslam quruluşu olması mürtəcelikdir, gerilikdir, İslam hökmləri icra olunası deyil və sair və ilaxir. Bəziləri də ölkə daxilində onların sözünü təkrarladılar, İslam Respublikasını İslama sadiqlikdən çəkindirmək üçün kitab yazdılar, məqalə yazdılar, şayiə yaydılar. İslam Respublikası isə möhkəm dayandı və onlara təslim olmadı. Bəli, biz islamçıyıq, bununla fəxr edir və bəşərin xilasının bu yolda olmasını sübut edirik. İslam Respublikası bunu uca səslə bütün dünyaya elan etdi.

Bu gün 32 il ötəndən sonra bizim cəmiyyətimizə baxın, rəftarlar ilk gündən daha islamlaşmasa da, ən azı inqilabın birinci günü kimidir. İmamı görməyən, müharibəni görməyən, inqilabı xatırlamayan

gənclərin İslam əsaslarına sadiqliyi bizim kimi bəzi qocalardan da yaxşıdır, güclüdür. Ölkənin məmurları islamçı olmaları ilə fəxr edirlər. Əlbəttə, bu 32 il boyu çox cəhd edildi, hətta icra aparatı daxilində bəzi şəxslər yolları ziqzaq formasına salıb tədricən uzaqlaşdırmağa, yayındırmağa çalışdılar, amma bacarmadılar və İslam Respublikası özünün İslam əsaslarına sadiq qaldı. Bu bir nümunə.

Başqa bir nümunə demokratiya məsələsidir. İmam əvvəldən dedi ki, istər İslam Respublikasını seçməkdə, istər konstitusiyada, istər Dini Ekspertlər Məclisində qəbul olunan qanunun qəbulunda, istər prezident seçkilərində, istərsə də parlament seçkilərində xalq öz fikrini bildirməlidir. İmam möhkəm dayandı. Baxın, inqilabdan 32 il ötür, referendumları da hesablasaq, biz xalq olaraq 32 dəfə səhnəyə çıxmışıq. Yəni xalq orta hesabla ildə bir dəfə seçki məntəqələrinə gedib səs verib. Xalqın seçkilərdə iştirakı çox mühüm məsələdir. Müharibə dövründə Tehran bombalar altında idi, amma seçkilər tətil olmadı. Müharibə zamanı Səddam rejiminin raket zərbələrinə məruz qalan şəhərlərdə seçkilər tətil edilmədi. Bir dəfə parlament siyasi dəlilə əsaslanıb təzyiq göstərdi ki, seçkiləri təxirə salsın, amma bacarmadı. Bu günə qədər İslam Respublikasının seçkiləri bir gün də təxirə düşməmişdir. Bu demokratiyadır. Birinci gün imam dedi və İslam Respublikası bu demokratiyanın üstündə durdu, ondan əl çəkmədi. Bu gün rəhbəri təyin etmək və vəzifəsindən kənarlaşdırmaq səlahiyyətlərinə malik olan Dini Ekspertlər Məclisindən tutmuş prezidentə, parlamentə, bələdiyyələrə qədər bütün məmurlar xalq tərəfindən seçilirlər. Bu müddətdə müxtəlif cinahlar hakimiyyətə gəlmişlər. Belə deyil ki, həmişə bir cinah seçilsin. Xeyr! Əvvəldən bu günə qədər bir neçə prezident seçilib, onların hər biri bir formada, bir istiqamətdə və bir siyasi kursa malik olmuş, lakin hamısı xalqın səsi ilə seçilmişdir.

Sonrakı nümunə ictimai ədalət məsələsidir. İmam bunu əvvəldən elan etdi. İctimai ədalət bu işlərin hamısından çətindir. Bunu mən sizə deyirəm. İctimai ədalət İslam Respublikasında görülən digər işlərdən və demokratiyanı qorumaqdan daha çətin və çox ağır işdir. Mən demirəm

ki, biz bu günə qədər ictimai ədaləti tam bərqərar edə bilmişik. Xeyr! Hələ görülməli işlər çoxdur. İslamın bizdən istədiyi ədalət bu gün bizim cəmiyyətimizdə olanla çox fərqlidir. Amma məsələ burasındadır ki, ictimai ədalətə doğru hərəkət dayanmamış, davam etmiş və günbəgün güclənmişdir. Bu gün ictimai ədalətə doğru hərəkət ötən illərdən də artıqdır, qabaqkı dövrlərdən də. İctimai ədalətin mühüm nümunələrindən biri ölkə imkanlarının düzgün bölgüsüdür. İctimai ədalətdən uzaq quruluşlarda xüsusi bir təbəqəyə, ölkənin xüsusi bölgələrinə diqqət yetirilir, amma İslam Respublikasında 32 il öncədən bu günə qədər irəlilədikcə düzgün bölgünün gücləndiyini görürük. Kəndlər diqqət mərkəzindədir, ucqar şəhərlər diqqət mərkəzindədir, kəndlərdə bu qədər evlər tikilir, ölkənin uzaq şəhərlərinə və kəndlərə yollar çəkilir; müxtəlif rabitə vasitələri, elektrik enerjisi, içməli su, telefon, məişət imkanları - bunlar bütün ölkəyə bölünmüşdür.

İndi ölkənin məmurları müxtəlif vilayətlərə, şəhərlərə səfərlər edirlər. Bəzi ucqar şəhərlərin əhalisi heç zaman təsəvvür etməzdilər ki, ikinci dərəcəli bir məmuru görə bilsinlər. İndi isə ölkənin yüksək çinli məmurları onların yanına gedirlər. Bunlar çox əhəmiyyətli və dəyərlidir. İnsan gedib problemləri görəndə onları aradan qaldırmağa həvəs yaranır və bu, ictimai ədalətin yaranmasına bais olur. Biz ictimai ədalətə doğru gedirik.

İnsan dünyada dövlət məmurlarının zadəgan həyat tərzi keçirdiyini görür. Hakimiyyətə gəlib prezident olan, yaxud başqa yüksək vəzifəyə yiyələnən şəxsin həyatı sanki birdən-birə dəyişir. Bizim ölkəmizdə isə belə deyil. Əlbəttə, mənim kimilər məişət səviyyələrini cəmiyyətin ən zəif təbəqələri ilə uyğunlaşdırmalıdırlar. Biz bunu bacarmadıq, bu səadət bizə nəsib olmadı, amma cəmiyyətin məmurlarının, dövlət məmurlarının həyatı Allaha şükür olsun ki, xalqın orta səviyyəsi, bəzən isə ortadan da aşağı səviyyələri kimidir. Bunlar çox dəyərlidir.

Ədalət səhmləri məsələsi, kəndlərdə evlərin tikilməsi, subsidiyaların məqsədyönlü paylanması böyük işlərdir. Əgər ölkə

məmurları bunu yaxşı icra edə bilsələr, çox mühüm nailiyyət olacaq. Dövlət elektrik enerjisinə görə bütün xalqa subsidiya verirdi. Evində çilçıraq yandıran və daha çox elektrik enerjisi sərf edən hara, yalnız bir-iki lampa yandıran hara! Daha varlı olan bu subsidiyadan daha çox istifadə edirdi. Bu ədalətsizliyin qarşısını almaq istəyirlər. Çörək məsələsində, benzin məsələsində və digər məsələlərdə də belədir. Biz möhkəm dayandıq. Quruluş ictimai ədalət şüarı üzərində möhkəm dayandı.

Sonrakı məsələ hegemonluqla mübarizə və təzyiqlərə təslim olmamaqdır. Bu sahədə də möhkəm dayandıq. Bu iş çətin idi, amma İslam Respublikası bu çətin işi uğurla görə bildi. İnqilabın əvvəllərində çoxları deyirdilər ki, inqilab qələbə çaldı, daha bəsdir, gedək amerikalılarla problemlərimizi həll edək. Bu isə inqilabın zülmlə mübarizə şüarının sıradan çıxması demək idi. Buna həvəsləndirirdilər, zaman-zaman bunu istəyən şəxslər tapılırdı. Belələri deyirdilər ki, gedək Amerika ilə yoldaş olaq, bizim əsas düşmənimizin qanadı altına girək, ona sığınaq. Bu sözün mənası Fələstini satmaq, Amerikanın İraqda, Əfqanıstanda və digər yerlərdə törətdiyi cinayətlərə, dünya xalqlarına rəva gördüyü bütün bu zülmlərə göz yummaqdır. Bu sözün mənası odur ki, bu məsələlərə etirazımızı bildirməyək. Münasibətləri düzəltməyin mənası budur ki, İran xalqı və məmurları daha açıq şəkildə etiraz edib sözlərini deyə bilməsinlər, müəyyən vaxtdan sonra isə tədricən onların sözünü qəbul etməyə məcbur olsunlar. Bəli, bu duruş və müqavimət çətin, amma faydalı idi; ilahi rəhməti də cəbl etdi, xalqların diqqətini də. Bu 32 ildə siz İran xalqının inqilabın əsas şüarları üzərində dayanması bu gün İslam dünyasının sizə əzəmətlə baxması kimi böyük faydanı ərməğan etmişdir. Sizin ölkənizin məmurları müxtəlif ölkələrə səfər edəndə izdihamla qarşılanırlar. Siyasi şəxsiyyətlərin nə qədər sevilməsini hesablayanda sizin ölkənizin məmurları birinci sırada dururlar. İran xalqı digər xalqlara örnək olmuşdur. Bu gün onun əlamətlərini müşahidə edirsiniz. Bu böyük fayda və xüsusiyyət zaman ötmədən bəlli olmur.

Bu gün Misirdə sizin fəryadınızın əks-sədası eşidilir. Bizim inqilabımızın baş verdiyi zaman Amerikada prezident olan şəxs bir neçə gün öncə müsahibədə deyib ki, Misirdə eşidilən bu səslər mənə tanışdır. Yəni bu gün Qahirədə eşidilən səslər onun prezidentlik dövründə Tehranda eşidilirdi. Dünya bunları görür, mühakimə yürüdür. Odur ki, bu il bizim Şəfəq ongünlüyümüz mühüm, həssas və həyəcanlı olacaq. İnşallah sizin vasitənizlə 22 Bəhmən yürüşü də bütün bu nailiyyətlərə əlavə olunacaq.

Tehranın cümə namazı xütbələrindən: 2011.